İnstitutun "Elmi əsərlər"i 1934-cü ildən nəşr edlir.
"Scientific works" of the institute have been published since 1934.
«Научные труды» института издаются с 1934 года.

İnstitut üzrə 150 nömrəli əmri diqqət mərkəzinə gətirək:
We bring to the attention Order No. 150 of the Institute:
Доводим до сведения приказ № 150 института:



Приказ №150
От 17/I-34 г.
Временно утвердить редакционной Коллегии Аз.НИИПП в составе ответ. редактора т. Мамедова Гулам / Директора ин-та/ секретаря т. Малахалбузева и членов т. Араслы.
Тов. Малахалбузеву 19/I к 1 часу дня представить план выпуска научных трудов Института.
Директор Ин-та :

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

https://doi.org/10.69682/arti.2025.92.5
https://archive.org/details/scientific-works.-volume-92-no-3-2025 – Internet Archive
https://journals.indexcopernicus.com/search/details?id=122986 – Index Copernicus
https://journalseeker.researchbib.com/view/issn/2409-8817 – Researchbib
https://www.slideshare.net/slideshow/scientific-works-volume-92-3-2025-pdf/280916086– SlideShare
https://www.calameo.com/read/007335995731e850898b1 – Calameo

ISSN 2409-8817
E-ISSN 3078-2813
DOI: 10.69682

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

cild 92, № 5, 2025

НАУЧНЫЕ ТРУДЫ

том 92, № 5, 2025

SCIENTIFIC WORKS

volume 92, № 5, 2025

“Elmi əsərlər” 1934-cü ildən çıxır
İldə 6 nömrə nəşr olunur
Redaksiyanın ünvanı:
Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 96
Tel: 493-96-21, 493-30-06

Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi şurasının iclasının qərarı ilə nəşr edilir.

Təsisçi: Azərbaycan Respublikasının Təhsil İnstitutu
"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin
11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir.

Baş redaktor:
Akif Abbasov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
Hümeyir Əhmədov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
İlham Cavadov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Məsul katib:
İradə Əmirəliyeva – *pedaqogika üzrə fəlsəfə doktoru*

Redaksiya heyəti: **Emin Əmrullayev**, **Elnur Əliyev**, kimya ü.f.d., **Rüfət Əzizov**, siyasi.elm.ü.f.d. **Anar Nağıyev**, ped.ü.f.d., dos. **Ənvər Abbasov**, ped.e.d., prof. **Vidadi Xəlilov**, ped.e. d., prof. **Fərahim Sadıqov**, ped.e.d., prof. **Hikmət Əlizadə**, psixol.e.d., prof. **Ramiz Əliyev**, ped.e.d., prof. **İntiqam Cəbrayılov**, ped.e.d. **Piralı Əliyev**, ped.e.d., prof. **Mübariz Əmirov**, ped.e.d., prof. **Novruz Musayev**

Redaksiya Şurası:
B.H. Əliyev (AMEA-nın müxbir üzvü, psixol. e.d., prof., Azərbaycan)
A.N. Rəhimov (Bakı Qızlar Universitetinin təsisçisi, ped.e.d., prof., Azərbaycan)
A.K. Kusainov (Kazaxıstan Pedaqoji Elmlər Akademiyasının prezidenti, ped.e.d., prof., Almatı)
O.M. Topuzov (Ukrayna Milli Pedaqoji Elmlər Akademiyasının vitse-prezidenti, Pedaqogika İnstitutunun direktoru, ped.e.d., prof., Kiyev)
İ.X. Karimova (Tacikistan Təhsil Akademiyasının vitse-prezidenti, ped.e.d., prof., Düşənbə)
V. Briller (Kolumbiya Universitetinin Ali təhsilin sektor təhlili üzrə icraçı direktoru, Dr., prof. (Nyu-York)
S.P. Lomov (Moskva DPU-nun kafedra müdiri, RTA-nın akademiki, ped.elm.dok., prof., Moskva)
Y.P.Zinçenko (Moskva Dövlət Universitetinin psixologiya fakültəsinin dekanı, psixologiya elmləri doktoru, professor, Moskva)
Ə.Ə. Şahin (Hacettepe Universitetinin professoru, Türkiyə)
Y. Romanenko (dövlət idarəetmə elmləri doktoru, professor, Ukrayna)
A.S. Sidenko (Sosial İdarəetmə Akademiyasının aparıcı elmi işçisi, ped.e.d., prof., Moskva)
N.V. Naumova (Samara Humanitar Akademiyasının kafedra müdiri, psixol. ü.f.d., dosent, Samara)
Tran Mai Uos (Banking Universitetinin baş müəllimi, fəlsəfə doktoru, dosent, Vyetnam)

Redaksiya: Lalə Məmmədli, Dinarə Əsədova, Günel Quluzadə, Şükür Aslanov

© ARTİ, 2025

Published by the decision of the Academic Council of the Institute of Education of the Republic of Azerbaijan

Founder: Institute of Education of the Republic of Azerbaijan
The collection "Research Papers" was registered by order No. 23 of July 11, 2002 of Ministry of Justice of the Republic of Azerbaijan

"Research Papers" has been published since 1934.

Frequency of publication: 6 issues per year. "Research Papers" are included in the list of publications recommended by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan

Editor in Chief:
Akif Abbasov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Humeyir Ahmadov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Ilham Javadov – *doctor of philosophy in pedagogy, associate professor*

Executive Secretary:
Irada Amiraliyeva – *doctor of philosophy in pedagogy*

Editorial board: **Emin Amrullaev, Elnur Aliyev**, Ph.D. in chemistry **Rufat Azizov**, Ph.D. in political sciences **Anar Naghiyev**, Ph.D. in ped., assoc.prof. **Anvar Abbasov**, dok.of ped. sciences, prof. **Vidadi Khalilov**, dok.of ped. sciences, prof. **Farahim Sadigov**, dok.of ped. sciences, prof. **Hikmat Alizade**, dok.of psychol. sciences, prof. **Ramiz Aliyev**, dok.of ped. sciences, prof. **Intigam Jabrayilov**, dok.of ped.sciences **Pirali Aliyev**, dok.of ped. sciences, prof. **Mubariz Amirov**, dok.of ped.sciences, prof. **Novruz Musayev**

Editorial Council:
B.H. Aliyev (Corresponding Member of National Academy of Sciences of Azerbaijan, doc. of psychological sciences, prof., Azerbaijan)
A.N. Rahimov (founder of Baku University for Girls, doctor of ped. sciences, prof., Azerbaijan)
A.K. Kusainov (President of the Kazakhstan Academy of Pedagogical Sciences, doctor of ped. sciences, prof., Almaty)
O.M. Topuzov (Vice-President of the National Academy of Pedagogical Sciences of Ukraine, Director of the Institute of Pedagogy, doctor of ped. sciences, prof., Kiev)
I.Kh. Karimova (Vice-President of Academy of Education of Tajikistan, doctor of ped. sciences, prof., Dushanbe)
B.Briller (Executive director of Higher Education Sector Analysis at Columbia University, Dr. prof., New York)
S.P. Lomov (Head of the department of the Moscow Pedagogical State University, Academician of the Russian Academy of Education, doctor of ped. sciences, prof., Moscow)
Y.P. Zinchenko (Dean of the faculty of psychology at Moscow State University, Doctor of psychology, prof., Moscow)
A.A. Shahin (professor at Hacettepe University, Turkiye)
Y. Romanenko (doctor of sciences in public administration, professor, Ukraine)
A.S. Sidenko (Leading researcher of the Academy of Social Management, doctor of ped. sciences, prof., Moscow)
N.V. Naumova (Head of the department of the Samara Humanitarian Academy, doctor of philosophy in psychology, Samara)
Tran Mai Uoc (Senior lecturer, Banking University, PhD, associate professor, Vietnam)

© IERA, 2025

Публикуется решением Ученого Совета Института Образования Азербайджанской Республики

Учредитель: Институт Образования Азербайджанской Республики
Сборник «Научные труды» зарегистрирован приказом № 23 от 11 июля 2002 г. Министерства Юстиции Азербайджанской Республики

«Научные труды» издается с 1934 года.

Периодичность издания: 6 номеров в год.
«Научные труды» включены в список публикаций, рекомендованных решением Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики

Главный редактор:
Акиф Аббасов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Гумеир Ахмедов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Ильхам Джавадов – *доктор философии по педагогике, доцент*

Ответственный секретарь:
Ирада Амиралиева – *доктор философии по педагогике*

Редакционная коллегия: **Эмин Амруллаев**, **Эльнур Алиев**, док.ф. по хим. **Руфат Азизов**, док.ф. по полит.н. **Анар Нагиев**, док.ф. по пед., доц. **Энвер Аббасов**, док. пед.н., проф. **Видади Халилов**, док. пед.н., проф. **Фарахим Садыгов**, док. пед.н., проф. **Хикмет Ализаде**, док. психол. н., проф. **Рамиз Алиев**, док. пед.н., проф. **Интигам Джабраилов**, док. пед.н. **Пирали Алиев**, док. пед.н., проф. **Мубариз Амиров,** док. пед.н., проф. **Новруз Мусаев**

Редакционный совет:
Б.Г. Алиев (чл.-корр. НАНА, док. психол.н., проф., Азербайджан)
А.Н. Рагимов (учредитель Бакинского Университета для Девушек, док. пед.н., проф., Азербайджан)
А.К. Кусаинов (президент Казахстанской АПН, док. пед.н., проф., Алматы)
О.М. Топузов (вице-президент НАПН Украины, директор Института Педагогики, док. пед.н., проф., г. Киев)
И.Х. Каримова (вице-президент АО Таджикистана, док. пед.н., проф., Душанбе)
В. Бриллер (исполнительный директор по анализу сектора Высшего Образования Колумбийского Университета, д-р, проф., Нью-Йорк)
С.П. Ломов (зав.кафед. Московского ПГУ, акад. РАО, док. пед.н., проф., Москва)
Ю.П.Зинченко (декан психологического факультета МГУ, доктор психологических наук, профессор, Москва)
А.А. Шахин (профессор Университета Хаджеттепе, Турция)
Е. Романенко (доктор наук по государственному управлению, профессор, Украина)
А.С. Сиденко (вед. науч. сотруд. Академии Социального Управления, док. пед.н., проф., Москва)
Н.В. Наумова (зав. кафед. Самарской Гуманитарной Академии, док.ф.. по психол., Самара)
Tran Mai Uoc (старший преподаватель Университет Банкинга, д. филос., доц., Вьетнам)
Редакция: Лала Мамедли, Динара Асадова, Гюнель Гулузаде, Шукюр Асланов

© ИОАР, 2025

BAŞ REDAKTORDAN
ОТ ГЛАВНОГО РЕДАКТОРА
FROM THE EDITOR-IN-CHIEF

UOT 371

Akif Nurağa oğlu Abbasov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,
pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim
https://orcid.org/0000-0002-9210-7141
E-mail: a.abbasov@arti.edu.az
https://doi.org/10.69682/arti.2025.92(5).5-9

"HEÇ KİM SƏNİ GÖMƏYƏNDƏ" TƏRBİYƏ TEXNOLOGİYASI: MAHİYYƏTİ, MƏQSƏD VƏ VƏZİFƏLƏRİ, MƏZMUNU

Akif Nuragha Abbasov
scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan
doctor of pedagogical sciences, professor, Honored teacher

UPBRİNGİNG TECHNOLOGY "WHEN NO ONE SEES YOY"

Акиф Нурага оглы Аббасов
ученый секретарь Института Образования Азербайджанской Республики,
доктор педагогических наук, профессор, заслуженный учитель

ВОСПИТАТЕЛЬНАЯ ТЕХНОЛОГИЯ "КОГДА НИКТО ТЕБЯ НЕ ВИДЕТ»: СУЩНОСТЬ, ЦЕЛЬ, ЗАДАЧИ, СОДЕРЖАНИЕ

Xülasə. Tərbiyə texnologiyalarından istifadə etməklə şagirdlərdə və tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması və daha da inkişaf etdirilməsi mümkündür. Bu sahədə tərəfimizdən müəyyənləşdirilmiş "Heç kim səni görməyəndə" tərbiyə texnologiyasının özünəməxsus rolu vardır. Təhsilalanlarda vətənpərvərlik, düzlük və doğruçuluq, böyüyə hörmət, gözütoxluq, xeyirxahlıq və yaxşılıq, humanizm, vicdanlılıq, alicənablıq, mərdlik, insanpərvərlik və s. mənəvi keyfiyyətlərin inkişaf etdirilməsində "Heç kim səni görməyəndə" tərbiyə texnologiyasının tətbiqi səmərəli nəticələr verir.

Məqalədə "Heç kim səni görməyəndə" tərbiyə texnologiyasının mahiyyəti, məqsəd və vəzifələri, məzmunu diqqətə çatdırılır.

Açar sözlər: *texnologiya, pedaqoji texnologiya, təhsil texnologiyası, tərbiyə texnologiyası, "Heç kim səni görməyəndə" tərbiyə texnologiyası, tərbiyə texnologiyasının tətbiqi*

Abstract. The development and further enhancement of moral qualities in students is possible through upbringing technologies. Our upbringing technology, "When No One Sees You," plays a special role in this process. The use of the upbringing technology "When No One Sees You" yields effective results in developing students' moral qualities such as patriotism, honesty and truthfulness, respect for elders, kindness and nobility, humanism, honesty, generosity, courage, humanity, and others.

This article examines the essence, goals, objectives, and content of the educational technology "When No One Sees You."

Keywords*: technology, pedagogical technology, educational technology, upbringing technology, upbringing technology "When No One Sees You" upbringing technology, educational technology, application of educational technology*

Аннотация. Формирование и дальнейшее развитие нравственных качеств учащихся и студентов возможно с помощью воспитательных технологий. Разработанная нами воспитательная технология «Когда тебя никто не видит» играет в этом особую роль. Применение воспитательной технологии «Когда тебя никто не видит» даёт эффективные результаты в развитии у учащихся таких

нравственных качеств, как патриотизм, честность и правдивость, уважение к старшим, щедрость, доброта и благородство, гуманизм, честность, щедрость, мужество, человечность и др.

В статье рассматриваются сущность, цели и задачи, а также содержание воспитательной технологии «Когда тебя никто не видит».

***Ключевые слова**: технология, педагогическая технология, образовательная технология, воспитательная технология, воспитательная технология «Когда тебя никто не видит», образовательная технология, применение воспитательной технологии*

Müxtəlif pedaqoji texnologiyalar vardır. Pedaqoji ədəbiyyatda həmin texnologiyalar iki formada təqdim olunur: 1) müəllifli, yəni pedaqoji texnologiya hansısa pedaqoqa məxsusdur; 2) müəllifsiz.

Texnologiya dedikdə, nə başa düşülməlidir." Azərbaycan dilinin izahlı lüğəti"ndə "texnologiya" anlayışına aşağıdakı şəkildə aydınlıq gətirilir: "Texnologiya – (yun. *techno* - ustalıq, bacarıq, və *loqos* – təlim, elm) istehsal proseslərini həyata keçirmək üsul və vasitələri haqqında biliklərin məcmusu, habelə bun üsulların özü" [1]

Texnologiyalar bilavasitə pedaqoji, yaxud təhsil texnologiyaları, həmçinin təlim texnologiyaları kimi diqqət mərkəzinə gətirilir. Lakin aşağıda adları çəkilən texnologiyalar pedaqoji texnologiyalar kimi təqdim edilsə də, həm də tərbiyə texnologiyaları kimi qəbul olunur.

Pedaqoji *(*təhsil) ***texnologiya*** – pedaqoji və psixoloji göstərişlər əsasında təlim və tərbiyə prosesində sistemli şəkildə istifadə edilən formaların, metodların, yolların, təlim texnikasının və tədris vasitələrinin özünəməxsus məcmusu olub daim əvvəlcədən proqnozlaşdırılan təhsil və tərbiyə nəticələrinə imkan verir.

Təlim texnologiyaları dedikdə, qarşıda duran məqsədə əsasən təlimin təşkili və idarə olunmasına yönələn əməliyyat sistemi başa düşülür. Təlim texnologiyaları təlimin məqsədlərinin, metod və vasitələrinin, həmçinin vasitələrinin praktik şəkildə həyata keçirilməsini nəzərdə tutur.

Ötən əsrin 70-ci illərində haqqında danışılan anlayış daha geniş şəkildə istifadə edilməyə başlanmışdır. Təlim texnologiyası tədris prosesinin təkmilləşdirilməsi, onun təşkilinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar didaktikanın bütün fundamental problemlərini özündə birləşdirdi.

Pedaqoji (təhsil) texnologiyalara dair bir sıra tədqiqatlar aparılmış, kitab və kitabçalar, məqalələr, dissertasiyalar yazılmışdır.

Bu baxımdan Ayşe Emre Altınay Ali kızının ARTİ-nin Elmi əsərlərində çap etdirdiyi "Pedaqoji kadrların hazırlığında pedaqoji texnologiyalardan istifadə dövrün tələbidir" [2]; Z. Əsgərovanın "Yeni pedaqoji texnologiyalar fəal təlimə əsaslanır" [3]; C.A. Orucovanın "Müasir təhsildə pedaqoji texnologiyalar" [4]; T.V. Petrovanın "ART - təhsil prosesində texnologiya" [5] məqalələri diqqəti cəlb edir.

Azərbaycanda pedaqoji texnologiyalara və təlim texnologiyalarına aid bir sıra metodik vəsait və dərs vəsaiti qələmə alınmışdır. M.F. Məmmədzadənin orta məktəb dərslərində seçmə fənn və ingilis dilinin tədrisi üçün "Yeni təlim texnologiyaları" adlı metodik vəsaitini [6]; F. Əliyeva və Ü. Məmmədova "Müasir təlim texnologiyaları" [7]; S.A. Əliyevanın "Məktəbəqədər təhsildə müasir təlim texnologiyalar" [8]; A. Nəzərovun "Müasir təlim texnologiyaları" (Mühazirə xülasələri) [9]; A.Z. Məmmədovanın "Kimyanın tədrisində müasir təlim texnologiyaları" [10] dərs vəsaitlərini qeyd etmək mümkündür.

F. Əliyeva və Ü. Məmmədovanın "Müasir təlim texnologiyaları" adlı dərs vəsaitində müasir təlim texnologiyalarının, innovasiyaların, interaktiv təlimin, kurikulum sənədindən istifadənin yolları, təlim prosesində İKT-dən faydalanma, qiymətləndirmə məsələləri öz ifadəsini tapmış, fəal dərsin mərhələləri nəzəri və praktik cəhətdən əsaslandırılmışdır.

S.A. Əliyevanın "Məktəbəqədər təhsildə müasir təlim texnologiyalar" dərs vəsaitində dünyada məktəbəqədər təhsildə tətbiq olunan təlim texnologiyaları, onların mahiyyəti və rolu diqqət mərkəzinə gətirilir. Təlim texnologiyalarından faydalanma zamanı tərbiyəçilərin vəzifələri, məktəbəqədər təhsildə təlim texnologiyalarına verilən başlıca tələblər və şərtlər; təlim texnologiyalarının quruluşu və növləri, təlim texnologiyalarından istifadə zamanı tərbiyəçinin ustalığı ilə tanış olmaq mümkündür.

A. Nəzərovun "Müasir təlim texnologiyaları" (Mühazirə xülasələri) dərs vəsaiti də [9] nəzərdən keçirdiyimi problem baxımından geniş material verir.

A.Z. Məmmədova "Kimyanın tədrisində müasir təlim texnologiyaları" adlı dərs vəsaiti də [10] maraq doğurur.

Qeyd etdiyimiz kimi, ölkəmizdə və keçmiş SSRİ-yə daxil olan hazırkı müstəqil respublikalarda pedaqoji texnologiyalar və həmçinin ayrıca təlim texnologiyaları ilə bağlı bəzi dissertasiyalar müdafiə olunmuşdur. Diqqət yetirək:

A.Q. Kazakova pedaqogika elmlər doktoru elmi dərəcəsi almaq üçün **"**Müəllimlərin əlavə peşə təhsilində müasir pedaqoji texnologiyalar" [11]; İ.Y. Melkozerova "Şəxsiyyətyönlü təhsil baxımından müasir təhsil texnologiyalarının pedaqoji səmərəliliyi" [12]; N. Ostroumova **"**Tələbələrin təhsil fəaliyyətinin inkişafına hazırlığının formalaşdırılmasının pedaqoji texnologiyası" [13] mövzusunda dissertasiyalar yazmış və müdafiə etmişlər.

Lakin nədənsə tərbiyə texnologiyalarına az diqqət yetirilir. Tərbiyə texnologiyaları ilə bağlı tədqiqatları diqqət mərkəzinə gətirək:

S.E. Slobodenyuk [14], Y.A. Barxatova [14], L.A. Vorobyova [16], Y.V. Zdorovenko [17], S.A. Qatayev [18] və b. öz məqalələrini tərbiyə texnologiyalarına həsr etmişlər.

Tərbiyə texnologiyası dedikdə nə başa düşmək lazımdır?

Tərbiyə texnologiyası şəxsiyyətin inkişafına təsir göstərmək üçün tərbiyəvi məqsədlərə nail olmağa yönəlmiş metodların, prinsiplərin, tərzlərin və vasitələrin məcmusudur. Bu texnologiyalar subyektləri arasında zəruri əlaqələrin yaradılmasını asanlaşdıran, məqsədlə bilavasitə təmasda – tələbələri ümumbəşəri dəyərlərlə tanış etməyə imkan verən elmi cəhətdən əsaslandırılmış texnika və metodlar sistemidir.

Tərbiyə texnologiyalarının sırasına daha bir tərbiyə texnologiyasının daxil edilməsini məqsədəuyğun hesab edirik: "Heç kim səni görməyəndə" tərbiyə texnologiyası.

Həmin tərbiyə texnologiyasını biz irəli sürmüşük. Bir sıra ümumtəhsil məktəblərində (Şirvan şəhəri 1 və 2 nömrəli tam məktəblərində və s.), ali təhsil müəssisələrində (ADPU-nun Cəlilabad filialında, Bakı Qızlar Universitetində) şagirdlərdə və tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi ilə bağlı digər tərbiyə texnologiyaları ilə yanaşı bu tərbiyə texnologiyası da tətbiq edilir.

Evdə, ictimai yerlərdə, işdə, ümumtəhsil məktəblərində, kolleclərdə, institut və universitetlərdə təhsilalanlar, yaxud digər şəxslər ya tələbat hiss etdikdə, yaxud da, necə deyərlər, "gözə girmək", "xal toplamaq", özünü yaxşı göstərmək üçün ona aid olmayan işləri, hərəkətləri yerinə yetirir. Məsələn, yerə atılmış kağızı əyilib götürür, aparıb zibil yeşiyinə atır. Yaxud itirilmiş pulu mənimsəmir. Baxmayaraq ki, onun pul tapdığını heç kim görməyib, o pula onun çox böyük ehtiyacı var, vicdanının səsinə qulaq asaraq, pul sahibini axtarıb-tapır, pulu qaytarır. Bundan sonra ürəyi sakitləşir, dinclik tapır. Bu hərəkəti ona görə etmir ki, ona "sağ ol" desinlər, onu mükafatlandırsınlar. Sadəcə o, düzgün tərbiyə almışdır, ona düzlük və doğruçuluq kimi çox yaxşı keyfiyyətlər aşılamışlar.

Təhsil müəssisələrində aşağıdakı tərbiyə texnologiyalarından faydalanmağı məqsədəuyğun hesab edirik: 1. S.T. Şatski, L.V. Zankov, E.N. İlin, Q.K. Selevko və b.-nın "Əməkdaşlıq tərbiyə texnologiyası".2. V.A. Suxomlinskinin "Kollektiv humanist tərbiyə texnologiyası". 3. A.N. Abbasovun "Heç kim səni görməyəndə" tərbiyə texnologiyası. 4. Ş.A. Amonaşvilinin "Şəxsiyyıtyönlü humanist tərbiyə texnologiyası". 5. O.S. Qazmanın "Tərbiyə işində fərdi pedaqoji dəstək texnologiyası". 6. N.E. Şurkovanın "Qrup tərbiyə işinin təşkili və aparılması texnologiyaları". 7. L.İ. Novikova, V. A. Karakovski və N. L. Selivanovanın "Sistemli yanaşmaya əsaslanan tərbiyə texnologiyası" 8. I.P. İvanovanın "Kollektiv yaradıcı tərbiyə texnologiyası". 9. "Uğur vəziyyəti" təşkil etmək texnologiyası. 10. Pedaqoji ixtilafların aradan qaldırılması texnologiyası. 11. G.K. Selevkonun "Tələbə şəxsiyyətinin özünü təkmilləşdirmə texnologiyası". 12. Mənəvi, əqli, fiziki və psixoloji sağlamlığa yönələn tərbiyə texnologiyaları.

Tərbiyə texnologiyalarından istifadə etməklə şagirdlərdə və tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması və daha da inkişaf etdirilməsi mümkündür. Bu sahədə tərəfimizdən müəyyənləşdirilmiş "Heç kim səni görməyəndə" tərbiyə texnologiyasının özünəməxsus rolu vardır.

Təhsilalanlarda vətənpərvərlik, düzlük və doğruçuluq, böyüyə hörmət, gözütoxluq, xeyirxahlıq və yaxşılıq, humanizm, vicdanlılıq, alicənablıq, mərdlik, insanpərvərlik və s. mənəvi keyfiyyətlərin inkişaf etdirilməsində "Heç kim səni görməyəndə tərbiyə texnologiyası"nın tətbiqi səmərəli nəticələr verir. Tərbiyə texnolo-

giyaları tətbiq etməklə aşağıdakı mətndən faydalanaraq tələbələrin mənəvi keyfiyyətlərinin inkişafına nail olmaq.

Professor A.N. Abbasovun "Heç kim səni görməyəndə" tərbiyə texnologiyasının tətbiqi ilə:

*Cavan oğlan (tutaq ki onun adı Nəsirdir) çəkməçidir. Küçədə əyləşib gəlib-gedənin, daha doğrusu müraciət edənin ayaqqabılarının tozunu alır, ayaqqabılara rəng çəkir. Bu minvalla dolanır, qoca nənəsinə baxır, onu korluq çəkməyə qoymur. Nəsir ata-anasını itirib. Yayda işləri qaydasında gedir, qışda canı soyuq çəkir, nə qədər geyinib-keçinsə də. Küçə – çöldür, bayırdır, külək bir yandan, yağış və qar başqa bir yandan.

Səliqəli geyinmiş bir kişi (tutaq ki onun adı Səməddir) yaxınlaşıb oğlanın qarşısındakı kətildə əyləşir. Nəsir cəld fırçanı götürüb onun ayaqqabılarının tozunu alır, qara boya çəkir, yun parçanı götürüb ayaqqabıları parıldadır.

Səməd əlini cibinə salıb Nəsirin pulunu verir və gedir.

Başı müştərilərə qarışmış Nəsir bir də görür ki, yerə bir dəstə pul düşüb. Fikrə gedir. Başa düşür ki, pul Səməd olacaq. O, pulları götürüb onun dalınca qaçır. Lakin Səmədə çatmır. Xoşbəxtlikdən pulların arasında vizit kartı vardı. Orada Səmədin yaşadığı ünvan və mobil telefon nömrəsi göstərilmişdi.

Nəsir zəng eləməyib həmin ünvana gedir. Qapını xidmətçi açır. Bildirir ki, ağası evdə yoxdur. Nəsir vəziyyəti xidmətçiyə anladıb xahiş edir ki, pulu Səmədə versin.

Öz hərəkətindən razı qalan Nəsir geri dönür. Bir neçə gün sonra təsadüfən Səmədlə rastlaşır. Əhvalatı ona danışır, öyrənir ki, xidmətçi pulu Səmədə çatdırmayıb. Pulun dalından keçən xidmətçinin hərəkəti Səmədə, söz yoxm ki, xoş gəlmir. Pərt olur.

Səməd özünə ünvanlanmış bir məktub yazır. Həmin məktubu və bir neçə yüz manat da Nəsirə uzadaraq:

-Mən bu işin axırına çıxmaq istəyirəm, - deyir. -Sabah gətirib bu məktubla pulları həmin xidmətçiyə ver və xahiş et ki, mənə çatdırsın

-Yaxşı.

Nəsir deyiləni yerinə yetirir. Sən demə, Səməd ikinci mərtəbədən göz qoyurmuş. Nəsir xudahafizləşib gedir. Əslində o da çıxıb ayaq saxlayır. Küçənin tinində dayanıb Səməd kişinin işarəsini gözləyir.

Bir saat keçir. Səməd xidmətçidən bir xəbər çıxmadığını görüb özü onu otağına çağırır:

-Bu gün məni soruşan olub?

Xidmətçi oğlan heç nə olmamış kimi inamla cavab verir:

-Xeyir.

-Mənə məktub gətiriblər?

-Gətirməyiblər.

Səməd qaşlarını çatır:

-Sənə pul verib deməyiblər ki, mənə çatdırasan?

Xidmətçi tutulur, lakin özünü ələ alaraq cavab verir:

-Pul? Nə pul? Yox.

Səmədin ona acığı tutur, sərt:

-Qapını aç, - deyir, -küçədə bir cavan oğlan dayanıb. Onu içəri çağır.

Xidmətçi qapını açır, Nəsiri görəndə tutulur. Bir anlığa nitqi kəsilir. Bilmir özünü necə aparsın, vəziyyətdən necə çıxsın. Başa düşür ki, Səmədin məsələdən xəbəri var.

Səməd üzünü xidmətçiyə tutaraq:

-Sən etibarsız adamsan, - deyir. – Sənin-lə bizimki tutmaz. Bu evdə sənə yer yoxdur. Bu gündən işini itirdin. Gedə bilərsən.

Xidmətçi çox yalvarıb, faydası olmur. O, gedəndən sonra Səməd Nəsirə deyir:

-Sən halal adamsan. Bizim evdə xidmətçi işləmək istərsən? Sənin kimi sədaqətli insana bu evin ehtiyacı var.

Nəsir fikrə gedir. Səməd:

-Sənin kimi gözəl insanın çox əziyyətlə pul qazanmağın mənin ürəyimi ağrıdır. Yayın istisində, qışın şaxtasında küçədə. Əl-ayağın dona-dona. Hə, nə deyirsən.

Nəsir razılığını bildirir. Həmin evdə sədaqətlə ev sahiblərinə xidmət göstərməyə başlayır.

Müəllim: Professor A.N. Abbasovun "Heç kim səni görməyəndə" tərbiyə texnologiyasının tətbiqi ilə nəzərdən keçirilən nümunə sizdə hansı hissləri hərəkətə gətirdi?

Tələbə Sevinc: Bizim hamımız özümüzü şəxsiyyət hesab edirik. Çünki, bəli, şəxsiyyətik. Yalnız böyük adamlar, adlı-sanlı insanlar şəxsiyyət deyil. Biz daim özümüzü təkmilləşdirməli, baş verən hadisələrdən nəticə çıxarmalı, səhvlərimizi görüb ibrət götürməli, onları düzəltməliyik. Mənəvi keyfiyyətlərimizi təkmilləşdirməliyik. Professor A.N. Abbasovun "Heç kim səni görməyəndə" tərbiyə texnologiyasından müəllimin faydalanaraq, təhsilləndirici, tərbiyələndi-

rici və inkişafetdirici əhəmiyyət daşıyan "Sədaqətli çəkməçi" hekayəsini diqqətimizə çatdırması yüksək mənəvi keyfiyyətlər olan etibarlılığa, alicənablığın, zəhmətsevərliyin, gözütoxluğun, təmənnasızlığın sədaqət, doğruçulugun və s. təqdir olunması, yalançılıq, tamahkarlıq və s. kimi mənfi keyfiyyətlərin pislənməsi üçün imkanlar açır.

Problemin aktuallığı. Tərbiyə texnologiyaları az tədqiq olunan problemdir. Lakin son dərəcə əhəmiyyətli məsələdir. Bu mövzuya müraciət etmək aktuallıq daşıyır.

Problemin yeniliyi. Bu məqalədə onun müəllifinə məxsus "Heç kim səni görməyəndə" tərbiyə texnologiyası haqqında söz açılır. Bu texnologiyadan faydalanmaqla böyüməkdə olan nəsildə mənəvi keyfiyyətlərin formalaşdırılması və inkişaf etdirilməsi mümkün olur.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

Ədəbiyyat

1. "Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, IV cild. Bakı: Şərq-Qərb, 2006. 712 s. s. 276
2. Ayşe Emre Altınay Ali qızı. Pedaqoji kadrların hazırlığında pedaqoji texnologiyalardan istifadə dövrün tələbidir // -Bakı: ARTİ-nin Elmi əsərləri, 2021, 3. s. 70-73
3. Əsgərova, Z. Yeni pedaqoji texnologiyalar fəal təlimə əsaslanır // -Bakı: Azərbaycan müəllimi,. 2010.- 15 oktyabr.- s.22
4. Orucova, C.A. Müasir təhsildə pedaqoji texnologiyalar (PTT, OT, YET) // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2023, №1, s. 57-61
5. Петрова, Т.В. Арт – технологии в образовательном процессе https://nsportal.ru/detskiy-sad/raznoe/2018/10/16/art-tehnologii-v-obrazovatelnom-protsesse
6. Məmmədzadə, M.F. Yeni təlim texnologiyaları: Orta mıktəb dərslərində seçmə fənn və ingilis dilinin tədrisi üçün metodik vəsait / M.F. Məmmədzadə. -Bakı, -2009. -220 s.
7. Əliyeva, F. Müasir təlim texnologiyaları: Dərs vəsaiti / F. Əliyeva və Ü. Məmmədova. -Bakı: MBM nəşriyyatı, -2014. – 192 s.
8. Əliyeva, S.A. Məktəbəqədər təhsildə müasir təlim texnologiyalar: Dərs vəsaiti / S.A. Əliyeva. -Bakı: -2022. -133 s.
9. Nəzərov, A.M. Müasir təlim texnologiyaları (Mühazirə xülasələri): Dərs vəsaiti / A.M. Nəzərov. – Bakı: ADPU-nəşriyyatı, -2012. -103 s.
10. Məmmədova, A.Z. Kimyanın tədrisində müasir təlim texnologiyaları: Ali məktəblər üçün dərs vəsaiti / A.Z. Məmmədova. - Bakı, ADPU-nun nəşri, -2012. -242 s.
11. Казакова, А.Г**.** Современные педагогические технологии в дополнительном профессиональном образовании преподавателей: **/** дис. кандидата педагогических наук) / -2000**.** -372 с**.**
12. Мелкозерова, И.Е. Педагогическая эффективность современных образовательных технологий с позиций личностно-ориентированного образования: /автореферат дис. каидидата педагогических наук) / Ростов-на-Дону, 2003. -23 с.
13. Остроумова, Е.Н. Педагогическая технология формирования готовности студентов к развитию учебной деятельности: / дис. кандидата педагогических наук) / -Волгоград, 2002. -150 с.
14. Слободенюк, С.Е. Современные воспитательные технологии https://nsportal.ru/nachalnaya-shkola/vospitatelnaya rabota/2017/01/12/sovremennye-vospitatelnye-tehnologii
15. Бархатова, Е.А. Современные воспитательные технологии https://nsportal.ru/nachalnaya-shkola/vospitatelnaya-rabota/2012/02/12/sovremennye-vospitatelnye-tekhnologii
16. Воробьева, Л.А**.** Современные воспитательные технологии и методики. https://nsportal.ru/ nachalnaya-shkola/vospitatelnaya-rabota/2012/10/14/sovremennye-vospitatelnye-tekhnologii-i-metodiki
17. Здоровенко, Е.В. Современные воспитательные технологии. https://nsportal.ru/nachalnaya-shkola/materialy-mo/2014/12/11/sovremennye-vospitatelnye-tekhnologii
18. Гатаев Анзор Сайд-Альвиеви. *Развитие воспитательных технологий в современном образовании* научной // Азмут научных исследований: педагогика и психология, 2020, т.9, № 4 с. 79-81

UOT 37.

Sevda Hidayət qızı Axundova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kollecinin
direktor müavini
https://orcid.org/0000-0001-9192-2307
E-mail. sevda.appp@icloud.com
https://doi.org/10.69682/arti.2025.92(5).10-14

ZƏFƏR BAYRAMI: TARİXİ, MAHİYYƏTİ VƏ SOSİAL-PSİXOLOJİ ASPEKTLƏRİ

Sevda Hidayat Akhundova
deputy director of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State

Pedagogical University

VICTORY DAY: HISTORY, ESSENCE, AND SOCIO-PSYCHOLOGICAL ASPECTS

Севда Хидайят гызы Ахундова
заместитель директора Азербайджанского государственного педагогического колледжа при Азербайджанском государственном педагогическом университете

ДЕНЬ ПОБЕДЫ: ИСТОРИЯ, СУЩНОСТЬ И СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ

Xülasə. Zəfər Bayramı Azərbaycan xalqının tarixi yaddaşında mühüm mərhələ kimi qiymətləndirilən milli hadisədir. 2020-ci ilin sentyabr-noyabr aylarında baş vermiş 44 günlük Vətən müharibəsinin qələbə ilə nəticələnməsi, torpaqlarımızın böyük bir hissəsinin işğaldan azad olunması və dövlətin hərbi-siyasi gücünün nümayişi bu bayramın əsas məzmununu təşkil edir. 8 Noyabr tarixinin "Zəfər Günü" elan olunması yalnız hərbi qələbənin qeyd edilməsi deyil, həm də tarixi ədalətin bərpası, milli qürurun dirçəldilməsi və kollektiv identikliyin möhkəmlənməsi baxımından mühüm simvolik əhəmiyyət daşıyır. 2025-ci ildə Zəfər Bayramının 5 illiyi qeyd olunur. Bu yubiley təkcə dövlətçilik tarixində qazanılmış qələbənin ildönümü deyil, həm də müstəqil Azərbaycanın güc, iradə və qətiyyətinin beynəlxalq müstəvidə nümayişi baxımından xüsusi strateji önəm kəsb edir. Araşdırmada göstərilir ki, Zəfər Bayramı təkcə dövlətçilik tarixi kontekstində deyil, həm də sosial-psixoloji müstəvidə geniş təsirlərə malikdir. Uzun illər davam edən işğal və məcburi köçkünlük travmasının qələbə ilə əvəz olunması milli psixologiyada yeni mərhələ yaratmışdır. Bu bayram xalqın öz gücünə inamını artırır, sosial həmrəyliyi gücləndirir və dövlət-vətəndaş münasibətlərində birləşdirici rol oynayır. Bayramın qeyd olunması kollektiv yaddaşın qorunması və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi üçün mühüm vasitədir. Zəfər Bayramı həmçinin milli ideologiyanın dərinləşməsinə xidmət edir. Dövlət səviyyəsində keçirilən tədbirlər və paradlar yalnız hərbi-siyasi qələbəni nümayiş etdirmir, həm də Azərbaycanı beynəlxalq müstəvidə güclü və özünəinamlı dövlət kimi təqdim edir. Bununla yanaşı, bayram ictimai-mədəni həyatda milli dəyərlərin qorunması, qəhrəmanlıq ənənələrinin nəsildən-nəslə ötürülməsi baxımından strateji əhəmiyyət daşıyır. Nəticə etibarilə, Zəfər Bayramı Azərbaycan tarixində milli iradənin təntənəsi olmaqla yanaşı, sosial-psixoloji dayanıqlığın güclənməsinə, dövlətçilik ənənələrinin möhkəmlənməsinə və gələcək nəsillərə milli kimliyin ötürülməsinə xidmət edən çoxşaxəli fenomen kimi qiymətləndirilir.
Açar sözlər: *Zəfər Bayramı, Vətən müharibəsi, milli kimlik, sosial-psixoloji təsir*

Abstract. Victory Day is regarded as a national event that represents an important milestone in the historical memory of the Azerbaijani people. The 44-day Patriotic War of September–November 2020, which ended in victory, the liberation of a significant part of our lands from occupation, and the demonstra-

tion of the military and political power of the state constitute the essence of this holiday. The declaration of November 8 as “Victory Day” is not only the commemoration of a military triumph but also holds symbolic significance in terms of restoring historical justice, reviving national pride, and strengthening collective identity. In 2025, the 5th anniversary of Victory Day is celebrated. This jubilee is not merely an anniversary of a historical triumph of statehood but also carries special strategic importance as a demonstration of the strength, will, and determination of independent Azerbaijan in the international arena. The study shows that Victory Day has wide-ranging impacts not only within the context of statehood but also in the socio-psychological sphere. The replacement of years of occupation and displacement trauma with victory has created a new stage in national psychology. This holiday strengthens people’s confidence in their own power, enhances social solidarity, and plays a unifying role in state – citizen relations. The celebration of the holiday serves as an important tool for preserving collective memory and fostering patriotism among the younger generation. Victory Day also contributes to the deepening of national ideology. Events and parades organized at the state level not only display military and political triumph but also present Azerbaijan to the international community as a strong and self-confident state. Moreover, the holiday holds strategic significance in preserving national values in socio-cultural life and in transmitting the traditions of heroism from generation to generation. Consequently, Victory Day is evaluated as a multifaceted phenomenon which, alongside the triumph of national will, contributes to strengthening socio-psychological resilience, consolidating statehood traditions, and passing on national identity to future generations.

Keywords: *Victory Day, Patriotic War, national identity, socio-psychological impact*

Аннотация. День Победы является национальным событием, которое в исторической памяти азербайджанского народа оценивается как важный этап. Победа в 44-дневной Отечественной войне, произошедшей в сентябре-ноябре 2020 года, освобождение значительной части наших земель от оккупации и демонстрация военной и политической мощи государства составляют основное содержание этого праздника. Провозглашение 8 ноября «Днем Победы» имеет не только значение фиксации военной победы, но и символическую важность с точки зрения восстановления исторической справедливости, возрождения национальной гордости и укрепления коллективной идентичности. В 2025 году отмечается 5-летие Дня Победы. Этот юбилей представляет собой не только годовщину достигнутой победы в истории государственности, но и особое стратегическое значение как демонстрация силы, воли и решимости независимого Азербайджана на международной арене. Исследование показывает, что День Победы оказывает широкое влияние не только в контексте истории государственности, но и в социально-психологическом измерении. Замена многолетней травмы оккупации и вынужденного переселения победой создала новый этап в национальной психологии. Этот праздник усиливает веру народа в собственные силы, укрепляет социальное единство и играет объединяющую роль в отношениях государство-гражданин. Его празднование является важным средством сохранения коллективной памяти и воспитания молодого поколения в духе патриотизма. День Победы также способствует углублению национальной идеологии. Проводимые на государственном уровне мероприятия и парады демонстрируют не только военную и политическую победу, но и представляют Азербайджан как сильное и уверенное в себе государство на международной арене. Кроме того, этот праздник имеет стратегическое значение с точки зрения сохранения национальных ценностей в общественно-культурной жизни и передачи традиций героизма из поколения в поколение. В итоге День Победы оценивается как многогранный феномен, который наряду с триумфом национальной воли служит укреплению социально-психологической устойчивости, государственности и передаче национальной идентичности будущим поколениям.

Ключевые слова: *Праздник Победы, Отечественная война, национальная идентичность, социально-психологическое влияние*

Giriş

Azərbaycan xalqının tarixində 2020-ci il mühüm dönüş nöqtəsi kimi yadda qalmışdır. 44 günlük Vətən müharibəsinin qələbə ilə başa çatması nəticəsində Qarabağın böyük bir hissəsi işğaldan azad edilmiş, xalqımızın uzun illərdir arzuladığı ədalət bərpa olunmuşdur [3, s. 45–52]. Bu tarixi hadisənin nəticəsi olaraq, Prezident İlham Əliyevin 03 dekabr 2020-ci il tarixli Sərəncamı ilə 8 Noyabr “Zəfər Günü” elan edilmişdir [1, s. 2].

Zəfər Bayramı yalnız hərbi qələbənin rəmzi deyil, həm də milli kimliyin, dövlətçilik şüurunun və vətənpərvərlik hisslərinin möhkəmlənməsində əhəmiyyətli sosial-psixoloji funksiyaya malikdir [2, s. 33–36; 6, s. 79]. Bayramın

qeyd olunması ictimai birliyi gücləndirməklə yanaşı, milli ideologiyanın dərinləşməsinə və gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasına xidmət edir [7, s. 115–118].

2025-ci ildə Zəfər Bayramının **5 illik yubileyi** qeyd olunur. Bu yubiley təkcə qazanılmış qələbənin ildönümünü ifadə etmir, həm də müstəqil Azərbaycanın dövlətçilik tarixində milli iradənin, gücün və qətiyyətin beynəlxalq miqyasda nümayişi baxımından strateji əhəmiyyət daşıyır. Beş illik yubiley həm dövlət səviyyəsində, həm də ictimai müstəvidə qələbənin davamlı simvolu kimi kollektiv yaddaşın qorunmasına xidmət edir.

Eyni zamanda, Zəfər Bayramı dövlətin legitimliyinin və gücünün simvolu kimi çıxış edərək, Azərbaycan cəmiyyətində siyasi-mənəvi həmrəyliyi daha da gücləndirir [5, s. 64–70; 9, s. 128]. Bu bayram mərasimləri xalqın yaddaşında əbədi qalmaqla yanaşı, kollektiv identiklik və milli qürur hisslərinin formalaşmasında mühüm rol oynayır [8, s. 46–49; 11, s. 62].

Beləliklə, Zəfər Bayramı müasir Azərbaycan tarixində milli yaddaşın, ictimai həmrəyliyin və dövlətçilik ənənələrinin qorunub inkişaf etdirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu məqalədə Zəfər Bayramının tarixi əsasları, ictimai mahiyyəti, sosial-psixoloji funksiyaları və xüsusilə 5 illik yubileyinin milli-mənəvi dəyərlər sistemindəki yeri geniş şəkildə araşdırılacaqdır.

Tarixi əsaslar

Azərbaycan xalqının dövlətçilik ənənələri minilliklər boyu formalaşmış, lakin bu yol heç də həmişə asan olmamışdır. Xalqımız tarix boyu müxtəlif imperiyaların işğalına, müharibələrə, soyqırımlara və məcburi köçkünlük faciələrinə məruz qalmışdır. Bu sınaqlar xalqın milli yaddaşında dərin iz buraxmış, azadlıq və müstəqillik uğrunda mübarizənin davamlılığını təmin etmişdir [5, s. 64–70].

XX əsrin sonlarında Sovet İttifaqının süqutu ilə regionda yeni geosiyasi vəziyyət yarandı. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Qarabağ münaqişəsi alovlandı, nəticədə ölkəmizin torpaqlarının 20 faizdən çoxu işğal edildi. Bu dövr təkcə hərbi məğlubiyyətlə deyil, həm də bir milyondan artıq azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi ilə milli tarixdə dərin faciəvi mərhələ kimi yadda qaldı [7, s. 115–118].

Uzun illər aparılan sülh danışıqları nəticə vermədi. ATƏT-in Minsk Qrupu çərçivəsində beynəlxalq vasitəçilik cəhdlərinə baxmayaraq, işğal altında olan ərazilər azad edilmədi. Bu isə Azərbaycan xalqı arasında ədalət hissinin daha da güclənməsinə, milli birliyin qorunmasına və güclü orduya sahib olmağın həyati zərurət kimi qəbul edilməsinə səbəb oldu [9, s. 128–131].

2020-ci ilin sentyabr-noyabr aylarında baş vermiş 44 günlük Vətən müharibəsi məhz bu tarixi şəraitin nəticəsi kimi meydana çıxdı. Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında əks-hücum əməliyyatlarına başladı və qısa müddətdə strateji əhəmiyyətli bölgələri işğaldan azad etdi. Bu qələbə yalnız hərbi üstünlük deyil, həm də xalqın milli iradəsinin, döyüş ruhunun və birliyinin təntənəsi idi [3, s. 45–52].

Müharibənin gedişində xüsusi tarixi məqam 8 noyabr 2020-ci ildə Şuşa şəhərinin azad olunması oldu. Şuşa həm tarixi-mədəni, həm də strateji baxımdan Qarabağın ürəyi hesab olunur. Bu hadisə Azərbaycan tarixində dönüş nöqtəsi olmuş, Ermənistan ordusunun müqavimətini tam qırmış və qələbənin əldə edilməsini təmin etmişdir [6, s. 79–82].

Şuşanın azad edilməsindən dərhal sonra – 2020-ci il 3 dekabr tarixində Prezident İlham Əliyevin sərəncamı ilə 8 Noyabr tarixi "Zəfər Günü" elan edildi [1, s. 2]. Bu qərar dövlətçilik baxımından strateji əhəmiyyət kəsb edir. Çünki Zəfər Günü təkcə hərbi qələbənin qeyd edilməsi deyil, həm də xalqın kollektiv yaddaşında qalacaq simvolik tarixdir. O, Azərbaycan dövlətçiliyinin müstəqillik uğrunda mübarizəsinin yeni mərhələsini təsdiqləyir və gələcək nəsillər üçün milli qürur nümunəsi rolunu oynayır [4, s. 133–137].

Tarixi baxımdan Zəfər Bayramının elan olunması Azərbaycanın XX və XXI əsrlərdə keçdiyi mürəkkəb yolun məntiqi nəticəsi kimi qəbul edilməlidir. Müstəqilliyin ilk illərində dövlət quruculuğu, ordunun formalaşması və iqtisadi dirçəliş kimi məsələlər milli prioritetlər sırasında idi. 2020-ci ildə qazanılan qələbə isə bu illərin zəhmətinin, xalqın səbir və iradəsinin nəticəsi oldu [11, s. 62–65].

Beləliklə, Zəfər Bayramı yalnız bir günün xatırlanması deyil, Azərbaycan xalqının tarixi iradəsinin, milli birliyinin və müstəqillik yolunda göstərdiyi əzmkar mübarizənin təntənəsidir [12, s. 144–150].

Zəfər Bayramının mahiyyəti

Zəfər Bayramı Azərbaycan xalqının tarixində xüsusi ideoloji-siyasi məna kəsb edən hadisədir. Bu bayram ilk növbədə dövlətin hərbi-siyasi gücünü, xalqın birliyini və milli kimliyi simvolizə edir. 8 Noyabrın "Zəfər Günü" elan edilməsi yalnız 44 günlük Vətən müharibəsinin qələbəsini qeyd etmək deyil, həm də müasir Azərbaycan tarixində yeni bir dövrün başlanğıcını təsdiqləməkdir [1, s. 2; 5, s. 64–70].

Bayramın mahiyyətində iki əsas komponent – **tarixi ədalətin bərpası** və **milli ideologiyanın möhkəmləndirilməsi** dayanır. İşğaldan azad olunmuş torpaqlar yalnız coğrafi ərazi deyil, həm də xalqın yaddaşında müqəddəs məkanlar kimi yaşamaqdadır. Bu səbəbdən qələbənin bayram kimi qeyd olunması, milli qürur və kimliyin mərkəzi elementinə çevrilmişdir [2, s. 33–36].

Zəfər Bayramı həm də **dövlətçilik ənənələrinin** inkişafına xidmət edir. Hər il dövlət səviyyəsində keçirilən tədbirlər, hərbi paradlar və müxtəlif mədəni aksiyalar Azərbaycan dövlətinin gücünü, xalqın ordusuna və rəhbərliyinə olan inamını nümayiş etdirir [10, s. 77–81]. Bu aspektdə bayram dövlətlə vətəndaş arasında siyasi-mənəvi bir körpü rolunu oynayır.

Eyni zamanda, Zəfər Bayramı **regional və beynəlxalq kontekstdə** mühüm mesaj daşıyır. Azərbaycanın 2020-ci ildə qazandığı hərbi-siyasi uğur təkcə ölkədaxili deyil, həm də beynəlxalq miqyasda güc balansını dəyişdirmişdir. Bayramın qeyd olunması bu uğurun davamlı şəkildə vurğulanması və Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir [7, s. 115–118].

Bayramın mahiyyətini izah edən digər mühüm cəhət onun **ictimai-mədəni funksiyasıdır**. Zəfər Bayramı milli-mənəvi dəyərlərin, ədalət və qəhrəmanlıq ruhunun nəsildən-nəslə ötürülməsini təmin edir. Təhsil müəssisələrində, mədəniyyət ocaqlarında və ictimai tədbirlərdə bu günün qeyd olunması gənclərin milli ruhda yetişməsinə mühüm təsir göstərir [8, s. 46–49; 11, s. 62–65].

Bundan əlavə, Zəfər Bayramı həm də **kollektiv yaddaşın formalaşmasına** xidmət edir. Hər il təntənə ilə keçirilən tədbirlər xalqın qələbə ilə bağlı emosiyalarını gücləndirir, milli birliyi qoruyur və tarixi travmaların sağalmasına imkan yaradır [6, s. 79–82; 9, s. 128–131].

Nəticə etibarilə, Zəfər Bayramının mahiyyəti yalnız hərbi qələbənin xatırlanması ilə məhdudlaşmır. O, dövlətin gücünü, xalqın birliyini, milli ideologiyanın dərinləşməsini və gələcək nəsillərə vətənpərvərlik ruhunun aşılanmasını özündə birləşdirən çoxşaxəli fenomen kimi çıxış edir [12, s. 144–150].

Sosial-psixoloji aspektlər

Zəfər Bayramı yalnız tarixi və siyasi məna kəsb etmir, həm də Azərbaycan cəmiyyətinin sosial-psixoloji həyatında mühüm rol oynayır. 30 ilə yaxın işğal altında qalmaq milli şüurda dərin travma yaratmışdı. 2020-ci ildə əldə edilən qələbə bu travmanın aradan qaldırılmasına, xalqın mənəvi gücünün və özünəinamının bərpasına səbəb oldu [3, s. 45–52].

Zəfər Bayramı xalqda milli qürur və ləyaqət hisslərinin güclənməsinə mühüm təsir göstərir. Müharibənin nəticələri Azərbaycan vətəndaşlarında öz dövlətinə və ordusuna daha böyük inam formalaşdırmışdır [6, s. 79–82]. Qələbə həm də uzun illərdən bəri mövcud olan "ədalətsizlik kompleksi"nin aradan qalxmasına və psixoloji tarazlığın bərpasına şərait yaratmışdır [9, s. 128–131].

Bayramın hər il dövlət səviyyəsində qeyd olunması xalqın kollektiv identiklik hissini möhkəmləndirir.

Zəfər Bayramının mühüm sosial funksiyalarından biri gənc nəslin milli-mənəvi ruhda tərbiyəsidir. Məktəblərdə və ali təhsil müəssisələrində keçirilən tədbirlər gənclərin milli qəhrəmanlıq nümunələrindən öyrənməsinə, dövlətə sədaqət hisslərinin formalaşmasına xidmət edir [8, s. 46–49]. Bu proses yalnız ideoloji deyil, həm də psixoloji səviyyədə gənclərin özünüdərkini gücləndirir [7, s. 115–118].

Zəfər Bayramı yalnız daxili auditoriyaya deyil, həm də beynəlxalq ictimaiyyətə güclü psixoloji mesaj göndərir. Azərbaycan xalqının iradəsi və qələbə əzmi beynəlxalq aləmdə ölkənin müasir obrazının formalaşmasına təsir edir. Bu, psixoloji baxımdan Azərbaycanın özünəinamlı və güclü dövlət kimi qəbul olunmasına xidmət edir [10, s. 77–81].

Beləliklə, Zəfər Bayramı sosial-psixoloji müstəvidə milli qürurun, vətənpərvərliyin, kollektiv identikliyin və dövlət-vətəndaş münasibətlərinin möhkəmlənməsinə xidmət edən mühüm faktor kimi çıxış edir. Onun təsiri həm

fərdi, həm də ictimai psixologiyanın bütün təbəqələrində özünü göstərir.

Problemin aktuallığı. Zəfər Bayramı Azərbaycan tarixində milli birlik və dövlətçilik ənənələrinin möhkəmlənməsində mühüm mərhələdir. Bu bayram yalnız hərbi qələbənin qeyd olunması deyil, həm də milli qürurun, kollektiv yaddaşın və ideoloji sabitliyin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Xalqın uzun illər davam edən mübarizəsinin məntiqi nəticəsi kimi formalaşan bu gün, gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi və milli kimliyin qorunması baxımından aktuallığını qoruyur.

Problemin elmi yeniliyi. Mövzunun araşdırılması Zəfər Bayramının yalnız tarixi hadisə kimi deyil, həm də sosial-psixoloji və ideoloji fenomen kimi dəyərləndirilməsinə imkan yaradır. Burada bayramın milli şüurun formalaşmasına, kollektiv identikliyin güclənməsinə və cəmiyyətin psixoloji dayanıqlığının artmasına təsiri ayrıca tədqiq olunur. Elmi yenilik həm də ondan ibarətdir ki, Zəfər Bayramı ictimai rəmz və simvolik hadisə kimi nəzəri baxımdan kompleks şəkildə təhlil edilir

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri müxtəlif sahələrdə praktik əhəmiyyətə malikdir. İlk növbədə, təhsil sistemində gənclərin milli-mənəvi dəyərlər əsasında formalaşdırılması prosesinə elmi dəstək verir. Eyni zamanda, dövlətin ideoloji siyasətində Zəfər Bayramının mərkəzi element kimi istifadəsinə imkan yaradır. Mədəniyyət və sosial layihələrin hazırlanmasında bayramın ictimai funksiyalarından faydalanmaqla, milli psixologiyanın möhkəmləndirilməsi istiqamətində yeni mexanizmlər formalaşdırıla bilər.

Nəticə. Zəfər Bayramı Azərbaycan tarixində milli iradənin, birliyin və dövlətçilik ənənələrinin möhtəşəm təntənəsi kimi çıxış edir. Bu bayram ilk növbədə xalqın uzun illər boyu üzləşdiyi işğal faciəsinin sonu, ədalətin bərpası və tarixi qürurun yenidən dirçəldilməsi deməkdir.

Tarixi baxımdan, Zəfər Bayramı müstəqil Azərbaycanın dövlət quruculuğu prosesinin ən yüksək zirvələrindən biri kimi qiymətləndirilməlidir. 44 günlük Vətən müharibəsinin qələbəsi xalqın milli mübarizəsinin məntiqi nəticəsi olmuş, dövlətin siyasi iradəsini və hərbi gücünü bütün dünyaya nümayiş etdirmişdir.

Mahiyyət etibarilə, bu bayram yalnız hərbi uğurun rəmzi deyil, həm də milli ideologiyanın və dövlət-vətəndaş münasibətlərinin güclənməsi üçün mühüm vasitədir. Bayram mərasimləri, paradlar və mədəni tədbirlər dövlətin legitimliyini möhkəmləndirməklə yanaşı, gənc nəslin milli ruhda formalaşmasına xidmət edir.

Sosial-psixoloji baxımdan isə Zəfər Bayramı kollektiv yaddaşın güclənməsinə, milli kimliyin möhkəmlənməsinə, psixoloji travmaların sağalmasına və qürur hisslərinin yüksəlməsinə səbəb olur. O, xalqın öz gücünə inamını bərpa etmiş, milli birliyi daha da möhkəmləndirmişdir.

Beləliklə, Zəfər Bayramı müasir Azərbaycan tarixində strateji əhəmiyyətə malik bir hadisədir. O, dövlətin siyasi və hərbi gücünü, xalqın milli iradəsini, cəmiyyətin sosial-psixoloji dayanıqlığını və gələcək nəsillərə ötürüləcək milli kimliyi özündə birləşdirən çoxşaxəli fenomen kimi əbədi olaraq tariximizdə qalacaqdır.

Ədəbiyyat:

1. Əliyev, İ. Azərbaycan Respublikasında 8 Noyabr – Zəfər Günü haqqında. Prezidentin Sərəncamı, 03 dekabr 2020. Bakı: Prezident Administrasiyası, -2020, -5 s.
2. Əliyeva, S. Zəfər Günü: milli kimliyin və vətənpərvərliyin möhkəmlənməsi. -Bakı: Elm və Təhsil, -2022. -148 s.
3. Əhmədov, A. Qarabağ Zəfəri və milli həmrəylik: sosial-psixoloji baxış. -Bakı: Qanun, -2021. -210 s.
4. Əsgərov, M. 44 günlük Vətən müharibəsi və Zəfər bayramı ənənəsi. -Bakı: Nurlan, -2021. -185 s.
5. Həsənli, C. Müasir Azərbaycan tarixində 8 Noyabr Zəfər Günü. -Bakı: Şərq-Qərb, -2023. -236 s.
6. İsmayılova, L. Zəfər Günü mərasimlərinin sosial-psixoloji funksiyaları. Azərbaycan Milli Elmlər Akademiyası Xəbərləri. -Bakı, 2022, №3. -s. 77–88.
7. Məmmədli, N. Qarabağ Zəfəri və milli ideologiya. Bakı: Elm, 2022, 192 s.
8. Məmmədova, T. Zəfər bayramının ictimai rəmz kimi formalaşması. "Elm və həyat" / Bakı, 2021, №4. - s. 43–52.
9. Məmmədov, R. Zəfər Günü: dövlətçilik və milli identiklik kontekstində / Bakı: ADPU-nun nəşriyyatı, -2023. -164 s.
10. Quliyev, V. Zəfər paradı: siyasi simvolika və ictimai təsirlər. -Bakı: Elm və Təhsil, -2021. -132 s.
11. Rüstəmova, K. 8 Noyabr Zəfər Gününün milli yaddaşda rolu. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi xəbərləri. -Bakı, 2022, №2. -s. 59–70.

12. Yunisov, Ə. Müasir Azərbaycan tarixində Zəfər Gününün yeri və perspektivləri. -Bakı: Nurlar, 2024. - 200 s

Redaksiyaya daxil olub: 18.09.2025

UOT 37.

Hümeyir Hüseyn oğlu Əhmədov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin müdiri,
pedaqogika üzrə elmlər doktoru, professor,
Qazaxıstan Pedaqoji Elmlər Akademiyasının xarici üzvü,
Rusiya Təhsil Akademiyasının xarici üzvü,
Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü,
RTA-nın Əməkdar elm və təhsil xadimi
https://orcid.org/ 0000-0003-0019-4266
E-mail: humeyir@gmail.com
a.humeyir@arti.edu.az
Lalə Akif qızı Məmmədli
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
aparıcı mütəxəssisi,
pedaqogika üzrə fəlsəfə doktoru,
elmlər doktoru proqramı üzrə əyani doktorant
https://orcid.org/0000-0003-0686-3627
E-mail: lale23@mail.ru
l.memmedli@arti.edu.az

Pərvin Cavanşir qızı Əlizadə
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
aparıcı mütəxəssisi,
Türkiyə Respublikası Van Yüzüncü Yıl Universitetinin qiyabi doktorantı
https://orcid.org/0009-0009-5896-2177
E-mail: alizadapari.16@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).15-19

BƏXTİYAR VAHABZADƏNİN PEDAQOJİ FƏALİYYƏTİNDƏ MİLLİ KİMLİK, ANA DİLİ VƏ ONUN TƏDRİSİ PRİNSİPLƏRİ

Humeyir Huseyn Ahmadov
head of the department of Scientific and pedagogical personnel training of the
Institute of Education of the Republic of Azerbaijan
doctor of pedagogical sciences, professor,
foreign member of the Academy of Pedagogical Sciences of Kazakhstan,
foreign member of the Russian Academy of Education,
full Member of the Academy of Natural Sciences,
Honored scientist and educator

Lala Akif Mammadly
leading specialist of the Institute of Education of the Republic of Azerbaijan
doctor of philosophy in pedagogy
doctoral student in the program of doctor of sciences

Parvin Cavanshir Alizadeh
leading specialist of the Republic of Azerbaijan
doctoral student in the program of philosophy at Van Yuzuncu Yil University,
Republic of Türkiye

BAKHTIYAR VAHABZADE'S NATIONAL IDENTITY, NATIVE LANGUAGE AND PRINCIPLES OF ITS TEACHING IN THE PEDAGOGICAL ACTIVITIES

Гумейир Гусейн оглы Ахмедов
заведующий отделом подготовки научно-педагогических кадров,
Института Образования Азербайджанской Республики
доктор педагогических наук, профессор,
иностранный член Академии Педагогических Наук Казахстана,
иностранный член Российской Академии Образования,
действительный член Академии Естественных Наук,
Заслуженный деятель науки и образования

Лала Акиф гызы Мамедли
ведущий специалист
Института Образования Азербайджанской Республики
доктор философии по педагогике,
докторант очной формы обучения по программе доктора наук

Парвин Джаваншир гызы Ализаде
ведущий специалист
Института Образования Азербайджанской Республики
заочный докторант Университета Ван Юзюнджю Йыл Турецкой Республики

НАЦИОНАЛЬНАЯ ИДЕНТИЧНОСТЬ, РОДНОЙ ЯЗЫК И ПРИНЦИПЫ ЕГО ПРЕПОДАВАНИЯ В ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ БАХТИЯРА ВАГАБЗАДЕ

Xülasə. Məqalədə Xalq şairi Bəxtiyar Vahabzadənin pedaqoji fəaliyyətində ana dilinin təbliği və tədrisi məsələləri geniş şəkildə araşdırılır. Şairin ana dilinə olan yüksək sevgisi onun şeirlərində, elmi və publisistik yazılarında, pedaqoji fikirlərində öz əksini tapır. Əsərlərində dilin milli kimlik, vətəndaşlıq borcu və azadlıq rəmzi kimi təqdim olunması Vahabzadənin dilə münasibətinin dərinliyindən xəbər verir. Bununla yanaşı, pedaqoq-alim kimi onun dil tədrisinə yanaşması, müəllim-şagird münasibətlərində humanist dəyərlərə verdiyi önəm vurğulanır.

Açar sözlər: *Bəxtiyar Vahabzadə, ana dili, dilin tədrisi, pedaqoji fikir, milli varlıq, vətəndaşlıq mövqeyi, dil sevgisi.*

Abstract. The article examines in detail the issues of propaganda and teaching of the native language pedagogical activity of the people's poet Bakhtiyar Vahabzade. The poet's great love for his native language is reflected in his poems, scientific and journalistic works, pedagogical ideas. The presentation of language in his works as a symbol of national identity, civic duty and freedom testifies to the depth of Vahabzade's attitude to language. At the same time, his approach to teaching language as a teacher-scientist and the importance he attached to humanistic values in teacher-student relations are emphasized.

Keywords: *Bakhtiyar Vahabzade, native language, language teaching, pedagogical idea, national existence, civic position, love of language.*

Аннотация. В статье подробно рассматриваются вопросы пропаганды и преподавания родного языка в педагогической деятельности народного поэта Бахтияра Вагабзаде. Высокая любовь поэта к родному языку отражена в его стихах, научных и публицистических трудах, педагогических идеях. Представление языка в его произведениях как символа национальной идентичности, гражданского долга и свободы свидетельствует о глубине отношения Вагабзаде к языку. При этом подчеркивается его подход к преподаванию языка как учителя-ученого и значение, которое он придавал гуманистическим ценностям в отношениях учитель-ученик.

Ключевые слова: *Бахтияр Вагабзаде, родной язык, преподавание языка, педагогическая идея, национальное бытие, гражданская позиция, любовь к языку.*

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, dramaturq, ədəbiyyatşünas alim və pedaqoq,

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü (akademiki), filologiya elmləri doktoru, professor, Xalq şairi Bəxtiyar Mahmud oğlu Vahabzadə yaradıcılığı ilə milli-mənəvi dəyərlərimizin qorunması və inkişafında əvəzsiz xidmətlər göstərmişdir. Onun pedaqoji fəaliyyəti Azərbaycan dilinin saflığı, təbliği və inkişafı naminə əsl vətəndaşlıq nümunəsidir. Ədəbi, elmi və pedaqoji fəaliyyətində ana dilinə sevgi və ehtiram Bəxtiyar Vahabzadənin əsas mövzularındandır. Sözün qüdrətini hər zaman üstün tutan şair ana dilinin və bu dildə işlənən sözlərin bir insanın sosial-psixoloji sağlamlığında nə qədər önəmli olduğunu bütün yaradıcılığı boyu ifadə etməyə çalışmışdır. "Eşq olsun o söz ustadına ki, sözün rəngini deyil, ətrini üzə çıxarıb cövhərini bizə göstərə bilir", sözləri buna bariz nümunədir [7, s.184].

Bəxtiyar Vahabzadə öz əsərlərində dilin xalqın ruhu, psixologiyası və mənəviyyatının ifadəsi olduğunu dəfələrlə vurğulamışdır. O, ana dilinə biganə münasibəti sərt tənqid etmiş, dilin dövlət səviyyəsində işlənməsi və qorunmasının vacibliyini xüsusi qeyd etmişdir. Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatının nadir şəxsiyyətlərindən biri kimi öz yaradıcılığında ana dilini yalnız ünsiyyət vasitəsi deyil, milli kimliyin, mədəniyyətin və tarixi yaddaşın daşıyıcısı kimi təqdim etmişdir. Onun fikrincə, dil xalqın ruhudur; o, yalnız nitq forması deyil, bir millətin tarix boyu qazandığı mənəvi təcrübənin, estetik dünyagörüşünün, əxlaq və adət-ənənələrinin ifadə vasitəsidir. Vahabzadə bu baxışı ilə dilin sırf texniki deyil, dərin fəlsəfi və sosiomədəni dəyər daşıdığını sübut edir. Şairə görə dilini bilməyən insanlar üçün vətən məfhumu şəxsi yurd, millət ideyası isə yaxın qohum deməkdir. Ana dilini bilməyən fərdlər millətin ruhuna, mənəviyyatına, tarixi şüuruna biganədirlər və o xalqın övladı deyillər [6, s.15].

Şairin məşhur "Ana dili" və "Latın dili" şeirləri onun bu mövzuya olan həssas və konseptual yanaşmasının bariz nümunələridir. "Ana dili" şeirində dilin insan həyatında oynadığı rolu ilk layladan tutmuş milli özünüdərketməyə qədər poetik bir kompozisiya ilə təqdim edir. Bu şeirdə dilə yalnız fərdi münasibət deyil, kollektiv – yəni xalqın yaddaşı, hissiyyatı və birliyi prizmasından yanaşılır. Misralarda "Dil – bizim ruhumuz, eşqimiz, canımızdır..." kimi ifadələrlə Vahabzadə dilin yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda mənəvi-emosional bağların əsasını təşkil etdiyini bildirir [3, s.11]. Bu, eyni zamanda onun pedaqoji mövqeyidir – dilin uşaqlıqdan düzgün və sevgi ilə öyrədilməsi insanın psixoloji və mədəni inkişafında əvəzolunmaz rol oynayır.

Digər tərəfdən, "Latın dili" şeiri çoxqatlı məna strukturu ilə seçilir. Bu əsərdə şair bir tərəfdən artıq danışıq dili kimi sıradan çıxmış latın dilinin elmi və mədəni funksiyalarla yaşamasını təhlil edir, digər tərəfdən isə yaşadığı dövrdə doğma Azərbaycan dilinə göstərilən laqeyd münasibəti tənqid edir. Əsas ideya budur: bir dil yalnız "ölü" sayıldığı üçün yox, onun daşıyıcıları susduğu üçün yox olur. Əgər bir dil yalnız rəsmi sənədlərdə yox, gündəlik həyatda, ailədə, məktəbdə, elm və mədəniyyətdə geniş şəkildə istifadə olunmursa, onun gələcəyi təhlükə altındadır. Vahabzadə bu məqamda Sovet dövründə ana dilinin sıxışdırılmasını, onun tədrisdən və rəsmi idarəçilikdən uzaqlaşdırılmasını tənqid edir və "öz ana dilində azadlıq və xoşbəxtlik sözlərini deməyə ixtiyarı olmayan insanın azadlığı yoxdur" – qənaətinə gəlir [4, s.163, 164].

Bu poetik nümunələr, eyni zamanda şairin vətəndaş mövqeyini də ortaya qoyur. Vahabzadə üçün dil sevgisi yalnız nostalji və emosional bir yanaşma deyil, milli azadlıq və şəxsiyyət bütövlüyü məsələsidir. Onun fikrincə, bir millət öz dilində düşünmədikcə, hiss etmədikcə və danışmadıqca, o, başqa millətlərin mədəni təsiri altında öz kimliyini itirmək təhlükəsi ilə üz-üzə qalır.

Ədəbiyyat və pedaqogikanı birləşdirən bu baxışlar onun tədrisi metodikasında da yer almışdır. O, şagirdin ana dili ilə tanışlığının yalnız texniki qrammatika biliklərinə deyil, dilin ruhuna, bədii-estetik dəyərinə əsaslanmalı olduğunu vurğulayırdı. Beləliklə, Bəxtiyar Vahabzadənin ana dili ilə bağlı fikirləri həm poeziya, həm də təhsil kontekstində aktual və strateji önəm daşıyır.

B. Vahabzadənin ana dilinə, bu dildə tədrisə verdiyi önəm, hələ XX əsrin əvvəllərində maarifçi ziyalılarımızın da əsas ideoloji xətlərindən biri idi. "Molla Nəsrəddin" jurnalı və digər publisistik nəşrlər, müxtəlif ədib və şairlərin pedaqoji düşüncələri təlimin ana dilində aparılması, bu dildə dərslik və dərs vəsaitləri hazırlamaq, proq-

ram tərtib etmək kimi siyasi-strateji problemlərə məhz bu dövrdən işıq tutmuşdur [1, s.72].

B. Vahabzadə yalnız şair və ictimai xadim deyil, eyni zamanda yüksək səviyyəli pedaqoq kimi tanınırdı. Bəxtiyar Vahabzadə Azərbaycan elmi və ədəbiyyatı üçün həm böyük söz ustası, həm də parlaq pedaqoq kimi dəyərli simalardan biri olmuşdur. Onun pedaqoji fəaliyyəti yalnız dərs demək və ya universitet auditoriyalarında mühazirə oxumaqla məhdudlaşmırdı; əksinə, bu fəaliyyət onun milli ideologiya və ana dilinə bağlılıq fəlsəfəsinin təbii davamı idi. O, müəllimlik missiyasını millətə xidmət kimi görür, təlim-tərbiyəni yalnız akademik biliklərin ötürülməsi yox, milli mənliyin formalaşdırılması prosesi kimi qəbul edirdi. Bakı Dövlət Universitetində professor kimi çalışdığı illərdə B. Vahabzadə tələbələrin mənəvi və intellektual inkişafına xüsusi diqqət yetirirdi. Onun dərsləri yalnız quru nəzəri biliklər vermir, tələbəni düşünməyə, hiss etməyə və sorğulamağa təşviq edirdi. O, təhsildə "əyanilik prinsipi"ni vacib pedaqoji metod kimi qəbul edirdi. Vahabzadəyə görə, tədris yalnız informasiya ötürmək deyil, həyatın canlı faktları üzərindən düşünmək, nəticə çıxarmaq və dəyərləndirmə qabiliyyəti formalaşdırmaqdır. Bu mənada o, mücərrəd tədris üsullarından uzaq olaraq real həyatla bağlı, konkret misallar və ədəbi nümunələr üzərində qurulmuş dərslərə üstünlük verirdi. B. Vahabzadə pedaqoji yaradıcılığı ilə ədəbi fəaliyyətini nəinki eyni zamanda daşıya bilir, bu iki sahənin vəhdətindən milli-mənəvi dəyərlərimizin inkişafında geniş istifadə etməyə çalışırdı.

Şairin özü də dediyi kimi:

Yarıya bölünür günüm, saatım!
Vaxt mənim sərvətim, mənim varımdır!
Müəllimlik -mənim günüm, həyatım,
Şairlik - ən uca duyğularımdır. [5, s.365]

B. Vahabzadə ədəbiyyatın tədrisində bədii təsvir vasitələrindən – təşbeh, mübaliğə, metafora və digər sənətkarlıq üsullarından istifadəyə xüsusi önəm verirdi. Onun fikrincə, bu üsullar şagird və tələbənin dərslə emosional bağ qurmasına, mövzunu yalnız başla deyil, həm də qəlblə dərk etməsinə şərait yaradır. Şairə görə gənclərlə bir yerdə olmaq, onların istək və arzularını bilmək və bu arzularla yaşamaq, gənclik duyğuları ilə nəfəs almaq onu həyata bağlayır, hər gün ilhamını təzələyirdi [2, s.11]. Belə bir yanaşma təkcə təlimin effektivliyini artırmır, həm də milli ruhun gənc nəslin düşüncə sisteminə hopmasını təmin edirdi.

Bəxtiyar Vahabzadənin pedaqoji metodologiyasında psixoloji yanaşma ön planda idi. O, uşağın və gəncin dünyagörüşünü, hiss və qavrayış imkanlarını nəzərə alaraq, tədris prosesini şagirdin mənəvi dünyasına uyğunlaşdırmağı vacib sayırdı. O deyirdi ki, uşaq üçün yazmaq və tədris etmək çətindir, çünki bunun üçün uşağın aləmini dərindən anlamaq, onun dünyasını hiss etmək və ona uyğun ünsiyyət dili tapmaq lazımdır. Bu yanaşma, müasir pedaqogikada da tətbiq edilən "şagirdmərkəzli" tədris modelinə uyğun gəlir.

Vahabzadənin tədrisə yanaşmasında mühüm yer tutan bir digər amil də milli dəyərlərə söykənmək idi. O, müəllimi cəmiyyətin mənəvi sütunu kimi görür və hesab edirdi ki, müəllim öz şəxsi nümunəsi ilə gənclərdə milli şüurun və vətənpərvərliyin formalaşmasına xidmət etməlidir. Bu kontekstdə müəllim yalnız fənn biliklərini çatdıran deyil, həm də gənc insanın dünyabaxışını formalaşdıran şəxsiyyət olmalıdır. Elə bu səbəbdəndir ki, Bəxtiyar Vahabzadə pedaqoji fəaliyyəti dövründə həm müəllim, həm vətəndaş, həm də sənətkar məsuliyyətini bir arada daşımağı bacarmışdır. Nəticə etibarilə, Bəxtiyar Vahabzadənin pedaqoji fəaliyyəti müasir tədris prosesində aktual olaraq qalan dəyərlərə əsaslanır: vətən sevgisi, ana dilinə hörmət, şagirdin şəxsiyyətinə dəyər verməк və tədrisdə humanist yanaşma. Onun metodları bu gün də Azərbaycan təhsilində tətbiq edilə biləcək nümunəvi yanaşmalardır. Ədəbiyyat dərslərinin şagirdin ruhunda milli dəyərlərə bağlılıq yaratmalı olduğunu bildirən B. Vahabzadə, müəllimin yalnız bilikli deyil, eyni zamanda yüksək mənəviyyat sahibi olmasının vacibliyini vurğulayırdı. O, müəllimi "ilk dost, mənəvi ata" kimi dəyərləndirərək bu peşənin cəmiyyətin təməllərindən biri olduğunu göstərmişdir.

Bəxtiyar Vahabzadə ömrü boyu ana dilinin təbliği və tədrisi sahəsində misilsiz xidmətlər göstərmişdir. Onun yaradıcılığı və pedaqoji baxışları bu gün də aktualdır və Azərbaycan dilinin qorunması istiqamətində dəyərli örnəkdir. O, ana dilini xalqın milli varlığının təməli kimi qiymətləndirmiş və bu dəyərlərin gələcək

nəsillərə ötürülməsini özünün mənəvi borcu saymışdır.

Problemin aktuallığı. Müasir dövrdə qloballaşma və informasiya cəmiyyətinin genişlənməsi nəticəsində ana dilinin qorunması və düzgün tədrisi məsələsi daha da aktuallaşmışdır. Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, yeni nəsillərə sevdirilməsi və öyrədilməsi milli kimliyin əsas dayaqlarındandır. Xalq şairi Bəxtiyar Vahabzadənin ana dili ilə bağlı fikirləri və mübariz mövqeyi bu kontekstdə dəyərləndirilməli və bu günümüz üçün aktual nümunə kimi təqdim edilməlidir. Onun dilə olan yanaşması, xüsusilə, gənclərin milli tərbiyəsində və mənəvi formalaşmasında dilin rolunu önə çəkməsi, bu problemin hələ də öz əhəmiyyətini itirmədiyini sübut edir.

Problemin yeniliyi. Məqalədə ana dili məsələsi yalnız ədəbi baxımdan deyil, eyni zamanda pedaqoji və ictimai-siyasi kontekstdə araşdırılır. Bu yanaşma Vahabzadənin ana dili ilə bağlı fikirlərini yalnız poetik ifadə kimi deyil, pedaqoji konsepsiya və milli ideologiya çərçivəsində qiymətləndirməyə imkan verir. Bu, məsələyə çoxşaxəli, sistemli yanaşmanı təmin edir və şairin pedaqoji baxışlarının indiki təhsil sistemi üçün necə aktual və faydalı ola biləcəyini göstərir. Xüsusilə dil tədrisində istifadə edilə biləcək prinsiplərin Vahabzadənin yaradıcılığından çıxarılması elmi və metodik yenilikdir.

Problemin praktik əhəmiyyəti. Bəxtiyar Vahabzadənin ana dili ilə bağlı fikirləri və pedaqoji yanaşması Azərbaycan məktəblərində və ali təhsil müəssisələrində dilin tədrisi prosesində tətbiq oluna biləcək real metodiki baza yaradır. Onun dilə emosional-mənəvi yanaşması təhsil prosesində dil sevgisinin formalaşdırılması üçün əsaslı təməl rolunu oynayır. Məqalədəki təhlillər və nəticələr dil müəllimləri, pedaqoqlar və təhsil mütəxəssisləri üçün praktikiyönlü tövsiyələr kimi dəyərləndirilə bilər. Bu baxımdan mövzu, yalnız nəzəri deyil, həm də praktik baxımdan əhəmiyyətlidir.

Ədəbiyyat:

1. Əhmədov, H.M. Mollanəsrəddinçilərin maarifçilik ideyalarına həsr olunmuş layiqli töhfə. “Azərbaycan məktəbi”, -2018, -s.72-76
2. Kərimova, S. Bəxtiyar Vahabzadə yaradıcılığında tərbiyə məsələləri / Ş,. Kərimova. -Bakı: Nurlan, -2009. -154 s.
3. Vahabzadə, B. Ana dili [Mətn]: Azərbaycan. -2025.- 8 aprel (№ 67). - s.11.
4. Vahabzadə, B. Gəlin açıq danışaq (Məqalələr toplusu) / B. Vahabzadə. -Bakı: Azərnəşr, -1989. -220 s.
5. Vahabzadə, B. Seçilmiş əsərləri, 2 cilddə, II c. / B. Vahabzadə. -Bakı: Yazıçı, 1984. -458 s.
6. Vahabzadə, B. İstiqlal / B. M. Vahabzadə / B. Vahabzadə. - Bakı: Gənclik, -1999. - 495 s.
7. Xəlilov, B. Bəxtiyar Vahabzadənin dilçilik görüşləri / V. Xəlilov. -Bakı: Bakı Çap Evi, -2014. -244 s.

Redaksiyaya daxil olub: 09.09.2025.

UOT 37.01

Ənvər Məhəmməd oğlu Abbasov
Bakı Slavyan Universiteti rektorunun məsləhətçisi,
pedaqogika üzrə fəlsəfə doktoru,
dosent, Əməkdar müəllim
https://orcid.org/0000-0002-0811-549X
E-mail:abbasov_anver@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(5).20-27

ELMİ-PEDAQOJİ YAZILARIN DİLİ: NƏZƏRİ VƏ PRAKTİK ASPEKTLƏR

Anvar Mahammad Abbasov
advisor to the rector at Baku Slavyan University , doctor of philosophy in pedagogy, associate professor, Honored teacher

LANGUAGE OF SCIENTIFIC-PEDAGOGICAL WRITINGS: THEORETICAL AND PRACTICAL ASPECTS

Анвар Магомед оглы Аббасов
советник ректора Бакинского Славянского Университета
доктор философии по педагогике,
доцент, Заслуженный учитель

ЯЗЫК НАУЧНО-ПЕДАГОГИЧЕСКИХ ТЕКСТОВ: ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ АСПЕКТЫ

Xülasə. Elmi-pedaqoji jurnallar elmi biliklərin yayılması, pedaqoji təcrübələrin paylaşılması və akademik diskursun formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu jurnalların dili yalnız informasiya ötürmək vasitəsi deyil, həm də elmi düşüncənin, metodoloji yanaşmaların və müəllif mövqeyinin ifadə olunduğu diskursiv alətdir. Məqalədə elmi-pedaqoji yazıların dili funksional, stilistik və üslubi baxımdan təhlil olunur, mövcud problemlər araşdırılır və onların həlli yolları təklif edilir. Tədqiqat Azərbaycan dilində nəşr olunan jurnallara əsaslansa da, müqayisəli təhlil yolu ilə ingilis və rus dillərindəki nümunələr də nəzərdən keçirilir.

Nəticədə müəyyən olunur ki, Azərbaycan jurnallarında struktur sabitliyi və elmi obyektivlik müsbət meyllər kimi mövcuddur. Lakin terminoloji sabitlik, sintaktik yığcamlıq, ifadə dəqiqliyi və metodoloji əsaslandırma baxımından hələ də inkişaf potensialı mövcuddur. Xüsusilə müəllif mövqeyinin passiv şəkildə ifadəsi, elmi arqumentasiyanın zəif qurulması və bəzi məqalələrdə emosional üslubun üstünlük təşkil etməsi elmi diskursun keyfiyyətinə mənfi təsir göstərir.

Araşdırma göstərir ki, elmi-pedaqoji yazının dili yalnız texniki alət deyil, həm də pedaqoji vasitə kimi çıxış etməlidir. Ona görə də bu sahədə davamlı təkmilləşmə, terminoloji standartların formalaşdırılması və akademik yazı bacarıqlarının inkişaf etdirilməsi mühüm ehtiyac olaraq qalır.

Açar sözlər: *elmi üslub, pedaqoji diskurs, elmi jurnallar, akademik yazı, dil və üslub, Azərbaycan dili*

Abstract. Scientific-pedagogical journals are of great importance in terms of disseminating scientific knowledge, sharing pedagogical experiences and forming academic discourse. The language of these journals is not only a means of transmitting information, but also a discursive tool in which scientific thought, methodological approaches and the author's position are expressed. The article analyzes the language of scientific-pedagogical writings from a functional, stylistic and stylistic point of view, examines existing problems and suggests ways to solve them. Although the study is based on journals published in Azerbaijani, ex-

amples in English and Russian are also considered through comparative analysis.

As a result, it is determined that structural stability and scientific objectivity exist as positive trends in Azerbaijani journals. However, there is still potential for development in terms of terminological stability, syntactic conciseness, accuracy of expression and methodological justification. In particular, the passive expression of the author's position, the weak construction of scientific argumentation, and the dominance of an emotional style in some articles negatively affect the quality of scientific discourse.

The study shows that the language of scientific and pedagogical writing should act not only as a technical tool, but also as a pedagogical tool. Therefore, continuous improvement in this area, the formation of terminological standards, and the development of academic writing skills remain an important need.

Keywords: *scientific style, pedagogical discourse, scientific journals, academic writing, language and style, Azerbaijani language*

Аннотация. Научные и педагогические журналы играют важную роль в распространении научных знаний, обмене педагогическим опытом и формировании академического дискурса. Язык этих журналов является не только средством передачи информации, но и дискурсивным инструментом, в котором выражаются научная мысль, методологические подходы и позиция автора. В статье анализируется язык научных и педагогических текстов с функциональной и стилистической точек зрения, рассматриваются существующие проблемы и предлагаются пути их решения. Хотя исследование основано на журналах, издаваемых на азербайджанском языке, примеры на английском и русском языках также рассматриваются посредством сопоставительного анализа.

В результате установлено, что структурная устойчивость и научная объективность являются положительными тенденциями в азербайджанских журналах. Однако все еще существует потенциал для развития с точки зрения терминологической устойчивости, синтаксической лаконичности, точности выражения и методической обоснованности. В частности, пассивное выражение авторской позиции, слабое построение научной аргументации и преобладание эмоционального стиля в некоторых статьях негативно сказываются на качестве научного дискурса.

Исследование показывает, что язык научно-педагогического письма должен выступать не только как технический, но и как педагогический инструмент. Поэтому постоянное совершенствование в этой области, формирование терминологических стандартов и развитие навыков академического письма остаются важной потребностью.

Ключевые слова: *научный стиль, педагогический дискурс, научные журналы, академическое письмо, язык и стиль, азербайджанский язык*

Zamanın tələbləri dəyişdikcə, elmin və təhsilin dili də dəyişir. Bu dəyişikliklər, bir tərəfdən, cəmiyyətin intellektual inkişafına paralel olaraq yeni kommunikasiya formalarının meydana gəlməsinə səbəb olur. Digər tərəfdən isə akademik diskursun keyfiyyətinə birbaşa təsir göstərir. Elmi-pedaqoji jurnallar bu diskursun ən mühüm təzahür formalarından biri kimi çıxış edir. Onların dili yalnız məlumat ötürmək vasitəsi deyil, eyni zamanda, elmin dərkedilmə formasını, tədqiqatçının düşüncə mədəniyyətini və müəllifin öz fikrini təqdimetmə bacarığını əks etdirən güclü bir alətə çevrilir.

Elmi-pedaqoji jurnalların dili, bir növ, təhsil və elmi düşüncə arasında körpü rolunu oynayır. Bu jurnallar vasitəsilə alimlər, müəllimlər və tədqiqatçılar arasında informasiya axını təmin olunur, ideyalar paylaşılır, metodoloji yanaşmalar yayılır. Məhz bu səbəbdən, həmin jurnalların dili yalnız elmi dəqiqliklə deyil, həm də pedaqoji qavrayışla formalaşdırılmalıdır. Yəni dil sadəcə yazılı ünsiyyət vasitəsi deyil, həm də oxucuya yönəlmiş pedaqoji vasitə funksiyasını yerinə yetirməlidir.

Elmi yazının əsas tələbi obyektivlik, aydınlıq və dəqiqlik olduğu kimi, pedaqoji yazının da özünə xas tələbləri vardır. Bu tələblərdən anlaşıqlılıq, strukturlaşdırılmış və oxucu yönümlü növləri qeyd etmək olar. Bu xüsusiyyətin sintezi elmi-pedaqoji jurnalların dilinin formalaşdırılmasının əsasını təşkil edir. Lakin real vəziyyət bu sahədə müəyyən qarışıqlıqların, uyğunsuzluqların olmasını göstərir. Həmçinin üslub pozuntuları və terminoloji dolaşıqlıqlar müşahidə olunur. Bəzən məqalələrdə dil normativliyi pozulur, fikir ifadəsində qeyri-dəqiqlik yaranır, elmi-pedaqoji üslubun əsas prinsiplərinə əməl edilmir. Bu isə, nəticə etibarilə, həm elmi informasiyanın səmərəli ötürülməsinə, həm də tədris mühitində istifadə olunmasına maneçilik törədir.

Məqalənin əsas məqsədi elmi-pedaqoji jurnalların dilinin funksional və üslubi xüsusiy-

yətlərini təhlil etmək, bu sahədə mövcud problemləri üzə çıxarmaq və mümkün həll yollarını təklif etməkdən ibarətdir. Tədqiqatda Azərbaycan dilində nəşr olunan elmi-pedaqoji jurnalların dili əsas araşdırma obyekti kimi götürülmüşdür. Eyni zamanda, müqayisəli yanaşmalarla digər dillərdəki nümunələrə də istinad edilmişdir. İşin metodoloji əsasında deskriptiv-linqvistik təhlil, müşahidə və müqayisə üsulları dayanır.

Bu araşdırma həm elmi üslubun inkişafına töhfə verməklə, həm də müəlliflərin, tədqiqatçıların və redaktorların yazı prosesində qarşılaşdıqları dilemmaları daha aydın görmələrinə yardımçı olmaq niyyətini daşıyır. Çünki elmi bilik nə qədər dərin olsa da, onu daşıyan dil aydın olmadıqda, bilik öz gücünü zəiflədir.

TƏDQİQAT VƏ NƏTİCƏLƏR

1. Elmi-pedaqoji jurnallarının ümumi xarakteristikası

Elmi-pedaqoji jurnallar müasir akademik mühitin intellektual qan damarlarından biridir. Bu jurnallar elm adamlarının, müəllimlərin, tədqiqatçıların və magistrantların yaratdığı bilik məhsullarını sistemləşdirərək elmi ictimaiyyətə təqdim edən vasitə kimi çıxış edir. Onların əsas vəzifəsi təkcə yeni elmi nəticələri yaymaqla məhdudlaşmır, eyni zamanda, bu nəticələri pedaqoji cəmiyyətin istifadəsinə yönəltmək, tədris prosesini linqvistik əsasda gücləndirmək və maarifçilik funksiyasını yerinə yetirməkdən ibarətdir.

Elmi-pedaqoji jurnalların xarakterik xüsusiyyətlərindən biri onların çoxsəviyyəli auditoriyaya yönəlik olmasıdır. Əgər linqvistik jurnallar daha çox dar ixtisas sahəsinə və elmi metodlara əsaslanırsa, pedaqojiyönlü elmi jurnallar həm nəzəriyyəni, həm də onun praktik tərəflərini əhatə etməklə daha geniş fəaliyyətə malik olur. Bu səbəbdən onların dili, strukturu və təqdimat forması daha çevik və oxucuyönlü olmalıdır.

Elmi-pedaqoji jurnalların funksionallığı, ilk növbədə, onun dil, üslub, ifadə tərzi ilə bağlıdır. Hər şeydən əvvəl, bu cəhətlər dilin imkanlarından qaynaqlanmalıdır. Məlumdur ki, dil öz məcrasında inkişaf edir, gündən-günə formalaşır. Dildə yazılan kitablar, meydana gələn mətbuat, dilin yazı qatında olan bütün yaradıcılıq nümunələri onun fəaliyyətini və unikal bir sosial varlıq kimi inkişafını qidalandırır. Təbii olaraq dilin funksional bölgüləri yaranır. Bu bölgüləri müxtəlif cür qruplaşdırmaq olar. Araşdırmalar göstərir ki, bu gün Azərbaycan dilinin funksionallığını aşağıdakı kimi qruplaşdırmaq daha məqsədəuyğundur.

Elmi informasiya funksiyası: Tədqiqat nəticələrinin yayılması və yeni elmi biliklərin dövriyyəyə daxil edilməsi.

Pedaqoji funksiya: Tədris prosesində istifadə oluna biləcək metodoloji və nəzəri materialların təqdim edilməsi.

Analitik funksiyası: Mövcud təhsil problemlərinin tədqiqi və təhlili, eləcə də yeni yanaşmaların irəli sürülməsi.

Maarifçilik funksiyası: Geniş pedaqoji ictimaiyyətin elmi düşüncəyə cəlb edilməsi və akademik biliklərin populyarlaşdırılması.

Elmi-pedaqoji jurnalların struktur xüsusiyyətlərinə gəldikdə, bu nəşrlərdə məqalələr, adətən, aşağıdakı komponentlərdən ibarət bir sistemdə hazırlanır və çap edilir: problemin qoyuluşu, tədqiqatın məqsədi və metodu, əsas hissə (nəticələrin təqdimatı və müzakirəsi), nəticə və ədəbiyyat siyahısı. Bəzi jurnallarda əlavə olaraq xülasələr (Azərbaycan, rus və ya ingilis dillərində), açar sözlər və müəllif haqqında qısa məlumatlar da yer alır.

Məzmun baxımından, bu jurnallarda təhsil siyasəti, pedaqoji texnologiyalar, kurikulum tədqiqatları, müəllim hazırlığı, təhsildə innovasiyalar, tədris metodikası və digər aktual istiqamətlər üzrə məqalələrə yer verilir. Elmi səviyyənin təmin olunması üçün məqalələr adətən ikili və ya üçlü kor-referi sistemi ilə ekspertiza olunur. Bu isə həmin jurnallarda keyfiyyətli və etibarlı bilik mübadiləsinə zəmanət verir.

Eyni zamanda, bu jurnallar akademik nitq mədəniyyətinin inkişafı üçün mühüm platformadır. Tədqiqatçı yalnız ideyalarını deyil, həm də yazı üslubunu təkmilləşdirərək intellektual məsuliyyət daşıyır. Bu baxımdan elmi-pedaqoji jurnallar təkcə məlumat ötürən deyil, həm də akademik yazı bacarıqlarını formalaşdıran və təkmilləşdirən məkandır.

Təəssüf ki, bəzi hallarda bu jurnallarda məqalələrin dili, təqdimat forması və elmi yükü arasında balans gözlənilmir. Bəzi məqalələrdə elmi üslubun normativ qaydaları pozulur, informativlik azalır və ya tədqiqat probleminin aktuallığı zəif əsaslandırılır. Bu kimi hallar elmi-pedaqoji nəşrlərin ümumi keyfiyyətinə mənfi təsir

göstərir və akademik diskursun inkişafını ləngidir.

Beləliklə, elmi-pedaqoji jurnallar yalnız məqalələrin dərc edildiyi bir platforma deyil, həm də elmi və pedaqoji düşüncənin formalaşdırıldığı və yayımına xidmət edən strateji bir məkandır. Onların dili, strukturu və məqsədi bu funksiyaları uğurla yerinə yetirməyə yönəlmiş olmalıdır. Məhz bu xüsusiyyətlər elmi-pedaqoji jurnalları digər nəşr növlərindən fərqləndirir və onların unikal elmi-pedaqoji dəyərini müəyyən edir.

2. Dil elmi informasiyanın daşıyıcısı kimi

Elmi-pedaqoji jurnalların əsas məqsədi yeni biliklərin elmi ictimaiyyətə çatdırılmasıdır. Bu məqsədə çatmaq üçün istifadə olunan dil dəqiq, lakonik və sistemli olmalıdır. Ona görə də elmi yazılarda sözlərin mənaca yüklü və funksional cəhətdən məqsədəuyğun olmasına xüsusi olaraq diqqət yetirilir. Akademik yazılarda qəti hökm bildirən, sübuta əsaslanan və arqumentləşdirilmiş fikirlərə üstünlük verilir (Əliyeva, 2019). Məsələn, sadə "Düşünürəm ki..." əvəzinə, "Tədqiqat nəticələri göstərir ki..." formasında təqdimat daha məqbul hesab edilir.

Elmi-pedaqoji jurnallarda təqdim olunan məqalələr yalnız elm adamları üçün deyil, həm də praktik müəllimlər, magistrantlar və doktorantlar üçün nəzərdə tutulur. Buna görə də həmin məqalələr həm dil baxımından, həm elmi, həm də pedaqoji cəhətdən mükəmməl olmalıdır. Yəni dəqiqlik və obyektivlik gözlənilməli, həmçinin anlaşıqlı və izahlı cəhətləri ilə maraq doğurmalıdır. Təcrübələr göstərir ki, dildən belə istifadə olunması oxucunun mövzunu daha rahat mənimsəməsinə şərait yaradır.

Elmi-pedaqoji jurnallarda dilin strukturu sistemli düşüncə prosesini əks etdirməlidir. Bu, oxucunun məqaləni ardıcıllıqla izləməsinə və əsas məqamları düzgün mənimsəməsinə şərait yaradır. Məqalə daxilində bölmələrin məntiqi əlaqəsi, keçid ifadələri, səbəb-nəticə əlaqələrinin düzgün qurulması diskursun səmərəli təşkilinə xidmət edir.

Elmi diskursda tez-tez istifadə olunan strukturlaşdırıcı ifadələr – “araşdırmanın məqsədi ondan ibarətdir ki…”, “nəticə etibarilə…”, “buradan belə qənaətə gəlmək olar ki…” oxucunu yazının məntiqi quruluşuna istiqamətləndirir (Məmmədova, 2020).

Elmi-pedaqoji jurnallarda terminlərin istifadəsi xüsusi diqqət tələb edir. Terminlər elmi dəqiqliyin əsas göstəricisidir. Həmçinin, bir çox terminlərin kontekstə uyğun izahı və ya şərhi, xüsusən pedaqoji auditoriya üçün olduqca vacibdir. Məsələn, “formativ qiymətləndirmə”, “kompetensiya əsaslı yanaşma”, “diaqnostik metod” kimi ifadələr yalnız ad çəkilməklə yox, həm də izahlı şəkildə praktik olaraq təqdim edilməlidir. Elmi üslubda bu izahlar onun zəruri atributu olmaqla həm də fikri genişləndirmək, informasiyanı sistemə salmaq, onu digər biliklərlə əlaqələndirməklə mənalandırmaq vəzifəsini daşıyır. (Arzumanlının, 2016)

Beləliklə, elmi-pedaqoji jurnallarda dil sadəcə yazı vasitəsi deyil, çoxfunksiyalı bir rola malikdir. Onun elmi, pedaqoji, diskursiv və üslubi funksiyaları bir-biri ilə sıx əlaqədədir. Tədqiqatçının əsas məqsədi bu funksiyaları ahəngdar şəkildə birləşdirərək həm məzmunu, həm də formanı oxucu üçün əlçatan və faydalı etməkdən ibarət olmalıdır.

3. Elmi-pedaqoji diskursda üslub məsələləri

Akademik diskursda üslub sadəcə forma məsələsi deyil. Həm də məqalənin elmiliyini, etibarlılığını və funksionallığını müəyyən edən əsas komponentlərdən biri kimi çıxış edir. Elmi-pedaqoji jurnallarda müəllifin dil və üslub seçimi, onun tədqiqat obyektinə və oxucuya yanaşmasının göstəricisidir. Üslubun düzgün seçilməsi, fikirlərin ardıcıl və aydın şəkildə ifadə olunması həm məqalənin qəbul olunma ehtimalını artırır, həm də onun pedaqoji dəyərini yüksəldir.

Elmi-pedaqoji diskursun başlıca üslubi prinsipi obyektivlikdir. Müəllif fərdi emosiyalardan uzaq dayanmalı, subyektiv yanaşmanı deyil, fakt və arqumentləri önə çıxarmalıdır. Burada emosional ifadələrdən, bədii təsvirlərdən, ümumiyyətlə, qeyri-rəsmi üslubdan, çəkinməklə akademik düşüncələrin ifadə imkanlarına uyğun sintaktik və nitq modellərindən istifadə olunmalıdır. Faktlar nə qədər mülahizələrin sübutunda rol oynasa da, məsələnin qayəsini təşkil edən nəticələrə əsaslanan ümumiləşdirmə elmi arqument kimi təqdim edilməlidir. (Məmmədova, 2020). Buna görə "fikrimcə", "inanıram ki", "məncə" kimi ifadələrin yerinə", araşdırmalar göstərir ki", "nəticələrə əsasən", "mü-

şahidələr sübut edir ki" tipli neytral, fakt əsaslı ifadələrdən istifadə olunmalıdır.

Doğrudur, elmi üslub obyektivliyi tələb edir və bu, müəllifin öz mövqeyini gizlətməsi demək deyildir. Sadəcə, bu mövqe şəxsi təəssürat kimi deyil, elmi arqument kimi ifadə olunmalıdır. Yəni müəllif nəticəyə gəldikdə, onu öz subyektiv hissləri ilə deyil, tədqiqatın faktoloji və nəzəri əsasları ilə əsaslandırmalıdır.

İngilis dilində yazılan elmi-pedaqoji məqalələrdə müəlliflər tez-tez "I argue that...", "This study proposes..." kimi aktiv mövqe bildirən ifadələrdən istifadə edirlər. Azərbaycan dilində bu funksiyanı "Bu məqalədə irəli sürülür ki…", "Tədqiqat belə bir nəticəyə gəlməyə imkan verir ki…" tipli ifadələr yerinə yetirir. Bu, müəllifin məsuliyyətli və dəlillərə söykənən mövqeyini göstərir.

Elmi-pedaqoji yazının vacib xüsusiyyətlərindən biri qrammatik ardıcıllıq və sintaktik sabitlikdir. Cümlələrin həddindən artıq uzun, mürəkkəb və dolaşıq olması, fikrin aydınlığını zəiflədir. Buna görə də, hər bir fikir əsaslandırılmış, qrammatik baxımdan düzgün qurulmuş və məntiqi cəhətdən bir-biri ilə əlaqəli olmalıdır. Passiv cümlə quruluşlarına, funksional fellərə və mücərrəd ifadələrə üstün yer ayrılmalıdır. Çünki elmi diskursda sintaktik strukturların sabitliyi informasiyanın təkrarsız, lakin sistemli şəkildə təqdimini təmin edir. (Nəsibova, 2021)

Elmi-pedaqoji diskursda istifadə olunan terminlər müəyyən olunmuş məzmun çərçivəsində sabit qalmalıdır. Eyni anlayış üçün müxtəlif terminlərdən (sinonim məqamda işlənən) istifadə olunması oxucuda çaşqınlıq yarada bilər. Məsələn, "formativ qiymətləndirmə" ilə "diaqnostik qiymətləndirmə" arasındakı fərqi nəzərə almadan bu anlayışlardan eyni mətn daxilində qarışıq şəkildə istifadə etmək düzgün deyildir. Burada ifadə dəqiqliyi də xüsusi əhəmiyyət daşıyır. Akademik diskurs qeyri-müəyyənlikdən uzaq olmalı, hər fikir konkret fakt, metod və ya mənbəyə istinadla əsaslandırılmalıdır. Qeyri-müəyyən ifadələrin ("bəzi alimlər düşünür", "çox vaxt belə olur") əvəzində, istinadlı və ölçülə bilən ifadələr ("Azərbaycan dili üzrə tədqiqat aparan alimlərin araşdırmasına əsasən...", "sorğuda iştirak edən müəllimlərin 65%-i...") işlədilməlidir.

Elmi-pedaqoji diskursda üslub məsələləri, yazının elmi keyfiyyətini və pedaqoji təsir gücünü müəyyən edən mühüm göstəricilərdir. Bu üslubun əsas dayaqları obyektivlik, dəqiqlik, qrammatik ardıcıllıq, terminoloji sabitlik və elmi mövqeyin arqumentləşdirilmiş təqdimatı hesab edilir. Və bunlar öz növbəsində müəllifin məsuliyyətli tədqiqatçılıq pozisiyasını ifadə edir.

4. Azərbaycan dilində nəşr olunan elmi-pedaqoji jurnalların dil xüsusiyyətləri

Azərbaycan elmi mühitində pedaqoji-yönlü jurnallar həm ali təhsil müəssisələrinin nəzdində, həm də müstəqil elmi qurumlar tərəfindən nəşr olunur. Bu jurnalların əsas funksiyası pedaqoji biliklərin yayılması, tədqiqat nəticələrinin ictimaiyyətə çatdırılması və elmi diskursun təşkilidir. Onların bu məqsədə çatmaq üçün dil və üslub baxımından müəyyən keyfiyyət göstəricilərinə malik olması mühüm tələblərdəndir.

Jurnal nümunələri və ümumi müşahidələr. Azərbaycan dilində fəaliyyət göstərən əsas elmi-pedaqoji jurnallar sırasında aşağıdakılar xüsusilə qeyd edilməlidir:

"Azərbaycan məktəbi"

"Pedaqoji Universitetin Xəbərləri"

"Təhsil İnstitutunun Elmi Əsərləri"

Ümumi müşahidələrə əsasən demək olar ki, bu jurnalların dil və üslubuna dair onların böyük əksəriyyəti akademik dildə yazılmış, rəsmi və obyektiv üsluba uyğun məqalələr çap edir. Lakin bu yazılarda terminoloji yanaşma, ifadə dəqiqliyi, qrammatik konstruksiya və elmi strukturlaşdırmalardan istifadə baxımından bəzən fərqliliklər və qeyri-sabitliklər müşahidə olunur.

Üslub və dil normativləri. Bir çox məqalələrdə elmi üslubun əsas prinsiplərinə əməl edilsə də, bəzən mətndaxili emosional ifadələrə, sosial-məişət üslubuna xas frazeoloji vahidlərə, yaxud mövzuya uyğun olmayan dil konstruksiyalarına rast gəlmək olur.

Məsələn, "Bu məsələ artıq çoxdan müəllimlər arasında narahatlıq doğurur və buna bir carə tapılmalıdır. "Mövzu üzrə aparılmış sorğular göstərir ki, müəllimlərin böyük bir qismi bu sahədə ciddi çətinliklərlə üzləşir" (Həsənli, 2020).

Göründüyü kimi, əvvəlki cümlədə adi təsvir üstünlük təşkil etdiyindən elmi ifadə tərzi pozulmuşdur. Müəllifin emosional mövqeyi mətnə daxil edilməklə elmi diskurs zəifləmişdir.

Təcrübələr də onu göstərir ki, adətən adi söz və ifadələrdən istifadə onların məna yükünü adiləşdirməklə anlaşıqlı olmasını təmin edir və adi danışıq üslubu yaradır. Lakin uyğun elmi

anlayışların izahında və ifadəsində elmi səviyyənin yaranması baxımından tələbləri ödəyə bilmir. Beləliklə, Azərbaycan dilində olan elmi məqalələrin bəzilərində müşahidə olunan subyektiv dil konstruksiyaları, terminoloji qarışıqlıq və cümlə strukturunda uyğunsuzluqlar əmələ gəlir. Bu isə oxucu üçün olan zəruri elmi məlumatın qəbulunu çətinləşdirir. (Nəsibova, 2021)

Terminologiyanın tətbiqi və izahı. Terminoloji baxımdan bəzi jurnallarda vahidlik və ardıcıllıq prinsipləri pozulur. Eyni anlayış üçün bir neçə termin variantının istifadəsi, yaxud qlobal elmi terminlərin lokallaşdırılmadan, izahsız təqdim olunması oxucunun anlamasını çətinləşdirir.

Məsələn, "formativ qiymətləndirmə" anlayışı bəzən "diaqnostik qiymətləndirmə", "mərhələli qiymətləndirmə" və ya "dəstəkləyici qiymətləndirmə" terminləri ilə əvəz edilir. Halbuki bu anlayışların elmi-pedaqoji kontekstdə fərqli mənaları vardır. (Məmmədova, 2019)

Sintaktik struktur və cümlə quruluşları. Jurnallarda müşahidə olunan ümumi müsbət tendensiya sintaktik sabitlik və konseptual ardıcıllığın qorunmasıdır. Əksər məqalələrdə bölmə-bölmə təqdimat, giriş-nəticə bağlantısının qurulması və məntiqi keçidlər qorunur. Lakin bəzi hallarda qrammatik yüklü uzun cümlələr, abstrakt ifadələr və fikrin dağınıq təqdimatı nitqin elmiliyinin keyfiyyətini azaldır.

Məsələn, "Qeyd edilənlərdən yola çıxaraq demək olar ki, müəllimlər bu metodlara istinad etməklə şagirdlərə daha asan formada bilik verə bilərlər." "Müəllimlər, göstərilən metodlardan istifadə etməklə, şagirdlərin bilik qazanmasını asanlaşdıra bilərlər" (Əliyeva, 2021).

Göründüyü kimi, ikinci cümlədən fərqli olaraq birinci cümlədə fikrin dağınıq və qeyridəqiq ifadə tərzi vardır. İkinci cümlə birinciyə nisbətən daha lakonik olmaqla sintaktik sabitlik nümayiş etdirir.

Strukturun və metodoloji təqdimatın vəziyyəti. Azərbaycan dilində nəşr olunan bir çox jurnallarda məqalə strukturu - problem qoyuluşu, məqsəd, metodologiya, nəticə və təkliflər hissələri formal olaraq mövcuddur. Lakin bu hissələrin elmi əsaslandırılması və metod baxımından zənginliyi bəzən kifayət qədər qaneedici olmur. Tədqiqatın məqsədi bəyan edilsə də, onun necə və hansı metodla həyata keçirildiyi aydın göstərilmir.

Bəzi jurnallarda məqalələr bədii esse üslubuna yaxın təqdim olunaraq elmi analizin dərinliyindən uzaq qalır. Bu isə tədqiqatın nəticələrinin praktikada istifadəsini çətinləşdirir.

Ümumi qiymətləndirmə və nəticə. Azərbaycan dilində nəşr olunan elmi-pedaqoji jurnalların dili və üslubu ümumilikdə elmi normativlərə yaxın olsa da, müəyyən istiqamətlər üzrə sistemli təkmilləşdirilməsinə ehtiyac duyulur. Bir yanaşma olaraq bu sistemli təkmilləşdirilmənin aşağıdakı istiqamətlərdə aparılması məqsədəuyğun hesab edilir.

Terminoloji vahidlik və dəqiqliyin gözlənilməsi.

Elmi obyektivlik və neytral üslubun qorunması.

Sintaktik yığcamlığa və məntiqi ardıcıllığa əməl olunması.

Metodoloji şərhin dərinləşdirilməsi.

İlkin olaraq onu söyləmək olar ki, bu aspektlərdə təkmilləşmə, elmi-pedaqoji jurnalların həm yerli, həm də beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artıra bilər.

5. Digər dillərdəki elmi-pedaqoji jurnallarla müqayisə (qısa xülasə)

Qloballaşan dünyada elmi biliklərin sərhədləri artıq təkcə milli deyil, beynəlxalq müstəvidə müəyyən edilir. Bu baxımdan elmi-pedaqoji jurnalların dili həm lokal (daxili elmi cəmiyyət üçün), həm də beynəlxalq elmi dairələr üçün uyğun və anlaşıqlı olmalıdır.

Məlum olduğu kimi, ingilis dili müasir dünyada ən geniş yayılmış dillərdən hesab olunur və bu gün beynəlxalq səviyyədə daha çox istifadə edilir. Ona görə də bu dil müasir elmi kommunikasiya sistemində üstünlük qazanmaqla aparıcı rol oynayır və elmi üslubun inkişafına ciddi təsir göstərir. Eləcə də rus dilindəki elmi jurnallar postsovet məkanında pedaqoji elmin mühüm yayım platformalarından biri olaraq hələ də qalmaqdadır. Azərbaycanda bu jurnalların elmi-pedaqoji üslubun tələblərinə cavab verə bilməsi səviyyəsi baxımından tərkibi aşağıdakı kimidir.

İngilis dilində nəşr olunan elmi-pedaqoji jurnallar. İngilis dilində nəşr olunan jurnallarda (məsələn, *Teaching and Teacher Education (Tədris və müəllim təhsili), Journal of Educational Research (Təhsil Tədqiqatları Jurnalı), Educational Leadership Təhsil Rəhbərliyi)*) aşağıdakı üslub xüsusiyyətləri ön planda dayanır:

- dəqiq struktur və standartlaşdırılmış bölmələrin (IMRAD modeli: Introduction, Methods, Results, and Discussion) olması;

- sistemli terminologiya və qlobal səviyyədə qəbul olunmuş pedaqoji anlayışlardan istifadə edilməsi;

- aydın, yığcam və məqsədyönlü cümlə quruluşlarına istinad olunması;

- aktiv müəllif mövqeyi və elmi arqumentlərə əsaslanan diskussiyaların olması.

Bu jurnallarda müəllif öz mövqeyini faktlara əsaslanaraq açıq şəkildə bildirir.

Məsələn, bu araşdırma göstərir ki, formativ qiymətləndirmə üsulları şagird müstəqilliyini artırır.

Azərbaycan dilindəki jurnallarda isə bu cür açıq və fəal ifadələr nadir hallarda rast gəlinir, daha çox neytral, bəzən isə passiv üslub istifadə olunur.

Rus dilində elmi-pedaqoji jurnallar. Rus dilində nəşr olunan elmi-pedaqoji jurnallar (məsələn, *Pedaqogika, Narodnoye obrazovaniye, Psikhologiya*) daha çox klassik elmi üsluba sadiq qalmaqla onu davam etdirir. Eyni zamanda bu təcrübəni təqdir etməklə daha da genişləndirməyə calışır.

Bu jurnallardakı uğurları aşağıdakı kimi ümumiləşdirmək olar.

- fikrin ciddi dərəcədə əsaslandırılması, sitatlardan geniş istifadə edilməsi;

- elmi tədqiqatların fəlsəfi və nəzəri əsaslara söykənməsi;

- daha akademik və sintaktik cəhətdən mürəkkəb cümlələrdən istifadə olunması;

- tədqiqatçının səsini gizlədən passiv üslubun üstünlük təşkil etməsi.

Bunlar bəzi hallarda məqalənin anlaşılmasını çətinləşdirir, lakin elmi dərinlik baxımından onun keyfiyyətinin yüksəlməsinə təsir göstərir. Azərbaycan elmi jurnalları da bəzən bu üslubu model olaraq götürür, lakin sintaktik mürəkkəblik və aydınlıq baxımından tarazlıq saxlanılmır.

Azərbaycan jurnalları və beynəlxalq standartlar arasında nisbət. Azərbaycan müstəqilliyi dövründə istər siyasi, iqtisadi və istəsə də digər sahələrdə böyük uğurlar əldə etmişdir. O, bu gün dünyada qalib ölkə kimi özünün strateji inkişafını davam etdirməklə böyük quruculuq işləri aparır. Elm və nəşriyyat sahəsində də fəaliyyətini durmadan davam etdirir. Artıq ölkəmizdə nəşr olunan elmi-pedaqoji jurnallar struktur baxımından beynəlxalq standartlara yaxınlaşmaqdadır. Lakin dilin funksional imkanlarının yüksəlməsi, məqalə dilinin üslub keyfiyyəti, açıq müəllif mövqeyinin bildirilməsi və terminoloji sabitliyin yaradılması hələ tam oturuşmamışdır. Ümumi vəziyyət müqayisəli şəkildə aşağıdakı kimidir:

Üslub elementi	İngilis jurnalları	Rus jurnalları	Azərbaycan jurnalları
Struktur sabitlik	Yüksək	Yüksək	Orta–yaxşı
Elmi obyektivlik	Yüksək	Yüksək	Yaxşı
Müəllif mövqeyi	Aktiv	Passiv	Passiv/neytral
Terminoloji vahidlik	Standartlaşdırılmış	Klassik və geniş	Qismən sabit
İfadə dəqiqliyi	Yığcam və fokuslanmış	Mürəkkəb və dərin	Bəzən qeyri-dəqiq və yayğın
Qlobal standartlara uyğunluq	Tam uyğunluq	Lokal akademik standartlara uyğun	Yanaşma mövcuddur, lakin natamam

Göründüyü kimi, Azərbaycan dilindəki elmi-pedaqoji jurnallar beynəlxalq elmi üslub meyarlarına doğru inkişaf etməkdədir. Lakin bu proses dil, üslub və təqdimat formalarının sistemli təkmilləşdirilməsi yolu ilə müşayiət olunmalıdır. Bunun üçün həm müəlliflərin akademik yazı bacarıqları, həm də jurnalların redaksiya siyasəti beynəlxalq standartlara yaxınlaşdırılmalıdır.

NƏTİCƏ

Elmi-pedaqoji jurnallar elmi biliklərin yayılması, pedaqoji təcrübələrin paylaşılması və tədqiqatçıların intellektual diskursuna şərait

yaradan mühüm platformalardır. Bu jurnalların uğurlu fəaliyyəti, ilk növbədə, onların üslub səviyyələrindən asılıdır.

Aparılan araşdırma və müqayisələr göstərdi ki: Azərbaycan dilində nəşr olunan elmi-pedaqoji jurnallar struktur baxımından inkişaf etdirilmiş, elmi yazıların struktrunun formalaşması baxımından vahidlik əldə olunmuşdur. Elmi şərhlərin və izahların mahiyyətini təşkil edən obyektivlik və reallıq gücləndirilərək qorunub saxlanmışdır. Elmi-pedaqoji tədqiqatlar öz növbəsində funksional üslubun inkişaf edərək təkmilləşdirilməsinə təsir göstərmişdir. Bunlarla yanaşı, həm də terminoloji vahidlik, ifadə dəqiqliyi və qrammatik sabitlik sahəsində müşahidə olunan bəzi uyğunsuzluqların aradan qaldırılması, beynəlxalq jurnallarla müqayisə baxımından metodoloji əsaslandırma, diskursun fəallığı və akademik üslubun çevikliyi sahələrində bir sıra vəzifələrin olduğu müəyyənləşdirilmişdir.

Elmi-pedaqoji jurnalların dilinə sadə bir yazı forması kimi baxmaq düzgün olmazdı. O həm də biliklərin mənalandırılması və paylaşılması üçün bir vasitədir. Bu baxımdan, yazı üslubu həm oxucunun elmi məlumatı mənimsəməsinə, həm də müəllifin elmi şəxsiyyətinin ifadəsinə xidmət etməlidir.

Problemin aktuallığı. Müasir dövrdə elmi biliklərin yayılması, elmi nəticələrin geniş auditoriyaya çatdırılması və təhsilin keyfiyyətinin yüksəldilməsi baxımından elmi-pedaqoji yazıların dili mühüm əhəmiyyət kəsb edir. Akademik yazıların dilinin aydın, dəqiq, anlaşılan və məqsədəuyğun olması, həm elmi cəmiyyət, həm də təhsil alanlar üçün informasiyanın düzgün mənimsənilməsinə şərait yaradır. Təəssüf ki, bir çox elmi-pedaqoji məqalələrdə, dərs vəsaitlərində və metodik göstərişlərdə dilin ağır, normativlərə uyğun olmaması, terminoloji uyğunsuzluqlar və üslub problemləri müşahidə olunur. Bu isə həm elmi kommunikasiyanı çətinləşdirir, həm də tədris prosesinə mənfi təsir göstərir. Bu baxımdan mövzu öz aktuallığını qoruyub saxlayır və daha dərindən öyrənilməsinə ehtiyac duyulur.

Problemin yeniliyi. Bu mövzu elmi və pedaqoji diskursun dil xüsusiyyətlərini, onların nəzəri əsaslarını və praktik tətbiqini sistemli şəkildə bir arada araşdırmaq baxımından yenilik daşıyır. Əvvəlki araşdırmalar əsasən ya yalnız elmi dilin, ya da pedaqoji üslubun ayrı-ayrılıqda təhlilinə yönəlmişdir. Halbuki, bu tədqiqat həm nəzəri-praktiki aspektləri birləşdirərək, elmi-pedaqoji yazıların dilində rast gəlinən konkret problemləri müəyyənləşdirir, həm də onların aradan qaldırılması yollarını göstərməklə sahəyə metodoloji töhfə verir. Eyni zamanda, yeni dövrün tələblərinə uyğun olaraq, rəqəmsal və distant təhsil mühitində yazı dilinin necə dəyişdiyini və hansı adaptasiyalara ehtiyac olduğunu da öyrənmək baxımından yenidir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri praktik baxımdan həm elmi məqalə və dərs vəsaiti hazırlayan müəlliflər, həm pedaqoqlar, həm də ali və orta təhsil müəssisələrində təhsil alan tələbə və magistrantlar üçün faydalıdır. Elmi-pedaqoji yazılarda düzgün dil normalarına əməl olunması, həm yazılı materialların keyfiyyətini artırır, həm də təlim prosesində məlumatların düzgün qavranılmasına xidmət edir. Bundan əlavə, metodik tövsiyələrin hazırlanması və tətbiqi, müəllimlərin və tədqiqatçıların yazı bacarıqlarının inkişaf etdirilməsinə, eyni zamanda akademik üslubda yazının tədrisinə dəstək verir. Bu isə ümumilikdə təhsildə keyfiyyətin artırılması baxımından əhəmiyyətlidir.

Ədəbiyyat:

1. Əliyeva, S. Elmi üslubun leksik-semantik xüsusiyyətləri. -Bakı: Elm və Təhsil. -2019.
2. Əliyeva, S. Elmi yazının qrammatik və üslubi xüsusiyyətləri.// Elm və Təhsil, 3(15), (2021). 27–32.
3. Arzumanlı, V. Elmi üslub və müasir yanaşmalar. //Azərbaycan dili və ədəbiyyat tədrisi, 2(68), (2016). 45–50.
4. Həsənli, M. Müəllimlərin qiymətləndirmə metodlarına münasibəti. //Təhsil və Zaman, 2(10), (2020). 56–61.
5. Həsənli, M. Elmi-pedaqoji məqalələrin beynəlxalq standartlara uyğunlaşdırılması.// Təhsil və Zaman, 1(11), (2022). 22–27.
6. Jones, A. (2021). Academic Writing in Education: Structure and Style. Oxford: Education Press.
7. Məmmədova, R. Pedaqoji terminlərin istifadəsində problemlər və onların həlli yolları.// Azərbaycan Məktəbi, 1(89), (2019). 44–48.
8. Məmmədova, R. Elmi yazı mədəniyyəti və diskursun təşkili. //Pedaqoji araşdırmalar jurnalı, 4(12), (2020). 31–37.
9. Nəsibova, T. Elmi-pedaqoji diskursun kommunikativ funksiyası.// Dil və cəmiyyət, 3(20), (2021). 18–23.
10. Соловьев, И. Особенности научного стиля в педагогических исследованиях. //Педагогика, 5(24), (2020). 12–18.

Redaksiyaya daxil olub: 12.09.2025.

UOT 37.

Əsmət İdris qızı İsmayılxanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1151-4440
E-mail:a.ismayilxanova@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).28-31

TƏHSİL SİSTEMİNDƏ ƏLVERİŞLİ FƏALİYYƏTİN İNKİŞAF DİNAMİKASI

Asmet Idris Ismayilkhanova
associate professor of Azerbaijan State Pedagogical University
doctor of philosophy in pedagogy

THE DYNAMICS OF FAVOURABLE PRACTICE DEVELOPMENT IN THE EDUCATION SYSTEM

Асмет Идрис гызы Исмаилханова
доцент Азербайджанского Государственного Педагогического Университета, доктор философии по педагогике

ДИНАМИКА РАЗВИТИЯ БЛАГОПРИЯТНОЙ ДЕЯТЕЛЬНОСТИ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ

Xülasə. Məqalə çox aktual bir məsələyə, təhsil sistemində əlverişli fəaliyyətin inkişaf dinamikasına həsr olunmuşdur. Müəllif qeyd edir ki, müasir dövrdə ümumtəhsil müəssisələrinə rəhbərlik edənlərin əksəriyyəti məktəbdə təhsilin keyfiyyətinə xüsusi diqqət göstərirlər. Lakin demək lazımdır ki, bu çox da asan məsələ deyil. Ona görə də müvəffəqiyyətli təlim-tərbiyə prosesinə mane olan, inkişafına ciddi dərəcədə təsir edən amillər mövcuddur ki, bu amillərin aradan qaldırılması çox vacib məsələdir. Odur ki, istənilən cəmiyyətdə təlim-tərbiyə məsələləri şagirdlərin marağına uyğun təşkil olunmalıdır. Əks təqdirdə durmadan dəyişən, qloballaşan dünyada cəmiyyətə problemlər yaranmağa başlayır.

Müəllif haqlı olaraq bildirir ki, ümumtəhsil məktəblərində şagirdlərin fərdi xüsusiyyətləri, imkanları, bacarıq və qabiliyyətləri nəzərə alınmalı, təhsil prosesinin diferensiallaşdırılması diqqət mərkəzində saxlanmalıdır.

Müəllifin fikrincə, işinin peşəkarı olan müəssisə rəhbəri strateji plan düşünməli, bütün vasitələrdən istifadə edərək pedaqoji kollektivi inandırmalı, yeri gələrsə kollektivinə güvənərək onlara arxalanmalıdır. Yalnız belə olduqda müəssisədə səmərəli tədris-tərbiyə prosesini təşkil etmək mümkündür.

Açar sözlər: *qloballaşma, ekoloji problem, demokratikləşdirmə, humanitarlaşma, inteqrasiya, fərdiləşdirmə, diferensiallaşdırma, dinamika, innovasiya*

Abstract. This article addresses a highly topical issue – the dynamics of developing favourable practices within the education system. The author observes that most contemporary leaders of general education institutions place particular emphasis on the quality of education in schools. However, it must be acknowledged that ensuring this is no simple task. There are numerous factors that hinder a successful teaching and educational process and significantly affect its development, and addressing these factors is of paramount importance.

Therefore, in any society, matters of teaching and upbringing must be organised in line with students' interests. Failing to do so, particularly in an ever-changing and globalising world, inevitably leads to emerging societal problems. The author rightly points out that in general education schools, students' individual characteristics, capacities, skills and abilities must be taken into account, and the differentiation of the educational process should remain a central focus. Author believes that a competent head of an educational institution must think strategically, make use of all available means to convince the teaching staff, and,

when needed, place trust in and rely on their collective. Only under such conditions is it possible to establish an effective teaching and educational process within the institution.

Keywords: *globalisation, environmental issue, democratisation, humanisation, integration, individualisation, differentiation, dynamics, innovation.*

Аннотация. В статье рассматривается весьма актуальная тема – динамика развития благоприятной деятельности в системе образования. Автор отмечает, что большинство современных руководителей общеобразовательных учреждений уделяют особое внимание качеству образования в школах. Однако следует признать, что обеспечить это – непростая задача. Существует множество факторов, которые препятствуют успешному учебно-воспитательному процессу и существенно влияют на его развитие, и решение этих факторов имеет первостепенное значение. Поэтому в любом обществе вопросы обучения и воспитания должны быть организованы в соответствии с интересами учащихся. В противном случае, особенно в постоянно меняющемся и глобализирующемся мире, это неизбежно приведёт к возникновению общественных проблем.

Автор справедливо отмечает, что в общеобразовательных школах необходимо учитывать индивидуальные особенности, способности, умения и навыки учащихся, а дифференциация образовательного процесса должна оставаться в центре внимания.

Автор считает, что компетентный руководитель образовательного учреждения должен мыслить стратегически, использовать все доступные средства для убеждения педагогического состава, а при необходимости доверять и опираться на свой коллектив. Только при таких условиях возможно наладить эффективный учебно-воспитательный процесс в учреждении.

Ключевые слова: *глобализация, экологическая проблема, демократизация, гуманизация, интеграция, индивидуализация, дифференциация, динамика, инновация*

Müasir dövrdə ümumtəhsil müəssisələrinə rəhbərlik edənlərin əksəriyyəti məktəbdə təhsilin keyfiyyətinə xüsusi diqqət göstərirlər. Lakin demək lazımdır ki, bu çox da asan məsələ deyil. Ona görə də müvəffəqiyyətli təlim-tərbiyə prosesinə mane olan, inkişafına ciddi dərəcədə təsir edən amillər mövcuddur ki, bu amillərin aradan qaldırılması çox vacib məsələdir. Odur ki, istənilən cəmiyyətdə təlim-tərbiyə məsələləri şagirdlərin marağına uyğun təşkil olunmalıdır.

Elm və texnikanın sürətli inkişafı, bərabərində ekoloji problemlər, enerji və xammal çatışmazlığını da gətirir. Sürətli yoxsullaşma, cinayətkarlıq, terrorizm, iqtisadi bərabərsizlik halları artır. Dövrümüzün bu aktual problemlərinin həlli insanlar qarşısında bir çox tələblər qoyur ki, bunlar siyasətin yeniləşməsi, təbiətə qayğı ilə yanaşmaq və yeni münasibətlər qurulmasıdır. Bu problemlərin də həlli təhsil sahəsində keyfiyyətli fəaliyyətin təmin olunmasından keçir. Hal-hazırkı problemlərin həll edilməsi üçün təhsil-tərbiyə sahəsində islahatlar aparılmalı, təhsil cəmiyyətin maraqlarına cavab verməli, təhsilin quruluşu və məzmununda, təlimin metodlarında dəyişikliklər edilməli, innovasiyalardan və yeni təlim texnologiyalarından geniş istifadə edilməlidir. Təhsil müəssisələrinin təlim-tərbiyə sistemini xarakterizə edəcək keyfiyyəti artırmaq, daha böyük müvəffəqiyyətlər qazanmaq üçün, hər bir şagirdə onun bilik, bacarıq, vərdiş və maraqlarına müvafiq şərait yaradılmalı və yüksək təlim nəticələri əldə edilməlidir. Çünki, ümumtəhsil məktəblərinin qarşısında dayanan sosial sifariş mənəvi, psixoloji, fiziki cəhətdən hər tərəfli hazırlığa malik olan Azərbaycan vətəndaşı formalaşdırmaqdır. Aparılan tədqiqatların nəticələri onu göstərir ki, təlim prosesinin keyfiyyətinin artırılması üçün mütləq şəkildə yeni təlim texnologiyaları, fəal təlim metodları, innovasiyalar tətbiq edilməlidir. Odur ki, məktəb təhsilini təkmilləşdirməyin iki şərtinə diqqət etmək lazımdır. İlk növbədə təhsil-tərbiyə sisteminin məzmununu yeniləmək, ikincisi isə fənn müəllimlərinin qarşısında yeni-yeni tələblər qoymaq. Fəal təlim metodları ilə dərs keçən müəllimlər öncə öz fənnini dərindən bilməli, sonra isə onu şagirdlərə necə çatdıracağının yollarını tapmalıdır. Bunun üçün sinifdə sağlam mühit yaradılmalıdır. Mühiti sağlam olmayan yerdə yeni islahatlar aparmaq mümkün deyildir. Sağlam pedaqoji mühitdə şagirdlərin təfəkkür tərzi inkişaf etdirilməli, onların elmi bilikləri müstəqil, sərbəst əldə etmələrinə və tətbiq etmələrinə şərait yaradılmalı, onlarda əməkdaşlıq etmək qabiliyyəti formalaşdırılmalıdır.

Tərbiyə də təhsil sisteminin ən vacib funksiyalarından biridir. V. Belinsk təhsilin ən ali mərtəbəsində mənəvi-əxlaqi təhsilin dayandığını vurğulayır. Tərbiyə təhsildən çox yüksəkdədir, insan elə tərbiyə sayəsində insan olmuş-

dur. Odur ki, tərbiyə istər ailədə, istərsə də məktəbdə daima diqqət mərkəzində saxlanılmalıdır. Tərbiyə olmayan yerdə keyfiyyətli təlimdən söhbət gedə bilməz.

Müasir dövrdə təhsil islahatlarının əsas məqsədi hərtərəfli dünyagörüşə malik, rəqabət qabiliyyətli insan yetişdirilməsinə çalışan Milli təhsil sisteminin qurulmasıdır. Yaradılan bu sistem demokratikləşdirmə, humanitarlaşma, inteqrasiya, fərdiləşdirmə, diferensiallaşdırma prinsiplərini özündə ehtiva edir.

Bu növ prinsiplərin həyata keçirilməsi məktəblilərin təlim-tərbiyə prosesinin subyektinə çevrilməli, onların bir şəxsiyyət kimi formalaşmasını təmin etməli, bütün mövcud qurumların səyləri şagirdlərin mənafeyinə istiqamətləndirilməlidir. Ümumtəhsil məktəblərində şagirdlərin fərdi xüsusiyyətləri, imkanları, bacarıq və qabiliyyətləri nəzərə alınmalı, təhsil prosesinin diferensiallaşdırılması diqqət mərkəzində saxlanmalıdır. Təlim prosesində diferensiallaşmanın tətbiqi şagirdlərin təlim keyfiyyətlərini və onların motivasiyalarını yüksəldir. Belə olduğu zaman fənn müəllimləri yeni pedaqoji texnologiyaların nəzəri-praktik əsaslarını mənimsəyir və tədqiqatın fəal iştirakçısı olurlar. Eyni zamanda həm tədris proqramlarına daxil edilən fənlərin mənimsənilmə dinamikasını təhlil edirlər, həm də alternativ fənn proqramlarının işlənməsində, alınan nəticələrin tədqiqatın parametrinə uyğun gəlib-gəlməməsini müəyyən edirlər. Bildiyimiz kimi yeni innovasiyaların tətbiqi çox mürəkkəb prosesdir və onların təlim prosesinə tətbiq edilməsində təşkilati məsələlər çox vaxt aparır.

Belə təşkilati məsələlərin nəticələrini isə öncədən müəyyənləşdirmək çox çətindir və bu cür dəyişikliklər pedaqoji kollektivin psixoloji mühitinə təsir göstərir. Belə olduqda kollektivin bəzi üzvləri baş verən dəyişikliklərin mənasını başa düşmürlər və yeniliklərin həyata keçirilməsinə əngəl olmağa çalışırlar. Məktəbin idarə edilməsində mövcud olan bu tip problemlər həmin məktəbin inkişafına istiqamətlənmiş tələblərin və göstərişlərin tətbiqinə imkan vermir. Bəs bu hansı problemlərdir?

- Məktəbin təşkilati məsələləri ilə əlaqədar olan problemlər. Bu problemlər bir çox məktəblərdə özünü göstərsə də formasına və miqyasına görə bir-birindən fərqlənir. Bu zaman yaşlı, hətta veteran müəllimləri, bəzən yenicə müəllimlik fəaliyyətinə başlayan gənc müəllimləri belə qorxudaraq onların gələcəkdə bir çox çətinliklərlə üzləşəcəklərini qeyd edirlər. Gənc müəllimləri səssiz-səmirsiz məktəbdə cərəyan edən köhnə təşkilati işlərlə məşğul olmağa təhrik edirlər. Bu işlər isə gənclərin qarşıdakı əmək fəaliyyətində səhvlər buraxmalarına, inkişafdan geri qalmalarına, yeni təhsil sistemi formalaşdırmasında və səmərəli təlim-tərbiyə sistemində geriləmələrə səbəb olur. Bəzi ümumtəhsil müəssisələrini idarə edənlər müəllimin əməyinin qiymətləndirilməsinə vəsait çatışmazlığını bəhanə edir, təlim prosesində üzləşdikləri problemlərin həllində və vəzifə bölgüsündə çətinlik çəkirlər. Belə hallarda o müəssisədə fəaliyyət göstərən müəllimlər səmərəli fəaliyyət göstərmir, yeniliklərlə barışa bilmir və işinə ənənəvi qaydalarla davam edir. Müəssisə rəhbəri tam formalaşmayan analitik mədəniyyəti müəyyən etməyə, mövcud problemləri aşkara çıxarmağa, bu problemləri yaradan səbəbləri təhlil etməyə, əldə olunan müsbət nəticələri qiymətləndirməyə imkan vermir.

Lakin qeyd edək ki, təhsil müəssisələrində tətbiq olunan innovasiyalarla əlaqəli dəqiq məlumat olarsa pedaqoji kollektivin üzərinə düşən məsuliyyət yüngülləşmiş olur. Tətbiq edilən innovasiyalar pedaqoji kollektivi daha həvəslə işləməyə həvəsləndirir. Bəzən innovasiyaların azlığı təcrübədə özünü doğruldan və pedaqoji kollektivə yaxşı məlum olan işlərin tətbiqində bir həvəssizlik yaradır.

Digər bir neqativ hal isə müəssisə rəhbərinin özünüqiymətləndirmədə obyektiv olmaması, özünü digərlərindən daha üstün görməsi, obyektiv edilən tənqidi qəbul etməməsi inkişafa güclü zərbə vurur və müəssisənin inkişafını ləngidir. Təbii ki, bu zaman kollektivdə münaqişələr baş qaldırır. Göstəricilərin səviyyəsi aşağı enir. Təhsilin keyfiyyətinin səmərəliliyi baxımından kollektivdə inam azalır.

- Şəxslərlə bağlı meydana çıxan problemlər. Məlumdur ki, hər bir mütəxəssis malik olduğu vərdişləri, əldə etdiyi məsləki, meyli və əqidəsi ilə iş həyatına atılır. Bu məziyyətlərlə insanların xarici təsirlərə və təşkilati mühitə reaksiyası müəyyən edilir. Birinə tamamilə lazımsız görünən işlər, başqasında ciddi çətinliklər törədə bilir. Çoxcəhətli səmərəliliyin anlaşılmaması məktəb daxilində informasiya mübadiləsini çətinləşdirərək məktəb işlərinin planlı

həyata keçirilməsinə maneələr törədir, təlim-tərbiyə işində uğur qazanmağa imkan vermir.

Təlim prosesində innovasiyaların tətbiqi nəticəsində müvəffəqiyyətin qazanılması üçün çox vaxt riskə getmək müsbət nəticələr verə bilir. Odur ki, yüksək göstəricilərin, yeniliklərin qazanılması üçün riskə getmək mütləqdir. Bu bir həqiqətdir ki, ümumtəhsil müəssisələrinin işlərinin səmərəli aparılmasında çox əngəllər mövcuddur, çünki çoxları elə düşünür ki, innovasiyaların tətbiqində edilən cəhdlər uğursuzluqla nəticələnəcək. Bu cür düşünən insanlar öz fəaliyyətlərini müəyyən qanunlar, qaydalar, göstərişlərlə məhdudlaşdıraraq ona qanuni don geyindirməyə çalışırlar. Lakin öz işini gözəl bilər, verdiyi qətiyyətli qərardan dönməyən cəsarətli məktəb rəhbəri istənilən kompromis variantı tapır, qaydaları dəyişir, yenilikləri qəbul edir. Belə cəsarətli məktəb rəhbərləri üçün keçilməyən sədd yoxdur. Ancaq bəzən elə maneələr yaranır ki, o hökmən aradan qaldırılmalıdır, elələri də vardır ki, ya onu arxa plana atmaq, ya da dözüb tab gətirmək lazım gəlir.

İşinin peşəkarı olan müəssisə rəhbəri bu maneələri dəf etmək üçün strateji plan düşünməli, bütün vasitələrdən istifadə edərək pedaqoji kollektivi inandırmalı, yeri gələrsə kollektivinə güvənərək onlara arxalanmalıdır. Yalnız belə olduqda müəssisədə səmərəli tədris-tərbiyə prosesini təşkil etmək mümkündür. Pedaqogika elminin tarixinə baxsaq görərik ki, təhsil əmək ehtiyatlarının inkişafında ən səmərəli amilidir və hazırda da öz təsirini qorumaqdadır. Tədqiqatların nəticələri onu göstərir ki, təhsilin məqsədini, vəzifələrini yerbəyer etmək, yeni texnologiyaların, informasiyaların həcminin dəyişməsini, həmçinin dərk edilməsinin yeni metodlarını, üsullarını modernləşdirmədən bir çox problemlər meydana gələ bilər ki, bunlardan aşağıdakıları qeyd etmək olar:

- inkişaf etmiş dünya ölkələrinin əmək bölgüsündə ölkənin arxa planda qalması, dünya bazarında iqtisadi cəhətdən başqa ölkələrdən asılılığı;
- əhalinin bir hissəsinin həyat şəraiti səviyyəsinin aşağı düşməsi;
- mədəniyyətimizin və milli dəyərlərimizin qorunub saxlanmasında problemlərin yaranması;
- ölkə vətəndaşları arasında intellektual təbəqələşmənin əmələ gəlməsi;
- müəyyən səbəblərdən uşaqların, yeniyetmə və gənclərin həm təhsildən, həm də mədəniyyətimizdən uzaqlaşması;
- iş tapmayanların, işində uğursuz olanların, mənfi əxlaqlı, qeyri-etik hərəkətli gənclərin sayının artması və s.

Hal-hazırda müstəqilliyini qazanaraq inkişaf etmiş dünya ölkələrinin təhsil sisteminə inteqrasiya edən Azərbaycan Respublikasının təhsilinin əsas məqsədi təhsilimizin inkişafına mane olmağa çalışan, tamlığını pozmağa can atan, formalaşmasına əngəllər törədən səbəbləri aradan qaldıraraq millətimizin milli dəyərlərinə sadiq qalan, dünyəvi dəyərləri qoruyan, dünya sivilizasiyasına, mədəniyyətinə sahib olan, sağlam rəqabət qabiliyyətinə malik, hərtərəfli dünyagörüşə yiyələnən kamil vətəndaş yetişdirməkdən ibarətdir.

Problemin aktuallığı. Müasir dövrdə təhsil islahatlarının əsas məqsədi hərtərəfli dünyagörüşə malik, rəqabət qabiliyyətli insan yetişdirilməsinə çalışan Milli təhsil sisteminin qurulmasıdır. Yaradılan bu sistem demokratikləşdirmə, humanitarlaşma, inteqrasiya, fərdiləşdirmə, diferensiallaşdırma prinsiplərini özündə ehtiva edir.

Problemin elmi yeniliyi. Təlim prosesində innovasiyaların tətbiqi nəticəsində müvəffəqiyyətin qazanılması üçün çox vaxt riskə getmək müsbət nəticələr verə bilir. Odur ki, yüksək göstəricilərin, yeniliklərin qazanılması üçün riskə getmək mütləqdir.

Problemin praktik əhəmiyyəti. İşinin peşəkarı olan müəssisə rəhbəri strateji plan düşünməli, bütün vasitələrdən istifadə edərək pedaqoji kollektivi inandırmalı, yeri gələrsə kollektivinə güvənərək onlara arxalanmalıdır. Yalnız belə olduqda müəssisədə səmərəli tədris-tərbiyə prosesini təşkil etmək mümkündür.

Ədəbiyyat:

1. İsmixanov, M.A. Məktəbin idarə edilməsi. (Dərs vəsaiti) / M.A. İsmixanov, R.Ə. Bəxtiyarova / - Bakı, -2012. -235 s.
2. Mehrabov, A.O. Təhsildə sərişteli yanaşma: mahiyyəti və əsas xüsusiyyətləri. Azərbaycan məktəbi. - Bakı: 2007, №1. -112 s.
3. Nəzərov, A.M. Müasir təlim texnologiyaları: Dərs vəsaiti. ADPU-nəşriyyatı. -Bakı, 2012. -103 s.

Redaksiyaya daxil olub: 10.09.2025

UOT 37.91

Fidan Knyaz qızı Babayeva
Gəncə Dövlət Universitetinin
fəlsəfə doktoru proqramı üzrə dissertantı
E-mail: babayevafidan2013@gmail.com
https://orcid.org/0009-0003-5572-0785
https://doi.org/10.69682/arti.2025.92(5).32-35

TƏHSİLİN HUMANİSTLƏŞDİRİLMƏSİ PROSESİNİN ŞƏXSİYYƏTYÖNLÜ TƏHSİLLƏ ƏLAQƏLƏNDİRİLMƏSİ KONSEPSİYALARI

Fidan Knyaz Babayeva
doctorial student in the program of doctor of philosophy
of Ganja State University

CONCEPTS OF THE CONNECTION OF HUMANIZATION OF THE EDUCATIONAL PROCESS WITH PERSONALLY-ORIENTED EDUCATION

Фидан Князь гызы Бабаева
диссертант по программе доктора философии
Гянджинского Государственного Университета

КОНЦЕПЦИИ СВЯЗИ ГУМАНИЗАЦИИ ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА С ЛИЧНОСТНО-ОРИЕНТИРОВАННЫМ ОБРАЗОВАНИЕМ

Xülasə. Müəyyənləşdirilir ki, humanistyönlü təlim-tərbiyə müəllim fəaliyyəti və təhsilin məzmunu ilə bilavasitə bağlıdır. Ona görə də, bu bağlılıq nəzərə alınaraq hər bir fənn üzrə humanist potensialın üzə çıxarılması vacibdir. Təhsilin humanistyönlü olması müəllimin özünün humanistyönlü olması ilə də bağlıdır, və bu özünü müəllimin şəxsi keyfiyyətlərində göstərir. Bu, müasir dünyanın ümumbəşəri proseslərinin inkişaf tendensiyalarında bir istiqamət, qlobal düşünmək və bilikləri ətraf aləmlə əlaqələndirmək bacarığıdır.

Müəyyənləşdirilmiş pedaqoji şərtlərə riayət edilməsi təlim prosesində şagirdə humanist yanaşmanı həyata keçirməyə tələbələrin keyfiyyətli hazırlanmasını təmin edir.

Açar sözlər: *şəxsiyyətyönlü təhsil, humanistyönlü pedaqogikanın prinsipləri, təhsilin humanistləşdirilməsi, şəxsiyyət nəzəriyyəsi, təhsil konsepsiyası.*

Abstract. It has been determined that humane-oriented educational upbringing is directly related to the teacher's activities and the content of education. Therefore, it is important to identify the humanistic potential in each subject, taking this connection into account. The humane-oriented focus of education is also associated with the humane-oriented focus of the teacher himself, and this is manifested in the personal qualities of the teacher. This is a direction in the development trends of universal human processes in the modern world, as well as the ability to think globally and connect knowledge with the surrounding world.

Compliance with these pedagogical conditions ensures high-quality preparation of students for the implementation of a humanistic approach to the student in the learning process.

Key words: *personality-oriented education, principles of humane-oriented pedagogy, humanization of education, personality theory, concept of education.*

Аннотация. Установлено, что гуманистически ориентированное обучение и воспитание напрямую связано с деятельностью учителя и содержанием образования. Поэтому, с учётом этой взаимосвязи, важно выявить гуманистический потенциал каждого учебного предмета. Гуманистическая направленность образования также зависит от гуманистической направленности самого учителя, ко-

торая проявляется в его личностных качествах. Это является одним из направлений в тенденциях развития общечеловеческих процессов современного мира – способностью мыслить глобально и связывать знания с окружающим миром. Соблюдение определённых педагогических условий обеспечивает качественную подготовку студентов к реализации гуманистического подхода к ученику в учебном процессе.

Ключевые слова: *личностно-ориентированное образование, принципы гуманистической педагогики, гуманизация образования, теория личности, образовательная концепция*

Tədqiqat mövzumuzla bağlılığına görə, təhsilin humanistləşdirilməsi prosesini şəxsiyyətyönlü təhsillə əlaqələndirən alimlərin konsepsiyalarına müraciət etməyi zəruri hesab edirik. N.M. Kazımovun [2], Ə.Ə. Əlizadənin, H.Ə. Əlizadənin [1], V.V. Serikovun [7], E.V. Bondarevskayanın [3;4], V.P. Sazonovun [6] tədqiqat işlərinin təhlili məktəblinin hərtərəfli mənəvi, intellektual və fiziki inkişafına yönəlmiş şəxsiyyətyönlü təlimi bir proses kimi xarakterizə etməyə imkan verir. Bu prosesin mərkəzində uşaq şəxsiyyəti durur, bu prosesin məqsədi uşaq şəxsiyyətinin formalaşdırılmasıdır.

İ. Kantın təbirincə, humanistyönlü pedaqogikanın əsas prinsiplərindən birinin mənası ondan ibarətdir ki, şagirdlər müəllimin məqsədinə çatmaq vasitəsi deyildir, şəxsi inkişafının məqsədidir.

"Şəxsiyyətin inkişafına yönəlmiş təhsil şəxsiyyətin inkişafı üçün nə dərəcədə şərait yaradırsa, o dərəcədə də öz məqsədinə nail olur" fikri V.V. Serikovun şəxsiyyətyönlü təhsil konsepsiyasının əsas ideyasıdır. Alim psixoloji araşdırmalardan belə qənaətə gəlir ki, şəxsiyyət hər hansı inkişafa nə dərəcədə müqavimət göstərərsə, o dərəcədə inkişaf edər. Ona görə də istənilən təlim prosesinin şəxsiyyətin inkişafına yönəlməsi fikrini iddia etmək olmaz. Uşağın fərdiyyətçiliyi təhsil prosesinin proqramlaşdırılmasını pozur, ona seçici və özünüinkişaf xüsusiyyətləri verir.

V.V. Serikovun konsepsiyası S.L. Rubinşteynin şəxsiyyət nəzəriyyəsinə ("şəxsiyyət"-insanın müəyyən mövqe tutmaq qabiliyyətidir) əsaslanır. S.L. Rubinşteynin bu ideyasını inkişaf etdirərək V.V. Serikov vurğulayır ki, şəxsiyyətyönlü təhsil yalnız müəyyən xüsusiyyətlərə malik şəxsiyyət formalaşdırmaqla məşğul olmur, o, təlim prosesinin aşağıdakı subyektiv funksiyalarını tam üzə çıxarıb, inkişafı üçün şərait yaradır:

- motivasiya (işi qəbul edib, əsaslandırmaq);
- vasitəçilik (xarici təsirlərə və davranışın daxili impulslarına münasibətdə);
- qarşıdurma (gizli ziddiyyətləri görmək);
- tənqidlər (kənardan təklif olunan dəyər və normalarla bağlı);
- refleksiya ("Mən" obrazını yaratmaq və saxlamaq);
- semantik yaradıcılıq (dəyərlər sisteminin müəyyən olunması);
- oriyentasiya (şəxsi dünyagörüşünün formalaşması);
- özünüinkişaf (hər hansı şəxsi əhəmiyyətli işin yaradıcı xarakterinin təmin olunması);
- daxili aləmin sabitliyinin təmin olunması ("Mən" obrazının başqaları tərəfindən tanınmasına səy göstərmək);
- mənəvi həyat səviyyəsinin təmin edilməsi (həyat üçün vacib praktiki tələbatlar barəsində məlumatların qarşısının alınması) [7, s.16-18].

V.V. Serikov şəxsiyyətyönlü təhsilin məqsədini mövcud funksiyaların hərtərəfli inkişafında görür. Şəxsiyyətyönlü təhsil kontekstində subyektivlik, semantik yaradıcılıq, tənqidçilik özünədəyər vermək kimi təqdim olunur.

Təhsilin humanistləşdirilməsi uşaqda insanlığın tərbiyə olunması ilə bağlıdır. İnsan öz daxilində insani məzmun daşıdığını dərk etməlidir. Bu o deməkdir ki, təhsilin humanistləşdirilməsi prosesində həll olunacaq aparıcı vəzifələrdən biri özünüifadə etmək üçün şəxsin üsul və vasitələr axtarıb tapması və əsaslandırmasıdır. Qeyd edək ki, əvvəlki dövrlərdə ideoloji-siyasi tələblərlə işıqlandırılan sosial rolun icrasına hazırlıq davranış və fəaliyyətin ciddi tənzimləyici çərçivəsində həyata keçirilirdi.

Şagirdlərdə, tələbələrdə "mövcud olmaq" tələbatının formalaşması ideyası (E. Fromm) F.M. Dostoyevskinin "Tam realizmdə insanda insanlıq tapın" sözləri ilə açıqlana bilər. Bu o deməkdir ki, şəxsiyyət, onun azad inkişafı, özünüifadəyə cəhd göstərməsi siyasi, ideoloji tələb və normalardan üstün kimi qəbul edilir. A.V. Zosimovskinin vurğuladığı kimi, məktəbi müxtəlif siyasi qrupların hər hansı ideoloji təsir və münasibətlərindən qorumaq lazımdır. Məktəbin əsas məqsədi azad, müstəqil və əxlaqlı

şəxsiyyətin inkişafı üçün ən yaxşı şərait yaratmaqdan ibarətdir [5, s.54].

Ənənəvi təhsildə müəllimin əsas fiqur kimi bütün təlim – tərbiyə prosesini idarə etdiyi bir şəraitdə bu məqsədə çatmaq mümkün deyildi. Şagird bu zaman pedaqoji təsirin obyekti olurdu. Ənənəvi təlim nəinki tərbiyənin məqsədinə çata bilmirdi, o, həm də nə cəmiyyəti, nə şagirdləri, nə də valideynləri qane etmirdi. Ənənəvi təlim inzibati qaydada, komanda idarəetməsi əsasında həyata keçirilirdi.

Ənənəvi və şəxsiyyətyönlü təhsil arasında fərq özünü prioritetlərdə, məqsəd və meyarlarda göstərir.

V.V. Serikovun konsepsiyasının [7, s.54-67] təhlili bizə ənənəvi və şəxsiyyətyönlü təhsilin əsas xarakterik xüsusiyyətlərini sadalamağa imkan verdi:

Ənənəvi və şəxsiyyətyönlü təhsilin xarakteristikası		
	Şəxsiyyətyönlü təhsil	Ənənəvi təhsil
Prioritet	Şəxsiyyət	Subyekt, müəyyən sosial funksiyanı icra edən, müəyyən davranış modelini icra edəndir.
Məqsəd	Şüurun şəxsi strukturunun formalaşması	"Praktiki əməliyyat" təcrübəsinin aşılanması, kənardan təqdim olunmuş məzmunun mənimsənilməsi
Meyar	Humanist dəyərlər	Dövlət, onun iqtisadi və ideoloji tələbləri

Pedaqoji fəaliyyətin mərkəzinə şagird şəxsiyyətinin qoyulması və bu fəaliyyətin şəxsiyyətə yönəlməsi, şagirdə ali dəyər verilməsi şübhəsiz ki, təhsilin humanist paradiqması ilə üst-üstə düşür. Şəxsiyyətyönlü təhsildə şəxsi komponent sistem yaradan komponent kimi çıxış edir. Lakin ənənəvi təhsildə bu idrak komponentindən ibarət olur. Humanist-istiqamətverici pedaqoji fəaliyyət şagirdlərin semantik sferasının inkişafı ilə intellektual təfəkkürün əlaqəli-harmonik inkişafını nəzərdə tutur.

Şagirdin öz "Mən" obrazını dərk etməsi, mənəvi-dəyəryönlü inkişafı, onda dünyagörüşünün, özünüdərketmə və öz müqəddəratının təyinetmə qabiliyyətlərinin formalaşması şəxsi keyfiyyətlərin formalaşması üçün çox vacibdir.

Təhsilin humanistləşdirilməsinin həyata keçirilməsi kontekstində özünüifadə mexanizminin üzə çıxarılması və şagird şəxsiyyətinin formalaşması üçün pedaqoqun zəruri şərait yaratması böyük əhəmiyyət kəsb edir.

V.V. Serikovdan fərqli olaraq tədqiqatçı E.V. Bondarevskaya şəxsiyyətyönlü təhsil ideyasını tərbiyəyə yeni baxışla (yeni yanaşma ilə) əlaqələndirir. Onun fikrincə, bu, uşağın subyektə çevrilməsində, sosiallaşmasında, öz müqəddəratını təyin etməsində, mədəni identifikasiyanın formalaşmasında pedaqoji yardım prosesi kimi çıxış edir [3, s.72].

Elmi axtarışlar və pedaqoji praktikanın dərk olunması əsasında E.V. Bondarevskaya şəxsiyyətyönümlü təhsilin əsas müddəalarını müəyyən etmişdir:

1. Şəxsiyyətyönlü təhsilin əsas dəyərləri – uşağın özü, onun şəxsiyyəti, mədəniyyəti və yaradıcılığıdır. Buradan aydın olur ki, təhsilin mahiyyətini uşaq şəxsiyyəti, onun fərdiyyətçiliyinin formalaşmasına, özünü dərketməsinə, mədəniyyətin subyektinə çevrilməsinə və onun inkişafına köməklik edən yaradıcı mühiti əmələ gətirən fəaliyyət təşkil edir.

2. Təhsilin məqsədi mədəni, təbii və sosial mahiyyətə malik mədəni insan tərbiyə etmək, şəxsiyyətin formalaşması üçün insanda özünüdərketmə, özünütənzimləmə, özünüinkişaf və s. kimi digər vacib mexanizmləri üzə çıxarmaq, dəstəkləmək və inkişaf etdirməkdən ibarətdir.

E.V. Bondarevskayanın fikrincə bu məqsədə, aşağıda qeyd olunmuş təhsilin funksiyalarını vəhdətdə və qarşılıqlı əlaqədə reallaşdırmaq sayəsində çatmaq olar.

a) humanitar funksiya - insan ekologiyasının: fiziki və mənəvi sağlamlıq, səxsi azadlıq, mənəviyyat, yaşamaq amalının bərpası və qorunmasının qayğısına qalmaq. Buna nail olmaq üçün təhsil insana anlama, ünsiyyət və əməkdaşlıq yaratmaq kimi mexanizmlər aşılamalıdır;

b) mədəniyyət formalaşdırıcı funksiya - təhsil vasitələrinin köməyi ilə mədəni irs qoru-

nub saxlanılmalı, gələcək nəslə ötürülməli və inkişaf etdirilməlidir. Bu zaman mədəni identifikasiya mexanizmlərinin olması zəruridir;

c) sosiallaşma funksiyası - sosial təcrübənin şəxs tərəfindən icrasının təmin olunması, insanların cəmiyyətə maneəsiz adaptasiyasını təmin olunması. Bu funksiyanın icrası üçün uyğunlaşma, öz fərdiyyətçiliyini qoruyub saxlamaq, yaşamaq, refleksiya kimi mexanizmlər tələb olunur [4, s.11-17].

Fikrimizcə, şəxsiyyətyönlü təhsilin həyata keçirilməsi zamanı söhbət yalnız bu funksiyaların əhəmiyyətindən getməməlidir. Sistem yaradan funksiyanın tərkib hissələrini də müəyyən etmək vacibdir. Biz hesab edirik ki, sistem yaradan funksiya mədəniyyət aşılayan funksiyadır.

Onun mahiyyəti şagirdləri mədəniyyət və onun dəyərləri ilə tanış etməkdən, mədəni, informasiyalı, savadlı insan yetişdirməkdən ibarətdir. Bu funksiyanın sayəsində uşaq təlim-tərbiyə prosesinin mərkəzinə gətirilir. Nəticədə biliyin məzmununa mədəni dəyərlərin daxil edilməsi qaçılmaz olur. Bu vəziyyət humanitar funksiyanın icrasını tələb edir. Bununla yanaşı təhsil, məktəb şagirdlərin başqa insanlarla, ətraf aləmlə sosial əlaqələr qurması probleminin həllini gündəmə gətirir. Mədəni dəyərlərə əsaslanan məzmunla tanışlıq müəyyən olunmuş sərhədlərdən kənara çıxaraq, yeni sosial mühitə daxil olmaq üçün şagirdlərdə "azad hərəkət etmək" imkanı yaradır.

Problemin aktuallığı. Bu gün subyektin mədəniyyətə, təhsilə qayıdışından danışarkən, şübhəsiz ki, təhsilin humanistləşdirilməsinin, sonra isə sosial münasibətlərin humanistləşdirilməsinin real mexanizmlərindən biri kimi uşağın şəxsiyyətinə humanist yanaşma nəzərdə tutulur. Ona görə də, uşağın şəxsiyyətinə humanist yanaşma ilə bağlı mövcud problemlərin həlli müasir məktəbin qarşısında duran ən mühüm vəzifələrdən biridir.

Problemin elmi yeniliyi. Tələbələrin şagirdə humanist yanaşmanın həyata keçirilməsinə hazırlanmasının imkan və yolları, onun pedaqoji şərtləri müəyyən edilmişdir. Müəllimin şagirdə humanist yanaşmasının yeni məzmununu verilmişdir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri tələbələrin mədəni-mənəvi dəyərlər aləmində humanistyönlülük metodunun həyata keçirilməsinə istiqamətləndirmək baxımından ümumi pedaqoji hazırlıq prosesinin təkmilləşdirilməsinə töhfə verə bilər.

Ədəbiyyat:

1. Əlizadə, Ə.Ə. Pedaqoji psixologiya: Dərslik / Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə – Bakı: ADPU-nun nəşriyyatı, – 2010. – 685 s.
2. Kazımov N.M. Milli pedaqogika yollarında. // N.M. Kazımov. – Bakı: OKA Ofset, -2004. – 248 s.
3. Бондаревская, Е.В. Гуманистическая парадигма личностно-ориентированного образования // Педагогика, 2017, № 4. – с. 70-74.
4. Бондаревская, Е.В. Теория и практика личностно-ориентированного образования // Педагогика, -2016, № 5. – с. 11-17
5. Зосимовский А.В. Критерии нравственной воспитанности // П едагогика, -2018, № 11-12. – с.49-55.
6. Сазонов В.П. Воспитание на основе потребностей человека // Педагогика, -2013, № 2. – с.28-32.
7. Сериков, В.В. Образование и личность. - М.: Логос, -2019. – 271 с.

Redaksiyaya daxil olub: 16.09.2025.

UOT 37.

Günay Hümbət qızı Məmmədzadə
Azərbaycan Respublikası Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı,
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin
baş müəllimi
https://orcid.org/0000-0002-8484-1792
E-mail:gunaymemmedzade08@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).36-40

YENİYETMƏLİK DÖVRÜNDƏ BULLİNQ HALLARININ PEDAQOJİ TƏHLİLİ VƏ PROFİLAKTİKASI

Gunay Humbat Mammadzada
doctorial student in the program of doctor of philosophy
of
Institute of Education of the Republic of Azerbaijan,
senior lecturer of the
Azerbaijan State University of Culture and Arts

PEDAGOGICAL ANALYSIS AND PREVENTION OF BULLYING DURING ADOLESCENCE

Гюнай Гумбат гызы Мамедзаде
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики,
старший преподаватель Азербайджанского Государственного Университета Культуры и Искусств

ПЕДАГОГИЧЕСКИЙ АНАЛИЗ И ПРОФИЛАКТИКА БУЛЛИНГА В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

Xülasə. Məqalədə yeniyetməlik dövründə baş verən bullinq hallarına pedaqoji cəhətdən yanaşılmış, qarşısının alınması üçün profilaktik yanaşmalar irəli sürülmüşdür. Tədqiqatda yeniyetməlik dövrünün psixoloji və sosial xüsusiyyətləri nəzərə alınaraq, qız və oğlanlar arasında bullinq növlərinin yayılma formaları müqayisəli şəkildə təqdim olunmuşdur. Məqalədə həmçinin yeniyetməlik dövründə baş verən intihar hallarında bullinq hallarının təsiri də təqdim olunaraq məsələnin ciddiliyinə nəzər yetirilmişdir. Problemin həlli istiqamətində lider şagirdlərin sosial təsiri, müsbət məktəb mühiti, valideyn və məktəb işbirliyi, bullinqlə bağlı məlumatlandırıcı seminarların təşkili təklif olunmuşdur.
Açar sözlər: *bullinq, yeniyetmə, intihar, lider şagird, mübarizə*

Abstract. The article presents a pedagogical approach to bullying in adolescence and proposes preventive approaches to prevent it. The study presents a comparative analysis of the forms of bullying among girls and boys, taking into account the psychological and social characteristics of adolescence. The article also presents the impact of bullying on suicides in adolescence, and examines the seriousness of the issue. The social influence of leader students, a positive school environment, parent-school cooperation, and the organization of informative seminars on bullying are proposed to solve the problem.
Keywords: *bullying, teenager, suicide, leader student, struggle*

Аннотация. В статье рассматривается буллинг в подростковом возрасте с педагогической точки зрения и предлагаются профилактические подходы для его предотвращения. В исследовании представлен сравнительный анализ распространенности буллинга среди девочек и мальчиков с учетом психологических и социальных особенностей подросткового возраста. В статье также представлено влияние буллинга на самоубийства в подростковом возрасте и рассматривается серьезность проблемы.

Для решения проблемы предлагается социальное влияние учеников-лидеров, позитивная школьная среда, сотрудничество родителей и школы, а также организация познавательных семинаров по буллингу.

Ключевые слова: *буллинг, подросток, самоубийство, ученик-лидер, борьба*

Yeniyetməlik (adolescence) latın mənşəli "adolescentia" sözündən götürülmüşdür və "böyümək, yetkinləşmək" mənalarını ifadə edir. Yeniyetməlik eyni zamanda "pubescence, pubescere" terminləri ilə də ifadə olunur ki, bu terminlər daha çox yeniyetməlik dövrünün bioloji xüsusiyyətlərinə diqqət çəkir və mənası "tüklənmək, yetkinliyə çatmaq" deməkdir. (Oksford lüğəti)

Yeniyetməlik dövrü haqqında fikirlər mübahisəli olsa da bir çox alimlərin qənaətinə görə bu mərhələ 10-11 yaşdan başlayaraq 14-15 yaşa qədərki dövrü əhatə edir. Qeyd olunmalıdır ki, bəzi alimlər dövrün 18 yaşına qədər davam etdiyini bildirir.

Yeniyetməlik dövrü öz psixoloji, sosial xüsusiyyətlərinə görə böhran dövrü də adlanır. Keçid dövrü kimi xarakterizə olunan yeniyetməlik mərhələsində yeniyetmənin həyatında bir sıra mühüm dəyişikliklər baş verir. Bu dəyişikliklər fiziki, psixoloji və sosial cəhətdən təhlil edildikdə müəyyən olunur ki, fiziki baxımdan yeniyetmənin orqanizmində hormonal dəyişikliklər müşahidə olunur, psixoloji baxımdan o, öz "mən"ini dərk etməyə və şəxsiyyətini formalaşdırmağa çalışır, sosial baxımdan isə sosiallaşmağa meyillənir, dost qruplarına qoşulmağa və onlarla ünsiyyət qurmağa can atır.

Bu dövr yeniyetmənin həyatında sürətli şəkildə bioloji, psixoloji və sosial dəyişikliklərin getdiyi dövr olub, fərdin gələcəyi ilə bağlı planlar qurduğu və sosial mühitdə özünə yer tutmağa çalışdığı dövrdür. (Eskin, 2008: s.384)

Eriksonun psixososial inkişaf nəzəriyyəsinə əsasən yeniyetməlik dövrünün əsas inkişaf mərhələsi "kimlik qazanmaq və kimlik çaşqınlığıdır". Fərd bu mərhələdə sağlam kimliyini qazana bilməzsə, gələcəkdə özünü itirmə, sosial və emosional uyğunsuzluq riski artır. (Erikson, 1968: 157).

Psixoloq H.S. Sallivan yeniyetməlik dövrünü üç mərhələyə bölür. I mərhələ ön yeniyetməlik dövrü. Bu dövr uşaqlıqdan yeniyetməliyə keçidin ilkin pilləsi olub, dostluq münasibətləri qurmaq, qarşı cinslə əlaqələr yaratmaq kimi xüsusiyyətləri özündə ehtiva edir. II mərhələ gənc yeniyetməlik dövrü. Bu dövrdə cinsi yetkinliyin ilkin mərhələsi müşahidə olunur. III mərhələ yetkin yeniyetməlik dövrüdür. Bu dövrdə cinsi davranış modelləri formalaşır. (Sullivan, 1953: 242)

Sosiallaşma prosesinin sürətləndiyi, şagirdlərin özünü təsdiq etmək istədiyi bu dövrdə fərdlərarası münasibətlərdə də müəyyən çətinliklər yaranır. Belə problemlər həmyaşıdlar arasında bullinq hallarının yaranmasına gətirib çıxarır.

Bullinq bir və ya bir neçə şagirdin özündən gücsüz və özünü müdafiə edə bilməyən şagirdi qəsdən və zərər vermək məqsədilə vurması, itələməsi, ləqəb qoşması, lağ etməsi, əsəbiləşməsi, təhdid etməsi, əşyalarına zərər verməsidir. (Pişkin, 2002: 538). Bullinq bir və ya bir neçə şagirdin eyni zamanda özlərindən daha zəif şagirdə zərər vermək, narahat etmək və ya alçaltmaq, əzab vermək və ya işgəncə vermək cəhdləridir. (Page, 2003: 257)

Hər aqressiv davranış forması bullinq adlandırıla bilməz. Hər hansı bir aqressiv davranış formasının bullinq adlandırıla bilinməsi üçün onun davamlı, sistemli olması və buller, qurban və şahid kimi iştirakçılarının olması vacibdir. Məsələn: 7-ci sinif şagirdləri arasında hər-hansı bir səbəbdən müəyyən aqressiya baş vermişdir və bu zaman şagirdlərdən fiziki zədə alanlar olmuşdur. Bu hal bir dəfə baş vermişdir. Belə davranış bullinq adlanmır. Bu hadisə sadəcə zorakılıq olaraq qeydə alına bilər. Lakin, hər hansı bir şagird özündən zəif şagirdə davamlı olaraq aqressiya göstərirsə, ona fiziki, psixoloji zərər verirsə, sözlə təzyiq edirsə bu hadisə bullinq adlanır. Qeyd olunmalıdır ki, bullinq hallarında mütləq tərəflər arasında güc bərabərsizliyi mövcud olmalıdır.

Tədqiqatlara əsasən müəyyən olunmuşdur ki, yeniyetməlik dövründə şagirdlər arasında bullinq hallarının sayı digər yaş qruplarına nisbətən daha yüksəkdir. (Olveus, 1993: 9-15). Ümumiyyətlə, orta məktəb yaş dövründə bullinq halları öz pik həddinə çatır. (Kreiq, Pepler və b., 2007: 465-477). Bu dövrdə həm bullinq edənlərin, həm də qurbanların sayı digər yaş dövrlərinə nisbətdə çoxdur. ABŞ-da 15 mindən çox şagird arasında aparılan araşdırma nəticəsində müəyyən edilmişdir ki, bullinq halları əsasən 12-15 yaşlı şagirdlər arasında daha geniş yayılmışdır. (Nansel və b., 2001)

Yeniyetmələr arasında bullinqə səbəb isə yeniyetməlik dövrünün öz xarakterik xüsusiyyətləridir. Bu xüsusiyyətlərə aşağıdakılar daxildir:

1. Kimlik axtarışı və sosial status uğrunda mübarizə

Sosial qruplar arasında status qazanmaq, məktəbdə və sinifdə məşhur və sözükeçən olmaq, hər kəsin qorxaraq hörmət etdiyi biri olmaq bəzən şagirdləri buller olmağa həvəsləndirir. Yuxarı siniflərdə fiziki və psixoloji üstünlük göstərməyə çalışan şagirdlərin davranışı "qəhrəmanlıq" kimi qarşılandığına görə hərəkətlərin bullerlər tərəfindən təkrarlanmasına yol açır. Bu halda isə digər şagirdlər qurban vəziyyətinə düşür.

2. Emosional qeyri sabitlik.

Erkən yeniyetməlik dövründə şagirdlərin orqanizmində baş verən hormonal dəyşikliklər onların emosional halətlərinə təsir edə bilir. Bu dəyişikliklər onlarda emosional qeyri sabitlik, narahatlıq, qıcıqlanma və aqressiv davranış yarada bilir. Bəzi hallarda şagirdlərin öz emosiyalarını idarə etməkdə çətinlik çəkmələri həmyaşıdları ilə münasibətlərinə də birbaşa təsir edir. Xüsusilə də neqativ şəkildə fikirlərinin ifadəsi bullinq kimi neqativ davranış formalarının yaranmasına zəmin yarada bilir.

3. **Liderlik uğrunda mübarizə.**

Yeniyetməlik dövründə şagirdlər arasında liderlik uğrunda mübarizə daha çox özünü büruzə verir. Bəzən isə yeniyetmələr məqsədlərinə çatmaq üçün bullinqdən istifadə edirlər.

4. Empatiya hissinin tam formalaşmaması.

Yeniyetməlik dövründə şagirdlərdə "eqo" daha yüksək olduğundan onlarda başqalarına zərər verməyin mənəvi və sosial nəticələri lazımi qədər dərk olunmur. (Gini və b., 2007: 471)

5. Məktəbdə nəzarətin zəif olması.

Bəzən məktəbdə müəllim və ya məktəb rəhbərliyinin bullinq halları ilə bağlı məlumatlarının az olması, təhlükəli davranışları vaxtında müəyyənləşdirə bilməməsi bullinq hallarının artmasına gətirib çıxarır.

Tədqiqatlar əsasında müəyyən olunmuşdur ki, bullinq hallarına yeniyetmə oğlanlar daha çox məruz qalırlar. Bu fakt həm bullerlər həm də qurbanlar üçün keçərlidir. Oğlanlar arasında liderlik uğrunda mübarizə, status qazanmaq istəyi, özlərini təsdiqləmək məqsədilə aqressiv davranışlara, xüsusilə də fiziki bullinqə meyllilik müşahidə edilir. Dan Olveusun araşdırmalarına əsasən yeniyetmə oğlanlar həm fiziki bullinqin əsas icraçıları, həm də əsas qurbanları kimi çıxış edirlər. (Olweus, 1993).

Araşdırmalar əsasında müəyyən edilmişdir ki, yeniyetmə qızlar arasında bullinqin əsasən sözlü, psixoloji və sosial formaları özünü göstərir. Bu bullinq növləri digər bullinq növlərindən münasibət əsaslı olmaları ilə fərqlənir. Yeniyetmə qızlar qurbanlarını təhqir etmək, haqlarında şayiələr yaymaq, alçaldıcı ifadələrdən istifadə etmək, qruplardan təcrid edərək sosiallaşmalarına mane olmaq kimi strategiyalardan daha çox istifadə edirlər. Bu cür davranışlar qurbanlarda özünəinamı, özünəhörməti azaldır və onların məktəbdən yayınmalarına səbəb olur. Qız bullerlər manipulyasiya bacarığının üstünlüyünə görə də oğlan bullerlərdən seçilirlər.

Bullinq halları yalnız yeniyetmələrin şəxsi və akademik inkişafına deyil, həm də onların ümumi həyat keyfiyyətinə də əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. Bu cür stressə daimi olaraq məruz qalan yeniyetmələrdə özünəinam, özünəhörmət hissləri azalır və bu hal depressiya və digər emosional pozuntulara yol açır. Nəticədə bəzi hallarda bullinqin qurbanı olan yeniyetmələr intihara meylli olur və bir çox hallarda da cəhd edirlər. Bəzi hallarda isə bullerlərin özü belə intihara cəhd edirlər. Bu səbəbdən də ümumtəhsil məktəblərində bullinq hallarının vaxtında aşkarlanması və effektiv müdaxilə strategiyalarının hazırlanması və həyata keçirilməsi ciddi əhəmiyyət kəsb edir.

Ümumdünya Səhiyyə Təşkilatının 2021-ci ildəki hesabatına əsasən 15-19 yaşlı gənclər arasında ölümün üçüncü əsas səbəbi intihardır. Bu intiharların səbəbləri arasında bullinq halları əsas faktorlardandır. (WHO, 2021) Hinduja və Patçinin tədqiqatları əsasında müəyyən edilmişdir ki, bullinq qurbanı olan yeniyetmələr arasında intihar düşüncəsi və davranışı 3-5 dəfə çoxdur. (Hinduja və Patchin, 2010: 218).

Vurğulanmalıdır ki, bullinqin növlərindən biri olan kiberbullinqə məruz qalan yeniyetmələr arasında intihar halları daha çoxdur. Bu faktı Bauman və başqaları da təsdiq edərək bildirirlər ki, kiberbullinqə məruz qalan yeniyetmələrin intihara cəhd etmə riski ənənəvi bullinqə məruz qalanlara nisbətdə daha çoxdur. (Bauman, Toomey və Volker, 2013: 346). Buna səbəb isə kiberbullinq zamanı qurbanı hədəfə alan şəkil, video və başqa materialların çox sürətlə geniş kütləyə çata bilməsidir. Bu cür hallarda kiberbullinqə məruz

qalan yeniyetmə şagird qurban kimi hamı tərəfindən tanındığını düşünür və bu kimliyin onu bütün mühitlərdə izləyəcəyini zənn edir. Nəticədə, sosial damğalanma qorxusu və çıxış yollarının məhdudluğu onu intihara sövq edir.

Yeniyetmə qız və oğlanlar arasında bullinq səbəbindən intihar faktorlarının statistikası arasında da müəyyən fərqliliklər var. Araşdırmalara görə həm qız, həm də oğlanlar bullinq səbəbindən intihar edirlər. Lakin, bu seçim həm də məruz qaldıqları bullinqin növündən asılıdır. Yuxarıda qeyd etdiyimiz kimi, qızlar daha çox bullinqin sosial, sözlü və psixoloji növlərinə məruz qalırlar. Bu bullinq növləri onların emosional sağlamlığına zərər vuraraq onlarda depressiya, özünəqapanma və intihar kimi düşüncələrin yaranmasına səbəb olur. Tədqiqatlar göstərir ki, sosial münasibətlər pozulduqda, emosional travmalar yaşadıqda qızlar intihar düşüncəsinə daha çox meylli olurlar. (Esposito və b., 2020). Yeniyetmə oğlanların psixoloji vəziyyətlərini gizlətməyə meylli olmaları, özlərini ifadə etməkdə çətinlik çəkmələri, problemlərini bölüşməkdə çəkinməyə meylli olmaları onlara qarşılaşdıqları emosional çətinlikləri həll etməkdə problem yaradır. Problemlərin caynağında qalan, maneələri aşa bilməyən yeniyetmələr isə intihara cəhd edirlər. Statistikalara əsasən oğlan yeniyetmələr arasında intihar nəticəsində ölüm halları qızlara nisbətən daha yüksəkdir və buna səbəb isə onlar tərəfindən istifadə edilən intihar üsullarının daha öldürücü olmasıdır. (CDC 2023)

Yeniyetmələr arasında bullinqə qarşı ümumtəhsil məktəblərində profilaktik tədbirlər:

1. Məktəbin pedaqoji və texniki heyəti üçün bullinq təlimlərinin təşkili:

Bu təlimlər müəllim və texniki heyətə bullinqin əlamətlərini tanımağa, müəyyən etməyə və müdaxilə etmə bacarıqlarına sahib olmağa kömək edəcəkdir.

Bu cür təlimlərdə yaş, cins, fərdi xüsusiyyətləri nəzərə almaqla yeniyetmələrlə davranış qaydaları da mənimsədilməli, yeniyetmələrin buller, qurban və şahid olmağa meyilli olmasını fərqləndirmək üçün strategiyalar öyrədilməlidir.

Bullinqə qarşı müdaxilə təlim proqramlarında yeniyetmələrin yaş, cins və fərdi psixoloji xüsusiyyətlərinin öyrədilməsi əsas tutulmalıdır. Təlimlər zamanı iştirakçılara buller (bullinqi törədən), qurban (bullinqə məruz qalan) və şahidin davranış göstəriciləri haqqında məlumat verilməlidir. Bu cür yanaşma tərzi həm bullinq hallarının erkən mərhələdə aşkar olunmasına, həm də müdaxilə proqramlarının səmərəli işləməsinə şərait yaradır.

2. Şagirdlərlə müntəzəm maarifləndirici seminarların keçirilməsi:

Yeniyetməlik dövrünün xüsusiyyətləri nəzərə alınaraq onlara empatiya, emosional intellekt, konfliktin sülh yolu ilə həlli imkanları, rəqəmsal təhlükəsizlik məsələləri öyrədilməlidir. Rollu oyunlar, debatlar, real hadisələrin analizi metodları ilə davranış modelləri üzərində çalışılmalıdır.

3. Şagirdlər üçün dəstək mexanizmlərinin yaradılması:

Məktəblərdə şagirdlərin təhlükəsiz formada məruz qaldıqları bullinq halları ilə bağlı anonim məlumat vermək imkanı yaradılmalıdır. Bu məktəbin elektron ünvanı və ya məktəb qutusu ola bilər.

4. Valideynlərlə əməkdaşlığın artırılması.

Məktəblə valideynlər arasında əməkdaşlıq şagirdlərin düzgün şəxsiyyət kimi yetişməsi, akademik nailiyyətlər əldə etməsi üçün olduqca vacibdir. Valideyn dəstəyi olmadan məktəb təlim-tərbiyə prosesindən tam müsbət nəticə ala bilməz. Bu cür dəstək xüsusilə də yeniyetməlik dövründə daha önəmlidir. Bullinq hallarına qarşı mübarizədə valideyn müəllim (xüsusilə də sinif rəhbəri) əməkdaşlığını doğru formada qurmaq üçün ilkin olaraq valideynlər üçün də bullinqlə bağlı seminarlar təşkil olunmalıdır. Sonrakı mərhələlərdə sinfin mühitini yaxşılaşdırmaq üçün valideynlərlə birgə iş aparılmalıdır. Xüsusilə də buller və qurbanların valideynləri ilə birgə görüşlər keçirilməli, şagirdlərin davranışlarının qaynağı müəyyənləşdirilməli və məsələnin həlli üçün birgə strategiyalar hazırlanmalıdır.

5. Məktəb psixoloqunun işinin genişləndirilməsi

Psixoloqlar şagirdlərə yeniyetməlik dövrünün psixo-sosial və eləcə də fizioloji xüsusiyyətləri haqqında məlumat verərək onlara bəzi davranışlarının səbəbini aydınlaşdırmalı, aqressiya hissi ilə mübarizə və empatiya hissinin inkişafı üçün dəstək durmalıdırlar. Xüsusilə də cinsi bullinqin daha geniş vüsət aldığı yeniyetməlik dövründə şagirdlərə cinsi xüsusiyyətlər izah olunmalıdır.

6. Pozitiv məktəb mühitinin formalaşdırılması

Yeniyetmələrə hörmət, müxtəlifliyə dözümlülük və bərabərlik dəyərləri aşılanmalıdır. Məktəbin pedaqoji və texniki heyətinin də şagirdlərə qarşı dözümlü və müsbət davranışı məktəbin ümumi mühitinə öz müsbət təsirlərini göstərəcəkdir.

7. "Lider" şagirdlərin bullinqlə mübarizədə dəstəyi

Məktəb daxilində lider şagirdlərin təsir imkanlarından istifadə edərək bullinqə qarşı mübarizə strategiyaları qurmaq da öz müsbət nəticələrini verir.

Nəticə. Tədqiqatın nəticələri müəyyən edir ki, ümumtəhsil məktəblərində yeniyetmələr arasında bullinq hallarının qarşısının alınması üçün kompleks və sistemli profilaktik tədbirlərin keçirilməsi vacibdir. Məktəbin idarə heyətinin, müəllim və valideynlərin birgə fəaliyyəti, yeniyetmələr arasında sosial-emosional bacarıqların inkişaf etdirilməsi, məktəb heyəti, valideyn və şagirdlərin bullinqlə bağlı maarifləndirilməsi bu problemin azalmasında mühüm rol oynayır. Bununla yanaşı məktəb mühitində inklüzivlik və qarşılıqlı hörmətə əsaslanan tərbiyəvi yanaşma da bullinq hallarının qarşısının alınmasında müsbət nəticələrin əldə olunmasına kömək edir.

Problemin aktuallığı. Son illərdə ümumtəhsil məktəblərində, xüsusilə də yeniyetmələr arasında bullinq kimi mənfi davranış formalarının artması müşahidə olunur. Məqalə məhz bu problemə həsr olunmuş və problem və onun profilaktikası üçün müxtəlif pedaqoji təhlillər aparılmışdır.

Problemin elmi yeniliyi. Məqalədə yeniyetməlik dövründə baş verən bullinq halları pedaqoji baxış bucağından dəyərləndirilmişdir. Dövrün xüsusiyyətləri müəyyənləşdirilmiş, yeniyetmə qız və oğlanlar arasında bullinq növlərinin yayılma fərqləri təhlil olunmuşdur. Müəyyən edilmişdir ki oğlanlar fiziki və birbaşa aqressiv davranış formalarına meylli olduqları halda, qızlar arasında sosial və psixoloji bullinq növlərinə daha çox meyllilik var. Məqalədə lider şagirdlərin sosial təsirindən istifadə kimi yeni pedaqoji yanaşmalar da təklif olunur.

Problemin praktik əhəmiyyəti. Məqalədə təqdim olunan profilaktik tədbir və yanaşmalar ümumtəhsil məktəblərinin pedaqoji heyəti – müəllimlər (xüsusilə də sinif rəhbərləri), psixoloqlar, tərbiyə işləri üzrə təşkilatçılar üçün istinad rolunu oynaya bilər. Eyni zamanda tədqiqatdan yararlanan valideynlər yeniyetməlik dövrünün xüsusiyyətləri haqqında məlumat toplayıb, övladlarının riskli davranışlarını tanıya və vaxtında müdaxilə etmək imkanına sahib ola bilərlər.

Ədəbiyyat:

1. Oksford lüğəti. https://www.oxfordlearnersdictionaries. com/definition/ english/adolescence
2. Eskin, M., Ertekin, H. ve Dereboy, Ç. (2008). Lise öğrencisi ergenlerde depresyonun yaygınlığı ve ilişkili olduğu etmenler. Türk Psikiyatri Dergisi, 19, pp. 382-389.
3. Erikson, E. H. (1968). Identity: Youth and Crisis. New York: W. W. Norton & Company. Pp. 155-160
4. Sullivan, H. S. (1953). The interpersonal theory of psychiatry. New York: W. W. Norton & Company. (242 (240-270).
5. Pişkin, M. (2002). Okul zorbalığı: tanımı, türleri, iliĢkili olduğu faktörler ve alınabilecek önlemler. Kuram ve Uygulamada Eğitim Bilimleri. 2. Pp. 531-562.
6. Page, R.M. ve Page, S.T. (2003). Fostering emotional well-being in the classroom. Massachusetts:Jones & Barlett Publishers
7. Olweus, D. (1993). Bullying at School: What We Know and What We Can Do. Oxford: Blackwell.
8. Craig, W., Pepler, D., & Blais, J. (2007). Responding to Bullying: What Works?. School Psychology International, 28, pp. 465–477.
9. Nansel, T. R., et al. (2001). Bullying Behaviors Among US Youth: Prevalence and Association With Psychosocial Adjustment. *JAMA*, 285(16), 2094–2100.
10. (Gini et al., 2007). Gini, G., Albiero, P., Benelli, B., & Altoè, G. (2007). Does empathy predict adolescents' bullying and defending behavior? *Aggressive Behavior*, 33(5), 467–476. https://doi.org/10.1002/ab.20204
11. Olweus, D. (1993). *Bullying at school: What we know and what we can do*. Blackwell Publishing.
12. World Health Organization. (2021). Suicide worldwide in 2019: global health estimates**.** Geneva: WHO.
13. Centers for Disease Control and Prevention. (2023). *Youth Risk Behavior Survey Data Summary & Trends Report: 2011–2021*.
14. Underwood, M. K., & Rosen, L. H. (2011). *Gender and bullying: Moving beyond mean differences to consider conceptions of bullying, processes by which bullying unfolds, and cyberbullying*. In Espelage, D., & Swearer, S. (Eds.), *Bullying in North American schools* (2nd ed.)

Redaksiyaya daxil olub: 09.09.2025.

UOT 37.

Vəliyəddin Ziyəddin oğlu Müsəllimov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
baş müəllimi
E-mail: veliyeddinmusalimov 1962@mail.ru
https://orcid.org/ 0009-0000-7463-4100
https://doi.org/10.69682/arti.2025.92(5).41-44

DÜNYA PRAKTİKASINDA TƏHSİLİN KEYFİYYƏTİNİN DƏYƏRLƏNDİRİLMƏSİ MEXANİZMLƏRİ

Valiyeddin Ziyeddin oglu Musallimov
senior lecturer of the Azerbaijan State Pedagogical University

EDUCATION QUALITY ASSESSMENT MECHANISMS IN WORLD PRACTICE

Велияддин Зиеддин оглы Мусаллимов
старший преподаватель Азербайджанского Государственного Педагогического Университета

МЕХАНИЗМЫ ОЦЕНИВАНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ В МИРОВОЙ ПРАКТИКЕ

Xülasə. Elmi məqalədə ilkin olaraq təhsildə keyfiyyət anlayışı, onun mahiyyət və məzmununa ayrı-ayrı pedaqoqların fikirlərinə istinad edilərək öyrənilmişdir. Dünya praktikasında təhsildə və təhsilin idarə olunmasında keyfiyyətin dəyərləndirilməsi mexanizmləri və onların həyata keçirilməsi istiqamətləri araşdırılmışdır.
Açar sözlər: *təhsil, keyfiyyət, Amerika, akkreditasiya, universitet, dəyər, kollec*

Abstract. In the scientific article, initially, the concept of quality in education, its essence and content was studied by referring to the opinions of individual educators. In world practice, the mechanisms of assessing quality in education and education management and the directions of their implementation were investigated.
Keywords: *education, quality, America, accreditation, university, value, college*

Аннотация. В научной статье изначально исследовалось понятие качества в образовании, его сущность и содержание со ссылкой на взгляды отдельных педагогов. В мировой практике исследовались механизмы оценивания качества в образовании и управлении образованием и направления их реализации.
Ключевые слова: *образование, качество, Америка, аккредитация, университет, ценность, колледж*

Müasir dünyada təhsil müəssisələri dünya səviyyəsində bəzən ağır rəqabətə davam gətirmək məcburiyyətindədir. Bu zaman məlum məsələdir ki, yeganə çıxış yolu özünü başqalarından fərqləndirmək, daha güclü olduğunu sübuta yetirməkdir. Daha yüksək səviyyədə təhsil verən, daha böyük nüfuza malik olan təhsil müəssisələri yeniləşməyə məcbur olur, keyfiyyətə baxışını dəqiqləşdirməyə çalışır.

H.A. İsaxanlının sözlərinə görə ”Keyfiyyət davamlı inkişafa yönələn sistem və üsullar hökmən mümkün qədər vaxtında görülməlidir”(1, s.9).

Prof. O. Mehrabovun qənaətinə görə isə, “keyfiyyət, ümumiyyətlə, istənilən prosesin müəyyənliyini bildirən fəlsəfi kateqoriya olub, onun xassələrinin məcmusunda təzahür edən obyektiv və bütöv xarakteristikasıdır“ (3, s. 68).

Təhsil müəssisələrini bütövlüklə xarakterizə edən ümumi keyfiyyətin ölçülməsində, amerikalıları ilklərdən hesab etmək olar. 20-ci əsrin 2-ci yarısında Amerika Birləşmiş Ştatlarında təhsil təhsil qurumları ilə bağlı bir sıra hə-

yati vacib problemlər meydana çıxmışdı. Ali təhsil almaq üçün kolleclərə qəbul qaydaları işlənilməmişdir, kolleclərdən dərəcə alıb məzun olmaq barədə standartlar demək olar ki yox idi. Klassik və eləcə də sabit tədris planları isə bu zaman işə yaramırdı və üstəlik də seçmə dərslərə ehtiyac artmışdı. Psixologiya və sosiologiya kimi yeni elm sahələri də formalaşmaqda idi. Ali məktəblər onlara biganə qala bilməzdi. Bir kollecdən bakalavr dərəcəsi almış məzun başqa kollecdə magistr proqramına daxil olmaq istəyəndə uğursuzluq meydana çıxırdı.

Problemlərlə üzləşən ali məktəblər çıxış yolları axtarmağa başladılar. Xüsusilə ali məktəbə qəbul məsələsi gündəlikdə təxirəsalınmaz hala gəlmişdi. Bu səbəbdən də 1871-ci ildə Miçiqan Universiteti öz müəllimlərini orta məktəblərə göndərib məktəblərdə təhsilin və tədrisin vəziyyətini araşdırmağa başladı. Bəyənilmiş orta məktəblərin məzunları orta məktəbi bitirmək haqqında sənəd təqdim etməklə Miçiqan Universitetinin tələbəsi olmaq hüququ qazandılar. Viskonsin, İndiana, və Kaliforniya universitetləri də eyni cür hərəkət etməyə başladılar. Bu, Amerikada təhsil müəssisələrinin planlı şəkildə dəyərləndirilməsinin, təhsildə keyfiyyət ölçülərinin tətbiqinin ilki oldu. Ali məktəblər orta məktəbləri qiymətləndirən, müəyyən mənada akkreditasiya edən qurum vəzifəsini öz öhdələrinə götürdülər.

1885-ci ildə Yeni İngiltərədə məktəblər və kolleclər assosiasiyası, 1887-ci il Orta ştatlar, 1895-ci il Cənub və Şimal Mərkəz məktəblər və kolleclər assosiasiyaları yarandı. Digər iki analoji qurum uyğun olaraq 1917-ci və 1923-cü illərdə yaradıldı. Bunlara Şimali-Qərb və Qərb məktəblər və kolleclər assosiasiyaları daxil idi. Bu altı assosiasiya universitet və kolleclərı akkreditə etməyə başladılar. 1910 və 1954-cü illər arasında onlar nəzarətdən keçmiş ali məktəblərin siyahısını elan etdilər. Bu günə kimi Amerika Birləşmiş Ştatlarının universitetlərinin və kolleclərinin dəyərləndirilməsi bu altı nüfuzlu qeyri-hökumət təşkilatlarının üzərinə düşür. Bu regional assosiasiyalar öz keyfiyyət standartları və ya indikatorları özündə əks etdirən kitabları çap etdirir.

Akkreditasiya bir tərəfdən keyfiyyətin və standartların sabit olmadığını, hərəkətdə olduğunu nəzərə alır, ali məktəbin fəaliyyətinə bir proses kimi baxır və yol göstərir. Digər tərəfdən isə akkreditasiya qərardır, keyfiyyət haqqında rəsmi tanınmadır və tənzimləmə vəzifəsini yerinə yetirir. Bu zaman, əlbəttə, ali məktəbin məqsədinə və ölçüsünə görə fərqli olmasını və özünəməxsus olmaq istəyini akkreditasiya qurumu nəinki sındırmağa çalışmamalı, tam əksinə bu istəyi qorumalıdır. Amerika Birləşmiş Ştatlarında ümumiyyətlə akkreditasiya üçün müəyyən edilmiş minimum standartlar çox yüksək deyil. Bu səbəbdən güclü ali məktəblərlə yanaşı, bir sıra nisbətən zəif kollec və universitetlərin də akkreditasiyadan keçmək imkanı var.

1990-cı illərdə Birləşmiş Krallıqlarda ali təhsildə keyfiyyətin müəyyən edilməsi istiqamətində təşkilatlanma başlandı. Bu ölkə ali təhsildə keyfiyyətə nəzarət sahəsində Avropada ən çox iş görmüş ölkə sayılır. Ona görə də uğurlar da, mübahisəli məsələr burada çoxdu.

1992-ci ildə İngiltərə, Şotlandiya və Uels üzrə maliyyələşdirmə Şuraları yaradıldı. Onların əsas vəzifəsi dövlətin maliyyələşdirdiyi ali məktəblərdə keyfiyyətin dəyərləndirilməsi idi. İngiltərədə bu qurum "İngiltərə üzrə ali təhsili maliyyələşdirmə Şurası" adlandırıldı. Bu Şura ixtisaslaşma üzrə tədris planlarını və fənnləri araşdırmaq yolu ilə keyfiyyəti ölçməyə məsul oldu. Başqa sözlə desək, akademik proqramları təftiş edərək ixtisaslaşmış/peşəkar akkreditə ilə məşğul oldu. Qiymətləndirmənin nəticəsi üç cür ola bilərdi-əla, məqbul və qeyri-məqbul. Digər tərəfdən, ali məktəb rəhbərləri Ali təhsil keyfiyyət Şurası adlanan və ali məktəblərdə keyfiyyəti müəyyən edən qurum yaratdılar.

Beləliklə, İngiltərədə, eləcə də Şotlandiya və Uelsdə ali məktəblərin keyfiyyət ölçülərini müəyyən edən biri müstəqil, digəri isə təşkilatı baxımdan dövlət nəzarətində olan iki qurum meydana gəldi. Eyni zamanda Ali məktəblərdə keyfiyyətin müstəqilliklə sıx əlaqəsi olduğu da vurğulandı. Sonda binar sistem-yəni universitetlər və politexnik institutların paralel varlığı aradan qaldırıldı, politexniklər universitetə çevrildilər. Beləliklə, istisnasız bütün ali məktəblər öz sənədlərini özləri verməyə başladılar. Onu da qeyd edək ki, əvvəllər politexniklərə diplomlar Milli Akademik Təltiflər Şurası adlanan qurum tərəfindən verilirdi.

H.A. İsaxanlı yazır:" Müasir dünyada ali məktəbin müstəqilliyi və şəffaflığı-ikisi bir yerdə keyfiyyətin təməli sayılır. Onu da qeyd edək ki, akademik əksəriyyətin fikrinə görə key-

fiyyətli ali məktəblərin sayı baxımından Birləşmiş Ştatlardan sonra Birləşmiş Krallıqlar gəlir" (1, s. 26).

Maraq üçün qeyd edək ki, İngiltərə üzrə ali təhsili maliyyələşdirmə Şurası" 1992 və 1995-ci illər arasında apardığı 912 dəyərləndirmədə 249 proqram, yəni 26% əla, 711 proqram, yəni 73% məqbul və yalnız 12 proqram, yəni 1% qeyri-məqbul qiymət almışdı. 1994-cü ildə bütövlükdə və ixtisaslaşmış dəyərləndirmə aparan iki qurumu birləşdirib keyfiyyəti hərtərəfli ölçə bilən müstəqil agentlik yaratmaq qərara alındı. 1997-ci ildə Keyfiyyət təminatı agentliyi - QAA əvvəlcə hər iki istiqamətdə fəaliyyət göstərdi, lakin çox tənqidlərə məruz qaldıqdan sonra 2002-ci ildən başlayaraq yalnız ümumi keyfiyyəti ölçməyə yönələn qrum auditi ilə məşğul olmağı davam etdirdi. Akademik proqramlara isə QAA ancaq çox zəruri olduqda müraciət etməyi qərara aldı. Digər tərəfdən "İngiltərə üzrə ali təhsili maliyyələşdirmə Şurası" hər beş ildən bir yerinə yetirilməli olan yeni tədqiqat dəyərləndirilmə çalışmaları üzərində dayandı. Bu, hər sahə üzrə universitetlərin tədqiqat gücünü və ona uyğun olaraq ayrılan maliyyələşdirməni müəyyən etmək məqsədi güdür. Bu güc 1-dən 5-ə kimi qiymətləndirilir, 1 və 2 alan tədqiqat sahələrinə maliyyələşdirmə ayrılmır, 5 alan sahənin maliyyəsi 3 alandan dörd dəfə çox olur.

Ş. Qəribov, İ. Əsədova, T. İsmayılova, M. Kazımov, F. Həsənoğlu dünyanın ən inkişaf etmiş ölkələrindən biri olan Rusiya Federasiyasının orta ixtisas təhsili müəssisələrində keyfiyyətin idarəolunması məsələlərinə toxunaraq göstərirlər ki, "Rusiya Federasiyasının orta ixtisas təhsili müəssisələrində keyfiyyətin idarəolunması mərkəzləşdirilmiş qaydada baş idarə tərəfindən yaradılan xüsusi komissiyanın fəaliyyəti, təhsil müəssisəsinin direktoru, tədris-tərbiyə işləri üzrə direktor müavini, gənclər təşkilatı, tələbə həmkarlar təşkilatı və qrup rəhbərləri tərəfindən həyata keçirilir.

Rusiyada Baş idarələr Rusiya Federasiyasının Təhsil Nazirliyinə tabe olur və Nazirliyin təlimatı əsasında fəaliyyət göstərir. Regional idarəetmədə baş idarənin funksiyalarını regionlarda yaradılmış departamentlər tərəfindən həyata keçirilir" [5,s.156].

Nəticə

Hər hansı ali məktəbi dəyərləndirərkən dəqiq işlənmiş meyarlar və ya standartlara əsaslanmaq vacibdir. Bu standartların baxılan ali məktəbdə hansı dərəcədə olması haqqında fikir yürütmək qiymətləndirməyə məsul olan qurumun işidir. Bütün göstəriciləri yeddi qrupa ayırmışıq, əlbəttə, belə qruplaşmalar müxtəlif ola bilər. Burada biz təhsildə keyfiyyətə təsir edən amilləri, yəni ali məktəbi yaxşı edən, " gözəl ali məktəb" adını səciyyələndirən tərəfləri qruplaşdırmışıq: təhsil siyasəti, tədrisin ciddiliyi və mühit, təhsil və tədrislə bağlı plan və proqramlar, alimlər və müəllimlik fəaliyyəti, tələbələr və tələbə həyatının təşkili, maddi və fiziki qaynaqlar, kitabxana, inkişaf və fəaliyyət planları.

Bununla yanaşı, dünyanın inkişaf etmiş ölkələrində ali təhsil almağın sərfəli formaları uğurla fəaliyyət göstərir və inkişaf edir. İlk növbədə bu, Amerika formatlı ikiillik kollecdir ki, onun modelini dünyanın müxtəlif ölkələrindən olan təhsil sahəsi üzrə ekspertlər öz ölkələrinin şəraitlərinə uyğunlaşdırmaq üçün araşdırırlar. Bu növ kolleclər sinfi səmərəli olduğundan dünyada ona olan maraq artmaqda davam edir. Cənubi Koreya, Çin, Hindistan, Şri Lanka, Vyetnam, Braziliya və Niderland ikiillik kolleclər sisteminin Amerika modelini öz ölkələrində artıq yaradıblar. Bu baxımdan onların təcrübəsi Azərbaycan üçün çox vacibdir. Vauçerlər vasitəsilə tələbələrin təhsil almasının maliyyələşməsi baxımından yeni formaları istər özəl, istərsə də dövlət universitetlərinin inkişafının mühüm tərkib hissələrindən birinə çevrilə bilər. Bu sistem universitetlər arasında rəqabətin artmasına səbəb olacaq. Son nəticədə o, universitet mühitində keyfiyyətin güclənməsinə gətirib çıxaracaq.

R. Sədirxanov vauçerlərin istifadə sahəsini artırmaqdan ötrü dörd növün tətbiq olunmasını təklif edir: "birinci növ – bu, hazırda tətbiq olunan vauçerdir; ikinci növ – müstəqil olaraq əlavə ödənilən vauçerdir, bu o deməkdir ki, ödəniş məbləğinin vauçeridir, ödəniş məbləğinin vauçer məbləğindən artıq olduğu ali məktəblərdə seçdiyi ixtisas üçün əlavə ödənişi tələbə özü ödəyir; üçüncü növ-kreditlə əlavə ödənilən vauçerdir, bu o deməkdir ki, tələbə ödəniş məbləğinin vauçer məbləğindən artıq olduğu ali təhsil müəssisələrində seçdiyi ixtisas üçün əlavə ödəniş məqsədilə dövlətdən maliyyə krediti almaq imkanına malikdir; dördüncü növ-qrant-əsaslı vauçerdir, bu o deməkdir ki, ödəniş məbləğinin vauçer məbləğindən artıq olduğu ali

təhsil müəssisələrində tələbənin seçdiyi ixtisas üçün əlavə ödənişi dövlət ödəyir" (4, s. 61).

Bu cür istisnaların sayı, məsələn, bütün vauçerlərin sayının 5%-i qədər, yaxud yalnız cari dövrdə dövlətin ehtiyac hiss etdiyi ixtisaslar üzrə məhdudlaşdırıla bilər, bu cür qrant-əsaslı imtiyazlara namizəd olan tələbələrdən yüksək daxilolma balı toplamalarını tələb etmək tamamilə əsaslıdır.

Problemin aktuallığı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın və bu Strategiyanın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının təsdiqi təhsilimizin inkişafında mühüm addım olaraq tarixə düşdü. Hər iki dövlət sənədində əsas məqsədlərdən biri kimi təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması nəzərdə tutulur. Bu da təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

Problemin elmi yeniliyi. Dünyanın bir çox ölkələrində təhsildə keyfiyyətin dəyərləndirilməsi mexanizmləri, tarix boyu onun inkişaf mərhələlərinin araşdırılması və ali təhsil müəssisələrində onların həyata keçirilməsi istiqamətlərinin müəyyən edilməsi müasir dövrdə rəqabətə davamlı və güclü təhsil sisteminin yaradılması üçün önəmli məsələlərdən biridir.

Problemin praktik əhəmiyyəti. Elmi məqalədə irəli sürülən ideyalardan, nəticələrdən təhsilin keyfiyyət səviyyəsinin müəyyən olunmasında, idarə olunma ilə bağlı dərslik və dərs vəsaitlərinin hazırlanmasında, elmi aspektə keçirilən müxtəlif simpozium və konfranslarda, məruzə və çıxışların tərtibində istifadə imkanlarını zənginləşdirir və genişləndirir.

Alınan nəticələrdən ali təhsil müəssisələrində çalışan məktəbin müəllimləri, təhsil işçiləri, təlim problemləri ilə məşğul olan şəxslər metodiki baxımdan istifadə edə bilərlər.

Ədəbiyyat:

1. İsaxanlı, H.A.Yaxşı nədir, pis nədir? Ali təhsilin inkişaf səviyyəsi, keyfiyyət göstəriciləri və akkreditasiya haqqında /H.A. İsaxanlı.- Bakı: Xəzər Universiteti, -2007. -54 s.
2. Abbasov, A.N. Pedaqogika: Dərs vəsaiti / A.N. Abbasov. – Bakı: Mütərcim, 2015. – 360 s.
3. Mehrabov, A.O. Təhsil sistemində keyfiyyət təminatının metodoloji məsələləri //-Bakı: Ali təhsil və cəmiyyət.-2012. №1, -s.68-74
4. Sədirxanov, R. Azərbaycanın ali təhsil sistemində keyfiyyət təminatının özünütənzimləyən mexanizminin yaradılmasına dair bəzi praktiki təkliflər //-Bakı: Ali təhsil və cəmiyyət, -2012. №1, -s.59-67
5. Təhsilin idarə edilməsinin aktual problemləri. / Ş. Qəribov, İ. Əsədova, T. İsmayılova [və b.] - Bakı: Şahin-MB, -2016.-192 s.

Redaksiyaya daxil olub: 15.09.2025.

UOT 37.01

Инара Самидали гызы Джафарова
преподаватель Азербайджанского Государственного Педагогического Колледжа
при Азербайджанском Педагогическом Государственном Университете
https://orcid.org/0000-0001-5181-9946
E-mail: inara-asadova@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(5).45-48

РОЛЬ ЧТЕНИЯ В ФОРМИРОВАНИИ КРИТИЧЕСКОГО МЫШЛЕНИЯ

İnarə Səmidəli qızı Cəfərova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kollecin müəllimi

TƏNQİDİ TƏFƏKKURÜN İNKİŞAFINDA MÜTALİƏNİN ROLU

Inara Samidaly Jafarova
teacher of the Azerbaijan State
Pedagogical College under the Azerbaijan State
Pedagogical University

THE ROLE OF READING IN THE DEVELOPMENT OF CRITICAL THINKING

Аннотация. Данная статья посвящена подготовке ресурсов, которые усовершенствуют навыки чтения у учащихся и помогут им сформировать культуру чтения и развитии у них критического мышления. Чтение помогает находить новые пути решения проблем, что особенно важно в условиях быстро меняющегося мира. Регулярное чтение не только обогащает внутренний мир, но и способствует профессиональному и личностному росту, открывая перед учащимися бесконечные возможности для творчества.
Ключевые слова: *чтение, личность, навыки, критическое мышление, развитие*

Xülasə. Məqalə gənc nəslin mütaliəyə istiqamətləndirilməsi, onlarda mütaliə mədəniyyətinin formalaşdırılması və tənqidi təfəkkürün inkişafına kömək edəcək resursların hazırlanmasına həsr olunub. Mütaliə, problemlərin həllinin yaradıcı yollarını tapmağa kömək edir ki, bu da sürətlə dəyişən dünyada xüsusilə vacibdir. Daimi mütaliə şagirdlərin daxili aləmini zənginləşdirməklə yanaşı, həm də peşəkar və şəxsi yüksəlişə təkan verir, sonsuz yaradıcılıq imkanları açır.
Açar sözlər: *mütaliə, şəxsiyyət, tənqidi təfəkkür, vərdiş, inkişaf*

Abstract. The article is devoted to the orientation of the younger generation to reading, the formation of a reading culture in them and the preparation of resources that will help develop critical thinking. Reading helps to find creative ways to solve problems, which is especially important in a rapidly changing world. Regular reading not only enriches the inner world of students, but also stimulates professional and personal growth, opens up endless creative opportunities.
Key words: *reading, personality, critical thinking, habit, development*

Гуманистические образцы литературы, сложившиеся и развивавшиеся на протяжении веков и давшие жемчужины сокровищнице словесного искусства человечества, являются настоящей школой жизни для любого читающего. Читательский интерес – это интерес, направленный на применение жизненного опыта ученика, полученного из книг. Роль чтения исключительно важна в формировании и совершенствовании человека как личности, в обогащении его духовного мира, в расширении его мировоззрения и кругозора, в развитии гибкого, чуткого и объективного отношения к общественным явлениям, в развитии его художественного воображения, образного и логического мыш-

ления, познавательных способностей, а во многих случаях и в определении жизненного пути, в гражданском воспитании. Так же чтение активно развивает критическое мышление, так как требует анализа, оценки информации, выявления логических связей и формирования обоснованных суждений на основе прочитанного. Разнообразная литература помогает лучше понимать различные точки зрения, расширяет кругозор, тренирует аналитические способности, логику, память и умение принимать взвешенные решения.

Таким образом, литература является источником знаний о жизни, истории, традициях народа, их сохранении и передаче из поколения в поколение, а также их развитии. В этом смысле чтение оказывает неоценимое влияние на сравнение с другими культурами и формирование соответствующих выводов. Чтение сохраняет ведущее положение среди факторов развития. Однако педагогические наблюдения и анализ показывают, что в последнее время в общеобразовательных школах ориентация учащихся на чтение, предоставление им необходимых знаний и реализация необходимых мер по формированию у них читательской культуры ослабли по сравнению с предыдущими периодами. В связи с этим, в настоящее время восстановление сложившихся традиций организации читательской работы учащихся, дальнейшее укрепление их интереса к чтению и развитие читательских навыков является одной из приоритетных задач в сфере образования. Следует отметить, что во все периоды существования школы литература занимала центральное место в учебной программе как предмет, но также неоспоримым фактом является то, что, как отмечали классики педагогики, невозможно охватить литературу ни одной школьной программой. Следует также отметить, что школьный курс литературы не должен изучать всю литературу, но учащиеся должны извлекать из неё пользу – получать историческую и важную информацию из литературы. Наряду с преподаванием литературы, учащиеся различными способами получают историческую и современную важную информацию о людях, связанных с литературой и другими областями. Одним из таких способов, и самым важным, является чтение. Чтение – это самостоятельная деятельность учащихся в школе, то есть способ получения информации и приобретения знаний по определённой проблеме посредством самостоятельного чтения. Однако, в обязанности школы, учителя и библиотеки входит формирование психологического интереса к чтению у учащихся с первых лет обучения. Неслучайно в развитых странах библиотекари и специалисты, отличающиеся профессионализмом, работают с детьми и молодёжью, направляя их чтение. Для удовлетворения интеллектуальных потребностей детей-школьников и молодёжи, развитие которых ориентировано на будущее, и расширения их интереса к чтению, в общеобразовательных школах нашей республики необходимо готовить дополнительных специалистов, способных работать со школьниками младших и старших классов, чтобы, помимо преподавания предмета, постоянно развивать у них интерес к чтению [4, с.68].

Вопрос в следующем: кто должен воспитывать и обучать этих детей с раннего возраста? Кто должен формировать из них достойных общества людей? Читая и учась с юных лет, люди формируются, взрослеют, обладают богатой речью и с любовью усваивают различные предметы. Конечно, как мы уже упоминали, эта почётная обязанность ложится на отцов, матерей, дедушек, а в наших школах – на учителей, библиотекарей и на всю интеллигенцию в целом. Без сомнения, если старшее поколение сегодня не читает, если оно не верит в силу книг как источника всех знаний и носителя нравственности, если оно само не читает, оно, вероятно, не сможет принимать непосредственного участия в воспитании подрастающего поколения.

Обеспечение чтением – общечеловеческая проблема, и в Азербайджане, как и в развитых странах, она должна решаться на государственном уровне. Духовная потребность человека может быть удовлетворена только через чтение. Презентации книг, их обсуждение, научно-методические конференции (конечно, с учетом принципа актуальности, вид работы должен быть подобран в соответствии с уровнем каждого класса), встречи с деятелями литературы и искусства,

а также видными учеными, литературно-художественные вечера, диспуты, организуемые в школьных библиотеках, создают у каждого участника определенную духовную потребность, усиливают интерес к какой-либо проблеме, а проведение этих вечеров – отдельных воспитательных мероприятий – оставляет у учащихся глубокое впечатление. В конечном итоге, конечно, этот интерес порождает потребность в чтении. Перечисленные вопросы как будто забыты, отодвинуты на второй план, и ни школьные, ни университетские программы, не способны дать человеку необходимые знания о законах развития природы и общества. Скажем также, что без личностного воспитания (эти чувства должна прививать ученикам школа) не может быть и речи ни о каком духовном развитии, ни о каком взрослении. Эта нагрузка ложится тяжелейшим образом на общеобразовательные школы. Человек должен непрерывно накапливать знания на протяжении всей жизни, начиная со старших классов, и много читать, чтобы его память постепенно окрепла. Поэтому после определённого возраста ученикам следует не только читать литературу, заданную учителями, но и стараться развивать у себя интерес к чтению самостоятельно, в соответствии со своими интересами (часть информации и необходимые идеи можно почерпнуть из телефонов, планшетов – т.е из Интернета), но чтение книги целиком, терпеливое чтение должно стать практикой каждого школьника. Поскольку события, происходящие в жизни, отражаются в литературе, всего этого можно достичь посредством чтения. Литература также является средством воспитания. Регулярное чтение не только обогащает внутренний мир, но и способствует профессиональному и личностному росту, открывая перед учениками бесконечные возможности для творчества. Практические советы для развития креативности и критического мышления через чтение:

✓ разнообразие жанров. Читайте книги самых разных жанров и направлений. Это поможет вам развить гибкость мышления и увидеть мир с различных точек зрения.

✓ обсуждение прочитанного. Общение с другими людьми на тему прочитанных книг позволяет услышать альтернативные мнения и идеи, которые могут обогатить ваше собственное понимание материала.

✓ анализ текста с вопросами: Давайте ученикам тексты с открытыми вопросами, которые требуют не просто воспроизведения информации, а анализа, сравнения, оценки аргументов.

✓ сравнение разных точек зрения: Предлагайте читать несколько текстов на одну тему с разной позицией, чтобы ученики могли выявлять противоречия и формировать собственное мнение.

✓ дискуссии по прочитанному: После чтения устраивайте обсуждения, где ученики аргументируют свои мысли, учатся слушать и критически воспринимать аргументы других.

✓ критическое рецензирование: Учите учащихся писать рецензии или отзывы, выделяя сильные и слабые стороны текста, логику и достоверность информации.

✓ Проекты с исследовательским чтением: Задавайте темы, по которым ученики ищут, читают и анализируют информацию из разных источников, формируя обоснованные выводы.

✓ сочетание жанров. Чередуйте художественную литературу с научной. Это поможет развить как креативное, так и критическое мышление, обеспечивая баланс между воображением и логикой.

Следуя этим рекомендациям, вы сможете максимально эффективно использовать чтение для личностного и профессионального роста, развивая навыки креативного мышления и критического анализа.

Актуальность проблемы. Чтение также выдвигается в качестве обязательного требования в программах по литературе, и решение задач, вытекающих из этого требования, должно осуществляться нашими учителями, формируя у учащихся интерес к предмету. Как мы уже говорили, известно также, что привычка к чтению не возникает внезапно, её основы закладываются в школе, и необходимо сделать её привычкой и превратить в насущную потребность, побуждая учащихся читать актуальные и интересные произведения уже в младших классах.

Научная новизна проблемы. Помимо преподавания литературы, учащиеся различными способами получают информацию об истории и современной жизни народов, связанных с лите-

ратурой и другими областями. Одним из таких способов, и самым важным, является чтение. Поскольку чтение является самостоятельной деятельностью учащихся в школе, были предприняты усилия по подготовке ресурсов для привития им привычки к самостоятельному чтению и развитии у них критического мышления.

Практическое применение проблемы. Учителям литературы, работающим в средних школах, следует использовать каждую высказанную мысль и сосредоточатся на способах пробудить у учащихся интерес к чтению, которое является самостоятельной деятельностью.

Литература:

1. Ализаде А.А. Психология школьника. – Баку: Ренессанс, -2015. -113 с.
2. Алексеевская А.Т. Формирование читательских интересов младших школьников. - Москва, -2008. -18–23с.
3. Ниталимова Л.В., Семенова С.Н. Развитие читательского интереса у школьников. -Москва, -2007. - Ментор. -302 с
4. https://as-journal.edu.az/mutali%C6%8F-pedaqoji-problem-kimi

Redaksiyaya daxil olub: 16.09.2025

UOT 37.

Samirə Mahir qızı Seyidli
Şamaxı Dövlət Regional kollecin müəllimi
https://orcid.org/0009-0007-7428-5765
E-mail: fariwka_2009@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(5).49-52

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV FENOMENI: TARİX VƏ ŞƏXSİYYƏT

Samira Mahir Seyidli
teacher of Shamakhi State Regional College

GREAT LEADER HEYDAR ALIYEV PHENOMENON: HISTORY AND PERSONALITY

Самира Махир гызы Сеидли
преподаватель Шамахинского Государственного Регионального Колледжа

ФЕНОМЕН ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА: ИСТОРИЯ И ЛИЧНОСТЬ

Xülasə. Bu elmi araşdırmalarımda Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti, əsasən, XX əsrin ikinci yarısı ilə bağlıdır. Bütövlükdə XX əsr bəşər tarixində bir çox təlatümlü hadisələrin baş verdiyi, iki dünya müharibəsinin od ələdiyi, çoxsaylı milli dövlətlərin meydana gəldiyi, siyasi və iqtisadi böhranların qaçılmaz olduğu və eyni zamanda, dünya inkişafına təkan verən proseslərin yaşandığı qlobal ziddiyyətlərlə dolu dramatik yüzillik kimi səciyyələndirilir. Bəşəriyyət məhz tarixi şəxsiyyətlərin sayəsində ziddiyyətli, odlu-alovlu dünyadan sabit və dayanıqlı dünyaya keçid aldı.
Açar sözlər: *Ümummilli, lider, şəxsiyyət, təhlükəsizlik, bəşəriyyət, fəaliyyət, iqtisadi, ziddiyyət*

Abstract. In these scientific studies, the political activity of National leader Heydar Aliyev is mainly related to the second half of the 20th century. As a whole, the 20th century is characterized as a dramatic century full of global contradictions, where many turbulent events took place in human history, two world wars broke out, numerous nation-states emerged, political and economic crises were inevitable, and at the same time, processes that spur world development were experienced. It is precisely thanks to historical figures that humanity made the transition from a conflicting, fiery world to a stable and stable world.
Keywords: *national, leader, personality, security, humanity, activity, economic, contradiction*

Аннотация. В этих научных исследованиях политическая деятельность Общенационального лидера Гейдара Алиева в основном относится ко второй половине XX века. В целом XX век характеризуется как драматический век, полный глобальных противоречий, где в истории человечества произошло немало бурных событий, разразились две мировые войны, возникли многочисленные национальные государства, политические и экономические кризисы были неизбежны, и в то же время происходили процессы, стимулирующие мировое развитие. Именно благодаря историческим личностям человечество совершило переход от мира конфликтного, огненного к миру устойчивому и стабильному.
Ключевые слова: *общенациональный, лидер, личность, безопасность, человечество, деятельность, экономический, противоречие*

Azərbaycan tarixində ulu öndər Heydər Əliyevin müstəsna yeri və fəaliyyəti, həyata keçirdiyi hərtərəfli islahatlarla bağlı kifayət qədər dəyərli tədqiqat əsərləri yazılmışdır. Son onilliklər ərzində Azərbaycanın bütün sahələrdə qazandığı uğurlar, heç şübhəsiz ki, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti ilə birbaşa bağlıdır. Ümummilli liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra hər bir sahədə olduğu kimi, dini sahədə mövcud olan problemlər də tədri-

cən aradan qaldırıldı, dövlət-din münasibətləri yeni mərhələyə qədəm qoydu, dövlətlə din arasında qarşılıqlı konstruktiv münasibətlər formalaşdı. Ümummilli lider Azərbaycan Respublikasında yaşayan müxtəlif xalqların və dinlərin nümayəndələrini vahid azərbaycançılıq ideologiyası, tolerantlıq, dözümlülük və fəal sosial-siyasi əməkdaşlıq prinsipləri əsasında birləşdirərək, bu gün bütün dünyaya örnək ola biləcək dövlət-din münasibətləri sistemini yaratdı.

Son onilliklərdə planetin müxtəlif guşələrində cərəyan edən hadisələr, mürəkkəb etnosiyasi proseslər fonunda din amilinin rolu getdikcə artmaqdadır. Xarakterindən asılı olmayaraq, baş verən əksər münaqişələrin əsasında dini motivlərin dayanması faktı danılmazdır. Bu kontekstdən yanaşdıqda, məmnunluq hissi ilə qeyd etmək olar ki, fərqli sivilizasiyaların qovşağında yerləşən Azərbaycan bu gün də zəngin milli-mədəni irsini, çoxəsrlik tolerantlıq ənənələrini və nümunəvi dövlət-din münasibətləri modelini nəinki qoruyub saxlaya bilmiş, həm də uğurla inkişaf etdirmişdir.

Heydər Əliyev milli mənəvi irsimizin qorunub saxlanılmasında, inkişaf etdirilməsində, dünya miqyasında təsdiqini tapmasında əvəzsiz rol oynamış, onun fəaliyyəti sayəsində Azərbaycan mədəniyyəti milli-dövlət sərhədlərini aşaraq bəşər mədəniyyətinin inkişafına layiqli töhfələr vermişdir. Azərbaycanın təxminən son 50 illik tarixini əhatə edən mənəvi və mədəni həyatında baş verən bütün yeniliklərin, uğurların əsas ideoloqu, təşəbbüskarı və təşkilatçısı Heydər Əliyev olmuşdur. Milli-mənəvi irsimizə, dəyərlərimizə bağlılıq onun tərbiyəsindən, əqidəsindən və ruhundan qidalanırdı. O, həyatı, qəlbi ilə öz xalqının mənəvi köklərinə, dininə bağlı idi, onlardan qaynaqlanır, onlardan ilham alırdı. Milli Liderimiz yaxşı dərk edirdi ki, hər bir xalqı tanıdan onun təbii sərvətləri, iqtisadi potensialı, hərbi qüvvəsi deyil, məhz mədəniyyəti və mənəvi dəyərlər sistemidir.

Heydər Əliyev görkəmli dövlət xadimi, siyasi rəhbər olmaqla bərabər həm də böyük nəzəriyyəçi və strateq idi. Heydər Əliyev, mühüm elmi doktrinanı – azərbaycançılıq doktrinasını dəstəkləyənlərdən biridir. Bu doktrina bu gün Azərbaycan dövlətinin siyasi ideologiyası və strategiyası, milli məfkurəsinin təməl daşıdır. Ölkəmizin bu gün həyatın bütün sahələrində əldə etdiyi uğurlar, dünya miqyasında tanınması Heydər Əliyevin bizə miras qoyub getdiyi milli ideologiyaya sadiqliyimizin, onu müasir şəraitdə daha da təkmilləşdirərək həyata keçirməyimizin sayəsində mümkün olubdur. O, Azərbaycan dövlətinin mükəmməl elmi inkişaf strategiyasını işləyib hazırlamaqla yanaşı, milli və mənəvi dirçəliş konsepsiyasının da əsasını qoymuşdur.

Ümummilli lider Heydər Əliyevin elmi-nəzəri və əməli ideyaları bu gün də aktuallığını itirməmiş və Azərbaycan Respublikasında müasir cəmiyyət quruculuğunda uğurla tətbiq edilir. Bu baxımdan onun nəzəri-ideoloji irsinin öyrənilməsi, ideyalarının tədqiqi və təbliği tarixşünaslıq elminin mühüm istiqamətlərindən birini təşkil edir. Digər tərəfdən, Heydər Əliyev irsinin araşdırılması və yayılması gənc nəslin, dövlətçilik ruhunda tərbiyə edilməsi, onun ideyalarının ictimai şüurun strukturuna daxil edilməsi baxımından, mühüm siyasi əhəmiyyət kəsb edir. Bütün bunlar tədqiq olunan mövzunun aktuallığını əyani şəkildə göstərir.

Dövlət və dinin qarşılıqlı münasibətləri, dövlətin din siyasəti problemi çoxcəhətli olduğundan və fənlərarası tədqiqatların geniş müstəvisində yerləşdiyi üçün ən müxtəlif elm nümayəndələrinin - tarixçilərin, filosofların, politoloqların, hüquqşünasların, ilahiyyatçıların, sosioloqların maraq dairəsindədir.

Dinin qlobal ictimai-siyasi proseslərdə, dünyanın transformasiyası kontekstində yerinə və roluna bir sıra Qərb, eləcə də çar, sovet və müasir Rusiya tədqiqatçılarının əsərləri həsr edilmişdir. Bu əsərlərdə dövlətlərin din siyasəti, siyasi və dini institutların münasibətlərinin nəzəri-metodoloji əsasları, dinin etnik, milli identlikliyə təsiri, siyasi münaqişələrdə rolu kimi məsələlər araşdırılır.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şüarlı həyatının bütün mərhələləri Azərbaycan xalqının müstəqil dövlətə sahib olmasına, onun dünya xalqları içərisində firəvan həyatının təmin edilməsinə yönəltmişdir. Ulu Öndər Heydər Əliyev hələ Dövlət Təhlükəsizlik Komitəsində işləyərkən bu orqanda fəaliyyət göstərəcək milli kadrların hazırlanması Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti, əsasən, XX əsrin ikinci yarısı ilə bağlıdır. Bütövlükdə XX əsr bəşər tarixində bir çox təlatümlü hadisələrin baş verdiyi, iki dünya müharibəsinin od ələdiyi, çoxsaylı milli dövlətlərin meydana gəldiyi, siyasi və iqtisadi böhranların

qaçılmaz olduğu və eyni zamanda, dünya inkişafına təkan verən proseslərin yaşandığı qlobal ziddiyyətlərlə dolu dramatik yüzillik kimi səciyyələndirilir. Bəşəriyyət məhz tarixi şəxsiyyətlərin sayəsində ziddiyyətli, odlu-alovlu dünyadan sabit və dayanıqlı dünyaya keçid aldı. da müstəsna xidmətlər göstərmişdir. Ulu Öndər Heydər Əliyev çox gözəl bilirdi ki, dövlət təhlükəsizlik orqanlarında işləyən qeyri – azərbaycanlılar tərəfindən xalqımıza qarşı olduqca qəddar münasibət bəslənmiş, minlərlə soydaşımız müxtəlif bəhanələr gətirilərək uzunmüddətli həbslərə, ölüm cəzasına məhkum edilmişdir. Xalqımıza qarşı yönəlmiş bu represiya maşınının qarşısını alınmasının yeganə yolu Dövlət Təhlükəsizlik Komitəsi sistemində milli kadrların yerləşdirilməsi idi ki, Ulu Öndər bu yolda qarşısına çıxan maneələri qətiyyətlə dəf etməyi bacardı. Ümummilli lider Heydər Əliyevin siyasi baxışlarına daha dərin məna qazandırır, onun Vətənimizin bu gününə və gələcəyinə çox möhkəm tellərlə bağlı olduğunu daha aydın göstərir. Böyük siyasi mütəfəkkir kimi, Ümummilli liderin keçdiyi həyat yolu və bütöv bir xalqın gələcəyini müəyyən edən uğurlu siyasi kursunun kökündə dayanan səbəblər haqqında çoxsaylı dəyərli əsərlər yazılmışdır.

Bu araşdırmalarda Ulu öndər Heydər Əliyev yeni tarixdə xalqımızın yetişdirdiyi ən böyük düha sahibi kimi xarakterizə olunur və bu şəksizdir. Lakin Heydər Əliyev şəxsiyyətinə təkcə Azərbaycan kontekstində deyil, daha geniş miqyasda - XX əsrin qlobal siyasi aynasında baxmaq, dünya siyasətinin formalaşmasında mühüm rol oynamış siyasi xadimlərlə, dövlət rəhbərləri ilə bir sırada nəzər salmaq Onun siyasi portretini daha önəmli cizgilərlə zənginləşdirmiş olar. Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti, əsasən, XX əsrin ikinci yarısı ilə bağlıdır. Bütövlükdə XX əsr bəşər tarixində bir çox tələtümlü hadisələrin baş verdiyi, iki dünya müharibəsinin od ələdiyi, çoxsaylı milli dövlətlərin meydana gəldiyi, siyasi və iqtisadi böhranların qaçılmaz olduğu və eyni zamanda, dünya inkişafına təkan verən proseslərin yaşandığı qlobal ziddiyyətlərlə dolu dramatik yüzillik kimi səciyyələndirilir. Bəşəriyyət məhz tarixi şəxsiyyətlərin sayəsində ziddiyyətli, odlu-alovlu dünyadan sabit və dayanıqlı dünyaya keçid aldı. Həyat və mübarizə yollarına nəzər saldığımız liderlər fəaliyyət göstərdikləri məkanın coğrafi sərhədlərini aşaraq universal düşüncə sahibləri, dünyanın yeni sosial yaşam, yeni siyasət reallıqlarını ərsəyə gətirən yaradıcı insanlar kimi tanınmışlar. Onlar üçün məkan və zaman fərqi yoxdur. Ulu öndər Heydər Əliyevin malik olduğu ali insani keyfiyyətlər və siyasi qabiliyyətlər ona istənilən siyasi mühitdə və istənilən coğrafi məkanda siyasi elitanın ən yüksək pilləsində qərarlaşmağı təmin edə bilərdi. Belə bir dühanın məhz Azərbaycan xalqına mənsub olması və özündən sonra bu xalqın tarixində yaradıcı iz və daha uzaq gələcəyə hesablanmış siyasi irs qoyması bütövlükdə xalqımızın milli uğuru və iftixar mənbəyidir. Müasir dünya tarixində yaradıcı iz qoymuş digər tarixi şəxsiyyətlərlə ortaq məziyyətlər daşıdığı üçün və bəzi hallarda isə həmin siyasi xadimləri belə üstələyən keyfiyyətlərə malik olduğu üçün Ulu öndər Heydər Əliyev dünya miqyaslı fenomenal şəxsiyyətdir, Azərbaycan xalqının hər zaman fəxr edəcəyi və həyat yolundan ibrət götürəcəyi böyük bir mütəfəkkirdir. Ulu öndər Heydər Əliyev bir çox siyasətçi müasirlərindən fərqli olaraq təkcə öz dövrünün deyil, daha geniş zaman çərçivəsində baş verən ictimai-siyasi proseslərin axarını müəyyən edə bilən güclü siyasi iradə sahibi, yeni dünya tarixinin rasional siyasətçisi, uzaqgörən bir dövlət xadimidir. Heydər Əliyev təkcə gələcəyi görmür, həm də o gələcəyi yaradır: Sabaha doğru gedən yolu açır və insanları o yolla getməyə səfərbər edir.

Ulu öndər Heydər Əliyevin istər Azərbaycan SSR-ə rəhbərlik etdiyi, istərsə də Sovet İttifaqının rəhbərliyində təmsil olunduğu zaman göstərdiyi siyasi əzmkarlıq və yorulmaz siyasi fəaliyyəti Ona həmkarlarından tamamilə fərqlənən nadir şəxsiyyət imici qazandırmışdı. Dünya inkişafının perspektivini aydın görən, ona doğru addımlayan və ölkəsini, xalqını ona doğru istiqamətləndirən Heydər Əliyevin uzaqgörən siyasəti isə müasir Azərbaycanın dünya birliyinə təbii inteqrasiyasını təmin edərək onun müstəqilliyini əbədi və dönməz etdi. Bu siyasət, hər şeydən əvvəl, uzunmüddətli sabitliyin bərqərar olunmasına yönəlmişdir; bu siyasət zaman çərçivəsi ilə məhdudlaşmır - gələcəyə hədəflənmişdir; bu siyasət geopolitik maraqları toqquşdurmur, əksinə, həmin maraqların Azərbaycanın milli mənafeləri ilə uzlaşan ideal harmoniyasını yaradır. Məhz bu siyasət hələ uzun illər Azər-

baycanın daxili və xarici siyasət doktrinasının özəyini, milli inkişafımızın təməlini təşkil edəcəkdir. Məhz bu cəhətləri Heydər Əliyev siyasətini qlobal siyasət səviyyəsinə yüksəldir və onun özünü isə dünya miqyaslı şəxsiyyətə çevirir.

Məhz onun yorulmaz səyləri nəticəsində Azərbaycan konservativ, tipik postsovet ölkəsi kimi deyil, beynəlxalq və regional müstəvidə sabit və davamlı inkişaf vəd edən bərabərhüquqlu tərəfdaş kimi tanınmağa başladı. Heydər Əliyev şəxsiyyəti o qədər zəngindir ki, istənilən aspektdən yanaşdıqda onun intəhasız fəaliyyətinin geniş okeanına çıxa bilirsən. Öyrənildikcə öyrənilən, heç zaman tükənməyən Heydər Əliyev irsi, onu müasiri olduğu digər dünya siyasətçilərindən fərqləndirən siyasi dühası, onun yaradıcı zəkası hələ uzun illər çoxtərəfli araşdırmaların mövzusu olacaq. Hər zaman bu şəxsiyyətin tarixdə oynadığı əhəmiyyətli rol daha dərin məzmunda, daha geniş panoramda və daha konseptual şəkildə açılacaq. Amma bir həqiqət heç zaman dəyişməyəcək: Heydər Əliyev müasir Azərbaycanımızın qurucusu olmaqla yanaşı, tərəqqi və ədalət, sülhpərvərlik və humanizm ideyalarına əsaslanan geniş spektrli fəaliyyəti ilə bəşər tarixinin yetişdirdiyi nadir şəxsiyyətlərdəndir.

Problemin aktuallığı. Müasir dünya tarixində yaradıcı iz qoymuş digər tarixi şəxsiyyətlərlə ortaq məziyyətlər daşıdığı üçün və bəzi hallarda isə həmin siyasi xadimləri belə üstələyən keyfiyyətlərə malik olduğu üçün Ulu öndər Heydər Əliyev dünya miqyaslı fenomenal şəxsiyyətdir, Azərbaycan xalqının hər zaman fəxr edəcəyi və həyat yolundan ibrət götürəcəyi böyük bir mütəfəkkirdir.

Problemin elmi yeniliyi. Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının rifahını, milli dövlətçiliyimizin daha da güclənməsini hər şeydən üstün tutan vətənpərvər lider idi. Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının rifahını, milli dövlətçiliyimizin daha da güclənməsini hər şeydən üstün tutan vətənpərvər lider idi. Ömrünün son on ilində Heydər Əliyevin fəaliyyəti hətta bir insan ömrünə sığmayacaq qədər zəngin oldu. Xarici ölkələrə etdiyi davamlı səfərlərlə, daxili və xarici siyasətimizin dayaqlarını yaratmaqla, ümumən, bütün ölkənin yenidən qurulmasına rəhbərlik etməklə, Heydər Əliyev Yeni Azərbaycanın əsasını qoydu.

Problemin praktik əhəmiyyəti. Dünya inkişafının perspektivini aydın görən, ona doğru addımlayan və ölkəsini, xalqını ona doğru istiqamətləndirən Heydər Əliyevin uzaqgörən siyasəti isə müasir Azərbaycanın dünya birliyinə təbii inteqrasiyasını təmin edərək onun müstəqilliyini əbədi və dönməz etdi.

Ədəbiyyat:

1. Abbasbəyli A.N. Müasir beynəlxalq münasibətlər və qloballaşma. -Bakı: 2007. -165 s.
2. Abbasova H.F. Tolerantlıq demokratik cəmiyyətin elementi kimi- http://mim.ucoz.org/publ/16-1-0-28.
3. Abdulla K. Heydər Əliyev və milli mənəvi dəyərlər- http://anl.az/down/meqale/525/2011/may/cm07.htm.
4. Cəfərov N. Azərbaycan müsəlman mədəniyyəti // "Dövlət və din" ictimai fikir toplusu, 2007, mart. -s. 79-90

Redaksiyaya daxil olub: 16.09.2025.

UOT 37.01

Hümeyir Hüseyn oğlu Əhmədov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin müdiri,
pedaqogika elmləri doktoru, professor,
Rusiya Təhsil Akademiyasının xarici üzvü,
RTA-nın Əməkdar elm və təhsil xadimi
https://orcid.org/ 0000-0003-0019-4266
E-mail: humeyir@gmail.com
a.humeyir@arti.edu.az

Fidan Bəxtiyar qızı Əbdürrəhmanova
Bakı Qızlar Universiteti
https://orcid.org/0009-0005-2817-105X
E-mail:Fidan.bdrrhmanova.01@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).53-57

ÜMUMİTƏHSİL MƏKTƏBLƏRİNDƏ DƏRSDƏ MÜASİR TƏLİM METODLARINDAN İSTİFADƏ RƏQABƏTƏQABİL TƏHSİL MƏKANININ TƏMİN EDİLMƏ VASİTƏSİ KİMİ

Humeyir Huseyn Ahmadov
head of the department of Scientific and pedagogical personnel training of the
Institute of Education of the Republic of Azerbaijan
doctor of pedagogical sciences, professor
Foreign Member of the Russian Academy of Education
Honored Scientist and Educator of the Russian Academy of Education

Fidan Bakhtiyar Abdurrahmanova
University for Girls

USING MODERN TEACHING METHODS IN LESSONS IN SECONDARY SCHOOLS AS A MEANS OF ENSURING A COMPETITIVE EDUCATIONAL SPACE

Гумейир Гусейн оглы Ахмедов
заведующий отделом Подготовки научно-педагогических кадров
Института Образования Азербайджанской Республики
доктор педагогических наук, профессор,
Иностранный член Российской Академии Образования,
Заслуженный деятель науки и образования РАО

Фидан Бахтияр гызы Абдуррахманова
Университет для Девушек

ИСПОЛЬЗОВАНИЕ СОВРЕМЕННЫХ МЕТОДОВ ОБУЧЕНИЯ НА УРОКАХ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ КАК СРЕДСТВО ОБЕСПЕЧЕНИЯ КОНКУРЕНТОСПОСОБНОГО ОБРАЗОВАТЕЛЬНОГО ПРОСТРАНСТВА

Xülasə. Müasir təlim metodlarından istifadə dərsin daha səmərəli və interaktiv olmasına kömək edir. Bu metodlar şagirdlərin bilikləri daha yaxşı qavramasını, fəal iştirak etməsini və yaradıcılığını inkişaf etdirməsini təmin edir. Müasir təlim metodlarından istifadə etmək şagirdlərin fəallığını artırmağı hədəfləyir. Burada müəllim yox şagird aktiv rola malik olur. Belə yanaşma şagirdlərin tənqidi düşünmə, problem həll etmə və yaradıcı bacarıqlarını gücləndirir.

Açar sözlər: *müasir təlim metodları, rəqabətqabiliyyətlilik, təhsil məkan, təlimin effektivliyi, Pedaqoji yeniliklər, interaktiv dərs, innovativ tədris yanaşmalar, şagirdyönlü təhsil, təhsildə keyfiyyət, məqsədyönlü pedaqoji proses*

Abstract. The use of modern teaching methods helps to make the lesson more effective and interactive. These methods ensure that students better grasp knowledge, actively participate and develop their creativity. The use of modern teaching methods aims to increase student activity. Here, the student, not the teacher, has an active role. Such an approach strengthens students' critical thinking, problem-solving and creative skills.

Keywords: *Modern teaching methods, competitiveness, educational space, effectiveness of education, Pedagogical innovations, interactive lessons, innovative teaching approaches, student-centered education, quality in education, goal-oriented pedagogical process.*

Аннотация. Использование современных методов обучения помогает сделать урок более эффективным и интерактивным. Эти методы обеспечивают лучшее понимание учащимися знаний, активное участие и развитие творческих способностей. Использование современных методов обучения направлено на повышение активности учащихся. Здесь активная роль принадлежит не учителю, а ученику. Такой подход укрепляет критическое мышление учащихся, навыки решения проблем и творческие способности.

Ключевые слова: *современные методы обучения, конкурентоспособность, образовательное пространство, эффективность образования, педагогические инновации, интерактивные уроки, инновационные подходы к обучению, личностно-ориентированное образование, качество образования, целенаправленный педагогический процесс*

Giriş

Müasir dövrdə qlobal rəqabətə davamlı və dinamik inkişaf edən bir təhsil sistemi yaratmaq cəmiyyətlərin əsas prioritetlərindən birinə çevrilmişdir. Bu məqsədlə, dərslərdə ənənəvi təlim yanaşmalarından uzaqlaşaraq müasir təlim metodlarından istifadə getdikcə daha da əhəmiyyət kəsb edir. Aktiv təlim, layihə əsaslı öyrənmə, fərdiləşdirilmiş təlim, informasiya-kommunikasiya texnologiyalarından istifadə kimi müasir yanaşmalar şagirdlərin bilik və bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların yaradıcı düşüncə və əmək bazarına uyğunlaşma qabiliyyətini də artırır. Beləliklə, müasir təlim metodları rəqabətəqabil təhsil məkanının formalaşmasında mühüm rol oynayır.

Azərbaycanda ənənəvi təhsil sistemi öz dövrünü bir neçə ildir ki, başa vurub. Qeyd etmək lazımdır ki, bu təhsil sistemində təhsilalanlara bir obyekt kimi yanaşılıb, təhsildə avtoritar idarəetmə üsullarına üstünlük verilib. Müasir təlim metodlarından istifadə edən zaman sinif mühitində son dərəcə əhəmiyyətli dəyişikliklər baş verir, öyrədənlə öyrənən arasında, şagirdlərin öz aralarında və məktəblə valideynlər arasında müasir tələblərə cavab verən qarşılıqlı əlaqələr qurulur.

Müasir təlim metodlarının əsas üstünlükləri bunlardır.

1. Şagirdyönlülük – Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alaraq tədris prosesini təşkil edir. Bu yanaşma şagirdləri passiv dinləyici olmaqdan çıxarır və onları aktiv öyrənməyə təşviq edir, fərdi yanaşmanı təmin edərək hər bir şagirdin öyrənmə tempini və maraqlarını nəzərə alır və müstəqil düşünmə və problemləri həll etmə bacarıqlarını inkişaf etdirir.

2. İnteraktivlik – Müəllim və şagirdlər arasında aktiv qarşılıqlı əlaqəni gücləndirir. İnteraktiv lövhələr, mobil tətbiqlər və onlayn platformalar tədrisi daha cəlbedici və effektiv edir, virtual laboratoriyalar və simulyasiyalar praktik bacarıqların inkişafını gücləndirir, süni intellekt və fərdiləşdirilmiş təlim sistemləri şagirdlərə fərdi öyrənmə təcrübəsi təqdim edir.

3. Probleməsaslı öyrənmə – Real həyatda tətbiq edilə bilən bilik və bacarıqların inkişafını dəstəkləyir. Problemlərin həlli üsulu şagirdlərin real həyatda qarşılaşa biləcəkləri problemləri araşdıraraq həll yolları tapmasını təmin edir.

Layihəəsaslı öyrənmə isə qrup şəklində işin təşkilinə imkan yaradaraq şagirdlərin əməkdaşlıq və liderlik bacarıqlarını artırır.

4. İKT-nin tətbiqi – Rəqəmsal alətlərdən istifadə edərək tədris prosesini daha cəlbedici və effektiv edir. STEAM (Science, Technology, Engineering, Arts, Mathematics) yanaşması fənlərarası inteqrasiyanı təşviq edir. Təcrübəyə əsaslanan öyrənmə biliklərin unudulmasını azaldır və uzunmüddətli yadda saxlamağa kömək edir. Rol oyunları və simulyasiyalar real həyat şəraitlərini təqlid edərək şagirdlərin qərarvermə bacarıqlarını inkişaf etdirir. [1, s. 14]

5. Əməkdaşlıq və komandada işləmə bacarıqlarının inkişafı – Şagirdləri qrup işinə və birgə fəaliyyətə sövq edir. Qrup layihələri və debatlar şagirdlər arasında ünsiyyət və fikir mübadiləsini artırır. Kooperativ öyrənmə sosial inteqrasiyanı gücləndirir və fərqli fikirlərə hörmətlə yanaşmağı öyrədir.

Müasir metodların tətbiqi nəticəsində şagirdlər kritik və analitik düşünmə bacarıqları qazanır, biliklərin praktik tətbiqi artır və nəzəriyyə ilə təcrübə arasında əlaqə güclənir. Təhsil rəqəmsal və qlobal trendlərə uyğun inkişaf edir. Məzunlar əmək bazarının tələblərinə uyğun formalaşır və rəqabətqabiliyyətli olur. [3, s. 25]

Tətbiq nümunələri

1. Layihə əsaslı öyrənmə (Project-based learning): Şagirdlər real həyatda qarşılaşa biləcəkləri problemləri həll etməyə çalışaraq biliklərini tətbiq edirlər. Məsələn, biologiya dərsində şagirdlər suyun çirklənməsi ilə bağlı layihə hazırlayaraq araşdırma aparır, məlumat toplayır və təqdimat edirlər.

2. Əməkdaşlıqla öyrənmə (Collaborative learning): Qrup işləri vasitəsilə şagirdlər birlikdə tapşırıqları yerinə yetirirlər. Məsələn, tarix dərsində müxtəlif qruplar fərqli dövrləri araşdırıb digərlərinə təqdim edir.

3. Rəqəmsal resurslardan istifadə: İnteraktiv lövhələr, onlayn platformalar (Kahoot, Google Classroom, Quizlet və s.) ilə dərslər daha maraqlı və effektiv olur. Məsələn, riyaziyyat dərsində şagirdlər Kahoot vasitəsilə yarışlar apararaq mövzunu təkrarlayırlar.

4. Simulyasiya və modelləşdirmə: Kimya və fizika dərslərində təcrübələrin virtual modellərlə göstərilməsi, şagirdlərin mövzunu daha dərindən anlamasına kömək edir.

5. Rollu oyunlar və debatlar: Dil və ədəbiyyat dərslərində şagirdlər müəyyən obrazlara girərək əsərləri canlandırır, ya da sosial fənlərdə debatlar təşkil olunur. Bu, tənqidi düşüncə və ünsiyyət bacarıqlarını inkişaf etdirir.

Müasir dövrdə təhsilin keyfiyyətinə təsir edən əsas amillərdən biri təlim prosesində innovativ metodlardan istifadədir. Ənənəvi müəllimmərkəzli yanaşmadan fərqli olaraq, şagird-mərkəzli və interaktiv təlim metodları şagirdlərin bilik və bacarıqlarının inkişafına, onların yaradıcı və tənqidi düşüncə qabiliyyətlərinin formalaşmasına şərait yaradır. Bu isə rəqabətəqabil, çevik və müasir əmək bazarına uyğun kadrların hazırlanmasında mühüm rol oynayır.

Müasir təlim metodları dedikdə kooperativ təlim, problem əsaslı öyrənmə, layihə əsaslı öyrənmə, debatlar, beyin həmləsi (brainstorming), klaster, "fikir zənciri", SWOT analizi və s. kimi yanaşmalar nəzərdə tutulur. Bu metodlar dərs prosesində aktivliyi artırmaqla yanaşı, şagirdlərin dərsə marağını yüksəldir, onların əməkdaşlıq bacarıqlarını gücləndirir, müstəqil qərarvermə və liderlik qabiliyyətlərini inkişaf etdirir. [2, s. 17]

Rəqabətəqabil təhsil məkanı yaradarkən müəllimin rolu dəyişir – o artıq bilik ötürən deyil, təlimi təşkil edən, yönəldən, müşahidə edən və dəstəkləyən şəxsə çevrilir. Bu, müəllimlərin peşəkar inkişafını da aktuallaşdırır. Müəllimlər daim yeni təlim strategiyalarını mənimsəməli, texnologiyalardan bacarıqla istifadə etməli və öyrənmə mühitini şagirdlər üçün cəlbedici etməlidirlər.

Əlavə olaraq, rəqəmsal texnologiyaların təhsilə inteqrasiyası müasir təlim metodlarının təsirini daha da artırır. İnteraktiv lövhələr, onlayn test sistemləri, e-platformalar və müxtəlif mobil tətbiqlər tədrisin səmərəliliyini yüksəldir. Belə metodlar təkcə dərs prosesini deyil, eyni zamanda qiymətləndirmə, rəyvermə və geribildirim mexanizmlərini də çevikləşdirir.

Məqsədlərin və nəticələrin müəyyən edilməsi: Dərs zamanı təlim metodlarından istifadə etməkdə məqsəd tənqidi və yaradıcı düşüncəni inkişaf etdirmək, fəal təlim mühitini yaratmaq, əmək bazarına hazırlamaqdır. Nəticədə isə şagirdlərin analitik və tənqidi düşünmə qabiliyyətləri artır, təhsil prosesi daha interaktiv və maraqlı olur, şagirdlərin öz biliklərini tətbiq etmə bacarıqları inkişaf edir, tədris müasir tələblərə

uyğunlaşdırılır və qlobal təhsil standartlarına yaxınlaşır və məzunların əmək bazarında rəqabətqabiliyyətliyi yüksəlir.

Nəticə etibarilə, müasir təlim metodlarından səmərəli istifadə edən təhsil müəssisələri daha rəqabətəqabil, kreativ və bilikli şagirdlərin formalaşmasına nail olur. Bu isə cəmiyyətin ümumi intellektual potensialının artmasına və ölkənin inkişafına töhfə verir.

Müasir təlim metodları: Ənənəvi təlim metodları ilə yanaşı, interaktiv, problem həll etmə və layihə əsaslı təlim metodlarından istifadə etmək vacibdir. Bu metodlar şagirdlərin fəal iştirakını təmin edir və onların yaradıcı düşüncələrini inkişaf etdirir.

Texnologiyaların inteqrasiyası: Təhsildə texnologiyaların istifadəsi rəqabətədavamlılığı artırmaq üçün vacibdir. Elektron təhsil resursları, onlayn dərslər və rəqəmsal qiymətləndirmə alətləri təlim prosesini daha səmərəli və əlçatan edir. Dərslərin interaktiv lövhələr, planşetlər və kompüterlər vasitəsilə aparılması təlimin vizual və praktik tərəfini gücləndirir. Məsələn, şagirdlər dərsi izləməklə kifayətlənmir, eyni zamanda rəqəmsal tapşırıqları yerindəcə yerinə yetirə bilir.

Müəllimlər və şagirdlər dərs prosesində video dərslər, virtual laboratoriyalar, interaktiv simulyasiyalar və elektron dərsliklərdən istifadə edərək məlumatı daha əhatəli və maraqlı şəkildə mənimsəyirlər. [5, s. 142]

Google Classroom, Microsoft Teams, Zoom kimi platformalar vasitəsilə müəllim və şagird arasında fasiləsiz əlaqə təmin olunur. Bu, həm də qrup şəklində layihələrin həyata keçirilməsini və qarşılıqlı rəy mübadiləsini asanlaşdırır.

Problemin elmi yeniliyi.

1. Müasir təlim metodlarının rəqabətədavamlılıqla əlaqəsinin sistemli araşdırılması – Bu mövzu ilk dəfə olaraq ümumtəhsil məktəblərində tətbiq olunan müasir təlim metodlarının təhsilin rəqabətədavamlılığına nə dərəcədə təsir etdiyini elmi əsaslarla təhlil edir.

2. Təlim metodlarının innovativ təhsil mühiti yaratmadakı rolu – Mövzuda aktiv, problemli, layihə-tədqiqat əsaslı və kooperativ təlim üsullarının şagirdlərin tənqidi düşüncə, yaradıcılıq və sosial bacarıqlarının formalaşmasına necə xidmət etdiyi araşdırılır.

3. Ənənəvi və müasir metodların müqayisəli təhlili – Mövzu çərçivəsində dərs prosesində istifadə olunan metodların müqayisəli şəkildə qiymətləndirilməsi aparılaraq müasir yanaşmaların daha effektiv nəticələr verdiyi elmi faktlarla əsaslandırılır.

4. Rəqabətəqabil təhsil məkanının yeni modelinin təklifi – Tədqiqat nəticəsində məktəbdə müasir təlim metodları vasitəsilə formalaşdırıla bilən rəqabətədavamlı təhsil mühitinin konseptual modeli hazırlanır.

Problemin praktik əhəmiyyəti.

• Müəllimlər üçün dərsdə müasir təlim metodlarının məqsədyönlü tətbiqi ilə bağlı praktik tövsiyələr verilir.

• Təhsil müəssisələri rəqabətədavamlı mühitin yaradılmasında metodik baza kimi istifadə edə bilər.

• Şagirdlərin 21-ci əsr bacarıqlarını inkişaf etdirmək üçün müasir dərs təşkilinin nümunələri təqdim olunur.

Problemin aktuallığı.

1. **Təhsil sistemində keyfiyyətə olan tələbatın artması**

Hazırkı dövrdə cəmiyyətin və əmək bazarının dəyişən tələbləri təhsilin yalnız bilikvermə funksiyası ilə kifayətlənməməsini tələb edir. Müasir təlim metodları şagirdlərin tənqidi düşüncə, yaradıcı yanaşma və əməkdaşlıq bacarıqlarını inkişaf etdirərək rəqabətədavamlı fərdlər yetişdirməyə imkan verir.

2. Ənənəvi metodların müasir tələblərə cavab verməməsi

Ənənəvi, müəllimmərkəzli təlim üsulları şagirdin passiv iştirakını təmin edir. Bu isə müstəqil düşünən, təşəbbüskar və çevik qərar qəbul edən şagird profilinə ziddir. Mövzu aktuallığını bu baxımdan da qoruyur: şagirdmərkəzli müasir metodların tətbiqi zərurətə çevrilib.

3. Rəqabətədavamlı təhsil məkanının formalaşdırılması dövlət prioritetidir. Azərbaycan Respublikasında təhsilin inkişafı ilə bağlı strategiya və dövlət proqramlarında rəqabətədavamlı təhsil mühitinin yaradılması əsas istiqamətlərdəndir. Bu isə təhsilin məzmununda və təlimin təşkilində innovativ dəyişiklikləri şərtləndirir.

4. Beynəlxalq qiymətləndirmə sistemləri ilə ayaqlaşma ehtiyacı. PISA, TIMSS və s. beynəlxalq təhsil göstəricilərində ölkənin yerinin yüksəldilməsi üçün dərsdə müasir təlim yanaşmalarının tətbiqi vacibdir. Bu mövzu həmin istiqamətdə mühüm elmi-metodiki baza təqdim edir..

NƏTİCƏ:

Məqalədə müasir təlim metodlarının tətbiqi rəqabətqabiliyyətli təhsil mühitinin formalaşmasında mühüm rol oynadığı qeyd olunur. **Şagirdlərin fəallığı artaraq** dərslərdə passiv dinləyici yox, aktiv iştirakçı olurlar. Bu da dərsə marağı və motivasiyanı artırır. **Tənqidi və yaradıcı düşüncə inkişaf edir.**

Problemləri həll etmək, layihələr hazırlamaq və debatlarda iştirak etmək şagirdlərin müstəqil düşünmə və yaradıcı yanaşma bacarığını formalaşdırır. **Əməkdaşlıq və ünsiyyət bacarığı artır,** qrup işləri və interaktiv fəaliyyətlər vasitəsilə şagirdlər bir-biri ilə daha səmərəli ünsiyyət qurmağı və komanda ilə işləməyi öyrənirlər. **Real həyatda tətbiq olunan biliklər formalaşaraq p**raktiki nümunələr və real problemlərin dərslərdə işlənməsi, şagirdlərin öyrəndiklərini gündəlik həyatda tətbiq etməsinə şərait yaranır. **Texnologiyadan düzgün istifadə vərdişləri formalaşır.** İKT alətlərindən istifadənin dərsə inteqrasiyası şagirdlərə həm texniki bacarıqlar qazandırır, həm də məsuliyyətli istifadə qaydalarını öyrədir. **Qiymətləndirmə daha obyektiv və davamlı olur,** şagirdin yalnız test nəticəsi ilə deyil, layihə işi, təqdimatı, sinif fəaliyyəti və digərləri ilə qiymətləndirilməsi daha ədalətli və dəqiq nəticələr verir.

Ədəbiyyat:

1. Abbasov, Ş. Müasir təlim texnologiyaları. / Ş. Abbasov. -Bakı: Təhsil Nəşriyyatı, -2020. – 216 s.
2. Fərruxzadə, S. İnnovativ təlim metodları və pedaqoji bacarıqlar. -Bakı: Adiloğlu, -2018. -198s.
3. Həsənov, R. Aktiv təlim metodları və onların tətbiqi. -Gəncə: Elm və Təhsili, -2021.-152s.
4. Hüseynova, L. Müasir pedaqoji texnologiyalar və onların dərsdə tətbiqi. -Bakı: Təhsil, -2021. -103 s.
5. Quliyev, M. Müəllim peşəsinin müasir tələbləri. Bakı: Elm və Təhsil. - 2015. - 174s.
6. OECD.The Future of Education and Skills: Education 2030. OECD Publishing-2020-23 s.
7. Şahbazov, E. Müasir dərs və onun quruluşu. Şahbazov Elçin. -Bakı: Müəllim, -2017. -160s.

Redaksiyaya daxil olub: 10.09.2025.

UOT 37.01

Fəridə Tofiq qızı Xudiyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-1783-6392
E-mail: xfarida09@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(5).58-61

TƏLİM PROSESİNDƏ MÜSBƏT MOTİVASİYANIN YARADILMASINDA MÜƏLLİMLƏRİN ƏHƏMİYYƏTLİ ROLU

Farida Tofig Khudiyeva
associate professor at Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy,

THE IMPORTANT ROLE OF TEACHERS IN CREATING POSITIVE MOTIVATION IN THE EDUCATIONAL PROCESS

Фарида Тофик гызы Худиева
доцент Азербайджанского Государственного Педагогического Университета
доктор философии по педагогике

ЗНАЧИМОСТЬ РОЛИ УЧИТЕЛЕЙ В СОЗДАНИИ ПОЛОЖИТЕЛЬНОЙ МОТИВАЦИИ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

Xülasə. Mütəxəssislərin bir qismi təlim fəaliyyəti prosesində məktəbli şəxsiyyətinin inkişafının əsas hərəkətverici qüvvəsi kimi ünsiyyəti qeyd edir. Müəllim ünsiyyət üçün lazımı sistemləşdirici şəraiti yarada bilirsə şagirddə sosil motiv yaranır. Sosial motivlər başqalarına faydalı olmaq istəyi ilə bağlıdır. Bu zaman şagird komanda ilə işləmək, əməkdaşlıq, yoldaşları ilə səmimi münasibət qurmaq bacarıqlarını əldə edir. Şagirdin kollektivdə müəyyən status qazanmaq istəyi niyyət motivi ilə bağlıdır. Bilik əldə etmək, öyrənmə fəaliyyətindən zövq almaq koqnitiv motivlərlə bağlıdır. Qrupdakı şagirdlərin münasibətləri davranış və özünütəsdiq ehtiyacları ilə əlaqələndirilir. Bu ehtiyac məktəblinin inkişaf etməsinin göstəricisidir. Burada şagirdin özünüqoruma, özünütəsdiq ehtiyacları da reallaşır. Özünüqoruma fizioloji inkişaf səviyyəsində, özünütəsdiq isə məktəblinin şəxsi inkişafının daha yüksək səviyyəsində üstünlük təşkil edir. Təlim prosesində şagird subyekt kimi çıxış edir. Bu şagirdin cəmiyyətdə öz yerini tutmasına nail olmaq və buna can atma motivi ilə müəyyən olunur. Cəmiyyətdə öz yerini tutma motivi təhsil prosesində təlim fəaliyyətinin əsaslarının formalaşmasına yardım edir.
***Açar sözlər**: təlim, şəxsiyyət, şagirdlər, inkişaf, cəmiyyət*

Abstract. Some experts note communication as the main driving force of the development of the student's personality in the process of educational activity. If the teacher can create the necessary systematizing conditions for communication, a social motive arises in the student. Social motives are associated with the desire to be useful to others. At this time, the student acquires the skills of working in a team, cooperation, and establishing sincere relationships with his friends. The student's desire to gain a certain status in the collective is associated with the motive of intention. Acquiring knowledge and enjoying learning activities are associated with cognitive motives. The relationships of students in the group are associated with behavioral and self-affirmation needs. This need is an indicator of the student's development. Here, the student's needs for self-protection and self-affirmation are also realized. Self-protection prevails at the level of physiological development, and self-affirmation at a higher level of the student's personal development. In the educational process, the student acts as a subject. This is determined by the student's motive of achieving and striving for his place in society. The motive of taking his place in society helps to form the foundations of educational activity in the educational process.
***Keywords**: learning, identity, students, development, society*

Аннотация. Некоторые специалисты называют общение основной движущей силой развития личности учащегося в процессе обучения. Если учитель сумеет создать необходимые систематизирующие условия для общения, у ученика разовьется социальный мотив. Социальные мотивы связаны с желанием быть полезными другим. В это время ученик приобретает навыки работы в команде, сотрудничества, построения искренних отношений с друзьями. Желание ученика достичь определенного статуса в коллективе связано с мотивом намерения. Приобретение знаний и получение удовольствия от учебной деятельности связаны с когнитивными мотивами. Взаимоотношения учащихся в группе связаны с поведенческими потребностями и потребностями самоутверждения. Эта потребность является показателем развития учащегося. Здесь также реализуются потребности ученика в самозащите и самоутверждении. На уровне физиологического развития преобладает самосохранение, а на более высоком уровне личностного развития ученика – самоутверждение. В процессе обучения ученик выступает в роли субъекта. Это определяется мотивацией учащегося достичь и бороться за свое место в обществе. Мотив занятия своего места в обществе способствует формированию основ учебной деятельности в образовательном процессе.

Ключевые слова: *обучение, личность, учащиеся, развитие, общество*

Müasir məktəbli gələcəkdə arzuedilən bir vətəndaş, şəxsiyyət olmaq üçün zəruri biliklərə yiyələnmək və onları həyati problemlərin həlli üçün, praktikada tətbiq etmək bacarıqlarına malik olmalıdır. Təlim fəaliyyəti prosesində idrak ehtiyacı məmnunluq yaratmalı və bilik əldə etmək üçün motivə çevrilməlidir. Öyrənmə və idrak motivləri biliklərin müstəqil öyrənilməsi üsullarının əldə edilməsinə yönəlir. Nəticədə şagird problemlərin həlli üçün zəruri məlumatları axtarır və təhlil edir.

Şagirdin uğur qazanması müəllimin tərifi ilə sərhədlənmir. Nailiyyət ehtiyacı yalnız öyrənmə fəaliyyəti prosesində şəxsi nailiyyətlər olduqda ödənilir. Eyni zamanda, bu prosesdə şagird istənilən qərarı üçün şəxsi məsuliyyət daşımağı öyrənir. Əgər, məktəblinin davranışının əsası onu fəaliyyətə təhrik edən ehtiyacların ödənilməsi ilə bağlıdırsa, onda onun davranışının istiqaməti öz müqəddəratını təyin etmə motivi kimi aparıcı motivlə müəyyən ediləcəkdir [3].

Həyati bacarıqlarda dəyərli münasibət ən vacib amildir, onsuz motivasiya mümkün deyil. Dəyər münasibəti şagirdin zehni hərəkətidir, ona görə də müəyyən meyarlara uyğun olaraq obyektlər arasında seçim edir [1]. Dəyərlər deyərkən mənəvi və maddi ehtiyacları ödəməyə qadir olan mənalı obyektlər, habelə, arzulanan vəziyyəti və ya həyat tərzini özündə əks etdirən başlıca prinsiplər başa düşülür. Dəyərlərsiz təhsilalanların inkişafı, yəni mütərəqqi kəmiyyət və keyfiyyət dəyişiklikləri mümkün deyil.

Öz müqəddəratını təyinetmə təkcə fəaliyyətlərlə deyil, həm də ətrafda olan insanlarla bağlıdır. Buna görə də hər bir şagird onu əhatə edən insanların fəaliyyətinin nəticələrini təhlil etməyi bacarmalıdır.

Cəmiyyətin tərəqqisi fəaliyyət növlərinin dəyişməsinə səbəb olur və buna uyğun olaraq insanların ehtiyacları da dəyişir. Özünüifadə etmək istəyi, ehtiyacı insanda başqalarında yaranan ümumi təəssüratlara nəzarət etmək zərurəti yarandıqda əmələ gəlir. Bu ehtiyacın əsas hərəkətverici qüvvəsi uğursuzluqların aradan qaldırılması motividir. Bu motiv həm müvəffəqiyyətsizliyin olmamasına, həm də uğur qazanmağa təkan verir. Təlimin uğuru minimum qüvvə sərf etməklə yüksək nəticələr əldə etməkdir. Uğurun məramı son nəticə olaraq məqsədlərlə üst-üstə düşməsidir [2].

Şagirdlərin təlimə müsbət münasibətinin formalaşdırılmasında sosial-pedaqoji amillərin rolu problemi ciddi və sistemli şəkildə alimlərimiz H. Əlizadə, Ə. Ağayev, M. İsmixanov, S. Vəliyeva, Y. Rzayeva, T. Hüseynova, T. Vahabova [6;28] və başqaları tərəfindən də tədqiq olunmuş və elmi-praktik əhəmiyyəti olan nəticələr əldə edilmişdir. Bu tədqiqatlarda məktəblilərin öyrənməyə münasibətində demoqrafik amillərin təsiri bir neçə istiqamətdə araşdırılmışdır: məktəblilərin təlimə münasibətinin ailənin tipoloji xüsusiyyətlərindən asılılığı, təlimə münasibətin ailənin peşə-təhsil strukturundan asılılığı; məktəblilərin təlimdə inkişaf səviyyəsinin ailədəki uşaqların sayından asılılığı və s.

Qeyd etdiyimiz kimi təlim motivasiyası araşdırmaçıları təhsil fəaliyyətinin məzmunu ilə bağlı motivlər qrupuna aşağıdakıları daxil edir: koqnitiv motivlər; nailiyyət motivləri; instrumental motivlər; fəaliyyət üçün motivlər.

Öyrənmə fəaliyyətinin məzmunu ilə əlaqəli olmayan motivlərə isə oyun motivləri və "gözlənilən dəyər" motivləri aid edilir.

Müəllim şagirdlərdə həmişə təlimdə uğur qazanacaqlarına inam formalaşdırmalıdır. Təlimdə müvəffəqiyyət qazanma ona görə uğur motivasiyası ilə əlaqələndirilir ki, təlimdə şagirdlərin geri qalmaları aradan qalxsın, özünü qiymətləndirə bilsin, məktəblinin psixoloji dayanıqlığını təmin edə bilsin.

Təlimdə geri qalan, lakin ayrı-ayrı bacarıq və qabiliyyətlərinə yüksək qiymət verən şagirdlər digər bacarıqların inkişaf etdirilməsində müsbət rol oynadığı kimi, təlim fəaliyyətinə də müsbət münasibət formalaşdırır [6].

Motivasiya təlim prosesinin məhsuldarlığına güclü təsir göstərir və təlim fəaliyyətinin uğurlu olmasını təmin edir. Öyrənmə motivlərinin olmaması mənimsəmənin səviyyəsini, şəxsiyyətin deqradasiyasını aşağı salır, nəticədə məktəblilərin qanunları pozmasına qədər aparıb çıxarır.

İbtidai siniflərdə şagirdlərin bir qayda olaraq məktəbə münasibəti müsbət olur. Onlar üçün məktəbdə hər şey yeni və maraqlıdır, şagirdlər müəllimin hamıdan çox bildiyinə inanır və onun verdiyi bütün tapşırıqları sözsüz yerinə yetirməyə çalışırlar. Öyrənmə fəaliyyətinə marağın aşağı düşməsi müəllimlərin diqqətindən yayınmamalıdır. Şagirdlərin məktəbə ümumi müsbət münasibətləri sönür. Hər gün məktəbə gəlmək ilk gündəki kimi maraq kəsb etmir, lakin uşaq getdikcə məktəbə alışır. Öyrənmənin mahiyyətinin dərk edilməsi, öyrənmənin məzmununa olan marağın artması, bilik əldə etmə bacarığı ilə möhkəmlənir. Əgər müəllimlər buna nail ola bilərsə, motivasiyanın aşağı düşməsi baş verməz [8].

Şagirdlərin təlim fəaliyyətinin motivasiya edilməsində müəllim şəxsiyyətinin rolunu da vurğulamaq lazımdır. Öyrənməyə marağın formalaşdırılması problemi bu gün də öz aktuallığını qoruyub saxlayır. Eyni müəllimdən dərs alan şagirdlərin bilik və bacarıq səviyyələri fərqli olur. Təlim prosesində verilən materialı və müəllimin eyni izahını şagirdlərin hamısı eyni cür başa düşüb mənimsəyə bilmir. Pedaqoq və psixoloqların müşahidə və qənaətinə görə, təlim fəaliyyətinin uğurlu nəticəsi bu fəaliyyətin hansı hissləri oyatdığından, yəni motivlərdən asılıdır. Məhz buna görə də motivlər təlim fəaliyyətinin əsas komponenti hesab olunur. Təlimdəki uğurlar çox şeylə əlaqədardır, bu təhsilalanlarda öyrənməyə marağın necə inkişaf etməsindən, öyrənmə istəyindən və bilik əldə etmənin vacibliyinin dərkindən çox asılıdır. Təlim motivasiyasını yüksəltmək üçün onun real səviyyəsini müəyyənləşdirmək və hər bir şagirdin və bütövlükdə sinfin mümkün inkişaf perspektivlərinin dərki ilə əlaqədardır.

Uşağın məktəbə gəlişi ilə əlaqədar onun həyatında başqa hətta valideyndən daha böyük təsirə malik olan müəllimlər böyük yer alır. Bu zaman müəllimin şəxsi və peşə keyfiyyətləri önə çıxır. Müəllimin şəxsi keyfiyyətləri dedikdə bura onun uşaqlara və müəllimliyə olan sevgisi, məktəbliyə olan hörmət və inamı, müəllimin mədəni davranışları, düzgün və aydın nitqi, tələblərindəki təkidliliyi və dayanıqlılığı və s. Ola bilər. Müəllimlərin peşə keyfiyyətlərinə isə tədris etdiyi fənni və onun metodikasını bilməsi, materialları gözəl izah edə bilməsi, pedaqoji ustalığa malik olması, erudisiyası və özünüinkişafı, psixoloji bilik və müşahidəçilik qabiliyyətlərinə malik olması, pedaqoji takta sahib olmaq kimi keyfiyyətlər aid edilir [3].

Hələ vaxtı ilə L.N. Tolstoy yazırdı: *"Əgər müəllim yalnız işini sevərsə, o yaxşı müəllim olacaqdır. Əgər müəllim ata və anası kimi yalnız uşaqları sevirsə, o, əvvəlkindən də yaxşı müəllim olacaqdır, əgər müəllim həm peşəsini, həm də şagirdləri sevirsə, o, müəllim əsil müəllimdir"* [22, s.161]. Müəllim məktəblilərin inkişafını izləyən soyuqqanlı bir mütəxəssis olmamalı, o, şagirdlərin inkişafını müxtəlif yollarla və metodlarla stimullaşdırmalıdır. Məktəblinin şəxsiyyət kimi formalaşdırılmasında təlim motivasiyası böyük təsir gücünə malikdir. Təlim motivasiyası məktəbli fəaliyyətinin xarakterinə, onun təlimə münasibətinə güclü təsir göstərir. Məktəblinin ən yaxşı tərəflərini nümayiş etdirmək, müəllimin bütün tələblərini yerinə yetirmək istəyi əsas təlim motivlərindən hesab olunur və bu şagirdi öyrənmə fəaliyyətində daha aktiv olmağa təhrik edir.

Müəllimin pedaqoji fəaliyyət tərzi özündə aşağıdakıları birləşdirir: müəllimin kommunikativ bacarığı; müəllim və şagird arasında yaranan qarşılıqlı anlaşmanın çətin xarakteri, müəllimin fərdi yaradıcılıq potensialı, onun fərdi xüsusiyyətləri.

Müəllimlik işində pedaqoji ünsiyyət tərzinin olması vacibdir. Bu müxtəlif situasiyalarda peşəkar fəaliyyətdir. Bu prosesdə müəllimin şəxsi keyfiyyətləri və onun şagirdlərlə ünsiyyət

tərzi üzə çıxır. Pedaqoji ünsiyyətin bir neçə tərzini göstərmək olar: Avtoritar, demokratik, qarşılıqlı yaradıcı fəaliyyətə aludəçilik əsasındakı ünsiyyət, məsafəli ünsiyyət, qorxuducu ünsiyyət və s. Məktəblilərin öyrənmə fəaliyyəti motivasiyasının formalaşdırılmasına təsir edən amillərdən biri də müəllimin pedaqoji prosesi, yəni sinfi düzgün təşkil edə bilməsidir.

Təlim motivasiyası prosesində şagirdlərin özünənəzarət və özünüqiymətləndirmə bacarığı formalaşdırılmalıdır. Əsas təlim tapşırığının başa düşülüb qəbulundan sonra qarşıda duran işin planı müzakirə edilir və qeydlər aparılır. Bu, işin perspektivini yaradır. Sonra müəllim mövzunun öyrənilməsi üçün nəyi bilib, nə etmək lazım olduğunu deyir. Bununla materialın öyrənilməsinə hazırlıq mərhələsi başlayır. Müzakirələr hər bir uşağın mövzunu öz imkanları daxilində öyrənilməsini qiymətləndirməsindən sonra yekunlaşır. Uşaqlar hansı materialları təkrarladıqlarını və növbəti mərhələdə dərsə hazırlaşmaq üçün nə etməli olduqlarını qeyd edirlər. İdraki fəaliyyət mərhələsində mövzunun mahiyyəti dərk edilir təlim fəaliyyəti və əməliyyatlar icra olunur. Refleksiya qiymətləndirmə mərhələsi mövzunun öytrənilməsinin son mərhələsidir. Bu mərhələdə məktəblilər fəaliyyətlərini təhlil edib, onu qiymətləndirirlər. Yekun mərhələni elə aparmaq lazımdır ki, uşaqlar yerinə yetirdikləri işin və çətinliklərin öhdəsindən gələ bildikləri üçün sevinc hissini yaşaya bilsinlər. Məsələn, uşaqlara belə bir tapşırıq vermək faydalı ola bilər: keçmiş materialın sxemini çəkin və ya əsas anlayışları ayırın. "Öyrəndiyiniz materialı nə dərəcədə mənimsədiyinizi bilmək üçün mövzu üzrə suallar tərtib edin". Öz işini qiymətləndirmə bacarığı tərbiyə etmək üçün belə bir ev tapşırığı vermək olar: keçilən mövzu ilə bağlı əsas sualları, qabağında isə bu sualları necə başa düşdüyünüzün sxemini tərtib edin. Məsələn, yaxşı, çox yaxşı, əla və ya mənimsəyə bilmədim. Başqa bir vərəqdə mövzunun öyrənilməsi prosesində əldə etməli olduğunuz bacarıqları və onları necə mənimsədiyinizi sadalayın: yaxşı, zəif və ya heç nə əldə etmədim. Bu, özünü qiymətləndirmə və aradakı boşluqların səbəbinin aydınlaşdırılması və onların aradan qaldırılmasına özünü hazırlamaq üçün faydalı adekvat seçimdir. Əsas məsələ ondan ibarət olmalıdır ki, özünənəzarət və qiymətləndirmə məktəblilərdə gələcək fəaliyyətə həvəs oyatsın.

Problemin aktuallığı. Bu məqalənin aktuallığı ondan ibarətdir ki, Ən səmərəli ünsiyyət üsulu demokratik ünsiyyət hesab olunur. Bu şagirdlərin öyrənmə fəaliyyəti motivasiyasına ən təsirli tərzdir.

Problemin elmi yeniliyi. Bu mövzuda geniş araşdırmalar aparılmış və bu tədqiqatlar məqalədə öz əksini tapmışdır.

Problemin təcrübi əhəmiyyəti. Bir çox pedaqoqlar elm sahəsində çalışan elm xadimləri bu mövzu ilə bağlı tədqiqatlarında bu materialdan istifadə edə bilərlər.

Ədəbiyyat:

1. İsmixanov, M. Sosial pedaqogika (Mühazirə kursu). / M. İsmixanov, Vəliyeva S. – Bakı: ADPU-nəşriyyatı, – 2013. – 304 s.
2. Kazımov, E. Motivasiyanın yaradılmasının şagirdin inkişafına təsiri. // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 84, № 6, – 2017, səh.167-169
3. Kurikulum bələdçisi (izahlar və tətbiqlər). / Ə.M. Abbasov və b. – Bakı: Elm və təhsil, – 2019. – 332 s.
4. Mahmudov, V. Müəllim şagird münasibətləri əməkdaşlıq müstəvisində. //Azərbaycan müəllimi. -2018, 21 sentyabr.
5. Mehrabov, A.O. Ənənəvi və müasir təlim metodları – üstünlüklər və çatışmazlıqlar: müqayisəli təhlil. / A.O. Mehrabov. – Bakı: Mütərcim, – 2010. – 516 s.

Redaksiyaya daxil olub: 11.09.2025.

UOT 37.

Kəmalə Rafiq qızı Quliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ümumi Pedaqogika kafedrasının baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0009-0001-3386-7503
E-mail: kamala.328@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(5).62-65

TƏLİM PROSESİNDƏ MÜSTƏQİL İŞLƏRİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ

Kamala Rafig Guliyeva
senior lecturer of the department of General pedagogy at Azerbaijan State Pedagogical University, doctor of philosophy in pedagogy

DIRECTIONS OF ORGANIZATION OF INDEPENDENT WORKS IN THE EDUCATIONAL PROCESS

Камала Рафиг гызы Гулиева
старший преподаватель кафедры Общей педагогики Азербайджанского Государственного Педагогического университета,
доктор философии по педагогике

НАПРАВЛЕНИЯ ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНЫХ РАБОТ В УЧЕБНОМ ПРОЦЕССЕ

Xülasə. Elmi məqalə məktəblərdə müstəqil işlərin təşkili istiqamətləri ilə bağlıdır.

Bu istiqamətlər təlimə prosesinə, sinifdənxaric və məktəbdənkənar işlərə, evə verilən tapşırıqlara yönəldilmişdir. Eyni zamanda burada məktəbdə laboratoriya müstəqil işləri: frontal üsul və praktikumların həyata keçirilməsinin üstünlükləri göstərilmişdir.

Açar sözlər: *müstəqil iş, çalışmalar, sinifdənxaric, şagirdlər, mətin, plan, laboratoriya*

Abstract. The scientific article is related to the directions of organization of independent work in schools. These directions are focused on the learning process, extracurricular and extracurricular work, homework. At the same time, the advantages of conducting laboratory independent work at school: frontal method and practical work are shown here.

Keywords: *independent work, work, extracurricular, students, text, plan, laboratory*

Аннотация. Научная статья посвящена направлениям организации самостоятельной работы в школах. Данные направления ориентированы на процесс обучения, внеклассную, внеурочную и домашнюю работу. При этом показаны преимущества проведения лабораторной самостоятельной работы в школе: фронтальный метод и практическая работа.

Ключевые слова: *самостоятельная работа, упражнения, внеклассная, учащиеся, текст, план, лаборатория*

Bu gün məktəblərdə təhsilə yanaşma dəyişmişdir. Artıq təhsildə məqsəd yalnız şagirdlərə bilik vermək deyil, eyni zamanda onlarda müəyyən bacarıq və vərdişləri formalaşdırmaqdır. Şagirdlərin dərsdə və dərsdənkənar vaxtlarda müstəqil iş bacarığının aşılanması, bu cür təlim işlərinin düzgün təşkil edilməsi böyük əhəmiyyətə malikdir. Çünki təlim zamanı şagirdlərin müstəqil işləməsi təlimin müvəffəqiyyətinə təsir edən əsas amillərdəndir. Ş.X. Nəbiyeva belə hesab edir ki, "Şagirdlərdə intellektin inkişaf etdirilməsi prosesi onların qabiliyyətləri ilə bağlıdır. Müəllim hər bir şagirdin hansı qabiliyyətə malik olduğunu nəzərə almalıdır" [1, s.83]. Unutmaq olmaz ki, tədris – idrak fəaliyyətinin ən səmərəli üsullarından biri məhz mək-

təblilərin sərbəst, müstəqil işidir. Şagirdlərin müstəqil işlərinin məktəblərdə düzgün təşkili, şagirdlərin idrak və fəallıqlarını gücləndirər, müstəqil çalışmaq vərdişlərini daha da dərinləşdirər. A. Zeynalov və S. Kərimovaya görə " məktəblilərin mənəvi, əxlaqi, estetik, bədii tərbiyəsində, müstəqil həyata, ictimai fəaliyyətə hazırlanmasında onlara müstəqil iş vərdişləri aşılamağın böyük təlim və tərbiyəvi əhəmiyyəti vardır"[2, s.38].Təlimdə şagirdlərin müstəqillik qabiliyyətini inkişaf etdirməkdən ötrü müəllim birinci növbədə "müstəqil iş" anlayışının mənasını düzgün dərk edərək bu anlayışı təşkil edən məzmun barədə bilik və bacarığa sahib olmalıdır.

Fransada hələ XX əsrin əvvəllərində bu məsələ dövlət səviyyəsində diqqəti cəlb edən problemlərdən biri idi. Alfred Bine 1904-cü ildə ibtidai sinif şagirdlərinin uğur qazanmasının sirlərini öyrənməyə başladı. Bu tapşırığı ona Fransanın Xalq Naziri həvalə etmişdi. Lakin bu hadisədən 80 il sonra təhsil araşdırıcıları müəyyən etdilər ki, şagirdin inkişafı üçün ilk növbədə onun qabiliyyəti üzə çıxarılmalıdır.

Harvard Universitetinin psixoloqu Hovard Qardner təxminən 1883-cü ildə yazmış olduğu "Əqlin hüdudları" adlı əsərində çoxşaxəli əqli qabiliyyətlər nəzəriyyəsini kəşf etdi (3). Qardnerin başlanğıc olaraq psixologiya, bir müddət sonra isə insan zəkası sahəsində təşkil etdiyi araşdırmalar ilkin olaraq 6 intellekt növünü üzə çıxardı. Bu dövrdə isə artıq 9 intellekt tipi vardır. Alimin çox istiqamətli intellektlərinə verbal-linqvistik intellekti, məntiqi-riyazi intellekti, məkan-vizual intellekti, bədən-kinestetik intellekti, musiqi-ritmli intellekti, şəxslərarası intellekti, fərddaxili intellekti, naturalist intellekti və ekzistensial intellekti göstərə bilərik.

Müstəqil iş, müəllimin bilavasitə iştirakı olmadan yerinə yetirilən, bunun üçün xüsusi olaraq ayrılmış bir vaxtda, şagirdlər məqsədlərinə çatmaq üçün şüurlu şəkildə səy göstərərək və bir formada ifadə edərək digər zehni və ya fiziki (və ya hər ikisi birlikdə) hərəkətlərin nəticəsidir.

Mükəmməl dərsliklər insanın əqlində qorunub saxlanılmalı olan başlıcaları ayırd etmək bacarığı formalaşdırır. Təbii ki, mükəmməl dərslik subyektə öyrənmə metodlarından, elmi idrakın forma və metodlarından müstəqil istifadə imkanları yaradır. Dərslik üzərində işləməyin xüsusi tərzlərini-sadə və mürəkkəb plan tutmağı, konspekt düzəltməyi, tezis tərtib etməyi, lazımi şeyləri qeyd etməyi şagirdə öyrətmək üçün müxtəlif tapşırıqlardan istifadə olunması önəmlidir

Müstəqil işin növlərindən biri olan dərslik üzərində işin əsasını mətn üzərində iş hesab olunur. Mətnlə işin özünəməxsus priyomları vardır. Buraya aşağıdakılar daxildir: planın tərtib edilməsi, plan üzrə nağıletmə, mətnin izahlı oxunuşu, mətnin seçmə oxunuşu.

Plan tərtib etməyin əhəmiyyəti ondan ibarətdir ki, şagird biliyini planlaşdırır, sistemə salır. Mətnin izahlı oxunuşu-mətn üzərində işin bu növünün özünəməxsus əhəmiyyəti vardır. Belə ki, mətn hissə-hissə oxunur və elmi şəkildə qanunauyğunluqları açıb göstərməklə aydın olmayan söz və anlayışlar izah olunur. Mətnin seçmə oxunuşu mövzuya hazırlaşarkən mətndə lazım olan hissə müəllim tərəfindən müəyyən olunur. Dərs zamanı həmin hissə oxunur və sual verməklə şagirdlərin nəticə çıxarmalarına şərait yaradılır.

Müstəqil ev işi tədris proqramlarının tələblərini, həmçinin məktəblilərin maraq və tələbatlarını, onların inkişaf səviyyəsini nəzərə almaqla qurulur.

Sinifdənxaric müstəqil iş şagirdlərin müstəqilliyinə, şüurluluğuna, fəallığına istinad edir. Düzgün təşkil edilmiş sinifdənxaric fəaliyyət şagirdlərin inkişafında sinifdəki fəal işdən heç də az əhəmiyyət kəsb etmir.

Əgər şagird ev tapşırıqlarını həll edərkən, çətinliklə rastlaşarsa onda müəllimə müraciət etməlidir, məsləhət almalıdır. Ev tapşırıqlarının icrası üçün yaradılan şəraitin rahat və əlverişli olması şagirdin təhsil uğurlarının yüksəlməsinə səbəb olur. Tədris prosesində şagirdlərin çalışmalar üzərində müstəqil işlərini təşkil etmək məqsədilə hər birində 3-4 nəfər olmaqla qruplar yaradılmalı və hər qrupda yüksək, orta və kafi oxuyan şagirdlərin iştirakı təmin edilməlidir. Ola bilsin ki, eyni vaxtda hər üç qrupa bir variantda çalışmalar verilsin. Amma çox vaxt müəllim ayrı-ayrılıqda hər qrupa variantlar təklif edir. Qruplara təqdim olunan çalışmaların ağırlıq dərəcəsi də qrupdakı şagirdlərin bilik səviyyəsinə uyğun olmalıdır.

Baxaq görək bu çalışmalar bankının yaradılmasının hansı üstünlükləri vardır. Bu üstünlüklərin səciyyəvi cəhətləri nədən ibarətdir. A. Mehrabov, Ə. Abbasov, Z. Zeynalov, R.

Həsənov belə hesab edirlər ki, "çalışmalar bankının yaradılmasının üstünlükləri vardır. Bu üstünlüklərə müəllimin seçim qarşısında qalmaması, vaxt itkisinin minimuma enməsi, tapşırıqların icrasının yoxlanması və şagirdlərin biliyinin dəyərləndirilməsində çevikliyin yaranmasıdır" [5, s.221].

Çalışmaların ən mühüm və ən vacib formalarından biri dərsdə misal və məsələ həllidir. Müəllim məsələnin həllinə bütün sinfi cəlb etməlidir, o, bu işi müxtəlif yollarla həyata keçirə bilər. Bu yollardan biri bütün sinfin məsələni yazı taxtasına çağırılan şagirdlə birlikdə həll etməsidir.

Hadisələrin kəmiyyət öyrənilməsində laboratoriya işləri daha böyük əhəmiyyətə malikdir. Şagirdləri ölçmələr aparmaq və axtarışları tapmaq üsulları ilə yalnız laboratoriya ilə bağlı müstəqil işlərdə tanış etmək olar. Orta məktəbdə laboratoriya müstəqil işləri iki üsulla aparılır: frontal üsul və praktikumlar.

Frontal laboratoriya müstəqil işləri isə üç mərhələdə aparılır: müəllimin giriş müşahidəsi, işin şagirdlər tərəfindən icrası, müəllimin yekun mərhələsi. Giriş müşahidəsi zamanı müəllim ilkin olaraq laboratoriya işinin mövzusunu elan edir, onun məqsədini müəyyənləşdirir. Daha sonra şagirdlərin qoyulan iş ilə əlaqədar keçmiş nəzəri biliklərini təkrar etdirir, işin aparılması planı və proqramla şagirdləri tanış edir. Proqramın yerinə yetirildiyi zaman hansı əməliyyatların icra ediləcəyi qabaqcadan izah olunur. Həmçinin proqramın yerinə yetirilməsi zamanı hansı parametrlərin qiymətlərinin daxil edilməsi qeyd edilir. Aparılan laboratoriya işinə əsasən şagirdlərin nəzəri biliklərini dərinləşdirməkdən ötrü yoxlama sualları qoyulur. Müəllimin giriş müsahibəsi 10-12 dəqiqədən artıq vaxt aparmamalıdır.

Frontal laboratoriya işlərində şagirdlərə paylaşmaq üçün yazılı təlimat tətbiq etmək məcburi deyildir. Lakin buna baxmayaraq, şagirdləri yazılı təlimatdan istifadəyə alışdırmaq məqsədəuyğun hesab edilir. Bundan ötrü aşağıdakı forma məsləhət görülür:

1. İşin adı.
2. İşin məqsədi.
3. İşin aparılması üçün lazım olan əmrlər və operatorlar.
4. İşin mahiyyətinə aid məntiqi ardıcıllıqla düzülmüş suallar.
5. İşin gedişi üçün tərtib edilmiş proqram hissələri.
6. Laboratoriya işindən alınan nəticələrin qiymətləndirilməsinə dair göstəriş.
7. Aparılmış laboratoriya işinə əsasən şagirdlərin nəzəri biliklərini dərinləşdirmək üçün yoxlama sualları.

Orta məktəbdə laboratoriya eksperiment aparmağın ikinci üsulu praktikumdur. İnformatikanın tədrisində təlimin müvəffəqiyyətlə həyata keçirilməsinin təmin etmək məqsədi ilə yuxarı siniflərin proqramına praktik işlərin daxil edilməsi xüsusi əhəmiyyət kəsb edir. Ə.Q. Pələngov və N. A. Rzazadə yazır ki, "laboratoriya işlərini frontal üsulla aparılması prosesində, onun müsbət cəhətlərinə baxmayaraq, şagirdlərə yalnız ilk eksperimental bacarıq və vərdişlər aşılanır, bu isə orta məktəbi bitirənlər üçün azdır"[6, s.88].

Praktikumların hazırlanması məqsədilə aktual məzmunlu informasiyaların və başqa fənləri əhatə edən layihələrin verilməsi mühümdür. Əsasən, bu tipli tapşırıqlar bir neçə tədris prosesi üçün nəzərdə saxlanılır.

Həm laboratoriya işləri, həm də praktik işlər yerinə yetirilmə üsullarına, mərhələlərinə və səciyyəvi xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Məsələn, laboratoriya işləri öz səciyyəvi xüsusiyyətlərinə görə 2 yerə ayrılır: keyfiyyət xarakterli laboratoriya işləri və kəmiyyət xarakterli laboratoriya işləri.

Ə.Q. Pələngov və M. Abdullayeva keyfiyyət və kəmiyyət xarakterli laboratoriya işlərini belə bir bir şəkildə xarakterizə edirlər: "Keyfiyyət xarakterli laboratoriya işlərində şagirdlər obyekt və hadisənin gedişini müşahidə edir və əsas əlamətlərinə diqqət yetirərək nəticə çıxarırlar. Kəmiyyət xarakterli laboratoriya işlərində şagirdlər hər hansı məsələnin həlli proqramını kompüterdə reallaşdırırlar"[7, s.94].

Nəticə. Müstəqil işləri həyata keçirərkən bəzi təkliflərimizi irəli sürmək istərdik. Belə ki, müstəqil işləri həyata keçirərkən fəal təlimin şəxsiyyətyönlülük və şagirdyönlülük prinsipi nəzərə alınmalıdır. Lakin yadda saxlamaq vacibdir ki, müstəqil işlərin tipini seçərkən, mövzuları aydınlaşdırarkən yerli şəraiti, məktəbin tələbatını, şagirdlərin marağını, yaş və bilik dərəcəsini və bir sıra başqa məsələləri mütləq nəzərdə saxlamaq gərəkdir. Bundan başqa, şagirdlərin müvəffəqiyyət qazanması məqsədilə müəllim hər şeydən öncə, könüllülük prinsipinə, onların

istək və arzularına, hazırki bilik dərəcəsinə diqqət yetirməlidir. İş dəftərində, dərslikdəki məlumatları almaq, təhlil və tətbiq etmək, dəyərləndirmək üçün praktik müstəqil işlər verilir. Əsasən aşağıdakı tipdən olan praktiki müstəqil işlərə üstün yer ayrılması məqsədəmüvafiq hesab edilir: çalışma və tapşırıqlar, istiqamətləndirici suallar, evdə olan müstəqil işlər, ev tapşırıqları.

Problemin aktuallığı. Müəllimin qarşısında duran əsas vəzifələrdən biri şagirdlərin müstəqil fəaliyyətinin təşkili və idarə edilməsi üçün şəraitin yaradılması olduğundan, məktəblərdə istər təlim prosesində, istərsə də sinifdənxaric və məktəbdənkənar tədbirlərdə, ev şəraitində belə şagirdlərin müstəqil təhsil fəaliyyətinin təşkilinin əsas mərhələlərini müəyyən etmək zərurəti yaranır. Bu təşkilatın texnoloji əsasları dərsin müvafiq mərhələlərində müəllim və şagirdin fəaliyyətini əks etdirir.

Problemin elmi yeniliyi. Araşdırma nəticəsində müstəqil işlərin mahiyyətinə pedaqoji ədəbiyyatlarda yanaşmalarda fərqli fikirlər ortaya çıxarılmışdır ki, bu da problemin araşdırılmasına müxtəlif baxışlardan yanaşmanı tələb edir. Eyni zamanda müstəqil işlər zamanı nəzərə alınacaq tələblər ortaya qoyulmuş, yaradıcı müstəqil işlərin üstünlükləri göstərilmişdir. Təlimdə həyata keçirilən müstəqil işlərin tipləri və təşkili istiqamətləri araşdırılmışdır.

Problemin praktik əhəmiyyəti. Elmi məqalədə təklif olunan ideyalardan, müddəalardan, nəticələrdən ümumtəhsil məktəblərində şagirdlərdə müstəqil iş yazmaq bacarıqlarının inkişaf etdirilməsi istiqamətində metodiki vəsaitlərin, monoqrafiyaların hazırlanmasında, elmi aspektə daxil olan ayrı-ayrı simpozium və təşkilatlarda olan məruzə və çıxışların tərtib olunmasında istifadə edilmə imkanlarını artırır.

Ədəbiyyat:

1. Nəbiyeva, Ş. Şagird intellektinin inkişaf etdirilməsində informasiya-kommunikasiya texnologiyalarının rolu //-Bakı: ADPU, Təhsildə İKT, -2010. №1, -s.83-98.
2. Zeynalov, A ”Təlimdə geri qalan şagirdlərlə müstəqil işlərin təşkili yolları / A. Zeynalov, S. Kərimova. -Bakı: ADPU, -1997. -38 s.
3. Şagirdlərin bacarıqlarını müəyyən edən Hovard Qardner nəzəriyyəsi – 9 intellekt növü. https:// news. milli. az/interest / 737128.html
4. Paşayev, Ə. Pedaqogika(yeni kurs)/ Ə. Paşayev, F. Rüstəmov. -Bakı: Elm və təhsil, -2002. -416 s.
5. Pedaqoji texnologiyalar /A. Mehrabov, Ə. Abbasov, Z. Zeynalov[və b.] -Bakı: Mütərcim, -2006, -372 s.
6. Pələngov, Ə. İnformatikanın təlimində praktikumların aparılması metodikası / Ə. Pələngov, N. Rzazadə Q. Pələngov[və b.] -Bakı: // Təhsildə İKT, elmi-metodik jurnal, -Bakı: ADPU, -2013. № 3, -s.88-92.
7. Pələngov, Ə. Orta məktəbdə informatikanın tədrisi metodikası. I hissə. /M. Abdullayev, Ə. Pələngov, M. Abdullayeva. -Bakı: Elm və təhsil, -2015. -188 s.

Redaksiyaya daxil olub: 22.09.2025

UOT: 37.01

Nabat Natiq qızı Əhmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orsid.org/0009-0008-4325-4533
E-mail: nabatahmadova377@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).66-69

ŞAGİRDLƏRİN ÖYRƏNMƏ FƏALİYYƏTİNİN İNKİŞAFINDA MƏKTƏB MÜHİTİNİN ROLU

Nabat Natig Ahmadova
lecturer at Azerbaijan State Pedagogical University,

THE ROLE OF THE SCHOOL ENVIRONMENT IN THE DEVELOPMENT OF STUDENTS' LEARNING ACTIVITIES

Набат Натиг гызы Ахмедова
преподаватель Азербайджанского Государственного Педагогического Университета

РОЛЬ ШКОЛЬНОЙ СРЕДЫ В РАЗВИТИИ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧАЩИХСЯ

Xülasə. Qloballaşan dünyada cəmiyyətdə, insan fəaliyyətində, münasibətlərində, yaşam tərzində, təlim-tərbiyə təsisatlarında sürətli dəyişikliklər baş verməkdədir. Bütün bu proseslər öyrənmə fəaliyyətinə yeni yanaşmalar və tələbatlarla müşayiət olunur. Bununla əlaqədar olaraq təhsilin məzmununa yeni yanaşmalar, müasir təlim metod və texnologiyaları, öyrənmə motivasiyası kimi məsələlər araşdırılır, tədqiqat nəticələri gündəmə gəlir. Cəmiyyətdə baş verən köklü dəyişikliklərin mərkəzində təhsil və ona münasibət dayanır. Məhz motivasiya insanı qarşısına qoyduğu məqsədə çatmağa təhrik edir. Bundan başqa, insanın istənilən uğurlarının səbəbi təkcə onun bilik və bacarığından asılı deyil, bu, həm də şəxs və onun motivlərindən asılıdır. Motivə olunmamış insan, bir iş görməkdə tənbəllik edir, qarşısına qoyduğu məqsədə çox vaxt çata bilmir. Fikrimizcə, insanın motivasiyası nə qədər güclü olarsa, onun fəaliyyəti də bir o qədər uğurlu alınar. Hər cür müəllim-şagird münasibətləri motivasiya sayəsində daha uğurlu alınır. Müəllim şagirdlərə təsir etməsə onlar təlimdə fəal olmaz, müsbət motivlər yaranmaz, məktəbli qarşısına uğurlu öyrənmə hədəfi qoya bilməz. Motivlərin öyrənilməsi məsələsi kifayət qədər çətin təcrübi tapşırıqdır. Əgər təhsil və təlimin keyfiyyətini yüksəltmək istəyiriksə, onda bu problemin həlli vacibdir.
Açar sözlər: *məktəb mühiti, tərbiyə, inkişaf, motivasiya, müəllim-şagird*

Abstract. In the globalized world, rapid changes are taking place in society, human activities, relationships, lifestyles, and educational institutions. All these processes are accompanied by new approaches and demands for learning activities. In this regard, issues such as new approaches to the content of education, modern teaching methods and technologies, and learning motivation are being investigated, and research results are being put on the agenda. Education and the attitude towards it are at the center of the radical changes taking place in society. It is precisely motivation that motivates a person to achieve the goal he sets for himself. In addition, the reason for any success of a person does not depend only on his knowledge and skills, but also on the person and his motives. An unmotivated person is lazy in doing something and often fails to achieve the goal he sets for himself. In our opinion, the stronger a person's motivation, the more successful his activity will be. All kinds of teacher-student relationships are made more successful thanks to motivation. If the teacher does not influence students, they will not be active in learning, positive motives will not arise, and the student will not be able to set a successful learning goal. The study of motives is a rather difficult empirical task. If we want to improve the quality of education and training, then solving this problem is essential.
Keywords*: school environment, upbringing, development, motivation, teacher-student*

Аннотация. В глобализирующемся мире происходят быстрые изменения в обществе, человеческой деятельности, отношениях, образе жизни и образовательных учреждениях. Все эти процессы сопровождаются новыми подходами и требованиями к учебной деятельности. В этой связи изучаются

такие вопросы, как новые подходы к содержанию образования, современные методы и технологии обучения, мотивация обучения, а также представляются результаты исследований. Образование и отношение к нему находятся в центре радикальных изменений, происходящих в обществе. Именно мотивация побуждает человека достигать поставленной цели. Более того, причина любого человеческого успеха зависит не только от его знаний и умений, но и от самого человека и его мотивов. Немотивированный человек ленив, когда дело касается каких-либо действий, и часто не достигает поставленной цели. По нашему мнению, чем сильнее мотивация человека, тем успешнее будет его деятельность. Все виды взаимоотношений между учителем и учеником становятся более успешными благодаря мотивации. Если учитель не оказывает влияния на учеников, они не будут активны в обучении, у них не возникнет положительной мотивации, и ученик не сможет ставить успешные учебные цели. Изучение мотивов – довольно сложная экспериментальная задача. Если мы хотим повысить качество образования и обучения, то решение этой проблемы является необходимым.

Ключевые слова: *школьная среда, воспитание, развитие, мотивация, учитель-ученик*

Təhlillər göstərir ki, son illər bilik əldə etmək istəməyən şagirdlərin sayı davamlı olaraq artmaqdadır. Hətta bu ibtidai sinif şagirdləri arasında da özünü göstərməkdədir. Öyrənmək istəyinin aşağı olması, şagirdlərin verilən tapşırıqları yerinə yetirməməsi, dərs vəsaitlərinin səliqəsiz saxlanılması, dərslərdə şəkil çəkmək, pəncərədən baxmaq, sinif yoldaşları ilə söhbət etmək, telefon oynatmaq, dərsin onlar üçün maraqsız olması ilə müşayiət olunur. Hətta təcrübəli müəllim və valideynlər də bu suala cavab verməkdə çətinlik çəkirlər [4].

Təlim fəaliyyəti üçün motivasiyanın formalaşdırılması problemi bir çox pedaqoji və psixoloji nəzəriyyə və yanaşmalarda öz əksini tapır. Alimlərin qənaətinə görə tədris prosesi elə təşkil olunmalıdır ki, öyrənmə fəaliyyətindən özünüinkişaf fəaliyyətinə keçid təmin edilsin. Tədqiqatçıların bir qismi öyrənməni təlim metodları vasitəsilə fənnin məzmununun uğurlu mənimsənilməsi kimi izah edir. Pedaqoqların bir çoxu öyrənmə fəaliyyətini öyrənən tərəfindən müstəqil olaraq seçilən fərdi idrak fəaliyyəti kimi vurğulayır. Digər bir qisim alimlər təlim fəaliyyətini subyektin özünə yönəldir. Xarici pedaqoq və psixoloqlar isə bunu şəxsi inkişaf və mənəvi təcrübə əldə etməyə keçmək kimi dəyərləndirir. Yuxarıda verilən fikirləri ümumiləşdirərək biz belə qənaətə gəlirik ki, təlim fəaliyyəti idrak marağı və onun sayəsində şagirdin özünüdərketmə ehtiyacını yaradan fərdi məqsədli fəaliyyətdir.

Şagird təlim fəaliyyəti prosesində problemlərin həllini mənimsədiyi üçün müasir öyrədənin vəzifəsi fənnin məzmunu vasitəsilə təhsilə dəyərli münasibət formalaşdırmaqdır [3]. Fənnin məzmunu deyərkən müəllimin öyrətmə prosesində şagirdə hər hansı bir şəkildə çatdıracağı elmi informasiyalar başa düşülür.

Öyrənmə prosesində təhsil verən ən son təhsil texnologiyalarını bilməli və öz fəaliyyətində fəal təlim texnologiyalarından yaradıcılıqla istifadə etməlidir (problemli təlim, oyun texnologiyaları, təlim texnologiyaları). Bütün bunlarla yanaşı təlim fəaliyyətinin təşkilində ənənəvi və aktiv öyrənmənin müxtəlif üsulları əlaqələndirilərsə, müəllim motivasiya potensialına malik ola bilər. Təlim fəaliyyətinin motivasiyası şagirdlərin potensialının meydana çıxmasını, özünü realizə etmə bacarığını nəzərdə tutur.

Beləliklə, təlim fəaliyyəti fərdi idrak fəaliyyətidir. Təlim prosesində şagird fənnin məzmununu mənimsəməklə bərabər öyrənməni hansı yollarla reallaşdırmanın üsullarını da mənimsəyir. Araşdırmalar göstərir ki, bu cür fəaliyyət uyğun motivlərlə həyata keçirilməlidir [6].

Təhsilalanlar təlimi məqsədlərinə çatmaq üçün fəallıq və inadkarlıq nümayiş etdirmələri təqdirdə əldə olunan nəticədən daha çox ləzzət alırlar. Motivlər mənfi də ola bilər, məsələn, valideynlər tərəfindən cəzalandırılmaq qorxusu ilə əlaqədar və pozitiv də ola bilir - ətrafdakılar üçün yararlı və faydalı olmağa cəhd edirlərsə.

Şagirdin hər hansı bir işi müstəqil və şüurlu yerinə yetirməsi özündən razılığın açarıdır və gələcəkdə peşəkar sərištənin formalaşmasına müsbət təsirini göstərəcəkdir.

Müasir dövrdə tədqiqatçıların çoxu peşə sərištəsini konkret peşəyə aid bilik və bacarıqların, eyni zamanda konkret peşə fəaliyyətinin həyata keçirilməsi yollarının məcmusu kimi səciyyələndirirlər. İnsanın peşə sərištəsi davamlı özünütəhsil və özünütəkmilləşdirməyə əsaslanan istək, işə yaradıcı və məsuliyyətli münasibət kimi müəyyən edilir. Peşəkar sərištə peşəkar

problemləri həll etməyə hazır olmaqda ifadə olunan şəxsi keyfiyyətdir.

Motiv və tələbatlar bir-biri ilə qarşılıqlı əlaqədə olur və bir-birinin təsiri sayəsində dəyişə bilir. Təlim fəaliyyətinin motivləri qeyd etdiyimiz kimi, xarici və daxili faktorların təsiri altında dəyişir. Müəyyən məqsəd və ona nail olmaq imkanı varsa uğursuzluğun aradan qaldırılmasına xarici faktorlar, insanı hərəkətə sövq edən isə daxili motivlərdir. Təhlillər göstərir ki, motivasiyaedici amillər paralel, eyni vaxtda və müstəqil şəkildə özünü biruzə verə bilir [3].

Tədris prosesinin son məqsədi məktəblini gələcək həyata hazırlamaqdır. Bu məqsədin həyata keçirilməsi şagirdlərin müəyyən bacarıqlara yiyələnməsini zəruri edir.

Araşdırmalar göstərir ki, motivasiya geniş anlayışdır, ona görə də onu müxtəlif prizmalardan təhlil etmək lazımdır. Motivasiya öyrənmənin psixoloji əsası hesab olunur. Məhz buna görə öyrənmə prosesindəki emosional sabitlik təhsil prosesində etibarlılığın, uğurun və səmərəliliyin vacib amillərindən biridir. Digər bir tərəfdən, idarəetmə nəzəriyyələri motivasiyanı özünü və ya digərlərini məqsədyönlü davranışa sövq etmək, stimullaşdırmaq və ya öz məqsədinə və ya təhsil müəssisəsinin məqsədinə çatmağa konkret hərəkətləri reallaşdırmaq prosesi kimi nəzərdən keçirir. Digər tərəfdən, motivasiya müəyyən bir şəxsi ehtiyacı ödəmək, məqsədlərə çatmaq üçün hər cür səy göstərməyə hazır olmaq kimi səciyyələndirilir.

Sonda qeyd etmək istərdik ki, təlim motivasiyası problemi uzun bir inkişaf yolu qət etmişdir. Araşdırmalar deməyə əsas verir ki, öyrənmə fəaliyyəti üçün motivasiya labüddür. Motivasiya öyrənənin fəaliyyətinin xarici stimullaşdırılmasından istifadə etməklə onun daxili-zehni prosesini hərəkətə gətirə bilir. Burada əsas təsir edici amillər rolunda məqsədlər, xarici mühitin təsiri, nailiyyətə münasibət, sosial ehtiyaclar çıxış edir.

Təlim fəaliyyətinin motivasiyasının mövcud vəziyyəti necədir? Təhsil müəssisəndə fəaliyyət göstərən hər bir müəllim bilir ki, əgər məktəbli öyrənmə prosesinə maraqsız yanaşırsa, mövcud ehtiyaclarını dərk etmirsə, onda onun həyati bacarıqlarını formalaşdırnaq praktiki olaraq mümkün deyil. Digər bir tərəfdən bütün müəllimlər motivasiyanın formalaşdırılmasına lazımı diqqət ayırmır və buna görə təhsil keyfiyyəti aşağı düşür. Bu baxımdan şagirdlərin təlim motivasiyasının artmasına hansı amillərin təsir etdiyini dəqiqləşdirmək lazımdır.

Şagirdləri təlim fəaliyyətinə həvəsləndirmək üçün son onilliklər yerli və xarici alimlərin təhsilalanların aşağı motivasiya problemlərini vurğulayan tədqiqatları meydana çıxıb. Tədqiqatçılar şagirdlərin təlim fəaliyyətinin motivasiyasını artırmağa kömək edən bir neçə amil müəyyənləşdirmişlər [6]. Təhlillərin nəticəsinə görə, bu amillər əhəmiyyətinə görə azalma ardıcıllığı ilə belə sıralanır.

- Şagirdlərin öyrənməyə marağını artırmaq üçün işgüzar təlim mühitinin yaradılması, bu amili həyata keçirmək üçün şagirdlərdə öyrənmə marağı doğura biləcək ən uyğun pedaqoji texnologiyalardan yararlanmaqla təhsil prosesinin psixoloji və pedaqoji dəyərlətindən istifadə etmək, həmçinin şagirdlərin müstəqil fəaliyyətlərini də dəstəkləmək lazımdır.

- İkinci ən mühüm, həm də az vacib olmayan amil şagirdin daxili aləminə müsbət və mənfi təsir göstərən əlverişli təhsil mühitidir. Qeyd etmək lazımdır ki, öyrənmə baxımından psixoloji cəhətdən əlverişli təlim mühiti şagirdləri motivasiya edə, əlverişsiz mühit isə mənfi emosiyalara səbəb ola bilir və adekvat olaraq motivasiyanı azalda bilir. Psixoloji nöqteyi-nəzərdən təhsil mühiti qrup halında insanların emosional davranışına və sonda bütöv qrupun işinə təsir göstərir. Alimlər bu prosesi "emosional yoluxma" adlandırır. Yəni, başqalarının əhval-ruhiyyəsi və emosiyalarının digərlərinin emosional vəziyyətinə təsir etdiyi kimi.

- Üçüncü amil şagirdin özünü istiqamətləndirməsidir. Bu proses "özünü planlaşdıran öyrənmə", "müstəqil öyrənmə" və ya "avtonom öyrənmə" kimi təqdim edilir.

Alimlərin qənaətinə görə müstəqil öyrənmə və vaxtında yaradılmış əks əlaqə şagirdlərin təlim motivasiyasının formalaşması üçün vacibdir. Vaxtında verilən dəyər və rəy bütün dəyişiklikləri tez əks və müəyyən etdirməli, öyrənmə fəaliyyəti prosesində şagirdin fəaliyyətinin artmasına effektiv təsir göstərməlidir. Yəni, əlaqə nə qədər sürətli və dəqiq olarsa öyrənməyə də bir o qədər təsir edə bilər.

- aktivlik və praqmatizm. Müəllim öyrətdiyi nəzəri materialı müxtəlif praktik vəziyyətlərin həlli üçün tətbiq etdirməli və eyni vaxtda bu biliklərə ehtiyac olduğunu vurğulamalıdır.

Bu zaman şagirdlərdə öyrənməyə maraq hiss olunur və uyğun olaraq onların motivasiyası da artır.

Uğur əldə etməyin subyektiv ehtimalı şagirdin uğur şansını dəyərləndirməsi ilə əlaqədardır. Araşdırmalar onu deməyə əsas verir ki, uğur əldə etməyin subyektiv ehtimalı çox vaxt obyektiv ehtimaldan fərqlənir. Nailiyyətin subyektiv ehtimalı asan və ya nisbətən çətin tapşırıqlarda obyektiv ehtimaldan yüksək olur. Məlum olduğu kimi insanın uğursuzluğu uğur ehtimalını azaldır.

Problemin aktuallığı. Bu məqalənin aktuallığı ondan ibarətdir ki, məktəb mühitində təhsilalanların öyrənmə səviyyəsinin artırılması hər zaman səmərəli nəticələr verir.

Problemin elmi yeniliyi. Bu mövzuda çoxsaylı tədqiqatlar aparılmış və bu araşdırmalar məqalədə öz əks edilmişdir.

Problemin təcrübi əhəmiyyəti. Tədqiqat sahəsində çalışan elm xadimləri bu mövzu ilə bağlı tədqiqatlarında bu materialdan faydalana biləcəklər.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı // 15 iyun 1999-cu il, – Bakı: Qanun, – 1999. – 65 s.
2. Dəmirov, A. Yeni təlim texnologiyaları və müasir dərs. / A. Dəmirov, S. Məmmədov, Ş. İsmayılov. – Bakı:, – 2007. – 342 s.
3. Ələkbərova, U. İnsan inkişafının əsasları / U. Ələkbərova. – Bakı: Azpoliqraf, – 2016. – 280 s.
4. Ələsgərova, S. Şagirdlərin yaradıcı təfəkküründün və tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsi. / S. Ələsgərova. – Bakı: Təhsil, – 2018. №2, -3 s.
5. Əliyev, P. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. / P. Əliyev, H. Əhmədov. – Bakı: – ABU, – 2004. – 220 s.
6. Eminov, A. Pedaqogika. Dərs vəsaiti. / A. Eminov, P. Mədədov. – Bakı: –Kövsər, –2011. – 408 s.
7. Həbibova, Z. İnsan potensialı idarəetmə və inkişaf faktoru kimi / Z. Həbibova. – Bakı: Elm və Təhsil, – 2017. –180 s.
8. Həsənov, A. Pedaqogika Dərslik. / A. Həsənov, Ə. Ağayev. – Bakı: Nasir, -2007. – 496 s.
9. Həşimova, A. Şagirdlərin öyrənmə motivasiyasının artırılmasında valideynlərin rolu. // arti.edu.az.16.09.21
10. Hüseynzadə, R. Ailə pedaqogikası Dərslik. / R. Hüseynzadə, L. Allahverdiyeva. – Bakı: ADPU-nun mətbəəsi, – 2016. – 340 s.

Redaksiyaya daxil olub: 17.09.2025.

UOT 37.

Turanə Fazil qızı İsmayılova
Azərbaycan Respublikasının Təhsil İnstitutunun fəlsəfə doktoru proqramı üzrə doktorantı,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org//0000-0001-6462-7759
mail: turanaismayilova1122@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).70-73

NECƏ ÖYRƏNMƏYİ ÖYRƏNMƏK: ÇƏTİN MÖVZULARI MƏNİMSƏMƏYƏ KÖMƏK EDƏCƏK GÜCLÜ ZEHNİ VASİTƏ

Turana Fazil Ismayilova
doctorial student in the program of doctor of philosophy
of the Institute of Education of the Republic of Azerbaijan,
lecturer at Azerbaijan State Pedagogical University

HOW TO LEARN TO LEARN: POWERFUL MENTAL TOOLS TO MASTER COMPLEX TOPICS

Турана Фазиль гызы Исмаилова
докторант по программе доктора философии Института Образования Азербайджанской Республики,
преподаватель Азербайджанского Государственного Педагогического Университета

КАК НАУЧИТЬСЯ УЧИТЬСЯ: СИЛЬНЫЕ УМСТВЕННЫЕ СРЕДСТВА ДЛЯ ОСВОЕНИЯ СЛОЖНЫХ ТЕМ

Xülasə. Bu məqalədə müasir dövrdə "öyrənməyi öyrənmək" bacarığının əhəmiyyəti vurğulanaraq, Azərbaycan tarixinin tədrisində bu bacarığın tələbələrdə idrak fəallığını necə artırdığı araşdırılır. Fokuslanmış və yayğın düşüncə rejimləri, aralı təkrar, parçalama və metabilik kimi zehni strategiyaların tətbiqi tələbələrin yadda saxlama, tənqidi düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Bu üsullar tarix fənnini sadəcə informasiyanın ötürülməsi vasitəsi kimi deyil, eyni zamanda fəal öyrənmə və vətəndaşlıq tərbiyəsinin formalaşması üçün platforma kimi təqdim edir. Məqalədə bu strategiyaların Azərbaycan tarixi dərslərində tətbiq olunmasının tələbələrin həm akademik uğurlarına, həm də milli-mədəni kimliklərinin formalaşmasına töhfə verdiyi göstərilir.
Açar sözlər: *idrak fəallığı, parçalama, metakoqnitiv bacarıqlar, tənqidi düşünmə, fəal öyrənmə, tələbə motivasiyası, ömürboyu öyrənmə*

Abstract. This article emphasizes the importance of the skill of “learning how to learn” in the modern era and explores how it enhances cognitive engagement among students in the teaching of Azerbaijani history. It examines mental strategies such as focused and diffuse thinking modes, spaced repetition, chunking, and metacognitive skills, which help improve students’ memory, critical thinking, and problem-solving abilities. These methods position history not merely as a subject for information transfer but as a platform for active learning and civic education. The article highlights how the application of these strategies in Azerbaijani history classes contributes to students’ academic success as well as the formation of their national and cultural identity.
Keywords: *Cognitive engagement, chunking, metacognition, critical thinking, active learning, , student motivation, lifelong learning*

Аннотация. В данной статье подчеркивается важность навыка «научиться учиться» в условиях современного мира и рассматривается его влияние на развитие познавательной активности студентов при изучении истории Азербайджана. Описываются ментальные стратегии, такие как сфокусированное и рассеянное мышление, интервальное повторение, структурирование информации (chunking) и метапознание, которые способствуют улучшению памяти, критического мышления и

навыков решения проблем. Эти методы представляют историю не просто как предмет передачи информации, а как платформу для активного обучения и гражданского воспитания. В статье подчеркивается, что применение таких стратегий на уроках истории Азербайджана способствует как академическим успехам студентов, так и формированию их национальной и культурной идентичности.

Ключевые слова: *познавательная активность, структурирование информации, метапознание, критическое мышление, активное обучение, мотивация студентов, обучение на протяжении всей жизни*

Giriş

Çətin mövzuları öyrənməkdə çətinlik çəkən tələbələrin əksəriyyəti əslində zəka çatışmazlığından deyil, düzgün öyrənmə stra-tegiyalarını bilmədiklərindən əziyyət çəkirlər. "Öyrənməyi öyrənmək" öz öyrənmə prosesini dərk etmək və bu prosesi təkmilləşdirəcək üsulların tətbiq edilməsidir. Bu bacarığın inkişafı öyrənənlərə həm akademik, həm də peşəkar həyatda uğur qazanmaqda kömək edir. Azərbaycan tarixi dərslərində tələbələrin çətinlik çəkməsinin əsas səbəblərindən biri fakt və hadisələrin sadəcə əzbərlənməsi ilə məhdudlaşan ənənəvi tədris metodlarıdır. Bu zaman tələbələr hadisələrin səbəb-nəticə əlaqələrini, tarixi kontekstləri və bu biliklərin müasir cəmiyyətlə əlaqəsini qavramaqda çətinlik çəkirlər. Lakin "öyrənməyi öyrənmək" yanaşması bu çətinliyin qarşısını ala bilər. Bu metodun Azərbaycan tarixi kimi zəngin və çoxsəviyyəli bir fəndə tətbiqi, tələbələrin idrak fəallığını artırır, yəni onların dərs zamanı düşünmə, təhlil etmə, sual vermə və öz fikirlərini əsaslandırma bacarıqlarını inkişaf etdirir. Məsələn, tələbələrə Azərbaycan tarixi ilə dünya tarixi arasında tarixi qarşılıqlı təsiri araşdırmaq və bu mövzuda debat aparmaq tapşırıldıqda, onlar yalnız məlumat öyrənmir, həm də həmin məlumatlarla düşünür və yeni nəticələr çıxarmağa çalışırlar.

1. Fokuslanmış və yayğın düşüncə rejimləri

Tədqiqatlara əsasən iki əsas düşüncə rejimi ayırd edilir: fokuslanmış rejim – bilincli və cəmlənmiş düşüncə, və yayğın rejim – rahat, qeyri-şüuri düşüncə. Səmərəli öyrənmə bu iki rejim arasında keçid etməklə mümkündür. Məsələn, çətin bir problemi həll edə bilmədikdə fasilə vermək və yayğın düşüncəyə imkan yaratmaq bəzən daha yaradıcı həllər ortaya çıxarır. Effektiv öyrənmə bu iki rejim - fokuslanmış diqqət və yayğın düşüncə - arasında balanslı keçid etməklə mümkündür. Məsələn, çətin bir problemi həll etməyə çalışarkən uzun müddət fokuslanmış şəkildə çalışmaq bəzən yorğunluğa və blokadaya səbəb ola bilər. Belə hallarda fasilə vermək, zehni rahatlatmaq və yayğın düşüncə rejiminə keçmək - yəni fikir sərbəstliyinə, assosiasiyalara və əlaqəsiz informasiyaların birləşməsinə imkan yaratmaq - daha yaradıcı və effektiv həllərin ortaya çıxmasına kömək edir. Bu proses beynin müxtəlif hissələrinin əməkdaşlığını artıraraq yeni perspektivlər və innovativ ideyalar formalaşdırır. Buna görə də "öyrənməyi öyrənmək" bacarığı təkcə məlumatın qəbulu deyil, həm də bu iki zehni rejim arasında düzgün keçid etməyi bacarmaqdır. Bu yanaşma tələbələrə mürəkkəb mövzuları daha rahat mənimsəmək və problemləri həll etmək üçün vacib bir strategiya təqdim edir. Ali təhsilin inkişafının müasir tendensiyası onun müəllimdən tələbəyə yönəldilməsini nəzərdə tutur [2,s.145].

2. Aralı təkrar və xatırlatma təcrübəsi

Aralı təkrar məlumatların müəyyən aralıqlarla, yəni vaxt fasilələri qoyularaq təkrar olunması prinsipinə əsaslanır və uzunmüddətli yaddaşın formalaşması üçün çox effektivdir. Bu üsulun məqsədi məlumatın yaddaşda möhkəm yerləşməsi üçün beyinə kifayət qədər vaxt vermək və sonra həmin məlumatı yenidən xatırlatmaqdır. Aktiv xatırlatma isə materialın passiv olaraq təkrar oxunması əvəzinə yaddaşdan fəal şəkildə çağırılmasıdır. Bu proses sinaptik əlaqələri gücləndirir, məlumatın beyindəki möhkəmliyini artırır və unutma riskini azaldır. Aralı təkrar məlumatların müəyyən fasilələrlə təkrar olunması prinsipinə əsaslanır və uzunmüddətli yaddaş üçün effektivdir. Aktiv xatırlatma üsulu – yəni materialın təkrar oxunması əvəzinə yaddaşdan çağırılması – sinaptik əlaqələri gücləndirərək öyrənməni sabitləşdirir .

3. Parçalama və zehni yükün azaldılması

Parçalama məlumatları mənalı hissələrə bölmək üsuludur. Bu üsul koqnitiv yükü azaldaraq məlumatların işlənməsini asanlaşdırır. Azərbaycan tarixi dərslərində məlumatların həddindən artıq çox və mürəkkəb olması tələbələrin öyrənmə prosesini çətinləşdirə bilər. Bu zaman

parçalama üsulundan istifadə etmək effektiv olur. Parçalama məlumatları kiçik, mənalı və əlaqəli hissələrə bölmək deməkdir. Məsələn, Azərbaycan tarixində müxtəlif dövrlər, hadisələr və şəxsiyyətlər mövzuları ayrıca bölmələrə ayrılır və hər bölmə ayrı-ayrılıqda dərinləşdirilir. Bu üsul tələbələrin zehni yükünü azaldır, yəni beynin eyni anda qəbul edə biləcəyi məlumat miqdarını idarə etməyə kömək edir. Dərsliklərdə müasir təlim texnologiyalarından istifadə tələbələrə düşünməkdə-idrak prosesinə fəal cəlb olunmaqda, mürəkkəb vəziyyətlərin həlli yolunu tapmaqda mühüm əhəmiyyət kəsb edir [5, s. 90].

4. Metakoqnitiv və özünü tənzimləmə

Metakoqnitiv – yəni "düşüncə haqqında düşünmək" – insanın öz öyrənmə prosesini izləyərək lazım gəldikdə dəyişiklik etmə bacarığıdır. Özünü tənzimləyən öyrənənlər məqsədlər qoyur, irəliləyişlərini izləyir və nəticələrdən dərs çıxarırlar . Azərbaycan tarixi dərslərində metabilik bacarıqlarının inkişaf etdirilməsi tələbələrin yalnız faktları əzbərləməsi ilə kifayətlənməmələrinə, həm də öyrəndikləri tarixi hadisələri və səbəbləri dərk etmələrinə şərait yaradır. Nəticə olaraq, Azərbaycan tarixi dərslərində metakoqnitiv yanaşmanın tətbiqi tələbələrin özünü idarə edən, müstəqil və düşüncəli öyrənənlər kimi formalaşmasına dəstək verir.

5. Səhvlərin və çətinliyin rolu

Səhvlər və çətinliklər öyrənmə prosesinin təbii və zəruri hissəsidir və inkişaf üçün önəmli fürsətlər yaradır. Xüsusilə Azərbaycan tarixi kimi mürəkkəb və çoxşaxəli mövzuları mənimsəyərkən, tələbələr tez-tez anlaşılmazlıq və səhvlərlə üzləşirlər. Bu çətinliklər ilkin mərhələdə öyrənmə sürətini azalda bilər, lakin uzunmüddətli yaddaşın möhkəmlənməsi və daha dərin anlama üçün vacibdir. Arzu olunan çətinliklər – yəni öyrənəni bir qədər sınağa çəkən və rahatlıq zonasından çıxaran tapşırıqlar – tələbələrin tarixi məlumatları təkcə əzbərləmələrinə yox, həm də onları təhlil etmələrinə və öz mövqelərini formalaşdırmalarına kömək edir. Nəticədə, onlar səhvlərindən dərs çıxararaq daha çevik və dayanıqlı öyrənənlərə çevrilirlər. Azərbaycan tarixi dərslərində müəllimlərin rolu tələbələri səhvlərdən qorxmadan öyrənməyə təşviq etmək, onların çətinlikləri qəbul etmələrini və bu prosesdə motivasiyalarını qoruyub saxlamaqlarını təmin etməkdir. Bu, uzunmüddətli akademik və şəxsi inkişaf üçün vacibdir. Ümumiyyətlə, idrak prosesinin məntiqi təhsil məqsədlərinə çatmağa tabedir [3] .

Müasir gəncləri peşə seçimi ilə təhlillərə əsasən 3 qrupa ayırırlar[1,s.25].

Nəticə: Ali məktəblərdə bu yanaşmalar tələbələrin dərindən öyrənmə qabiliyyətlərini artırır və onların akademik performansını yaxşılaşdırır. Öyrənməyi öyrənmək bacarığı 21-ci əsrdə uğurlu olmağın təməlidir. Tövsiyə olunur ki,

- Universitet müəllimləri dərs planlarında bu alətləri sistemli şəkildə daxil etsinlər.
- Tarix dərsləri sadəcə keçmişin öyrənilməsi kimi deyil, həm də müasir problemlərin analizi üçün zəmin kimi təqdim edilsin.
- Tələbələrə metakoqnitiv və özünüqiymətləndirmə imkanları verilsin.
- Rəqəmsal texnologiyalardan istifadə genişləndirilsin [4]
- Problem əsaslı öyrənmə (PBL) modelləri tətbiq edilsin[6,s.279].
- Fənlərarası inteqrasiyaya üstünlük verilsin[4, s.91].
- Tələbələrin öz öyrənmə prosesinə cavabdeh olması təşviq edilsin. Müasir pedaqoji yanaşmaları və öyrənmə strategiyalarını [4, s.97] öyrədən müntəzəm təlimlər müəllimlərin professional inkişafını dəstəkləyər və onların tədris prosesinə yeniliklər gətirməsinə zəmin yaradar.

Problemin elmi yeniliyi. Səmərəli fikirlər irəli sürülmüş, aparılan araşdırmalar və tədqiqatlar məqalədə öz əksini tapmışdır.

Problemin aktuallığı. Ali məktəblərdə yeni təlim texnologiyalarından istifadənin imkanlarının araşdırılması mühüm əhəmiyyət kəsb edir. Problem baxımından aktuallıq təşkil edir.

Problemin praktik əhəmiyyəti. Pedaqoqlar bu mövzu ilə bağlı tədqiqatlarında materialdan istifadə edə bilər.

Ədəbiyyat:

1. Bayramov, Ə.S. Sosial psixologiya. Dərslik / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə.-Bakı: Qapp-Poliqraf Korporasiyası,-2003.-356s.
2. İsmayılova T. Tələbələrin idrak fəallığının yüksəldilməsində Azərbaycan tarixinin tədrisinin mövcud proqram və ədəbiyyatlarda təhlili vəziyyəti// Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri, 2024.№2,s.144-147

3. İsmayılova T. Azərbaycan tarixinin tədrisi zamanı tələbələrin idrak fəallığının yüksəldilməsində tarixi ədəbiyyatın imkanları və rolu // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri , 2024. №3. -s.89-92
4. İsmayılova, T.F. Kurikulum. Yeni təlim texnologiyaları. Dərs vəsaiti. Mütərcim/T.F. İsmayılova. -Bakı, 2020. -296 s.
5. Nəzərov, A.M. Müasir təlim texnologiyaları: Dərs vəsaiti. ADPU-nun nəşri /A.M. Nəzərov. -Bakı, 2012. -103s.
6. Rüstəmov, F.A. Ali məktəb pedaqogikası. Magistratura pilləsi üçün dərslik / F.A. Rüstəmov, T.Y. Dadaşova -Bakı: Nurlan, -2007. -567s.

Redaksiyaya daxil olub: 22.09.2025.

UOT 372.851

Xumar Tofiq qızı Novruzova
Bakı Slavyan Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-1415-8457
E-mail.novruzovaxumar@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).74-78

CƏBRİ MƏSƏLƏLƏRİN İKT VASİTƏSİLƏ MODELLƏŞDİRİLMƏSİ

Khumar TofigNovruzova
associate professor at
Baku Slavic University,
doctor of philosophy in pedagogy,

MODELING OF ALGEBRAIC TASKS USING ICT

Хумар Тофиг гызы Новрузова
доцент Бакинского Славянского Университета,
доктор философии по педагогике

МОДЕЛИРОВАНИЕ АЛГЕБРАИЧЕСКИХ ЗАДАЧ С ПРИМЕНЕНИЕМ ИКТ

Xülasə. İKT texnologiyalarının sürətli inkişafı təhsil prosesinə də təsirsiz qala bilməzdi. Yeni təlim texnologiyalarının, o cümlədən İKT-nin, süni intellektin tədris prosesinə gətirdiyi yeniliklərin həm müsbət, həm də mənfi amillərini nəzərə almadan, onların pedaqoji prosesdə ənənəvi metodlarla müqayisəsini aparmadan səmərəli nəticə əldə etmək mümkün deyil. Buna görə də abstraktlaşmanın özünü ən çox büruzə verdiyi cəbr fənninin tədrisi prosesində modelləşdirmənin əhəmiyyətini, rolunu, İKT vasitəsilə reallaşdırılmasını aktual problem kimi nəzərdən keçirmək olar.
***Açar sözlər**: İKT, cəbr, modelləşdirmə, MatLab, GeoGebra*

Abstract. The rapid groth of ICT technologies could not fail to the educational process. Considering both the positive and negative factors of innovations related to the use of new information technologies, ICT, and artificial intelligence, it is impossible to achieve results. Therefore, we can examine the problem of the role of modeling using ICT in the process of teaching algebra, were abstraction is most vividly manifested.
***Key words**: ICT, algebra, modeling, MatLab, GeoGebra*

Аннотация. Бурное развитие ИКТ не могло не отразиться и на образовательном процессе. Без учета как положительных, так и отрицательных факторов, которые новые технологии обучения, включая ИКТ и искусственный интеллект, привносят в учебный процесс, а также без сопоставления их с традиционными методами педагогического процесса невозможно добиться эффективных результатов. Поэтому в преподавании алгебры, где особенно проявляется абстрактность, можно рассматривать как актуальную проблему значение и роль моделирования, а также его реализацию с помощью ИКТ.
***Ключевые слова:** ИКТ, алгебра, моделирование, MatLab, GeoGebra*

Model – hər hansı bir obyektin, predmetin, hadisə və prosesin xüsusi dildə və ya xüsusi formada təsviridir. Məsələn, insan ilk model kimi uşaqlıq dövründə oyuncaqlardan istifadə edir, onların vasitəsilə müxtəlif predmetləri və onların hərəkətlərini – avtomobilləri, təyyarələri, gəmiləri, məişətlə bağlı olan obyektləri öyrənir. Deməli, model insan və obyekt, proses ara-

sında olan keçid mərhələsi, öyrənmə vasitəsidir. Modellərlə işləməyin üstünlüyü ondan ibarətdir ki, onların köməyilə mühüm olanı mühüm olmayan elementlərdən seçmək, ayırd etmək mümkündür. Bu isə insanda müqayisə etmək, abstraktlaşdırmaq qabiliyyətlərini inkişaf etdirir. Bəs insan niyə obyektin, prosesin özündən deyil, modelindən istifadə edir? Modelləşdirməni zəruri edən səbəblər həmin obyekt və ya prosesin əlçatan olmaması, bu obyektlərlə işləməyin çox vəsait və vaxt tələb etməsi, həmçinin onların uzaq keçmiş və ya gələcəklə bağlı olmasıdır.

Fəlsəfi baxımdan model - ətraf aləmin dərk edilməsi üçün səmərəli üsuldur. Bu üsulun aşağıdakı elementləri mövcuddur:

- Tədqiqat obyekti;
- Tədqiqatçı;
- Model.

Tutaq ki, hər hansı «X» obyektini yaratmaq lazımdır. Bunun üçün biz maddi şəkildə və ya təfəkkürümüzdə «X» obyektinin modeli olan «Y» obyektini yaradırıq. «Y» obyektinin yaradılması mərhələsində bizə «X» obyekti haqqında müəyyən məlumatları bilmək lazım gəlir. Yaradılmış modelin imkanları ilə orijinalın müəyyən və əsas xüsusiyyətləri əks edilməlidir. Orijinal və modelin fərqli və oxşar cəhətlərinin olması ayrıca tədqiqat tələb edən bir işdir. Çünki bu, subyektiv şəkildə konkret məsələnin qoyuluşundan asılıdır. Lakin əgər model tamamilə orijinalın eynidirsə, artıq o model olmaqdan çıxır. Yəni bu halda biz onu model hesab etmirik.

Riyazi modelləşdirmə mürəkkəb problemlərin həlli metodu olub, üç əsas yolla yaradılır:

1) real prosesin birbaşa tədqiqi nəticəsində - belə modellər fenomenaloji modellər adlanır;

2) deduksiya yolu ilə - bu halda alınmış model hər hansı ümumi modelin xüsusi halı kimi yaranır və asimptotik model adlanır.

3) İnduksiya yolu ilə - bu halda yaradılan model elementar modellərin ümumiləşməsi olur və ansambl modeli adlanır.

Dərsi optimallaşdırmaq, intensivləşdirmək, fənlər və mövzular arası əlaqə yaratmaq, məntiqi, yaradıcı təfəkkürü inkişaf etdirmək və formalaşdırmaq, verilən biliyin məzmununu ötürmək məqsədi ilə müxtəlif təlim metodlarından – debatlardan, diskussiyalardan, qruplarla və cütlərlə işlərdən, əqli hücumdan, Vyen diaqramı, dəyirmi masa və s. kimi bir sıra metodlardan, didaktik oyunlardan və digər yaradıcı işlərdən istifadə olunur. Bütün bunlar təlim texnologiyalarından istifadə prosesinə daxildir və bu, dərsin təşkilində, dərsin gedişində, qiymətləndirmədə öz həllini tapan metoddur (1).

Cəbr fənni üzrə modellərdən istifadə edilməsi aşağıdakı mövzuları əhatə edir:

- Cəbri strukturlar: qrup, halqa, meydanların xassələrinin öyrənilməsi və analizi, yorucu hesablamaların avtomatlaşdırılaraq İKT ilə yerinə yetirilməsi, İKT alətləri ilə interaktiv modellərin yaradılması;
- GeoGebra 3D və Algebra proqramları – simmetriyanın, funksiyaların qrafiklərinin vizuallaşdırılması üçün ideal vasitələrdir;
- MatLab, Mathematica – simvolik riyazi məsələlərin həll edilməsi vasitələridir;
- SageMath – sadə cəbri modellərin yaradılması vasitəsidir;
- Qruplar nəzəriyyəsinin aksiomlarının avtomatik yoxlanılması üçün SageMath və SymPy proqramları əlverişlidir.
- Halqaların xassələrinin yoxlanılması üçün SageMath və Python proqramlarından istifadə edilir (2).

Nümunə üçün Keli teoremi və fiqurların simmetrikliyi mövzusunu modelləşdirək.

Məsələ. Bərabərtərəfli üçbucaqda O mərkəzi ətrafında aşağıdakı dönmələr qrupuna baxaq: F_0, F_{120} və F_{240}

Bu məqsədlə əvvəlcə verilmiş məsələ üçün Keli cədvəli qurulur (Cədvəl 1). Üçbucağın dönmələr qrupu üçün animasiyalı ekran görüntüsü nümayiş etdirilir (Şəkil 1).



Şəkil 1

Nəticə olaraq təqdimat vasitəsilə qrupun aksiomları sadalanır:

1. Binar cəbri əməlin varlığı: dönmələrin nəticələri də verilmiş çoxluğa aiddirsə, deməli, bu çoxluqda binar əməl verilmişdir.

2. Assosiativlik:

$(F_0*F_{120})*F_{240}= F_0*(F_{120}*F_{240})$

3. Neytral elementin olması: F_0

4. Hər bir element üçün tərs elementin olması: $(F_0)^{-1}=F_0$; $(F_{120})^{-1}=F_{240}$; $(F_{240})^{-1}=F_{120}$

Cədvəl 1

(F_3 qrupu)	F_0	F_{120}	F_{240}
F_0	F_0	F_{120}	F_{240}
F_{120}	F_{120}	F_{240}	F_0
F_{240}	F_{240}	F_0	F_{120}

Simmetriklik aksiomu və Keli teoremi cədvəl 1 ilə yoxlanılır.

Teorem (Keli). İxtiyari n tərtibli qrup n dərəcəli əvəzləmələr qrupunun altqrupu ilə izomorfdur.

Üçbucağın dönmələr qrupu 3 tərtibli olduğundan, 3 dərəcəli əvəzləmələr qrupunun 3!=6 sayda elementi olacaq. (123), (231), (312) əvəzləmələri ilə cədvəl 1-də verilən F qrupunun elementləri arasında izomorf uyğunluğun olduğu asanlıqla müəyyən edilə bilər. Bunun üçün F_0 elementini 1, F_{120} elementini 2, F_{240} elementini isə 3 ədədləri ilə əvəz etmək kifayətdir. Bu da teoremin ödəndiyini göstərir.

Eyni qayda ilə simmetriklik aksiomu yoxlanılır:

$F_0 * F_{120} = F_{120} * F_0$; $F_0 * F_{240} = F_{240} * F_0$; $F_{120} * F_{240} = F_{240} * F_{120}$

Modelləşdirmənin ən böyük üstünlüyü riyazi biliklərin mənimsədilməsində əyaniliyin yaradılmasıdır. Qruplar nəzəriyyəsi abstrakt anlayışlarla zəngindir, lakin modellərin nümayişi qrupda binar cəbri əməlin varlığını, qrup elementlərinin assosiativliyini, qrupda neytral elementin olduğunu və qrupun hər bir elementi üçün tərs elementin varlığını əsaslandırır. Beləliklə, modellər vasitəsilə abstrakt anlayışlardan praktik anlayışlara keçid baş verir.

İKT dəstəyi ilə cəbr fənninin çoxhədli, onun kökləri ilə bağlı biliklərin mənimsədilməsi üçün modellərdən istifadəyə baxaq. Aydındır ki, 2, 3 və 4 dərəcəli tənliklərin həlli və ya çoxhədlilərin köklərinin tapılması üçün onların əmsalları ilə ifadə olunan düsturlar var. Lakin 5-ci və ondan yüksək dərəcəli tənliklərin ümumi halda kökləri düsturu yoxdur.

5-ci dərəcəli $2x^5+5x^4-x^3+7x^2+16x+6$ çoxhədlisinin köklərini MatLab proqramı vasitəsilə hesablayaq. Ənənəvi qaydada bu çoxhədlinin köklərinin tapılması tələbələr üçün böyük çətinliklər və vaxt itkisi yarada bilər. Lakin riyazi proqram paketi bu məsələni qısa müddətdə və səmərəli şəkildə həll edir. Tələbələr ekranda çıxan cavablara əsasən müəyyən edə bilərlər ki, 5-ci dərəcədən tənliyin təkrarlanma dərəcəsi nəzərə alınmaqla beş kompleks kökü var (Şəkil 2). Bu köklərin ədədi qiymətlərinə əsasən tələbələr müəyyən edirlər ki, köklərin üçü müxtəlif həqiqi ədədlər, 2-si isə qoşma kompleks ədədlərdir. Misalların sayını artırmaqla tələbələrə tək dərəcədən çoxhədlinin köklərinin kompleks kökü varsa, onun qoşmasının da həmin çoxhədlinin kökü olması faktı aydın olacaq.



Şəkil 2

Eyni məsələnin başqa proqram məhsulunda – GeoGebra proqramında həllinə baxaq (Şəkil 3):



Şəkil 3

Şəkil 3-dən aydın olur ki, bu proqram vasitəsilə qurulan qrafikdə çoxhədlinin yalnız həqiqi kökləri əks olunur. Lakin tələbələr cəbrin əsas teoreminə əsasən, bilirlər ki, 5-ci dərəcədən çoxhədlinin beş kompleks kökü olmalıdır. Beləliklə, müxtəlif modellər eyni bir məsələnin həllini verə bilər, lakin nümunədən də göründüyü kimi, əgər məsələnin həlli R həqiqi ədədlər çoxluğunda axtarılırsa, GeoGebra proqramından istifadə etmək olar, lakin məsələnin ümumi halda C kompleks ədədlər meydanında köklərini tapmaq lazımdırsa, onda MatLab proqramından istifadə etməliyik (3).

Ümumiyyətlə, tələbələrin idrak fəaliyyətinin, məntiqi təfəkkürünün inkişaf etdirilməsində cəbri biliklər mühüm rol oynayır, çünki cəbr fənni üzrə məsələ həlli prosesində çoxlu təfəkkür əməliyyatları tətbiq olunur: verilmiş problemin təhlili, verilənlərlə axtarılanların müqayisəsi, riyazi modelin hazırlanması, həllin yerinə yetirilməsi. Bütün bunlar tələbələrdən yaradıcı fəallıq tələb edir. Bu fəallığı yaratmaq və tələbələrdə cəbr fənninə maraq oyatmaq isə müəllimin əsas vəzifəsidir (4).

Problemin aktuallığı. Riyazi biliklərin abstraktlığı tələbələr üçün bir sıra çətinliklər yaradır. Bu çətinliklərin öhdəsindən İKT proqram təminatından səmərəli şəkildə istifadə etməklə gəlmək olar. Müasir dövrün vacib tələbi olan İKT-nin riyazi təhsildə tətbiqi ali təhsil səviyyəsində tələbələrin motivasiyasını artırmağa səbəb olur. İKT-nin cəbri anlayışların öyrədilməsində tətbiqi modelləşdirmə vasitəsilə reallaşdırılır. Bu da tədqiqatı aktual edən əsas amildir.

Problemin elmi yeniliyi. Tədqiqatda cəbr fənninin tədrisində İKT-nin proqram vasitələri informasiya modellərinin qurulması üçün istifadə edilməklə yeni bir metodika irəli sürülür.

Problemin praktik əhəmiyyəti. Tədqiqat işindən ali məktəb müəllimləri və tələbələri, gənc

tədqiqatçılar öz praktik fəaliyyətlərində istifadə edə bilərlər.

Ədəbiyyat:

1. Pələngov, Ə.Q. Tədris prosesində informasiya texnologiyalarının istifadəsinin konseptual əsasları və mahiyyəti // Riyaziyyatın fundamental problemləri və intellektual texnologiyaların təhsildə tətbiqi. II Respublika Elmi konfransı, -Sumqayıt: SDU, - 15-16, - 2022, -s. 11-12.
2. Tağıyev, H. Təhsildə İKT-nin tətbiqi metodikası. / H. Tağıyev, Ə. Şixəmmədov, G. Əhmədova, - Bakı: Elm və təhsil, - 2019. – 161 s.
3. Горюшкин, А.П. Абстрактная и компьютерная алгебра / А.П. Горюшкин. – Москва: Юрайт, - 2023, - 691 с.
4. Perienen, A. Frameworks for ICT Integration in Mathematics Education – A Teacher´s Perspective // EURASIA Journal of Mathematics, Science and Technology Education, - 2020. volume 16, issue 6, - p. 3-12.

Redaksiyaya daxil olub:17.09.2025

UOT 372.854

Gülnarə Şamil qızı Dürüskari,
Bakı Dövlət Universiteti,
kimya üzrə fəlsəfə doktoru

Aysun Şirəli qızı İsgəndərli
Bakı Dövlət Universiteti
https://doi.org/10.69682/arti.2025.92(5).79-84

RƏQƏMSAL KİMYA TƏDRİSİ, ONLAYN PLATFORMALAR, ÜSTÜNLÜKLƏRİ VƏ TƏHSİL PERSPEKTİVLƏRİ

Gulnara Shamil Duruskari,
Baku State University,
doctor of philosophy in chemistry

Aysun Shirali Iskanderli
Baku State University

DIGITAL CHEMISTRY EDUCATION, ONLINE PLATFORMS, THEIR ADVANTAGES, AND EDUCATIONAL PROSPECTS

Гюльнара Шамиль гызы Дурускари,
Бакинский Государственный Университет,
доктор философии по химии

Айсун Ширали гызы Искендерли
Бакинский Государственный Университет

ЦИФРОВОЕ ПРЕПОДАВАНИЕ ХИМИИ, ОНЛАЙН-ПЛАТФОРМЫ, ИХ ПРЕИМУЩЕСТВА И ОБРАЗОВАТЕЛЬНЫЕ ПЕРСПЕКТИВЫ

Xülasə. Bu məqalədə təhsildə rəqəmsallaşma prosesinin əhəmiyyətindən, texnologiyanın aktiv tətbiqi ilə yaranan tədris metodları, pozitiv müəllim-şagird münasibətlərinin formalaşması yolları araşdırılmışdır. Həmçinin, interaktiv simulyasiyalar, onlayn laboratoriyalar, artırılmış reallıq (AR), virtual reallıq (VR), veb əsaslı dərs platformaları və mobil tətbiqlər haqqında geniş və maarifləndirici məlumatlar verilmişdir. Belə ki, rəqəmsal texnologiyaların kimya tədrisinə təsiri təhlil edilmiş, Azərbaycan təhsil sistemində bu alətlərin tətbiqi ilə bağlı təklif və fikirlər söylənilmişdir. Kimya fənninin tədrisində rəqəmsal metodlara ehtiyac vurğulanmış və əsas ehtiyac faktorları göstərilmişdir. Effektivliyi sübut olunmuş bir sıra beynəlxalq onlayn platformaların xüsusiyyətləri açıqlanmış və onların üstünlükləri əks olunmuşdur. Artırılmış reallıq (Augmented Reality – AR) və virtual reallıq (Virtual Reality – VR) texnologiyalarının özəllikləri haqqında məlumat verilmiş, onların təhsildə yeni imkanlar yaratmasından söhbət açılmışdır. Kimya fənni kimi abstrakt və vizual öyrənməni tələb edən fənlər üçün "Kimya Metaverse" – 3D virtual reallıq (VR) texnologiyası üzərində qurulmuş bir təhsil kainatını reallaşdıran platformanın komponentləri və gələcək perspektivlərindən bəhs edilmişdir. Təqdim olunan bu innovativ üsullar təhsilimizin gələcək inkişafının qarantıdır.

Açar sözlər: *innovativ tədris metodları, beynəlxalq onlayn platformalar, PhET Interactive Simulations, ChemCollective, Labster platformaları, "Kimya Metaverse" virtual reallıq texnologiyası, metodun təlim üstünlükləri, metodun reallaşma imkanları, metodun təhsil perspektivləri.*

Abstract. This article explores the significance of the digitalization process in education, the teaching methods emerging through the active application of technology, and ways to foster positive teacher-student relationships. It provides comprehensive and informative insights into interactive simulations, online laboratories, augmented reality (AR), virtual reality (VR), web-based learning platforms, and mobile applications. The impact of digital technologies on chemistry education is analyzed, with suggestions and opinions offered regarding the implementation of these tools within the Azerbaijani education system. The need for digital methods in the teaching of chemistry is emphasized, and the main factors driving this need are outlined. The article describes the features and advantages of several proven international online platforms. It also highlights the characteristics of augmented reality (AR) and virtual reality (VR) technologies and discusses the new opportunities they create in education. Special attention is given to the concept of the "Chemistry Metaverse"–a 3D virtual reality (VR)-based educational universe designed for subjects like chemistry that require abstract and visual learning. The components and future prospects of this platform are discussed. These innovative methods are presented as a guarantee for the future development of education.

Keywords: *innovative teaching methods, international online platforms, PhET Interactive Simulations, ChemCollective, Labster platforms, "Chemistry Metaverse" virtual reality technology, instructional advantages of the method, implementation possibilities of the method, educational prospects of the method.*

Аннотация. В данной статье рассматривается значение процесса цифровизации в образовании, а также новые методы преподавания, возникающие благодаря активному применению технологий, и пути формирования позитивных взаимоотношений между учителем и учеником. Представлена обширная и познавательная информация об интерактивных симуляциях, онлайн-лабораториях, технологиях дополненной (AR) и виртуальной (VR) реальности, веб-ориентированных учебных платформах и мобильных приложениях. Проанализировано влияние цифровых технологий на преподавание химии, высказаны предложения и мнения по поводу внедрения этих средств в систему образования Азербайджана. Подчёркнута необходимость цифровых методов в преподавании химии, указаны основные факторы этой необходимости. Описаны особенности ряда международных онлайн-платформ с доказанной эффективностью, а также их преимущества. Освещены особенности технологий дополненной и виртуальной реальности, обсуждены новые возможности, которые они открывают в образовании. Особое внимание уделено проекту «Химия Метавселенной» – образовательной платформе, основанной на технологии 3D-виртуальной реальности (VR), предназначенной для таких абстрактных и визуально сложных предметов, как химия. Рассмотрены её компоненты и перспективы развития. Представленные инновационные методы рассматриваются как гарантия будущего развития образования.

Ключевые слова: *инновационные методы обучения, международные онлайн-платформы, PhET Interactive Simulations, платформы ChemCollective, Labster, виртуальная реальность «Химическая метавселенная», преимущества метода в обучении, возможности реализации метода, образовательные перспективы метода.*

21-ci əsrin təhsil sistemində baş verən ən mühüm dəyişikliklərdən biri rəqəmsallaşma prosesidir. Rəqəmsal texnologiyalar yalnız kommunikasiya və əyləncə sahələrində deyil, eyni zamanda təhsil sektorunda da dərin iz buraxmışdır. Təhsil sisteminin transformasiyası, texnologiyanın aktiv tətbiqi ilə yeni öyrənmə metodları meydana çıxmış, müəllim və şagirdlər arasında qarşılıqlı əlaqə formalarını dəyişdirmişdir. Bu dəyişikliklər, xüsusilə təbiət elmləri sahəsində – o cümlədən kimya fənninin tədrisində – daha dərindən hiss olunmaqdadır. Kimya fənninin spesifikası – təcrübi xarakteri, atom və molekul səviyyəsində abstrakt anlayışların izahı, təhlükəli və bahalı avadanlıq tələb edən laboratoriya təcrübələri – bu sahədə rəqəmsal texnologiyaların tətbiqini daha da zəruri edir [1].

Rəqəmsal kimya tədrisi dedikdə, interaktiv simulyasiyalar, onlayn laboratoriyalar, artırılmış reallıq (AR), virtual reallıq (VR), veb əsaslı dərs platformaları və mobil tətbiqlər vasitəsilə kimya biliklərinin öyrədilməsi başa düşülür. Bu metodlar yalnız tələbələrin marağını artırmaqla məhdudlaşmır, həm də mövzunun dərindən başa düşülməsini, daha təhlükəsiz və əlçatan təcrübə imkanlarını təmin edir.

Məqsədimiz, rəqəmsal texnologiyaların kimya tədrisinə təsirini təhlil etmək, beynəlxalq praktikaları nəzərdən keçirmək və Azərbaycan təhsil sistemində bu alətlərin tətbiqi ilə bağlı təkliflər verməkdir.

Rəqəmsal təhsil anlayışı müxtəlif aspektlərdən araşdırıla bilər. UNESCO-nun 2022-ci il hesabatında qeyd edilir ki, rəqəmsal təhsil – texnologiya vasitəsilə öyrənmə prosesinin dəstəkləndiyi və ya tamamilə təşkil edildiyi təhsil formasıdır. Bu tədris forması ənənəvi sinif otağından fərqli olaraq daha çox interaktiv, adaptiv və personallaşdırma olunmuş öyrənmə imkanları yaradır. Rəqəmsal təhsil, həm sinxron (real vaxtda baş verən onlayn dərslər), həm də asinxron (tələbə tərəfindən istənilən vaxt istifadə oluna bilən video, tapşırıq və simulyasiyalar) formalarda təşkil oluna bilər [2-3].

Multimedia əsaslı öyrənmə (animasiyalar, videolar, səsli izahlar), simulyasiya və modelləşdirmə (kimyəvi reaksiyaların vizual təsviri), virtual laboratoriyalar (praktiki təcrübələrin kompüter əsaslı versiyası), müxtəlif cihazlara uyğunluq (kompüter, planşet, smartfon), əlavə dəstək resursları (forumlar, onlayn testlər, video təlimatlar) kimi yanaşmaların kimya təliminə inteqrasiyası yalnız texniki deyil, pedaqoji adaptasiya da tələb edir. Müəllimlərin bu texnologiyaları pedaqoji məqsədlərə uyğun şəkildə tətbiq etməsi uğurlu nəticə üçün həlledici faktordur.

Kimya fənninin tədrisində rəqəmsal metodlara ehtiyac olduqca böyükdür. Bu fənn, struktur baxımından mürəkkəb elmlər məcmusudur. Mövzuların əksəriyyəti molekulyar səviyyədə baş verdiyindən, şagirdlərin və tələbələrin təsəvvür qabiliyyətini inkişaf etdirmək üçün əlavə vizual dəstəyə ehtiyac duyulur. Rəqəmsal alətlər bu boşluğu doldura bilər. Ənənəvi dərslərdə izah edilən məsələlər – məsələn, molekulların quruluşu, reaksiyaların enerjisi, kimyəvi tarazlıq və kinetika kimi mövzular – rəqəmsal modellər və interaktiv simulyasiyalarla daha aydın və maraqlı şəkildə təqdim oluna bilir. Burada, əsas ehtiyac faktorları kimi aşağıdakıları göstərmək olar:

- Abstrakt anlayışların izahı: atom orbitalları, hibrid orbitallar, kvant modelləri və s. tələbələrin vizual təsəvvüründə çətin formalaşır.
- Təhlükəsiz laboratoriya mühiti: bəzi kimyəvi maddələr zəhərli, yanıcı və ya bahalı olduğundan, real laboratoriyada təcrübə aparmaq mümkün olmur.
- Resurs çatışmazlığı: bir çox məktəb və universitet laboratoriyası müasir avadanlıqlarla təchiz olunmadığından, rəqəmsal alternativlər tələb olunur.
- Distant təhsilə uyğunluq: pandemiya dövrü göstərdi ki, təhsil sistemində çevik və uzaqdan tətbiq edilə bilən üsullara ehtiyac var.
- Motivasiya və interaktivlik: rəqəmsal mühit, şagirdin aktiv iştirakını və marağını artırır.

Beləliklə, rəqəmsal metodlar sadəcə seçim deyil, bir çox hallarda zərurətə çevrilir. Bu metodların düzgün tətbiqi həm tədrisin keyfiyyətini artırır, həm də tələbələrin bilikləri mənimsəmə səviyyəsini yüksəldir.

Kimya tədrisində rəqəmsal texnologiyaların tətbiqi çoxşaxəli olmaqla, müvafiq metodlar əsas kateqoriyalara ayrılmışdır:

a) İnteraktiv simulyasiyalar. Məsələn, "PhET Interactive Simulations" platforması vasitəsilə tələbələr molekulyar hərəkəti, qaz qanunlarını və reaksiya balanslarını vizual şəkildə müşahidə edə bilirlər. Bu simulyasiyalar şagirdlərə real eksperimentlərə yaxın təcrübələr təqdim edir.

b) Virtual və artırılmış reallıq. Virtual laboratoriyalar (məsələn, "Labster") tələbəyə 3D reallıqda laboratoriya şəraitində təcrübələr aparmağa imkan yaradır. Augmented Reality (AR) texnologiyaları isə molekulyar quruluşların fiziki mühitdə 3D modeli ilə qarşılıqlı əlaqə yaratmağa imkan verir.

c) Mobil tətbiqlər. Kimya fənninə uyğun hazırlanmış mobil proqramlar – məsələn, "Periodic Table", "Chemistry By Design", "MEL Chemistry" – mövzuların istənilən vaxt təkrar olunmasına şərait yaradır.

d) Onlayn laboratoriyalar və veb əsaslı kurslar. Məsələn, "ChemCollective", "Khan Academy", "Coursera" və "edX" platformalarında kimya üzrə müxtəlif səviyyələrdə dərslər, tapşırıqlar və imtahanlar mövcuddur.

e) Avtomatik qiymətləndirmə sistemləri. LMS (Learning Management System) platformalarında kimya testləri avtomatik qiymətləndirilə bilər. Bu, müəllim üçün iş yükünü azaldır, tələbə üçün isə dərhal geribildiriş yaradır [4-7].

Rəqəmsal kimya təliminə səmərəliliyi sübut olunmuş bir sıra beynəlxalq onlayn platformalar mövcuddur. Bu platformalar həm tələbə, həm də müəllim üçün zəngin resurslar təqdim edir. Aşağıda bunlardan bəzilərinə və onların spesifik üstünlüklərinə nəzər salaq:

PhET Interactive Simulations (University of Colorado Boulder) kimya fənni daxil olmaqla, müxtəlif fənlər üzrə yüzlərlə interaktiv simulyasiya təqdim edir. Həmçinin, istifadəçi interfeysi sayəsində həm məktəb, həm də universitet səviyyəsində tətbiq oluna bilər. Burada, reaksiyaların enerjisi, molekulyar quruluş, həll prosesləri kimi mövzular əhatə olunur. Eləcə də, simulyasiyalar həm online, həm də offline istifadə üçün mövcuddur.

ChemCollective (Carnegie Mellon University) platforması isə, virtual laboratoriyalar və problem əsaslı öyrənmə modulları təqdim edir. Kimyəvi analiz, titrləmə, turşu-əsaslar kimi mövzuların interaktiv dərsliklər və laboratoriya ssenariləri mövcuddur. Platforma, tələbələrə fərdi kimyəvi təcrübələri "risk olmadan" aparmaq imkanı verir.

Labster platforması, real laboratoriyaların 3D modelləşdirilməsi ilə işləyir. Təcrübələr zamanı tələbə kimyəvi maddələrdən istifadə edir, cihazları idarə edir və nəticələri qiymətləndirir. VR texnologiyasından istifadə edildikdə, istifadəçi tam immersiv bir təcrübə yaşaya bilər. Onu da qeyd edək ki, platforma, universitetlərdə yüksək səviyyəli kimya təlimi üçün istifadə olunur.

MEL Chemistry-aylıq təcrübə qutuları ilə birlikdə mobil tətbiq vasitəsilə kimyəvi reaksiyaların izahını təqdim edir. Əlavə olaraq, artırılmış reallıqla molekulları vizual olaraq öyrənmək mümkündür.

Khan Academy və Coursera platforması tətbiqi və nəzəri kimya sahəsində video dərslər, testlər və imtahanlar təklif edir. Burada həmçinin, tələbənin irəliləyişini izləməyə imkan verən fərdi tədris planları təqdim olunur.

Yuxarıda sadalanan platformalar tələbələrin kimya fənninə marağını artırmaqla yanaşı, öyrənmə prosesini fərdiləşdirmək, daha əlçatan və təhlükəsiz mühitdə təcrübələr aparmaq imkanı yaradır.

Artırılmış reallıq (Augmented Reality – AR) və virtual reallıq (Virtual Reality – VR) texnologiyaları təhsildə yeni imkanlar yaratmışdır. Bu texnologiyalar xüsusilə kimya kimi abstrakt və vizual öyrənməni tələb edən fənlər üçün çox effektivdir.

AR texnologiyası vasitəsilə fiziki dünya ilə rəqəmsal obyektlər birləşdirilir. Kimyada bu texnologiya vasitəsilə molekulyar strukturlar 3D formatda vizual şəkildə göstərilir, atom orbitalları, rabitələr və reaksiyalar real məkanda "canlandırıla" bilər. Tələbələr smartfon və ya planşet vasitəsilə müxtəlif molekulyar modellərlə qarşılıqlı əlaqəyə girə bilirlər. Nümunə: "MERGE Cube" kimi cihazlar ilə istifadəçi bir molekulun dövr etməsini və çevrilməsini izləyə bilər.

VR isə, daha immersiv, yəni istifadəçini tam olaraq virtual məkana daxil edən texnologiyadır. Kimya təlimində bu, xüsusilə laboratoriya təcrübələri üçün idealdır. VR vasitəsilə tələbə laboratoriyada sınaq borularından istifadə edə, maddələri qarışdıra və reaksiya nəticələrini analiz edə bilər. Təhlükəli təcrübələr isə, simulyasiya şəklində tədris edilə bilər. Həmçinin, reaktivlərin miqdarı, reaksiya sürəti və digər faktorlar interaktiv şəkildə dəyişdirilə bilər.

Araşdırmalara görə, bu texnologiyaların tətbiqi tələbələrin yaddaşını və konseptual anlayışını 40-60% daha effektiv şəkildə inkişaf etdirir [8].

Rəqəmsal texnologiyaların kimya təlimində istifadəsi çoxsaylı üstünlüklər təqdim etsə də, bu metodların hamı üçün əlçatan olması hər zaman mümkün olmur. Bu da təhsildə rəqəmsal bərabərsizlik anlayışını ön plana çıxarır. Burada əsas problemlər kimi, infrastruktur çatışmazlığı (region məktəblərində internet bağlantısı zəifdir və kompüter texnikası çatışmazlığı mövcuddur), avadanlıq baxımından fərqlilik (mobil telefon, planşet və ya VR cihazlarının alınması hər ailə üçün mümkün deyil), texniki savadsızlıq (şagirdlər, valideynlər və hətta müəllimlər arasında rəqəmsal texnologiyalardan istifadədə ciddi bacarıq fərqlilikləri mövcuddur), dil baryeri (bir çox beynəlxalq platformalar yalnız ingilis dilində olduğu üçün azərbaycanlı istifadəçilər üçün çətinlik yaradır) problemlərini vurğulamaq olar. Onların həll yolları kimi isə, dövlət dəstəyi ilə məktəblərin texniki təchizatının artırılması, lokal dildə hazırlanmış rəqəmsal platformaların inkişafı, müəllim və valideynlər üçün maarifləndirmə təlimlərinin təşkili, qrant proqramları vasitəsilə aztəminatlı ailələrin dəstəklənməsi təklif olunur. Rəqəmsal texnologiyalar yalnız texniki cəhətdən deyil, sosial ədalət baxımından da hər kəs üçün əlçatan olmalıdır. Əks halda, rəqəmsal imkanlar bəzi qrupların təhsil imkanlarını daha da məhdudlaşdırmış olacaq.

Müəllimlərin rəqəmsal bacarıqları və təlim ehtiyaclarına gəldikdə isə, qeyd etmək lazımdır ki, rəqəmsal texnologiyaların təhsilə uğurla inteqrasiyası üçün müəllimlərin bu sahədə yetkin bacarığa malik olması vacibdir. Çünki müəllim yalnız bilik ötürən deyil, eyni zamanda texnologiyanı düzgün yönləndirən bir vasitəçidir. Mövcud vəziyyət isə belədir: Bir çox müəllim rəqəmsal texnologiyalardan əsas səviyyədə istifadə edə bilir (prezentasiya hazırlamaq, Zoom dərsi keçmək və s.). Ancaq interaktiv simulyasiyalar, onlayn laboratoriyalar və AR/VR texnologiyalarından istifadə bacarığı məhduddur. Qeyd etmək lazımdır ki, müəllimlər arasında bu sahədə özünü inkişaf etdirmək istəyənlərin sayı artsa da, lazımi resurslara çıxış çətinliyi var.

Bu istiqamətdə təlim ehtiyaclarını da qeyd etmək səmərəli olardı:

Modul tipli təlimlər: Kimya üzrə spesifik olaraq hazırlanmış rəqəmsal platformalardan istifadə qaydaları.

İnteraktiv metodika: Müəllimlərin dərslərində rəqəmsal öyrənmə ssenariləri qurması üçün metodik dəstək.

Rəqəmsal pedaqogika: Texnologiyanın yalnız istifadə deyil, həm də öyrətmə bacarığına çevrilməsi üçün pedaqoji yanaşmalar.

Sertifikatlaşdırma: Müəllimlərin bu bacarıqları rəsmi şəkildə tanınmalı və karyera inkişafında rol oynamalıdır.

Bu istiqamətdə universitetlər və təhsil nazirlikləri əməkdaşlıq edərək müəllimlərin peşəkar inkişafına yönəlmiş xüsusi proqramlar hazırlamalıdır. Təhsil sistemində innovasiyaların uğurla tətbiqi üçün ilk növbədə müəllimlərin hazır olması vacibdir [9].

Məqalənin təcrübi hissəsi, aparılan elmi və metodik araşdırmalara əsaslanan, yenilikçi təklif xarakteri daşıyır. Belə ki, araşdırmalarımız belə qənaətə gəlməyə imkan verir ki, "Kimya Metaverse" – Virtual və İnteqrativ Kimya Tədris Mühiti tədrisin keyfiyyətli təşkilinə zəmanət verir.

Mövcud rəqəmsal resurslar kimya fənninin öyrənilməsini müəyyən qədər interaktiv etsə də, bu alətlər adətən parçalanmış və məhdud istifadə sahəsinə malikdir. Buna cavab olaraq, biz "Kimya Metaverse" adlı tam inteqrasiya olunmuş, interaktiv və real həyatla əlaqəli bir virtual təhsil mühiti yaradılmasını təklif edirik.

Bəs "Kimya Metaverse" nədir?

"Kimya Metaverse" – 3D virtual reallıq (VR) texnologiyası üzərində qurulmuş, şagirdlərin avatarlarla daxil olub kimya dünyasını "yaşaya bildiyi" bir təhsil kainatıdır. Bu platforma aşağıdakı komponentləri əhatə edəcək:

Virtual Kimya Şəhərciyi: İçərisində laboratoriyalar, zavodlar, ətraf mühit zonaları, atom və molekul parkları olacaq. Hər zona müəyyən mövzunun öyrədilməsi üçün hazırlanacaq.

Eksperimental təcrübə sahələri: Məsələn, turşular və əsasların təsiri ilə bağlı təcrübəni şagird virtual mühitdə fərqli ssenarilərlə sınaqdan keçirə biləcək.

Sənaye simulyasiyası: Şagirdlər gübrə zavoduna daxil olub, orada azotlu gübrənin istehsal mərhələlərini real şəkildə izləyə biləcək. Bu, kimyanın praktik istifadəsini öyrətmək üçün çox güclü vasitədir.

Canlı təbiət zonaları: Ekoloji kimya bölməsi üçün "canlı ekosistemlər" modelinə baxaraq insan fəaliyyətinin kimyəvi təsirlərini analiz edə biləcəklər.

Multiplayer təhsil: Şagirdlər qrupa bölünüb birlikdə tapşırıqlar yerinə yetirəcək, eləcə də müəllim tərəfindən idarə olunan virtual dərslərdə iştirak edə biləcək.

Azərbaycan dilində lokal kontent: Platformanın tədris dili ilkin mərhələdə Azərbaycan dili olacaq, sonradan çoxdilli dəstək əlavə ediləcək.

Haqqında danışdığımız metodun üstünlükləri və təhsil perspektivləri kimi aşağıdakıları qeyd edə bilərik:

- Mətn əsaslı öyrənməni immersiv (batırıcı) öyrənməyə çevirir;
- Kimya fənninin abstrakt anlayışlarını vizuallaşdırır (məs., atom quruluşu, orbitallar, reaksiyaların kinetikası);
- Real həyatla əlaqəni gücləndirir və fənlərarası inteqrasiyanı (STEAM) təmin edir;
- Qrup halında işləmə və sosial bacarıqları inkişaf etdirir;
- Texnologiyanın düzgün istifadəsinə dair təhsil verir.

Bu platformanın reallaşdırma imkanlarına gəldikdə isə, platforma universitetlərin informasiya texnologiyaları və kimya fakültələrinin birgə layihəsi kimi həyata keçirilə bilər. Yerli startaplar və beynəlxalq donor təşkilatların (məsələn, UNICEF, UNESCO, EU4Education) dəs-

təyi ilə ilkin versiya hazırlanaraq pilot məktəblərdə tətbiq oluna bilər.

Problemin aktuallığı. İnkişafımızın ayrılmaz hissəsi olan təhsilimizin dövrün tələblərinə cavab verməsinin təminatı kimi təklif olunan müasir yanaşma dünya praktikasında öz sözünü demişdir. Ölkəmizin bu innovasiyalardan kənarda qalması arzuolunmaz haldır. Düzdür hər bir sahədə yeniliklərin tətbiqi böyük maddi və mənəvi dəstək tələb edir. Lakin düşünəndə ki, bu dəstəyin reallaşması təhsilimizi yalnız inkişafa doğru aparır və yüksək keyfiyyət zəmanəti verir, əlbəttə ki, sərf olunan bütün zəhmət və əziyyətlərə dəyər. Məhz bu nöqteyi nəzərdən apardığımız araşdırmalar və verdiyimiz təkliflər yalnız təhsilimizi dünya standartları səviyyəsində görmək arzusu ilə həyata keçirilmişdir.

Problemin elmi yeniliyi. Təklif etdiyimiz müxtəlif təhsil platformaları və onların reallaşma imkanları tədrisdə uğurlu sıçrayışa səbəb ola bilər. Belə ki, dünya təhsil praktikasında həyata keçirilən bu platformalar yekun etibarilə müsbət nəticələr vermişdir. Əlbəttə ki, hər bir dövlət təhsilini öz milli maraqları üzərində qurmaqla yanaşı, dünya təcrübəsinə də inteqrasiya edir. Təhsil yeganə sahədir ki, onun uğur və nəticələri bəşəriyyətə məxsusdur. Məhz bunu əsas tutaraq, biz də təhsilimizin inkişafını mövcud innovasiyaların tətbiqində görürük. Ona görə də, yenilikçi təklif kimi göstərdiyimiz "Kimya Metaverse" adlı tam inteqrasiya olunmuş, interaktiv və real həyatla əlaqəli bir virtual təhsil mühitinin özəllikləri məqalədə öz əksini tapmış, onun reallaşma imkanları göstərilmişdir. Hesab edirik ki, bu platformanın komponentlərinin həyata keçirilməsi qısa bir müddətdə təhsildə müsbətə doğru nəticələrin əldə olunmasına imkan verəcək və inanırıq ki, həyata keçirilən bu metodlar kimya fənninin nə qədər əhəmiyyətli və real həyatla əlaqəli bir fənn olduğunu öyrəncilərə çatdırmaq üçün real vasitə olacaq və kimyanın elmi əsaslarının mənimsənilməsində onlara kömək edəcək.

Problemin praktik əhəmiyyəti. Rəqəmsal kimya tədrisi və onlayn resurslar təhsil prosesində əvəzsiz bir rol oynayır. Onlar yalnız tələbələrə mövzuları daha dərindən və əyani şəkildə anlamağa kömək etmir, həm də təhsilin daha əlçatan, çevik və təhlükəsiz olmasını təmin edir. Kimya fənni kimi kompleks elmlərin öyrədilməsində rəqəmsal texnologiyaların istifadəsi tələbələrin fənnə marağını artırmaqla yanaşı, dərs müddətindəki iştirak səviyyəsini və mövzuların mənimsənilməsini də yüksəldir. Rəqəmsal texnologiyaların tətbiqi kimya tədrisini daha müasir və dinamik hala gətirir. Lakin bu texnologiyaların tətbiqi yalnız texniki infrastrukturdan asılı deyil, həm də pedaqoji yanaşmaların inkişafını tələb edir. Bu səbəbdən müəllimlərin rəqəmsal metodlarla bağlı biliklərini artırmaq və tələbələrin təhsilini daha da zənginləşdirmək üçün sistemli tədbirlər həyata keçirilməlidir.

Ədəbiyyat:

1. Wu, H. and Shah, P. Exploring Visuospatial Thinking in Chemistry Learning, *Science Education*, 2004, 88(3), pp. 465-492
2. Martin, F. and Bolliger, D. Engagement Matters: Student Perceptions on the Importance of Engagement Strategies in the Online Learning Environment, *Online Learning*, 2018, 22(1), pp. 205-222
3. Wieman, C.; Adams, W. and Perkins, K. PhET: Simulations That Enhance Learning, *Science*, 2008, 322(5902), pp. 682-683
4. Dalgarno, B.; Bishop, A.; Adlong, W. and Bedgood, D. Effectiveness of Virtual Laboratories in Chemistry Education, *Journal of Chemical Education*, 2009, 86(1), pp. 135-139
5. Honey, M. and Kanter, D. Design, Make, Play: Growing the Next Generation of STEM Innovators, *Routledge*, 2013, pp. 223-240
6. Ertmer, P. and Ottenbreit-Leftwich, A. Teacher Technology Change: How Knowledge, Confidence, Beliefs, and Culture Intersect, *Journal of Research on Technology in Education*, 2010, 42(3), pp. 255-284
7. Pyatt, K. and Sims, R. Virtual and Physical Experimentation in Inquiry-Based Science Labs, *Journal of Science Education and Technology*, 2012, 21(1), pp. 133-147
8. Avargil, S.; Herscovitz, O. and Dori, Y. Teaching thinking skills in context-based learning: Teachers' challenges and assessment knowledge, *Journal of Science Education and Technology*, 2012, 21, pp. 207-225
9. Debora, M.; Inna, S. and Ron, B. Teaching Chemistry by a Creative Approach: Adapting a Teachers' Course for Active Remote Learning, *Journal of Chemical Education*, 2021, 98(9), pp. 1-18

Redaksiyaya daxil olub: 10.09.2025.

UOT 372.854

Gülzar Vəsəd qızı Şadlinskaya
Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,
kimya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-8358-5599
E-mail: shadligulzar@yandex.ru
https://doi.org/10.69682/arti.2025.92(5).85-90

KİMYA DƏRSLƏRİNDƏ UNİVERSAL TƏDRİS FƏALİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASI

Gulzar Vasad Shadlinskaya
senior lecturer at Azerbaijan State Pedagogical University
doktor of philosophy in chemistry

FORMATION OF UNIVERSAL EDUCATIONAL ACTIVITIES IN CHEMISTRY LESSONS

Гюльзар Васад гызы Шадлинская
старший преподаватель
Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по химии

ФОРМИРОВАНИЕ УНИВЕРСАЛЬНЫХ УЧЕБНЫХ ДЕЙСТВИЙ НА УРОКАХ ХИМИИ

Xülasə. Məqalədə kimya dərslərində universal tədris fəaliyyətlərinin formalaşdırılması və inkişafı məqsədilə nümunələr təqdim edilmişdir. Bu nümunələrə "fəaliyyət - texnologiya" və "texnologiya – formalaşdırılmış fəaliyyət" baxımından yanaşılaraq, təhsilalanların tədqiqatçılıq fəaliyyətinin təşkili və tətbiqi vurğulanmışdır.

Açar sözlər: *universal tədris fəaliyyətləri, texnologiya, formalaşdırılmış fəaliyyət, tədqiqatçılıq, təhsilalanlar.*

Absract. This article presents examples of the formation and development of universal educational actions in chemistry lessons from the position of "action-technology" and "technology-formed activity". The organization and application of students' research activities is especially noted.

Keywords: *universal educational actions, technology, formed activity, research activities, students.*

Аннотация. В представленной статье показаны примеры формирования и развития универсальных учебных действий на уроках химии с позиции «действие – технология» и «технология – сформированная деятельность». Особо отмечена организация и применение исследовательской деятельности учащихся.

Ключевые слова: *универсальные учебные действия, технология, сформированная деятельность, исследовательская деятельность, обучаемые*

Son onilliklər ərzində təhsilin məqsədləri və onların reallaşdırılması barədə təsəvvürlərdə kəskin dəyişikliklər baş vermişdir. Əsas təhsil nəticələri kimi bilik, bacarıq və vərdişlərin əldə edilməsi ilə yanaşı, təhsilalanları real həyata, aktivliyə, həyati məsələləri uğurla həll etməyə, əməkdaşlığa hazırlaşdıran təlim prosesinə keçidə böyük əhəmiyyət verilmişdir.

Geniş mənada "universal tədris fəaliyyətləri" anlayışı - öyrənmək bacarığı, yəni sub-

yektin yeni sosial təcrübəni şüurlu və aktiv surətdə mənimsəməklə, özünüinkişaf və özünütəkmilləşdirmə qabiliyyətidir.

Dar mənada bu anlayışı təhsilalanların yeni bilik və bacarıqlara müstəqil yiyələnmə (bu prosesin təşkili də daxil olmaqla) qabiliyyətini təmin edən fəaliyyət üsullarının, həmçinin onlarla bağlı tədris işi vərdişlərinin cəmi kimi anlaşıla bilər.

Universal tədris fəaliyyətləri aşağıdakılardan ibarətdir:

1. Şəxsi (təlimi real həyat məqsədləri və situasiyaları ilə bağlayaraq, əhəmiyyətini artırır);

2. Requlyativ (planlama, proqnozlaşdırma, kontrol, korreksiya, qiymətləndirmə);

3. İdraki (simvolik-işarəli, məntiqi daxil olmaqla, problem qoyulması və axtarışı fəaliyyəti);

4. Kommunikativ (əməkdaşlığın planlanması, sualların qoyulması, konfliktlərin həll edilməsi, partnyorun davranışının idarə edilməsi, öz mövqeyini ana dili normalarına uyğun ifadə etmək bacarığı).

Şəxsi fəaliyyət o zaman formalaşır ki, tapşırıqların yerinə yetirilməsi zamanı təhsilalanın problemə qarşı şəxsi fikri əks olunsun və ya öyrənilən materiala münasibəti bildirilsin. Kimyanın tədrisinə, məsələn, kimyəvi bilgilərin məişətdə tətbiqinə aid inşa yazmaqla başlamaq olar, beləliklə, bu biliklərin gələcək həyatda mühüm rolu olduğu aydın olar və öyrənənlərdə kimyadan davamlı biliklərin vacibliyini anlayarlar. Sonralar "Tibbdə məhlulların rolu", "Kimya mənim gələcək peşəmdə", "Yodun mənim sağlamlığında rolu", "Ölkəmizdə neftin emalı və ekologiya problemləri" kimi mövzularda məlumat hazırlamağı tapşırmaq olar.

Requlyativ (nizamlama) fəaliyyət - məqsədlər qoymaq, öz fəaliyyətini planlamaq, kontrol və korreksiya etmək, mənimsəmə dərəcəsini qiymətləndirməklə idraki və tədris fəaliyyətinin idarə edilməsinə imkan yaradır. Tədris fəaliyyətində özünüidarəyə və özününizamlamağa ardıcıl keçid gələcək peşə təhsilinin və özünütəkmilləşdirmənin bazasını təmin edir.

İdraki fəaliyyət lazımi məlumatın tədqiqatını, axtarışını və seçilməsini, onun strukturlaşdırılmasını; öyrənilən məzmunun modelləşdirilməsini, məntiqi fəaliyyət və əməliyyatları, məsələlərin həlli üsullarını əhatə edir.

Kommunikativ fəaliyyət - əməkdaşlıq imkanlarını: partnyoru eşitmək, dinləmək və anlamaq; birgə fəaliyyəti planlamaq və razılaşdıraraq yerinə yetirmək, rolları bölüşmək, birbirini qarşılıqlı kontrol etmək, razılaşmaq, diskussiya aparmaq, fikirlərini aydın nitqlə düzgün ifadə etmək, ünsiyyət və əməkdaşlıq zamanı partnyoruna və özünə hörmət etmək bacarıqlarını təmin edir. Öyrənməyi bacarmaq - həm müəllimlə, həm də yaşıdlarınla effektiv əməkdaşlıq etmək, dialoq aparmağa hazır olmaq və bunu bacarmaq, həll yolları axtarmaq, bir-birinə dəstək olmaq bacarıqları deməkdir.

Kimya fənni yuxarı siniflərdə keçirildiyindən, təhsilalanlar artıq tədris olunan digər dərslərdən müəyyən universal tədris fəaliyyətləri "baza"sına malik olurlar. Bununla yanaşı, kimyanı öyrənərkən təhsilalanlar elementlərin dövri sistemi, kimyəvi çevrilmələr (reaksiyalar), kimya dili – düstur dili kimi unikal biliklərlə rastlaşırlar. Bu biliklərin mənimsənilməsi zamanı təhsilalanlarda bir çox idraki universal tədris fəaliyyətləri formalaşır, requlyativ və kommunikativ universal tədris fəaliyyətlərinin tətbiqi və inkişafı isə onların tədris fəaliyyətinin effektivliyini yüksəldəcək.

Müxtəlif tipli dərslər (yeni biliklərin kəşfi, refleksiya, inkişafetdirici kontrol, ümummetodoloji istiqamətli, tədris ekskursiyası, praktiki, layihə məsələlərinin həlli dərsləri) müxtəlif universal tədris fəaliyyətlərinin formalaşmasına və inkişafına kömək edir.

Yeni biliklərin "kəşfi" dərslərinin formalaşdırdığı bacarıqlar:

İdraki UTF: müxtəlif idraki fəaliyyət növlərinin bacarıq və vərdişlərindən istifadə, ətraf aləmin müxtəlif tərəflərini öyrənmək; kimyəvi informasiyanı əldə etmək məqsədilə müxtəlif mənbələrdən istifadə etmək üçün əsas idraki metodların tətbiqi (informasiyanın analizi, modelləşdirilməsi) bacarıqları ;

Requlyativ UTF: tədris məsələlərinin və onların həlli üsullarının təyin edilməsi bacarığı;

Kommunikativ UTF: nitq mədəniyyətini mənimsəmək, alicənab və açıq formada dialoqun aparılması; həmsöhbətə qarşı diqqət, maraq və hörmət göstərmək bacarıqları.

Refleksiya dərslərinin formalaşdırdığı bacarıqlar:

İdraki UTF: ideyalar yaratmaq və onların reallaşdırılması üçün lazımi vasitələri müəyyən etmək;

Requlyativ UTF: öz fəaliyyətini qoyulan məsələyə və onun reallaşdırılması şərtlərinə müvafiq planlaşdırmaq, nəticələr üzrə mərhələli və yekun kontrol həyata keçirmək, fəaliyyət üsulunu və nəticəsini fərqləndirmək;

Kommunikativ UTF: müxtəlif fikirləri nəzərə almaq və əməkdaşlıq zamanı müxtəlif mövqeləri birləşdirməyə cəhd etmək, öz xüsusi fikir və mövqeyini formalaşdırmaq.

İnkişafetdirici kontrol dərslərinin formalaşdırdığı bacarıqlar:

İdraki UTF: müxtəlif idraki fəaliyyət növlərinin bacarıq və vərdişlərindən istifadə, ətraf aləmin müxtəlif tərəflərini öyrənmək əsas idraki üsulların (sistemli-informasion analiz, modelləşdirmə) tətbiqi; kimyəvi informasiyanı əldə etmək üçün müxtəlif mənbələrdən istifadə etmək;

Requlyativ UTF: öz fəaliyyətini qoyulan məsələyə və onun reallaşdırılması şərtlərinə müvafiq planlaşdırmaq, adekvat retrospektiv dəyərləndirmə səviyyəsində fəaliyyətin icrasını düzgün qiymətləndirmək, bu qiymətləndirmənin və buraxılan səhvlərin əsasında fəaliyyətə lazımi düzəlişlər etmək;

Kommunikativ UTF: müxtəlif fikirləri nəzərə almaq və müxtəlif vəziyyətlərdə əməkdaşlığa cəhd etmək, birgə əməkdaşlıq zamanı razılığa gəlib, ümumi qərar çıxarmaq, öz fəaliyyətini nizamlamaq məqsədilə nitqdən istifadə etmək, partnyorun fəaliyyətinə nəzarət etməyi bacarmaq.

Və əksinə, hər hansı UTF formalaşdırmaq (inkişaf etdirmək) məqsədilə dərsin məzmun hissəsinə bu və ya digər tapşırıqlar əlavə etmək olar.

İdraki fəaliyyətin formalaşdırıldığı tapşırıqlarda şagirdlərə sol tərəfi məlum olan tənliyin reaksiya məhsullarını düzgün taparaq, bərabərləşdirmək, yəni tənliyin sağ tərəfini tamamlamaq təklif edilir. Verilmiş tapşırığı yerinə yetirərkən məhsulları tapmaq üçün şagirdlər:

- Sol tərəfdəki reaksiyaya girən maddələrin kimyəvi tərkibinə görə siniflərini təyin etməli, yəni tərkib – maddələrin təsnifatı arasındakı məntiqi bağlılığı müəyyən etməli;
- Ehtimal edilən reaksiyanın tipini təyin etməli, reaktivlərin keyfiyyəti və kəmiyyəti ilə reaksiyanın tipi arasındakı qarşılıqlı əlaqəni müəyyən etməli;
- İlkin maddələrin tərkibindəki ionların yüklərini nəzərə alaraq, məhsulların tərkibini və miqdarını müəyyən etməli;
- Tənliyin sol və sağ tərəflərini əmsallarla bərabərləşdirməlidirlər.

Kommunikativ fəaliyyətin formalaşdırılması üçün şagirdlərə əməkdaşlıq imkanı yaradan tapşırıqlar verilməlidir. Məsələn, öyrənilən mövzu üzrə terminlərin, elementlərin latınca adlandırılmasının və s. mənimsənilməsini yoxlamaq. Bu zaman eyni masa arxasında əyləşən şagirdlər bir-birinin suallarına cavab verir, cavabları şərh edir və dəyərləndirir, bir-birinə qiymət qoyur, lazım olduqda, partnyorun qiymətini inkar edirlər. Belə tapşırıqlar partnyoru eşitmək və anlamaq, birgə fəaliyyəti planlamaq və razılaşaraq yerinə yetirmək, rolları bölüşmək, bir-birinin fəaliyyətini qarşılıqlı kontrol etmək və razılığa gəlmək bacarıqlarını inkişaf etdirir.

Kommunikativ UTF formalaşdırılması üçün yanaşmalar aşağıdakılardan ibarətdir:

- ✓ Şagirdlərə öz cavabları üzərində düşünmək üçün vaxt vermək;
- ✓ Özünün və şagirdlərin diqqətini yoldaşlarının hər bir cavabına yönəltmək;
- ✓ Düzəlişlər etməmək və fikrini bildirməmək (situasiyadan asılı olaraq);
- ✓ Düzgün olub-olmamasından asılı olmayaraq, bütün fikirlərə dəstək olmaq**;**
- ✓ Şagirdlərə fikir ayrılıqları zamanı yoldaşlarını anlamaq üçün suallar verməyə imkan yaratmaq;
- ✓ Şagirdlərə aydın olmayan ifadələri aydınlaşdırmaq üçün həmin fikrin müəllifinə dəqiqləşdirici suallar vermək;
- ✓ Ünsiyyət zamanı hörmətli və xeyirxah mühit yaratmaq.

Kommunikativ fəaliyyət növləri aşağıdakılardır:

- Müəllimlə və öz yaşıdları ilə tədris əməkdaşlığını planlamaq – iştirakçıların məqsədlərinin, funksiyalarının, qarşılıqlı fəaliyyət üsullarının təyini;
- Sualların qoyuluşu – informasiyanın axtarışında və toplanmasında təşəbbüskar əməkdaşlıq;
- Konfliktlərin həlli – problemin aşkarlanması, identifikasiyası, konfliktlərin alternativ

həlli üsullarının axtarışı və qiymətləndirilməsi, qərarın qəbul edilməsi və reallaşdırılması;

- Partnyorun davranışlarının idarə edilməsi – partnyorun fəaliyyətinin kontrolu, korreksiyası, dəyərləndirilməsi;
- Kommunikasiya məsələlərinə və şərtlərinə müvafiq olaraq öz fikirlərini tam və dəqiqliklə ifadə etmək bacarığı.

Requlyativ fəaliyyətlərin formalaşdırılması məqsədilə özünüyoxlama və qarşılıqlı yoxlama testləri keçirilir. Məsələn, şagirdlər cavablandırdıqları vərəqlərlə mübadilə etməklə, müstəqil, yaxud cütlərlə kiçik qrafiki və ya hərfi testi yoxlayırlar. Düzgün cavab meyarları – şablon bütün siniflə yüksək səslə səsləndirilir, yaxud əvvəlcədən lövhənin qapalı hissəsində yazılır.

Requlyativ UTF diaqnostikası və formalaşdırılması üçün aşağıdakı tapşırıq növləri mümkündür:

- **"**qəsdən səhvlər";
- Təklif edilən mənbələrdə informasiya axtarışı;
- Qarşılıqlı nəzarət;
- Qarşılıqlı imla (M.Q. Bulanovckaya metodu);
- Disput;
- Materialın sinifdə əzbərlənməsi;
- "səhvləri axtarıram"
- Müəyyən problemin kontrol sorğusu.

Təhsilalanların UTF formalaşdırılmasına kömək edən tədris fəaliyyəti növlərindən biri layihə-tədqiqat fəaliyyətidir (cədvəl 1).

Cədvəl 1

Layihə-tədqiqat fəaliyyətinin komponentləri və onlara müvafiq UTF

Fəaliyyət komponentləri	**Məqsəd, vəzifələr və nəticələr**	**UTF**
İnformasiya	Artıq məlum olan biliklər haqqında məlumatlar almaq, onların ümumiləşdirilməsi. Tədqiqat mövzusu üzrə şərhedici icmalın tərtibi.	Tədris ədəbiyyatı ilə iş, sorğu kitabçaları və cədvəllərdən istifadə etmək bacarığı.
Tənqidi-analitik	Mövcud biliklərin analizi və tənqidi dəyərləndirilməsi, tədqiqat mövzusunun tamamilə və ya qismən öyrənilməmiş tərəflərinin aşkarlanması əsasında problemin qoyuluşu. Mövzu üzrə analitik icmalın tərtibi, tədqiqat probleminin və konkret məsələlərin formalaşdırılması.	Təhlil, müqayisə, ümumiləşdirmə, məlumat hazırlamaq bacarığı.
Xüsusi tədqiqat	Nəzəri və eksperimental tədqiqat aparılması. Yeni biliklərin qazanılması və qoyulan problemin həlli.	Eksperimentin planlaşdırılması, onun nəticələrinin proqnozlaşdırılması, səbəb-nəticə əlaqələrinin tapılması, eksperiment və müşahidələr aparmaq, nəticələr çıxarmaq bacarığı.

Translyasiya-tərtibat	Aparılan işin və alınan nəticələrin təsviri ilə məlumatın tərtib edilməsi (elmi mətn).	Ümumiləşdirmə, məlumat hazırlamaq bacarığı, qrafikin qurulması, yeni materialın izahı üçün biliklərin tətbiqi.

UTF formalaşdırılması (fənüstü nəticələrə nailolma dərəcəsi) dərəcəsini dəyərləndirmək üçün növbəti metodik yanaşmadan istifadə edilə bilər (cədvəl 2).

Cədvəl 2

UTF formalaşdırılması dərəcəsinin qiymətləndirilmə göstəriciləri və meyarları

Komponentlər	**Aşağı**	**Orta**	**Yüksək**
1. Müstəqil məqsəd qoymaq bacarığı	Rəhbərlik altında məqsəd qoyur	Təklif edilən bir neçə variant arasından seçməyi bacarır	Müstəqil məqsəd qoymağı bacarır
2. Məqsədə nail olmaq üçün vəzifələri müəyyən etmək bacarığı	Rəhbərlik altında vəzifələri müəyyən edir.	Təklif edilənlər arasında vəzifələrin mərhələlərini müəyyən etməyi bacarır.	Məqsədə nail olmaq üçün vəzifələri müstəqil müəyyən etməyi bacarığı
3. İş planını tərtib etmək bacarığı	Nəzərdə tutulan işi rəhbərlə müzakirə etdikdən sonra iş planını tərtib edir.	Təklif edilən alqoritmə görə plan tərtib etməyi bacarır.	İş planını tərtib etməyi bacarır.
4. Səbəb-nəticə əlaqələrinin təyin edilməsi	Rəhbərlik altında Səbəb-nəticə əlaqələrini təyin edir.	Təklif edilən problemli situasiyanın həlli zamanı Səbəb-nəticə əlaqələrini təyin edir.	Səbəb-nəticə əlaqələrini təyin etməyi bacarır.
5. Nəticələrin formalaşdırılması	Rəhbərlik altında nəticələri formalaşdırır.	Təklif edilən problemli situasiyanın həlli zamanı nəticələri formalaşdırır.	Nəticələri müstəqil formalaşdırır.

Fənlərüstü nəticələrin əldə edilməsi problemləri aşağıdakılardır:

❖ ənənəvi "fənn" təlim sistemi ilə fənüstü yanaşma arasındakı ziddiyyət;

❖ kimya sahəsində fənüstü nəticələrin əldə edilməsinə yönəldilmiş praktiki işlərin olmaması;

❖ "fənüstü nəticələr" arxasınca təqib zamanı kimyadan biliklərin səviyyəsinin əhəmiyyətli dərəcədə düşməsi riski var;

❖ "fənn" və "fənnüstü" anlayışların şüurlu olaraq uyğunlaşdırılması vacibdir.

Fənlərüstü nəticələrə nail olmağın yolları (UTF formalaşdırılması):

✓ Dərs gedişatının yeni sxemlərinin ("problemli dərslər") tətbiqi;

✓ Problemli yanaşmadan tədris komplekti (dərsliklər, metodik tövsiyələr, interaktiv resurslar) kimi istifadə edilməsi;

✓ Yeni tapşırıq formalarının (evristik, tədqiqat) işlənməsi;

✓ Layihə və tədqiqat fəaliyyətinin şüurlu tətbiqi;

✓ Fənn olimpiadalarına fənüstü tərkibin daxil edilməsi.

Problemin aktuallığı. Təhsilalanların universal tədris fəaliyyətlərinə nail olması öyrənmə bacarığının formalaşması sayəsində yeni bilik, bacarıq və səriştələrin müstəqil uğurlu mənimsənilməsinə imkan yaradır. Belə bir imkanın yaranma səbəbi ondan ibarətdir ki, universal tədris fəaliyyətləri – ümumiləşdirilmiş fəaliyyət olaraq, müxtəlif bilik sahələrində təhsilalanlara geniş oriyentasiya imkanları və təlimə qarşı motivasiya yaradırlar. Deməli, universal tədris fəaliyyətlərinə yiyələnməklə müstəqil öyrənmə bacarıqlarının inkişaf etdirilməsi problemin aktuallığıdır.

Problemin elmi yeniliyi. Müxtəlif tipli dərslərdən UTF formalaşdırılmasında istifadə edilməsi bu fəaliyyətlərin davamlı inkişafı üçün geniş imkanlar yaradır. Subyektin özünüinkişafı və özünütəkmilləşdirməsi üçün şüurlu və aktiv olaraq yeni sosial təcrübə qazanmasını; onun mədəni kimliyini, sosial səriştəliyini, tolerantlığını, yeni bilik və bacarıqlara müstəqil yiyələnməsini təmin edən universal tədris fəaliyyətləri problemin elmi yeniliyidir.

Problemin praktik əhəmiyyəti. Şəxsiyyətin inkişafı, hər şeydən əvvəl, öyrədici və tərbiyəedici prosesin əsasını təşkil edən universal tədris fəaliyyətinin formalaşdırılması vasitəsilə həyata keçirilir. Şagirdlərin tədris fəaliyyətinə cəlb edilməsinin, ilk növbədə, onların idraki fəaliyyətinin stimullaşdırılmasında, situasiyanın diqqətlə müşahidə və analiz edilməsində, problemin həlli yollarını axtarıb tapmaqla dünyagörüşlərinin genişləndirilməsində, yaradıcı potensiallarının aşkara çıxarılmasında praktiki əhəmiyyət kəsb edir.

Eyni zamanda onlara özünə inam, çətinliklərdən çəkinməmək kimi hisslər aşılanır.

Ədəbiyyat:

1. Дерябина Н.Е. Системно-деятельностный подход к построению курса органической химии // - Москва: Химия в школе, - 2006. № 9, - с. 15-23.
2. Ярцева С.В. Реализация системно-деятельностного подхода при обучении химии // - Москва: Химия в школе, - 2010. № 6, - с. 23-27.
3. Файзуллина Н.Р. Об использовании в обучении деятельностного подхода // - Москва: Химия в школе, - 2003. № 3, - с. 19-21.
4. Дмитриев С.В. Системно-деятельностный подход в технологии школьного обучения // - Москва: Школьные технологии, - 2003. № 6, - с. 30-39.
5. Шалашова М.М. К методике оценивания химических компетенций // - Москва: Химия в школе, – 2010. № 8, – с.11-15.

Redaksiyaya daxil olub: 12.09.2025.

UOT 372.854

Namiq Tahir oğlu Ağaməmmədov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
elmlər doktoru proqramı üzrə doktorantı,
İsmayıllı rayonu Mücühəftəran kənd E. Həsənov adına tam orta məktəbin direktoru
https://orcid.org/0000-0002-7183-9933
https://doi.org/10.69682/arti.2025.92(5).91-96

RÜTUBƏT VƏ KİMYA SƏNAYESİ MÖVZULARI COĞRAFİYA VƏ KİMYANIN İNTEQRASİYASI KONTEKSTİNDƏ

Namig Tahir Agamammadov
doctorial student in the doctorial program
of the Institute of the Republic of Azerbaijan,
director of the secondary school named Ismayilli district, Muchuhaftaran village named after E. Hasanov

HUMIDITY AND CHEMICAL INDUSTRY TOPICS IN THE CONTEXT OF THE INTEGRATION OF GEOGRAPHY AND CHEMISTRY

Намиг Тахир оглы Агамаммадов
докторант по программе доктора наук
Института Образования Азербайджанской Республики,
директор средней школы имени Э.Гасанова села Муджухафтаран
Исмаиллинского района

ТЕМЫ ВЛАЖНОСТИ И ХИМИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ В КОНТЕКСТЕ ИНТЕГРАЦИИ ГЕОГРАФИИ И ХИМИИ

Xülasə. Modern təhsil sistemləri fənlərarası əlaqələrin genişləndirilməsi və hibrid modellərin təşkili prinsiplərini inteqrativ pedaqoji metodikanın məzmun standartı kimi qəbul edir. Coğrafiyanın məzmun xətləri bir-birinə yaxın olan fənlərlə kompleks tədris modulları əmələ gətirə bilir. Fənlərin mövzular üzrə inteqrasiyası onların mahiyyətinin elmi əsaslarla dərk olunmasını və yeni kompetensiyaların təlim prosesinə tətbiqini mümkün edir. Məqalədə coğrafiya ilə kimyanın inteqrasiyası kontekstində rütubətlilik və kimya sənayesi ilə əlaqəli məsələlər təhlil edilmişdir. Rütubətin iqlim qurşaqları və iqlim tipləri daxilində müxtəlif kəmiyyət göstəriciləri üzrə paylanması Yer kürəsində geokimyəvi və fiziki-coğrafi proseslərə təsir edir. Kimya sənayesinin tədrisi zamanı isə kimyadan öyrənilmiş biliklərin istifadəsi şagirdlərin dərsə motivasiyasını artırır, onların metakoqnitiv bacarıqlarını sintez edir.
Açar sözlər: *coğrafiya, inteqrasiya, rütubət, iqlim diaqramları, kimya sənayesi, elmi-texniki tərəqqi, hidro-kimyəvi xüsusiyyətlər.*

Abstract. Modern education systems accept the principles of expanding interdisciplinary connections and organizing hybrid models as content standards of integrative pedagogical methods. Geography can form complex teaching modules with disciplines that are close to each other in content lines. The integration of disciplines by topics makes it possible to understand their essence on a scientific basis and apply new competencies to the learning process. The article analyzes issues related to humidity and the chemical industry in the context of the integration of geography and chemistry. The distribution of humidity by various quantitative indicators within climatic zones and climate types affects geochemical and physical-geographical processes on the Earth. The use of knowledge learned from chemistry during the teaching of the chemical industry increases students' motivation for the lesson and synthesizes their metacognitive skills.
Keywords: *geography, integration, humidity, climate diagrams, chemical industry, scientific and technological progress, hydro-chemical properties.*

Аннотация. Современные системы образования принимают принципы расширения межпредметных связей и организации гибридных моделей как содержательные стандарты интегративных педагогических методов. География может формировать сложные учебные модули с дисциплинами, близкими по содержательному направлению. Интеграция дисциплин по темам позволяет на научной основе понимать их сущность и применять новые компетенции в процессе обучения. В статье анализируются вопросы, связанные с влажностью и химической промышленностью, в контексте интеграции географии и химии. Распределение влажности по различным количественным показателям в пределах климатических поясов и типов климата влияет на геохимические и физико-географические процессы на Земле. Использование знаний, полученных из химии, при преподавании химического производства повышает мотивацию учащихся к уроку и синтезирует их метакогнитивные навыки.

Ключевые слова: *география, интеграция, влажность, климатические диаграммы, химическая промышленность, научно-технический прогресс, гидрохимические свойства.*

Rütubətin paylanması Yer kürəsində qeyri-bərabər paylanır. Hər bir iqlim qurşağının və iqlim tipinin rütubət və temperatur rejimi var. Rütubət və temperatur rejimi coğrafi ərazidə fiziki-kimyəvi proseslərin baş verməsində fərqliliyə səbəb olur. Aşınma hava şəraitinin və canlıların təsiri ilə süxurların parçalanması ilə nəticələnən fiziki və kimyəvi proses olmaqla, fiziki, kimyəvi və bioloji olmaqla üç yerə ayrılır. Bu bölmədə kimyəvi aşınmanı kimya ilə inteqrasiya edək. Kimyəvi aşınma zamanı süxurların tərkibi dəyişir, yeni süxurlar və minerallar formalaşır. Kimyəvi aşınma əsasən isti və rütubətli iqlim şəraitlərində intensiv baş verir. Kimyəvi aşınmada mineral və üzvi mənşəli maddələr iştirak edir.

Günəş radiasiyası coğrafi təbəqə üçün yeganə istilik mənbəyidir[1, s.15].

İqlim qurşaqları və tipləri iqlim diaqramları vasitəsi ilə təsvir olunur. Burada temperatur və rütubətin il ərzində gedişi verilir. İqlim diaqramları üzrə kimyəvi aşınmanın başvermə intensivliyini təhlil edək. Nəzərə almaq lazımdır ki, hər bir iqlim qurşağının fizika, kimya və biologiya ilə əlaqəli göstəriciləri var (Şəkil 1).



Şəkil 1. Ekvatorial iqlim qurşağının diaqramı

Ekvatorial qurşaqda radiasiya balansının böyüklüyü (il ərzində quru üzərində 70-80 kkal/sm^2; okean üzərində 120 kkal/sm^2-a qədər), yüksək temperatur şəraiti, illik yağıntı miqdarının çox olması, biogeokimyəvi və geomorfoloji proseslərin sürətli olması səciyyəvidir.

İllik temperatur amplitudası aşağıdır (2-3° C), nisbi rütubətlilik 80-90% təşkil edir. Konveksiya ilə əlaqədar yağıntılar buxarlanmadan çoxdur (ildə 1500-3000 mm, dağların küləktutan yamaclarında 10000 mm-ə qədər) və izafi rütubətlənmə əmələ gəlir. R.M. Məmmədov öz tədqiqatlarında qeyd edir ki, iqlim atmosfer-quru-okean sisteminin statistik üçlüyünün bir neçə on ildəki orta qiymətli vəziyyətidir [3, s.12-13].

Subekvatorial iqlim qurşağında iki dövr müşahidə olunur-rütubətli isti yay (ekvatorial hava kütlələrinin təsiri ilə) və quraqlıq dövrü (tropik hava kütlələrinin təsiri ilə). Rütubətli dövrdə kimyəvi proseslər daha intensiv baş verir (Şəkil 2).



a) Şimal yarımkürəsi



Şəkil 2. Subekvatorial iqlim qurşağının diaqramı

Tropik iqlim qurşağı materiklərin sahillərindən isti və soyuq cərəyanların keçməsi səbəbindən iki iqlim vilayətinə ayrılır. Rütubətli tipdə illik yağıntı miqdarı çoxdur, səhra tipində isə yağıntının azlığı və rütubətlənmə əmsalının kiçik olması xarakterikdir. Kimyəvi aşınma rütubətli tip yayılan ərazilərdə müşahidə olunur (Şəkil 3).



Şəkil 3. Tropik qurşağın iqlim tipləri

Təbii komplekslərin transformasiyası və dinamikası, onların təşkil olunduğu təbii komponentlərin xüsusiyyətlərini özündə bəhs etdirir [2, s.16]. Subtropik iqlim qurşağı keçid iqlim qurşağı olmaqla, yayda tropik, qışda mülayim hava kütlələrinin təsirinə məruz qalır. Yayda enən, qışda qalxan hava axınları əmələ gəlir. Şimal yarımkürəsində (musson, kontinental, Aralıq dənizi) və Cənub yarımkürəsində (ilboyu rütubəti bərabər paylanan, kontinental və Aralıq dənizi) iqlim tiplərinə bölünür (Şəkil 4).


Temperatur [°C]
Yağıntı [mm]
Şimal yarımkürəsində subtropik musson iqlim tipi
Şimal yarımkürəsində subtropik kontinental iqlim tipi
İlboyu rütubəti bərabər paylanan subtropik iqlim tipi (Cənub yarımkürəsində)
Şimal yarımkürəsində Aralıq dənizi iqlim tipi

Şəkil 4. Subtropik qurşağın iqlim tipləri

İqlim diaqramlarından görünür ki, musson iqlim tipində yay aylarında, Aralıq dənizi iqlim tipində qış aylarında, ilboyu rütubəti bərabər paylanan tipdə isə ilboyu kimyəvi aşınma prosesi gedir. Lakin kontinental tipdə kimyəvi aşınma üçün şərait yoxdur. Mülayim iqlim qur-

şağı əsas iqlim qurşağı əsas iqlim qurşağıdır, fəsli dəyişkənlik aydın müşahidə olunur, Yer kürəsində ən geniş yayılmış iqlim qurşağıdır (şimal yarımkürəsində daha geniş yer tutur. Şimal yarımkürəsində mülayim-dəniz, mülayim kontinental, kəskin kontinental, musson tipləri, cənub yarımkürəsində isə mülayim-dəniz, mülayim kontinental tipləri əmələ gəlmişdir. Kimyəvi aşınma mülayim-dəniz tipində (mülayim qış, sərin yay, nisbi rütubətliyin yüksək olması, illik temperatur amplitudasının az olması, buludlu günlərin sayının çoxluğu, səpələnən radiasiya xarakterikdir) və musson (yay aylarında) daha sürətli baş verir (Şəkil 5).



Şəkil 5. Mülayim iqlim qurşağının iqlim tipləri

Subarktika iqlim qurşağı şimal yarımkürəsində keçid iqlim qurşağıdır, yayda mülayim, qışda arktik hava kütləri daxil olur. Uzun qış, qısa yay xarakterikdir, illik temperatur amplitudası yüksəkdir, qar örtüyü uzun müddət yerdə qalır. Arktik və antarktik iqlim qurşaqları əsas iqlim qurşaqlarıdır, bir fəsil-qış müşahidə olunur, ilboyu yüksək təzyiq sahəsi və enən hava axınları mövcuddur. Nisbi rütubətlilik yüksək, mütləq rütubətlilik aşağıdır.

Antarktik iqlim qurşağında quru sahə çox olduğu üçün hava şəraiti daha sərtdir. Kimyəvi aşınma proseslərinin getməsi üçün şərait yoxdur (Şəkil 6.).



Subarktika b) Arktik c) Antarktik

Şəkil 6. Subarktika (a), arktik (b) və antarktik (c) iqlim qurşaqları

İqtisadi coğrafiyanın mövzuları üzrə də kimya fənnin inteqrasiyasını aparmaq mümkündür. Kimya sənayesi müxtəlif xammalları kimyəvi üsullarla emal prosesindən keçirərək yeni xüsusiyyətlərə malik məhsullar və gündəlik tələbat malları istehsalı ilə məşğul olan sənaye sahəsi olmaqla çoxsahəlidir. Elmi-texniki tərəqqinin (ETT) təsirinə məruz qalmışdır. İnteqrasiya kimyanın sahələri üzrə də aparılmalıdır ki, şagirdlər mövzuların mahiyyətini tam anlaya bilsinlər. Termiki və rentgen fazasının təhlili fiziki-kimyəvi analizin əsas metodlarıdır [5, s.55]. Kimya sənayesinin xammal bazası genişdir və sahələrinin çoxluğu ilə fərqlənir:

– Mədən kimyası-duz, kükürd, fosforit və apatit hasilatı;

– Əsas kimya-turşu, duz, qələvi, mineral gübrələr;

– Üzvi sintez kimyası-plastik kütlə, kükürd;

– Polimerlər kimyası-süni və plastik materiallar, kimyəvi lif;

– Məişət kimyası-əczaçılıq, məişət kimyası, ətriyyat kimyası.

Kimya sənaye sahələrinin yerləşməsi müəyyən coğrafi amillərin təsirinə məruz qalır. Neft-kimya sənayesi coğrafi mövqedən (məsələn, Xəzər dənizi, Şimal dənizi hövzələri, Volqa-Ural, Qərbi Sibir, Cənub-qərbi Asiya, Meksika körfəzi, Orinoko ovalığı və s.), geoloji quruluş, relyef və iqlim şəraitindən, iqtisadi-coğrafi və siyasi situasiyadan asılıdır. Kimyəvi tərkibli dərman istehsalı əhali sıxlığı(əhali sıxlığı çox olan coğrafi ərazilərdə dərman istehsalı ilə məşğul olan zavodların tikilməsi), əhalinin yaş strukturu (demoqrafik amillər), ərazinin fiziki-coğrafi xüsusiyyətləri (məsələn, yod çatışmazlığı ilə əlaqədar endokrin xəstəliklərin, rütubətli iqlim şəraiti bronxial-astma və ağciyər xəstəliklərinin əmələ gəlməsinə səbəb olur) ilə əlaqəlidir. Müəllim dərs zamanı şagirdlərə statistik göstəricilər əsasında Azərbaycanın iqlim xəritəsi ilə bölgələrdə yayılmış xəstəliklərin coğrafi təhlilini aparmağı təklif edə bilər.

Əsas kimya (azot, fosfor, kalium əsaslı mineral gübrələrin istehsalı) coğrafi ərazilərdə bölgələrin torpaq-landşaft assosiasiyasının kimyəvi gübrələrə ehtiyacı, mineral gübrələrin torpaqların deqradasiyasına təsiri, demoqrafik göstəricilər və ərzaq təhlükəsizliyi ilə intqrasiya olunur. Duzlar-dissosiasiya zamanı kation olaraq metal, anion olaraq turşu qalığı ionları əmələ gətirən elektrolitlərdir[4, s.81].Daş duz və soda istehsalının izahı zamanı duzun kimyəvi tərkibi, onun tətbiq elementləri (soda, kaustik soda, şüşə, sabun və s.) ilə duz yataqlarının yerləşməsi (Naxçıvanda Duzdağ mədəni, Abşeron gölləri, Qaraboğazqol körfəzi, "Ölü" dəniz-göl) və duz yataqları əsasında inkişaf edən sənaye sahələri arasındakı münasibətləri sintez edə bilər.

Kimya sənayesi bəzən başqa sahələrlə də kombinasiya quraraq inteqrasiya qura bilir. Məsələn, meşə sənayesinin iki sahəsindən biri olan meşə-kimya (kağız, karton, skipidar, kanifol, spirt, boya və s.) istehsal edir. Müəllim dünyanın kənd təsərrüfatına uyğun izahat verərkən də kimya ilə əlaqə qura bilər. Gübrələr bitkiləri lazım olan qida elementləri (azot (N), fosfor (P), kalium (K) ilə təmin edir. Müəllim dərs prosesində mineral gübrələrin faydalarını kimya ilə inteqrasiya kontekstində qeyd edə bilər. Azotlu gübrələr (nitrat turşusunun duzu olan ammonium nitrat NH_4NO_3, karbamid (NH_2CONH_2) bitkilərin yarpaq və gövdə inkişafını artırır. Fosfor tərkibli gübrələr (superfosfat) kök inkişafı və çiçəklənmə prosesini sürətləndirir. Kaliumlu gübrələr (kalium sulfat) bitkilərdə xəstəliklərə qarşı müqaviməti artırır, meyvə və toxumu inkişaf etdirir.

Azərbaycanda kimya sənayesinin ən inkişaf etmiş sahəsi neft-kimyadır. Neft-kimya sənayesinin tarixi əhəmiyyəti qeyd edərkən Bakıda ilk neft quyusunun 1846-cı ildə qazılması, "Nobel" və "Rotşild" kimi beynəlxalq şirkətlərin 19-cu əsrdə Azərbaycanda fəaliyyət göstərdiyi barədə məlumat vermək olar. Sovet dövründə yüksək inkişaf edən neft-kimya sənayesi "Azərneft", neft əsaslı kauçuk istehsalı ilə məşğul olan "Sintezkauçuk" sintetik kauçuk zavodu (etilenin (C_2H_4) sulfat turşusu(H_2SO_4) ilə nəmləndirilməsi metodu ilə butadien (C_4H_6) alınmışdır), "Azərikimya" İstehsalat Birliyi müəssisələri inşa olunmuş, nəticədə Sumqayıt şəhəri kimya sənayesinin mərkəzinə çevrilmişdir. Azərbaycanda kimya sənayesi müstəqillik dövründə beynəlxalq neft şirkətləri ilə böyük neft müqavilələrinin imzalanması ilə (xarici sərmayələr və innovativ texnologiyalar əsasında) yeni mərhələyə keçmişdir. Sumqayıt Kimya Sənaye Parkı (SKSP), "SOCAR Polymer" (polietilen və polipropilen), "SOCAR Carbamide Plant" şirkətləri müasir layihələr əsasında fəaliyyət göstərir.

İnteqrasiya aparmaq üçün torpaqlarla əlaqəli mövzular əlverişli seçim ola bilər. Burada diqqət çəkən məqam torpaqların kimyəvi tərkibidir. Təhsilverən izahat üçün qeyd edir ki, torpaq yer qabığının çürüntülərlə zəngin olan üst münbit qatıdır, tərkibi üzvi və qeyri-üzvi maddələrdən təşkil olunmuşdur. Torpağın tərkibində olan üzvi birləşmələr haqqında təhlillərlə dissertasiyanın coğrafiyanın biologiya ilə inteqrasiyası bölməsində tanış olmaq olar. Qeyri-üzvi birləşmələrə-minerallar, su, turşular, duzlar və əsaslar aid olunur. Torpağın tərkibində karbon (C), azot (N), fosfor (P), kükürd (S), silisium (Si), alüminium (Al), dəmir (Fe), kalsium (Ca), sink (Zn), mis (Cu), molibden (Mo), bor (B) kimi kimyəvi birləşmələr torpağın tərkibində onun rənginin, su və havanı saxlama qabiliyyətinin saxlama qabiliyyətinin və məhsuldarlığının müəyyən olunmasında iştirak edir. Turşunun özünün konsentrasiyası, qatılığı az olan sulu məhlullarda güclü turşuların çıxarılması ilə təhlil olunur [6, s.3]. Torpağın tərkibində duzlara da rast gəlinir. Məsələn, kalsium karbonat

($CaCO_3$), natrium-xlorid (NaCl), maqnezium-sulfat ($MgSO_4$) duzları torpaqlarda müxtəlif proseslərə səbəb olur. Bu prosesə torpaqların şoranlaşmasını misal göstərmək olar. Kimyəvi tərkibə torpağın pH (turşuluq və qələvilik) dərəcəsi də aiddir. Bitkilərin yetişdirilməsi üçün pH dərəcəsi önəmlidir (adətən, 6-7 arası) .

Yaxşı olar ki, kimyəvi elementlərin torpağın tərkibində əmələ gətirdiyi nəticələr qeyd olunsun. Şagirdlərə mentor kimyəvi elementlərin funksiyası ilə əlaqədar aşağıdakı kimi istiqamət verə bilər:

-Azot (N)-bitkilərin boy atması üçün vacib element hesab olunur, üzvi maddələr parçalandıqda əmələ gəlir.

-Fosfor (P)-bitkilərdə kök sisteminin inkişafına və enerjinin mübadilə olunmasında iştirak edir.

-Kalium (K)-bitkilərin xəstəliklərlə mübarizə aparmasında mühüm rol oynayır.

-Kalsium (Ca)-torpağın tərkibində pH səviyyəsini nizamlayır, hüceyrə divarlarının formalaşmasını təmin edir.

-Maqnezium (Mg)-fotosintez prosesinin tərkibinə daxildir və xlorofilin tərkib elementidir.

-Kükürd(S)-zülalların sintez olunmasına səbəb olur.

Rütubət anlayışı havanın mühüm elementlərindən olmaqla iqlim zonaları daxilində qiymətləndirildikdə, onun geokimyəvi xarakteri aydın olur, iqtisadi-coğrafi parametrləri daha məqsədəuyğun öyrənilir. Kimya sənayesinin sahələr üzrə inteqrasiyası isə şagirdlərin fənlərarası bilikləri daha dərindən dərk etməsini intensivləşdirir. Kimya sənayesi Elmi-texniki tərəqqinin nailiyyətlərini özündə cəmləşdirir, yeni məhsullar istehsal edir, əhalinin tələbatlarının ödənilməsində mühüm faktora çevrilir.

Problemin aktuallığı. Fənn kurikulumlarının uğurlu tətbiqində müasir yanaşmalardan biri də fənlərarası inteqrasiyanın düzgün və qarşılıqlı formada sinxron təşkilidir. Coğrafiya çoxqütblü fənn olduğu üçün onun məzmununda müxtəlif elm sahələrinin sintezini görmək mümkündür. Ümumtəhsil məktəblərində fənlərin perspektiv planlaşdırılması zamanı mövzulararası əlaqələrin qurulması üçün yaxın situasiyaların müəyyən olunması və paralelliyin aparılması vacib pedaqoji metodlardandır. Rütubət və kimya sənayesi kimi geniş spektrli mövzuların analitikası və kompleksliyi imkan verir ki, coğrafiya və kimya fənləri onları birlikdə öyrənə bilsin. Mövzuların sənaye, kənd təsərrüfatı və nəqliyyatın ərazi üzrə səmərəli yerləşdirilməsi üçün əhəmiyyət kəsb etməsi onun aktuallığını sübut edir.

Problemin yeniliyi. Məqalədə rütubət və kimya sənayesi mövzularının coğrafiya və kimya fənləri kontekstində təhlili və onların inteqrasiyası məsələlərinə diqqət verilmişdir. Kimya və coğrafiya fənləri məzmun xətləri üzrə paralel mahiyyət daşıyır və bu hal onların inteqrasiyasını mümkün edir. İnteqrasiyanın mövzulara görə tədrisi metodikası gələcəkdə sintezli fənn kurikulumlarının formalaşması üçün əsas təşkil edə bilər.

Problemin praktik əhəmiyyəti. Məqalədə rütubətin iqlim qurşaqları və iqlim tipləri daxilində coğrafi olaraq paylanması, göstəricilərin ərazinin geoloji, fiziki və iqtisadi parametrlərinə təsirləri iqtisadi-coğrafi cəhətdən əhəmiyyətlidir. Eyni zamanda kimya sənayesinin sahələr üzrə qruplaşdırılması, onların məzmun əlaqələndirilməsi coğrafiya və kimya fənlərini bir-biri ilə inteqrasiya edir, birinin digərinə təsirini aktuallaşdırır. Hidroloji obyektlərin coğrafi və fiziki-kimyəvi xüsusiyyətləri mövzudaxili assosiasiyanı zəruri edir, istehsalın səmərəli yerləşdirilməsi kimi vacib elementlərin düzgün öyrənilməsini təmin edir.

Ədəbiyyat:

1. Qurbanzadə, A.A. Meteorologiya və iqlimşünaslıq / A. Qurbanzadə. -Bakı: Kooperasiya,-2006.-56 s.
2. Quliyeva S.Y. Arid və semiarid dağ geosistemlərində səhralaşma/ S. Quliyeva. Victory nəşriyyatı,-2011.-182 s.
3. Məmmədov R.M. İqlim dəyişmələri: mif və reallıqlar // Elm.-2013.-23 yanvar.-S.12-13.
4. Nəsibov, İ.O. Ümumi kimya/ İ.O. Nəsibov, T.İ. Sultanov. - Bakı: Adiloğlu,- 2001.-468 s.
5. Тамм, М.Е. Неорганическая химия: В 3 т. /Т.1:Физико-химические основы неорганической химии. М.Е.Тамм, Ю.Д.Третьяков -Москва:«Академия», 2004.-240 с.
6. Superacid chemistry/ George A. Olah, Arpad M, G.K. Surya [and others]- Hoboken: Wiley, 2009.-850 p.

Redaksiyaya daxil olub: 18.09.2025

UOT 372.854

Aypara Cəbrayıl qızı Mahmudova
Gəncə Dövlət Universitetinin
fəlsəfə doktoru proqramı üzrə dissertantı
https://orcid.org/ 0000-0003-2781-8534
E-mail:aypara_mahmudova@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(5).97-100

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ KİMYA DƏRSLƏRİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ EKSPERİMENTAL BACARIQLARIN FORMALAŞDIRILMASI METODİKASI

Aypara Jabrayil Mahmudova
doctorial student in the program of doctor of philosophy
of Ganja State University

METHOD OF FORMING EXPERIMENTAL SKILLS IN STUDENTS WHEN TEACHING CHEMISTRY IN SECONDARY SCHOOLS

Айпара Джабраил гызы Махмудова
диссертант по программе доктора философии Гянджинского Государственного Университета

МЕТОДИКА ФОРМИРОВАНИЯ ЭКСПЕРИМЕНТАЛЬНЫХ УМЕНИЙ У УЧАЩИХСЯ ПРИ ПРЕПОДАВАНИИ ХИМИИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

Xülasə. Məqalədə ümumtəhsil məktəblərində şagirdlərin kimyadan praktik, və eksperimental bacarıqların yoxlanılması və formalaşdırılması yolları təhlil edilmişdir. Kimyadan müstəqil işlərə çox vaxt ayırdıqda şagirdlər müstəqil həyatlarında onlara lazım olacaq bilik və bacarıqlara yiyələnə bilərlər. Müəllif qeyd edir ki, praktik və laboratoriya işi o zaman tamamlanmış hesab edilir ki, şagirdlərin işlədikləri yer, praktik işin başlamadığı vəziyyətdəki kimi olsun. Bu ilk praktik və laboratoriya işində şagirdlərə veriləcək məcburi qayda olmalıdır. Bu da praktiki iş zamanı təhsil alanların sonrakı praktik işlərinə çox güclü formada təsir etməlidir.
Açar sözlər: *müstəqil ev işləri, maddə, bacarıq, vərdiş , praktik işlər, qiymətləndirmə*

Abstract. This article analyzes methods for assessing and developing students' practical and experimental skills in chemistry in secondary schools. By devoting sufficient time to independent chemistry work, students acquire the knowledge and skills they need for independent living. The author notes that practical and laboratory work is considered complete when the students' workspace remains the same as it was before the start of their practical work. This should become a mandatory rule that should be communicated to students during their first practical and laboratory work. This should also have a significant impact on students' subsequent practical work during their practical work.
Key words: *independent homework, substance, skill, ability, practical work, assessment*

Аннотация. В статье анализируются способы проверки и формирования практических и экспериментальных навыков учащихся по химии в средних общеобразовательных школах. Уделяя достаточно времени самостоятельной работе по химии, учащиеся приобретают знания и умения, необходимые им в самостоятельной жизни. Автор отмечает, что практические и лабораторные работы считаются завершенными, когда место, где работают учащиеся, остается таким же, каким оно было до начала практики. Это должно стать обязательным правилом, которое следует донести до учащихся при выполнении первых практических и лабораторных работ. Это также должно оказать существенное влияние на последующую практическую работу учащихся во время прохождения практики.
Ключевые слова: *самостоятельная домашняя работа, вещество, умение, навык,*

практическая работа, оценивание

Ümumtəhsil məktəblərində kimyanın tədrisi prosesində şagirdlərdə tədqiqatçılıq qabiliyyətinin formalaşması kimyadan ilk dərsdən başlanmalıdır. Kimya tədrisində şagirdlərin müstəqil işlərinin təşkili onların bilik, bacarıq və vərdişlərinin inkişafına şərait yaratmaqla yanaşı, kimya fənninə marağın artmasına səbəb olur. Kimya dərslərində laboratoriya işlərinin əhəmiyyətinin mənimsənilməsində şagirdlərin müstəqil işlərinin təşkili və həyata keçirilməsinin mahiyyətini nəzərə alaraq bu istiqamətdə elmi-tədqiqat işi aparmağı, ümumtəhsil məktəblərində kimya müəllimlərinə müəyyən qədər kömək edə bilən metodik vəsait vacib hesab edilir. Kimyadan laboratoriya işləri şagirdlərin kimya fənninə olan maraqlarına, müstəqil iş formaları və arzularına əsaslanaraq müxtəlif formalarda təşkil olunur və tətbiq edilir. Kimya dərslərində şagirdlərdə fənnə davamlı maraq oyatmaq, bilikləri möhkəmləndirmək, dərk etmə qabiliyyətini yüksəltmək və müstəqil olaraq bilik əldə etmək bacarıqlarını formalaşdırmaq məqsədilə laboratoriya işlərinin həyata keçirilməsi olduqca əhəmiyyətlidir. Ümumiyyətlə laboratoriya işləri şagirdlərin müstəqilliyinin tədricən artırılması prinsipi üçün istifadə olunan bir sistemdir. Şagirdlər kimyadan müstəqil laboratoriya işləri həyata keçirməklə kimyəvi maddələrin fiziki-kimyəvi xassələrinin onların alınması üsullarının tədqiqatında böyük müvəffəqiyyətlər əldə edə bilərlər. Kimyadan müstəqil işlərə çox vaxt ayırdıqda şagirdlər müstəqil həyatlarında onlara lazım olacaq bilik və bacarıqlara yiyələnə bilərlər. Eksperimental bacarıq və vərdişlərin yoxlanılması, şagirdlərin praktik və laboratoriya işləri yerinə yetirdiyi zamanı, həmçinin ekskursiya, kinofilmlərin və diapozitivlərin nümayişi zamanı müəllimin müşahidəsi altında aparılır. Şagirdlərin apardıqları işlərin bu cür müşahidəsinin nəticələrini müəllim laboratoriya jurnalında həmişə qeyd edir. Nəzərə alsaq ki, şagird praktik işə yüksək həvəslə və sürətlə qoşulmaq istəyir, lakin praktik işin icrasına ayrılmış zamanın məhdudsuzluğu laboratoriyada əla psixoloji mühit yaradır və praktik iş yaxşı nəticələnir. Praktik iş tamamlandıqdan sonra hər bir şagird öz iş stolunu laboranta deyil (bəzən olar) müəllimə təhvil verməlidir. Bunun bilinməsi üçün yaxşı olardı ki, şagirdlər laboratoriya jurnalında yazsınlar və ya praktika jurnalında qeyd etsinlər. Laboratoriya və praktik işlərin ən mühüm elementi, icra edilmiş işin hesabatının tərkibi və laboratoriya jurnalının doldurulmasıdır. Praktik və laboratoriya işlərinin kollektiv şəkildə icra edilməsinə baxmayaraq, laboratoriya jurnalı fərdi qaydada ciddi şəkildə doldurulmalıdır.

Praktik və laboratoriya işi o zaman tamamlanmış hesab edilir ki, şagirdlərin işlədikləri yer, praktik işin başlamadığı vəziyyətdəki kimi olsun. Bu ilk praktik və laboratoriya işində şagirdlərə veriləcək məcburi qayda olmalıdır. Bu da praktiki iş zamanı təhsil alanların sonrakı praktik işlərinə çox güclü formada təsir etməlidir.

Həyata keçirilmiş praktik və laboratoriya işinin hesabatı dərs zamanı sinifdən kənar şəkildə müstəqil və fərdi qaydada aparılmalıdır. Formalaşmış hesabata tərtib edilmiş ciddi elmi məqalə kimi yanaşmaq məqsədə müvafiqdir. Bu metod şagirdlər üçün daha faydalı olar. İşi icra edən şagird öz hesabatını standart təmiz ağ vərəqdə yazır və növbəti praktik işədək yoxlanılması üçün müəllimə təhvil verir.

Müasir dövrdə müxtəlif metodik ədəbiyyatlarda kimyəvi bacarıq və vərdişlərə aşağıdakılar şamil edilir: 1) laboratoriya avadanlıqları ilə davranma, maddələrin alınması və təyini üzrə təcrübələr aparmaq bacarığı – praktik bacarıq və vərdişlər; 2) Hesabatlar hazırlamaq, təcrübələrin və sxemlərin təsviri; 3) təmizlik, vaxta qənaət, əməyin təşkili bacarığı və vərdişi.

Onu da qeyd etmək lazımdır ki, müəllimin müşahidəsi zamanı şagirdlərin müstəqil işlərinə hökmən fərdi yanaşma lazımdır. Müşahidənin məqsədi – yalnız biliyin, şagirdin bacarıq və vərdişlərinin yoxlanılması deyil, həm də tədris işində zamanında onlara kömək etməkdir.

Bəzi hallarda müəllim dərs zamanı şagirdlərin apardıqları təcrübi işlərinə və yerindəcə cavabına müşahidəyə əsasən dərsə görə daha çox bal verməyə üstünlük verirlər. Bizim yanaşmamıza əsasən dərsə görə bal vermək yalnız 7-ci və 8-ci sinif şagirdləri üçün mümkün ola bilər. 9-cu, 10-cu və 11-ci siniflərdə isə şagirdlərin işini müşahidə ilə yanaşı yazı lövhəsində şagirddən şifahi sorğu-sual aparmaq məqsədə müvafiqdir. Çünki bu şagirdə yerindəcə qısa cavab verməyi deyil, həm də materiallar sistemini müstəqil olaraq ifadə etmək bacarığını öyrədir.

Şagirdlərin praktiki bacarıq və vərdişlə-

rinin, biliyinin üzə çıxarılması üçün şagirdlərin müstəqil işlərinin bir neçə növünü araşdıraq.

Laboratoriya məşğələnin əsas məqsədi – nəzəriyyədən alınan bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsidir. Bəzi hallarda müəllimlər laboratoriya işlərini yalnız hesabat əsasında qiymətləndirir. Qeyd etmək lazımdır ki, laboratoriya işləri haqqında hesabatı evdə yazmağa icazə verilməlidir, çünki, şagirdlər laboratoriya işlərini həmişə müstəqil yerinə yetirmirlər.

İşin qiymətləndirilməsi müəllimin müşahidəsi əsasında və şagirdin hesabatı əsasında aparılmalıdır. Praktiki işin gedişi zamanı şifahi qüsurlar tutulması baxmayaraq ki, xeyirlidir, lakin həmişə məqsədə çatmır, belə ki, yaddan çıxa bilər. Bir sıra müəllimlər ayrı-ayrı işlər üzrə bacarıqlar sırası işləyir və işin gedişi zamanı bu bacarıqları müşahidə edərək qeyd edir. Müəllim gündəliyinə şagirdin filtr hazırlamağı, spirt lampasını söndürməyi bacarmamasını, maddə ilə davranmaq qaydalarını bilmədiyini, qaz lampasında (və ya spirt lampasında) maddəni düzgün qızdırmamasını, dəmir ştativdən istifadə edə bilməməsini qeyd edir.

Müşahidəni asanlaşdırmaq və vaxta qənaət etməyə imkan verən müşahidə nəticələrini qeyd etməyi təşkil etmək üçün müəllim müxtəlif sxemlər tətbiq edir. Məsələn: 1) şagirdin familiyası; 2) evdə işə əvvəlcədən hazırlaşmasını; 3) işin yerinə yetirilməsi texnikası; 4) hesabatın keyfiyyəti (məzmunu, reaksiya tənliyi, qeydlər, nəticə); 5) ümumi əmək mədəniyyəti (təmizlik, ehtiyatlılıq).

Müəllim hansı şagirdləri qiymətləndirəcəksə onları əvvəlcədən seçir və işin gedişi zamanı onların işlərini daha diqqətli müşahidə edir, dərsin sonunda dəftərlərini yığır və eksperimentin keyfiyyətinə diqqət yetirərək jurnalında onları qiymətləndirir

Biliyin, bacarıq və vərdişlərin qiymətləndirilməsi və yoxlanılmasında müstəqil laboratoriya işinin rolu daha böyükdür. Onları fərdi tapşırıq şəklində təşkil etmək xüsusi əhəmiyyətə malikdir. Bu da hər bir şagirdin işini qiymətləndirmək şəraiti yaradır. Belə qiymətləndirmə yuxarı sinif şagirdlərində daha çox maraq oyadır, lakin aşağı siniflərdə də istifadə etmək olardı. Müstəqil laboratoriya işini qiymətləndirən zaman hesabatın məzmunu deyil, təcrübənin aparılması keyfiyyəti nəzərə alınmalıdır. Şagirdlər müstəqil olaraq praktik iş icra edərkən kimya kabinetində ehtiyatlı olmalı, müəllim və ya laborantın tapşırıqlarına diqqətlə əməl etməlidirlər, işlədikləri stolda təmizliyə riayət etməli və müəllimin tapşırığı ilə müdafiə vasitələrindən istifadə etməlidirlər.

Şagirdlər laboratoriya işi yerinə yetirməyə xüsusi maraq göstərirlər. Bu işlərin məqsədi təchizat materiallarını yoxlamaq, cihaz quraşdırmaq, təcrübəni aparmaq bacarığını yoxlamaqdır. Praktiki işin məzmunu maddənin alınması, eksperimental tapşırığın həlli və s. ola bilər.

Laboratoriya işləri aparan zaman sinfin ümumi işinə müşahidədən başqa 5-6 şagirdin işinə xüsusi nəzarət etmək təklif olunur. Müşahidə nəticələrini müəllim qeyd etməsi üçün verilmiş laboratoriya işləri üçün bir sıra əməliyyatlardan ötrü kartoçkalar hazırlayır, müşahidə qeydlərini sürətləndirmək üçün hər bir əməliyyatın aparılma nəticəsini göstərən şərti işarələrdən istifadə edir. Müşahidə qeydlərini aparan zaman kartoçkadan aşağıdakı formada istifadə edilmişdir.

Praktik bacarıqların qiyməti şagirdlərin hesabatlarının yoxlanılması zamanı praktiki işlərin ümumi qiymətinə daxildir.

Praktik bacarıq və vərdişlərin müəyyənləşməsi zamanı ən azı 5-7 şagirdin ayrıca qiymətləndirilməsi daha çox məqsədə uyğundur.

Kimyadan növbəti müstəqil işlərin aparılması zamanı praktiki işləri aparmaq üçün digər şagirdləri seçməli və müəllimin onların işlərini müşahidə etməsi məqsədə uyğundur. Bəzi növbəti praktiki işlərdə yoxlamaq üçün az müvəffəqiyyətli şagirdləri müşahidə etmək olar.

Müstəqil praktiki laboratoriya işləri müşahidə etmək üçün keyfiyyət təyini tapşırıqlarını daxil etməyi təklif edir.

Müəllim şagirdlərin yerinə yetirəcəyi təcrübələrdəki əməliyyatları müşahidə etmək üçün yuxarıdakı formada kartoçka tərtib edir.

İş bitdikdən sonra bütün şagirdlərin hesabatları yoxlanılır. Kontrol yoxlama işinə görə hər bir şagirdə yalnız hesabatını yoxlanılmasına görə deyil, həm də müəllimin müşahidəsi əsasında qiymət verilir. Əgər şagird qeyrikafi qiymət almışsa, müəllim bu işi təkrar yerinə yetirməyi tapşırır.

Laboratoriya işlərinin yoxlanılması və qiymətləndirilməsi müşahidə əsasında şagirdlərin praktiki işlərinə və suallara cavablarına görə

aparılır. IX sinif üzrə "sulfat turşusunun kimyəvi xassələri" mövzusu üzrə dərsi misal göstərək.

Müəllim lövhədə laboratoriya işinin mövzusunu yazır, reaktivlərlə işləmə qaydalarına, laboratoriya stolunun təmizliyinə diqqət yetirməyi tapşırır, işin məqsədini izah edir və tapşırığı lövhədə yazır.

Təcrübə 1. Sınaq şüşəsində bir qədər mis(II)oksid götürün və üzərinə sulfat turşusu əlavə edin, sınaq şüşəsini qızdırın.

Təcrübə 2. Sınaq şüşəsinə bir qədər lakmus məhlulu tökün və üzərinə 3-4 ml sulfat turşusu əlavə edin.

Təcrübə 3. Sınaq şüşəsində bir qədər NaOH məhlulu götürün və üzərinə sulfat turşusu tökün.

Təcrübə 4. Sınaq şüşəsinə sulfat turşusu tökün və üzərinə sink parçası əlavə edin. Ayrılan hidrogenin təmizliyini yoxlamaq üçün onu yandırın.

Müəllim aşağıdakı suallarla sinfə müraciət edir: bizim birinci təcrübənin məqsədi nədir? Adı çəkilmiş şagird tapşırığı necə yerinə yetirəcəyi haqqında danışır. Bundan sonra bütün şagirdlər tapşırığı qurtardıqdan sonra, müəllim sınaq şüşələrini ştativə qoymağı tapşırır. Həmin şagirdlərdən yenə soruşur: "reaksiya zamanı siz nə müşahidə etdiniz? Nə üçün lakmusun rəngi dəyişdi? Hansı maddələrə indikator deyilir? Verilmiş təcrübədən hansı nəticə çıxarmaq olar?"

Nəticə çıxarıb, alınan nəticəni şagirdlərin dəftərinə yazmağı müəllim tapşırır və ikinci təcrübəni şagirdlərə izah edərək, aşağıdakı sualları verir: "Verilmiş təcrübənin məqsədi nədir?" Növbəti şagirdi lövhəyə çağıraraq, verilmiş tapşırığı necə yerinə yetirəcəyini soruşur. Şagird onu yerinə yetirir.

Müəllim sinifdən soruşur: "Siz nə müşahidə etdiniz? Hansı nəticəyə gəlmək olar? Reaksiyanın tənliyini lövhədə biriniz yazın. Hansı maddələr duzlar adlanır?" Sonra şagirdlərə nəticəni dəftərlərində yazmağı tapşırır.

Müəllim növbəti tapşırığı izah etməyə başlayır: "Təcrübənin məqsədi nədir?" Müəllim üçüncü şagirddən tapşırığı necə yerinə yetirəcəyini soruşur. Şagird verilmiş tapşırığın yerinə yetirilməsi zamanı lazım olan qaydaları izah edir. Təcrübəni apardıqdan sonra müəllim həmin şagirdi lövhəyə çağırır: "Siz təcrübə zamanı nə müşahidə etdiniz? Reaksiyanın tənliyini lövhədə yazın". Digər təcrübədə bu planlar ardıcıllığı ilə aparılır.

Sonra müəllim şagirdlərin qeydlərini yazmağı və dəftəri yığışdırmağı tapşırır.

Sonda bütün işi ümumiləşdirmək üçün suallar verir: Sulfat turşusu hansı maddələrlə reaksiyaya daxil olur? Duru sulfat turşusunun kimyəvi xassələri barədə hansı ümumi nəticəyə gəlmək olar?

Bu dərsin sonunda müəllim altı şagirdə onların işlərinə müşahidə nəticəsində

və lövhədəki cavablarına əsasən qiymət yaza bilər.

Problemin aktuallığı. Məqalə müasir dövr eləcə də müasir tədris üçün çox aktual bir mövzudadır. Ümumtəhsil məktəblərində "Kimyanın tədrisi prosesində Şagirdlərdə eksperimental bacarıqların formalaşdırılması laboratoriya işlərinin aparılmasında müxtəlif cətinliklərlə üzləşirlər. Problemlərin aradan qaldırılması, və bu yönlü məsələlərin həllində istifadə oluna bilən variantların tətbiqi baxımından məqaləni aktual hesab edə bilərik.

Problemin elmi yeniliyi. ondan ibarətdir ki, ümumtəhsil məktəblərində şagirdlərin eksperimental bacarıqlarının formalaşdırılmasında laboratoriya işlərinin həyata keçirilməsi zamanı müxtəlif üsulların zəruri yolları göstərilmişdir.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Kimya dərslərinin tədrisində ümumtəhsil məktəblərində laboratoriya işlərinin müstəqil həyata kecirilməsi şagirdlərdə biliklə yanaşı eksperimental bacarıqların formalaşmasına onların müstəqil yaratmaq bacarığının inkişafina o cümlədən motivasiya yaratmaq, yeni bilik bacarıq və vərdişlərin formalaşmasına səbəb olur. Verilən tövsiyələrdən bu sahədə fəaliyyət göstərən müəllimlər, eləcə də tələbələr istifadə edə bilərlər.

Ədəbiyyat:

1. Вивюрский В.Я. Из опыта проверки домашних заданий с помощью эпидиаскопа. //Химия в школе, -1974, №3, - с. 62-68.
2. Глориозов П.А. Письменная проверка знаний учащихся. //Химия в школе, -1974, №3, -с.12-16.
3. Глориозов П.А. Устная проверка знаний. // Химия в школе. -1973, №1, -с. 24-30.
4. Дудко М.Г. Использование типовых задач – карточек. //Химия в школе, -1970, №3, -с. 42-46
5. Дудко М.Г. Из опыта проверки знаний. //Химия в школе. -1972, №3. -с. 33

Redaksiyaya daxil olub:17.09.2025

UOT 372.857

Xoşqədəm Qonaq qızı İbrahimova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-5987-3346
E-mail: xosqedem.ibrahimova59@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).101-105

BİOLOGİYA DƏRSLƏRİNDƏ UNİVERSAL ÖYRƏNMƏ FƏALİYYƏTİNİN FORMALAŞDIRILMASI

Khoshgadam Gonag Ibrahimova
associate professor
of Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy,

FORMATION OF UNIVERSAL LEARNING ACTIVITIES IN BIOLOGY LESSONS

Хошгедам Гонаг гызы Ибрагимова
доцент
Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ФОРМИРОВАНИЕ УНИВЕРСАЛЬНОЙ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ НА УРОКАХ БИОЛОГИИ

Xülasə. Müasir ümumi təhsil sisteminin ən mühüm vəzifəsi şagirdlərə öyrənmək, inkişaf etdirmək və təkmilləşdirmək bacarıqlarını təmin edən universal təhsil fəaliyyətinin formalaşdırılmasıdır. Şagirdlərin universal öyrənmə fəaliyyətinə yiyələnməsi mənimsəmə prinsipini, yəni öyrənmək bacarığını əhatə etməklə müstəqil, uğurla yeni bilik, bacarıq və vərdişlər əldə etməyə imkan verir.
Açar sözlər: *universal öyrənmə fəaliyyəti, şəxsi, tənzimləyici, idraki, kommunikativ, məntiqi, anlayış, motiv*

Abstract. The most important task of the modern general education system is the formation of universal educational activities that provide students with the skills to learn, develop and improve**.** Universal learning activities create the opportunity for independent successful acquisition of new knowledge, skills and competencies, including the organization of acquisition, that is, the ability to learn.
Key words*: universal educational activity, personal, regulatory, cognitive, communicative, logical, understanding, motive*

Аннотация**.** Важнейшей задачей современной системы общего образования является формирование универсальных учебных действий, обеспечивающих учащихся умениями учиться, развиваться и совершенствоваться. Универсальные учебные действия создают возможность самостоятельного успешного усвоения новых знаний, умений и компетентностей, включая организацию усвоения, то есть умения учиться.
Ключевые слова*: универсальная учебная деятельность, личностная, регулятивная, познавательная, коммуникативная, логическая, понимание, мотив*

Fəaliyyətlərə əsaslanan təlim texnologiyası şagirdlərin təhsil və idrak fəaliyyətinə daxil olmasını təmin edir. Bu yanaşma ilə şagird sadəcə bilik əldə etmir, onu öz fəaliyyəti prosesində "kəşf edir". Öyrənmək bacarığı şagirdlərin fənn biliklərini mənimsəməsinin səmərəliliyinin artırılmasında, bacarıq və səriştələrin, dünyagörüşünün, şəxsi mənəvi seçiminin dəyər-semantik əsaslarının formalaşmasında mühüm amildir.

Təlim mühitinin universallığı, müxtəlif öyrənənlər üçün uyğun olan və onların fərqli ehtiyaclarına cavab verən təlim mühiti yaratmaq prosesini ifadə edir. Təlim mühitinin universallığı ilk öncə bütün şagirdlər üçün ədalətli və əlçatan diferensial təlim mühitinin yaradılmasını nəzərdə tutur. Universal öyrənmə fəaliyyətləri öyrənmə bacarıqlarını təmin edən ümumiləşdirilmiş fəaliyyətlərdir. Ümumiləşdirilmiş fəaliyyətlər geniş aid edilmə ilə xarakterizə olunur, yəni hər hansı bir mövzunun konkret materialı əsasında formalaşan ümumiləşdirilmiş fəaliyyətlər digər fənlərin öyrənilməsində istifadə edilə bilər.

Universal öyrənmə fəaliyyətinin funksiyaları:

• Şagirdin fənlər üzrə müstəqil şəkildə yeni biliklər əldə etmək, təlim məqsədləri qoymaq, onlara nail olmaq üçün lazımi vasitə və üsulları axtarmaq, istifadə etmək, fəaliyyət prosesinin nəticələrini izləmək və qiymətləndirmək bacarığını təmin etmək;

• Şəxsiyyətin ahəngdar və hərtərəfli inkişafı üçün şərait yaratmaq, məktəblilərə gələcək özünüdərkdə kömək etmək, davamlı öyrənmə bacarıqları və hazırlığı formalaşdırmaq, yetkinlik dövründə özünütəhsil və yeni biliklərin uğurla mənimsənilməsi üçün maneələri aradan qaldırmaq;

•Öyrənmək bacarığı təkcə təhsilinin səmərəliliyini artıran amil deyil, həm də dünyanın vahid mənzərəsinin, vətəndaşlıq və mənəvi dəyərlərin formalaşdırma vasitəsidir [5, s. 26].

Universal öyrənmə fəaliyyətinin əsas növləri dörd qrupa bölünür: şəxsi, tənzimləyici, idraki və kommunikativ.

Şəxsi universal təlim fəaliyyətinin nəticələri aşağıdakı bacarıqlardır:

1. Situasiyaları və hərəkətləri qiymətləndirmək:

•əxlaqi normaları əsas götürərək, davranışları "yaxşı" və ya "pis" kimi qiymətləndirmək:

• ümumbəşəri və milli dəyərlərə, o cümlədən insanlığa, əməyə və mədəniyyətlərə hörmət;

• "yaxşı şagird" rolunu oynamağın vacibliyi, yeni bilik öyrənmək və öyrənməyin vacibliyi;

• insan sağlamlığına və təbiətə qayğılı münasibətin vacibliyi;

• təhsilin, sağlam həyat tərzinin, təbiətin gözəlliyi və yaradıcılığın əhəmiyyəti;

2. Qiymətləndirmə, motiv və məqsədlərin mənasını izah etmək:

•mübahisəli hərəkətlər daxil olmaqla müsbət və mənfi qiymətləndirmələri ümumbəşəri və milli dəyərləri baxımından izah etmək;

•müxtəlif dünyagörüşlərin və cəmiyyətdəki müxtəlif qrupların nümayəndələrinin eyni situasiyaya və ya hərəkətlərə verdiyi qiymət fərqlərini izah etmək.

3. Özünün həyat dəyərlərini müəyyən etmək və hərəkətlərinə görə məsuliyyət daşıyaraq onlara uyğun davranmaq (şəxsi mövqe, vətəndaş mövqeyi)

• xalqının və ölkəsinin tarixi, mədəniyyəti, taleyi ilə nəyi bağladığını izah etmək;

• xalqına, Vətəninə qarşı qürur hissi duymaq, sevincində də, kədərində də həmrəy olmaq və bu hissləri xeyirxah əməllərlə ifadə etmək;

•humanist, bərabər, sivil demokratik nizam-intizamı müdafiə etmək və onların pozulmasının qarşısını almaq (öz imkanları daxilində);

• sosial və ideoloji mövqelərin, estetik və mədəni üstünlüklərin müxtəlifliyində öz mövqeyini axtarmaq;

• digər mədəniyyətlərin, dünyagörüşlərin, xalqların və ölkələrin nümayəndələri ilə qarşılıqlı maraq və hörmət əsasında anlaşmaya çalışmaq;

• fikirlərə, başqa xalqların və ölkələrin tarixinə, mədəniyyətinə hörmətlə yanaşmaq, onların təhqir olunmasına və ya aşağılanmasına yol verməmək;

• insanlara, öz ölkəsinə faydalı olan işlər görmək, o cümlədən onların xatirinə bəzi istəklərindən əl çəkmək.

•münaqişənin qeyri-zorakılıq və bərabər həllini təşviq edən mübahisəli münaqişə situasiyalarında davranış qaydalarını hazırlamaq [5, s. 28].

Tənzimləyici fəaliyyətlər şagirdlərin öyrənmə fəaliyyətinin təşkilini təmin edir. Bunlara daxildir:

• şagirdin artıq bildiyi, öyrəndiyi ilə öyrənmək istədiyinin əlaqəsinə əsaslanan məqsədinin olması;

• planlaşdırma – yekun nəticə nəzərə alınmaqla aralıq məqsədlərin ardıcıllığının müəyyən edilməsi; tədbirlər planının və ardıcıllığının tərtib edilməsi;

• proqnozlaşdırma – biliklərin mənimsənilməsinin nəticəsi və səviyyəsinin, onun zaman xüsusiyyətlərinin gözlənilməsi;

• etalondan kənarlaşmaları və fərqləri aşkar etmək üçün fəaliyyət metodu və onun nəticəsinin verilmiş standartla müqayisə formasında nəzarət;

• korreksiya – standart, faktiki fəaliyyət və onun nəticəsi arasında uyğunsuzluq yarandıqda fəaliyyət planına və metoduna zəruri əlavə və düzəlişlərin edilməsi;

• qiymətləndirmə–şagirdin artıq nəyi öyrəndiyini və hələ də nəyi öyrənməli olduğunu müəyyən etməsi, öyrənmənin keyfiyyəti və səviyyəsi barədə məlumatlı olması;

• özünütənzimləmə üçün güc və enerjini səfərbər etmək, iradə səyi göstərmək və maneələri dəf etmək bacarığı və s. daxildir [2, s. 71].

İdraki universal öyrənmə fəaliyyətlərinə aşağıdakılar daxildir:

•koqnitiv məqsədin müstəqil müəyyən edilməsi və formalaşdırılması;

•zəruri məlumatların axtarışı və seçilməsi;

•informasiya axtarışı üsullarının, o cümlədən kompüter alətlərindən istifadə;

•biliyin strukturlaşdırılması;

•şifahi və yazılı nitqin şüurlu və məqsədəuyğun qurulması;

•konkret şəraitdən asılı olaraq problemlərin həlli üçün ən effektiv yolların seçilməsi;

• fəaliyyət metodları və şərtlərinin əks etdirilməsi, proses və fəaliyyət nəticələrinə nəzarət, qiymətləndirmə;

• mənalı oxunun məqsədini başa düşmək və məqsəddən asılı olaraq oxu növünü seçmək: müxtəlif janrlarda olan mətnlərdən lazımi məlumatların araşdırılması;

•əsas və ikinci dərəcəli informasiyanın müəyyənləşdirilməsi;

•bədii, elmi, publisistik və rəsmi iş üslubunun mətnlərinin sərbəst seçilməsi;

• problemin qoyulması, formalaşdırılması, yaradıcı və axtarış xarakterli problemlərin həllində fəaliyyət üçün müstəqil alqoritmlərin yaradılması.

Kommunikativ fəaliyyətlərə aşağıdakılar daxildir:

•müəllim və həmyaşıdları ilə təlim əməkdaşlığının planlaşdırılması;

• məqsədin, iştirakçıların funksiyalarının, qarşılıqlı əlaqə üsullarının müəyyən edilməsi;

• sualların verilməsi - məlumatın axtarışında və toplanmasında fəal əməkdaşlıq;

•münaqişənin həlli - problemin müəyyən edilməsi, münaqişənin həllinin alternativ yollarının axtarılması, qiymətləndirilməsi, qərarların qəbulu və onun həyata keçirilməsi;

• ünsiyyət tapşırıqlarına və şərtlərinə uyğun olaraq fikirlərini kifayət qədər dolğunluq və dəqiqliklə ifadə etmək bacarığı;

•ana dilinin qrammatik və sintaktik normalarına uyğun olaraq monoloq və dialoq nitq formalarını bilmək [2, s. 11].

Biologiyanın tədrisi üzrə təhsil müəssisəsinin fəaliyyəti şagirdlərin aşağıdakı şəxsi nəticələrə nail olmağa yönəldilir:

•canlı təbiətə münasibətin əsas prinsipləri, qaydaları, sağlam həyat tərzinin əsasları və sağlamlığın mühafizəsi yolları ilə bağlı texnologiyalar haqqında biliklər;

•sağlam həyat tərzi qaydalarına əməl olunması;

•sağlam həyat tərzi təlimatlarının həyata keçirilməsi; •canlı təbiətin öyrənilməsinə yönəlmiş idrak maraqlarının və motivlərinin formalaşması: intellektual bacarıqlar (sübut etmək, arqument qurmaq, təhlil etmək, müqayisə etmək, nəticə çıxarmaq və s.);

•canlı obyektlərə qayğılı və estetik münasibət və s. [1, s. 2-4]

Aşağıdakı tapşırıq növləri universal idraki öyrənmə fəaliyyətinin diaqnostikası və inkişafı üçün faydalıdır:

• "fərqləri tapın" (onların sayını göstərə bilərsiniz);

• artıq olanı tapın;

• qaydaya uyğun sıralama;

• məntiqi zəncirlər qurmaq;

• məharətli həlli yolları;

• sxemlərin tərtib edilməsi;
• müxtəlif növ cədvəllərlə işləmək;
• diaqramların tərtibi və dərk etmək;
• lüğətlə işləmək və s. [4, s. 10] .

Kommunikativ universal öyrənmə fəaliyyətinin diaqnostikası və formalaşması üçün aşağıdakı növ tapşırıqlar təklif edilə bilər:

•tərəfdaş üçün tapşırıq hazırlamaq;
• yoldaşının işi haqqında rəy;
• krossvord hazırlamaq üzrə qrup işi;
• video yazı sorğusu;
• "təxmin et kimdən danışırıq";
• dialoq dinləmə və s. (əlaqə üçün sualların formalaşdırılması); [4, s. 14].

Müxtəlif məşğələlər vasitəsilə tədris materialının mənimsənilməsi zamanı təhlil, sintez, müqayisə, təsnifat, ümumiləşdirmə, analogiyalar, səbəb-nəticə əlaqələrinin qurulması ilə məntiqi fəaliyyətlər inkişaf etdirilir. Şagirdlərin məntiqi universal öyrənmə fəaliyyətinin müxtəlif üsullardan istifadə etməklə necə inkişaf etdirilməsinin konkret nümunələrini nəzərdən keçirək. Təsnifat bacarığı hər hansı bir obyekti ümumi xüsusiyyətlərindən asılı olaraq siniflərə, şöbələrə, kateqoriyalara bölmək bacarıqlarıdır [3, s. 14]. Tapşırıq nümunələri:

Tapşırıq 1: Cədvəldə xaotik səpələnmiş hərflərdən beş heyvanın adını tapın və onları bir sırada yazın. Yazılan heyvanlar arasında "artıqları "(uyğun olmayanları) istisna edin. Onları hansı xüsusiyyətlərə əsasən ayırdığını izah et.

M	*İ*	*Ş*	Ş	Q	**B**
Ç	*R*	*A*	I	A	**A**
I	Q	A	R	**I**	**L**
Ş	***A***	***L***	***A***	**S**	**A**
B	İ	R	Ə	**I**	**R**

Mişarçı, qarışqa, bal arısı uyğun olanlar, *şala, birə artıq olanlardır.* Mişarçı, qarışqa, bal arısı pərdəqanadlılara aiddir.(Pərdəqanadlılar dəstəsinə aid səciyyəvi xüsusiyyətlər sadalanır.) *Şala və birə artıqdır. Şala düzqanadlılar, birə isə birələr dəstəsinə aiddir. Dəstələrin xüsusiyyətlərini sadalayırlar.*

Tapşırıq 2. Aşağıdakı xüsusiyyətlərdən həşərat və hörümcəkkimilər sinfi üçün səciyyəvi olan oxşar və fərqli xüsusiyyətləri seçin:

A. Bədən və ayaqlar buğumlardan ibarətdir.
B. Bədən səthini xitinləşmiş kutikula örtür.
C. Sinir sistemi uqlaqüstü, uqlaqaltı və qarın sinir zəncirindən ibarətdir.
Ç. Müxtəlif cinsiyyətlidir.
D. Ağciyər və traxeyalarla tənəffüs edir.
E. Qan-damar sistemi açıqdır.
Ə. Qarıncıq buğumsuzdur.
F. Metamorfoz ilə inkişaf edir.
G. 4 cüt sadə gözcüyü var və s.

Tapşırıq 3. Terminoloji imla (bir şagird "Gövdənin daxili quruluşu"na aid terminlər fikirləşir, düşündüyü sualları aydın şəkildə söyləyir, digər şagird isə sualın nömrəsini və cavabını - bir və ya bir neçə termini xatırlayır və vərəqə yazır.)

1. Bitkinin ən mühüm vegetativ orqanları hansılardır? (kök, gövdə, yarpaq)
2. Bitkinin digər orqanları arasında əlaqə yaradan orqan hansıdır?(gövdə)
3. Gövdənin yarpaqla örtülü cavan hissəsinə necə adlanır? (zoğ)
4. Yarpağın zoğa birləşdiyi yer nədir ?(buğum)
6. Taxılların içi boş gövdəsi nə adlanır? (saman və ya küləş)
7. Gövdəni təşkil edən hissələr hansılardır? (qabıq, kambi, oduncaq və özək)
8. Cavan və yaşıl zoğlarda qabığın xarici qatı nədən təşkil olunmuşdur ?(dəricik)
9. Gövdənin eninə böyüməsini təmin edən hansı qatdır? (kambi)
10. İllik halqaların yerləşdiyi qat hansıdır? (oduncaq)
11. Gövdənin mərkəzini nə təşkil edir? (*özək*)

Tənzimləyici universal öyrənmə fəaliyyətinin diaqnostikası və formalaşması üçün aşağıdakı növ tapşırıqlar mümkündür:

• "Bilərəkdən səhvlər" və ya səhvləri tapın;
• Təklif olunan mənbələrdə məlumat axtarmaq;

•Qarşılıqlı yoxlama;
• Qarşılıqlı imla;
• Mübahisə, disbut;
• Dərsdə materialı əzbər yadda saxlamaq;
• "Səhvləri axtarıram";
• KONOP (müəyyən problem üzrə yoxlama sorğusu) və s. [4, s. 21].

Tapşırıq 4. Verilmiş mətndə səhvləri tapın. Səhvlərə yol verilmiş cümlələrin nömrələrini göstərin və onları düzəldin.

Tapşırıq 5. İpucuların köməyi ilə insan orqanizminin hansı orqanından bəhs olunduğunu təxmin edin.

Bədəndə olan ən böyük vəzi və cüt olmayan ən iri ölçülü orqandır. Onun orta çəkisi 1,5 kq-dır. Hesablamalara görə orqanizmdə 500-dən artıq müxtəlif funksiyalar icra edir. Ona görə də onun işində baş verən istənilən pozğunluq dərhal bütün orqanizmə mənfi təsir edir. Orqanizmin biokimyəvi laboratoriyasıdır. Yağların həzm edilməsi üçün vacib hesab edilən öd istehsal edir. Depodur. Orqanizm üçün zəruri olan maddələr orada toplanaraq, ehtiyac yarandıqda orqanizm tərəfindən istifadə olunur. Bədəndə olan tullantıları yenidən emal edən zavoddur. Çox yüksək dərəcədə davamlılığa və zədələndikdən sonra bərpa olunma xüsusiyyətinə malikdir. Orqanizmin heç bir orqanı, onun kimi regenerasiya edərək öz hüceyrələrini bərpa etmək xüsusiyyətinə malik deyil!

Beləliklə, universal öyrənmə fəaliyyətlərinə yiyələnmək tədrisin effektini artırır, müvəffəqiyyətin yaranmasına səbəb olur, yeni bilik, bacarıq və səriştələrin müstəqil mənimsənilməsi, o cümlədən mənimsənilmənin müstəqil təşkilinin uğurlu formalaşdırılması, öyrənmək bacarığıdır. Universal öyrənmə fəaliyyətləri şagirdlərə təlim fəaliyyətinin özündə və onun müxtəlif fənn sahələrində geniş istiqamətləndirmə imkanlarını müəyyən edə bilən ümumiləşdirilmiş fəaliyyətlərdir.

Problemin aktuallığı. Təhsilin səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi əsas problemlərdən biridir. Müasir təhsil sisteminin əsas vəzifəsi şagirdlərə sosial bacarıqların şüurlu və dinamik şəkildə mənimsənilməsi yolu ilə öyrənmək bacarığı, özünüinkişaf və özünü təkmilləşdirmək bacarıqlarını təmin edən universal təlim fəaliyyətlərinin formalaşdırılmasıdır.

Problemin yeniliyi. Məqalədə təlim fəaliyyətinin universal xarakterinin mahiyyəti, fənlərarası, fənlərüstü xarakter daşıması, fərdin mədəni, şəxsi və idraki inkişafının və özünüinkişafının tamlığını, təhsil prosesinin bütün mərhələlərinin davamlılığını təmin etmək, konkret fənnin məzmunundan asılı olmayaraq şagird fəaliyyətinin təşkili və tənzimlənməsi üçün əsas olduğu diqqət mərkəzinə gətirilir.

Problemin praktik əhəmiyyəti. Məqalədə qeyd olunan fikirlərdən ali və ümumtəhsil məktəblərinin müəllimləri, tələbələr, magistrant və doktorantlar faydalana bilərlər.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün "Biologiya fənni üzrə təhsil proqramı (kurikulum)" (VII-XI siniflər). -Bakı: 2023. - 57s.
2. Асмолов, А.Г. Формирование универсальных учебных действий в основной школе: от действия к мысли. Система заданий: пособие для учителя / А.Г. Асмолов, Г.В. Бурменская, И.А. Володарская и др.; под ред. А.Г. Асмолова. – 2-е изд. –М.: Просвещение, 2011. – 159 с
3. İbrahimova X.Q. Biologiyanın tədrisi metodikası(Ümumtəhsil məktəbləri üçün biolgiya fənni üzrə təhsil proqramının-kurikulumun tətbiqi) dərs vəsaiti /İbrahimova X.Q. -Bakı:-ADPU-nun nəşriyyati .-2023. -319 s.
4. Галева, Н.Г. "Сто приемов для учебного успеха ученика на уроках биологии" / Н.Г. Галева. - Москва: "Просвещение", 2006. - 141 с.
5. *Лернер Г.И. Стандарты нового поколения и формирование универсальных учебных действий* / Г.И. Лернер. Биология в школе. – 2011 г.– № 7.– С. 24–30.

Redaksiyaya daxil olub: 16.09.2025

UOT 372.891

Seyidnisə Xoşbəxt qızı Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/0009-0008-3465-2820
E-mail: sx.aliyeva@adpu.edu.az
https://doi.org/10.69682/arti.2025.92(5).106-109

COĞRAFİYANIN TƏDRİSİNDƏ GİS-in ROLU

Seyidnisa Khoshbakht Aliyeva
lecturer of Azerbaijan State Pedagogical University

THE ROLE OF GIS IN TEACHING GEOGRAPHY

Сейидниса Хошбахт гызы Алиева
преподаватель Азербайджанского Государственного Педагогического Университета

РОЛЬ ГИС В ПРЕПОДАВАНИИ ГЕОГРАФИИ

Xülasə. Bu məqalədə müasir coğrafiya tədrisində Coğrafi İnformasiya Sistemlərinin (GİS) rolu və əhəmiyyəti araşdırılır. GİS texnologiyası coğrafi məlumatların toplanması, saxlanması, təhlili və vizuallaşdırılmasını təmin etməklə, şagirdlərə və tələbələrə fənnin məzmununu daha dərindən anlamağa kömək edir. Məqalədə GİS-in tədris prosesinə inteqrasiyası, onun şagirdlərin məntiqi düşünmə, analiz və problem həll etmə bacarıqlarının inkişafına təsiri, eləcə də müəllimlər üçün təqdim etdiyi imkanlar ətraflı izah olunur. Eyni zamanda Azərbaycan ümumtəhsil məktəblərində GİS-in tətbiqi üzrə mövcud vəziyyət və gələcək perspektivlər də dəyərləndirilir.
Açar sözlər: *GİS, coğrafiyanın tədrisi, texnologiya inteqrasiyası, təhlil bacarıqları, interaktiv öyrənmə*

Abstract. This article examines the role and importance of geographic information systems (GIS) in modern geography teaching. GIS technologies help students gain a deeper understanding of the subject by providing collection, storage, analysis and visualization of geographic data. The article explains in detail the integration of GIS into the teaching process, its impact on the development of students' logical thinking, analytical and problem-solving skills, and the opportunities it provides for teachers. At the same time, the current situation and future prospects of GIS application in Azerbaijani secondary schools are also assessed.
Keywords: *GIS, geography teaching, technology integration, analytical skills, interactive learning*

Аннотация. В данной статье рассматривается роль и значение географических информационных систем (ГИС) в современном преподавании географии. ГИС-технологии помогают учащимся глубже понять содержание предмета, обеспечивая сбор, хранение, анализ и визуализацию географических данных. В статье подробно объясняется интеграция ГИС в процесс обучения, ее влияние на развитие логического мышления учащихся, навыков анализа и решения проблем, а также возможности, которые она предоставляет учителям. В то же время также оценивается текущая ситуация и будущие перспективы применения ГИС в азербайджанских средних школах.
Ключевые слова: *ГИС, преподавание географии, интеграция технологий, аналитические навыки, интерактивное обучение.*

Müasir dövrdə təhsil sahəsində texnologiyaların tətbiqi tədrisin keyfiyyətini və effektivliyini artırmaq üçün mühüm vasitəyə çevrilmişdir. Coğrafiya fənni isə texnoloji inteqrasiya üçün ən münbit sahələrdən biridir. Xüsusilə Coğrafi İnformasiya Sistemləri (GİS) bu istiqa-

mətdə geniş imkanlar açır. GİS texnologiyası coğrafi məlumatların toplanması, saxlanması, emalı və təqdim olunması üçün istifadə edilən kompüter əsaslı sistemdir və tədrisdə onun rolu əvəzolunmazdır.

GİS-in coğrafiya dərslərində istifadəsinin üstünlükləri: GİS vasitəsilə şagirdlər abstrakt coğrafi anlayışları vizual olaraq öyrənə bilirlər. Bu sistem kartoqrafiya, əhali statistikası, iqlim dəyişiklikləri və torpaq istifadəsi kimi mövzuları əyani şəkildə təqdim edir. Nəticədə, coğrafi hadisələr arasında səbəb-nəticə əlaqələrini daha asan dərk etmək mümkündür.

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı təhsil sahəsində də yeni yanaşmaların tətbiqini zəruri edir. Bu baxımdan Coğrafi İnformasiya Sistemləri (CİS) coğrafiyanın tədrisində əvəzsiz alətə çevrilmişdir. CİS coğrafi məlumatların toplanması, saxlanılması, təhlili və vizual təqdimatı üçün istifadə edilən sistemlər toplusudur. Bu texnologiya vasitəsilə şagirdlər yalnız nəzəri bilikləri deyil, həm də real həyatla bağlı coğrafi prosesləri daha dərindən dərk edə bilirlər.

1. Coğrafi biliklərin vizuallaşdırılması

CİS-in tətbiqi, coğrafiya dərslərində ənənəvi xəritələrdən fərqli olaraq, dinamik və interaktiv xəritələr vasitəsilə məlumatların vizual şəkildə təqdim edilməsinə şərait yaradır. Şagirdlər əraziyə dair məlumatları yalnız mətn və şəkillərlə deyil, interaktiv xəritələr üzərində müşahidə etməklə daha aydın anlayırlar. Məsələn, əhalinin sıxlığını, torpaq istifadəsini, iqlim dəyişmələrini və ya alternativ enerji mənbələrinin yerləşməsini rəqəmsal xəritələr üzərində analiz etmək mümkündür.

2. Analitik düşüncə və tədqiqat bacarıqlarının inkişafı

CİS proqramları coğrafiya dərslərində təkcə biliklərin mənimsənilməsinə deyil, həm də analitik və tənqidi düşüncənin formalaşmasına kömək edir. Şagirdlər müxtəlif mənbələrdən coğrafi məlumat toplayaraq onları təhlil etməyi, müqayisə etməyi və nəticə çıxarmağı öyrənirlər. Bu isə tədqiqatyönlü təhsilin əsas hədəflərinə uyğundur. Məsələn, şagirdlər su ehtiyatlarının bölgələr üzrə paylanmasını araşdıra və hansı bölgələrin su çatışmazlığı yaşadığını özləri müəyyən edə bilərlər.

3. Real həyatla əlaqə və fənlərarası inteqrasiya

CİS-in istifadəsi şagirdlərdə coğrafi bilikləri gündəlik həyatla əlaqələndirmək bacarığını inkişaf etdirir. Bu texnologiya ilə aparılan layihələr təbii fəlakətlərin xəritələndirilməsi, ekoloji problemlərin vizual təhlili, şəhərsalma və nəqliyyat planlaması kimi müxtəlif praktiki məsələləri əhatə edə bilər. Bu cür yanaşma şagirdlərdə ümumi dünyagörüşünün və fənlərarası əlaqələrin möhkəmlənməsinə səbəb olur.

4. İnnovativ öyrənmə mühiti və motivasiya

Rəqəmsal resurslardan istifadə coğrafiya dərslərini daha maraqlı və dinamik edir. Şagirdlər CİS vasitəsilə xəritə düzəldir, verilənləri təhlil edir və öz layihələrini təqdim edirlər. Bu isə onlarda dərsə qarşı marağı artırır, öyrənməyə motivasiya yaradır. Müasir şagirdlərin rəqəmsal texnologiyalara meylli olduğunu nəzərə alsaq, CİS onların tədrisə cəlb olunmasında mühüm vasitədir.

5. Qlobal problemlərin öyrənilməsində səmərəli vasitə

İqlim dəyişikliyi, ətraf mühitin çirklənməsi, şəhərləşmə və resursların tükənməsi kimi qlobal problemlərin tədrisində CİS effektiv metod hesab olunur. Şagirdlər bu problemləri müxtəlif zaman və məkan kəsimində təhlil edə, onların nəticələrini interaktiv formada araşdıra bilirlər. Bu da tədris prosesini daha aktual və şagirdyönlü edir.

CİS-in coğrafiya dərslərində tətbiqi tədrisin keyfiyyətini artırmaqla yanaşı, şagirdlərin XXI əsr bacarıqlarını – analitik düşüncə, problem həlli, komandada işləmə və rəqəmsal savadlılıq kimi bacarıqları da formalaşdırır. Bu texnologiyanın dərs prosesinə inteqrasiyası coğrafiya fənninin sadəcə əzbərlənəcək məlumatlar toplusu deyil, praktik həyat bacarıqları qazandıran bir fənn olduğunu göstərir. Odur ki, coğrafiya müəllimləri CİS alətlərindən aktiv istifadə etməli, bu sahədə öz biliklərini daim yeniləməli və şagirdlərə daha müasir yanaşmalar təqdim etməlidirlər.

Tədris prosesində GİS-in tətbiq imkanları: GİS proqramları vasitəsilə interaktiv xəritələr yaratmaq, məlumat qatlarını əlavə etmək və müxtəlif parametrlərə əsasən təhlillər aparmaq mümkündür. Bu isə dərsləri daha maraqlı və praktik edir. Məsələn, şagirdlərə yaşadıqları ərazidə torpaq növlərinin yayılmasını göstərmək, əhali sıxlığı ilə su ehtiyatları ara-

sındakı əlaqəni vizuallaşdırmaq GİS vasitəsilə asanlıqla həyata keçirilə bilər. Bu cür yanaşmalar şagirdlərin təhlil, müqayisə və proqnozvermə bacarıqlarını artırır.

Azərbaycanda GİS-in tədrisə inteqrasiyası: Müasir təhsil sistemində texnologiyaların inteqrasiyası sürətlə inkişaf edir. Bu sahədə xüsusilə Coğrafi İnformasiya Sistemləri (CİS – Coğrafi İnformasiya Sistemləri) tədris prosesinə müasir yanaşmanın mühüm komponenti kimi çıxış edir. CİS coğrafi məlumatların toplanması, saxlanılması, təhlili və vizual təqdimatına imkan verən proqram və metodlardan ibarət sistemlər toplusudur. Bu sistemlər coğrafiya başda olmaqla, bir sıra fənlərin daha dərindən, praktik və interaktiv şəkildə öyrədilməsində əhəmiyyətli rol oynayır.

Azərbaycanda da son illər bu sahəyə maraq artmaqdadır. Lakin CİS-in təhsildə geniş tətbiqi hələlik inkişaf mərhələsindədir və bir sıra strukturlaşdırılmış tədbirlərə ehtiyac duyulur. Bu yazıda Azərbaycanda CİS-in tədrisə inteqrasiyasının əhəmiyyəti, hazırkı vəziyyəti, mövcud problemləri və gələcək inkişaf perspektivləri ətraflı şəkildə araşdırılır.

1. CİS-in tədrisə inteqrasiyasının əhəmiyyəti

CİS-in tədris prosesinə inteqrasiyası bir sıra üstünlüklər yaradır:

- Analitik düşüncə bacarığı formalaşır: Şagirdlər və tələbələr məlumatları təhlil etmə, nəticə çıxarma və coğrafi problemlərə elmi yanaşma bacarıqlarını inkişaf etdirirlər.
- Məkan düşüncəsi güclənir: Məlumatların coğrafi mövqeyə görə təqdimatı məkan və zaman anlayışlarını daha dərindən dərk etməyə kömək edir.
- İnteraktiv öyrənmə mühiti yaradılır: CİS tətbiqi ilə dərslər yalnız nəzəri deyil, praktik və layihə əsaslı keçirilə bilər.
- Ətraf mühitin və resursların təhlili öyrənilir: İqlim dəyişmələri, torpaq istifadəsi, şəhərləşmə kimi aktual mövzular praktiki formada tədris olunur.

2. Azərbaycanda hazırkı vəziyyət

Azərbaycanda CİS sahəsində ilkin addımlar əsasən ali təhsil pilləsində atılmışdır. Xüsusilə coğrafiya, ekologiya, torpaqşünaslıq və şəhərsalma ixtisaslarında tədris olunan bəzi fənlərdə CİS texnologiyalarından istifadə edilir. AMEA Coğrafiya İnstitutunda, Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində və Azərbaycan Memarlıq və İnşaat Universitetində bu sahəyə dair araşdırmalar və praktiki dərslər keçirilir.

Lakin orta ümumtəhsil məktəblərində CİS-in tətbiqi hələlik çox məhduddur. Coğrafiya dərslərində xəritə və atlaslardan istifadə olunur, lakin rəqəmsal xəritələndirmə, verilənlərin məkan təhlili kimi imkanlar demək olar ki, istifadə olunmur. Müəllimlərin böyük əksəriyyəti CİS proqramları (ArcGIS, QGIS və s.) ilə işləmək bacarığına malik deyil və bu istiqamətdə metodik materiallar da kifayət qədər mövcud deyil.

3. Problemlər və çətinliklər

Azərbaycanda CİS-in tədrisə inteqrasiyasına maneə olan bir neçə əsas problem mövcuddur:

- Texnoloji infrastrukturun zəifliyi: Orta məktəblərin əksəriyyətində lazımi kompüter avadanlığı və proqram təminatı yoxdur.
- Müəllim hazırlığının yetərsizliyi: Mövcud coğrafiya müəllimlərinin əksəriyyəti CİS proqramları ilə işləmək bacarığına malik deyillər və bu sahədə təlimlər çox az təşkil olunur.
- Metodik vəsaitlərin çatışmazlığı: CİS-in dərslərə inteqrasiyası üçün Azərbaycan dilində hazırlanmış təlimat kitabçaları, dərs vəsaitləri və layihə nümunələri demək olar ki, mövcud deyil.
- Maliyyə və təşkilati dəstəyin azlığı: Təhsil müəssisələrində bu texnologiyanın tətbiqi üçün tələb olunan maddi və inzibati resurslar kifayət deyil.

4. Yaxşı təcrübələr və nümunələr

Bununla belə, bəzi uğurlu təşəbbüslər də mövcuddur. Məsələn:

- Azərbaycan Milli Elmlər Akademiyası və bir neçə universitet birgə olaraq coğrafi verilənlər bazaları üzərində işləyirlər.
- QIS (QGIS) proqramından istifadə ilə bağlı müəllimlər üçün ayrı-ayrı layihələr çərçivəsində təlimlər keçirilmişdir.
- İqlim dəyişmələri və su resurslarının xəritələndirilməsi ilə bağlı tələbə layihələri regionlarda tətbiq olunmağa başlanmışdır.

Bu cür təşəbbüslər CİS-in real tətbiq imkanlarını nümayiş etdirməklə yanaşı, təhsilin rəqəmsallaşması prosesinə dəstək verir.

Problemin aktuallığı. Müasir dövrdə coğrafiya fənninin texnologiya ilə inteqrasiyası tədrisin keyfiyyətini artırmaq üçün zəruri şərtə çevrilmişdir.

Coğrafi İnformasiya Sistemləri (GİS) bu baxımdan şagirdlərin məkan düşüncə tərzinin formalaşmasında mühüm vasitə hesab olunur.

Problemin yeniliyi. Azərbaycan ümumtəhsil sistemində GİS-in tədris prosesinə sistemli şəkildə inteqrasiyası hələ geniş tətbiq olunmamışdır. Bu isə mövzuya yeni tədqiqat yanaşmaları və praktiki tətbiq modelləri ilə yanaşmağı zəruri edir.

Problemin praktiki əhəmiyyəti. GİS-in coğrafiya dərslərində tətbiqi şagirdlərin analitik düşünmə, qərarvermə və real problemləri vizual təhlil etmə bacarıqlarını inkişaf etdirir. Bu texnologiyanın tədrisə daxil edilməsi həm müəllimlər, həm də şagirdlər üçün təcrübəyə əsaslanan öyrənmə imkanlarını genişləndirir.

Ədəbiyyat:

1. Alxasov, O.K. Coğrafiyanın tədrisi metodikası / O.K. Alxasov. -Bakı: Təhsil Nəşriyyatı, -2013. -127 s.
2. Seyfullayeva, N.S. Coğrafiyanın tədrisi metodikası / N.S. Seyfullayeva. -Bakı: ELM, -2011. -193 s.
3. https://aygunqurbanova.com/meqale/12-cis-corafi-informasiya-sistemlri.html

Redaksiyaya daxil olub: 22.09.2025.

UOT 372.881.111.1

Qönçə Xanlar qızı Hacıyeva
Azərbaycan Dillər Universitetinin baş müəllimi
https://orcid.org/0000-9169-122X
gonchahajiyeva86@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).110-115

AUTENTİK MATERİALLARIN TƏLƏBƏLƏRDƏ DİL YARADICILIĞI VƏ KOMMUNİKATİV BACARIQLARINI İNKİŞAF ETDİRMƏ İMKANLARI

Goncha Khanlar Hajiyeva
senior lecturer at Azerbaijan University of Languages

OPPORTUNITIES OF AUTHENTIC MATERIALS IN DEVELOPING STUDENTS' LANGUAGE CREATIVITY AND COMMUNICATIVE SKILLS

Гончя Ханлар гызы Гаджиева
старший преподаватель Азербайджанского Университета Языков

ВОЗМОЖНОСТИ АУТЕНТИЧНЫХ МАТЕРИАЛОВ В РАЗВИТИИ ЯЗЫКОВОГО ТВОРЧЕСТВА И КОММУНИКАТИВНЫХ НАВЫКОВ СТУДЕНТОВ

Xülasə. Məqalə ingilis dilinin xarici dil kimi tədrisində autentik materialların tələbələrin dil yaradıcılığı və kommunikativ bacarıqlarının inkişafına təsirini araşdırır. Tədqiqatda kommunikativ yanaşma, çoxlu intellekt nəzəriyyəsi və tapşırıqyönlü öyrənmə kimi müasir pedaqoji prinsiplərin autentik materiallarla birləşdirilməsinin rolu vurğulanır. Analiz göstərir ki, autentik mətnlər və audio-vizual resurslar tələbələrə dili real kommunikativ kontekstlərdə istifadə etmə imkanları təqdim edir, onların motivasiyasını artırır və dinləmə, oxu və ünsiyyət bacarıqlarının inkişafını dəstəkləyir. Eyni zamanda, autentik materiallar tələbələrin mədəni şüurunu və yaradıcılıq potensialını genişləndirir. Məqalə müəllimlərin material seçimi və tətbiqi zamanı nəzərə almalı olduqları strategiyaları, eləcə də dərs prosesində autentik materialların effektiv istifadəsinin praktik aspektlərini təqdim edir.

***Açar sözlər**: autentik materiallar, kommunikativ kompetensiya, yaradıcı ünsiyyət bacarıqları, dil öyrənmə motivasiyası*

Abstract. This article investigates the impact of authentic materials on the development of students' language creativity and communicative skills in English as a foreign language. The study emphasizes the role of combining modern pedagogical principles - such as the communicative approach, multiple intelligences theory, and task-based learning - with authentic materials. The analysis shows that authentic texts and audiovisual resources provide students with opportunities to use the language in real communicative contexts, enhance their motivation, and support the development of listening, reading, and communication skills. Additionally, authentic materials broaden students' cultural awareness and creative potential. The article presents strategies that teachers should consider when selecting and implementing materials, as well as practical aspects of effectively using authentic materials in the classroom.

***Keywords:** authentic materials, communicative competence, creative communication skills, language learning motivation*

Аннотация. В статье исследуется влияние аутентичных материалов на развитие языкового творчества и коммуникативных навыков студентов при изучении английского языка как иностранного. В исследовании подчеркивается роль сочетания современных педагогических принципов, таких как коммуникативный подход, теория множественного интеллекта и обучение на основе задач, с

аутентичными материалами. Анализ показывает, что аутентичные тексты и аудиовизуальные ресурсы предоставляют студентам возможность использовать язык в реальных коммуникативных контекстах, повышают их мотивацию и способствуют развитию навыков аудирования, чтения и общения. Кроме того, аутентичные материалы расширяют культурную осведомленность студентов и их творческий потенциал. В статье представлены стратегии, которые преподаватели должны учитывать при выборе и применении материалов, а также практические аспекты эффективного использования аутентичных материалов в учебном процессе.

Ключевые слова: *аутентичные материалы, коммуникативная компетенция, навыки творческого общения, мотивация к изучению языка*

İngilis dilinin xarici dil kimi tədrisinin əsas məqsədi tələbələrin dili real kommunikativ vəziyyətlərdə istifadə edə biləcək səviyyədə kompetent olmalarını təmin etməkdir [4, s.53]. Bu səbəbdən, öyrənənlər yalnız qrammatik qaydaların öyrənilməsi ilə kifayətlənməməli, dilin ünsiyyət vasitəsi kimi mənimsənilməsinə yönəlməlidirlər. Müəllimin əsas vəzifəsi tələbələri daim ingilis dilindən praktik istifadəyə təşviq etmək, onları dili sadəcə qaydalar və yadda saxlanılan sözlər toplusu kimi deyil, kommunikasiya aləti kimi görməyə istiqamətləndirməkdir.

Müasir dil tədrisində kommunikativ yanaşma ənənəvi qrammatika-tərcümə metodunun məhdudiyyətlərini aradan qaldıraraq daha səmərəli nəticələr əldə etməyə imkan yaradır. Bununla yanaşı, çoxlu intellekt nəzəriyyəsi, kooperativ öyrənmə, tapşırıqyönlü və məzmuna əsaslanan təlim kimi müasir yanaşmalar da tələbələrin autentik qarşılıqlı ünsiyyət mühitində dil bacarıqlarını inkişaf etdirməsinə şərait yaradır. İngilis dilinin tədrisində metod və yanaşmalar qədər mühüm olan digər amil dərs prosesində istifadə edilən tədris materiallarıdır. Tədris materialları öyrənənlərin motivasiyasına, öyrənmə prosesinə və dil bacarıqlarının inkişaf dinamikasına birbaşa təsir göstərir. Bu baxımdan, autentik materiallar xüsusi əhəmiyyət kəsb edir. Çünki autentik mənbələr süni şəkildə hazırlanmış dərs materiallarından fərqli olaraq, dili təbii mühitdəki bütün xüsusiyyətləri ilə təqdim edir və beləliklə, tələbələrə daha real ünsiyyət təcrübəsi qazandırır.

Autentiklik məsələsi dilçilikdə yeni yanaşma deyil; o, artıq 20-ci əsrin əvvəllərindən müzakirə mövzusu olmuşdur. A. Gilmor qeyd edir ki, təbii mətnlər dilin bütün üslubi və funksional xüsusiyyətlərini özündə əks etdirir, halbuki süni mətnlər müəyyən qrammatik strukturların və məhdud söz birləşmələrinin təkrarı ilə məhdudlaşır. R. Robert isə hesab edir ki, sinif daxilində qurulan ünsiyyət real həyatdakı kommunikasiya nümunələrinə mümkün qədər yaxın olmalıdır[6, s. 75]. Bu yanaşma həmçinin D. Haymsın "kommunikativ kompetensiya" konsepsiyası ilə uzlaşır; yəni dil biliyi yalnız qrammatika ilə məhdudlaşmamalı, kontekstə bağlı ünsiyyət bacarığını da əhatə etməlidir. Nəticə etibarilə, kommunikativ dil tədrisi mərkəzində dilin əzbərlənməsi və struktur qaydalarının öyrənilməsindən çox, onu mənalı ünsiyyət məqsədləri üçün istifadəyə yönəltmək dayanır [8, s. 26]. Bu isə tələbələrin yaradıcılıq potensialını stimullaşdıran və onları real dil mühitinə hazırlayan autentik materialların istifadəsini vacib edir.

"Kommunikativ kompetensiya" anlayışı ilk dəfə Noam Çomskinin dilçilik nəzəriyyəsinə qarşı yönəlmiş tənqidlər əsasında formalaşmışdır. N. Çomski dili yalnız ideal danışan və dinləyicinin qrammatik bilikləri əsasında izah edir, lakin yaddaş məhdudiyyətləri, diqqətin yayınması və ya ünsiyyət prosesindəki real səhvlər kimi faktorları nəzərə almır [1, s. 49]. Dell Hayms isə bu yanaşmaya qarşı çıxaraq, dilin yalnız qrammatikanı bilməkdən ibarət olmadığını, həm də cəmiyyətin mədəni və sosial həyatında müxtəlif simvolik formalarla – hekayə, mahnı, rəqs, teatr, musiqi və vizual sənətlərlə sıx bağlı kommunikativ fəaliyyət sahəsi olduğunu vurğulamışdır [8, s. 86]. Bu baxımdan, "kommunikativ kompetensiya" yalnız qrammatikanı mənimsəmək deyil, həm də onu sosial və mədəni kontekstdə düzgün tətbiq etmək bacarığı kimi nəzərdən keçirilir. Tədqiqatların nəticəsində irəli sürülən, daha sonra Merian Sels-Mersia tərəfindən genişləndirilən model "kommunikativ kompetensiya"nı dörd əsas komponent əsasında izah edir: linqvistik, sosiolinqvistik, diskursiv və strateji kompetensiyalar [4, s. 72].

Linqvistik kompetensiya – dilin qrammatikasını, sintaksisini və lüğət ehtiyatını düzgün tətbiq etmək bacarığıdır. Bu, hansı sözlərin seçilməsi və onların necə ifadələrdə və cümlələrdə birləşdirilməsini müəyyənləşdirir.

Sosiolinqvistik kompetensiya – dilin konkret mövzu, situasiya və ünsiyyət iştirakçıları arasındakı münasibətlərə uyğun şəkildə işlədilməsini əhatə edir. Burada tələbə nəzakət, hörmət və ya dostluq münasibəti ifadə etmək üçün düzgün dil vasitələrindən istifadə etməyi öyrənir.

Diskursiv kompetensiya – daha geniş konteksti anlamaq və ardıcıl, məntiqi bütöv mətnlər qurmaq bacarığıdır. Bu, şifahi və yazılı ünsiyyət formalarının (məsələn, dialoq, nitq, məqalə və ya məktub) məna baxımından əlaqəli şəkildə təşkilini əhatə edir.

Strateji kompetensiya – ünsiyyət zamanı yaranan anlaşılmazlıqları aşkar etmək və aradan qaldırmaq, söz ehtiyatındakı boşluqları müxtəlif ifadə vasitələri ilə doldurmaq bacarığıdır.

Bu kompetensiyalar ayrı-ayrı öyrədilməyə ehtiyac duymur; onlar autentik mövzular əsasında təşkil olunmuş tədris fəaliyyətləri vasitəsilə inteqrativ şəkildə inkişaf etdirilə bilər. Sinifdə qarşılıqlı ünsiyyət zamanı tələbələr öz təcrübələri ilə bu bacarıqları kəşf edir və tətbiq edirlər. Müəllimin rolu isə onların ünsiyyətdə çətinliklərlə qarşılaşdığı anlarda dəstək vermək, istiqamətləndirmək və kommunikativ fəaliyyətləri daha yaradıcı hala gətirməkdir. C. Harmer autentik materialları ana dili danışanları üçün nəzərdə tutulmuş, real və dərs məqsədli olmayan mətnlər kimi təsvir edir[7, s. 134]. D. Nunan isə autentik materialları real kommunikasiya nəticəsində meydana çıxmış şifahi və yazılı dil məlumatları kimi izah edir; yəni onlar xüsusi olaraq dil öyrətmək üçün hazırlanmayıb. Qısaca, autentik materiallar dərsdə istifadə oluna bilən, lakin ikinci dil və ya xarici dil tələbələri üçün dəyişdirilməmiş mətnlərdir [13, s. 15]. Bu baxımdan, autentik materiallar xüsusi tədris məqsədi üçün yaradılmır, onlar real dil mühitini əks etdirir. Xarici dil dərslərində istifadə edilə biləcək autentik materialların çoxlu mənbələri mövcuddur. Ingilis dilinin tədrisi prosesində istifadə olunan materialları üç kateqoriyaya ayırmaq olar:

Autentik dinləmə və izləmə materialları: TV reklamları, yarışma şouları, cizgi filmləri, xəbər klipləri, komediya verilişləri, filmlər, seriallar, peşəkar şəkildə yazılmış qısa hekayələr və romanlar, radio reklamları, mahnılar, sənədli filmlər və satış təqdimatları.

Autentik vizual materiallar: slaydlar, fotoşəkillər, tablolar, uşaqların rəsmləri, qrafik təsvirlər, yazısız küçə nişanları, siluetlər, jurnal şəkilləri, mürəkkəb ləkələr, poçt kartları, yazısız şəkil kitabları, möhürlər və rentgen şəkilləri.

Autentik çap materialları: qəzet məqalələri, film reklamları, astroloji sütunlar, idman hesabatları, nekroloqlar, məsləhət sütunları, mahnı sözləri, restoran menyuları, küçə nişanları, qida qablaşdırmaları, turist broşürləri, universitet kataloqları, telefon kitabları, xəritələr, TV bələdçiləri, komikslər, təbrik kartları və avtobus cədvəlləri.

Tədqiqatçılar arasında ümumi razılıq mövcuddur ki, autentik dil məlumatı ikinci dil öyrənmədə effektiv şəkildə istifadə oluna bilər [6, 9, 11]. Belə materiallar tələbələrə hədəf dilin geniş spektrini təqdim edir, dilə daha dərin şəkildə məruz qalma imkanı yaradır və pedaqoji baxımdan qiymətli sayılır. Məsələn, tələbələr autentik mahnı və hekayələri dinləyərkən müxtəlif ölkələrdəki dialekt fərqlərini eşidə bilir və bu, sinif müzakirələri üçün zəngin material təqdim edir [9, s. 16]. Brinton qeyd edir ki, media vasitəsilə təqdim olunan autentik materiallar sinif ilə real dünya arasında birbaşa əlaqəni gücləndirir və autentik materiallardan istifadə nəticəsində tələbələrin motivasiyasının artdığını, həmçinin real dünya kontekstində dil bacarıqlarını tətbiq etmək bacarığının inkişaf etdiyi müşahidə olunur.[3, s. 57].

D. Nunan və A. Gilmore vurğulayırlar ki, müxtəlif autentik materiallarla qarşılaşmaq tələbələrdə marağı artırır və dərs mövzularını real həyatla əlaqələndirməyə imkan verir [9, 11]. Autentik materialların dərsdə istifadəsinin aşağıdakı faydalarını qeyd etmək olar: tələbələr real dialoqlarla tanış olur, motivasiya yüksəlir, dünyada baş verən hadisələrdən xəbərdar olurlar, dərs kitablarında əks olunmayan qeyri-formal və gündəlik ifadələrlə tanış olurlar, uğur və nailiyyət hissi yaranır.

Bununla belə, autentik materialların orijinal formasında istifadəsində çətinliklər də mövcuddur. Bunlar arasında: materialların mədəni cəhətdən çətin və ya yeni başlayan tələbələr üçün anlaşılmaz olması, nadir istifadə olunan söz və ifadələrin tələbəyə mənimsədilməsinin çətinliyi, autentik materialların tapılmasının vaxt aparması və bəzən çətin olması göstərilə bilər. Xarici dil dərslərində autentik material-

ların seçimi müəllim tərəfindən tələbələrin faydasını maksimuma çatdırmaq məqsədilə diqqətlə aparılmalıdır. R. Robert qeyd edir ki, autentik materialların seçilməsində əsas meyarlar bunlardır: (a) tələbələrin marağı və mövzuya uyğunluğu, (b) mədəni kontekstə uyğunluq, (c) mətnin dil və koqnitiv səviyyəyə uyğunluğu, (d) praktik istifadə imkanları [12, s. 79]. Buna əlavə olaraq, C. Tompson və V. Kuk autentik materialların seçilməsində nəzərə alınmalı olan əlavə aspektləri vurğulamışlar: tələbələrin əvvəlki bilikləri, marağı, dil səviyyəsi və mətnin təşkilati quruluşu. Xüsusilə audio və video materialların istifadəsi zamanı səs keyfiyyəti, danışanların sayı, mövzu, müddət və vizual dəstəyin mövcudluğu kimi aspektlər diqqətə alınmalıdır [5, s. 16].

Xülasə. Bu məqalədə fransız dili dərslərində rəqəmsal texnologiyaların tədris və öyrənmə prosesində rolu araşdırılır. Rəqəmsal alətlərin tətbiqi dil bacarıqlarının inkişafında interaktivliyi artırmaqla yanaşı, tələbələrin motivasiyasını gücləndirir, müstəqil və yaradıcı öyrənməyə şərait yaradır. Məqalədə müxtəlif rəqəmsal platformalar, tətbiqlər və texnologiyalar təqdim olunur və onların fəaliyyətyönlü yanaşma (approche actionnelle) kontekstində səmərəli istifadəsi təhlil edilir. Həmçinin, müəllim və tələbələrin rəqəmsal savadlılıq səviyyəsi, texnoloji resurslardan istifadə və metodiki hazırlıq məsələləri araşdırılır.
Açar sözlər: *rəqəmsal vasitə və platformalar, tədris, öyrənmə, rəqəmsal bacarıqlar, multimedia resursları.*

Abstract. This article examines the role of digital technologies in the teaching and learning process in French language lessons. The use of digital tools not only increases interactivity in the development of language skills, but also strengthens students' motivation and creates conditions for independent and creative learning. The article presents various digital platforms, applications and technologies and analyzes their effective use in the context of the approche actionnelle/action-oriented approach. It also addresses the issues of digital literacy level of teachers and students, use of technological resources and methodological preparation.
Keywords: *digital tools and platforms, teaching, learning, digital skills, multimedia resources.*

Аннотация. В данной статье рассматривается роль цифровых технологий в процессе обучения французскому языку. Использование цифровых инструментов не только повышает интерактивность в развитии языковых навыков, но и укрепляет мотивацию учащихся, создавая условия для самостоятельного и творческого обучения. В статье представлены различные цифровые платформы, приложения и технологии, а также анализируется их эффективное использование в контексте подхода, ориентированного на действие (actionnelle). Автором также рассматриваются вопросы уровня цифровой грамотности учителей и учащихся, использования технологических ресурсов и методической подготовки.
Ключевые слова: *цифровые инструменты и платформы, обучение, изучение, цифровые навыки, мультимедийные ресурсы.*

Rəqəmsal texnologiyaların təhsildə geniş tətbiqinə baxmayaraq, onların fransız dili dərslərində sistemli və məqsədyönlü istifadəsi hələ də istənilən səviyyədə deyil. Müəllimlərin texnoloji resurslardan istifadəsində və metodoloji hazırlığında boşluqlar, rəqəmsal platformaların seçimində uyğunsuzluq problemi, eləcə də interaktiv alətlərin dil məqsədləri ilə düzgün inteqrasiyası əsas çətinliklər sırasındadır. Digər tərəfdən, tələbələrin fərdi texniki imkanları və rəqəmsal bacarıqları da öyrənmə prosesində qeyri-bərabərliklər yaradır. Bütün bunlar, rəqəmsal təlimin keyfiyyətli və effektiv şəkildə tətbiqi üçün vahid pedaqoji yanaşma və metodoloji dəstəyə ehtiyac olduğunu göstərir.

Bu mövzunun tədqiqində elmi-metodiki ədəbiyyatın təhlili və ÜmumAvropa Dilləri üçün çərçivə sənədi /CECRL və Fəaliyyətyönlü yanaşma /Approche actionnelle kontekstində rəqəmsal təlim, rəqəmsal pedaqogika və qarışıq təlim anlayışları/Blended learning əvvəlki tədqiqatların və təcrübələrin ümumiləşdirilməsi nəzərdə tutulur.

Rəqəmsal texnologiyaların tədris prosesində istifadəsi, müxtəlif tədqiqatlarda geniş şəkildə araşdırılmışdır. Məsələn, Charity Isaac Ishibie tərəfindən aparılan tədqiqatda, mobil tətbiqlər və süni intellekt əsaslı platformaların fransız dili öyrənməsində təsiri vurğulanmışdır. Bu texnologiyalar, tələbələrin lüğət öyrənməsi, tələffüz və dinləyib-anlama bacarıqlarının inkişafında əhəmiyyətli rol oynayır. [1]

Rəqəmsal təlim üçün vacib olan kriteriyalar aşağıdakılardır:

-Motivasiya : Rəqəmsal təlim tələbələrdə motivasiya yaradır, rəqəmsal alətlərin istifadəsi tələbələrin dərsə marağını artırır.

- Fərdiləşdirilmiş öyrənmə: Mobil tətbiqlər və onlayn platformalar tələbələrin fərdi ehtiyaclarına uyğun öyrənmə imkanları yaradır.

- İnteraktivlik: Rəqəmsal texnologiyalar dərsləri daha interaktiv və əyləncəli edir.

- Mədəniyyətlərarası öyrənmə: Virtual reallıq və multimedia resursları vasitəsilə tələbələr fransız mədəniyyəti ilə daha yaxından tanış olurlar.

Rəqəmsal texnologiyaların tədrisə inteqrasiyası bir sıra problemlərlə müşayiət olunur:

- Müəllimlərin texnoloji hazırlığı: Bəzi müəllimlər rəqəmsal alətləri effektiv şəkildə istifadə etməkdə çətinlik çəkirlər.

- Texnoloji infrastruktur: Məktəblərdə və təhsil müəssisələrində texnoloji avadanlıqların çatışmazlığı və ya köhnəlməsi.

- Tələbələrin fərdi texniki imkanları: Bütün tələbələrin rəqəmsal alətlərə bərabər çıxışı yoxdur.

- Metodoloji dəstəyin olmaması: Rəqəmsal texnologiyaların tədrisə inteqrasiyası üçün kifayət qədər metodoloji material və təlimatlar mövcud deyil.

Bir sözlə, rəqəmsal texnologiyaların tədrisdə tətbiqində sistemsizlik, müəllimlərin texnoloji hazırlığında boşluqlar, platforma və alətlərin məqsədyönlü seçilməməsi, tələbələrin texniki imkanlarındakı fərqliliklər dil tədrisində öz həllini tapmalıdır.

Bunun üçün, düzgün metodologiya seçilməli, müəllim və tələbələrlə sorğu və müsahibələr aparılmalı, tədris mühitində rəqəmsal alətlərin tətbiqinə dair müşahidə təşkil olunmalı, nümunə dərslərin təhlili nəzərdə tutulmalıdır.

Tədqiq olunan məsələlər təhlil və nəticələrin formalaşmasını təmin etməlidir.

Rəqəmsal alətlərin tələbələrdə motivasiyanı artırması, yazılı və şifahi bacarıqların inkişafında multimedia resurslarının təsiri, müəllimlərin rəqəmsal resurslara yanaşmasında fərqlər, platforma və tətbiqlərin praktik faydalılığı (Kahoot, Padlet, TV5Monde, Canva və s.) kimi müsbət nəticələr fransız dilinin tədrisini keyfiyyətini, tədris və öyrənmənin effektivliyini təmin edir.

Tədqiqatın gəldiyi nəticələrə uyğun müəllimlərə müəyyən təklif və tövsiyələrin verilməsi məqsədəmüvafiqdir :

- Fransız dili müəllimləri üçün rəqəmsal pedaqoji təlimlər ;

- Məktəblərdə texnoloji infrastrukturun gücləndirilməsi ;

- Dərs planlarında texnologiyanın məqsədli və mərhələli tətbiqi ;

- Yerli resursların fransız dilinə uyğunlaşdırılması.

Bunun üçün :

- Rəqəmsal texnologiyaların fransız dili tədrisində vacib dəstək vasitəsi olması

- Effektiv istifadə üçün metodiki yanaşmaların və müəllim hazırlığının əhəmiyyəti

- Gələcəkdə rəqəmsal tədrisə inteqrasiya olunacaq innovasiyalara açıq olmağın vacibliyi nəzərə alınmalıdır.

Tədqiqatda qarışıq metoddan istifadə olunmuşdur:

- Sorğular: Müəllim və tələbələr arasında rəqəmsal texnologiyaların istifadəsi ilə bağlı sorğular keçirilmişdir.

- Müşahidə: Fransız dili dərslərində rəqəmsal vbasitələrin tətbiqi müşahidə olunmuşdur.

- Müsahibələr: Müəllim və tələbələrlə fərdi müsahibələr aparılmışdır.

Tədqiqat nəticəsində aşağıdakı müşahidələr edilmişdir:

Rəqəmsal texnologiyalar fransız dili dərslərində tədris və öyrənmə prosesini zənginləşdirir, interaktivliyi artırır və tələbələrin motivasiyasını yüksəldir. Lakin bu texnologiyaların səmərəli tətbiqi üçün müəllimlərin peşəkar inkişafı, texnoloji infrastrukturun gücləndirilməsi və metodoloji dəstəyin təmin olunması vacibdir.

Tövsiyələr

- Müəllimlərin peşəkar inkişafı: Rəqəmsal texnologiyaların effektiv istifadəsi üçün müəllimlərə təlimlər keçirilməlidir.

- Texnoloji infrastrukturun gücləndirilməsi: Məktəblərdə müasir texnoloji avadanlıqların təmin olunması vacibdir.

- Metodoloji materialların hazırlanması: Rəqəmsal texnologiyaların tədrisi üçün müvafiq materiallar hazırlanmalıdır.

Safae El Gazi və Ahmed İbrahimi rəqəmsal savadlılığın fransız dili öyrənilməsindəki rolunu araşdırmış və Moodle, TV5Monde kimi platformaların istifadəsinin tədris prosesini zənginləşdirdiyini qeyd etmişlər.[2]

Fransız dili dərslərində müəllimlər rəqəmsal texnologiyaları, rəqəmsal resursların aşağıdakı kateqoriyalarını tanımalı və bunlardan istifadə bacarıqlarına yiyələnməlidirlər.

a. Multimodal platformalar və tətbiqlər

- TV5MONDE Enseigner, RFI Savoirs, Le Point du FLE

Video, audio, interaktiv dərslər, mədəniyyətlərarası kompetensiyanın inkişafını təmin edir.

b. Rəqəmsal lüğətlər və tərcümə alətləri

- WordReference, Reverso, Linguee

Kontekstual və interaktiv öyrənməni şərtləndirir.

c. Təhsil platformaları və LMS-lər

- Moodle, Google Classroom, Edmodo

- Tapşırıqların bölüşdürülməsi, əks-əlaqə /retour/feedback, qiymətləndirməni nəzərdə tutur.

d. Oyun-tapşırıqlar/Activités ludiques

Kahoot!, Quizlet, LearningApps, Genially

Dil öyrənməni maraqlı və interaktiv edir.

Tələbələrdə rəqəmsal bacarıqların inkişafı

- Digital literacy / culture numérique: tələbənin texnoloji alətlərlə işləmə bacarıqları

- Compétence médiatique: mənbələri ayırd etmə, analiz etmə

- Créativité numérique: video, afişa, bloq, podkast hazırlama

Praktik tətbiqlər (nümunələr)

Fəaliyyət	**Texnologiya**	**Məqsəd**
Bloq yazısı	WordPress / Padlet	Yazılı ifadə və orijinal fikir təqdimatı
Virtual səyahət	Google Earth / Genially	Mədəniyyəti tanımaq
Video müsahibə	Canva Video / Flipgrid	Şifahi bacarıqları nümayış etdirmək
İnteraktiv testlər	Kahoot / Quizz	Qiymətləndirmə və təkrarlama |
Söz oyunu və lüğət məşqləri	Quizlet / Blooket	Leksik və semantik bacarıqlar |

Bunun üçün müəllimlərə aşağıdakı müvafiq tövsiyələr verilir.

- Texnologiyanı məqsədyönlü və balanslı şəkildə tətbiq edin.

-Tələbələrin texniki səviyyəsini nəzərə alın.

- Ənənəvi dərsi tamamilə əvəz etmək yox, rəqəmsal vasitələrlə zənginləşdirmək məqsədi ilə dərslərinizi təşkil edin.

Bu mənbələri və linkləri istifadə edin.

- www.tv5monde.com/enseignants

- www.rfi.fr/savoirs

- www.francaisfacile.com

- www.lepointdufle.net

Nəzəri məlumatlar və təhlilləri praktik nümunələrlə müəllimlərə çatdırmaq üçün müxtəlif səviyyələr üzrə bir neçə tapşırıq nümunəsi təklif edirik.

Aşağıda A2 səviyyəsində, ikinci kurs tələbələri ilə "Bloq yazısı" tapşırığını işləmək üçün müəllimlərə nümunə dərs tapşırığı və təlimatı təqdim olunur. Mövzu rəqəmsal tədris çərçivəsində "bloq yazmaq" bacarığını inkişaf etdirməyə yönəlib.

Tapşırığın adı: Mon week-end idéal (Mənim ideal həftəsonum)

Səviyyə: A2

Məqsəd: Tələbələr sadə cümlələrlə şəxsi fikirlərini yazmağı və paylaşmağı öyrənsinlər.

Bacarıqlar: Yazılı ifadə (production écrite), lüğət istifadəsi, strukturlaşdırılmış yazı yazmaq

Rəqəmsal vasitə: Padlet və ya Blogger / EduBlogs (kollektiv bloq platforması)

Müəllim üçün dərs planı

1. Giriş (10 dəqiqə)

- Müəllim "bloq" anlayışını izah edir: nədir, nə üçün yazılır, real nümunələr göstərilir.

- Tələbələrə bir fransız bloqundan nümunə oxutdurulur (sadə, A2 səviyyəsində).

2. Lüğət və struktur (15 dəqiqə)

Mövzuya uyğun əsas söz və ifadələr tələbələrlə birlikdə lövhəyə yazılır:

- Le samedi / le dimanche / je me lève à… / je vais / je fais / j'aime / je préfère / ensuite / après / finalement

- Sadə keçmiş zaman (passé composé) və indiki zaman (présent) istifadəsi təkrarlanır.

3. Tapşırığın izahı (5 dəqiqə)

- Tələbələr "Mənim ideal həftəsonum" mövzusunda 80-100 sözlük bloq yazısı hazırlayacaqlar.

Struktur: giriş (həftəsonu ilə bağlı ümumi fikir), əsas hissə (fəaliyyətlər), nəticə (nə üçün bu həftəsonu idealdır).

4. Yazı mərhələsi (20–25 dəqiqə)

- Tələbələr tapşırığı fərdi şəkildə yerinə yetirir.

- Müəllim tələbələrə yazı zamanı isti-qamətləndirici suallar verir:

- Tu te lèves à quelle heure ?

- Tu fais quelles activités ?

- Avec qui passes-tu ton week-end ?

5. Rəqəmsal paylaşım və rəy (15 dəqiqə)

- Tələbələr yazdıqları mətnləri Padlet və ya seçilmiş blog platformasında paylaşırlar.

- Digər tələbələr bir-birinin yazılarına sadə şərhlər yazır:

- Très bien ! Moi aussi, j'aime aller au cinéma.

- Ton week-end est très intéressant !

Nümunə bloq yazısı (A2 səviyyəsi)

Tələbə A-nın yazısı :

Titre: Mon week-end idéal

Texte:

Le week-end, je me réveille à 9h. Je prends mon petit-déjeuner avec ma famille. Ensuite, je vais au parc avec mes amis. Nous jouons au football et parlons beaucoup. Le dimanche, je regarde un film ou je lis un livre. J'aime le week-end car je me repose et je passe du temps avec mes proches,,,,,,,,,,,,.C'est mon week-end idéal !

Aşağıda A2 səviyyəsində "Bloq yazısı" tapşırığı üçün qiymətləndirmə rubrikası təqdim olunur. Rubrika 20 ballıq sistem üzrə hazırlanmışdır və tələbələrin yazı bacarığını obyektiv qiymətləndirməyə kömək edir.

Qiymətləndirmə rubrikası: "Mon week-end idéal" – Blog yazısı

Ümumi bal: 20

Qiymətləndirmə meyarı	Təsviri	Maksimum bal
Mövzuya uyğunluq	Mövzuya uyğunluq, əsas fikirlərin aydın ifadəsi	5
Struktur və məntiq	Giriş – əsas hissə – nəticə quruluşunun qorunması	5
Leksik bacarıq	A2 səviyyəsinə uyğun söz ehtiyatı, təkrarların azlığı	4

Qrammatik düzgünlük	Sadə cümlə quruluşları, zaman formalarının düzgünlüyü	4
Yaradıcılıq və orijinallıq	Fikirlərin fərdiliyi və maraqlı təqdimat	2

Qeyd:

- 18–20 bal: Əla
- 15–17 bal: Yaxşı
- 12–14 bal: Kafi
- 0–11 bal: Təkmilləşdirmə tələb olunur.

Digər bir tapşırıq. Aşağıda A2 səviyyəsində tələbələr üçün "Fransız dili dərslərində rəqəmsal təlim" mövzusuna uyğun interaktiv test tapşırığı hazırlanmışdır.

Tapşırıq: Interaktiv test – "Le français et le numérique"

Səviyyə: A2

Tip: Qapalı və açıq suallı interaktiv test.

Məqsəd: Rəqəmsal təlim lüğəti, sadə məntiqi oxuyub-anlama və dil strukturlarını möhkəmləndirmək.

Alət tövsiyəsi: Google Forms, Quizizz, LearningApps, Wordwall

Mövzuya uyğun lüğət (qısaca)

- un ordinateur
- une tablette
- une application
- apprendre / enseigner
- regarder des vidéos
- écouter des podcasts
- faire des exercices en ligne

Test sualları (nümunə)

1. Choisis la bonne réponse :

Tu apprends le français avec...

a) une cuillère

b) une application ☑

c) un ballon

2. Associe les mots aux images : (LearningApps tərzində)

- une tablette
- un casque
- un clavier

3. Complète la phrase :

Le professeur partage des vidéos sur...

YouTube / la voiture / le stylo

☑ → YouTube

4. Mets les phrases dans l'ordre :

(Drag-and-drop format)

1. Je me connecte.
2. Je choisis une leçon.
3. Je fais les exercices.
4. Je regarde une vidéo.

5. Vrai ou faux ? (Oxu mətnindən sonra)

Mətn (qısa) :

Lina apprend le français sur son téléphone. Elle utilise Duolingo et regarde des vidéos sur TV5Monde. Elle préfère écouter des chansons.

Suallar:

a) Lina apprend le français à l'université. ✕

b) Elle utilise une application. ☑

c) Elle déteste écouter de la musique. ✕

Qiymətləndirmə ideyası

- 8–10 doğru cavab – Əla
- 6–7 – Yaxşı
- 4–5 – Kafi
- 0–3 – Təkmilləşmə tələb olunur.

Aşağıda A2 səviyyəsində fransız dili dərslərində rəqəmsal təlim mövzusuna uyğun interaktiv testlər və resurslar təqdim olunur. Bu testlər tələbələrin rəqəmsal təlimlə bağlı lüğət və ifadələri mənimsəməsinə kömək edəcək.

İnteraktiv Testlər və Resurslar

1. OuiTeach – A2 səviyyəsi üçün testlər

OuiTeach platformasında A2 səviyyəsinə uyğun müxtəlif testlər mövcuddur. Bu testlərdə fransız dilində qrammatika və lüğət üzrə suallar yer alır.

[OuiTeach Quizzes](https://ouiteach.com/quizzes/)

2. Brainscape – A2 səviyyəsi üçün flashkartlar və testlər.

Brainscape platformasında A2 səviyyəsinə uyğun flashkartlar və testlər mövcuddur. Bu resurslar tələbələrin lüğət və ifadələri təkrar etməsinə kömək edir.

[Brainscape A2 French Flashcards & Quizzes] (https://www.brainscape.com/subjects/a2-french)

3. Love Learning Languages – "C'est" və "Il est" fərqi üzrə test

Bu testdə tələbələr "C'est" və "Il est" ifadələrinin istifadəsini təcrübə edə bilərlər. [C'est və Il est Quiz](https://love-learning-

languages1.teachable.com/p/french-cest-il-est-quiz)

Müəllimlər üçün tövsiyələr :

- Google Forms və ya Wordwall kimi platformalarda öz testlərinizi yarada bilərsiniz.

- Testləri tələbələrlə dərsdə və ya ev tapşırığı kimi paylaşa bilərsiniz.

- Tələbələrin nəticələrini izləmək üçün platformaların statistik imkanlarından istifadə edə bilərsiniz.

Aşağıda B1 səviyyəsində tələbələrlə işləmək üçün "Virtual səyahət" (Voyage virtuel) mövzusunda interaktiv tapşırıq nümunəsi təqdim olunur. Tapşırıq həm şifahi, həm yazı bacarıqları, həm də rəqəmsal alətlərin istifadəsini təşviq edir.

Tapşırıq: Voyage virtuel – Découvre une ville francophone !

Səviyyə: B1

Məqsəd: Tələbələr fransızdilli bir şəhəri virtual araşdırıb təqdim edirlər.

Bacarıqlar: Oxuyub-anlama, tədqiqat, şifahi təqdimat, yazı, vizual təqdimat.

İcra forması: Fərdi və ya qrup

Alətlər: Google Slides / Canva / Genially / Padlet

Təlimat (tələbələr üçün)

Siz bir turizm agentliyində işləyirsiniz. Müştərilərə fransızdilli bir şəhəri tanıtmaq üçün virtual tur hazırlamalısınız.

Şəhəri seçin (məsələn: Paris, Montréal, Dakar, Bruxelles, Genève, Marrakech) və aşağıdakı suallara cavab verərək təqdimat hazırlayın:

İstiqamətləndirici suallar

1. Quelle est la ville que tu as choisie ? Dans quel pays se trouve-t-elle ?

2. Qu'est-ce qu'on peut visiter là-bas ?

3. Quelles sont les spécialités culinaires ?

4. Quel est le climat ?

5. Quels sont les moyens de transport dans la ville ?

6. Pourquoi tu recommandes cette destination ?

7. Qu'est-ce qu'on peut faire pendant un week-end là-bas ?

Müəllim üçün təlimat

- Dərsin əvvəlində müxtəlif şəhərlər təqdim edilir (şəkillər, videolarla).

- Tələbələr qrupa bölünür və hər qrup bir şəhər seçir.

- Tapşırığın sonunda hər qrup slayd və ya video ilə şəhəri təqdim edir.

- Digər qruplar suallar verir (interaktiv müzakirə).

Tapşırıq Vərəqi – Voyage virtuel

Səviyyə: B1

Tapşırığın adı: Voyage virtuel : Découvre une ville francophone

İcra forması: Qrup / fərdi

Təqdimat forması: Slayd / poster / video / şifahi təqdimat

İcra müddəti: 1 gün

Tələbələr üçün təlimat

Missiyanız: Fransızdilli bir şəhəri (ville francophone) seçin və səyahət broşürü və ya təqdimat hazırlayın. Aşağıdakı suallara cavab verərək şəhəri tanıdın:

1. Nom de la ville :
2. Pays :
3. Sites touristiques à visiter :
4. Spécialités culinaires :
5. Moyens de transport :
6. Climat :
7. Activités à faire :
8. Pourquoi recommander cette ville ?

Təqdimat formatı: Google Slides, Canva, afişa, video və ya şifahi təqdimat.

Qiymətləndirmə Rubrikası – "Voyage virtuel" tapşırığı

Səviyyə: B1

Ümumi bal: 20

Qiymətləndirmə meyarı	Təsviri	Maksimum bal
Mövzunun açıqlığı və məzmun	Tapşırıq suallarına tam cavab verilib, maraqlı və informativ faktlar təqdim olunub	5 bal
Dil və qrammatika düzgünlüyü	Qrammatik və leksik səhvlər minimumdur. B1 səviyyəsinə uyğun ifadələrdən istifadə olunur.	5 bal
Şifahi ifadə və təqdimat	Nitq axıcı, aydın, vurğular düzgün, təqdimat	5 bal

bacarığı	maraqlı və inandırıcıdır	
Vizual dizayn və yaradıcılıq	Slayd/poster/video tərtibatı estetik, yaradıcı və aydın strukturlaşdırılmışdır	5 bal

Qiymətləndirmə cədvəli (cəmi): /20 bal

- 17–20 bal – Əla
- 13–16 bal – Yaxşı
- 9–12 bal – Kafi
- 0–8 bal – Təkmilləşmə tələb olunur.

Aşağıda B1 səviyyəsində tələbələr üçün "Video müsahibə" tapşırığı təqdim olunur. Tapşırıq rəqəmsal təlim və fransız dili öyrənmə təcrübəsi mövzusuna əsaslanır və kommunikativ bacarıqların inkişafını hədəfləyir.

Tapşırıq: Video-interview – "Mon expérience avec le français et le numérique"

Səviyyə: B1

Növü: Şifahi təqdimat / müsahibə (interview vidéo)

Məqsəd: Fransız dilində sual vermə və cavablandırma bacarıqlarının inkişafı; rəqəmsal alətlər barədə danışmaq

Müddət: 2–3 dəqiqəlik video

Tapşırığın təlimatı (tələbələr üçün)

Müəllim təlimat verir : Siz cütlük və ya qrup şəklində işləyirsiniz. Aşağıdakı mövzuda bir-birinizə suallar verərək qısa müsahibə formatında video çəkin:

Mövzu: Ma relation avec la langue française et les outils numériques

(Mənim fransız dili və rəqəmsal texnologiyalara münasibətim)

Nümunə suallar :

1. Depuis quand apprends-tu le français ?
2. Qu'est-ce que tu aimes dans cette langue ?
3. Est-ce que tu utilises des applications pour apprendre le français ? Lesquelles ?
4. Tu préfères apprendre avec des livres ou avec des outils numériques ? Pourquoi ?
5. Quel est ton site ou application préféré(e) pour apprendre ?
6. Est-ce que tu regardes des vidéos ou écoute des podcasts en français ?

Müəllim üçün tövsiyə

- Video müsahibələrə dərs prosesində baxıla və rəy verilə bilər.
- Padlet, Flipgrid və ya Google Drive vasitəsilə videolar paylaşmaq olar.
- Tələbələr öz suallarını da əlavə edə bilər, bu, təşəbbüsə və yaradıcı təfəkkürə imkan yaradır.

Qiymətləndirmə meyarları – Video müsahibə (15 bal)

Qiymətləndirmə meyarı	Təsviri	Bal (maks.) |
Mövzunun açılması və məzmun	Cavablar tam və mövzuya uyğun, konkret fikirlər və nümunələr verilir	5 bal
Qrammatika və söz ehtiyatı	B1 səviyyəsinə uyğun qrammatik quruluşlar və düzgün lüğət istifadəsi	4 bal
Tələffüz və şifahi ifadə bacarığı	Axıcı danışıq, aydın və anlaşılan tələffüz	3 bal
Yaradıcılıq və komanda işi	Müsahibənin təqdimatında fərdilik, maraqlı suallar və əməkdaşlıq bacarığı	3 bal

Cəmi: 15 bal

- 13–15 bal – Əla
- 10–12 bal – Yaxşı
- 7–9 bal – Kafi
- 0–6 bal – Təkmilləşmə tələb olunur.

Nəticə. Nəzəri təhlil və praktik nümunələrdən də göründüyü kimi, rəqəmsal texnologiyalar fransız dili dərslərində tədris və öyrənmə prosesini zənginləşdirir, interaktivliyi artırır və tələbələrin motivasiyasını yüksəldir, öyrənməni fərdiləşdirir və kommunikativ bacarıqları inkişaf etdirir. CECRL və approche actionnelle çərçivəsində texnologiyalar, real tapşırıqların yerinə yetirilməsi tələbələrin rəqəmsal bacarıqlarının inkişafını təmin edir. Lakin bu texnologiyaların səmərəli tətbiqi üçün müəllimlərin peşəkar inkişafı, texnoloji infrastrukturun gücləndiril-

məsi və metodoloji dəstəyin təmin olunması vacibdir.

Problemin aktuallığı. Xarici dillərin, xüsusilə fransız dilinin öyrənilməsində texnologiyanın rolu, rəqəmsallaşan dünyada təhsilin daimi transformasiyası məsələləri, müasir dövrdə dil tədrisinin aktuallığını ön plana çəkir.

Problemin elmi yeniliyi. Fransız dili dərslərində rəqəmsal təlim: tədris və öyrənmə texnologiyalarının araşdırılmasının məqsədi və vəzifələri, əsasən, fransız dili dərslərində rəqəmsal vasitələrin effektivliyini araşdırmaq, müəllim və tələbələrin texnoloji resurslara münasibətini təhlil etmək, ən uyğun rəqəmsal alət və platformaları müəyyənləşdirmək, praktik nümunələr əsasında metodik yanaşmaları təqdim etməkdən ibarətdir.

Problemin praktik əhəmiyyəti. Müasir dövrdə rəqəmsal texnologiyaların təhsildə rolu əhəmiyyətli dərəcədə artmışdır. Fransız dili dərslərində bu texnologiyaların tətbiqi, tələbələrin motivasiyasını artırmaq, öyrənmə prosesini fərdiləşdirmək və interaktivliyi təmin etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Məqalənin məqsədi, fransız dili dərslərində rəqəmsal texnologiyaların tətbiqinin effektivliyini araşdırmaq və bu sahədə mövcud problemləri təhlil etmək, müvafiq tövsiyələr verməkdir.

Ədəbiyyat:

1. Ishibie, C. I. (2025). The Impact of Digital Technologies on French Language Learning. Cascades Journal, 2025, 3(1), pp. 33–39. [Link](https://cascadesjournal.com/index.php/cascades/article/view/73)
2. El Gazi, S., & Ibrahimi, A. Digital literacy and teaching and learning of French as a foreign language. World Journal of Advanced Engineering Technology and Sciences, 2024, 12(02), 841–852
3. Сысоев П. В. Вики технология в обучения иностранному языку. file:///C:/Users/user/Downloads/viki-tehnologiya-v-obuchenii-inostrannomu-yazyku%20(4).pdf
4. Сысоев П.В., Евстигнеев М.Н. Методика обучения иностранному языку с использованием новых информационно-коммуникационных Интернет-технологий : учеб.- метод. пособие. -М. : Глосса-Пресс ; -Ростов н/Д : Феникс, -2010.
5. Сысоев П.В., Евстигнеев М.Н. Технологии Веб 2.0: Социальный сервис вики в обучении иностранному языку // Иностранные языки в школе. 2009. № 5. С. 2–8.
6. Маркова Ю.Ю. Методика развития умений письменной речи студентов на основе вики-технологии (английский язык, языковой вуз) : дис. … канд. пед. наук. -М. : МГГУ им. М.А. Шолохова, -2011.

Redaksiyaya daxil olub: 12.09.2025.

UOT 372.881.111.1

Fəxriyyə Imran qızı Zahidova
Azərbaycan Dillər Universitetinin müəllimi
https://orcid.org/0000-0003-4842-4083
E-mail: fakhriyyazahidova@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).135-140

XARİCİ DİLLƏRİN TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRİ

Fakhriye Imran Zahidova
lecturer at Azerbaijan University of Languages

ACTUAL PROBLEMS OF FOREIGN LANGUAGE TEACHING

Фахрие Имран гызы Захидова
преподаватель Азербайджанского Университета Языков

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ

Xülasə. Məqalə müasir dövrdə xarici dillərin, xüsusilə ingilis dilinin öyrənilməsinin aktuallığını və tədrisində qarşıya çıxan əsas problemləri araşdırır. Məqalədə dil öyrənilməsinin şəxsi inkişaf, peşəkar fəaliyyət və qlobal əməkdaşlıq baxımından əhəmiyyəti vurğulanır. İngilis dilinin tədrisində qarşılıqlı ünsiyyət və kommunikasiya əsas rol oynayır, çünki dil mənimsənilməsi sinif daxilində aktiv qarşılıqlı fəaliyyət və mənanın müzakirəsi yolu ilə həyata keçirilir. Məqalədə həmçinin uşaqlarda erkən yaşdan dil öyrənmənin üstünlükləri, psixoloji baryerlər və məktəb proqramlarının mürəkkəbliyi kimi çətinliklər qeyd olunur. Ali məktəb səviyyəsində isə tələbələrin peşəkar terminologiya və mədəni kontekstə uyğun kommunikasiya bacarıqlarını inkişaf etdirməsi vacib hesab olunur. Məqalə göstərir ki, qrammatik biliklər, söz ehtiyatı, qarşılıqlı ünsiyyət və kontekstual anlayışların inteqrasiyası xarici dil tədrisinin effektivliyi üçün əsas şərtlərdir.
Açar sözlər: *xarici dilin tədrisi, qarşılıqlı ünsiyyət, pedaqoji metodika, dil bacarıqları, tapşırığa əsaslanan tədris*

Abstract. The article examines the relevance of learning foreign languages, particularly English, in the modern era and explores the main challenges encountered in their teaching. It emphasizes the significance of language learning for personal development, professional activity, and global cooperation. Interaction and communication play a central role in English language teaching, as language acquisition occurs through active classroom engagement and the discussion of meaning. The article also highlights the advantages of early language learning in children, psychological barriers, and the complexity of school curricula as key challenges. At the university level, it is essential for students to develop communication skills aligned with professional terminology and cultural context. The study concludes that the integration of grammatical knowledge, vocabulary, interaction, and contextual understanding is fundamental for effective foreign language teaching.
Keywords: *foreign language teaching, interaction, pedagogical methodology, language skills, task-based teaching*

Аннотация. Статья исследует актуальность изучения иностранных языков, особенно английского в современном мире, и рассматривает основные проблемы, возникающие в процессе их преподавания. Подчеркивается значимость изучения языка для личностного развития, профессиональной деятельности и глобального сотрудничества. В обучении английскому языку ключевую роль играют взаимодействие и коммуникация, поскольку освоение языка осуществляется через активное участие в классе и обсуждение смыслов. В статье также отмечаются преимущества раннего изучения языка детьми, психологические барьеры и сложность школьных программ как основные трудности. На уровне вузов важно, чтобы студенты развивали навыки коммуникации с учетом профессиональной терминологии и культурного контекста. Статья показывает, что интеграция грамматических знаний, словарного запаса, взаимодействия и контекстного понимания является основным условием эффективности преподавания иностранного языка.

Ключевые слова: *преподавание иностранного языка, взаимное общение, педагогическая методика, языковые навыки, обучение на основе заданий*

Müasir dünyada qloballaşma proseslərinin sürətlənməsi nəticəsində xarici dillərin, xüsusilə də ingilis dilinin öyrənilməsi insanların şəxsi inkişafı və peşəkar fəaliyyətində mühüm rol oynayır. Xarici dil biliklərinə olan maraq təsadüfi deyil, çünki bu maraq müxtəlif ictimai, iqtisadi və mədəni amillərlə bağlıdır. İnsanlar xarici dilləri yalnız gündəlik ünsiyyət vasitəsi kimi deyil, həm də yeni biliklərə yiyələnmək, beynəlxalq əməkdaşlıqda fəal iştirak etmək, elmi və texnoloji nailiyyətlərdən xəbərdar olmaq üçün öyrənməyə çalışırlar. Bununla belə, bu istiqamətdə marağın artması öyrənmə prosesində müəyyən çətinliklərin də meydana çıxmasına səbəb olur. Bu çətinliklər həm metodiki yanaşmaların yetərsizliyi, həm də öyrənənlərin psixoloji hazırlığı və dilin struktur xüsusiyyətləri ilə əlaqədar ola bilər.

Hazırkı dövrdə ən çox diqqət mərkəzində olan və tədrisdə üstün mövqe qazanan xarici dil ingilis dilidir. Digər dillər – alman və fransız dilləri də müxtəlif ölkələrdə öyrədilir, lakin onların tətbiq sahəsi və öyrənilmə səviyyəsi ingilis dili ilə müqayisədə xeyli məhduddur. İngilis dili həm orta məktəblərdə, həm də ali təhsil müəssisələrində əsas xarici dil kimi seçilir və qlobal miqyasda daha geniş imkanlar yaratdığı üçün üstünlük təşkil edir.

Bundan əlavə, ingilis dili yalnız təhsil mühitində deyil, həm də beynəlxalq münasibətlərdə, diplomatiyada, biznes mühitində, informasiya texnologiyalarında, kütləvi informasiya vasitələrində və mədəniyyətlərarası dialoqda aparıcı mövqeyə malikdir. Dünyanın əlli-dən çox ölkəsində rəsmi dövlət dili statusunda çıxış etməsi bu dilin nüfuzunu daha da artırır. Beləliklə, ingilis dilinin öyrənilməsi həm fərdi inkişaf, həm də cəmiyyətin qlobal sistemə inteqrasiyası baxımından vacib hesab olunur.

İngilis dilinin xarici dil kimi (EFL) öyrənilməsi və tədrisində qarşılıqlı ünsiyyət (interaction) tələbə, müəllim, dərs vəsaiti və resurslardan başqa, əsas və təməl elementlərdən biridir. Bu prosesdə açar anlayış kimi "kommunikasiya" çıxış edir və müəllim əsas təşəbbüskar rolunu oynayır. Başqa sözlə desək, ingilis dili öyrənilməsi və tədrisi yalnız qarşılıqlı ünsiyyət və kommunikasiya mövcud olduqda həyata keçirilə bilər. Kommunikasiya olmadan qarşılıqlı ünsiyyət mövcud deyil və eyni zamanda, qarşılıqlı ünsiyyət olmadan öyrənmə və tədris fəaliyyətləri mümkün deyil.

Bundan əlavə, qarşılıqlı ünsiyyət çərçivəsində xarici dilin öyrənmə və tədris prosesinin nəticəsi əsasən dil mənimsənilməsi ilə bağlıdır. Dil mənimsənilməsi isə sinif daxilindəki qarşılıqlı ünsiyyətin keyfiyyətindən birbaşa asılıdır. Bu, Li və Walş tərəfindən qeyd olunduğu kimi müəllimin qarşılıqlı ünsiyyətə dair inam və düşüncələrini əhatə edir: "Müəllimin inamları qarşılıqlı ünsiyyət mərkəzində olmalıdır: tədris, öyrənmə, şagirdlər, predmet məzmunu və peşəkar inkişaf – bütün bunlar tam başa düşülməsi üçün qarşılıqlı ünsiyyəti tələb edir" [6, 42]. Burada müəllimin rolu xüsusilə önəmlidir. O, öyrənmənin "qarşılıqlı ünsiyyət vasitəsilə deyil, qarşılıqlı ünsiyyət içində baş verdiyini" vurğulaya bilməlidir [8, s. 42].

Bu yanaşma göstərir ki, dil mənimsənilməsi prosesi qarşılıqlı ünsiyyət çərçivəsində həyata keçirilir; yəni sinifdə şəxslər arasında dil istifadəsi və mənanın müzakirəsi yolu ilə baş verir. Bu fikir dil nəzəriyyələri tərəfindən də dəstəklənir: söhbət kommunikasiya prosesinin bir hissəsi, dil mənimsənilməsinin əsas elementi və dilin öyrənilməsində mərkəzi fokusdur.

Müasir təhsil paradigmasına əsaslanaraq, öyrənmə və tədris prosesi müəllim mərkəzli yanaşmanın əksinə tələbə mərkəzli yanaşmaya əsaslanmalıdır. Bu yanaşmada sinifdə öyrənmə fəaliyyətləri əsasən tələbələr tərəfindən idarə olunur, müəllim isə yalnız prosesə rəhbərlik edir və nəzarət edir. Müəllimin rolu müxtəlif metodlar, texnikalar və qarşılıqlı ünsiyyət modellərini tətbiq edərək tədrisin effektivliyini artırmaqdır. Misal üçün, Litlvud (2004)-də qeyd edir ki, "tələbələr tapşırığa fokuslandıqda, istifadə etdikləri dil üzərində deyil, tapşırığın yerinə yetirilməsinə diqqət yetirərək daha səmərəli öyrənə bilərlər". Başqa sözlə, qarşılıqlı ünsiyyət tapşırıq vasitəsilə həyata keçirilir və bu, tələbə–müəllim, müəllim–tələbə və tələbə–tələbə qarşılıqlı əlaqəsini yönləndirir [7].

Dil öyrənilməsi və tədrisində qarşılıqlı ünsiyyətin rolu xüsusilə önəmlidir, çünki dil yalnız kommunikasiya vasitəsi olmaqla qalmır, eyni zamanda fərdlər arasında interpersonal münasibətlərin qurulması və sosial qarşılıqlı əlaqə-

lərin təmin edilməsində əsas funksiyanı yerinə yetirir. Konstruktivist yanaşma çərçivəsində də dilin mənimsənilməsi uşağın ətraf mühitlə aktiv qarşılıqlı əlaqəsi vasitəsilə baş verir . Bu baxımdan, mənalı qarşılıqlı ünsiyyət – yəni hədəf dilində təbii kommunikasiya – dilin öyrənilməsi üçün vacib şərtdir; burada danışanlar öz ifadələrinin forması ilə deyil, ötürdükləri mesajın mənası ilə maraqlanırlar [5] .

Metod, yanaşma, dizayn və prosedur elementlərinə baxdıqda, qarşılıqlı ünsiyyət dərs prosedurlarının bir hissəsi olaraq müşahidə edilir və qarşılıqlı ünsiyyət nümunələri dərs planlamasında nəzərə alınır. Tapşırığa əsaslanan dil tədrisi (Task-Based language teaching) yanaşması da göstərir ki, öyrənmə tapşırıqları tələbələrin qarşılıqlı ünsiyyətdə olmasını təmin edən əsas vasitədir. Bu baxımdan, qarşılıqlı ünsiyyət və EFL qarşılıqlı ünsiyyət modelləri üzrə elmi müzakirələr və tədqiqat nəticələri daim aktualdır və müəllimlərin peşəkar biliklərini artırmaq, tədrisin keyfiyyətini yaxşılaşdırmaq və tələbələrin dil mənimsənilməsini gücləndirmək üçün önəmlidir. Qarşılıqlı ünsiyyət mövzusuna fərqli perspektivlərdən yanaşmaq mümkündür və hər bir yeni yanaşma öyrənmə və tədris proseslərini zənginləşdirir [8, s. 65].

Müasir dövrdə ingilis dilinin öyrənilməsi məsələsi təkcə təhsil sistemində deyil, həm də ictimai, peşəkar və mədəni müstəvidə ən mühüm çağırışlardan biri kimi dəyərləndirilir. Qloballaşma proseslərinin sürətlənməsi və beynəlxalq əməkdaşlığın genişlənməsi fonunda ingilis dili artıq sadəcə xarici dil statusundan çıxaraq, insanların sosial münasibətlərində və gündəlik həyatında mühüm kommunikasiya vasitəsinə çevrilmişdir. Bu səbəbdən, dil biliklərinə malik olmayan şəxslər iş tapmaq, xaricdə təhsil almaq və ya səyahət etmək kimi imkanlardan məhrum olduqlarını anlayır, nəticədə isə məktəb illərində kifayət qədər öyrənmədiklərinə görə təəssüflənirlər. Yetkin yaş dövründə bu dili mənimsəmək zərurəti qarşıya çıxdıqda isə proses daha çox vaxt, maddi və psixoloji resurs tələb etdiyi üçün çətinliklərə səbəb olur. Çünki insan eyni anda həm iş, həm ailə, həm də sosial öhdəliklərini yerinə yetirməyə çalışır və dil öyrənməyə sərf edə biləcəyi enerji məhdud olur. Halbuki xarici dilin mənimsənilməsi sadəcə maraq və istəklə deyil, həm də davamlı zəhmət, məqsədyönlü yanaşma və sistemli metodlarla həyata keçirilə bilər.

Psixolinqvistik tədqiqatlar təsdiq edir ki, xarici dil öyrənmək üçün ən əlverişli mərhələ insanın erkən yaş dövrüdür, çünki həmin vaxt qavrama mexanizmləri daha aktiv fəaliyyət göstərir və beynin yeni informasiyanı mənimsəmə qabiliyyəti yüksək olur. Bununla belə, praktik müşahidələr göstərir ki, orta məktəbi bitirən şagirdlərin çox az bir qismi ingilis dilini yüksək səviyyədə mənimsəyə bilir. Bu vəziyyət bir sıra mühüm sualları gündəmə gətirir: dövlətin təhsil siyasətində xarici dil öyrənməyə dair məqsədlər kifayət qədər konkret müəyyənləşdirilməmişdirmi? Yaxud ümumtəhsil məktəblərinin vəzifəsi şagirdlərə yalnız dilin bünövrəsini öyrətməklə məhdudlaşır? Bəlkə də, problemin kökündə müəllimlərin peşəkar hazırlığının tam adekvat olmaması dayanır? Digər tərəfdən, bəzi hallarda nəticənin uğurlu olub-olmaması bilavasitə şagirdin şəxsi motivasiyası, marağı və idrak fəallığından asılı ola bilər.

Valideynlərin böyük bir qismi övladlarının həm ana dilində, həm də ingilis dilində sərbəst danışa bilən ikidilli fərdlər kimi formalaşmasını arzulayır. Bununla bağlı cəmiyyətdə əsas suallardan biri də budur: xarici dil öyrənməyə başlamaq üçün ən optimal yaş dövrü hansıdır? Tədqiqatlar göstərir ki, uşaqlar erkən yaş dövründə ingilis dilini daha sürətlə qavrayır və yadda saxlayırlar, lakin bunun üçün təlim prosesi əyləncəli, oyun xarakterli və uşağın maraqlarına uyğun şəkildə təşkil edilməlidir. Əks halda, dil öyrənməyə qarşı mənfi emosional münasibət formalaşa bilər ki, bu da sonrakı mərhələlərdə ciddi dil baryeri ilə nəticələnə bilər.

Müxtəlif alimlərin araşdırmaları göstərir ki, uşaqların məlumatı ən intensiv şəkildə mənimsəmə qabiliyyəti 1,5 yaşdan 9 yaşadək davam edir. Bu dövr uşağın dil bacarıqlarının əsaslarının formalaşdığı, səs və sözləri daha asan qəbul edib yadda saxladığı bir mərhələdir. Hətta 0–1,5 yaş aralığında belə uşaqlar eşitdikləri səsləri yığaraq gələcək nitq inkişafının bazasını yaradırlar. Bu səbəbdən, körpələrin ingilis dili ilə tanışlığı üçün ən məqsədəuyğun vasitələr sadə mahnılar, uşaq şeirləri və laylalar hesab olunur [2, s. 126-128].

Xüsusilə 1,5–2 yaş aralığı uşaq inkişafında əhəmiyyətli bir mərhələdir, çünki bu dövrdə beyinin fəaliyyətinin böyük hissəsi dilin mənimsənilməsinə yönəlmiş olur. Təlim oyun formasında aparıldıqda uşaq dili sevə-sevə

öyrənir, əks halda isə məcburi öyrənmə prosesi ingilis dilinə qarşı neqativ emosional təsəvvürlərin yaranmasına gətirib çıxara bilər.

Araşdırmalar həmçinin sübut edir ki, 3–5 yaş dövrü ingilis dilinin öyrənilməsi üçün ən əlverişli mərhələlərdən biridir. Bu yaş aralığında uşağın yalnız dil bacarıqları deyil, eyni zamanda ümumi idrak qabiliyyəti də inkişaf edir. Ən önəmli məqam isə odur ki, bu dövrdə uşaqlar yeni dili istifadə etməkdən çəkinmirlər və dil baryerinə məruz qalmırlar. Əgər öyrənmə prosesinə 5 yaşdan əvvəl başlanarsa, gələcəkdə uşaqda ünsiyyət zamanı psixoloji baryer yaranmır və ingilis dili daha sərbəst şəkildə mənimsənilir.

Müasir pedaqoji və psixolinqvistik araşdırmalar göstərir ki, uşaqların 5–10 yaş aralığında ingilis dilini öyrənməyə başlaması hələ də səmərəli hesab olunsa da, bu mərhələdə müəyyən çətinliklərlə üzləşmək mümkündür. Əgər erkən yaş dövründə uşaqlar daha azad və səhvdən çəkinmədən yeni dil materialını qavrayırlarsa, 5 yaşdan yuxarı mərhələdə onların psixoloji qavrayışında dəyişikliklər baş verir və artıq səhv etmək qorxusu yaranır. Bu qorxu öyrənmə prosesini əhəmiyyətli dərəcədə çətinləşdirir, çünki uşaq öz fikrini ifadə etməkdən çəkinir və kommunikativ fəallığı zəifləyir. Ona görə də, pedaqoqlar və valideynlər bu dövrdə tədris prosesini elə təşkil etməlidirlər ki, uşağın öyrənmə zamanı səhv etməsi təbii qəbul edilsin və səhv öyrənmə prosesinin bir hissəsi kimi dəyərləndirilsin. Bu yanaşma eyni zamanda uşaqlara dilin öyrənilməsinin əsas məqsədinin qrammatik qaydaların mexaniki mənimsənilməsi deyil, ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi olduğunu göstərməlidir [1, s. 62-65].

Yaş artdıqca uşaqların idrak marağı, yəni ətraf aləmi tanımaq və öyrənmək həvəsi tədricən azalır. Eyni zamanda, ətraf mühitin, xüsusilə də həmyaşıdların və sosial qrupun rəyinin təsiri daha önəmli olur. Bu isə dil öyrənmə prosesinə müəyyən psixoloji baryerlər gətirir. Məsələn, bir çox yeniyetmə və hətta böyüklər xarici dildə danışmaqdan çəkinirlər, çünki onlar ya dili yüksək səviyyədə, demək olar ki, ana dili daşıyıcısı kimi bilməyi, ya da ümumiyyətlə danışmamağı üstün tuturlar. Bu isə insanın yaşlandıqca yeni dil mənimsənməsində daha çox çətinliklərlə üzləşdiyini göstərir, çünki psixoloji baryeri aradan qaldırmaq və ünsiyyət zamanı sərbəstlik əldə etmək getdikcə daha mürəkkəb hala gəlir [3, s. 45-47].

Təhsil sahəsində aparılan çoxsaylı tədqiqatlar sübut edir ki, uşaqlara ingilis dilini erkən yaşlardan öyrətmək təkcə mümkündür deyil, eyni zamanda zəruridir. Çünki bu mərhələdə qoyulan bünövrə sonrakı yaşlarda dilin daha asan və sistemli şəkildə mənimsənilməsinə şərait yaradır. Əsas məqsəd uşaqlara xarici dili yad bir bilik kimi deyil, gündəlik həyat və beynəlxalq ünsiyyət üçün faydalı bir vasitə kimi təqdim etməkdən ibarətdir [3, s. 45-47].

Adətən uşaqların ingilis dili ilə ilk tanışlığı məktəb mühitində baş verir. Lakin müasir dövrdə bir çox valideynlər övladlarını bu dildə ünsiyyətə daha erkən, yəni məktəbəqədər mərhələdə cəlb etməyə çalışırlar. Məktəbəqədər hazırlıq uşağın məktəbə başladıqda daha sürətli adaptasiyasına və yeni dil mühitinə öyrəşməsinə kömək edir.

Ümumtəhsil məktəblərində ingilis dilinin tədrisi, əsasən, ibtidai təhsilin ikinci sinfindən başlanır. Bununla belə, müəllimlər tədris prosesində çoxsaylı çətinliklərlə üzləşirlər. Müasir dərsliklərin məzmunu kifayət qədər mürəkkəb qurulmuşdur və bəzi hallarda onların tələbləri real vəziyyətə uyğun gəlmir. Məsələn, bir sıra dərsliklərdə uşaqlardan artıq məktəbəqədər mərhələdə ingilis əlifbasını bilmələri, ilkin söz ehtiyatına sahib olmaları, hətta sadə mahnılar oxuya və dialoqlar qura bilmələri gözlənilir. Halbuki həmin yaşda şagirdlər öz ana dilinin – məsələn, rus və ya Azərbaycan dilinin əsas qaydalarını tam mənimsəməmiş olurlar. Belə bir vəziyyətdə onlardan xarici dil üzrə mürəkkəb bacarıqların tələb olunması pedaqoji baxımdan düzgün hesab edilə bilməz. Təcrübə göstərir ki, çox vaxt müəllimlər dərs vəsaitindəki ilk tapşırıqlarda belə çətinliklərlə rastlaşırlar. Məsələn, dərslik uşaqlardan ingilis dilində mahnı oxumağı və ya sadə dialoq qurmağı tələb edir, lakin şagirdlərdə hələ dil biliklərinin ilkin bazası formalaşmadığı üçün bu onların təbii inkişafına uyğun olmur. Bundan başqa, hər yeni mərhələdə tapşırıqların mürəkkəbləşməsi öyrənmə prosesini daha da çətinləşdirir. Digər bir mühüm məqam isə ondan ibarətdir ki, orta məktəblərdə ingilis dilinə həftəlik cəmi iki və ya üç saat ayrılır. Belə bir məhdudiyyətlərlə şagirdlərin qısa müddətdə yüksək nəticə əldə etməsi, müəllimin dəstəyi olmadan

özbaşına bütün tapşırıqları yerinə yetirməsi faktiki olaraq mümkün görünmür [1].

Məktəb səviyyəsində ingilis dilinin öyrənilməsi zamanı əsas diqqət tələbələrin dilin əsas struktur və funksiyalarını mənimsəməsinə yönəldilir. Bu mərhələdə qarşılıqlı ünsiyyət və kommunikativ bacarıqların inkişafı hələ ilkin səviyyədə formalaşır, tələbələr qrammatik qaydaları öyrənir, sadə dialoqlar qurur və gündəlik ünsiyyət mövzularında praktika əldə edirlər. Məktəb dövründə formalaşan bu ilkin bilik və bacarıqlar, xüsusilə qrammatik şüurluluq və söz ehtiyatının artırılması, tələbələrin ali təhsilə keçidində təməl rol oynayır.

Ali məktəbə keçid dövründə isə öyrənmə mühiti daha mürəkkəb və hədəf yönümlüdür. Burada tələbələr artıq ixtisas fənləri üzrə peşəkar dil və ünsiyyət bacarıqlarını inkişaf etdirməli, texniki və professional terminologiya ilə işləməyi öyrənməlidirlər. Məktəb səviyyəsində əldə edilmiş əsas dil bilikləri onların ixtisas sahəsinə uyğun kommunikasiya bacarıqlarını inkişaf etdirməsinə xidmət edir. Məsələn, elektrik mühəndisliyi və proqramlaşdırma ixtisaslarında tələbələr texnologiya ilə ünsiyyət bacarıqlarını, idarəetmə sahəsində isə insanlararası kommunikasiya bacarıqlarını inkişaf etdirməlidirlər.

Ali məktəb mühitində qarşılıqlı ünsiyyət və mədəni kontekstin əhəmiyyəti daha da artır. Tələbələr yalnız dil qaydalarını mənimsəməklə kifayətlənməməli, həm də müxtəlif mədəniyyətlərin və peşəkar kontekstlərin tələblərinə uyğun kommunikasiya bacarıqlarını formalaşdırmalıdırlar. Bu mərhələdə dərs vəsaiti və tədris metodikası, tələbələrin fon biliklərini, real həyatda və peşəkar sahədə qarşılaşacaqları situasiyaları nəzərə alaraq hazırlanmalıdır. Məktəb dövründə qazandıqları biliklər ali təhsildə daha mürəkkəb, funksional və kommunikativ tapşırıqları həll etmək üçün baza rolunu oynayır.

Bu keçid həmçinin tələbələrin motivasiyasını artırmaq üçün vacibdir, çünki onlar artıq öyrəndikləri dilin yalnız dərs məqsədli deyil, həm də peşəkar və sosial ünsiyyətdə real vasitə olduğunu başa düşürlər. Ali məktəbdə istifadə olunan autentik materiallar – dərsliklər, məqalələr, videolar, native speakerlərin təqdim etdiyi fonetik materiallar – tələbələrin həm dil, həm də peşəkar bacarıqlarını effektiv şəkildə inkişaf etdirməyə imkan verir [4].

Xarici dillərin tədrisində əsas problemlərdən biri məktəb səviyyəsində tələbələrin qrammatika və lüğət biliklərinin yetərli olmamasıdır ki, bu da onların peşəkar və akademik mətnləri oxuma qabiliyyətinə mənfi təsir göstərir. Məktəb dövründə formalaşmalı olan "təhsil məqsədli oxu" bacarıqları, yəni sözlərin mənasını kontekstdən çıxarma, semantik sintez və mətnin məzmununu düzgün başa düşmək qabiliyyəti, çox vaxt lazımi səviyyədə inkişaf etmir. Ali məktəbə keçdikdə tələbələr, xüsusilə ixtisas fənləri üzrə mətnləri anlamaqda çətinlik çəkir, çünki burada həm terminoloji lüğət, həm də peşəkar kontekst nəzərə alınmalıdır. Mətnin mənasını çıxarma və semantik əlaqələri qurmaq bacarıqları, söz ehtiyatının genişləndirilməsi və lüğətdən səmərəli istifadə bu problemlərin həllində əsas vasitələrdir. Təcrübə göstərir ki, tələbələrin analitik və sintetik bacarıqlarının inkişafı, kontekstual və leksik ipuclarından istifadə etməsi onların oxu və anlama səviyyəsini əhəmiyyətli dərəcədə artırır. Beləliklə, məktəb və ali məktəb səviyyəsində xarici dilin tədrisi zamanı qarşılıqlı əlaqə, mədəni kontekst və peşəkar terminologiyanın inteqrasiyası, tələbələrin həm danışıq, həm də oxu bacarıqlarının səmərəli inkişafı üçün əsas şərtlərdən biridir

Problemin aktuallığı. Müasir dünyada qloballaşmanın sürətlənməsi ingilis dilinin öyrənilməsini həm fərdi inkişaf, həm də peşəkar fəaliyyət üçün vacib edir. Məktəb və ali təhsil müəssisələrində ingilis dili əsas xarici dil kimi öyrədilir və qlobal əməkdaşlıqda iştirak üçün əsas vasitə rolunu oynayır. Bununla belə, tələbələr arasında dilin mənimsənilməsi səviyyəsi müxtəlifdir və qarşılıqlı ünsiyyətin effektivliyi hələ də kifayət qədər təmin olunmur. Məktəb səviyyəsində qrammatika və söz ehtiyatının yetərsizliyi, müəllimlərin metodik hazırlığının çatışmazlığı öyrənmə prosesində əsas çətinliklərdən biridir. Bu səbəbdən ingilis dilinin öyrənilməsi və tədrisində qarşılıqlı ünsiyyətin rolu aktuallığını qoruyur.

Problemin elmi yeniliyi. Məqalə ingilis dili öyrənilməsində qarşılıqlı ünsiyyət və kommunikasiya proseslərinin sinifdə tətbiqinə yeni elmi yanaşmalar təklif edir. Tədqiqat konstruktivist və tələbə mərkəzli öyrənmə prinsiplərini nəzərə alaraq, dilin mənimsənilməsinin interaktiv və tapşırığa əsaslanan üsullarla həyata keçirilməsini vurğulayır. Erkən yaş dövründə dil öyrənmənin psixolinqvistik aspektləri araşdırılır və öyrənmə strategiyalarının uşaqların idrak və motivasiya səviyyəsinə uyğunlaşdırılması təklif olunur. Məqalə müəllimlərin peşəkar hazırlığı və dərs metodikasının qarşılıqlı ünsiyyət əsasında təkmilləşdirilməsinin elmi əsaslarını təqdim edir.

Problemin praktik əhəmiyyəti. Tədris prosesində qarşılıqlı ünsiyyətin inkişaf etdirilməsi tələbələrin danışıq, dinləmə və yazı bacarıqlarını gücləndirir. Bu yanaşma həm məktəb, həm də ali təhsil səviyyəsində dilin real kommunikativ məqsədlərlə öyrənilməsinə şərait yaradır. Müəllimlər və pedaqoqlar üçün effektiv metod və tapşırıq modellərinin tətbiqi öyrənməni daha səmərəli edir. Tələbələr öyrəndikləri dili yalnız dərs məqsədli deyil, həm də sosial və peşəkar ünsiyyətdə istifadə edə bilirlər.

Ədəbiyyat:

1. Иванова, Л. А. Методика преподавания английского языка детям младшего школьного возраста. -Санкт-Петербург: Каро, -2020. -с. 62–65.
2. Ильченко Д.А., Макарова О.С. Феномен возникновения социальных и психологических барьеров при отклонении языковых норм в иностранном языке. Modern Science. -2020. № 5-4. -с. 126-128.
3. Петрова, И. В. Раннее обучение иностранным языкам: психолингвистические аспекты. -Москва: Просвещение, 2019. -с. 45–47.
4. Милруд Р.П., Гончаров А.А. Теоретические и практические проблемы обучения пониманию коммуникативного значения иностранных текстов // Иностранные языки в школе. – 2003. – № 1.
5. Krashen, Stephen. 2005. Stephen Krashen’s Theory of Second Language Acquisition. Retrieved from http://www.sk.com.br/sk-krash.html at 16th March 2009
6. Li, L., & Walsh, S. (2011). Materials in ELT: Context, Creativity and Critical Thinking. Cambridge: Cambridge University Press, s.42
7. Littlewood, William. 2004. Task-Based Learning of Grammar. www.privatewww.essex.ac.uk/~vanton/ 30 July 2015
8. Willis, J. (2000). A Framework for Task-Based Learning. -London: Longman, in Li & Walsh, 2011:42.

Redaksiyaya daxil olub: 12.09.2025.

UOT 372.881.11

Gülgün Sərxan qızı Novruzova
Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasının müəllimi
https://orcid.org/0009-0003-9066-5830
E-mail:gulgun.qenberova.94@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(5).141-145

XARİCİ DİL MÜƏLLİMLƏRİ ÜÇÜN YAZI BACARIĞININ İNKİŞAFINA DAİR EFFEKTİV TƏDRİS STRATEGİYALARI

Gulgun Sarkhan Novruzova
lecturer acher of the department of Pedagogy at Azerbaijan University of Languages

EFFECTIVE TEACHING STRATEGIES FOR FOREIGN LANGUAGE TEACHERS TO DEVELOP WRITING SKILLS

Гюльгюн Сархан гызы Новрузова
преподаватель кафедры Педагогики Азербайджанского Университета Языков

ЭФФЕКТИВНЫЕ СТРАТЕГИИ ОБУЧЕНИЯ ДЛЯ УЧИТЕЛЕЙ ИНОСТРАННЫХ ЯЗЫКОВ ПО РАЗВИТИЮ НАВЫКОВ ПИСЬМЕННОЙ РАБОТЫ

Xülasə. Xarici dildə yazı bacarığı şagirdlərin fikirlərini yazılı şəkildə məntiqli, səlis və təsirli ifadə etmələri üçün əsas dil bacarığıdır. Bu bacarığın inkişafı yalnız qrammatik qaydaların və lüğətin mənimsənilməsi ilə məhdudlaşmır, eyni zamanda fikirlərin düzgün strukturlanması, məzmunun ardıcıllığı və yaradıcı yanaşmanın tətbiqini tələb edir. Yazı bacarığının formalaşması çoxsahəli bir prosesdir və bu prosesdə şagirdlərin tənqidi düşünmə, planlaşdırma və ünsiyyət qabiliyyətləri də inkişaf etdirilir. Səmərəli yazı tədrisi mərhələli şəkildə aparılmalı, hazırlıq, yazı, redaktə, korrektə və təqdimat kimi əsas mərhələlərə əsaslanmalıdır. Tədris prosesində şagirdlər əvvəlcə mövzu ilə tanış olur, fikirlərini planlaşdırır, sonra sərbəst şəkildə yazını yazır, daha sonra məzmun və quruluş baxımından redaktə edir, dil və qrammatika səhvlərini düzəldir və nəhayət yazını təqdim edirlər. Bu mərhələlər yazı prosesini sistemləşdirir və şagirdlərin yazı bacarıqlarını ardıcıl şəkildə inkişaf etdirməsinə şərait yaradır. Yazı bacarığının inkişafında model mətnlər üzərində iş, mərhələli yazı prosesi, qrup işi, qrafik təsvirlər və yaradıcı tapşırıqlar kimi müxtəlif praktiki strategiyalar istifadə olunur ki, bunlar şagirdlərin həm dil biliklərini, həm də kommunikativ və yaradıcı qabiliyyətlərini artırır. Bu yanaşmalar şagirdlərin dilə olan münasibətini gücləndirir, onları daha sərbəst və özünəinamlı ifadə etməyə hazırlayır və ümumilikdə xarici dili daha səmərəli öyrənmələrinə imkan yaradır.

Məqalədə xarici dil müəllimlərinin yazı bacarığını inkişaf etdirməyə yönəlmiş müasir və effektiv tədris strategiyaları araşdırılır və onların praktik tətbiqi üsulları izah olunur.

Psixoloji işi humanist tərbiyə, o cümlədən mənəvi tərbiyə sisteminin qurulmasına yönəldərkən psixoloqun qarşısında iki vəzifə durur. Birincisi, müəllimlər, şagirdlər və onların valideynləri arasında məhsuldar əməkdaşlıq üçün əlverişli sosial-psixoloji şəraitin yaradılması yolu ilə humanist münasibətlər, rahat ünsiyyət qurmaqdır. İkincisi, fərdi böyüməyə, təhsil sisteminin subyektlərinin özünü həyata keçirməsinə kömək göstərir.

Bu problemlərin həlli üçün mənəvi tərbiyə sisteminin inkişafının müxtəlif mərhələlərində rolu dəyişən sosial-psixoloji xidmət lazımdır.

Birinci mərhələdə (sistemin yaradılması) psixoloqun qarşısında duran əsas vəzifələr sistemin subyektləri arasında münasibətlərdə ali təhsil müəssisəsində mövcud vəziyyətdən pedaqoji kollektiv və tələbələrin narazılığının səbəblərini aşkarlamaqdır.

İkinci mərhələdə (sistemin sabit işləməsi) psixoloqun qarşısında duran prioritet vəzifələr müxtəlif qruplar daxilində subyektlərin uğurlu qarşılıqlı əlaqəsini dəstəkləmək, tələbələrin yaradıcılığını, müstəqilliyini, liderlik keyfiyyətlərini inkişaf etdirmək, onların və müəllimlərinin psixoloji yüklənməsinin qarşısını almaq və aradan qaldırmaq, psixoloji meyarlara uyğun olaraq təhsil sisteminin səmərəliliyini qiymətləndirməkdir.

Üçüncü mərhələdə (müəyyən edilmiş sistem) psixoloji maarifləndirmə, tərbiyə, eyni zamanda mənəvi tərbiyə sahəsində pedaqoji və

psixoloji diaqnostika və pedaqoji və psixoloji ekspertiza vəzifələri ön plana çıxır. Tələbələrin şəxsi inkişafı və müəllimlərin peşəkar inkişafı üçün psixoloji dəstək proqramını həyata keçirmək lazımdır.

Dördüncü mərhələdə (sistemin yenilənməsi və yenidən qurulması) əsas vəzifə məktəb həyatının əsas sahələrinin yenilənməsi üçün yaranan ehtiyacların vaxtında psixoloji təhlilidir. Belə həqiqəti anlamaq lazımdır ki, "İnsanın şəxsiyyəti yalnız fəaliyyətdə formalaşır və təzahür edir."

Mənəvi tərbiyə prosesində ən yüksək nəticə aşağıdakı şərtlər yerinə yetirildikdə əldə edilir:

a) tələbələrdə öyrənməyə fəal münasibətin formalaşdırılması;

b) mühazirə və seminar məşğələlərində tədris materialının müəyyən ardıcıllıqla təqdim edilməsi;

c) zehni və praktik fəaliyyətin müxtəlif üsullarının məşqlərində nümayişi və möhkəmləndirilməsi;

ç) biliklərin praktikada tətbiqi.

Şəxsiyyətin sosial təcrübəyə yiyələnməsinin assosiativ-refleksiv konsepsiyası çərçivəsində konsepsiyanın formalaşması nəzəriyyəsi işlənib hazırlanmışdır. Onun mahiyyəti ondan ibarətdir ki, təlim prosesi qazanılmış biliklərin ümumiləşdirilməsi və müəyyən anlayışların formalaşması kimi başa düşülür. Bu zaman anlayış tədqiq olunan hadisəyə aid olan biliyin məna, abstraksiya və ümumiləşdirilməsi yolu ilə assosiasiyaların nəticəsi kimi başa düşülür. Konsepsiyanın mənimsənilməsinə, tələbələrə zehni fəaliyyətin üsullarını - müqayisə, ümumiləşdirmə, mücərrədləşməni öyrətməyə çox diqqət yetirilir.

Öyrənmənin idrak nəzəriyyələri (J. Piaget, L. Kohlberg, D. Bruckner, S. Peipert) təlimin əsas hissəsinə - qavrayış, yaddaş, təfəkkür və müasir informasiya nəzəriyyəsinin nailiyyətlərindən istifadə daxil olmaqla, idrak proseslərinə əsaslanır.

Tələbələrin psixi inkişafı və onun təlim prosesi ilə qarşılıqlı münasibəti məsələsi istər pedaqoqların, istərsə də psixoloqların diqqət mərkəzində olmuşdur.

A. Bine, A.Ştern, İ. Piaje və b. Məktəblilərin təlim fəaliyyətinin yaş xüsusiyyətlərindən, inkişaf səviyyəsindən asılı olduğunu sübuta yetirməyə səy göstərmişlər..

Belə ki, İ. Piaje V. Şternin fikrinə şərik olaraq bildirirdi ki, uşağın psixi inkişafının özünəməxsus daxili qanunları vardır və bəzi xüsusi mərhələlərindən keçir.

İ. Piajeyə görə, təlim inkişafa əsaslı təsir göstərməyə qadir deyildir. Odur ki, təlim inkişafa uyğunlaşdırılmalı və onun tənzim edilməsində inkişafın səviyyəsi diqqət mərkəzində daşımasıdır. dayanmalıdır. Psixi proseslərin baş verməsinin mühüm xüsusiyyətlərindən biri onun seçici xarakterə malik olması, müvafiq obyektə istiqamətlənməsidir. Bu isə, psixikamızın xassəsi olan diqqətlə əlaqələndirilir.

İdrak prosesi ilə müqayisədə diqqət xüsusi məzmun daşımır, psixi proseslərin cərəyanetmə dinamikasını səciyyələndirir, şüurun sensor, əqli və hərəki fəallığının yüksək səviyyəsini nəzərdə tutan mərkəzləşməsidir.

Problemin psixoloji əsaslarından danışılarkən ***fəaliyyət nəzəriyyəsini*** *yaddan çıxarmaq olmaz.* ***Fəaliyyət nəzəriyyəsi*** (A.N. Leontyev, P.Ya. Qalperin və başqaları) üç əsas prinsipə əsaslanırlar:

1) psixikanın sadəcə olaraq ətraf aləmin əksi, obrazlar sistemi kimi deyil, hərəkətlər sistemi kimi ideyası;

2) insanın psixi inkişafının sosial mahiyyətinin tanınması;

3) maddi və əqli fəaliyyətin vəhdəti. O, motivasiyalı və məqsədyönlü problemlərin həlli yolu ilə sosial təcrübənin aktiv-tədqiqat assimilyasiyası prosesinə aydınlıq gətirir.

Problemin həlli, nəticənin yoluna çatmaq üçün onun vəziyyətini dəyişdirmək mümkün olan bir hərəkət tapmaqdan ibarətdir.

Fəaliyyət nəzəriyyəsinin ayrı-ayrı sahələrini tərtib edənlər fəaliyyətin vahid strukturunun müxtəlif komponentlərinə (D.B. Elkoninin substantiv ümumiləşdirmə nəzəriyyəsi; V.V. Davydovun, P.Ya. Qalperinin - N.F. Talyzinanın, sosial öyrənmə nəzəriyyəsi və s.) diqqəti cəlb etmişlər. İnkişafa əsaslanan öyrənmə və tərbiyə nəzəriyyəsi (L.S. Vıqotski, L.V. Zankov, D.B. Elkonin, V.V. Davıdov) xarici təsirlərin təşkili (məzmun və üsulları) inkişafın (təhsil) tempini və sərhədlərini əhəmiyyətli dərəcədə dəyişə biləcəyi fərziyyəsinə əsaslanır. Xüsusilə, V.V. Davıdov - D.B. Elkonin substantiv ümumiləşdirmə konsepsiyası - fərdin

intellektual xüsusiyyətlərinin formalaşmasında nəzəri biliklərin aparıcı rolu (mahiyyətli ümumiləşdirmə) mövqeyinə əsaslanır.

Həmin konsepsiyada fərd refleksiv fəaliyyət həyata keçirərək idrak prosesinin subyekti kimi çıxış edir. İnkişaf edən öyrənmə nəzəriyyəsindən fərqli olaraq, öyrənilə bilən inkişaf konsepsiyası fərdin inkişafında irsi amillərin prioritetliyinə əsaslanır. Sosial təsirlər genetik inkişaf proqramının üzərində qurulur, sanki onu "öyrədir". İnteryerləşdirmə nəzəriyyəsi (zehni hərəkətlərin mərhələ-mərhələ formalaşması - P.Ya. Qalperin, N.F. Talızina) də diqqət mərkəzində dayanmalıdır. Bu nəzəriyyə daxili psixi və xarici fiziki, maddiləşmiş insan fəaliyyətinin fundamental ümumiliyi ideyasına əsaslanır. Bu fikrə görə, əqli inkişaf, eləcə də bilik və bacarıqların mənimsənilməsi - interyerləşdirmə, yəni "materialın" (xarici) keçidi yolu ilə baş verir.

Beləliklə, psixoloqun ali məktəbin təhsil sisteminin idarəetmə subyekti kimi fəaliyyəti əsasən onun sistemin şəxsi və əlaqə komponentlərinə təsiri ilə bağlıdır. Nəticə olaraq deyə bilərik ki, səmərəli tərbiyə texnologiyaları psixoloji qanunauyğunluqların biliyinə əsaslanır, tələbələrin yaş, fərdi və cinsi xüsusiyyətlərini hesaba alır və özünü inkişaf etdirməyə və uğurlu sosiallaşmaya qadir şəxsiyyətin təşəkkülünü təmin edir.

Deyilənlərə əsasən aşağıdakı nəticəyə gəlmək mümkündür: Tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətləri səmərəli şəkildə inkişaf etdirmək üçün problemin nəzəri məsələlərini yaxşı bilmək lazımdır ki, nəzəriyyəni təcrübəyə tətbiq etmək mümkün oldun. Bu mənada problemin psixoloji, fizioloji və fəlsəfi əsaslarına aydınlıq gətirilməlidir.

Problemin aktuallığı. Tərbiyə texnologiyalarının psixoloji və fizioloji əsaslarına aydınlığın gətirilir.

Problemin yeniliyi. Tərbiyə texnologiyalarının psixoloji və fizioloji əsasları müəyyənləşdirilir.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc alimlər, doktorant və magistrantlar üçün faydalı olacaqdır.

Ədəbiyyat:

1. Abbasov, A.N. Pedaqogika: Ali təhsil müəssisələri tələbələri üçün dərslik / A.N. Abbasov, H.Ə. Əlizadə. – Bakı: Mütərcim, -2024. – 400 s.
2. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat. Ali təhsil müəssisələri tələbələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. – Bakı: Mütərcim, -2021. – 600 s.

Redaksiyaya daxil olub: 01.09.2025

UOT 37.

Ramilə Babək qızı İsmayılxanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ümumi pedaqogika kafedrasının müəllimi
https://orcid.orq/0009-0007-6566-4499
E-mail: devinismayilxanova@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).157-161

ÖZÜNÜTƏRBİYƏNİN ŞAGİRDLƏRİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA ROLU

Ramila Babek Ismayilkhanova
lecturer of the department of General pedagogy at
Azerbaijan State Pedagogical University

THE ROLE OF SELF-DISCIPLINE IN THE DEVELOPMENT OF A PUPILS' PERSONALITY

Рамиля Бабек гызы Исмаилханова
преподаватель кафедры Общей педагогики
Азербайджанского Государственного Педагогического Университета

РОЛЬ САМОВОСПИТАНИЯ В РАЗВИТИИ УЧЕНИКОВ КАК ЛИЧНОСТЕЙ

Xülasə. Müəllif yazdığı bu məqalədə qeyd edir ki, şagirdin özünütərbiyə prosesinə məktəbəqədər yaş dövründən başlamaq lazımdır. Çünki bu dövrdə şagird situasiyadan asılı olaraq fəaliyyət göstərməyə başlayır. Zaman keçdikcə onun inkişafı əldə etdiyi bilik, bacarıq və vərdişlərlə əlaqədar olaraq müəyyən istiqamətə yönəlir. Şəxsiyyət kimi formalaşaraq getdikcə daim yeniliklər yaratmağa qadir olur. Odur ki, insanın şəxsiyyət kimi formalaşmasında özünütərbiyə psixi faktor olaraq vacib yer tutur. İstər ilkin məktəb dövründə, istər yeniyetməlik dövründə şagirdlər öz məqsədlərini müəyyənləşdirmək kimi bacarıq və vərdişlərə yiyələnirlər. Şagirdlər özlərinə qarşı daha çox diqqətli, ləyaqətli olmağa çalışır, düzlüyü, doğruluğu, mənlik və şərəf hisslərini dəyərləndirirlər. Çünki onların daxili aləmində özlərinə də tanış olmayan yeni duyğuların, yeni hisslərin cizgiləri müşahidə olunmağa başlayır ki, bu da onların hərəkət və davranışına, gündəlik fəaliyyətinə təsir göstərir. Müəllif qeyd edir ki, müsbət mənəvi-əxlaqi keyfiyyətlərin yaranması və inkişafı yuxarı sinif şagirdlərinin özünütərbiyəsi ilə məşğul olmasından asılıdır.
***Açar sözlər**. Özünütərbiyə, şəxsiyyət, bacarıq, vərdiş, etika, əqli tərbiyə, yeniyetməlik, emosionallıq, fəaliyyət, əməkdaşlıq, formalaşma*

Abstract. In this article, the author posits that the process of a pupil's self-discipline should begin in the preschool years. It is during this period that they start to act based on situational context. Over time, their development is guided in a specific direction by the knowledge, skills, and habits they acquire. As they develop into individuals, they become increasingly capable of innovation. Therefore, self-discipline is a crucial psychological factor in the personality development. Throughout both primary school and adolescence, schoolchildren acquire the skills and habits necessary to define their own goals. They strive to be more attentive and dignified, valuing honesty, integrity, and a sense of self-worth and honour. This is because new, even unfamiliar, feelings and emotions begin to emerge in their inner world, influencing their actions, behaviour, and daily activities. The author notes that the formation and development of positive moral and ethical qualities in high school students is contingent upon their engagement in self-discipline.

***Keywords:** self-discipline, personality, skill, habit, ethics, intellectual upbringing, adolescence, emotionality, activity, cooperation, formation.*

Аннотация. В данной статье автор утверждает, что процесс самовоспитания любого ученика должен начинаться в дошкольном возрасте. Именно в этот период они начинают действовать в зави-

симости от ситуации. Со временем их развитие перенаправляется в определённое русло благодаря приобретаемым знаниям, умениям и навыкам. По мере развития они становятся всё более способными к инновациям. Таким образом, самовоспитание является важным психологическим фактором в развитии личности. На протяжении всего периода обучения в начальной школе и в подростковом возрасте школьники приобретают умения и навыки, необходимые для определения своих собственных целей. Они стремятся быть более внимательными и достойными, ценя честность, целостность, чувство собственного достоинства и честь. Причиной этого является появление в их внутреннем мире новых, даже незнакомых чувств и эмоций, которые влияют на их действия, поведение и повседневную деятельность. Автор отмечает, что формирование и развитие положительных моральных и этических качеств у старшеклассников зависит от их самовоспитания.

Ключевые слова: *самовоспитание, личность, умение, навык, этика, интеллектуальное воспитание, подростковый возраст, эмоциональность, деятельность, сотрудничество, формирование*

Cəmiyyətin əsas məqsədi hərtərəfli inkişaf etmiş insan yetişdirməkdən ibarətdir. Bu fikir Təhsil Qanununda da geniş əks olunmuşdur. Bu işdə əsas məsuliyyət ailə ilə bərabər məktəbin də üzərinə düşür ki, burada uşağın əqli, fiziki, estetik, etik, əxlaqi cəhətdən formalaşdırılması nəzərdə tutulur. Bəs şagirdin hərtərəfli inkişaf etdirilməsi prosesi necə aparılmalıdır? Bildiyimiz kimi insanın inkişafı və formalaşması yaşadığı müddətcə göstərəcəyi fəaliyyətlə bağlıdır. Fəaliyyət onun bacarıqlar və vərdişlər əldə etməsinə və yeni-yeni xüsusiyyətlər qazanmasına təkan verir. Fəaliyyət nəticəsində insanın daxili və xarici qüvvələri, həm də fiziki səyi təkmilləşmiş olur. Bildiyimiz kimi insan fəaliyyətini bir istiqamətə yönəldərsə, inkişafı da o istiqamətə yönəlmiş olur. Bütün tarixi dövrlərdə, eyni zamanda müasir dövrdə əsas məqsəd müəyyən bilik-bacarığa yiyələnmiş, texnoloji biliklərdən baş çıxaran, rəqabətə davam gətirə bilən və öz fəaliyyətini daima yeniliklər üzərində qurmağa çalışan şəxsiyyət yetişdirməkdən ibarətdir. Odur ki, indiki gəncliyin çoxtərəfli və çoxistiqamətli inkişafını təmin etmək lazımdır.

Bildiyimiz kimi uşaq fərd kimi dünyaya gəlsə də inkişafa meylli qabiliyyətlərlə doğulur. Şəxsiyyət kimi formalaşaraq getdikcə daim yeniliklər yaratmağa qadir olur. Odur ki, insanın şəxsiyyət kimi formalaşmasında özünütərbiyə psixi faktor olaraq vacib yer tutur. Bəs şagirdin özünütərbiyə prosesi hansı yaş dövründən başlanır? Tədqiqatlar göstərir ki, şagirdin özünütərbiyə prosesinə məktəbəqədər yaş dövründən başlamaq lazımdır. Çünki bu dövrdə şagird situasiyadan asılı olaraq fəaliyyət göstərməyə başlayır. Zaman keçdikcə onun inkişafı əldə etdiyi bilik, bacarıq və vərdişlərlə əlaqədar olaraq müəyyən istiqamətə yönəlir. Sonra şagirdin ilkin məktəb dövrü başlanır. Bu dövrdə onlar hər şeyə qarşı daha həvəsli olur, verilən məsləhətlərə, tövsiyələrə həssaslıqla yanaşır, ona verilən tapşırıqları həvəslə yerinə yetirməyə başlayırlar. Həm özlərini, həm də ətraf mühiti müşahidə etməyə, yaxşını pisdən seçməyə çalışırlar, müəyyən hadisələr, əşyalar haqqında fikir yürüdür və onlara qiymət verməyə həvəs göstərirlər. Növbəti yeniyetməlik inkişaf dövrüdür ki, bu dövr demək olar ki, 5-6-cı sinifləri əhatə edir. Şagirdlər sadə idman və əmək vərdişlərinə bu dövrdən başlayırlar. Bu yaş dövründə özünütərbiyə prosesinin təşkilinə az ehtimal verilir. Çünki bu yaş dövründə şagirdin bilik və bacarığı, həyat təcrübəsi, dünyagörüşü özünütərbiyə prosesinin təşkilinə kifayət etmir. Odur ki, onların mənəvi zənginləşməsində, kamilləşməsində, əxlaqının saflaşdırılmasında ailəsi, müəllim və tərbiyəçiləri də iştirak etməlidirlər.

Növbəti yaş dövrünün, yəni 12-13-cü yaşlarının özünəməxsus bir sıra xüsusiyyətləri vardır ki, şagirdlər öz məqsədlərini müəyyənləşdirmək kimi bacarıq və vərdişlərə yiyələnirlər. Yeniyetməlik dövrü əsasən 8-9-cu siniflərin əhatə etdiyi dövrdür. Bu dövrün əsas xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, şagirdlər özlərinə qarşı daha çox diqqətli, ləyaqətli olmağa çalışır, düzlüyü, doğruluğu, mənlik və şərəf hisslərini dəyərləndirirlər. Lakin bu da özünütərbiyə prosesinin əsas göstəricisi deyil. Bu dövr şagirdlərin cinsi yetişkənlik dövrü olduğundan onlarda ciddi dərəcədə həssaslıq baş qaldırır. Odur ki, bu dövrdə onlarla xüsusi qayğı və diqqətlə ilə davranmaq lazım gəlir. Çünki onların daxili aləmində özlərinə də tanış olmayan yeni duyğuların, yeni hisslərin cizgiləri müşahidə olunmağa başlayır ki, bu da onların hərəkət və davranışına, gündəlik fəaliyyətinə təsir göstərir. Bu hisslər dostluq, yoldaşlıq, bəzən də sevgi

formasında özünü göstərir. Yeniyetməlik dövrünü yaşayan qızlar və oğlanlar bu hisslərinə müəyyən don geyindirməyə çalışırlar. Ancaq yaranan utancaqlıq, emosionallıq kimi müsbət xüsusiyyətlər gözəl hisslərin, duyğuların varlığını göstərir.

Şagirdin növbəti inkişaf dövrü 10-11-ci sinifləri əhatə edən böyük məktəb yaşı dövrüdür. Bu dövrü ilkin gənclik dövrü də adlandırırlar. Əvvəlki yaş dövrlərindən fərqli olaraq bu dövrdə şagirdlər daha məntiqli, təcrübəli düşünməyə, özündə tərbiyə edəcəkləri müsbət keyfiyyətləri həyat və əmək fəaliyyətində göstərməyə çalışırlar ki, bu da onlara müsbət nəticələr gətirir.

Bu dövrdə şagirdlərə inkişafetdirici tədris materialları verməklə, eyni zamanda onları yaradıcılıq tələb edəcək, məntiqi-tənqidi inkişafını formalaşdırmağa vəsilə olan vasitələrlə məşğul etmək müsbət nəticələrə yol açır. Sonda şagirdlərlə sistemli və düşünülmüş, planlı iş aparmaq, ortaya çıxan problemləri həll etmək üçün müxtəlif yollar, vasitələr tapmaq onların həm bilik səviyyəsinin, həm mədəni səviyyəsinin, həm də dünyagörüşünün artmasına gətirib çıxarır. Nəticədə şagird təlim-tərbiyənin vacib olduğunu, faydalılığını dərk edir, Vətəni qarşısında üzərinə düşən vəzifəni anlayır, xalqına, millətinə, bir sözlə cəmiyyətimizə layiq övlad olmağa çalışır.

Ailə içərisində də ata-ana bu dövrü yaşayan şagirdlərlə səmimi ünsiyyət yaratmalı və davranışlarında son dərəcə diqqətli olmalıdır. Yəni valideynlər uşaqları ilə müstəqil bir şəxsiyyət kimi rəftar etməlidirlər ki, onların özlərinə güvənləri artsın. Ailə içərisində mövcud problemlərin müzakirəsində yuxarı sinif şagirdlərinin iştirakına, fikir yürütmələrinə, problemin həll olunmasında onların da təcrübəsindən, biliyindən istifadə etməyə şərait yaratmaq lazımdır. Bu dövrün şagirdləri onlara göstərilən məsuliyyətdən ruhlanaraq evdə özündən kiçiklərin qayğısına qalır, onların tərbiyə edilməsində iştirak etməyə çalışırlar. Bu da onların həyat təcrübəsi toplamalarına müəyyən mənada köməklik göstərir. Şagird şəxsiyyətinin formalaşmasında əmək fəaliyyəti də mühüm yer tutur. Əmək fəaliyyəti müəyyən tapşırıqların yerinə yetirilməsi, ictimai-faydalı maddi nemətlərin istehsalı ilə nəticələnəcək proses olduğundan şagirdlərin inkişafını təmin edir, onların həm fiziki, həm də zehni qabiliyyətlərini inkişaf etdirir. Rus pedaqoqu, uzun illər çətin tərbiyə olunan, sahibsiz uşaqlar koloniyasının müdiri işləmiş A.S. Makarenko bu sahədə çox böyük işlər görmüşdür. Əmək prosesindən, onun inkişafetdirici rolundan ustalıqla istifadə edərək qeyd etmişdir ki, əmək fəaliyyəti insanlarda, xüsusən uşaqlarda düzlük, doğruçuluq, kollektivçilik, ünsiyyət bacarığı, dostluq, yoldaşlıq kimi müsbət əxlaqi keyfiyyətlər tərbiyə edir.

Özünütərbiyə prosesində ən əhəmiyyətli məsələlərdən biri də şagirdlərin azad və müstəqil olmasıdır. Özünə inamı olmayan, müəyyən dərəcədə azad və müstəqil olmayan insan bütün həyatı boyu başqalarından asılı olur və müəyyən məsələlərin həllində digər insanlardan dəstək umurlar. Bu fikri şagirdlərə də şamil etmək olar. Müstəqilliyi əlindən alınan, öz fikri olmayan, daim valideynləri tərəfindən yönləndirilən şagirdlər öz düşündüklərini həyata keçirə bilmir, gələcəyə sərbəst baxış imkanları əlindən alınmış olur. Lakin əksinə, müstəqilliyə can atan uşaq və yeniyetmə məqsəd və arzularını reallaşdırmağa can atır və bunun üçün məsuliyyəti tamamilə özləri daşıyır.

Bu gün müstəqil Azərbaycan Respublikasına bu tip yeniyetmələr lazımdır və bu məsələlər üzrə lazımi tədbirlər görülür. Bunun üçün şagirdlərdə öz işlərinə və vəzifələrinə qarşı şəxsi məsuliyyət hissi yaradılmalıdır. Onların daxili aləminə, xarakterinə, psixologiyasına yaxından bələd olan müəllim, tərbiyəçi və valideyn olmalı və burada iki amil nəzərə alınmalıdır:- şagird şəxsiyyətinə təsir edərək onları fəaliyyətə istiqamətləndirən amillər; - ətraf aləmi dərk edərək şagird şəxsiyyətinə, onların daxili aləminə sirayət edən subyektiv amillər.

Qeyd edək ki, şagird şəxsiyyətinin formalaşdırılmasında özünütərbiyədən danışarkən mövcud şərait də nəzərə alınmalıdır. Şagirdlər bəzən özünütərbiyə prosesində zəiflik göstərirlər. Bu hələ onların möhkəm iradəyə malik olmamalarından qaynaqlanır və bəzən tərəddüd içərisində qalırlar. Bu problemin həllində ən mühüm məsələ onların məsuliyyətlilik dərəcəsidir ki, bəzən məsuliyyətli və məsuliyyətsiz şagirdlərə rast gəlinir. Məsuliyyət hissinə malik şagirdlər zəifliklərinin fərqinə varır, utanc hissi keçirərək onu aradan qaldırmağa can atır, səhvlərini görür və onun təkrarlanmaması üçün səy göstərirlər. Məsuliyyətsiz şagirdlər isə etdikləri

səhvin fərqinə varmır, özlərini haqlı sayır, onlara verilən tapşırıqların həll edilməməsi üçün müxtəlif bəhanələr uydurarlar. Bu zaman da ortaya əsassız problemlər çıxır. Son nəticədə belə hallar onlarda adətə çevrilir və zaman-zaman təkrarlanır. Odur ki, bu tip şagirdlərlə daim işləmək və onları düzgün yetişdirmək lazımdır, əks təqdirdə gələcək həyat fəaliyyətində hansı kollektivə düşmələrindən asılı olmayaraq onlara inam və etibar edilməyəcəkdir. Bu zaman konfliktlər baş qaldıracaq. Şagirdlərdə özünütərbiyə hissi yaratmaq üçün hələ kiçik yaşlarında qızları gələcəyin xanımı, oğlanları isə alicənab ruhda tərbiyə etmək vacibdir. Bu hissləri aşılamaq gələcəyin mərd oğul və qızlarını yetişdirmək deməkdir. Biz bu cür müsbət əxlaqi keyfiyyətlərin təbliğini və tətbiqini 44 günlük Vətən müharibəsinin timsalında gördük. Müsbət əxlaqi keyfiyyətlərin təbliğini Azərbaycanın bütövlüyü uğrunda canlarını fəda edən mərd oğul və qızlarımızın dillərə dastan olan qəhrəmanlıqlarında şahid olduq. "Təki Vətən yaşasın" deyərək hər insanın çata bilməyəcəkləri şəhidlik zirvəsinə yüksəldilər.

Yeniyetməlik dövrü şagirdlərin hisslərinin daha qabarıq özünü göstərdiyi dövrdür və müsbət əxlaqi keyfiyyətlərin bu dövrdə daha çox formalaşır. Oğlanlar igidlik, mərdlik, sözübütövlük, dürüstlük, şərəf kimi, qızlar isə abır, həya, ismət, zəriflik, incəlik, sadiqlik, əxlaq, zərafət kimi müsbət əxlaqi keyfiyyətləri qoruyub saxlayırlar. Bu cür tərbiyə olunan gələcəyin qurucuları olan şagirdlər həm özlərinin şərəfini, ləyaqətini üstün tutaraq özlərini tərbiyə edir, həm də ailəsinin, iştirakçısı olduğu kollektivin, Vətəninin mənafeyini öz mənafeyindən üstün tuturlar.

Özünütərbiyə tərbiyə kimi kollektiv içərisində formalaşınca daha çox önəm daşıyır. Əməkdaşlığı bacaran, sosiallaşa bilən şagirdlər kommunikativ bacarıqlarının inkişafına şərait yaradan kollektivdə özünütərbiyə işində daha çox aktivlik göstərirlər. Hərəkət və davranışlarına xüsusi fikir verirlər.

Qeyd edək ki, özünütərbiyə sistemli, mütəşəkkil, fasiləsiz və uzunmüddətli təşkil edilən prosesdir. Özünütərbiyə prosesində şagirdlərin xüsusiyyətləri ayrı-ayrılıqda deyil, kompleks şəkildə inkişaf etdirilməlidir. Hər bir inkişaf dövründə yaşından, inkişaf səviyyəsindən, psixoloji xüsusiyyətlərindən asılı olaraq şagirdlərin qarşılarına qoyduqları vəzifələr, işlər dərinləşir, çoxalır, mürəkkəbləşərək mühüm əhəmiyyət kəsb edir.

Adından da göründüyü kimi, özünütərbiyə prosesi birtərəfli prosesdir. Alınan qərarlar və onların icrası yalnız bir şəxs tərəfindən, şəxsin özü tərəfindən həyata keçirilir. Özünütərbiyə şagirdin məntiqi, yaradıcı təfəkküründün inkişafı baxımından müsbət qəbul edilsə də, bir çox çətinlikləri də ehtiva edir. Belə ki:

- şagird özü özünə başqasının gözü ilə kənardan baxır;
- öz yanlışlarını görüb onu aradan qaldırmağa can atır;
- əlverişli yollar seçərək hərtərəfli düşünülmüş qərarlar qəbul edir;
- gələcəkdə baş verə biləcək hadisələri təhmin edir ki, bu da şagirddən ağıl, iradə, dözümlülük tələb edir.

Qeyd etdiyimiz müsbət mənəvi-əxlaqi keyfiyyətlərin yaranması və inkişafı yuxarı sinif şagirdlərinin özünütərbiyəsi ilə məşğul olmasından asılıdır. Şagird inkişafın bu yaş dövründə tərbiyə prosesinin obyekti deyil subyektinə çevrilir ki, tərbiyə özünütərbiyə ilə əvəz olunur. Yeniyetməlik dövründə qazanılan təcrübə, əldə olunan vərdişlər, bacarıqlar və qabiliyyətlər bir ömür boyu şagirdlərə lazım olur və bununla da həyatlarının gələcək təşkilinin bünövrəsi qoyulmuş olur.

Problemin aktuallığı. Cəmiyyətin əsas məqsədi hərtərəfli inkişaf etmiş insan yetişdirməkdən ibarətdir. Problemin aktuallığı ondan ibarətdir ki, istənilən yaş dövründə qazanılan təcrübə, əldə olunan vərdişlər, bacarıqlar və qabiliyyətlər bir ömür boyu şagirdlərə lazım olur və bununla da həyatlarının gələcək təşkilinin bünövrəsi qoyulmuş olur.

Problemin elmi yeniliyi. Məqalədə şagirdlərin hər bir yaş dövründə özünütərbiyəsi ilə əlaqəli müxtəlif fikirlər öz əksini tapmış və demək olar ki, özünütərbiyə prosesi mərhələlərlə izah edilmişdir.

Problemin praktik əhəmiyyəti. Məqalədən şagirdlərin özünütərbiyə prosesinin təşkili formalarını, onun yollarını və vasitələrini tədqiq etməkdə, dərslik və dərs vəsaitləri hazırlanmasında istifadə edilə bilər.

Ədəbiyyat:
1. İsmixanov, M.A. Məktəbin idarə edilməsi. Dərs vəsaiti. / M.A. İsmixanov, R.Ə. Bəxtiyarova. -Bakı: 2012. -235 s.
2. Mehrabov, A.O. Təhsildə sərişẗəli yanaşma: mahiyyəti və əsas xüsusiyyətləri. // Azərbaycan məktəbi, -Bakı, 2007. №1, -112 s.
3. Azərbaycan Müəllimlər İnstitutunda " Təhsildə innovasiyalar haqqında " keçirilmiş elmi praktik konfrans, 25 aprel 2014 - cü il

Redaksiyaya daxil olub: 16.09.2025

UOT 37.

Kübra Abuzər qızı Abdullayeva
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə proqramı üzrə doktorantı
https://orcid.org/0000-0002-9217-3528
abdullayevak93@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(5).162-167

ELMİ-PEDAQOJİ ƏDƏBİYYATLARDA ŞAGİRDLƏRİN YARADICI MÜSTƏQİL İŞİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

Kubra Abuzar Abdullayeva
doctorial student in the program of doctor of philosophy
at Institute of Education of the Republic of Azerbaijan

ISSUES OF ORGANIZING CREATIVE INDEPENDENT WORK OF STUDENTS IN SCIENTIFIC-PEDAGOGICAL LITERATURE

Кюбра Абузар гызы Абдуллаева
докторант по программе доктора философии
Института Образования Азербайджанский Республики

ВОПРОСЫ ОРГАНИЗАЦИИ ТВОРЧЕСКОЙ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ УЧАЩИХСЯ В НАУЧНО-ПЕДАГОГИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

Xülasə. Məqalədə elmi-pedaqoji ədəbiyyatlarda şagirdlərin yaradıcı müstəqil işinin təşkili məsələlərindən bəhs edilir. Müəllif elmi araşdırmalar əsasında əldə etdiyi nəticələri ümumiləşdirmiş və təhsil sistemində müasir dövrdə yaradıcı düşüncənin və müstəqil fəaliyyətin inkişaf etdirilməsi, şagirdlərin bilik və bacarıqlarını sərbəst tətbiq etmələri üçün müxtəlif metod və strategiyaların əhəmiyyətini vurğulamışdır.

Məqalədə yaradıcı müstəqil işin mahiyyəti, onun pedaqoji əsasları və tətbiq sahələri izah edilmişdir. Bundan əlavə, elmi-pedaqoji araşdırmalara əsaslanaraq, yaradıcı təlimin inkişaf etdirilməsi üçün səmərəli yanaşmalar və praktik həll yolları təqdim olunmuşdur. Şagirdlərin təşəbbüskarlığını artırmaq, onların tədqiqat və analitik düşünmə bacarıqlarını gücləndirmək məqsədilə istifadə edilən müasir pedaqoji texnologiyalar və innovativ metodlar təhlil edilmişdir. Bu tədqiqat müəllimlərin şagirdlərin yaradıcı müstəqil işini düzgün istiqamətləndirməsi üçün tövsiyələr də təqdim edir. Məqalədə irəli sürülən fikirlər və əldə olunan nəticələr təlim prosesində şagirdlərin yaradıcı bacarıqlarını inkişaf etdirmək üçün əhəmiyyətlidir. Belə ki, bu ideyalar şagirdlərin yaradıcı bacarıqlarının istiqamətləndirilməsinə zəmin yaradır. Onlarda gələcək nəsillərə ötürmək üçün toplanmış vacib biliklərin sistemləşdirilməsi üçün baza rolunu oynayır.

Açar sözlər: *müstəqil iş, yaradıcılıq, şagird, müəllim, təlim prosesi, yanaşma, təlim texnologiyası, formalaşdırma, bacarıq, ideya*

Abstract. The article discusses the issues of organizing creative independent work of students in scientific-pedagogical literature. The author has generalized the results obtained from scientific research and emphasized the importance of various methods and strategies for developing creative thinking and independent activities, as well as for the free application of knowledge and skills by students in the modern education system.

The article explains the essence of creative independent work, its pedagogical foundations, and areas of application. Furthermore, based on scientific-pedagogical research, effective approaches and practical solutions for the development of creative teaching are presented. Modern pedagogical technologies and innovative methods used to increase students' initiative and strengthen their research and analytical thinking skills are analyzed. This research also offers recommendations for teachers on properly guiding students' creative independent work. The

ideas and conclusions presented in the article are significant for developing students' creative abilities in the learning process. These ideas lay the foundation for directing students' creative skills and serve as a basis for systematizing the important knowledge collected, which will be passed on to future generations.

Key words: *Independent work, creativity, student, teacher, educational process, approach, teaching technology, formation, skill, idea.*

Аннотация. В статье рассматриваются вопросы организации творческой самостоятельной работы учащихся в научно-педагогической литературе. Автор обобщил результаты, полученные на основе научных исследований, и подчеркнул важность различных методов и стратегий для развития творческого мышления и самостоятельной деятельности, а также для свободного применения знаний и навыков учащимися в современной образовательной системе.

В статье излагается сущность творческой самостоятельной работы, её педагогические основы и области применения. Кроме того, на основе научно-педагогических исследований представлены эффективные подходы и практические решения для развития творческого обучения. Проанализированы современные педагогические технологии и инновационные методы, используемые для повышения инициативности учащихся, а также для укрепления их исследовательских и аналитических навыков.

Данное исследование также предлагает рекомендации для учителей по правильному направлению творческой самостоятельной работы учащихся. Идеи и выводы, изложенные в статье, имеют большое значение для развития творческих способностей учащихся в процессе обучения. Так, эти идеи создают основу для направленности творческих способностей учащихся, играют роль базы для систематизации собранных важных знаний, которые будут переданы будущим поколениям.

Ключевые слова: *самостоятельная работа, творчество, ученик, учитель, учебный процесс, подход, учебная технология, формирование, умение, идея*

Müasir təhsil sisteminin əsas məqsədlərindən biri şagirdlərin müstəqil düşünmə və yaradıcı fəaliyyət bacarıqlarını inkişaf etdirməkdir. Bu məqsədə nail olmaq üçün təhsil proqramları təkcə nəzəri biliklərin ötürülməsi ilə məhdudlaşmamalı, eyni zamanda, şagirdlərin analitik düşünmə qabiliyyətlərini gücləndirən və onları tədqiqatçı kimi formalaşdıran metodlar əsasında qurulmalıdır. Elmi-pedaqoji ədəbiyyatda yaradıcı müstəqil iş anlayışı şagirdlərin fərdi bacarıqlarını inkişaf etdirmək, onların bilikləri müstəqil əldə etmə və tətbiqetmə vərdişlərini formalaşdırmaq üçün mühüm bir vasitə kimi qiymətləndirilir.

Yaradıcı yanaşmanın fəallaşdırılması şagirdlərin bütün həyat fəaliyyətində daha səmərəli nəticələrin əldə olunmasına yardım edən təlim texnikasıdır. Daim yenilik axtaran şagirdin yetişdirilməsi onun bütün fəaliyyət sahələrində açıq təfəkkürlü olmasına, elm və cəmiyyət üçün faydalı ola biləcək, həmçinin öz həyatını daha optimallaşdıracaq yanaşmalar yaratmasına yol açır. Yaradıcılığı fəallaşdırmaq üçün ilk addım şagirdin yaradıcı qabiliyyətlərini kəşf etmək və bu sahə üzrə onu inkişaf etdirməkdən başlayır. Bu sahədə məqsədlər qoymaq, başqalarının köməyinə müraciət etmək və bacarıqları inkişaf etdirmək üçün hər gün vaxt ayırmaq zəruridir.

Yaradıcı müstəqil işin təşkili yalnız təhsil prosesinin effektivliyini artırmaqla kifayətlənmir, eyni zamanda, şagirdlərin tənqidi düşünmə, analitik təhlil və problem həll etmə bacarıqlarını gücləndirir. Elmi araşdırmalar göstərir ki, müstəqil iş vərdişlərinə yiyələnən şagirdlər öyrənmə prosesinə daha aktiv şəkildə qoşulur, yeni bilikləri qavrama və tətbiqetmə sahəsində daha uğurlu nəticələr əldə edirlər. Bununla yanaşı, yaradıcı müstəqil işin tətbiqi təhsil müəssisələrində interaktiv öyrənmə mühitinin formalaşdırılmasına, müəllim-şagird əməkdaşlığının gücləndirilməsinə və nəticədə daha səmərəli tədris modelinin qurulmasına şərait yaradır. S. Əsədova "Təhsildə Yaradıcılıq" adlı əsərində qeyd edir ki, yaradıcı düşüncənin inkişafı üçün müəllimlərin ənənəvi yanaşmalardan uzaqlaşıb, müasir pedaqoji metodlardan istifadə etməsi zəruridir (1, s.45). O, vurğulayır ki, layihə əsaslı öyrənmə metodları tələbələrin fərdi maraqlarına uyğun bilik qazanmasını və onların yaradıcılığını inkişaf etdirməsini təmin edir.

Yaradıcı qabiliyyətin inkişafına yardım edən bir sıra üsullardan müasir tədqiqatlarda istifadə edilən bir neçəsinin təhlilinə nəzər yetirək.

Tənqidi Düşüncə. Müasir təhsil sisteminin dinamikasında tələbələrin yaradıcı müstəqil işlərinin təşkili, yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda tələbələrin fərdi inkişafı, analitik düşüncə qabiliyyətinin artırılması və müstəqil qərar vermə bacarıqlarının

inkişaf etdirilməsi ilə bağlıdır. Elmi pedaqoji ədəbiyyatlarda bu məsələ ətrafında geniş müzakirələr aparılır, çünki yaradıcı müstəqil işin təşkili, tələbələrin yalnız akademik müvəffəqiyyətlərini deyil, eyni zamanda onların sosial, emosional və etik inkişafını da təmin edir. Yaradıcı müstəqil iş, tələbələrə öz maraq və bacarıqlarına uyğun fəaliyyətlərlə məşğul olmaq imkanı təqdim edir ki, bu da onların təhsilə olan münasibətini müsbət istiqamətdə dəyişir.

Bu kontekstdə, yaradıcı müstəqil işin təşkili, tələbələrin öz fikirlərini sərbəst ifadə etmələrini, yeni ideyalar inkişaf etdirmələrini və mövcud biliklərini tətbiq etmələrini tələb edir. Bununla yanaşı, tələbələrin yaradıcılıq potensialını artırmaq üçün müəllimlərin də bu sahədə aktiv rolu vardır. Müəllimlər, tələbələrin yaradıcı düşüncə tərzini stimullaşdırmaq üçün uyğun metodik yanaşmalar tətbiq etməlidirlər. Bunun üçün, interaktiv öyrənmə, layihə əsaslı təhsil, kooperativ öyrənmə kimi innovativ yanaşmaların tətbiqi vacibdir. Bu yanaşmalar, tələbələrin aktiv iştirakını, əməkdaşlığını və yaradıcı müstəqil işin keyfiyyətini artırmağı məqsəd qoyur. Müstəqil işin öncədən dəqiq müəyyənləşdirilmiş məqsəd, vəzifələrinin təhsil proqramına uyğunluğu şagirdlər yaradıcılığını inkişaf etdirməyə, düşüncə qabiliyyətini artırmağa və mövzunu dərinləşdirərək şagirdlər üçün anlayışını genişləndirməyə xidmət etməlidir.

Bununla yanaşı, yaradıcı müstəqil işin təşkilində bəzi çətinliklər və maneələr mövcuddur. Məsələn, tələbələrin motivasiyası və yaradıcı fikirlərin inkişaf etdirilməsi üçün uyğun mühitin yaradılması, bu prosesi əngəlləyən əsas amillərdəndir. Şagirdlərin marağını artırmaq üçün onlara ilham vermək vacibdir. Şagirdin motivasiyasını artıran və daha yaradıcı düşünməsinə imkan yaradan əsas şey müstəqil işin həm də maraqlı və cəlbedici olmasıdır. Şagirdlərin yaradıcı müstəqil işə cəlb edilməsi üçün kifayət qədər motivasiya olmaya bilər. Bu motivasiyanın olmaması, müəllimlərin bu sahədəki bacarıqlarının və yanaşmalarının zəifliyindən irəli gələ bilər. Eyni zamanda, müasir təhsil sistemində tətbiq olunan ənənəvi qiymətləndirmə metodları, yaradıcı müstəqil işin dəyərləndirilməsində əngəl törədə bilər. Belə ki, ənənəvi test və qiymətləndirmə sistemləri, tələbələrin yaradıcı düşüncəsini stimullaşdırmaq əvəzinə, onları müəyyən bir çərçivəyə salır. Tədqiqatçı N. Həsənova "Yaradıcı düşüncə və müstəqil işlər" əsərində vurğulayır ki, tənqidi düşüncə qabiliyyətlərinin inkişafı üçün müəllimlərin tədris metodlarını daim yeniləməsi və tələbələri sərbəst tədqiqat aparmağa həvəsləndirməsi vacibdir (2, s.52). T. Əliyev isə "Tələbələrin yaradıcılığının inkişafı" kitabında bu məsələyə diqqət yönəldərək bildirir ki, tələbələrə yaradıcı müstəqil işlər təqdim edilərkən onların maraqları nəzərə alınmalıdır. O qeyd edir ki, yaradıcı işlər tələbələrin yalnız dərs materiallarını əzbərləməsini deyil, onları analiz etməsini və tətbiq etməsini təmin etməlidir (3, s.38).

Tənqidi düşüncə çərçivəsində, bu problemlərin aşkar edilməsi və həll yollarının tapılması üçün müxtəlif yanaşmalar təqdim edilməlidir. Birincisi, müəllimlərin yaradıcı düşüncə tərzini təşviq edən pedaqoji metodlardan istifadə etməsi vacibdir. Bu metodlar, yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmamalı, həm də tələbələrin təcrübə və qabiliyyətlərini birləşdirməyə yönəlməlidir. Müəllimlər, tələbələrin öz ideyalarını sərbəst şəkildə ifadə edə biləcəyi bir mühit yaratmalıdırlar. Şagirdlərin müstəqil işləri dolğun şəkildə yerinə yetirməsi üçün lazımi resurslar (kitablar, internet mənbələrinə çıxış imkanları, video dərslər, laboratoriya avadanlıqları və s.) təmin edilməlidir. Resursların zənginliyi şagirdin müxtəlif mənbələrin fərqli məlumatlarına və metodlara müraciət etməsini asanlaşdırmış olur. Tələbələrin yaradıcı işlərini nümayiş etdirmək üçün sərgilər, konfranslar və təqdimatlar təşkil edilməli, bu zaman tələbələrin öz fikirlərini müdafiə etmələri təşviq edilməlidir.

İkincisi, yaradıcı müstəqil işin nəticələrinin qiymətləndirilməsi üçün alternativ metodlar inkişaf etdirilməlidir. Bu metodlar, tələbələrin yaradıcı prosesini və onların əldə etdiyi nəticələri əhatə etməlidir. Məsələn, tələbələrin öz işlərini təqdim etməsi, "peer-review" sisteminin tətbiqi və layihələrin qiymətləndirilməsi yolu ilə yaradıcı işin dəyərləndirilməsi mümkündür. Bu yanaşma, tələbələrin özlərinin fikirlərini ifadə etməyə, müzakirələrə qatılmağa və tənqidi düşüncə qabiliyyətlərini inkişaf etdirməyə imkan tanıyır. Bununla yanaşı, qiymətləndirmə prosesində tələbələrin öz fikirlərini bildirmələrinə, bir-birlərini qiymətləndirmələrinə və müzakirələr aparmalarına şərait yaradılmalıdır. Şagirdlərə öz müstəqil işlərini qiymətləndirmələri, nəticələrini təhlil etmələri onların inkişafı üçün ən vacib şərtlərdən biri hesab olunan özünütənqid etmək bacarığını yaratmış olur. Bu,

onların yaradıcı düşüncələrinin və sürətli əqli inkişafını stimullaşdırır.

Yaradıcı Düşüncə. Yaradıcı düşüncə şagirdlərin təhsil həyatında əhəmiyyətli bir rol oynayır. Bu düşüncə tərzi yalnız biliklərin əldə edilməsi ilə məhdudlaşmır, həm də şagirdlərin analitik düşüncə bacarıqlarını, problemlərin həllini, yenilikçi yanaşmalarını və fərdi yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Yaradıcı düşüncə, şagirdlərin təhsil sistemində uğur qazanması üçün vacib bir bacarıqdır. Təhsil prosesində yaradıcı düşüncənin inkişafı həm şagirdlərə daha geniş bir perspektiv qazandırır, həm də onların gələcəkdə qarşılaşacaqları çətinlikləri həll etmək qabiliyyətlərini artırır.

Yaradıcı düşüncə şagirdlərə yeni ideyalar irəli sürməyə, alternativ həll yolları tapmağa və müstəqil düşünməyə imkan tanıyır. Bu proses şagirdlərin öz fikirlərini sərbəst şəkildə ifadə etmələrini, müzakirələrə qoşulmalarını və müxtəlif perspektivlərdən məsələlərə yanaşmalarını təmin edir. Beləliklə, şagirdlər yalnız akademik bacarıqlarını inkişaf etdirmir, həm də sosial bacarıqlarını artırır. Müxtəlif ideyaların qarşılaşdırılması, komanda işinin təşviqi və müxtəlif fikirlərə açıq olmaq yaradıcı düşüncənin inkişafını stimullaşdırır. Təhsil müəssisələri şagirdlər üçün yaradıcı mühit təmin etməli, onların müstəqil fikir irəli sürməsinə şərait yaratmalıdırlar. Şagirdlərin yaratdığı işlər və ideyalar barədə müzakirələr aparılmalıdır. Çünki müəllim və şagirdlər arasında qarşılıqlı fikir mübadiləsi aparmaq nəinki şagirdlərin yaradıcılığını dəstəkləmiş olur, həm də onların öz işlərini daha dərindən analiz etmələrində əvəzsiz rol oynayır.

Yaradıcı düşüncənin inkişafı üçün uyğun təhsil mühitinin yaradılması çox vacibdir. Müəllimlər, şagirdlərin sərbəst düşünməyə, eksperiment etməyə və risklər götürməyə cəsarət etmələri üçün dəstəkləyici bir mühit yaratmalıdırlar. Bu mühit, şagirdlərə öz təşəbbüslərini inkişaf etdirmək, ideyalarını sərbəst şəkildə ifadə etmək və yaradıcı düşüncələrini inkişaf etdirmək imkanı verir. Yaradıcı düşüncənin inkişafına yardım edən təhsil mühiti həm də şagirdlərin öz yaradıcılıqlarını kəşf etmələrinə və öz daxili potensiallarını ortaya qoymalarına şərait yaradır.

Elmi araşdırmalar göstərir ki, yaradıcı düşüncə və innovasiya üçün aydın şəkildə müəyyən edilmiş vaxtın ayrılması vacibdir. Məsələn, Google öz komandalarından vaxtlarının ən azı 20%-ni yaradıcı düşüncəyə və ya yeni layihələrə ayırmağı tələb edir. Lakin, tez-tez yenilik etməyə hazır olduğumuzu göstərsək də, yenə də bəzi məsələlərin asanlıqla həll edilmədiyi aydın görünür. Belə bir şəraitdə yaranmış çətinliyin əsas səbəblərindən biri xəyal qurmağı məşq etməməkdir. Digər səbəb isə mərkəzi ideyalara diqqət yetirməməkdir.

Antik fəlsəfədə belə bir deyim var: "Əgər fikrini üç cümlə ilə ifadə edə bilmirsənsə, fikrin yoxdur!" Ən mühüm innovasiya bacarıqlarından biri yeni ideyanın çox qısa və aydın təsvirini təqdim etmək (iki-üç cümlə ilə) və qısa təqdimat (iki-üç dəqiqə) etmək bacarığıdır. Tədqiqatlar göstərir ki, digər bacarıqlar kimi, düşüncələrini rahat şəkildə ifadə etmək bacarığı yalnız çox tətbiq edildikdə yüksək səviyyəyə çata bilər. Bunun üçün müəllimdən tələb olunan səbirdir. Şagirdlərə öz fikrini ifadə edə bilmək üçün səbirlə zaman ayırmaq lazımdır. Əfsuslar olsun ki, texnologiya və internetin qazandırdığı müsbət cəhətlərin genişliyi qədər mənfi cəhətləri də vardır. Onlardan biri də fikirlərini azad ifadə edə bilməmə və mimka-jestika qıtlığıdır. Bunu aradan qaldırmaq üçün müəllim dinləyici olmağı bacarmalıdır (4, s. 467).

Təlim prosesində yaş qrupundan asılı olmayaraq bütün uşaqlarda fərdi və yaş xüsusiyyətlərinə uyğun yaradıcı yanaşmanın formalaşdırılması üçün xüsusi zamanın ayrılması əhəmiyyətlidir. İnnovativ yanaşmaya vaxtın ayrılması günlük və həftəlik ola bilər. Dərsliklərə nəzər salsaq bunun həftəlik olmasının daha optimal olduğunu görərik. Lakin müəllim həftəlik planlamada hər gün üçün bir yaradıcılıq elementi daxil edərsə, bu həftənin daha yaradıcı keçməsinə səbəb olar.

Yaradıcı düşüncənin inkişafını stimullaşdırmaq üçün müxtəlif pedaqoji yanaşmalar mövcuddur. Bu yanaşmalar şagirdlərin analitik və yaradıcı düşüncə qabiliyyətlərini artırmaq üçün çox faydalıdır. Məsələn, layihə əsaslı öyrənmə metodunun tətbiqi şagirdlərə real həyat məsələlərinə yanaşmaq və bu məsələləri praktik həll yolları ilə müzakirə etmək imkanı verir. Həmçinin, problemlərə yönəlik yanaşmalar şagirdlərə mürəkkəb məsələlər üzərində düşünməyi, alternativ həllər tapmağı və yaradıcı yanaşmalar tətbiq etməyi öyrədir.

Layihə əsaslı öyrənmə. Bu metod vasitəsi ilə şagirdlər bir layihə üzərində işləyərək,

problem həll etmə bacarıqlarını inkişaf etdirirlər. Bu yanaşmada şagirdlər həm fərdi, həm də qrup şəklində düşünməyi öyrənir və daha dərin düşüncə tərzi formalaşdırırlar. Tanınmış pedaqoq və filosof Maria Montessori "Təhsil və azadlıq" adlı əsərində müstəqil yaradıcı işlərin təşkili məsələlərindən də bəhs edir və şagirdlərin sərbəst düşünmə, yaradıcı bacarıqlarını inkişaf etdirmək üçün müəllimin üzərinə böyük məsuliyyət düşdüyünü əsaslandırır. O, şagirdlərin təcrübə əsasında öyrənməyə imkan yaradılmasının vacibliyini vurğulayır. Tədqiqatçının fikrincə, hər bir şagirdin öz sürətində irəliləməsi və öz potensialını üzə çıxarmaq üçün uyğun mühitin yaradılması mühüm əhəmiyyət kəsb edir (5).

Yaradıcı düşüncənin inkişafında müəllimlərin rolu çox əhəmiyyətlidir. Müəllimlər şagirdlərin yaradıcı potensialını aşkar etməli, onları dəstəkləməli və bu inkişaf prosesində aktiv rol oynamalıdırlar. Müəllim şagirdləri öz ideyalarını ifadə etməyə təşviq etməli, onları yeni düşüncə yolları ilə tanış etməli və yaradıcı yanaşmalarla tədris prosesini zənginləşdirməlidir. Praqmatizm fəlsəfəsinin tanınmış nümayəndələrindən biri Con Dyu "Demokratiya və təhsil" əsərində yaradıcı düşüncənin inkişafı üçün müəllimlərin şagirdlərə yalnız bilik verməklə kifayətlənməməli, onların hər birini fərdi olaraq inkişaf etdirmək üçün imkanlar yaratmalı olduqlarını vurğulayır (6). Müəllimin şagirdlərlə doğru əlaqə qurması, onları təşviq etməsi və təhsilin hər mərhələsində onlara dəstək olması, yaradıcılıq prosesinin əsasını qoyur.

Yaradıcı düşüncə şagirdlərin təhsil həyatında əvəzolunmaz bir bacarıqdır. Bu bacarığın inkişafı yalnız tədris proqramlarının məzmunu ilə əlaqəli deyil, həm də şagirdlərin özlərini ifadə etmələri, alternativ həll yolları axtarmaları və yeni ideyalar irəli sürmələri üçün uyğun mühitin yaradılmasına bağlıdır. Müəllimlərin rolu da burada vacibdir, çünki onlar şagirdləri yaradıcı düşüncələrini inkişaf etdirməkdə dəstəkləyərək, onların gələcəkdə uğur qazanmaq üçün lazım olan bacarıqları əldə etmələrini təmin edirlər. Yaradıcı düşüncə təhsil sistemində uğurun açarlarından biridir və bu prosesin dəstəklənməsi şagirdlərin şəxsi və akademik inkişaflarına böyük təsir göstərir.

Maraqların mükafatlandırılması. Yaradıcılığı inkişaf etdirmək üçün ümumi maneələrdən biri marağın az olmasıdır. Müasir dövrümüzdə uşaqların texnologiyaya, ələlxüsus da internetə olan marağından istifadə etmək, təlimdə texniki vasitələrdən istifadə marağın artırılmasına yardımçı ola bilər. Bu gün uşaqların motivasiyasını daha çox xüsusi öhdəliklərin icrasına yönəlmiş tapşırıqlar artırır. Bu tapşırıqların yerinə yetirilməsi prosesində, yaxud onun nəticəsində mükafatlandırma yaradıcılığın inkişafında təkanverici rol oynayır. Bəzən təkcə sonda əldə edilən nəticə deyil, yaradıcılıq prosesinin özü mükafat qismində çıxış edir.

Ekspert yanaşması. Yaradıcılığı inkişaf etdirməyin ən yaxşı yollarından biri bu sahədə mütəxəssis olmaqdır. Mövzu haqqında zəngin anlayışa malik olmaqla, şagird problemlərin yeni və ya innovativ həlləri haqqında daha yaxşı düşünə biləcəkdir. Təcrübəni inkişaf etdirməyin bir yolu yaradıcı insanlar haqqında oxumaq və onların danışdıqlarını dinləməkdir. Bunun üçün film saatları təşkil etmək olar.

Özgüvənin yaradılması. Bacarıqlardakı etibarsızlıq yaradıcılığı zəiflədə və məhv edə bilər. Buna görə də özünə inam yaratmaq vacibdir. İnkişafa doğru addımları qeyd etmək, cəhdləri tərifləmək və yaradıcılığı mükafatlandırmağın yollarını axtarmaq çox əhəmiyyətlidir. Bəzən uşaqlara verilən rəylərin effektsizliyi üzündən onlarda özünəgüvən səviyyəsi aşağı düşür, cəhdlər etməyə çəkinirlər. Buna görə də yaradıcı yanaşmanı beyinlərində bloklayır, daha çox hafizənin inkişafına xidmət edən fəaliyyətə istiqamətlənirlər.

Yaradıcılığa vaxt ayrılması. Yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına vaxt ayrılmazsa, onları inkişaf etdirə bilmək mümkün deyildir. Hər həftə bir növ yaradıcı layihəyə diqqət yetirmək üçün müəyyən vaxt təyin edilərsə, bu, daha sistemli yanaşma olar. Tədqiqatlar prosesində araşdırılmış məlumatlardakı əskikliyi görmək üçün tapşırığın həcmindən asılı olaraq bir həftə yetərli hesab edilə bilər.

Uğursuzluq qorxusu ilə mübarizə aparmaq. Səhv edə bilmək və ya cəhdlərdə uğursuz olmaq qorxusu şagirdin inkişafını iflic edə bilər. Belə hisslər keçirdiyi zaman şagirdlərə səhvlərin sadəcə prosesin bir hissəsi olduğunu xatırlatmaq gərəkdir. Yaradıcılığa gedən yolda bəzən büdrəsə də, sonda hədəflərinə çatacağı düşüncəsini şagirddə formalaşdırmaq, onu açıq düşüncə tərzinə (K. Dveyk nəzəriyyəsi) keçirmək şagird üçün dəstəkləyici mühitin təşkilidir.

Çoxsaylı həllərin araşdırılması. Növbəti dəfə problemə yanaşanda müxtəlif həll yolları axtarmağa çalışmaq, ilk ideya ilə getmək əvəzinə, vəziyyətə yaxınlaşmağın başqa mümkün yollarını düşünməyə vaxt ayırmaqla mümkün variantları düşünmək bu metodun əsas xəritəsidir. Bu sadə fəaliyyət həm problem həll etmək, həm də yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirmək üçün optimal bir yoldur. Bu yolla şagird mümkün həllərdəki boşluqları görə və yeni həll yolu yarada bilər.

Altı papaq texnikası. Altı papaq texnikasına görə problemə altı fərqli perspektivdən baxmaq vacib bilmir. Bu texnikanın tətbiqi nəticəsində mövcud vəziyyətə bir neçə aspektdən yanaşmaq imkanı olur və sonda problemlə bağlı əhatəli fikir yaranır. Cədvəl şəklində müəllim rənglənmiş 6 papaq şəklini şagirdlərə təqdim edə bilər. Hər papaq bir suala həsr edilir:

- Qara papaq: Mənfi perspektivdən istifadə edin. Həllin hansı elementləri işləməyəcək?
- Mavi papaq : Geniş düşünün. Ən yaxşı ümumi həll nədir?
- Yaşıl papaq : Yaradıcı düşün. Bəzi alternativ fikirlər hansılardır?
- Qırmızı papaq : Vəziyyətə emosional baxın. Hisslərinizi sizə nə deyir?
- Ağ papaq : Vəziyyətə obyektiv baxın. Faktlar hansılardır?
- Sarı papaq : Müsbət perspektivdən istifadə edin. Həllin hansı elementləri işləyəcək? (De.Bon.E, 2019).

Nəticə. Yaradıcı müstəqil işlərin təşkili, müasir təhsil sisteminin əvəzolunmaz tərkib hissəsidir. Şagirdlərin yaradıcı düşüncə qabiliyyətlərinin inkişaf etdirilməsi, onların biliklərini tətbiq etmə və problem həll etmə bacarıqlarını artırmaqla yanaşı, eyni zamanda sosial və emosional inkişaflarına da müsbət təsir göstərir. Elmi pedaqoji ədəbiyyatlarda şagirdlərin yaradıcı müstəqil işlərinin təşkilinin əhəmiyyəti geniş müzakirə olunmaqla yanaşı, bu sahədəki çətinliklərin və maneələrin aşkar edilməsi də vacibdir.

Müəllimlərin rolunun əhəmiyyəti burada önə çıxır. Müəllimlər, şagirdlərin yaradıcı düşüncələrini stimullaşdıran metodik yanaşmalar tətbiq etməli, onları dəstəkləməli və bu prosesi müsbət istiqamətdə yönləndirməlidirlər. Yaradıcı müstəqil işlərin təşkili üçün yaradıcı mühitin yaradılması, şagirdlərin öz ideyalarını sərbəst ifadə etmələrini, eksperiment etmələrini və tənqidi düşüncə qabiliyyətlərini inkişaf etdirmələrini təmin edir.

Problemin elmi yeniliyi. Yaradıcı müstəqil işlərin qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsi zəruridir. Alternativ qiymətləndirmə metodları, şagirdlərin yaradıcılıq qabiliyyətlərini daha ədalətli və şəffaf bir şəkildə qiymətləndirmək üçün geniş imkanlar təqdim edir. Bu yanaşma, şagirdlərin öz işlərini müdafiə etmələrini, fikir mübadiləsi aparmalarını və yaradıcı prosesin bir hissəsi olmalarını təşviq edir.

Problemin elmi yeniliyi. Yaradıcı müstəqil işlərin təşkili, yalnız şagirdlərin təhsil nailiyyətlərini deyil, həm də onların gələcəkdə uğurlu və yaradıcı fərdlər kimi yetişməsinə böyük təsir göstərir. Gələcək tədqiqatlar, bu sahədə daha geniş və dərin anlayışların əldə edilməsinə, həmçinin yaradıcı müstəqil işlərin effektivliyinin artırılmasına yönəlməlidir. Yalnız beləliklə, şagirdlərin potensialı maksimum dərəcədə ortaya qoyulacaq və müasir cəmiyyətin tələblərinə uyğun bir təhsil sistemi formalaşacaqdır.

Problemin praktik əhəmiyyəti. Təlim prosesində şagirdlərin yaradıcı bacarıqlarını inkişaf etdirmək üçün innovativ metodların tətbiqi imkanları genişdir. Bu imkanların ardıcıl və elmi-pedaqoji əsaslarla tətbiqi təlim keyfiyyətinin yüksəldilməsində, eyni zamanda şagirdlərin yaradıcı bacarıqlarının inkişafında mühüm rol oynayır.

Ədəbiyyat:

1. Əsədova, S. Təhsildə yaradıcılıq. -Bakı: Təhsil, -2020. -300 s.
2. Həsənova, N. Yaradıcı düşüncə və müstəqil işlər. -Bakı: Elm və Təhsil, -2021. – 220 s.
3. Əliyev, T. Tələbələrin yaradıcılığının inkişafı. -Bakı: AMEA-nın nəşri, -2019. – 250 s.
4. Fernández Díaz, JR, Llamas Salguero, F y Gutiérrez-Ortega, M (2019). Creatividad: Revisión del concepto. REIDOCREA, 8, 467-483.
5. Montessori, M. Təhsil və azadlıq. / M. Montessori. -Bakı: Elm və Təhsil, 1999. – 350 s.
6. Dyu, C. Demokratiya və təhsil. / C. Dyu -Bakı: Təhsil, 2004. – 400 s.
7. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş / Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə. -Bakı, 2008. – 479 s.
8. Sadıqov, F.B. Ümumi pedaqogika: Dərs vəsaiti / F.B. Sadıqov. -Bakı, 2018. – 852 s.
9. De.Bon.E (2019) Six Thinking Hats. Penguin, Limited, 62-78.
10. JA Blanco-Herrera və DA Gentile, JN Rokkum. Video games can increase creativity, but with caveats. Creativity Research Journal 31 (2), 119-131.

Redaksiyaya daxil olub: 12.09.2025.

UOT 378

Günay Akif qızı Seyidova
Azərbaycan Dillər Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0004-1198-417X
E-mail:pedaqoq.sg@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).168-172

İNNOVATİV TƏLİM METODLARININ TƏLƏBƏLƏRİN AKADEMİK GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİ

Gunay Akif Seyidova
doctorial student in the program of doctor of philosophy
at Azerbaijan University of Languages

THE IMPACT OF INNOVATIVE TEACHING METHODS ON STUDENTS' ACADEMIC PERFORMANCE

Гюнай Акиф гызы Сеидова
докторант по программе доктора философии Азербайджанского Университета Языков

ВЛИЯНИЕ ИННОВАЦИОННЫХ МЕТОДОВ ОБУЧЕНИЯ НА АКАДЕМИЧЕСКИЕ ПОКАЗАТЕЛИ СТУДЕНТОВ

Xülasə. Müasir təhsil sistemində interaktiv və texnologiya əsaslı öyrənmə metodlarının tətbiqi tələbələrin koqnitiv inkişafını, analitik düşünmə bacarıqlarını və müstəqil öyrənmə vərdişlərini gücləndirir. Problem əsaslı öyrənmə, layihə əsaslı yanaşmalar və rəqəmsal resurslardan istifadə tələbələrin tədris materialını daha dərindən mənimsəməsinə və praktik bilikləri effektiv şəkildə tətbiq etməsinə imkan yaradır. Bununla yanaşı, sosial-öyrənmə mühiti və müəllim-tələbə qarşılıqlı əlaqəsinin gücləndirilməsi tələbələrin akademik nailiyyətlərinə müsbət təsir göstərir. İnnovativ təlim metodlarının tətbiqi tələbələrin motivasiyasını artırır, özünəinamını gücləndirir və onların müasir əmək bazarının tələblərinə uyğun bacarıqlar qazanmasına töhfə verir.

Məqalədə innovativ təlim metodlarının tələbələrin akademik göstəricilərinə təsiri araşdırılmışdır.

***Açar sözlər**: akademik nailiyyətlər, koqnitiv inkişaf, pedaqoji yanaşmalar, innovativ tədris metodları, interaktiv öyrənmə, rəqəmsal texnologiyalar, problem əsaslı öyrənmə.*

Abstract. The introduction of interactive and technology-based learning methods in the modern education system enhances students' cognitive development, analytical thinking skills, and independent learning habits. Problem-based learning, project-based approaches, and the use of digital resources allow students to more deeply absorb the educational material and effectively apply practical knowledge. At the same time, the strengthening of the social-learning environment and teacher-student interaction has a positive impact on students' academic achievements. The introduction of innovative teaching methods increases students' motivation, strengthens their self-confidence, and contributes to their acquisition of skills in line with the requirements of the modern labor market.

The article examines the impact of innovative teaching methods on students' academic performance.

***Key words:** academic achievement, cognitive development, pedagogical approaches, innovative teaching methods, interactive learning, digital technologies, problem-based learning.*

Аннотация. Внедрение интерактивных и технологических методов обучения в современную систему образования усиливает когнитивное развитие студентов, навыки аналитического мышления

и навыки самостоятельного обучения. Проблемно-ориентированное обучение, проектный подход и использование цифровых ресурсов позволяют студентам глубже усваивать учебный материал и эффективно применять практические знания. Кроме того, укрепление социально-образовательной среды и взаимодействия преподавателя и студента оказывает положительное влияние на успеваемость студентов. Применение инновационных методов обучения повышает мотивацию студентов, укрепляет их уверенность в себе, способствует приобретению ими навыков, соответствующих требованиям современного рынка труда.

В статье рассматривается влияние инновационных методов обучения на успеваемость студентов.

Ключевые слова: *академические достижения, когнитивное развитие, педагогические подходы, инновационные методы преподавания, интерактивное обучение, цифровые технологии, проблемное обучение.*

Müasir dövrdə yüksək keyfiyyətli təlim nəticələrinin əldə edilməsi üçün effektiv yeniliklərə ehtiyac duyulur. Təhsildə innovasiyalar təlim və tədris praktikasının təkmilləşdirilməsi tələbələrin ehtiyac və maraqlarının təmin edilməsi baxımından mühüm rol oynayır. İnnovativ yanaşmalar təhsilin bütün səviyyələrində əhəmiyyətli dəyişikliklərə səbəb olur və bu yalnız tədris metodlarının deyil, həm də tədris sisteminin ümumi strukturlarının dəyişməsinə səbəb olur. Təhsil sistemində tətbiq olunan innovasiyalar, tədrisin metodoloji və texnoloji əsaslarını yeniləyərək tələbələrin öyrənmə prosesini daha səmərəli və maraqlı edir.

Müasir təhsil texnologiyalarının tətbiqi tələbələrin daha interaktiv və şəxsiyyətə uyğun öyrənməsinə şərait yaradır. İnnovasiyalar tələbələrin müxtəlif öyrənmə üslublarına uyğun olaraq fərdi yanaşmaların həyata keçirilməsinə imkan yaradır. Bu yanaşma tələbələrin bilikləri yalnız nəzəri şəkildə deyil, eyni zamanda praktik vəziyyətlərdə tətbiq etmələrinə kömək edir, onları daha yaradıcı və müstəqil düşünməyə təşviq edir. Beləliklə, bu yeniliklər tədris prosesində tələbələrə daha çox məsuliyyət və müstəqillik verir, eyni zamanda onların öyrənmə bacarıqlarını inkişaf etdirir.

Bundan əlavə, innovativ təlim metodları və texnoloji alətlər tələbələrin interaktiv öyrənmə bacarıqlarını artırmaqla yanaşı, onların əmək bazarına inteqrasiyasını da sürətləndirir. Bu, xüsusilə peşə təhsilində və əmək bazarının sürətlə dəyişən tələblərinə cavab vermək üçün əhəmiyyətlidir. Məsələn, layihə, problem və tədqiqat əsaslı yanaşmalar, tələbələrin qarşılaşdığı real həyat problemləri üzərində düşünmələrini və onları həll etmələrini təmin edir. Bu, onların həm nəzəri, həm də praktiki biliklərə sahib olmalarını təmin edərək, iş bazarında daha yaxşı mövqe tutmalarına imkan yaradır. Nəticə etibarilə, təhsildə tətbiq olunan innovasiyalar tələbələrin mənimsəmə prosesini daha müasir və əhatəli şəkildə təşkil etməyə imkan verir. Bu yanaşmalar, tədrisi yalnız bilik ötürmək kimi deyil, tələbələrin düşünmə qabiliyyətlərini inkişaf etdirmək, onlara analitik düşünmə, problem həll etmə və yaradıcı düşüncə bacarıqlarını qazandırmaq kimi daha geniş məqsədləri hədəfləyir. Beləliklə, tələbələr yalnız akademik baxımdan deyil, eyni zamanda peşəkar inkişaf baxımından daha güclü bir şəkildə hazırlıqlı olur, bu da onların gələcəkdə daha uğurlu karyera qurmalarına zəmin yaradır.

Müasir dövrdə təhsil sistemləri sürətlə dəyişir və inkişaf edir. Bu prosesdə innovativ təlim metodlarının tətbiqi mühüm rol oynayır. Ənənəvi təlim yanaşmalarından fərqli olaraq, innovativ metodlar tələbələrin dərs prosesində passiv dinləyici deyil, aktiv iştirakçı olmalarını təmin edir. Bu metodlar tələbələrin akademik göstəricilərini yaxşılaşdırmaqla yanaşı, onların idrak qabiliyyətlərini, tənqidi düşünmə bacarıqlarını və problem həll etmə vərdişlərini də inkişaf etdirir. İnnovativ təlim metodları müxtəlif pedaqoji yanaşmalara əsaslanaraq hazırlanır və tətbiq olunur. Onlar tələbələrin marağını artırmaq, öyrənmə prosesini interaktiv və effektiv etmək üçün nəzərdə tutulmuşdur. Bu metodlara aşağıdakılar daxildir:

-Layihə əsaslı təlim (Project-Based Learning - PBL) tələbələrin dərs materialını öyrənərkən real həyatdan məsələləri həll etmələrinə imkan verir. Bu təlim yanaşması tələbələri yalnız nəzəri biliklərlə deyil, həm də praktiki təcrübə ilə təmin edir. Layihə əsaslı təlimin əsas məqsədi, tələbələrin hazırladıqları layihələr vasitəsilə həm fərdi, həm də qrup şəklində çalışaraq öyrənmələrini təmin etməkdir. Layihə əsaslı təlim tələbələrin öz biliklərini real həyatda tətbiq etmələrinə kömək edir və bu,

onların tənqidi düşünmə, problem həll etmə və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir. Tələbələr layihələr üzərində işləyərkən, müxtəlif mövzularla bağlı fərqli yanaşmalar inkişaf etdirir və nəticədə onları dərs mövzuları ilə daha dərin əlaqə qurmağa təşviq edir. Eyni zamanda, bu metod tələbələrin öyrəndikləri bilikləri konkret bir məqsəd üçün tətbiq etmələrini təmin edir, nəticədə tədrisin motivasiyasını artırır. Layihə əsaslı təlimin tətbiqi tələbələrin həm akademik, həm də şəxsi bacarıqlarını inkişaf etdirir. Beləliklə, bu metod təhsil prosesində tələbələrə daha yüksək səviyyədə aktivlik, yaradıcılıq və öyrənməyə davamlı maraq qazandırır. Tələbələr, öyrəndikləri bilikləri layihə üzərində tətbiq edərək dərs mövzularına daha dərin və mənalı yanaşırlar. Bu, həm də onların gələcəkdəki peşə fəaliyyətlərində daha uğurlu olmalarına gətirib çıxarır (1, s.100-115).

- Flip təlimi (Çevrilmiş sinif). Tələbələr dərs materialını əvvəlcədən araşdırır, sinifdə isə müəllimin rəhbərliyi altında müzakirə və praktiki tətbiq edirlər. Flip təlim modeli ənənəvi təlim prosesindən fərqli olaraq, tələbələrin dərs materialını əvvəlcədən araşdırmasını və sinifdə daha çox müzakirə və təcrübi tətbiqini nəzərdə tutur. Ənənəvi sinif modelində tələbələr dərsi sinifdə dinləyir, sonra evdə ev tapşırıqları yerinə yetirirlər. Tərsinə çevrilmiş sinif modelində isə bu prosesin sırası dəyişir – tələbələr dərs materialını əvvəlcədən video, məqalə və digər elektron resurslar vasitəsilə öyrənir, sinifdə isə müəllimin rəhbərliyi altında həmin bilikləri tətbiq etməyə, suallar verməyə və problemləri həll etməyə fokuslanırlar.

-Oyun əsaslı təlim (Game-Based Learning (GBL)). Oyun elementlərinin tədris prosesinə inteqrasiyası ilə tələbələrin motivasiyasını artırır. Oyun əsaslı təlim oyun elementlərinin və mexanizmlərinin akademik mühitə inteqrasiyasıdır. Bu yanaşma tələbələrin motivasiyasını artırmaq, onların dərsə marağını gücləndirmək və tədris materiallarını daha yaxşı mənimsəməsini təmin etmək məqsədi daşıyır. Oyun əsaslı təlimin əsas prinsipi öyrənmə prosesini oyun dinamikası ilə daha cəlbedici və əyləncəli etməkdir.

-Diferensial təlim (Differentiated Instruction) - Fərqli səviyyədə bilik və bacarıqlara malik tələbələrə fərdi yanaşma əsasında tədris təşkil olunur. Diferensial təlim tələbələrin fərdi xüsusiyyətlərini, bilik səviyyələrini və öyrənmə tərzlərini nəzərə alaraq tədrisin təşkil olunması prosesidir. Bu yanaşma tələbələrin akademik göstəricilərini yüksəltmək və onların potensialını tam şəkildə üzə çıxarmaq məqsədilə tətbiq olunur. Müasir təhsil sistemində bütün tələbələrin eyni tempdə və eyni metodlarla öyrənməsi səmərəli hesab edilmir. Diferensial təlim isə bu problemi həll edərək, hər bir tələbənin ehtiyaclarına uyğun fərdiləşdirilmiş tədris proqramı yaratmağa imkan verir (2, s. 120-135).

-Rəqəmsal və interaktiv texnologiyalar. Elektron təhsil platformaları, süni intellekt əsaslı sistemlər və virtual reallıq tətbiqləri öyrənməni daha səmərəli edir. Müasir dövrdə texnologiyanın təhsil sahəsinə inteqrasiyası tələbələrin öyrənmə prosesini daha interaktiv və effektiv hala gətirir. Rəqəmsal və interaktiv texnologiyalar elektron təhsil platformaları, süni intellekt əsaslı sistemlər, virtual və artırılmış reallıq kimi innovativ həllərdən istifadə edərək tədris prosesini daha çevik, fərdiləşdirilmiş və tələbəyönlü edir.

İnnovativ təlim metodlarının tələbələrin akademik göstəricilərinə müsbət təsiri bir çox tədqiqatlarda sübut olunmuşdur. Bu metodlar:

1. Dərs materiallarının daha yaxşı mənimsənilməsini təmin edir. İnteraktiv və praktik yanaşmalar sayəsində tələbələr məlumatları daha uzun müddət yadda saxlayır və onları tətbiq edə bilirlər.

2. Tələbələrin motivasiyasını artırır. Ənənəvi mühazirə metodları ilə müqayisədə, innovativ yanaşmalar tələbələrdə maraq oyadır və onların dərsə həvəsini yüksəldir.

3. Tənqidi düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Real həyat problemlərinə əsaslanan öyrənmə strategiyaları tələbələrə analitik düşünmək və yaradıcı həll yolları tapmaq imkanı yaradır.

4. Fərdi və əməkdaşlıq bacarıqlarını gücləndirir. Komanda işi və qrup layihələri sayəsində tələbələr ünsiyyət bacarıqlarını inkişaf etdirir və kollektiv şəkildə işləməyi öyrənirlər.

5. Texnoloji bilikləri artırır. Rəqəmsal texnologiyalardan istifadə edən tədris metodları tələbələrin informasiya texnologiyalarından səmərəli istifadə etməsini təmin edir (3, s. 43-50).

Tədqiqatlar göstərir ki, innovativ təlim

metodlarından istifadə edən tələbələr klassik tədris metodları ilə öyrənən həmyaşıdları ilə müqayisədə daha yüksək akademik nailiyyətlər əldə edirlər. Müasir təhsil müəssisələri bu metodları tətbiq etməklə təhsilin keyfiyyətini artırmalı və tələbələrin potensialını maksimum dərəcədə inkişaf etdirməlidir. Bu istiqamətdə son dövr aparılan tədqiqatlarda müşahidə olunmuşdur ki, təhsilin keyfiyyətini artırmaq üçün ilk növbədə aşağıdakı sxemdə qeyd olunan məsələlərə xüsusi diqqət yetirmək lazımdır (4, s. 88-95).

Sxem. Təhsilin keyfiyyətini yüksəltmək üçün əsas istiqamətlər


Müəllimlər yeni pedaqoji yanaşmaları mənimsəməli və onları praktiki olaraq tətbiq etməlidir
Təhsil müəssisələri innovativ tədris metodlarının istifadəsi üçün texnoloji imkanlar yaratmalıdır
Tələbələrə fərdi yanaşma və interaktiv təlim mühiti təmin edilməlidir

Təhsilin keyfiyyətini yüksəltmək məqsədilə yuxarıdakı sxemdə əks olunan istiqamətlər əsas rol oynayır və bu istiqamətlər çərçivəsində tətbiq olunan innovativ təlim metodları, tələbələrin akademik göstəricilərinin yüksəlməsində əhəmiyyətli təsir göstərməklə yanaşı, təhsil sisteminin ümumi inkişafına da töhfə verir.

Müasir dövrdə təhsil sistemlərinin qarşısında duran əsas vəzifə innovativ metodların geniş tətbiqi və onların effektivliyinin artırılmasıdır. İnnovativ təlim metodlarının tətbiqi tələbələrin akademik göstəricilərini artırmaqda mühüm rol oynayır (6). Bu metodlar tələbələrin öyrənmə prosesində fəal iştirakını təmin edir. Həmçinin, tələbələrə dərsləri daha dərindən mənimsəmək, mövzulara daha geniş və əhatəli yanaşmaq imkanı verir. İnnovativ təlim metodlarının tətbiqi yalnız tələbələrin akademik nailiyyətlərini yaxşılaşdırmaqla kifayətlənmir, həm də onların gələcək karyeralarına hazırlıq prosesini gücləndirir. Bu metodlar həmçinin müəllimlərin peşəkar bacarıqlarını artırır, təhsil sisteminin ümumi keyfiyyətini yüksəldir və təhsil mühitini müasir dövrün tələblərinə uyğunlaşdırır. Gələcəkdə təhsil müəssisələrinin innovativ yanaşmaları daha geniş miqyasda tətbiq etməsi tələbələrin inkişafını dəstəkləyəcək, onları iş bazarına hazırlayacaq və müasir dövrün tələblərinə uyğun inkişaf etmiş fərdlər olaraq yetişdirmələrinə imkan yaradacaq. Bu səbəbdən, təhsil sistemində innovativ təlim metodlarının daha geniş tətbiqi vacibdir. Bu, yalnız tələbələrin akademik göstəricilərini yaxşılaşdırmaqla deyil, həm də onların ümumi inkişafını təmin edərək, gələcəkdə daha hazırlıqlı və yaradıcı mütəxəssislərin formalaşmasına kömək edəcəkdir.

Problemin aktuallığı. Müasir təhsil sistemində tələbələrin akademik göstəricilərinin yüksəldilməsi üçün ənənəvi təlim metodları kifayət etmir. İnnovativ təlim metodları layihə əsaslı öyrənmə, çevrilmiş sinif, oyun və texnoloji yanaşmalar tələbələrin dərsə fəal qatılmasını, biliklərin praktik tətbiqini və yaradıcı düşüncənin inkişafını təmin edir. Bu metodların tətbiqi tələbələrin motivasiyasını artırmaqla yanaşı, onların akademik nailiyyətlərinə də müsbət təsir göstərir. Bu səbəbdən innovativ təlimin təhsildə rolu xüsusi əhəmiyyət kəsb edir.

Problemin yeniliyi. Problemin yeniliyi ondan ibarətdir ki, müasir dövrdə tətbiq olunan

innovativ təlim metodlarının (layihə əsaslı təlim, çevrilmiş sinif, oyun əsaslı öyrənmə və rəqəmsal texnologiyalar) tələbələrin akademik göstəricilərinə birbaşa təsiri sistemli şəkildə araşdırılır. Bu yanaşma ənənəvi təlim modelləri ilə müqayisədə tələbələrin öyrənmə fəallığını, dərs motivasiyasını və nəticə əldəetmə səviyyəsini yüksəltmək baxımından yeni elmi-praktiki nəticələr ortaya qoyur. Məqalə innovativ metodların real dərs prosesində tətbiq imkanlarını və onların effektivliyini təhlil etməklə tədrisə müasir yanaşmanı təşviq edir.

Problemin praktik əhəmiyyəti. Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, innovativ təlim metodlarının tətbiqi üzrə əldə olunan nəticələr müəllimlərin dərs prosesini daha effektiv və tələbəyönümlü şəkildə təşkil etməsinə imkan verir. Bu metodların tətbiqi tələbələrin dərsə marağını və fəallığını artırmaqla yanaşı, onların akademik göstəricilərinin yüksəldilməsinə də real töhfə verir. Araşdırma nəticələri təhsil müəssisələrində tədrisin keyfiyyətinin artırılması, pedaqoji strategiyaların təkmilləşdirilməsi və innovativ yanaşmaların geniş tətbiqi üçün praktiki əsaslar təqdim edir.

Ədəbiyyat

1. Garrison D. R. və Anderson T. E-learning in the 21st Century / D. R. Garrison, T. Anderson // E-Learning Journal, - 2010, - p.100-115
2. Anderson J. R. Koqnitiv psixologiya / J. R. Anderson // Koqnitiv Psixologiya Jurnalı. № 8, - 2009. - s.120-135
3. Gong, C. “Strategic Research on Current Status of Sports Competition within the Vocational Colleges of Xi'an” // Journal of Shaanxi Institute of Junior Managerial Personnel, - 2018, - p. 43-50
4. Kolb D. A. Təcrübə və tədris: Təhsil dövrü / D. A. Kolb // Təcrübə və Təhsil Jurnalı. № 2, - 2012, - s. 88-95
5. Salovey P. və Mayer J. Emotional Intelligence / P. Salovey, J. Mayer // Emotional Intelligence Journal. № 1, - 2010, - p. 35-50
6. https://www.erasmustrainingcourses.com/blog/what-impact-can-innovative-teaching-methods-have-on-student-learningoutcomes
7. https://consortiacademia.org/wpcontent/uploads/2022/m_v12i11/M241250_final.pdf
8. https://globaljournals.org/GJHSS_Volume12/7-Effects-of-Innovative-Teaching-Strategies-on-Students-Performance.pdf

Redaksiyaya daxil olub: 14.07.2025.

OUT 373.67

Xəyalə Arif qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
İbtidai təhsilin pedaqogikası kafedrasının baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-6088-0372
E-mail: xayalamamedova@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).173-179

İNKLÜZİV TƏHSİL KONTEKSTİNDƏ UNİVERSAL TƏLİM DİZAYNI

Khayala Arif Mammadova
senior lecturer at the department of Primary education pedagogy at
Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

UNIVERSAL DESIGN FOR LEARNING IN THE CONTEXT OF INCLUSIVE EDUCATION

Хаяла Ариф гызы Мамедова
старший преподаватель кафедры Педагогики начального образования Азербайджанского
Государственного Педагогического Университета,
доктор философии по педагогике

УНИВЕРСАЛЬНЫЙ ДИЗАЙН ОБУЧЕНИЯ В КОНТЕКСТЕ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

Xülasə. Bu məqalədə Universal Təlim Dizaynının (UTD) nəzəri əsasları və onun inklüziv təhsil kontekstində tətbiq imkanları təhlil olunur. Müxtəlif öyrənmə ehtiyaclarına malik öyrənənlər üçün bərabər təhsil imkanlarının yaradılması UTD modelinin əsas məqsədini təşkil edir. Məqalədə UTD-nin əsas prinsipləri, pedaqoji praktikada tətbiqi, beynəlxalq təcrübələr və Azərbaycan təhsil sistemi üçün mümkün tövsiyələr təqdim olunur. Nəticədə, bu modelin inklüziv təhsil mühitinin yaradılmasında səmərəli bir alət olduğu vurğulanır.

Bu məqalədə Universal Təlim Dizaynı (UTD) modelinin inklüziv təhsil kontekstində rolu və əhəmiyyəti araşdırılır. Məqalə UTD-nin əsas prinsipləri və onların müxtəlif təlim ehtiyaclarına malik şagirdlərin təhsilə bərabər çıxışını təmin etmə qabiliyyəti üzərində qurulub. Tədqiqat nəticələri göstərir ki, UTD yanaşması dərs prosesində çeviklik və şaxələndirmə imkanları yaradır, müəllimlərin peşəkar inkişafına müsbət təsir göstərir və təhsilalanların motivasiyasını artırır.

Açar sözlər: *Universal Təlim Dizaynı (UTD), inklüziv təhsil, fərdi ehtiyaclar, tədris strategiyaları, pedaqoji adaptasiya.*

Abstract. This article explores the theoretical foundations of Universal Design for Learning (UDL) and its potential applications within the context of inclusive education. The primary aim of the UDL model is to ensure equitable learning opportunities for students with diverse educational needs. The article presents the core principles of UDL, its pedagogical implementation, examples from international practice, and recommendations for its adaptation in the Azerbaijani educational context. The findings highlight UDL as an effective framework for fostering inclusive learning environments.

This article explores the role and significance of Universal Design for Learning (UDL) within the context of inclusive education. The study focuses on the core principles of UDL and its capacity to ensure equitable access to education for students with diverse learning needs. Findings indicate that UDL fosters flexibility and differentiation in teaching processes, supports teachers' professional growth, and enhances student engagement.

Keywords: *Universal Design for Learning (UDL), inclusive education, individual needs, teaching strategies, pedagogical adaptation.*

Аннотация. В статье рассматриваются теоретические основы Универсального дизайна обучения (УДО) и его применение в контексте инклюзивного образования. Модель УДО направлена на создание равных образовательных возможностей для учащихся с различными потребностями. В статье представлены ключевые принципы УДО, практические подходы к его реализации, международный опыт и рекомендации по адаптации модели в системе образования Азербайджана. Подчеркивается эффективность УДО как инструмента для построения инклюзивной образовательной среды.

В данной статье рассматривается роль и значение Универсального дизайна обучения (УДО) в контексте инклюзивного образования. Основное внимание уделяется принципам УДО и их способности обеспечивать равный доступ к обучению для учащихся с различными образовательными потребностями. Результаты исследования показывают, что УДО способствует гибкости учебного процесса, профессиональному развитию педагогов и повышает мотивацию обучающихся.

Ключевые слова: *Универсальный Дизайн Обучения (УДО), инклюзивное образование, индивидуальные потребности, педагогические стратегии, адаптация в обучении.*

Müasir təhsil sistemləri inklüzivliyin təmin edilməsini prioritet istiqamətlərdən biri kimi müəyyən edir. Bu yanaşma, fərqli bacarıq və ehtiyaclara malik olan bütün öyrənənlərin keyfiyyətli təhsilə bərabər çıxışını təmin etməyə yönəlmişdir. Ənənəvi təlim modelləri isə bu müxtəlifliyi nəzərə almaqda əksər hallarda məhdudiyyətlər yaşayır. Bu səbəbdən "Universal Təlim Dizaynı" modeli müasir pedaqoji yanaşmalar arasında diqqət çəkir. XXI əsrdə təhsilin əsas prioritetlərindən biri onun inklüzivliyinin təmin olunması, təhsilin hər bir öyrənənin bacarıq, ehtiyac və imkanlarına uyğunlaşdırılmasını nəzərdə tutur. İnklüziv təhsilin uğurla həyata keçirilməsi üçün ən müasir yanaşmalardan biri olan Universal Təlim Dizaynı (UTD) modeli geniş şəkildə tədqiq edilməyə başlanmışdır. UTD hər bir öyrənən üçün bərabər öyrənmə imkanları yaradaraq, tədris prosesinin çevik, fərdiləşdirilmiş və əlçatan olmasını təmin edir. Bu model, fərqli təhsil ehtiyaclarına malik olan öyrənənlərin təhsilə inteqrasiyasını və uğurla iştirakını dəstəkləyir. UTD fərqli öyrənmə tərzlərinə və ehtiyaclara uyğunlaşdırılmış təlimin planlaşdırılması və həyata keçirilməsi prosesidir. Bu model təkcə fiziki məhdudiyyətləri deyil, həm də koqnitiv və emosional müxtəliflikləri nəzərə almağı hədəfləyir. UTD, təlimin hər bir öyrənən üçün əlçatan və mənalı olması prinsipinə əsaslanır.

İnklüziv təhsil öyrənənlər arasında mövcud olan fərqləri tanımaqla başlayır. Təlimdə prosesində belə bir yanaşmanın inkişafı bu fərqlərə hörmət edir və onların üzərində qurulur. Bu, sinifdə, müəllimlər otağında, məktəb həyətində və valideynlərlə münasibətlərdə baş verənlərdə köklü dəyişiklikləri əhatə edə bilər. İnklüzivlik öyrənənin yalnız bir aspektinə, məsələn, çatışmazlığına diqqət yetirərsə bu perspektivi nəzərdən qaçırmış olar. Burada önəmli olan qabiliyyətlərə fokslanmaqdır. İnklüziv təhsil hər bir uşağa onun qabiliyyətlərini və məhdudiyyətlərini nəzərə alaraq maksimum dərəcədə uyğun təhsil vermək öhdəliyidir. Bunun üçün Universal Təlim Dizaynından istifadə zəruridir. Təlimdə "universal dizayn" termini hər kəs üçün əlçatan olması nəzərdə tutulan mühitin yaradılmasına aiddir. Adətən əlilliyi olan şəxslərin ehtiyacı ilə əlaqəli olsa da, universal dizayn özündə digər aspektləri də ehtiva edir.

Universal Təlim Dizaynı nədir? Universal Təlim Dizaynı (UTD), müxtəlif qabiliyyətlərə və öyrənmə ehtiyaclarına malik bütün öyrənənlər üçün təlimin əvvəlcədən planlaşdırılaraq əlçatan və iştirakçı olmasını təmin edən bir pedaqoji yanaşmadır.

BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına əsasən universal dizayna "əşyalar, şərait, proqramlar və

xidmətlərin adaptasiya və ya xüsusi dizayn zərurəti olmadan bütün insanlar üçün istifadəyə maksimum dərəcədə yararlı şərait" kimi tərif verilir (2). "Buna görə də universal dizayna əlilliyi olan şəxslər üçün müvafiq şərait yaradan yardımçı cihazlar, digər dəstəkləyici sistemlər və tənzimləmələr daxildir. Universal dizayn dedikdə inklüziv təhsilə xas vacib məqam sinifdə şagirdlər üçün təmin edilən təlim mühitidir" (6, s.26).

Hər bir müəllim sinfindəki öyrənənlərin müxtəlif öyrənmə tərzlərinin olduğunu bilməlidir. Bunu nəzərə alaraq qarşıya qoyulan təlim məqsədinə çatmaq üçün müxtəlifliyi təmin edəcək əlçatanlılıq şəraiti yaratmaq şərtdir. Bu nöqteyi-nəzərdən Universal Təlim Dizaynı köməyimizə çatır və hər kəs üçün əlçatanlılığı təmin edir.

Universal Təlim Dizaynı konsepti ilk dəfə ABŞ-da Harvard Universiteti nəzdində fəaliyyət göstərən CAST (*Center for Applied Special Technology*) təşkilatı tərəfindən inkişaf etdirilmişdir. Bu model, təhsil mühitində müxtəlif öyrənmə tərzlərinə sahib olan fərdlərə eyni səviyyədə təlim imkanları təqdim etmək məqsədi daşıyır (8).

UTD əsas etibarilə, təlimin planlaşdırılması mərhələsindən başlayaraq fərqliliyi nəzərə alan, inklüziv və proaktiv yanaşmadır. Universal Təlim Dizaynı təlim prosesini elə planlaşdırmaq və həyata keçirməkdir ki, bütün öyrənənlər (o cümlədən fiziki, eşitmə, görmə və intellektual fərqlilikləri olanlar) ondan bərabər şəkildə faydalana bilsinlər. UTD əlçatanlıq, çeviklik və fərdi ehtiyaclara uyğunluq prinsiplərinə əsaslanır.

UTD modelinə görə, effektiv təlim prosesi üç əsas *prinsipə* əsaslanmalıdır:

1. Məzmunun təqdimatında çoxşaxəlilik:

- Məlumatlar müxtəlif üsullarla təqdim olunur (vizual, audio, mətn və s.).
- Fərqli öyrənmə tərzlərini və sensor ehtiyaclarını nəzərə alır.

Öyrənənlərin informasiyanı qəbuletmə tərzləri fərqli ola bilər. Bu səbəbdən məzmun vizual, eşitmə, kinestetik və interaktiv üsullarla təqdim olunmalıdır.

2. İfadə və iştirakda seçim imkanı:

- Öyrənənlərə maraqlı və mənalı fəaliyyətlər təqdim edilir.
- Daxili motivasiya gücləndirilir, seçim azadlığı verilir.

Öyrənənlər mənimsədiklərini müxtəlif yollarla ifadə edə bilməlidir: yazılı cavab, şifahi təqdimat, layihə işi və s.

3. Motivasiya və öyrənməyə cəlbetmədə müxtəliflik:

- Öyrənənlər öz biliklərini müxtəlif yollarla ifadə edə bilər (şifahi, yazılı, texnologiya ilə və s.).
- Qiymətləndirmə üsulları da çevik olur.

Öyrənənlərin maraq dairəsi və daxili motivasiyası fərqli olduğu üçün, onların marağını çəkən, uyğun çətinlik səviyyəsində və məqsədyönlü fəaliyyətlər təmin edilməlidir. Bu prinsipial yanaşma, sadəcə təhsildə xüsusi ehtiyacı olan uşaqlar üçün deyil, ümumilikdə bütün öyrənənlər üçün təhsili daha funksional və əlçatan edir. UTD, yalnız adaptasiya deyil, başlanğıcdan inklüziv dizayn anlayışına əsaslanır. Bu isə onu fərdi ehtiyaclara cavab verən, lakin ayrı-seçkilik etməyən bir modelə çevirir.

Beyin fəaliyyətinin fərqliliyini qəbul edən UTD modeli, "beyin müxtəlifliyi" anlayışını təhsildə nəzərə almağı vacib hesab edir (8).

Beləliklə, UTD həm inklüzivliyin təmin edilməsinə, həm də keyfiyyətli tədrisin gerçəkləşməsinə xidmət edir.

İnklüziv təhsil anlayışı, bütün uşaqların, o cümlədən müxtəlif bacarıq səviyyəsinə, mədəni və sosial mənşəyə, fiziki və intellektual fərqliliyə malik şagirdlərin birgə və bərabərhüquqlu şəkildə təhsil almasını nəzərdə tutur. Lakin bu yanaşmanın təcrübədə həyata keçirilməsi yalnız hüquqi mexanizmlərlə deyil, pedaqoji yanaşmalarla da birbaşa əlaqəlidir. Bu kontekstdə Universal Təlim Dizaynı inklüziv təhsilin tətbiqini sadələşdirən və gücləndirən əsas modellərdən biri kimi çıxış edir.

UTD-nin inklüziv təhsildə tətbiqi bir neçə istiqamətdə təhsil maneələrinin qarşısını alır:

- Fiziki maneələrin aradan qaldırılması: UTD fiziki əlçatanlığı yalnız mühit baxımından deyil, eyni zamanda tədris resursları və qiymətləndirmə metodlarının adaptasiyası ilə də təmin edir;

- Koqnitiv və dil baryerlərinin azaldılması: UTD-nin çoxşaxəli təqdimat üsulları öyrənmə çətinlikləri, dil baryeri və ya diqqət pozuntusu olan şagirdlərin dərsi mənimsəməsini asanlaşdırır. Məsələn, vizual qrafiklər, audio izahlar və sadələşdirilmiş mətnlər koqnitiv mühitə uyğunlaşdırılmış yanaşmalardır;
- Sosial-emosional iştirakın gücləndirilməsi: UTD öyrənənlərin özünü tanıma, qəbul edilmə və aktiv iştirak hisslərini dəstəkləyir. Bu isə, xüsusilə, təcrid riski olan və sosial cəhətdən həssas qruplar üçün kritik əhəmiyyət daşıyır.

Universal Təlim Dizaynının sinifdə tətbiqi pedaqoji fəaliyyətin planlaşdırılması və icrasının bütün mərhələlərində inklüzivlik prinsipinə əsaslanır. Bu yanaşma müəllimlərin təkcə tədris materiallarını deyil, həm də fəaliyyətləri, qiymətləndirməni və sinif idarəçiliyini öyrənənlərin fərdi ehtiyaclarına uyğunlaşdırmasını nəzərdə tutur.

1. **Dərs planlaşdırılmasında UTD**

Müəllimlər dərs planlarını hazırlayarkən aşağıdakı prinsipləri rəhbər tutmalıdırlar:

- Məzmunun təqdimində fərqliliklər: Vizual slaydlar, audio izahlar, qrafiklər, real həyat nümunələri və ya əllə toxunula bilən materiallar təqdim edilə bilər. Məsələn, riyaziyyat dərsində "fraksiyalar" mövzusunu anlamaqda çətinlik çəkən şagirdlər üçün rəqəmlərlə yanaşı real obyektlər (meyvələr, hissələrə bölünən əşyalar) istifadə edilə bilər;
- İfadə yollarında seçim azadlığı: Öyrənənlərin mənimsədiklərini təqdim etməsi üçün alternativ yollar təklif olunmalıdır – təqdimat, rəsmlə izah, videobloq, yazılı esse və ya praktiki layihə. Bu, fərqli güclü tərəflərin ifadəsinə şərait yaradır;
- Fəal iştirak və maraq üçün müxtəlif yanaşmalar: Təlimə oyunlar, müzakirələr, problem həllinə əsaslanan tapşırıqlar, dramatik canlandırmalar və simulyasiyalar daxil edilməlidir. Bu, sinifdə fərqli motivasiya səviyyəsinə malik şagirdlərin tədrisə cəlb olunmasını artırır.

2. **Qiymətləndirmənin adaptasiyası**

UTD modeli formativ və summativ qiymətləndirmənin çevik və fərdiləşdirilmiş olmasını təşviq edir. Məsələn, şagirdin biliklərini testlə yanaşı layihə təqdimatı və ya portfoliolar vasitəsilə də qiymətləndirmək mümkündür. Bu, qiymətləndirmədə ayrı-seçkiliyin qarşısını alır və öyrənmənin daha obyektiv dəyərləndirilməsinə imkan yaradır.

3. **Rəqəmsal alətlərdən istifadə**

Rəqəmsal texnologiyalar UTD-nin prinsiplərini praktikada həyata keçirmək üçün güclü alət rolunu oynayır. İnteqrasiya olunmuş platformalar (məsələn, Google Classroom, Padlet və s.) müəllimlərə məzmunu fərdiləşdirmək və əhatəliliyi təmin etmək imkanı yaradır. Eyni zamanda oxu çətinliyi olan öyrənənlər üçün mətn oxuyan proqramlar və ya alt yazılarla təchiz olunmuş video materiallar səmərəli dəstəkdir.

Müasir təhsilin qarşısında duran ən böyük çağırışlardan biri inklüzivliyin təmin olunmasına sistemli cavab təqdim edən UTD modeli təlimin başlanğıc mərhələsindən etibarən müxtəlif öyrənən ehtiyaclarını nəzərə alaraq fərdi fərqliliyi bir maneə kimi deyil, imkan kimi dəyərləndirir. Bu isə yalnız xüsusi ehtiyacı olan şagirdlər üçün deyil, ümumi təhsil sistemində tədris keyfiyyətinin yüksəldilməsi baxımından da strateji əhəmiyyət daşıyır.

Müəllimlər tərəfindən dərsin planlaşdırmasında şagirdlərin maraqları, güclü tərəfləri, ehtiyacları və dərsin məzmununu nəzərə alıb dəyişikliklər edərək yanaşması ideal formadır. Müəllimlər öyrənmə tərzlərinin müxtəlifliyini nəzərə alaraq dərsi planlaşdırmalıdır. Bu təcrübə əlilliyi olan şagirdlər üçün müvafiq olan və bütün şagirdlərin ehtiyaclarını təmin edən dərsləri inkişaf etdirir. Müəllimlər inklüziya və cəlb olunmanı asanlaşdırmaq üçün mədəni mühit və şagirdlər ilə məktəb arasında aydın əlaqələri təmin etməyi də planlaşdırmalıdır (6, s.36).

Azərbaycan təhsil sistemində də inklüzivlik üçün hüquqi baza formalaşmaqda olsa da, pedaqoji baxımdan sistemli yanaşma ehtiyacı qalmaqdadır. Bu səbəbdən UTD kimi qabaqcıl pedaqoji modellərin tətbiqi təhsil siyasətinin keyfiyyətə yönəlmiş transformasiyasında mühüm yer tuta bilər.

Tədqiqat.

1. Tədqiqatın məqsədi və aktuallığı

Müasir dövrdə təhsilin əsas vəzifələrindən biri onun inklüzivliyini təmin etməkdir. Bütün şagirdlərin fərdi ehtiyaclarının

nəzərə alındığı və bərabər təhsil imkanlarına malik olduğu bir sistem qurmaq cəmiyyətin sosial ədalət prinsiplərinə əsaslanan inkişafını dəstəkləyir. Bu kontekstdə Universal Təlim Dizaynı (UTD) modeli inklüziv təhsilin həyata keçirilməsində innovativ və praktik yanaşmalardan biri kimi çıxış edir.

Tədqiqatın məqsədi inklüziv təhsil mühitində UTD-nin tətbiq imkanlarını və təlim prosesinə təsirini nəzəri və praktik aspektlərdən təhlil etmək, müəllimlərin bu yanaşmaya münasibətini, məktəb infrastrukturunun uyğunluğunu və təhsilalanların iştirak səviyyəsini empirik materiallar əsasında qiymətləndirməkdir.

Bu məqsədlə aşağıdakı suallar rəhbər tutulmuşdur:

- UTD prinsipləri hazırkı təhsil sistemində nə dərəcədə tətbiq edilir?
- Müəllimlərin və məktəb rəhbərlərinin UTD-yə münasibəti və hazırlıq səviyyəsi necədir?
- UTD şagirdlərin dərsə inteqrasiyasına və nailiyyətlərinə necə təsir göstərir?
- Məktəb mühiti və resursları bu modelin tətbiqi üçün yetərlidirmi?

2. Tədqiqatın metodologiyası

Tədqiqat keyfiyyət əsaslı metodologiya çərçivəsində aparılmışdır. Keyfiyyət metodları tədqiqatın məqsədinə daha uyğun olduğu üçün müəllimlərin, valideynlərin və təhsil rəhbərlərinin baxışlarını daha dərindən anlamağa imkan vermişdir.

Məlumat toplama üsulları:

- Müsahibələr (12 müəllim, 3 məktəb direktoru, 2 psixoloq)
- Fokus qrup müzakirələri (18 valideyn)
- Dərs müşahidələri (4 məktəbdə 8 inklüziv sinifdə aparılıb)
- Sənəd analizi (kurikulum, dərs planları, təlim resursları)

Məkan və iştirakçılar: Tədqiqat Bakı şəhəri və ətraf rayonlarda fəaliyyət göstərən 5 dövlət ümumi təhsil məktəbində həyata keçirilmişdir. Seçilmiş məktəblərin hamısında inklüziv siniflər mövcuddur. İştirakçılar müxtəlif fənn və yaş qruplarında fəaliyyət göstərən pedaqoqlardır.

Təhlil üsulu: Toplanan məlumatlar tematik kodlaşdırma metodu ilə təhlil olunmuş, əsas motivlər çıxarılaraq kateqoriyalar üzrə qruplaşdırılmışdır. Kodlaşdırma prosesində təkrar mövzuların tezliyi və iştirakçılar tərəfindən vurğulanan əsas məqamlar əsas götürülmüşdür.

3. Tədqiqatın nəticələri

Müəllimlərin UTD-yə hazırlıq səviyyəsi. Müsahibələrin və müşahidələrin nəticələri göstərdi ki, respondentlərin əksəriyyəti UTD anlayışına səthi şəkildə bələddir. UTD prinsipləri ilə bağlı formal bilik olsa da, onların dərs planlarında sistemli şəkildə əks etdirilməsi müşahidə olunmur. Müəllimlər UTD-ni daha çox "vizual vəsaitlərlə dərs keçmək" və ya "tapşırıqları fərqləndirmək" kimi dar mənada başa düşürlər. Bu isə UTD-nin mahiyyətinə və strukturlaşdırılmış pedaqoji çərçivəsinə ziddir.

Tədris mühitinin uyğunluğu. UTD-nin əsas tələblərindən biri çevik və fərdi ehtiyaclara uyğunlaşdırılmış təlim mühitidir. Lakin məktəblərdə fiziki məkanların (partaların düzümü, hərəkət imkanları, texniki vasitələr) bu modelə uyğunlaşdırılması ciddi məhdudiyyətlərlə üzləşir. Yalnız 2 məktəbdə interaktiv texnologiyaların istifadəsi mümkündür. Əksər siniflərdə isə köhnə avadanlıq, dar sinif otaqları və resurs çatışmazlığı müşahidə olunmuşdur. **UTD-nin tətbiqi və şagirdlərin iştirakı**. UTD prinsiplərinin (xüsusən təqdimatın müxtəlif formaları və qiymətləndirmə üsullarının çevikliyi) tətbiq olunduğu hallarda şagirdlərin dərsə marağı və aktivliyi nəzərəçarpacaq dərəcədə artır. Məsələn, müəllimlər tapşırıqları yazılı və vizual təqdim etdikdə və ya qiymətləndirməni yalnız testlə deyil, təqdimat, poster və ya qrup işi ilə əvəz etdikdə şagirdlərin fəallığı yüksəlmişdir. Xüsusilə öyrənmə çətinliyi olan şagirdlər üçün bu yanaşma adaptiv və funksional təsir göstərmişdir.

Psixoloji və sosial amillər. Fokus qruplar zamanı valideynlər qeyd etmişlər ki, UTD-nin tətbiq olunduğu dərslərdə uşaqlar özlərini daha rahat və qəbul olunmuş hiss edirlər. Bu isə inklüziv təhsil mühitində şagirdlərin emosional rifahı və məktəbə bağlılığı üçün mühüm göstəricidir. Digər tərəfdən, məktəb rəhbərləri qeyd etmişlər ki, müəllimlərin əlavə metodiki yüklənməsi və resurs azlığı UTD-nin geniş tətbiqini əngəlləyir.

4. Müzakirə və təhlil

Tədqiqatın nəticələri beynəlxalq ədəbiyyatda qeyd olunanlarla üst-üstə düşür. Məsələn, Rose və Meyer (2002) tərəfindən təqdim edilən UTD modelində təlimin adaptivliyi və şagirdlərin seçim azadlığı əsas faktor kimi vurğulanır. Eyni zamanda, Azərbaycan kontekstində UTD-nin tətbiqinə dair normativ çərçivə hələ tam oturuşmadığından, təlim prosesində bu yanaşma epizodik xarakter daşıyır.

Bu nəticələr göstərir ki, UTD-nin inklüziv təhsildə rolu yüksək olsa da, onun tətbiqi üçün yalnız pedaqoji deyil, sistem səviyyəsində dəyişikliklərə ehtiyac vardır: təlim planlarının çevikliyi, müəllim hazırlığı, texniki resurslar və rəhbərlik dəstəyi kompleks şəkildə təmin olunmalıdır.

5. Tədqiqatın məhdudiyyətləri

Tədqiqat yalnız dövlət məktəblərini əhatə etdiyindən özəl və alternativ təhsil müəssisələri istisna olunub.

- İştirakçı sayı məhdud olduğundan nəticələrin ümumiləşdirilməsi ehtiyatlı yanaşma tələb edir.
- Şagirdlərin özlərinin birbaşa baxışları daxil edilməyib, bu gələcək tədqiqatlar üçün imkan yaradır.

Nəticə. Tədqiqatın nəticələri sübut edir ki, Universal Təlim Dizaynı inklüziv təhsilin effektivliyini artırmaq üçün mühüm vasitədir. Bu yanaşma yalnız təhsildə xüsusi ehtiyacı olan şagirdlər üçün deyil, ümumilikdə müxtəlif öyrənmə tərzinə malik bütün şagirdlər üçün faydalıdır. Onun uğurlu tətbiqi üçün isə sistemli müəllim hazırlığı, məktəb infrastrukturunun müasirləşdirilməsi və dövlət səviyyəsində metodik dəstəyin gücləndirilməsi vacibdir.

UTD modeli inklüziv təhsilin praktikaya uğurla inteqrasiyası üçün əlverişli çərçivə təqdim edir. Tədqiqat nəticəsində aşağıdakı nəticələr və tövsiyələr irəli sürülür:

- Müəllimlər üçün UTD-nin fəlsəfəsi və tətbiq mexanizmlərinə dair sistemli ixtisasartırma proqramları hazırlanmalıdır;
- Təhsil müəssisələrində təlim mühitinin texniki və metodik baxımdan UTD prinsiplərinə uyğunlaşdırılması təmin olunmalıdır;
- Kurikulum sənədlərində və dərs planlarında çeviklik və çoxformatlı qiymətləndirmə mexanizmləri genişləndirilməlidir;
- İdarəedicilər və psixoloji xidmət nümayəndələri UTD-nin effektiv tətbiqinə nəzarət edən funksional dəstək mexanizmləri qurmalıdırlar.

UTD-nin əsas üstünlükləri aşağıdakılardır:

- Müxtəlif öyrənmə tərzlərini nəzərə alması və fərdi yanaşmanı təşviq etməsi;
- Fiziki, koqnitiv və sosial maneələrin tədris prosesindən əvvəl nəzərə alınaraq aradan qaldırılması;
- Qiymətləndirmə və iştirak imkanlarında seçim azadlığı təmin etməsi;
- Rəqəmsal vasitələrin potensialını inklüzivliyin lehinə istifadəsi.

Lakin bu modelin uğurla tətbiqi üçün yalnız konseptual bilik yetərli deyil. Praktik səviyyədə effektivliyə nail olmaq üçün aşağıdakı **tövsiyələr** vacibdir:

1. Müəllim hazırlığı: UTD-nin prinsiplərini və tətbiq yollarını əhatə edən təlimlər pedaqoqların inklüziv düşüncə tərzini formalaşdırmalıdır. Bu həm ali təhsil proqramlarında, həm də xidmətdaxili inkişaf proseslərində yer almalıdır.
2. Tədris materiallarının adaptasiyası: Mövcud dərs resurslarının UTD prinsipinə uyğunlaşdırılması və yeni, diferensiallaşdırılmış məzmunların hazırlanması üçün müəllimlərə metodik dəstək göstərilməlidir.
3. Təhsil siyasətində dəstək: UTD-nin tətbiqini təşviq edən hüquqi və institusional çərçivələr yaradılmalı, məktəblər bu yanaşmaya keçid üçün maddi-texniki və psixoloji resurslarla təmin olunmalıdır.
4. Beynəlxalq təcrübələrin öyrənilməsi: Kanada, Finlandiya və ABŞ kimi ölkələrin UTD tətbiqi ilə bağlı təcrübələri Azərbaycanda kontekstual uyğunlaşdırmalarla inteqrasiya oluna bilər.

Nəticə etibarilə, Universal Təlim Dizaynı təhsildə inklüzivliyin təkcə hüquqi deyil, həm də didaktik əsaslarını təşkil edir. Bu model vasitəsilə hər bir öyrənən üçün "eyni deyil, ədalətli" təhsil mühiti qurmaq mümkündür. Belə bir yanaşma isə yalnız tədris nəticələrinin deyil, bütövlükdə cəmiyyətin humanist əsaslarının möhkəmlənməsinə xidmət edir.

Problemin aktuallığı. Müasir dövrdə təhsilin əsas çağırışlarından biri fərqliliklərin nəzərə alındığı və hər bir öyrənənin ehtiyaclarına uyğunlaşdırılmış öyrənmə mühitlərinin qurulmasıdır. İnklüziv təhsilin məqsədi yalnız əlilliyi olan şəxslərin inteqrasiyası ilə məhdudlaşmır, eyni zamanda müxtəlif öyrənmə tərzləri, fərqli dil və sosial-mədəni mənşəyə malik şagirdlər üçün bərabər təhsil imkanlarının yaradılmasını da əhatə edir. Ənənəvi təlim modelləri bu ehtiyaclara tam cavab vermədiyi üçün daha çevik və inklüziv yanaşmalara ehtiyac artır. Bu kontekstdə Universal Təlim Dizaynı (UTD) modeli pedaqoji adaptasiyanı ön plana çəkərək bütün öyrənənlər üçün əlçatan, iştirakçı və mənalı tədris mühiti yaratmağı qarşısına məqsəd qoyur. Azərbaycan təhsil sistemində də inklüzivlik üzrə hüquqi çərçivənin mövcudluğu praktik mexanizmlərlə tamamlanmadığı üçün, UTD modelinin tətbiqi məsələsi öz aktuallığını qoruyur.

Problemin elmi yeniliyi. Universal Təlim Dizaynı konsepti beynəlxalq elmi müstəvidə geniş şəkildə tədqiq edilsə də, onun Azərbaycan təhsil kontekstində empirik şəkildə araşdırılması çox məhdud olmuşdur. Bu tədqiqat məhz UTD-nin yerli məktəb təcrübələrində necə qəbul edildiyini, tətbiq olunduğunu və hansı çətinliklərlə üzləşdiyini sistemli şəkildə araşdıran ilk nümunələrdəndir. Elmi yenilik ondan ibarətdir ki, müəllimlərin, rəhbərlik nümayəndələrinin və valideynlərin UTD-yə münasibəti təhlil olunmaqla yanaşı, real sinif müşahidələri və sənəd analizləri vasitəsilə nəzəri biliklərin praktik əks olunma səviyyəsi də ölçülmüşdür. Eyni zamanda bu araşdırma UTD modelinin inklüziv təhsildə nə dərəcədə transformativ gücə malik olduğunu yerli kontekstdə ilk dəfə dərinliklə göstərir.

Problemin praktik əhəmiyyəti. Araşdırmanın nəticələri inklüziv təhsil sahəsində çalışan müəllimlər üçün praktik tövsiyələr təqdim edir. UTD modelinin tətbiqi sayəsində təlim materiallarının fərdiləşdirilməsi, qiymətləndirmə üsullarının çevikləşdirilməsi və öyrənənlərin motivasiyasının artırılması kimi nəticələr əldə oluna bilər. Bu isə birbaşa dərs keyfiyyətinə, şagirdlərin nailiyyətlərinə və məktəb mühitində sosial inteqrasiyaya müsbət təsir göstərir. Məqalədə müəllim hazırlığının sistemləşdirilməsi, məktəb resurslarının təkmilləşdirilməsi və təlimin planlaşdırılmasında UTD prinsiplərinə əsaslanmaq kimi təqdim olunan tövsiyələr təhsildə islahatlara yön verə biləcək praktik təkliflərdir. Beləliklə, bu tədqiqat pedaqoji sahədə çalışanlar üçün yol göstərici rol oynaya bilər.

Ədəbiyyat:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Respublikasının ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). -Bakı, 2006.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. 2018–2024-cü illərdə sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. Bakı, 2017.
3. Əhmədova G. İnklüziv təhsil mühitinin yaradılmasında müəllimlərin rolu // Azərbaycan Müəllimlər İnstitutu Elmi Əsərlə,. -2020. №4. -s. 45–52.
4. İsmayılov R. Təhsildə universal dizayn: müasir yanaşmalar və tətbiq imkanları // Təhsil və Zaman. -2021. №3. -s. 19–27.
5. Quliyeva S. İbtidai siniflərdə inklüziv tədris mühitinin təşkili yolları // Təhsil Problemləri. -2019. №2. -s. 63–70.
6. https://www.tipii.edu.az/noduploads/document/nkluziv-sinifda-talimin-taskili-oxu-materiali.pdf
7. (Son baxıldığı tarix: 10/06/2025).
8. United Nations. Convention on the Rights of Persons with Disabilities. -2006. URL: http://www.un.org/disabilities/documents/convention/convoptprot-e.pdf (baxış tarixi: 10.06.2025).
9. CAST. Universal Design for Learning Guidelines Version. -2018. URL: https://udlguidelines.cast.org (baxış tarixi: 10.06.2025).
10. Meyer A., Rose D.H., Gordon D. Universal Design for Learning: Theory and Practice. CAST Professional Publishing, -2014.
11. Rose D.H., Meyer A. Teaching Every Student in the Digital Age: Universal Design for Learning. ASCD, -2002.

Redaksiyaya daxil olub: 17.09.2025

OUT 373.67

Könül Ramiz qızı Səmədova
Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun
kiçik elmi işçisi
https://orcid.org/0009-0000-1039-5868
E-mail: konulsemedova71@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).180-185

İNKLÜZİV SİNİFDƏ MÜƏLLİMİN FUNKSİYASI: ÜMUMİ FƏALİYYƏTLƏR VƏ FƏRQLƏNDİRMƏNİN ÇƏTİNLİKLƏRİ

Konul Ramiz Samadova
junior researcher at Institute of Molecular Biology and Biotechnologies

THE FUNCTION OF A TEACHER IN AN INCLUSIVE CLASSROOM: GENERAL ACTIVITIES AND DIFFICULTIES OF DIFFERENTIATION

Кёнуль Рамиз гызы Самедова
младший научный сотрудник Института Молекулярной Биологии и Биотехнологий

ФУНКЦИЯ УЧИТЕЛЯ В ИНКЛЮЗИВНОМ КЛАССЕ: ОБЩИЕ ВИДЫ ДЕЯТЕЛЬНОСТИ И ТРУДНОСТИ ДИФФЕРЕНЦИАЦИИ

Xülasə. Bu məqalədə inklüziv təhsil kontekstində müəllimin funksional rolu və diferensiallaşdırma strategiyalarının praktiki tətbiqi zamanı onun üzləşdiyi əsas problemlər araşdırılır. Tədqiqatın məqsədi inklüziv siniflərdə müəllimin həyata keçirdiyi əsas pedaqoji və təşkilati fəaliyyətləri müəyyən etmək və bu fəaliyyətlərin şagirdlərin müxtəlif təhsil ehtiyaclarına necə cavab verdiyini təhlil etməkdir. Qanunvericilik və təhsil siyasətindəki dəyişikliklər fonunda bütün dünyada ibtidai və orta səviyyələrdə inklüziv təhsil müəssisələrinin yaradılması diqqətəlayiq əhəmiyyət kəsb etmişdir. Xüsusi təhsilə ehtiyacı olan şagirdlər üçün inklüziv məktəb mühitinin inkişafı icbari təhsildə əsas məqsəddir. İşdə metodoloji cəhətdən keyfiyyət yanaşması tətbiq edilmiş, müxtəlif ölkələrin təcrübəsinə və elmi ədəbiyyata əsaslanaraq analitik-sintetik təhlil aparılmışdır.

İnklüziv təhsilin uğurla həyata keçirilməsi üçün məqalə müəllimlərin davamlı peşəkar inkişafının və məktəbdaxili dəstək şəbəkələrinin möhkəmləndirilməsinin əhəmiyyətini dəstəkləyən elmi sübutlar təqdim edir.

Açar sözlər: *inklüziv sinif, pedaqoji problemlər, diferensiallaşma, inklüziv təhsil və müəllim rolları*

Abstract. This article examines the functional role of the teacher in the context of inclusive education and the main problems he faces in the practical application of differentiation strategies. The aim of the study is to identify the main pedagogical and organizational activities carried out by the teacher in inclusive classes and to analyze how these activities respond to the diverse educational needs of students. Against the background of changes in legislation and educational policies, the establishment of inclusive educational institutions at primary and secondary levels has gained considerable importance all over the world. The development of an inclusive school environment for students with special educational needs is a key goal in compulsory education. The qualitative approach was methodologically applied in the work, and an analytical-synthetic analysis was conducted based on the experience of different countries and scientific literature.

The article presents scientific evidence supporting the importance of continuous professional development of teachers and strengthening intra-school support networks for the successful implementation of inclusive education.

Keywords: *inclusive classroom, pedagogical problems, differentiation, inclusive education and teacher roles*

Аннотация. В данной статье рассматривается функциональная роль учителя в контексте инклюзивного образования и основные проблемы, с которыми он сталкивается при практическом применении стратегий дифференциации. Целью исследования является выявление основных педагогических и организационных мероприятий, осуществляемых учителем в инклюзивных классах, и анализ

Qazaxıstan məktəbəqədər təhsil müəssisələrində valideyn iclaslarının innovativ təşkilinə əsasən tərbiyəçi-müəllim valideynlərə ünsiyyət partnyoru kimi yanaşmaqla, onların təhsil haqqında təcrübələrini və ehtiyaclarını nəzərə alaraq, təlim prosesində iştiraklarını artırmağa nail olmalıdır. Bununla bağlı tədqiqatçılardan Belgibaeyeva G.K., Analbekova K.T., Dokumbayeva K.T. qeyd edirlər: "Biz bu cür toplantıları sınaqdan keçirdiyimiz innovativ və effektiv şərti görüş nominasiyaları ilə təşkil edirik:

- "Dialoqlar";
- "Əyləncələr";
- "Müsabiqələr";
- "Bayramlar";

"Görüşlər" və s. [8].

Beynəlxalq araşdırmalara əsasən, bir sıra ölkələrin məktəbəqədər təhsil sahəsində tərbiyəçi-müəllim və valideyn əməkdaşlığına innovativ yanaşmaların prinsipcə bir-birini tamamlamasını onların inteqrativliyinin göstəricisi kimim dəyərləndirmək olar. Uşaqların ümumi inkişafına fokuslanan bu innovativ yanaşmalardakı inteqrativlik valideynlərin məktəbəqədər təhsil müəssisələrində uşaqlarla aparılan işin təşkilində yaxından və davamlı iştirakına zəmin

yaradır. Bu, respublikamızın məktəbəqədər təhsil müəssisələrində valideynlərin təlim prosesinə, bayram şənliklərinə, yarışmalara cəlb olunmasında, layihələrin təşkilində və s. kimi tədbirlərdə yaxından iştirakında özünü göstərməkdədir. Məsələn, 2024-cü ildə Bakı şəhərində "Ağ yelkən" uşaq bağçasının təsisçisi Yuliya Kərimovanın və bağçanın icraçı-direktoru Viktoriya Mustafayevanın təşəbbüsü ilə başlanmış "Yaşıl bağçam" layihəsi cari ilin aprel ayından iyun ayınadək "Beynəlxalq Yer Kürəsi Günü", 5 iyun "Ümumdünya Ətraf Mühit Günü" mövzuları ilə paytaxtın ümumilikdə 32 məktəbəqədər təhsil müəssisələrində şəbəkəli şəkildə keçirilmişdir. Layihədə tərbiyəçi-müəllimlərin, uşaqların, eyni zamanda valideynlərin ekoloji problemlər və onların aradan qaldırılması ilə bağlı məlumatlarının artırılması istiqamətində işlər aparılmışdır. Uşaqlarda təbiətin qorunması, ona qarşı sevgi, qayğı hissinin inkişafı, təmiz və sağlam mühitin əhəmiyyətinin formalaşdırılması ilə bağlı bilik və bacarıqların inkişaf etdirilməsi, ətraf mühitin qorunmasına təşviq edilmələri və s. istiqamətində valideynlərlə birgə işin təşkili prosesində onların layihədə davamlı olaraq yaxından iştirakı təmin edilmişdir.

Valideynlərlə əməkdaşlıq zəminində həyata keçirilən digər layihə Bakı şəhəri Sabunçu rayon 198 saylı körpələr evi-uşaq bağçasının tərbiyəçi-müəllimi Vəsilə Bayramovanın təşkil etdiyi və Sabunçu rayon 192, Xətai rayon 55 saylı, Lənkəran şəhər 117 saylı, Xankəndi şəhər 1 saylı, Şəki şəhər 3, 8 saylı, Şəki rayon Qoxmux kənd, Şamaxı şəhər M.Ə. Sabir adına və s. körpələr evi-uşaq bağçalarında, ümumilikdə, respublika üzrə 30-dan çox məktəbəqədər təhsil müəssisələrində valideynlərin iştirakı ilə şəbəkəli şəkildə "Gigiyena və sağlamlıq mövzusunda valideynlərlə iş", "Mövzuların oyunlar vasitəsi ilə öyrədilməsi", "Mən gündəliyi-valideynlərlə birgə kitab hazırlanması" mövzuları ilə tətbiq olunmuşdur. Layihədə valideynlərin təlim prosesinə cəlb edilməklə ailədə uşaqlara oyun əsaslı öyrətməni tətbiq etmələri, keçirilən mövzularla bağlı uşağın yaradıcılığı əsasında kitabçaların hazırlanması, uşaqların gigiyena qaydalarına ailədə müntəzəm olaraq əməl etməklə, bacarıqlarında möhkəmləndirmələri və s. bağlı birgə işlər həyata keçirilmişdir.

Təlim prosesində, yaxud tədbirlərdə valideynlərlə yaradılan bu kimi qarşılıqlı əməkdaşlıq təlimin səmərəli təşkilinə əhəmiyyətli dərəcədə təsir göstərir. *Əməkdaşlığın aşağıdakı yollarla təşkili təlimin nəticəyönlülüyünə zəmin yaradır:*

- uşaqların inkişaf xüsusiyyətləri, bilik və bacarıq səviyyələrinə qoyulmuş dövlət tələbləri - məzmun standartları ilə bağlı ilin əvvəlindən başlayaraq təşkil olunan görüşlərdə, yaxud yazılı məlumatlarla valideynlərin maarifləndirilməsi;
- uşağın səhhətində yaranmış fiziki və psixoloji problemlərin qarşısının vaxtında alınması üçün valideynlərin tibbi, psixoloji, yaxud korreksiyaedici yoxlamalar barədə məlumatlandırılması;
- uşağın inkişafındakı dəyişikliklər barədə tərbiyəçi-müəllim və valideynlərin bir-birini mütəmadi olaraq məlumatlandırması;
- uşaqların təlimi, inkişafı ilə bağlı valideynlərin məlumatlanması üçün "Açıq qapı" günləri təşkil edərək, məşğələlərdə iştirak etmələrinə şərait yaradılması;
- keçirilən müxtəlif tədbirlərdə: valideyn iclasında, bayram şənliklərində, ekskursiyalarda, yarışmalarda və s. valideynlərin iştirakının təmin olunması;
- uşaqlarla və valideynlərlə əməkdaşlığın qarşılıqlı hörmət, inam və etibar əsasında təşkil edilməsi;
- ailələrlə əməkdaşlıq zəminində empatiya hissinə və konfidensiallılığa əməl edilməsi;
- ev şəraitində uşaqların öyrənməyə təşviq edilməsi məqsədi ilə valideynlərə maraqlı hekayə, nağıl və şerlər, mahnılar, oyunlar və s. bağlı materialların tövsiyə edilməsi;
- canlı görüşlər, seminarlar, söhbətlər, telefon əlaqələri, İKT əsaslı onlayn görüşlər vasitəsi ilə əlaqələrin təşkili;
- problemlərin həlli yollarının valideynlərlə birgə müəyyənləşdirilərək qarşılıqlı hörmət və səbrlə həll edilməsi;
- valideynlərin fikir və təkliflərinin dəyərləndirilməsi, fəaliyyətin təşkilində onların ehtiyac və narahatlıqlarının nəzərə alınması;
- təlim nəticələrinin birlikdə müəyyən edilməsi üçün dəyirmi masaların, tərbiyəçi-müəllim-valideyn konfranslarının təşkil edilməsi və s.

Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-müəllim və valideyn əməkdaşlığı nəticəsində:

- uşaqlar müəssisəyə daha həvəslə gəlir, əgər ilk dəfə bağçaya gəlirsə, tez bir zamanda mühitə adaptasiya olunur;
- səhhətində problem yaranması, yaxud digər zəruri hallar istisna olmaqla təlimdə mütəmadi iştirak edir;
- fiziki və mental, emosional bacarıqları inkişaf edir və təlim nailiyyətləri yüksəlir;
- rejim qaydalarına əməl edir;
- davranışı tənzimlənir, asanlıqla sosiallaşır, kommunikativ münasibətləri genişlənir və məsuliyyətlilik hissi artır;
- komanda şəklində fəaliyyət göstərməsi gələcəkdə cəmiyyətdə öz yerini tutmasına müsbət təsir göstərir və s.

Tərbiyəçi-müəllimin uşaqlarla iş zamanı sadalanan bir sıra interaktiv yanaşmalardan istifadəni valideynlərə tövsiyə etməsi və bu istiqamətdə onları müntəzəm olaraq maarifləndirməsi məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsində böyük rol oynayır:

1.Öyrənməyi öyrətmək:

-vizual (görməklə: şəkillər, video görüntülər, yaxud canlı müşahidələr);

-akustik (dinləməklə: izah etməklə, yaxud audio - dinləmə vasitəsi ilə);

-kinestetik (hərəkətlə: toxunmaqla, prosesi yaşamaqla, icra etməklə).

İlk növbədə valideynlərə uşaqlarla iş zamanı yeni materialın sadə dildə izah edilməsinin vacibliyi vurğulanmalı, həmçinin, uşağa qarşı səbirsiz, aqressiv olmaq, cəza vermək kimi neqativ hallardan uzaq olmağın zəruriliyi tövsiyə edilməlidir.

2. *Uşaqların sizi şüurlu və aktiv dinləmələrinə əmin olmanız üçün tövsiyə olunan strateji yanaşmalar*:

-nağıl danışarkən, hekayə oxuyarkən və s. uşaqların jest və mimikalarına, üz ifadələrinə nəzarət etmək;

- mövzunu oxuyarkən, yaxud danışarkən pauza verib, uşaqlara sual vermək;
- fikrini bildirərkən uşağın sözünü kəsməmək;
- uşağın fikir və münasibətlərinə diqqət və hörmətlə yanaşmaq.

3. Qarşılıqlı ünsiyyət qurmaq:

- uşaqlarla daim ünsiyyətdə olmaqla, verdiyi sualları cavablandırmaqla onların təfəkkürünün, idrakının inkişafına təkan vermək.

Ünsiyyət prosesində diqqət yetirilməli olduğunuz zəruri məqamlar:

- uşağın sözləri düzgün tələffüz etməsi;
- fikirlərini tam ifadə etməsi;
- ifadəsində yanlışlığa yol verdikdə məzəmmət etmədən, yerindəcə korrektə etmək;
- ehtiyac olduqda özünüz, yaxud audio nümunələr səsləndirməklə yanlış ifadəsini düzəltməsinə dəstək olmaq;
- fikirlərinə hörmətlər yanaşaraq, diqqətinizin onda olduğunu hiss etdirmək, fikrini axıradək dinləmək;
- ünsiyyət zamanı səs tonuna, jest və mimikalarına, göz təmasına, emosiyalarını düzgün ifadə etməsinə və s. nəzarət etmək.

4. Stimullaşdırmaq:

- nailiyyətini dəyərləndirmək, hətta kiçik nailiyyətlərini belə gözdən qaçırmamaq;

-gözləntiləriniz barədə uşağı məlumatlandırmaq və bu gözləntilərə çata biləcəyinə həvəsləndirmək.

5. Skafolding (dəstəkləmə):

- məktəbəqədər təhsil müəssisəsində müxtəlif fəaliyyət növləri zamanı uşağın yiyələndiyi bilik və bacarıqları müəyyən qədər evdə tətbiq etməsinə şərait yaratmaq;
- müəssisədə öyrəndiyi rejim qaydalarına ailədə də müntəzəm əməl etməsinə nail olmaq;
- öyrətmə prosesində mümkün qədər uyğun resurslar təşkil etmək;
- müxtəlif öyrədici oyunlar təşkil edərək, uşaqla birgə bu prosesdə iştirak etmək;
- uşağın maraq və ehtiyaclarına uyğun öyrədici mühit yaradaraq, sərbəst fəaliyyətinə şərait yaratmaq;
- mümkün qədər açıq havada, təbiət qoynunda və s. uşağın öyrənməsini reallaşdırmaq;
- ailə ilə uşaq bağçası arasındakı əməkdaşlığın davamlılığını qorumaq;
- müəssisədə təşkil olunan tədbirlərdə mümkün qədər yaxından iştirakını təmin etmək.

6. Uşaq inkişafına nəzarət:

- müntəzəm olaraq uşağın inkişafına diqqət yetirmək;
- inkişafındakı dəyişikliklərlə bağlı məlumatı tərbiyəçi-müəllimlə bölüşmək;

7. "Qrupun şəkilli kitablardan ibarət kitabxanası. Məktəbəqədər yaş qruplarında (3-6 yaş) təşkil olunmuş bu kitabxanadan uşaqlar rahatlıqla faydalana, bu şəkilli kitablardan istədiklərini valideynləri vasitəsi ilə götürüb, evdə istifadə edə bilərlər. Bu kitabxana sistemi valideynin artıq xərc çəkmədən buradakı şəkilli kitablardan götürüb, evdə uşaqların istifadə edərək, həzz almalarına şərait yaradır. Valideynlər bu kitabxana xidmətini dəstəkləyirlər. Burada iş prosesi kitabların adının, kitabı götürən şəxsin (ailə böyüklərinin) soyad və adının, tarixin qeyd dəftərində qeydə alınması ilə aparılır. Bunlarla yanaşı, valideynlər oradakı kitabları çeşidləməkdə və ya köhnə kitabları təmir etməkdə də tərbiyəçi-müəllimə dəstək ola bilərlər" [9] və s.

Texnologiyalar əsri olan müasir dövrdə məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsində tərbiyəçi-müəllim-valideyn əməkdaşlığının rəqəmsal vasitələrlə təşkili xüsusi əhəmiyyət kəsb edir. Tərbiyəçi-müəllimlərin müxtəlif sosial media platformalarından istifadə etmələri valideynlərlə əməkdaşlığa geniş imkanlar yaradır:

- *Qrup veb-saytının yaradılması:* mütəmadi olaraq uşaqların inkişafını əks etdirən yeniliklərin nümayişi;

- *Valideynlərlə dialoqlar*: müəyyən məsələlərlə bağlı valideynlərin virtual rəy bildirmək, müzakirədə, sual-cavabda iştirakı;

- E*lektron poçt ünvanından istifadə:* uşaqlarla iş haqqında məlumatların, yaxud hansısa məsələ ilə bağlı yaranmış problemlərin bölüşülməsi, müzakirə edilməsi;

- *Virtual görüşlər*: *Facebook, Telegram, Zoom* və s. platformalar üzərindən valideynlərlə konfransların, seminarların və s. təşkili;

- *Səsli, görüntülü, yaxud sms vasitəsi ilə telefon* əlaqələrinin yaradılması;

- *Facebook, instaqram, Whatsapp qruplarının yaradılması:* uşaqların fəaliyyəti haqqında xəbərləri, fotoşəkilləri, bayram və s. tədbirləri əks etdirən foto və videoroliklərin paylaşılması, qrupda valideynlərin tərbiyəçi-müəllimlə və bir-biri ilə ünsiyyətdə fəal iştiraka təşviq edilməsi;

- "*Multimedia təqdimatlarının yaradılması:* uşaqların nailiyyətlərinin, ad günlərinin, bayramların və s. tədbirlərin, müxtəlif fəaliyyətlərin əks etdirilməsi;

- *Elektron formatda məqalələr, tövsiyələr və müxtəlif resurslar*: uşaq inkişafı ilə bağlı bu kimi resurslarla valideynlərin maarifləndirilməsi;

- *Xüsusi günlərdə onlayn təbriklərin hazırlanması*;

- *Uşaq bağçasında uşaqların gündəlik həyatını əks etdirən qısametrajlı videofilmlərin hazırlanması*" [10].

Əməkdaşlığın bu kimi rəqəmsal vasitələrlə təşkil olunması valideynlərin mütəmadi olaraq təhsil mühiti, uşaqların oradakı fəaliyyəti haqqında obyektiv məlumatlanmalarına, ailədə uşaqların inkişafında, davranışında müşahidə olunan dəyişikliklərlə bağlı tərbiyəçi-müəllimi məlumatlandırmalarına şərait yaratmaqla, tərbiyəçi-müəllim-valideyn əməkdaşlığını gücləndirərək, uşaqların inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

Problemin aktuallığı. Uşaqların ümumi inkişafına yönəlmiş tərbiyəçi-müəllim və valideyn əməkdaşlığı məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsinə təsir edən əsas amillərdəndir. Bu baxımdan, əməkdaşlığın müasir dövrün tələblərinə uyğun olaraq innovativ yanaşmalarla təşkili, valideynlərin davamlı əməkdaşlığını asanlaşdıran rəqəmsal vasitələrdən istifadə edilməsi aktual məsələlərdən biri kimi dəyərləndirilir.

Problemin elmi yeniliyi. Məqalədə tərbiyəçi-müəllim və valideyn əməkdaşlığının innovativ tələblər əsasında, rəqəmsal vasitələrlə təşkilinin məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsinə təsiri araşdırılmışdır.

Problemin praktik əhəmiyyəti. Məqalədəki tərbiyəçi-müəllim və valideyn əməkdaşlığı ilə bağlı beynəlxalq araşdırmalar, bu istiqamətdə respublikamızın məktəbəqədər təhsil müəssisələrində həyata keçirilən layihələr, əməkdaşlığın innovativ yollarla, rəqəmsal vasitələrlə təşkili və s. haqqında məlumatlardan məktəbəqədər təhsil mütəxəssisləri, metodistlər, tərbiyəçi-müəllimlər, bu sahədə təhsil alan tələbə və magistrlar, doktorantlar, ali məktəb müəllimləri, valideynlər faydalana bilərlər.

Ədəbiyyat:

1. Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 14 aprel 2017. https://e-qanun.az/framework/35791
2. Məktəbəqədər təhsil proqramı (kurikulum). Bakı, 2022. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://edu.gov.az/uploads/mektebeqeder/sened/2023/M%C9%99kt%C9%99b%C9%99q%C9%99d%C9%99r%20t%C9%99hsil%20proqram%C4%B1%20%28kurikulum%29.pdf
3. Parental Involvement in ECEC in Finland and in Sweden. 2019. https://www.researchgate.net/publication/332014567_Parental_Involvement_in_ECEC_in_Finland_and_in_Sweden
4. Parental Involvement in ECEC in Finland and in Sweden. 2019. https://www.researchgate.net/publication/332014567ParentalInvolvement_ in_ECEC_in_Finland_and_in_Sweden
5. Lina Zhang, Xiaodong Pan, Suoni Zhang. Study on Kindergarten-Family Cooperation Mode in the Development of Preschool Education. China, International Conference on Education Science and Economic Management, ICESEM 2018.
6. https://www.researchgate.net/publication/327524345_Study_on_Kindergarten-Family_Cooperation_Mode_in_the_Development_ of_Preschool _Education
7. Nv Chen. Group of Teaching Assistants for the Growth of Preschool Children - New Kindergarten-Family Cooperation Mode [J]. Journal of Studies in Preschool Education, 2006 (4), 58-59.
8. Belgibaeyeva G.K., Analbekova K.T., Dokumbayeva K.T. Innovative forms of interaction between preschool organizations and parents. Kazakhstan, Karaganda University named after academician E.A.Buketov. Karaganda. 2025. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj /http://www. rusnauka. cz/pdf/291573.pdf
9. Allison Druin. What Children Can Teach Us: Developing Digital Libraries for Children with Children.. January 2005.
10. https://www.researchgate.net/publication/228383152_What_Children_Can_Teach_Us_Developing_Digital_Libraries_for_Children_with_Children
11. N.Forry, K.Tout, T.Halle, S.Daily. 5 ways to improve the Quality of Early Care and Education Research Brief Early Childhood Apr. 26. 2013. https://www.childtrends.org/publications/5-ways-to-improve-the-quality-of-early-care-and-education

Redaksiyaya daxil olub: 18.09.2025

UOT 372.3/.4

Təranə Mayıl qızı Əkbəri
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şamaxı filialının baş müəllimi?
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9293-4561
E-mail:akbarietmp@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).198-201

İBTİDAİ SİNİFLƏRDƏ HƏYAT BİLGİSİ DƏRSLƏRİNDƏ LAYİHƏ ƏSASLI ÖYRƏNMƏNİN TƏTBİQİ

Tarana Mayil Akbari
senior lecturer of Shamakhi branch under
Azerbaijan State Pedagogical University?
doctor of philosophy in biology

IMPLEMENTATION OF PROJECT-BASED LEARNING IN PRIMARY SCHOOL LIFE SCIENCE LESSONS

Тарана Майил гызы Акбари
старший преподаватель Шамахинского филиала
Азербайджанского Государственного Педагогического Университета?
доктор философии по биологии

ПРИМЕНЕНИЕ ПРОЕКТНОГО ОБУЧЕНИЯ НА УРОКАХ ПОЗНАНИЯ МИРА В НАЧАЛЬНЫХ КЛАССАХ

Xülasə. Məqalədə ibtidai siniflərdə Həyat bilgisi fənnində layihə əsaslı öyrənmənin (PBL) tətbiq imkanları araşdırılır. Tədqiqat PBL-in kurikulum məqsədlərinə uyğun şəkildə şagirdlərin tənqidi təfəkkür, əməkdaşlıq, müstəqil öyrənmə və real həyati problemləri həll etmə bacarıqlarına təsirini nəzərdən keçirir. Məqalədə "Mənim ailəm", "Sağlam qidalanma" və "Təbiəti qoruyaq" kimi nümunəvi layihələr əsasında şagirdlərin dərsə inteqrasiyası və dərin öyrənməyə yönəldilməsi izah olunur. Nəticələr göstərir ki, PBL modeli Həyat bilgisi dərslərinin məqsədlərinə çatmaqda effektiv alət ola bilər.
Açar sözlər: *Layihə əsaslı öyrənmə, Həyat bilgisi, ibtidai təhsil, kurikulum, fəal öyrənmə, şagirdyönümlü təlim*

Abstract. The article explores the implementation of project-based learning (PBL) in primary school Life Science lessons. The study examines the impact of PBL on students' critical thinking, collaboration, independent learning, and problem-solving skills in alignment with curriculum goals. Through sample projects such as "My Family," "Healthy Eating," and "Let's Protect Nature," the article illustrates how students engage more deeply with content and participate actively in the learning process. Findings indicate that the PBL model is an effective approach to achieving the objectives of the Life Science subject.
Key words: *Project-based learning, Life Science, primary education, curriculum, active learning, student-centered instruction*

Аннотация. В данной статье рассматриваются возможности применения проектно ориентированного обучения (PBL) на уроках «Познание мира» в начальных классах. Исследование анализирует влияние PBL на развитие у учеников критического мышления, навыков сотрудничества, самостоятельного обучения и решения жизненных проблем в соответствии с целями курикулума. На ос-

нове таких проектов, как «Моя семья», «Здоровое питание» и «Защитим природу», демонстрируется вовлеченность учащихся в учебный процесс и углублённое освоение материала. Результаты показывают, что модель PBL является эффективным средством достижения целей предмета.

Ключевые слова: *Проектное обучение, Познание мира, начальное образование, курикулум, активное обучение, обучение, ученико-ориентированное обучение*

Müasir dövrdə təhsil sistemində gedən islahatlar, xüsusilə də ibtidai təhsil mərhələsində tətbiq olunan pedaqoji yanaşmaların yenilənməsi, bu mərhələnin strateji əhəmiyyətini daha da artırır. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə milli strategiya sənədləri və dövlət proqramları, erkən yaşlardan başlayaraq şagirdlərdə həyati bacarıqların formalaşdırılmasını prioritet istiqamət kimi müəyyən edir. XXI əsr bacarıqları kimi tanınan tənqidi düşünmə, əməkdaşlıq, problem həll etmə və yaradıcı yanaşma kimi qabiliyyətlərin təməli məhz ibtidai siniflərdə qoyulur. Bu baxımdan, ibtidai təhsil təkcə akademik biliklərin verildiyi mərhələ deyil, həm də uşağın şəxsiyyət kimi formalaşdığı, sosiallaşdığı və cəmiyyətlə ilk funksional əlaqələrini qurduğu dövrdür.

İbtidai siniflərdə tədris olunan Həyat bilgisi fənni isə bu məqsədlərə xidmət edən əsas inteqrativ komponentlərdən biri kimi çıxış edir. Fənn məzmununa daxil olan mövzular – şəxsiyyət və ətraf mühit, ailə və cəmiyyət, təhlükəsizlik, sağlam həyat tərzi, təbiət və onun qorunması – şagirdin dünyagörüşünün formalaşmasına bilavasitə təsir göstərir. Həyat bilgisi fənni vasitəsilə şagirdlər real həyatla əlaqəli bilik və bacarıqları mənimsəyir, onlarda ətraf mühitlə əlaqəli məsuliyyət hissi və vətəndaşlıq mövqeyi formalaşdırılır. Təhsil üzrə müasir yanaşmalarda bu fənn "təcrübəyönlü təhsil" konsepsiyası çərçivəsində daha da aktuallaşır (UNESCO, 2015).

Müasir kurikulumlarda bu fənnin əsas vəzifəsi şagirdlərdə ətraf aləmi müşahidə etmək, hadisələr və situasiyalar arasında səbəb-nəticə əlaqəsi qurmaq, sadə qərarlar vermək və sosial məsuliyyət daşımaq kimi bacarıqları inkişaf etdirməkdir. Bu baxımdan, ənənəvi dərs metodlarının yerinə şagirdin fəal iştirak etdiyi, tədqiqata, təcrübəyə və yaradıcı yanaşmaya əsaslanan metodların tətbiqi qaçılmazdır. Son illərdə Azərbaycan ibtidai təhsilində tədrisin interaktiv formalarının tətbiqi, o cümlədən layihə əsaslı öyrənmə (Project-Based Learning – PBL) metodu bu ehtiyacdan doğmuşdur.

Müasir dövrün təhsil sistemləri ənənəvi bilik mərkəzli yanaşmalardan uzaqlaşaraq daha çox bacarıqyönlü, təcrübə əsaslı və öyrənəni mərkəzə alan modellərə üstünlük verməyə başlamışdır. Bu transformasiyanın ön sıralarında yer alan pedaqoji yanaşmalardan biri də Layihə Əsaslı Öyrənmə (Project-Based Learning – PBL) modelidir. PBL, tədris prosesini şagirdlərin real problemləri araşdıraraq, onların üzərində işləyərək və nəticədə konkret məhsul yaradaraq öyrəndiyi fəal öyrənmə forması kimi müəyyən olunur (Thomas, 2000).

Layihə əsaslı öyrənmə şagirdin passiv dinləyici olmaqdan çıxaraq, bilavasitə öyrənmə prosesinə fəal şəkildə daxil olduğu bir modeli təmsil edir. Bu metodun əsasında John Dewey-in təcrübə əsaslı təhsil fəlsəfəsi dayanır; Dewey təhsilin həyatla birbaşa əlaqəli olması zərurətini vurğulayırdı. Onun "öyrənmək edərək baş verir" tezisi PBL-in mahiyyətini izah edən açar prinsipdir. (Dewey, 1938).

PBL metodunun müasir təhsil sistemində rolu yalnız nəzəri əsaslarla yox, praktik təsirləri ilə də ölçülür. Araşdırmalar göstərir ki, layihə əsaslı öyrənməni tətbiq edən siniflərdə şagirdlərdə tənqidi düşünmə, yaradıcı yanaşma və kompleks problem həll etmə bacarıqları əhəmiyyətli dərəcədə artır (Barron & Darling-Hammond, 2008). Bu bacarıqlar isə hazırkı əmək bazarında ən çox tələb olunan kompetensiyalar sırasındadır.

Ənənəvi təlim modellərində dərslərin əsas məqsədi bilik ötürmək və faktların əzbərlənməsi olduğu halda, PBL kontekstində əsas məqsəd şagirdin öyrəndiklərini tətbiq edə bilməsi, müstəqil düşünməsi və nəticə çıxarma bacarığı qazanmasıdır. Bu da təhsil sisteminin keyfiyyətli insan kapitalı yetişdirmək missiyasını dəstəkləyir.

Layihə əsaslı öyrənmə, həmçinin fənlərarası əlaqələrin qurulması üçün unikal imkanlar təqdim edir. Məsələn, "Ekoloji problemlər və onların həlli yolları" adlı bir layihə təkcə biologiya və coğrafiya ilə məhdudlaşmır; burada şagirdlər riyazi ölçmələr aparır, sosial statistik məlumatları təhlil edir, dil

bacarıqları vasitəsilə təqdimatlar hazırlayırlar və bu prosesdə informasiya texnologiyalarından istifadə edirlər. Beləliklə, PBL fənlərarası inteqrasiyanı reallaşdıran effektiv modellərdən biri hesab olunur.

Dünya miqyasında Finlandiya, Kanada, Sinqapur və Estoniya kimi qabaqcıl təhsil sistemləri layihə əsaslı öyrənməni tədris proqramlarının ayrılmaz hissəsi kimi tətbiq edirlər. Məsələn, Finlandiyada ibtidai siniflərdən başlayaraq şagirdlər hər rübdə bir layihə üzərində işləyir və bu layihələr onların ümumi inkişafına qiymətləndirmə meyarı kimi daxil edilir (Sahlberg, 2011). Azərbaycan təhsil sistemində də 2008-ci ildən etibarən kurikulum islahatları nəticəsində fəal təlim metodlarının, o cümlədən PBL-in tətbiqi təşviq edilir. Lakin bu proses bəzi hallarda müəllim hazırlığı və resurs çatışmazlığı səbəbindən arzuolunan səviyyədə həyata keçirilmir.

Layihə əsaslı öyrənmə həmçinin inklüziv təhsil kontekstində də mühüm rol oynayır. Çünki bu model hər bir şagirdin öz potensialına uyğun şəkildə iştirak edə biləcəyi tədris mühiti yaradır. Tələbələrin fərqli öyrənmə tərzlərinə və maraq sahələrinə uyğun layihə mövzularının seçilməsi, onların motivasiyasını və dərsə bağlılığını artırır (Krajcik & Blumenfeld, 2006). Fərqli bacarıq səviyyəsində olan şagirdlər layihələrə öz töhfələrini müxtəlif formalarda verə bildikləri üçün heç kim prosesdən kənarda qalmır. Biri təqdimat hazırlayır, digəri rəsmlə ifadə edir, digəri isə məlumat toplamaqla məşğul olur. Bu isə həm bərabərlik, həm də əməkdaşlıq dəyərlərini təşviq edir (Thomas, 2000).

Kurikulum sənədlərində qeyd olunduğu kimi, Həyat bilgisi fənni üzrə dərs məqsədləri konkret bacarıq indikatorları ilə müəyyən olunur. Məsələn, 2-ci sinifdə "Şəxsi gigiyena qaydalarına əməl edir", "Ailənin üzvlərini tanıyır və funksiyalarını izah edir", "Təbiəti qorumağın yollarını sadalayır" kimi təlim nəticələri layihələrin əsas istiqamətlərini təşkil edə bilər (AR Təhsil Nazirliyi, 2020). Bu nəticələr layihəyönlü tədris mühitində daha təsirli şəkildə mənimsənilə bilər.

Misal üçün, "Mənim ailəm" adlı layihə vasitəsilə şagirdlər ailə üzvlərinin adlarını, onların gündəlik vəzifələrini, ailə münasibətlərində hörmət və əməkdaşlıq kimi sosial dəyərləri öyrənə bilər. Bu layihə çərçivəsində şagirdlər ailə ağacı tərtib edir, ailə üzvlərindən müsahibə alır və kiçik təqdimatlar hazırlayırlar. Nəticədə uşaqlar təkcə ailə haqqında bilik əldə etmir, həm də ictimai təqdimetmə bacarığı, məlumat toplama və sistemləşdirmə vərdişləri qazanırlar (Katz & Chard, 2000).

Digər əhəmiyyətli layihə nümunəsi "Sağlam qidalanma" mövzusudur. Bu layihə ilə şagirdlər sağlam və zərərli qidaları ayırd etməyi, balanslı rasion hazırlamağı, gigiyenik qida istehlakı prinsiplərini öyrənir. Onlar evdən və məktəbdən qida menyusu nümunələri toplayır, şəkil və infoqrafikalar hazırlayır, sağlam səhər yeməyi menyusu layihələndirirlər. Bu proses həm də riyazi (kalori hesabı), dil (təqdimat) və texnologiya (infoqrafika hazırlama) bacarıqlarını stimullaşdırır.

Üçüncü praktik nümunə isə "Təbiəti qoruyaq" layihəsidir. Bu layihədə şagirdlər yaxın ətrafda rast gəlinən ekoloji problemləri (məsələn, zibillənmə, su israfı, ağacların kəsilməsi) müşahidə edir, foto və video sənədləşdirmə aparır, plakatlar və sloqanlar hazırlayır, eyni zamanda məktəbdə və ailədə ekologiyaya dair məlumatlandırıcı kampaniyalar təşkil edirlər. Bu yanaşma nəticəsində uşaqlarda ekoloji şüur formalaşır, vətəndaşlıq məsuliyyəti artır və real həyatda faydalı təşəbbüslərə cəlb olunurlar (Blumenfeld et al., 1991).

Araşdırmalar göstərir ki, PBL ilə öyrənən ibtidai sinif şagirdləri ənənəvi metodlarla öyrənən həmyaşıdlarına nisbətən 20-30% daha yüksək yadda saxlama qabiliyyəti və tətbiqetmə bacarığı nümayiş etdirirlər (Boaler, 2002). Məsələn, "Təbiəti qoruyaq" adlı layihə üzərində işləyən şagirdlər zibilin çeşidlənməsi, enerji qənaəti və su israfının qarşısı kimi anlayışları yalnız əzbərlə deyil, onları müşahidə, fotoqrafiya, təqdimat və praktiki təşəbbüslər vasitəsilə öyrənirlər. Bu isə biliklərin yalnız bilik səviyyəsində deyil, tətbiq, təhlil və yaradıcı sintez mərhələlərində mənimsənilməsinə şərait yaradır (Bloom, 1956; Fullan & Langworthy, 2014).

Müasir təhsil sistemlərinin əsas məqsədi yalnız bilikli fərdlər deyil, problemləri analiz edə bilən, yaradıcı düşünən və əməkdaşlığa açıq vətəndaşlar yetişdirməkdir. Layihə əsaslı öyrənmə bu məqsədlərə xidmət edən ən təsirli

yanaşmalardan biri kimi qəbul edilir. Bu model ibtidai sinif səviyyəsində tətbiq olunduqda, şagirdlərdə öyrənməyə qarşı pozitiv münasibət, yüksək nailiyyət səviyyəsi və sosial məsuliyyət hissi inkişaf edir.

Sonda qeyd etmək olar ki, ibtidai sinifdə şagirdin təlimə münasibətini formalaşdırmaq onun gələcək nailiyyətlərini müəyyən edən əsas amillərdəndir. Layihə əsaslı öyrənmə bu münasibəti pozitiv şəkildə formalaşdıraraq, uşaqların məktəbi yalnız bilik mənbəyi deyil, həm də yaradıcılıq, tədqiqat və əməkdaşlıq mühiti kimi qavramasına şərait yaradır. Bu da şagird nailiyyətlərinin keyfiyyət və dərinlik baxımından yüksəlməsinə səbəb olur.

Problemin aktuallığı. Müasir dövrdə təhsil sistemində əsas məqsədlərdən biri şagirdin şəxsiyyət kimi formalaşmasına, onun yaradıcılıq, tənqidi düşüncə və qərarvermə bacarıqlarının inkişafına şərait yaratmaqdır. Xüsusilə ibtidai siniflərdə Həyat bilgisi dərsləri bu bacarıqların təməlini qoyur. Layihə əsaslı öyrənmə bu məqsədlərə xidmət edən ən təsirli yanaşmalardan biri kimi qəbul edilir. Bu səbəbdən, şagirdyönümlü yanaşmalara keçid zərurət təşkil edir və bu məsələ pedaqoji cəhətdən aktuallığını qoruyur.

Problemin yeniliyi. Məqalədə Həyat bilgisi dərslərində layihə əsaslı öyrənmə yanaşması konkret mövzu və kurikulum məqsədlərinə uyğun şəkildə sistemləşdirilərək təhlil edilir. Bu istiqamətdə Azərbaycanda mövcud tədqiqatlar az saydadır və layihə nümunələrinin dərs məqsədləri ilə uyğunluğu çox zaman nəzəri müstəvidə qalır. Bu araşdırma PBL-in real tətbiq modellərini ibtidai təhsil mühitinə uyğunlaşdırmaqla metodoloji boşluğu doldurur.

Problemin praktik əhəmiyyəti. Layihə əsaslı öyrənmənin Həyat bilgisi dərslərində tətbiqi, şagirdlərin motivasiyasını artırmaq, öyrənməni mənalandırmaq və dərin öyrənməni təşviq etmək baxımından praktik əhəmiyyət kəsb edir. Bu yanaşma həmçinin müəllimlərə tədrisdə yaradıcı, şagird yönümlü metodlardan istifadə etməyə şərait yaradır. Beləliklə, əldə edilən nəticələr təhsil siyasəti və pedaqoji praktikada tətbiq oluna biləcək tövsiyələr xarakteri daşıyır.

Ədəbiyyat:

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Azərbaycan Respublikasının Təhsil İnstitutu //Azərbaycan Respublikasinin ümumi təhsil müəssisələri üçün "Həyat Bilgisi" fənni üzrə Təhsil Proqrami (Kurikulum) (I-IV Siniflər). - Bakı, 2023. - s 40.
2. Ayvacı, H. Ş., Devecioğlu, Y. ve Yiğit, N. İlköğretim fen ve teknoloji derslerinde proje tabanlı öğrenmenin öğrenci başarısına etkisi. // Türk Fen Eğitimi Dergisi, -2004. C.1, №1, -s. 1–14.
3. Korkmaz, H. ve Kaptan, F. Fen eğitiminde proje tabanlı öğrenme yaklaşımının öğrenci tutumlarına ve başarıya etkisi. // -Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi, -2002. №22, -s. 91–97.
4. Thomas, J. W. A Review of Research on Project-Based Learning. // The Autodesk Foundation, -2000, -pp. 1–47.
5. Barron, B., & Darling-Hammond, L. Teaching for Meaningful Learning: A Review of Research on Inquiry-Based and Project-Based Learning. // George Lucas Educational Foundation, -2008, -pp. 11–70.
6. Blumenfeld, P. C., Soloway, E., Marx, R. W., et al. Motivating project-based learning: Sustaining the doing, supporting the learning. // -Educational Psychologist, -1991. Vol. 26, №3–4, -pp. 369–398.

Redaksiyaya daxil olub:17.09.2025

UOT 74.03

Bayram Fəti oğlu Apoyev
Gəncə Dövlət Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-2053-5634
E-mail: bayram/apoyev@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(5).202-210

SEYİD ƏZİM ŞİRVANİNİN ƏSƏRLƏRİNDƏ TƏHSİL, TƏLİM VƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Bayram Fati Apoyev
associate professor of
Ganja State University ,
doctor of philosophy in pedagogy

SEYID AZIM SHIRVANI'S ISSUES OF EDUCATION, TRAINING AND UPBRİNGİNG IN THE WORKS

Байрам Фати оглы Апоев
доцент
Гянджинского Государственного Университета,
доктор философии по педагогике

ВОПРОСЫ ОБРАЗОВАНИЯ, ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ В ТВОРЧЕСТВЕ СЕИДА АЗИМА ШИРВАНИ

Xülasə. S.Ə. Şirvani XIX əsr Azərbaycan ədəbiyyatının ən böyük satirik şairlərindən biri olmaqla bərabər həm də həmin yüzilliyin görkəmli maarifpərvər pedaqoqlarındandır. Şairin ədəbi-bədii irsi ilə müqayisədə onun təhsil, təlim və tərbiyə məsələləri ilə bağlı bu gün də öz aktuallığını və əhəmiyyətini qoruyub saxlayan mütərəqqi pedaqoji fikirləri çox az öyrənilmişdir. Bu məqalədə böyük maarifpərvər pedaqoqun həmin fikirləri, xüsusilə, indiyədək daha az öyrənilmiş əqli və əxlaq tərbiyəsi ilə bağlı baxışları tədqiq və təhlil edilmişdir.
***Açar sözlər**: Seyid Əzim, böyük maarifpərvər, elm, təhsil, təlim, tərbiyə*

Abstract. S.A. Shirvani is one of the greatest satirical poets of 19th century Azerbaijani literature and one of the outstanding educational educators of that century. Compared to the poet's literary and artistic heritage, his progressive pedagogical ideas on education, training and education, which have retained their relevance and importance even today, have been studied very little. This article examines and analyzes the ideas of the great educational educator, especially his views on intellectual and moral education, which have been studied less than before.
***Keywords**: Seyid Azim, great educator, science, education, training, upbringing*

Аннотация. С.А. Ширвани – один из крупнейших поэтов-сатириков азербайджанской литературы XIX века и один из выдающихся просветителей этого столетия. По сравнению с литературным и художественным наследием поэта, его прогрессивные педагогические идеи в области образования, воспитания и обучения, сохранившие свою актуальность и значение и в наши дни, изучены крайне мало. В данной статье рассматриваются и анализируются идеи великого просветителя, особенно его взгляды на умственное и нравственное воспитание, которые изучены меньше, чем прежде.
***Ключевые слова**: Сеид Азим, великий просветитель, наука, образование, обучение, воспитание*

Məlum həqiqətdir ki, Hacı Seyid Əzim Şirvani XIX əsr Azərbaycan ədəbiyyatının ən böyük realist satirik şairi olmaqla bərabər, özünün fədakar maarifçilik və müəllimlik fəaliyyəti, eləcə də əsərlərindəki zəngin pedaqoji fikir və ideyaları ilə adını Azərbaycan məktəb və pedaqoji fikir tarixinə qızıl hərflərlə yazdırmış görkəmli pedaqoqdur.

Bu həqiqət, "Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"nda bir daha öz əksini tapmışdır: "Seyid Əzim Şirvani Azərbaycan ədəbiyyatının yeni maarifçilik ideyaları ilə zənginləşməsində əhəmiyyətli rol oynamışdır. Dəyərli poetik nümunələrdən ibarət parlaq lirikasında mənəvi gözəlliyi tərənnüm edən şair, eyni zamanda, … didaktik əsərlərində humanist ideyaların təbliğinə xüsusi diqqət yetirmişdir [16].

Ədalət naminə qeyd etmək lazımdır ki, böyük satirik şairin ədəbi-bədii irsi filoloq alimlərimiz tərəfindən demək olar ki, kifayət qədər tədqiq olunmuş, həyat və yaradıcılığı, sənətkarlıq xüsusiyyətləri öyrənilmiş, XIX əsr Azərbaycan ədəbiyyatı tarixində onun yeri və rolu yüksək qiymətləndirilmişdir. Bu baxımdan F. Köçərli [11], F. Qasımzadə [12], K. Məmmədov [13], X. Məmmədov [14], Z. Əsgərli [7] və başqalarının əməyini xüsusi qeyd etmək olar.

Böyük mütəfəkkir şairin fəlsəfi-etik, ictimai-siyasi görüşlərinin öyrənilməsi sahəsində də az iş görülməmişdir. Belə ki, tədqiqatçılardan Z. Göyüşov, İ. Rüstəmov, R. Əhmədli, F. Kərimova və başqaları bu istiqamətdə apardıqları elmi axtarışlarının nəticələrini çap etdirdikləri əsərlərində əks etdirmişlər. [8; 15; 4; 10].

Qeyd etmək lazımdır ki, adları çəkilən görkəmli filoloq və filosof alimlərimizin S.Ə. Şirvaninin ədəbi-bədii irsinin öyrənilməsinə həsr olunmuş tədqiqatlarında və işıq üzü görmüş elmi əsərlərində böyük maarifpərvər şair-pedaqoqun pedaqoji görüşlərinin öyrənilməsi istiqamətində aparılan yeni tədqiqat işlərinin ümumi metodoloji əsasını təşkil edə biləcək dəyərli fikirlər də öz əksini tapmışdır.

Əlbəttə, böyük satirik şair olmaqla bərabər, həm də görkəmli maarifpərvər pedaqoq olan, "… xalqa xidmət naminə öz maarifçi düşüncələrini gerçəkləşdirmək arzusu ilə ana dilində açdığı yeni üsullu məktəb" vasitəsi ilə "… Azərbaycan təhsil tarixində dərin iz qoymuş" [16] böyük mütəfəkkirin zəngin pedaqoji irsi pedaqoq alim və tədqiqatçıların diqqətini cəlb etməyə bilməzdi. Bu baxımdan Azərbaycan məktəb və pedaqoji fikir tarixinin korifey tədqiqatçılarından professor, Əməkdar elm xadimi Əhməd Seyidov və akademik Hüseyn Əhmədovun, eləcə də Seyid Əzimin pedaqoji fəaliyyəti və maarifçilik ideyalarının ilk tədqiqatçılarından olan Əmir Tağıyevin xidmətlərini xüsusi vurğulamağı vacib hesab edirik. Belə ki, hər üç alim pedaqogika tarixi, Azərbaycan məktəb və pedaqoji fikir tarixinə həsr etdikləri dərslik, dərs vəsaiti və monoqrafiyalarında böyük satirik şair və pedaqoqun XIX əsr Azərbaycan məktəb və pedaqoji fikir tarixindəki yeri və rolunu yüksək qiymətləndirmiş, onun pedaqoji görüşlərinin yığcam səciyyəsini vermişlər.

Digər tədqiqatçılardan professor Kamal Camalov [3]; dosent Knyaz Aslan [1], Əlifağa Bağırov [2], Flora Kərimova [9] və başqaları öz kitab və məqalələrində Seyid Əzimin maarifçilik fəaliyyətini geniş təhlil etməklə yanaşı onun təhsil və tərbiyə haqqında bəzi fikirlərinə ötəri də olsa toxunmuşlar.

Bütün göstərilənlərlə bərabər, təəssüflə qeyd etmək lazımdır ki, S.Ə. Şirvaninin elmi-pedaqoji görüşləri, xüsusilə, təhsil, təlim və tərbiyə ilə bağlı fikirləri onun ədəbi-bədii irsi ilə müqayisədə çox az öyrənilmişdir. Elmi-pedaqoji ictimaiyyətin, əsasən də gənc tədqiqatçıların diqqətinə həmin məsələnin vacibliyini çatdırmaq məqsədi daşıyan bu məqalədə böyük maarifpərvər pedaqoqun əsərlərində geniş əks olunmuş bəzi pedaqoji fikirlərini, xüsusilə də, əqli tərbiyə və əxlaq tərbiyəsi ilə bağlı görüşlərini tədqiq və təhlil etməyə çalışmışıq.

Azərbaycanda XIX əsrdən başlayaraq geniş vüsət alan maarifçilik hərəkatının, xüsusilə də bu hərəkatın başlıca fəaliyyət istiqamətlərindən biri olan anadilli məktəblərin yaradılması uğrunda mübarizənin ön cərgəsində addımlayan S.Ə. Şirvaninin istər H. Zərdabidən başlamış dövrünün onlarla maarifpərvər ziyalılarına nəzmlə yazdığı çoxsaylı məktublarda (təkcə 2013-cü ildə "Şərq-Qərb" nəşriyyatı tərəfindən çap edilmiş "Seçilmiş əsərləri"nin II cildində belə məktubların sayı 70-dən çoxdur), istər oğlu Mircəfərə müraciətlə

yazdığı nəsihət və öyüdlərdə (təkcə "Rəbiül-ətfal" dərsliyində onların sayı 30-a yaxındır), istərsə də müxtəlif şeirlərində təhsilin, elmin insan həyatındakı rolu, təhsilin məzmununda elmi biliklərin üstünlük təşkil etməsinin, təlimin ana dilində olmasının, biliklərin öyrədilməsində yeni üsuldan ("üsuli-cədid"dən) istifadənin və məktəbdə bir deyil, ən azı üç dilin öyrədilməsinin zəruriliyi və əhəmiyyəti haqqında dəyərli mütərəqqi pedaqoji fikirlərinə geniş rast gəlirik. Həmin fikirlərdən bir neçəsinə konkret nümunələr əsasında diqqət yetirək.

H. Zərdabiyə nəzmlə yazdığı geniş və dərin məzmunlu məktubda (sonralar "Qafqaz müsəlmanlarına xitab" adı ilə məşhurlaşan şeir) maarifpərvər şair-pedaqoq bütün Qafqaz müsəlmanlarının çox ağır bir xəstəliyə-dərdə ("nadanlıq") düçar olduğunu ürək ağrısı ilə dilə gətirir və qəti əminliklə bildirir ki, bu "vəba"nın yeganə dərmanı təhsildir, elmi biliklərdir:

Bir bəladır bu dərdi-nadani,
Ki onun elm olubdur dərmani [18, s. 5].

Həmin məktubda şair pedaqoq xüsusi vurğulayır ki, Qafqazın "hər vilayətində" "beş-on kəsəbə"dəki "əlli min seyidü axund, tələbə, əlli dərviş, əlli mərsiyəxan, "əlli min hoqqabazi-naqabil"in hamısının fikri xalqa təhsil, savad, bilik vermək, elm öyrətmək əvəzinə, öz yalan sözləri ilə "xalqı soymaq" və onu "quru yerdə qoymaqdır". Məhz buna görə də elmə, təhsilə diqqət yetirən "qeyri-millətlər" "tərəqqi edib-dir"; "göyə çıxmağa" tədbir görür; "gəştiyi-yelkan"ı (yelkənli gəmini) "paraxoda" çeviriblər, biz isə "göz açmağı" bilmədiyimiz üçün "köhnə işlərdə qalmışıq" [yenə orada, s. 6].

Şeirdə savadsız nadanların elmə, dünyəvi təhsilə, xüsusilə təbiət fənlərinin öyrədilməsinə qarşı çıxmasından, Yer kürəsinin hərəkəti, zəlzələ və digər təbiət hadisələrinin baş verməsi səbəbləri haqqında elmi bilik verməyə çalışan müəllimləri "kafər" adlandırmasından şikayət edən Seyid Əzim, yüksək dünyəvi təhsil almağın insan həyatındakı rolunu başa salmaq üçün "oxuyub elm … hasil" edən və bu elmin sayəsində "büləND məkan" (yüksək məqam sahibi) olan H. Zərdabini nümunə göstərir, elmi bilikləri insanın "zinəti" adlandırır; əziyyət çəkməkdən yan keçən elmsiz savadsızları "misli-heyvan" (heyvana bərabər) hesab edir [yenə orada, s. 7].

"Həsən bəy Məlikova (Möhsünə cavab)" adlı digər bir məktubda – məsnəvi formasında yazdığı şerdə bir daha insan həyatında dünyəvi təhsilin, elmi biliklərin rolundan bəhs edir, elm üçün hikmət sahiblərinin "çox riyazətlər" (əzab-əziyyətlər) çəkdiyini, elmi bilikləri dərindən mənimsəyənlərin allahın bəxş etdiyi ən yüksək güc-qüvvət, nemət sahibi olduqlarını xüsusi vürğulayır və elmsiz insanları "hünərsiz" adlandırır [yenə orada, s. 9].

Oğlu Cəfərə müraciətlə yazdığı çoxsaylı şeirlərinin birində təhsilin, elmi biliklərin insan həyatında oynadığı böyük rolu şərh etməklə bərabər, cahil, savadsız insanları uzunqulağa bənzədərək deyir:

Ey oğul, bu dəlili bişəkdir,
Adəmi-bisavad eşşəkdir [18, s. 16].

Bu şeirdə dərin biliklərə sahib olanların hamıdan üstün olması fikrini oğluna təlqin etməyə çalışan şair-pedaqoq ona daha çox bilikləri mənimsəmək üçün bir deyil, bir neçə dili öyrənməyi tövsiyə edir və izah edir ki, hər bir dil allahın insanlara bəxş etdiyi bir nemətdir. Çox nemətlərə sahib olmaq üçün çox dil öyrənmək lazımdır:

Kim ki bəs bir dil eylədi hasil,
Oldu bir nemətə o kəs vasil.
Cəhd qıl neməti-təmamə yetiş,
Elmi təhsil qıl, məqama yetiş [yenə orada].

Şairin, təlimin ana dilində olmasının zəruriliyi ilə bərabər, tədris prosesində şagirdin yaşadığı ölkə üçün, dövr-zaman üçün əhəmiy-yətli olan bir neçə dilin də öyrədilməsinin vacibliyi barədə mütərəqqi pedaqoji fikirlərinə Hacı Səid Ünsizadəyə ünvanladığı böyük həcmli – 117 beytdən ibarət qəsidədə geniş rast gəlirik. Qəsidənin əvvəlində şair, on doqquzuncu yüzilliyin ikinci yarısında Qafqazın nüfuzlu ruhanilərindən biri, Tiflis şəhərində çap etdirdiyi məşhur "Ziya" qəzetinin naşiri, 1875-ci ildə Şamaxı Ruhani idarəsinin nəzdində "Məclis" adlı məktəb açmış Hacı Səid Ünsi-zadəni "əhli-ürfan" (böyük bilik sahibi ziyalı), "munisi-hər dərdi pünhani" (gizli fərdlərin məlhəmi), "xeyirxahi-dövləti-millət" (dövlətin, xalqın xeyirxahı), "həqiqət aləmində millətə … xidmət etmiş" bir şəxsiyyət kimi tərifləyir, Şamaxıda xalqın tərəqqisi üçün "bir darülfünün" (elmlər evi-məktəb) və qiraətxana açmaq fikrini təqdir edir alqışlayır.

Adı çəkilən qəsidədə şair-pedaqoq, daha

sonra Şirvanın qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Şamaxıda yeni açılan məktəblərdə ən azı üç dilin öyrədilməsinin vacibliyini vurğulayır, həmin dilləri belə sıralayır və onların zəruriliyini belə əsaslandırır:

1. Ərəb dili – Quranın mənasını öyrənmək üçün vacibdir.

2. "Vətəndə söylənən dil" – türk (Azərbaycan) dili – ana dili – biri-birimizə ünsiyyət üçün zəruridir.

3. Rus dili – tabeliyində olduğumuz dövlətin (o dövrdə Rusiyanın) dili – "qayda-qanunları" bilmək üçün lazımdır.

Tədris prosesində çox dil öyrədilməsinin əhəmiyyətini aydın və sadə şəkildə izah edən şair-pedaqoq, burada bir daha təlim dilindən asılı olmayaraq, təhsilin məzmununda elmi biliklərin üstünlük təşkil etməsinin vacibliyini xüsusi vurğulayır:

"Nə dildə olsa olsun , elm olsun …" [18, s. 67-69].

Elmi biliklərin şagirdlər tərəfindən asan mənimsənilməsi üçün elə buradaca Seyid Əzim uşaqlara fiziki cəza verməklə zorla "zeyi zəbər zə"ni mexaniki əzbərlədən, uşaqları "müşkülə" salan köhnə təlim üsulundan imtina etməyi, "çubi-fələqqa"nı (uşaqların ayaqlarını falaqqaya salıb çubuqla döyməyi) məktəbdən götürməyi, yeni təlim üsulundan – "əlifbayi-cədid"dən istifadə etməyi, şagirdlərdə elmi dünyagörüşünün formalaşmasında heç bir rolu olmayan əsərlərin – "Büstan", "Gülüstan", "Yusif və Züleyxa" və s. əvəzinə "Əxlaq elmini", "Hikmət" elmini, "millət tarixini", hesabı, coğrafiyanı öyrətməyi tövsiyə edir.

Mütəfəkkir şair-pedaqoqun təlim prosesində müəllim-şagird münasibətləri ilə bağlı bu gün də əhəmiyyətini itirməyən dəyərli fikirlərinə dərs dediyi uşaqlar üçün hazırlayıb onların istifadəsinə verdiyi "Rəbiül-ətfal" ("Uşaqların baharı") adlı dərslikdə daha geniş rast gəlirik. Məsələn, nəzmlə yazdığı "Alimlərə hörmət haqqında moizə"də Seyid Əzim, əvvəlcə elmin, təhsilin və təlimin insan üçün əhəmiyyətini izah edir, oğlu Cəfərə "əhli-elmə həmişə hörmət" etməyi tapşırır, onu başa salmağa çalışır ki, müsəlman və ya xristian olmasından asılı olmayaraq, "hər kimin elmi var,– o, insandır". Elmsiz insan: "avamdır, həmişə zillətli yoldadır, zəlildir". Öz dərin elmi sayəsində Loğman peyğəmbərlik məqamına yüksəldi:

Elmdən oldu həzzrəti-Loğman,
Hikmət ilə səramədi-dövran.
Elm bir nur, cəhl zülmətdir,
Cəhl duzəxdir[1], elm cənnətdir [18, s. 257].

Moizədə daha sonra şair-pedaqoq oğluna nəsihət edir ki, "sənə hər kim ki, elm edər təlim" ona ehtiramla "təzim" et. Alimə, müəllimə hörmət etməyən kəs "peyğəmbərə ümmət" ola bilməz. Müəllimini harda görsən "ona səlam eylə, baş əyib qul tək ehtiram eylə". O danışarkən onu diqqətlə dinlə. "Adəm ol incimə qiraətdən". Bil ki, müəllimin-ustadın sənin üçün mənəvi atadır; "Bədzat" uşaqlar kimi heç vaxt ona "məmat" (ölüm) arzulama.

Sadalanan bu fikirlərin doğruluğunu əsaslandırmaq üçün müəllif, həyatdan əyani misal göstərərək üç əhvalatı nəzmə çəkir:

1. **Məktəbli ilə müəllim əhvalatı**. Bir uşaq məktəbdən, təlimdən bezib incidiyi üçün öz müəlliminə ölüm arzulayır ki, canı təhsil almaq əziyyətindən qurtarsın. Bu qarğışı eşidən müəllim şagirdə: – Ey nadan, mən ölsəm, atan səni başqa bir müəllim yanına aparacaqdır. Əgər avara yetim ("yetimi sərgərdan") olmaq istəyirsənsə, mənim yox atanın ölümü üçün dua et [18, s. 258].

2. **Bir "Qare" ilə şagirdlərin əhvalatı**. Misirdə dərin elmə sahib bir "qare" (qiraətçi) varmış. Uşaqlara "Quran"ın qiraətini öyrədən bu şeyx onlara dərs vaxtı bəlağətli qiraətdən başqa söz danışmağı qadağan etmişdi. Şeyxin bu qadağalarından zara gələn uşaqlar ondan qisas almaq qərarına gəlirlər. Bir gün şeyx qəlyan çəkərkən onun əmmaməsinə qığılcım düşür. Bunu görən uşaqlar dillənmir ki, əmmamə alışıb-yansın. Əmmamə yanmağa başlayandan sonra uşaqlardan biri bəlağətli qiraətlə, uzun-uzadı sözlərlə şeyxə xəbər verir ki, əmmamə yanır. Şeyx əsəbiləşib uşağa niyə tez xəbər vermədiyini irad tutanda, uşaq: – Özün qiraətsiz-bəlağətsiz danışmağı qadağan etmisən. Əsas günahın onda olduğunu anlayan şeyx, Lazım gəldikdə, qiraətsiz də danışmağa icazə verir [18, s. 258-259].

3. **Şagirdlərin müəllimə kələk**

[1] Düzəx sözünün fars dilində mənası "cəhənnəm" deməkdir

gəlmələri. Dərin biliyə sahib bir müəllim (molla) dərsə çox ciddi yanaşır, uşaqları yaxşı öyrətmək üçün onlara çətin tapşırıqlar verir, həmin tapşırıqların dəqiqliklə yerinə yetirilməsini tələb edirdi. Bu tələblərdən bezikən, "əqli geyi kamil" olan uşaqlar müəllimə kələk gəlməyə qərar verirlər. Səhər müəllim dərsə gələndə uşaqlardan biri ona yaxınlaşıb üzünün qaraldığını, gözlərinin ağının saraldığını, gözünün üstünün şişdiyini söyləyir. Digər uşaqlar da eyni sözləri dedikdə, müəllim vahimələnir və qəflətən rəngi qaralır. Uşaqlara bir həftə dərsdən icazə verib, evə gəlir və yatağa düşür. Tez-tez müəllimə baş çəkməyə gələn uşaqlar gah onu "qucaqlayır", gah "ağlayır", nə üçün bu hala düşdüyünü soruşurlar. Vahimələnən və qorxuya düşən müəllimin vəziyyəti ağırlaşır, dünyasını dəyişir.

Şairin oğluna nəsihətindən və sadə dildə nəzmə çəkdiyi bu əhvalatların məzmunundan aydın olur ki, o, təlim prosesində müəllim-şagird münasibətlərinin səmimiliyinə, onlar arasında qarşılıqlı hörmətə yüksək qiymət verirdi.

Təlim prosesində yüksək savadlı müəllimin əməyinə böyük dəyər verən Seyid Əzim, "Oğluma xitab" adlı digər bir şeirində elmli, "rəbbani" ("allah adamı") müəllimlərlə dostluq etməyi, onların qarşısında "dərbani" (xidmətçi, qapıçı) olmağı tövsiyə edərək yazır:

Ey oğul, alim olsa rəbbani,
Sən onun ol dərində dərbani [18, s. 262].

Bununla bərabər, şair, bu şeirdə yüksək ruhani təhsili almaq adı ilə Bağdada, Kərbəlaya, İsfana gedən, elmə, biliyə yiyələnmək əvəzinə, "beş-altı vərəq" oxuduqdan sonra, "saqqala rövnəq" verməklə, eyş-işrətlə məşğul olan savadsız mollaları kəskin ifşa edir, belələrindən uzaq durmağı oğlu Cəfərə məsləhət görür.

"Müctəhidin təhsildən qayıtması" şeirində mütərəqqi fikirli S.Ə. Şirvani xaricdə guya ali ruhani təhsil alıb vətənə qayıdan müctəhidin simasında dünyəvi təhsilin əleyhinə çıxan, fikri-zikri xalqı dini xurafatla cahilliyə, nadanlığa düçür etmək olan mürtəce qüvvələrin – "Telqrafı, elmi-bəlis" (iblisin ixtirası), "dəmir yolu" – "kari-şeytan" (şeytan əməli) adlandıran, "dini dinara" satan, yalandan gah fələk, gah ərşdən "çərənləyən", avam camaatı "xarü zəlil" eyləyən və beləliklə də var-dövlət, cah-cəlal sahibi olanların iç üzünü kəskin ifadələrlə açır, ifşa edir, elələrini müsəlmanların digər xalqlarla (xristianlarla) müqayisədə "tərəqqidə geri" qalmasının günahkarı hesab edir:

Xaçpərəstlər təmam düşdü qabaq,
Tökülüb dalda qaldıq, ay sarsaq!…
Əhli-islam oldu xarü zəlil,
Baisi sənsən, ey imami-cəlil! [18, s. 263-265].

"Cahil ata ilə alim oğul hekayəsi", "Alimi-biəmələin vaqiəsi" və s. şeirlərində də xaricdə ali ruhani təhsil almaq bəhanəsi ilə "neçə illər qürbətdə" "eyşü-işrətdə" olub, heç bir elmi bilik qazanmayan və vətənə qayıtdıqdan sonra avam camaatı öz yalanları ilə aldadan, "bir kəlmə" ilə ("bilənlər bilməyənlərə öyrətsin") cahilləri yola verən savadsız müctəhidləri – öz mənafeləri naminə dünyəvi təhsilin, elmin əleyhinə çıxanları kəskin tənqid edir, belələrini "alimi cahil" adlandırır.

Elmi biliklərin insan həyatında var-dövlətdən, "mal-mülkdən" daha böyük rol oynadığını uşaqlara başa salmaq üçün maarifpərvər şair, "Misir şahzadələri" adlı hekayəti nəzmə çəkərək "Rəbiül-ətfal" dərsliyinə daxil etmişdir. Hekayətdə deyilir ki, Misir ölkəsində iki şahzadə qardaşın biri "elmə talib", digəri isə "var-dövlətə rağib" (meylli) olurlar. Birinci şahzadə böyük əzab-əziyyətlə elmə yiyələnir, ikincisi isə asanlıqla var-dövlət sahibi olur. Bir gün var-dövlət sahibi olan şahzadə alim qardaşını qınayır ki, bu elmin sənə nə xeyri var ki, bu qədər əzab-əziyyət çəkirsən. Alim şahzadə cavab verir ki, Sən var-dövlətin sayəsində "Mülki-Firon"a varissən, mən isə öz elmimlə "ənbiya irsinə" varisəm. "Məndən afaqə elm olur hadis", Sən isə "Qəmü azari-xalqə baissən" (Xalqın qəm oduna səbəbkarsan), [18, s. 376-377].

Təhsil və təlimdə uğurlu nəticənin müəllimin savadlı olmasından və uşağa bir ata kimi qayğı göstərməsindən əhəmiyyətli dərəcədə asılı olması fikrində olan şair-pedaqoq, bu prosesdə şagirdin təlimə marağının, tərbiyəsinin, istedadının da önəmli olduğunu dönə-dönə qeyd etmişdir. Bu fikrini valideynlərə aydın çatdırmaq üçün o, "Padışah və ədib" adlı mənzum hekayəsindən istifadə edir. Hekayədə göstərir ki, öz elmi, kamalı, mədəniyyəti ilə ad-san qazanmış bir müəllim öz oğluna elm öyrədirmiş. Padşah bunu eşidib oğlunu da həmin bilikli müəllimə "təslim" edir

ki, ona da "elmi fəzl edə təlim". Müəllim bir neçə il zəhmət çəkib padşahın oğluna elm öyrətməyə çalışsa da, heç bir fərasəti, istedadı olmayan oğlan heç nə öyrənə bilmir.

Padşah müəllimi "vədinə xilaf" çıxmaqda, hətta, "əmanətə xəyanət" etməkdə suçlayanda və cəza ilə hədələyəndə, o, valideyni (padşahı) başa salır ki, hər daşda "gövhər, simuzər" olmadığı kimi, hər uşaqda da qabiliyyət, istedad eyni olmur. Və ona görə də burada günah müəllimdə yox istedadı olmayan oğlundadır.

Müəllim-şagird münasibətlərinin səmimi olmasının vacibliyini digər seirlərində də diqqətə çatdıran Seyid Əzim, yazdığı qəsidələrin birində müəllimi sayəsində müəyyən məqama yetişən kimi öz ustadının üzünə ağ olub, özünü ondan üstün sayan nankorları kəskin ifadələrlə ifşa edir, belələrini öz sahibinə hürüyən "quduz it"ə, sahibinin verdiyi ət-südlə böyüyüb "gəlib it" olan kimi onun ayağından tutulan "küçüyə", "anasının qabağına keçib şıllaq atan şux qoduğa" bənzədir [17, s. 349-350].

Beləliklə, böyük maarifpərvər şair-pedaqoqun təhsil və təlim ilə bağlı fikirlərinin tədqiq və təhlili aydın göstərir ki, İslam dünyasının müqəddəs şəhərləri olan Məkkə, Mədinə, Kərbəla, Nəcəf və s. ziyarət edən, "Hacı" titulunu daşıyan, "Seyid" nəslindən olan, yüksək ali ruhani təhsil alan S.Ə. Şirvani dini təhsilə deyil, dünyəvi təhsilə, təhsilin məzmununda xalqın, ölkənin tərəqqisinə, şagirdlərin bir şəxsiyyət kimi formalaşmasına xidmət edən müasir elmi biliklərə, həmin biliklərin dərindən mənimsənilməsini təmin edən yeni təlim üsullarına xüsusi üstünlük vermişdir.

Bütün bunlarla bərabər, bir məsələni xüsusi vurğulamaq vacibdir ki, Seyid Əzim, nə mürtəce "din xadimlərinin" dediyi kimi islam dininin əleyhinə olan "kafir", nə də bəzi sovet dövrü tədqiqatçılarının qələmə vermək istədikləri "ateist ruhlu" şair olmuşdur.

Yüksək ali ruhani təhsilli mütəfəkkir şair-pedaqoq olan S.Ə. Şirvaninin əsərlərində təhsil və təlimlə yanaşı, tərbiyə ilə bağlı mütərəqqi fikirlərinə də geniş rast gəlirik.

Əsərlərinin, tərbiyə ilə bağlı fikirlərini öyrənmək baxımından araşdırılması göstərir ki, o, şəxsiyyətin formalaşmasında tərbiyənin roluna çox yüksək qiymət vermiş, istər müəllimlik fəaliyyətində, istərsə də bədii yaradıcılığında bu məsələyə xüsusi diqqət yetirmişdir. Fikrimizi əsaslandırmaq üçün konkret misallara müraciət edək.

"Həsən bəy Məlikova (Möhsünə cavab)" adlı məsnəvidə şair-pedaqoq göstərir ki, qəflət yuxusundan "əhli-islamı" oyatmağın, başqa millətlərdən geri qalmaqdan xilas etməyin əsas yolu tərbiyədir. Bəşər övladı "qabili-tərbiyyət" baxımından heç də ağacdan geri qalmır. Təbiətdəki daşı "təsiri-afitabi-fələk" lələ, gövhərə "döndərir". Ağacdan və daşdan daha üstün varlıq olan insanı da elmin və tərbiyənin təsiri ilə "nakamil"likdə (savadsızlıqdan, avamlıqdan, cəhalətdən) xilas etmək mümkündür. "Elmi-bitərbiyət səmərəsizdir" deyən mütəfəkkir pedaqoqun fikrincə, kamil insan yetişdirmək üçün elm və təhsillə bərabər tərbiyənin də gücündən istifadə etmək vacibdir. Çünki:

1. Tərbiyət mayeyi-səadətdir,
Tərbiyət şəxsə malü dövlətdir [18, s. 9].
2. Bilməyən yoxdur kim, bu mənanı:
Tərbiyət kamil eylər insanı. [yenə orada, s. 10].

Başqa bir əsərində – "Mircəfərə xitab" adlı şeirində bir daha elm və təhsillə yanaşı şəxsiyyətin formalaşmasında, kamil insan kimi yetişməsində tərbiyənin rolunu yüksək qiymətləndirərək vürğulayır ki, tərbiyəvi təsirin gücü ilə, hətta, ən qabiliyyətsiz uşağı kamilləşdirmək mümkündür:

Ki, nə qədər olsa şəxs naqabil,
Tərbiyyətlə olur yenə kamil [18, s. 245].

Mütəfəkkir şair-pedaqoqun tərbiyə ilə bağlı elmi-pedaqoji baxışlarının nüvəsini əqli tərbiyə və əxlaq tərbiyəsi haqqındakı fikirləri təşkil edir. Həmin fikirlər isə onun elmi-fəlsəfi görüşlərinin məhsuludur. "S.Ə. Şirvaninin fəlsəfi görüşləri" adlı dəyərli monoqrafiyasında professor Rəfail Əhmədli Seyid Əzimi çox haqlı olaraq "bir alim, bir filosof, bir şair və bir mütəfəkkir" hesab edir və fikrini belə əsaslandırır: "Öz yaradıcılığında Seyid Əzim Şirvani istər elmi əsas götürən alimlərin, istər ağılı idrakın əsası hesab edən filosofların, istərsə də insan ruhunu hərəkətə gətirən, insanı Allaha qovuşduran eşqi əsas götürən sufilərin xələfi kimi onların fikir və düşüncələrini əks etdirərək həm elmə, həm ağıla və həm də eşq, məhəbbətə

eyni dərəcədə yanaşmışdır” [18 , s. 323].

Professor R. Əhmədlinin bu dəyərli elmi qənaətini təqdirlə yanaşı, qeyd etməyi vacib sayırıq ki, S.Ə. Şirvani həm də böyük insanpərvər və maarifpərvər pedaqoqdur. Həm “Ağıllı idrakın əsası hesab edən” filosof, həm də tərbiyəni “mayeyi-səadət”, elmi ağılın “nuru” adlandıran, “Əqildəndir şərafəti insan” deyən pedaqoq kimi Seyid Əzimin fikrinə görə kamil insanın formalaşmasının əsas yolu əqli tərbiyədən – şagirdlərdə elmi dünyagörüşünün, elmi biliklərin dərindən mənimsənilməsi, dərketmə maraqları və bacarıqlarının inkişaf etdirilməsindən keçir.

Məqalənin əvvəlində elm, təhsil, elmi biliklərin öyrədilməsi barədə mütəfəkkir şair-pedaqoqun fikirlərinə aid çoxsaylı nümunələr göstərdiyimiz üçün burada əqli tərbiyə ilə bağlı bəzi fikirlərini qısaca qeyd etməklə kifayətlənməyi məqsədəuyğun hesab edirik.

Xalqın cəhalətdən, nadanlıqdan savadsızlıqdan xilas yolunu elmi biliklərə yiyələnməkdə görən maarifpərvər şair, oğlu Cəfərə müraciətlə yazdığı çoxsaylı “Öyüd” və “nəsihət”lərin demək olar ki, hamısında ona, ilk növbədə, öz ağlı ilə hərəkət etməyi, insan üçün “peyğəmbərə” bərabər “rəhbər” olan “əqli” özünə ən gözəl dost bilib onun (əqli) göstərdiyi doğru yolla getməyi, savad qazanıb kamal sahibi olmağı məsləhət görür:

Əqli peyğəmbərin qılıb rəhbər,
Öyrən ababi-məzhəbi Cəfər.
Demirəm mən gedən təriq ilə get,
Əqli tut, ol gözəl rəfiq ilə get [18, 16].

Həmin şeirdə daha sonra oğlunun ağıllı, kamallı bir övlad kimi yetişməsinin qayğısına qalan maarifpərvər ata (Seyid Əzim) ona (oğlu Cəfərə) Şirvandakı “əhli-kəmal”, “əhli-elmü sahibi-hal” olanlardan “həcəri” (daşı) “qabili-tərbiyət” “qılan”lardan nümunə götürməyi tövsiyə edir.

Tərbiyə ilə bağlı pedaqoji görüşlərində əqli tərbiyə ilə bərabər, əxlaq tərbiyəsi məsələlərinə də geniş yer verən S.Ə. Şirvaninin fikrinə görə hər bir kəs, milli və dini mənsubiyyətindən, vəzifəsindən, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, ilk növbədə, **İNSAN** olmalıdır:

Müsəlman ol, müsəlman ol,
Əlqərəz, insan ol, insan ol!

Dahi Nizaminin “əgər insansansa, insanlığı sev”; “İnsanla yaşayan mərddir, kişidir, kimsəni sevməmək namərd işidir” və s. kimi humanizm ideyalarını inkişaf etdirib daha da zənginləşdirən insanpərvər şair-pedaqoq, bütün bədii əsərlərində, eləcə də uşaqlar üçün tərtib etdiyi “Rəbiül-ətfal” (“Uşaqların baharı”) dərsliyinə daxil etdiyi tərbiyəvi-didaktik oxu materiallarında oğlu Cəfərin nümunəsində gənc nəsli əxlaqlı insan – “əhli-elm”, “əhli-ürfan”, “əhli-iman”, “xoşzəban”, “şəkər sözlü”, “gülər üzlü”, “naməhrəmə nəzər yetirməyən”, namuslu, qeyrətli, mərd insan olmağa çağırır.

Əlbəttə, böyük insanpərvər pedaqoqun insanlarda görmək istədiyi, təqdir və təbliğ etdiyi, gənc nəslə aşılamağa çalışdığı əxlaqi keyfiyyətlər çoxdan-çoxdur. Həmin keyfiyyətlər üzərində məqalənin həcmi baxımından geniş dayanmaq qeyri-mümkün olduğu üçün onları qruplaşdırmaqla və qısa qeydlərlə kifayətlənməyi məqsədəuyğun hesab edirik.

1. **Ədəb-ərkan**: Ədəb-ərkan bizə məclisləri “ədəbxanə” adlandıran “ululardan” miras qalıb. Ədəbli olmaq hər kəs üçün “vacib” olan əxlaqi keyfiyyətdir. Ədəbli olmağın əlamətləri (“ədəbin rəsmi”) məclisə daxil olan hər bir insanın davranışından (“hərəkətlərindən”), müraciət və cavab vermək formasından (“cavabü xitab”), danışığından-sözündən (“qövlü göftardan”) məlum olur. Ədəbli olan kəs “məclisə daxil” olan kimi “yuxarı başda” əyləşməməli, verilən suala “mətləbdən ziyadə” cavab verməməli, sağında və solunda əyləşənlərin “bihudə (artıq) söhbət ilə” yeməyinə mane olmamalı, başqaları danışanda qulaq asmalı, özünü ağıllı sayıb məclisdə söhbəti ələ almağa çalışan cahillərə baş qoşmamalıdır [18, s. 375].

2. **Əmək sevərlik, işgüzarlıq**. Heç vaxt boş-bekar gəzmə, bir işlə, bir sənətlə məşğul ol. Adəmdən başlamış Məhəmməd peyğəmbərədək hamısı bir iş-bir sənət sahibi olmuş və öz əmək̀əri ilə dolanmışlar. İşsiz-gücsüz olan adam ancaq yanmağa yarayan odundan başqa bir şey deyildir: “… adəmi bikar xüşk (quru) olan bir odundur, layiqi-nar (od)” [18, s. 376].

3. **Dostluq**. Hər insanla dostluq etmək olmaz. Yaxşı dost eybini üzünə söyləyəndir. “Eybi örtən rəfiq gövdəndir. (mədə-bağırsaq sistemi), Onu sən dost sanma, düşməndir” [18, s. 360]. Ağıllı olan kəs “hər gəda ilə” deyil öz səviyyəsinə uyğun olan biri ilə dostluq edər.

“Axmaqla dostluq edən, axmaq olar” [18, s. 308]. Yaxşı dost öz dostu ilə mübahisə yox, “ittifaq eylər”. Çünki “ittifaq eyləyən” iki dost birləşən “beş barmaq” kimi güclü olur və hər bir çətinliyin öhdəsindən asanlıqla gəlir.

4. **Yaxşılıq, xeyirxahlıq, səxavətlilik**. Yaxşılıq, xeyirxahlıq heç vaxt itmir, gec-tez qabağına çıxır (ayının siçana etdiyi yaxşılıq kimi. Siçanı öldürməyib buraxan ayı bu yaxşılığı sayəsində həyatını itirməkdən xilas olur: günlərin bir günü o, ovçuların qurduğu tora düşür, siçan gəlib dişləri ilə toru kəsir, ayını ölümdən qurtarır).

İnsanın ən gözəl əxlaqi keyfiyyətlərindən biri onun adına yaraşıq, şan-şöhrət gətirən səxavətlilikdir: “Qərəz ki, zümreyi-mərdanə zinət-səxavətdir, səxavətdir, səxavət!” [18, s. 383].

5. **Doğruluq, dürüstlük.** Doğruluq – insan qəlbinin paklığından, saflığından, doğan yüksək əxlaqi keyfiyyətdir. Doğruluğu özünə “pişə” (öndə gedən, yol göstərən) seçən insanın heç vaxt narahatçılığı, qəlb əzabı olmaz: “Seyida, doğruluq elə pişə, doğruya yoxdu bimü əndişə”.

Mütəfəkkir satirik şairin əsərlərində insanın mənəviyyatını tənəzzülə uğradan mənfi əxlaqi sifətlərin kəskin ifşasına da geniş rast gəlirik. Oğlu Cəfər başda olmaqla bütün gənclərə tövsiyə və nəsihət edir ki, mənfi əxlaqi sifət sahiblərindən kənar gəzsinlər, elələrinə qarşı barışmaz olsunlar, onların toruna düşməməyə çalışsınlar. Nümunə üçün şairin daha çox nifrət etdiyi bir neçə mənfi əxlaqi sifəti nəzərdən keçirək.

1. **Şər-böhtan, iftira, qeybət**. İnsanın başına gələn “hər bəla”ya səbəb onun yalan danışan, şər-böhtan atan, qeybət edən dilidir. Başının salamat olmasını, “möhnətdən nicat” tapmasını istəyirsənsə: “Dilüvü saxla kz bü qeybətdən” (yalandan, şər-böhtan atmaqdan) [18, s. 354]. “Bundan ona… xəbər” aparmaq, yalan danışmağa, “böhtan atmağa adət” etmək “şeytan” əməlidir, insan adına yaraşmayan mənfi əxlaqi sifətdir.

2. **Paxıllıq**. Paxıl adam, əgər “həlak olsa cümleyi-aləm” deyər ki, “yenə kəmdir” (azdır). Paxıl, kimsənin “xoşbəxt” olmasını istəməz. Əksinə, başqalarının ölməyinə sevinər. Paxılların “yeri cəhənnəmdir”.

3. **Mərdimazarlıq**. Başqalarının bədxahlığını istəyən mərdimazarlardan uzaq gəz. Çünki: “Mərdimazarlıq yaman işdir. Belə qalmağından ölməyin xoşdur” [18, s. 255].

4. **Şəraba meyllik, sərxoşluq-əyyaşlıq**. Şərab “kövsərdən (cənnət suyundan) ibarət” olsa da ona yaxın düşmə, içmə. “Talibi-badə” olsan hörmətin- “izzətin bada” gedəcək. “Əqli zail”, “hər fəsada mail” edən şərab insanı “zinakarlığa” vadar edir, “əqli-şüurdan” çıxarır, “çox xanimanları” (evləri) viran qoyur. “Simu-zər” verib şərab alma, çünki o, “əqlüvə hicab”dır – qara hicab kimi ağlına kölgə salandır, “ümmül fəsaddır” (fəsadların anası-törədənidir). Zahirən şərabın “günahı” az görünsə də, daxilən “fəsadı” çox böyükdür: “Gərçi günahı az görünür camü badənin, Amma dərini fəth qılır iradənin” [17, s. 467].

Problemin aktuallığı. Böyük maarifpərvər şair-pedaqoq S.Ə. Şirvaninin təhsil, təlim və tərbiyə haqqındakı mütərəqqi fikirləri öz əhəmiyyətini və aktuallığını bu gün də qoruyub saxlamışdır. Həmin fikirlər pedaqoji fikir tariximizin zənginləşməsinə xidmət edir.

Problemin yeniliyi. S.Ə. Şirvaninin təhsil, təlim və tərbiyə ilə bağlı fikirləri azərbaycançılıq ideologiyası işığında yeni pedaqoji təfəkkür aspektində, qarşılıqlı əlaqədə tədqiq və təhlil edilmiş, ümumiləşdirilmiş və sistemə salınmışdır.

Problemin praktik əhəmiyyəti. S.Ə. Şirvaninin təhsil, təlim və tərbiyə haqqında məqalədə öz yığcam əksini tapmış fikirlərindən istifadə Azərbaycanda məktəb və pedaqoji fikir tarixinə aid dərslik və dərs vəsaitlərinin yeni elmi-nəzəri müddəalarla zənginləşməsinə və bu problemlə bağlı yeni tədqiqatların aparılmasına kömək göstərəcəkdir.

Ədəbiyyat:

1. Aslan K. Seyid Əzim Şirvaninin yazdığı məktəb dərsliklərində elm və maarifçilik məsələləri //Kitabxanaşünaslıq və informatika. -2010, № 2. -s. 21-28
2. Bağırov, Ə.A., S.Ə. Şirvani və məktəb. Metodik ədəbiyyat / Ə.A. Bağırov. -Bakı: “Maarif”, – 1983. – 220 s.
2. Camalov K. Seyida, ölmərəm, aləmdə səsim var mənim: https://gudelik.az/seyyida-olmerem-alemde-sesim-var-menim!?amp=1
3. Əhmədli, R. Seyid Əzim Şirvaninin fəlsəfi görüşləri / R. Əhmədli. -Bakı: Elm, - 2005. – 1958.

4. Əhmədov, H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi / H.M. Əhmədov. -Bakı: "Elm və təhsil", – 2014. – 432 s.
5. Əhmədov, H. XIX əsr Azərbaycan məktəbi / H. Əhmədov. -Bakı: "Maarif",– 1983. –220 s.
6. Əsgərli, Z. Seyid Əzim Şirvani / Z. Əsgərli. -Bakı: Elm, – 1977. – 175 s.
7. Göyüşov, Z.B. Azərbaycan maarifçilərinin etik görüşləri / Z.B. Göyüşov. -Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1960. – 212 s.
8. Kərimova F.B. S.Ə. Şirvaninin fəlsəfi görüşlərində əxlaq və tərbiyyə məsələləri //Naxşıvan Dövlət Universiteti. Elmi əsərlər. İctimai Elmlər Seriyası. № 2 (91) I cild. -Naxçıvan: NDU "Qeyrət", – 2018. -s. 171-176
9. Kərimova, F.B., Seyid Əzim Şirvaninin ictimai-siyasi və fəlsəfi görüşləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis.nın avtoreferatı /F.B. Kərimova. Bakı, – 2021. – 24 s.
10. Köçərli, F. Azərbaycan ədəbiyyatı. İki cilddə. II cild /F. Köçərli. -Bakı: Avrasiya Press, – 2005. – 464 s.
11. Qasımzadə, F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. / F Qasımzadə -Bakı: Maarif, –1974. – 488 s.
12. Məmmədov, K. XIX əsr Azərbaycan şeirində satira / K. Məmmədov. -Bakı: Elm, –1975. – 247 s.
13. Məmmədov, X. Köhnə dünyanın sonuncu, yeni dünyanın birinci şairi /Şirvani S.Ə. -Bakı: Avrasiya Press, – 2005, -s. 4-32
14. Rüstəmov, İ. Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri (XIX əsr-XX əsrin əvvəlləri) /İ. Rüstəmov. -Bakı: "Diplomat" nəşriyyatı, – 2001.–483 s
15. Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 4 aprel 2025-ci il/ https://Prezident/az/az/art/cules/view/68493
16. Seyidov, Ə. Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən / Ə. Seyidov. -Bakı: Azərnəşr, – 1958. – 312 s.
17. Şirvani, S.Ə. Seçilmiş əsərləri. I cild /S.Ə. Şirvani. -Bakı: "Şərq-Qərb", – 2013. – 492 s.
18. Şirvani, S.Ə. Seçilmiş əsərləri. II cild /S.Ə. Şirvani. -Bakı: "Şərq-Qərb", – 2013. – 480 s.
19. Şirvani, S.Ə. Seçilmiş əsərləri. Üç cilddə. I cild /S.Ə. Şirvani. -Bakı: Avrasiya Press, – 2005. – 400 s.
20. Tağıyev, Ə. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən /Ə. Tağıyev. -Bakı: Azərtədris nəşr, – 1961. –168 s.

Redaksiyaya daxil olub: 22.09.2025

UOT 74.03

Təranə Şəmistan qızı Paşayeva
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə dissertantı
https://orcid.org/0000-0001-1201- 3740
E-mail: terane.pashayeva.82@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).212-215

SƏFƏRƏLİ BƏY VƏLİBƏYOVUN PEDAQOJİ FƏALİYYƏTİ VƏ MÜƏLLİMLİK İRSİ

Terane Shamistan Pashayeva
doctorial student in the program of doctor of philosophy at
Institute of Education of the Republic of Azerbaijan

SAFARALI BEY VALIBAYOV'S PEDAGOGICAL ACTIVITY AND TEACHING HERITAGE

Тарана Шамистан гызы Пашаева
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ И УЧИТЕЛЬСКОЕ НАСЛЕДИЕ САФАРАЛИ БЕКА ВАЛИБЕКОВА

Xülasə. Təhsil tarix boyu insanın ən əsas və mühüm elementlərindən biridir. Təhsil fərdlərə öz potensiallarını inkişaf etdirməyə, bilik və bacarıqlarını artırmağa, cəmiyyətdə fəal rol oynamağa kömək edən bir prosesdir. Təhsil cəmiyyətlərin inkişafında və tərəqqisində mühüm rol oynayır və tarix boyu bir çox mühüm pedaqoqlar bu sahədə təsirli töhfələr vermişlər. Tədqiqat işində Səfərəlibəy Vəlibəyovun yaradıcılığına diqqət yetirilir. Vəlibəyov maarif və təhsil sahəsində mühüm tədqiqatlar aparan maarifçi kimi tanınır. Onun təhsil, pedaqoji metodlar və tərbiyə fəaliyyəti haqqında anlayışı şagirdlərin inkişafına və öyrənilməsinə töhfə vermiş, təhsil sahəsində mühüm iz qoymuşdur. Bu tədqiqat Vəlibəyovun yaradıcılığını, onun təhsil və təlimə təsirini araşdıraraq təhsil sahəsinə töhfə vermək məqsədi daşıyır.
***Açar sözlər**: təhsil, Səfərəlibəy Vəlibəyov, pedaqoq*

Abstract.
***Keywords:** Education, Safaralibey Valibeyov, pedagogue*

Аннотация. Образование является одним из самых основных и важных элементов личности на протяжении всей истории. Образование – это процесс, который помогает людям развивать свой потенциал, расширять свои знания и навыки и играть активную роль в обществе. Образование играет важную роль в развитии и прогрессе общества, и на протяжении всей истории многие выдающиеся педагоги внесли эффективный вклад в эту область. Велибеков известен как педагог, который проводит важные исследования в сфере образования и воспитания. Его понимание образования, педагогических методов и образовательной деятельности способствовало развитию и обучению студентов и оставило важный след в сфере образования. Целью данного исследования является внести вклад в сферу образования путем изучения творчества Велибекова и его влияния на образование и обучение.
***Ключевые слова:** образование, Сафаралибей Велибеков, педагог*

Səfərəli bəy Vəlibəyov Zaqafqaziya Müəllimlər Seminariyasının (ZMS) Azərbaycan şöbəsi fəaliyyət göstərdiyi 40 il ərzində 250-dən artıq əsl xalq müəllimi hazırlamışdır. Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Səfərəli bəy Vəlibəyov, Əliş bəy Tahirov, Mahmud bəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Pənah Qasımov, Hənəfi Terequlov, Əli Hüseynov, Fərhad Ağazadə, Səməd bəy Acalov, Teymur bəy Bayraməlibəyov, Süleyman Sani Axundov, Bədəl bəy Bədəlbəyli,

Azad Əmirov, Əhmədağa Mustafayev, Yusif Qasımov, Əli Qəmərli, Müseyib İsayev, Əhməd Seyidov və başqaları müəllimlik peşəsinin vurğunu olmuş, xalqını təhsil nuru ilə işıqlandıran elm, maarif, mədəniyyət və incəsənət carçıları kimi çoxşaxəli fəaliyyət göstərmişlər. Bu insanların hər biri tarixi şəxsiyyət, sənətkar, ustad səviyyəsinə qalxmışdır [3, s. 145–150].

Seminariyanın məzunları içərisində Səfərəli bəy Vəlibəyovun xidmətləri xüsusi vurğulanmalıdır. O, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirən ilk üç azərbaycanlıdan biri olmuş, ömrünün on səkkiz ilini pedaqoji işə sərf etmişdir. Bu müddət ərzində Səfərəli bəy onlarla istedadlı gənc yetişdirmişdir ki, həmin gənclər elm, maarif, ədəbiyyat və incəsənətin müxtəlif sahələrində, habelə ictimai-siyasi işlərdə fəal çalışmış, vətənə və xalqa namusla xidmət etmişlər. C. Məmmədquluzadə, N. Nərimanov, S. S. Axundov və bir çox başqaları ibtidai təhsillərini S. Vəlibəyovdan almış, tələbkar və qayğıkeş müəllimlərini həmişə böyük məhəbbət hissi ilə yad etmişlər [5, s. 73–75].

Səfərəli bəy Şeyx Həsən oğlu Vəlibəyov 1861-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini mollaxanada almış, ərəb və fars dillərinə mükəmməl yiyələnmişdir. 1875-ci ildə Şuşa dördsinifli şəhər məktəbinə daxil olmuş və 1879-cu ildə buranı bitirmişdir. Həmin ildə S. Vəlibəyovun həyatında əlamətdar bir hadisə baş vermişdir. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının nəzdində açılmış Azərbaycan şöbəsinə şagird toplamaq məqsədilə Şuşaya gələn A.O. Çernyayevski gənc Səfərəli ilə söhbət aparmış, hazırlıqlı olduğunu görüb onu seminariyanın ikinci sinfinə qəbul etmişdir [4, s. 212].

1879–1893-cü illərdə seminariyanın Azərbaycan şöbəsini A. O. Çernyayevski idarə edirdi. O, qabaqcıl fikirli, öz işini sevən müəllim kadrların hazırlanmasına xüsusi əmək sərf etmişdir. Şagirdlərə tarix və coğrafiyadan dərs deyirdi. Müəllim çatışmazlığına görə A. Çernyayevski S. Vəlibəyovu öz yerinə hazırlayırdı. Səfərəli bəy hələ şagird ikən müəllimi Çernyayevskiyə yaxından kömək göstərir, onun *Vətən dili* (I hissə) kitabının hazırlanmasına xüsusi əmək sərf edirdi [3, s. 201].

1881-ci ildə seminariyanı bitirən S. Vəlibəyov müəllim kimi burada fəaliyyətə başlayır və 1896-cı ilə qədər seminariyada işləyir. Səfərəli bəy əsas pedaqoji fəaliyyəti ilə yanaşı, seminariyanın ictimai işlərində də fəallıq göstərirdi. O, şagirdlərin sinifdənkənar məşğələlərinə böyük fikir verirdi. Gənc müəllim ictimai və pedaqoji fəaliyyətini yayda da davam etdirirdi. Adətən tətil zamanı Şuşaya dincəlməyə gələrkən burada uşaqlara pulsuz dərs deyər, onları orta və ali məktəblərə daxil olmaq üçün hazırlayardı. Şuşa və ətraf kənd məktəblərində dərs deyən müəllimləri toplayar, onları sövti üsulla dərs demək metodikası ilə tanış edirdi. Bu nəcib işinə görə o, hətta Qafqaz dairəsi popeçiteli tərəfindən mükafatlandırılmışdı [4, s. 213; 8, s. 47].

Səfərəli bəy Vəlibəyov Azərbaycan tarixində böyük bir müəllim və pedaqoq idi. O, XIX əsrin sonlarında və XX əsrin əvvəllərində öz fəaliyyəti ilə geniş təsir göstərmişdir. Müəllimlik fəaliyyəti zamanı Vəlibəyov bir çox tədris proqramları və metodikalar hazırlayaraq təhsil sahəsində mühüm rol oynamışdır [1, s. 55–60]. Onun pedaqoji baxışları milli dilin və milli-mənəvi dəyərlərin qorunmasına əsaslanır, Azərbaycan dilinin qrammatikasının düzgün və məqsədyönlü şəkildə tədrisini önə çəkirdi [9, s. 28–29].

Səfərəli bəy Vəlibəyovun müəllimlik fəaliyyəti yalnız Azərbaycan maarifçilik tarixində deyil, həm də ədəbiyyat və poeziya sahəsində geniş yayılma qazanmışdır. O, yazdığı ədəbi əsərlər və şeirlər vasitəsilə şagirdlərini təsirləndirir, onların dil və ədəbiyyat biliklərini artırır, tədrisdə ədəbiyyatın və poeziyanın gücünü xüsusi vurğulayaraq musiqi və incəsənətə də yer verirdi [1, s. 55–57]. Vəlibəyov sənətə əsaslanan tədris metodu ilə şagirdlərin yaradıcılığını inkişaf etdirməyə çalışır, dərs prosesində interaktiv və müzakirə əsaslı yanaşmalardan istifadə edirdi [9, s. 28–29].

Onun pedaqoji prinsipləri dövrün şərtlərinə uyğun olmaqla, yenilikçi və məqsədəuyğun idi. Vəlibəyov şagirdlərinin fəal iştirakını təmin edir, onların fikirlərini sərbəst ifadə etməsinə şərait yaradır, sağlam və balanslı həyat tərzi qurmağa yönəldirdi [7, s. 118–120]. O, tədrisdə milli-mənəvi dəyərlərə, bədən və ruh sağlamlığına, mədəniyyət və incəsənətə xüsusi diqqət yetirirdi ki, bu da şagirdlərin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayırdı [6, s. 101–103].

XIX əsrin 90-cı illərində Qafqaz təhsil orqanlarının irticaçı rəhbərləri Azərbaycan və gürcü dillərini seminariyanın tədris proqramından çıxarmağa cəhd etdikdə, S. Vəlibəyov A. O. Çernyayevski, Ə. Axundzadə və N. Lomouri ilə

birlikdə bu mürtəce siyasətə qarşı çıxmış, prinsipial mövqe nümayiş etdirmişdir. Onun seminariyadan uzaqlaşdırılmasının səbəblərindən biri də məhz bu mövqeyi olmuşdur [4, s. 212–213].

Vəlibəyov müasirləri arasında yalnız müəllim kimi deyil, həm də görkəmli maarifçi, metodist, tərcüməçi və publisist kimi tanınmışdır. Onun A. O. Çernyayevski ilə birlikdə hazırladığı *"Vətən dili"* dərsliyi, "Qüdrəti-xuda", "Üsuli-cədid", "Xəzinəyi-əxbar" kimi əsərləri uzun müddət Azərbaycan məktəblərində geniş istifadə olunmuşdur [3, s. 201; 5, s. 74]. O, həmçinin "Ziyayi-Qafqaziyyə", "Tərcüman", "Kəşkül", "Kaspi" kimi qəzetlərdə çıxış edərək dövrün ictimai-ədəbi hadisələrinə münasibət bildirmiş, qabaqcıl maarifçi-demokrat ideyalarını təbliğ etmişdir [8, s. 47–48].

Onun pedaqoji fəaliyyətində İsmayıl bəy Qaspirinski ilə görüşü xüsusi yer tutur. Firidun bəy Köçərli ilə birlikdə Baxçasaraya səfəri zamanı Vəlibəyov Qaspirinskinin yeni üsullu məktəbi ilə yaxından tanış olmuş və nümunə dərsi ilə öz təcrübəsini bölüşmüşdür [2, s. 38]. Bu görüş onun pedaqoji baxışlarının formalaşmasında mühüm rol oynamışdır.

Vəlibəyovun təşəbbüsü ilə 1883-cü ildə Şuşada açılan məktəb, həmçinin onun hazırladığı oxu kitabları Azərbaycan məktəb və pedaqoji fikir tarixində yeni mərhələ yaratmışdır. Burada tətbiq edilən səs üsulu (sövti metod) ilə yanaşı, müəllimlər üçün metodik göstərişlərin verilməsi də onun pedaqoji irsinin mühüm istiqamətlərindən idi [4, s. 214].

XIX yüzilliyin əvvəllərindən XX əsrin 20-ci illərinə qədər hazırlanmış dərsliklərin əksəriyyəti ərəb əlifbası ilə yazıldığından müasir dövrdə tədqiqatçıların böyük bir qismi bu mənbələri orijinaldan oxumaqda çətinlik çəkir. Digər tərəfdən, həmin dərsliklərin çoxu nadir nümunələr olduğundan onların həm Azərbaycanda, həm də MDB məkanında axtarılıb tapılması xüsusi zəhmət və uzunmüddətli araşdırma tələb edir [4, s. 211–214]. Belə əsərlərin transliterasiya və faksimile yolu ilə yenidən çapı, yəni müasir latın qrafikasına uyğunlaşdırılaraq oxuculara təqdim olunması mühüm elmi-pedaqoji əhəmiyyət kəsb edir.

Bu cür işlərin başqa bir önəmli cəhəti onların praktik tətbiq imkanları ilə bağlıdır. Belə ki, bu gün pedaqoji universitetlərdə, kolleclərdə və texnikumlarda tədris olunan *Azərbaycan məktəb və pedaqoji fikir tarixi* kursunun proqramında məhz sövti üsul əsasında hazırlanmış dərsliklər ayrıca yer tutur və pedaqoji ixtisas üzrə təhsil alan hər bir tələbə həmin dərsliklərin məzmununu və tərtib prinsiplərini öyrənməlidir [3, s. 198–202].

Aparılan tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Azərbaycan dilinin tədrisi ilə bağlı hazırlanan dərsliklərdən biri – 1839-cu ildə Tiflisdə nəşr edilən *"Təmsillər və hekayələr"* – sonradan erməni müəllifləri tərəfindən mənimsənilərək 1967-ci ildə İrəvanda çap edilən *"Erməni kitabı"*na daxil edilmişdir (I cild, s. 248) [5, s. 74–75]. Bu fakt göstərir ki, Azərbaycan dilinin tədrisi üçün hazırlanmış ilk mənbələrin sistemli şəkildə toplanaraq transliterasiya olunması və müasir oxucular üçün əlçatan edilməsi zəruridir.

Azərbaycan Beynəlxalq Universitetində fəaliyyət göstərən *"Təhsilin aktual problemləri"* elmi-tədqiqat laboratoriyasında son illərdə bu istiqamətdə mühüm işlər görülmüşdür. Xüsusilə, 2007-ci ildə A. O. Çernyayevskinin 1882-ci ildə Tiflisdə nəşr etdirdiyi *"Vətən dili"* dərsliyinin birinci hissəsi latın qrafikasında yenidən çap edilmişdir. 193 səhifədən ibarət bu nəşrə AMEA-nın həqiqi üzvü, professor Vasim Məmmədəliyev ön söz yazmış, kitabın redaktoru professor Kamandar Şərifli, lüğətin müəllifi isə Kəminə Həvil qızı olmuşdur [5, s. 76].

Azərbaycan dilində tərtib edilən oxu kitabları içərisində S. Vəlibəyovun 1888-ci ildə Tiflisdə *"Kəşkül"* qəzetinin mətbəəsində çap etdirdiyi risalə ayrıca dəyərə malikdir. Rusca titulunda *"Knijka dlya samostoyatelnoqo çteniya na tatarsko-azerbaydjanskoy nareçii"*, Azərbaycan dilində isə *"İbtidai məktəb şagirdlərinə məxsus və hüsnü-əxlaqa dair Azərbaycan dilində oxu risaləsi"* adlanan bu kitabça təlim-tərbiyə baxımından əxlaqi-mənəvi mətnlərdən ibarət idi [1, s. 59–60]. Epiqraf kimi "Qüdrəti-Xuda" ifadəsinin seçilməsi, əsərin dini-mənəvi dəyərlərlə yanaşı maarifçi ideyaları da özündə birləşdirdiyini göstərirdi.

Kitabçaya Cənubi Qafqaz məmləkətlərinin müftisi Hüseyn Əfəndi Qayıbov və Şeyxülislam Axund Mirzə Hüseyn Tahirov tərəfindən verilmiş müsbət rəy onun pedaqoji əhəmiyyətini daha da artırmışdır. Burada uşaqların savadlanması ilə yanaşı, əxlaqi-mənəvi tərbiyənin də zəruriliyi vurğulanırdı [7, s. 119].

Problemin aktuallığı. Müasir dövrdə təhsil islahatlarının dərinləşməsi, milli pedaqoji irsin öyrənilməsinin aktuallığı və tarixi müəllimlik ənənələrinin yenidən dəyərləndirilməsi kontekstində Vəlibəyovun pedaqoji görüşlərinin araşdırılması mühüm elmi-praktiki əhəmiyyət kəsb edir. Onun müəllimlik prinsiplərinin – təlim və tərbiyənin vəhdəti, şagird şəxsiyyətinə hörmət, maarifçilik ideyalarının tədrisdə tətbiqi – bu gün də pedaqoji nəzəriyyə və praktikada aktual olaraq qalması tədqiqatın aktuallığını daha da gücləndirir. Eyni zamanda, Vəlibəyovun fəaliyyəti bölgə məktəblərinin inkişafı, qadın təhsilinin təşviqi və kənd maarifinin gücləndirilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır. Buna görə də onun müəllimlik irsinin öyrənilməsi həm Azərbaycan pedaqogikasının tarixində boşluqların doldurulmasına, həm də müasir tədris prosesinə metodoloji töhfə verməsinə imkan yaradır.

Problemin yeniliyi. Səfərəli bəy Vəlibəyovun pedaqoji fəaliyyəti haqqında indiyədək aparılan araşdırmalar əsasən maarifçilik hərəkatı kontekstində ümumi şəkildə təqdim olunmuşdur. Lakin onun müəllimlik prinsipləri, tədris metodları və pedaqoji irsi ilk dəfə olaraq bu tədqiqatda sistemli şəkildə təhlil edilir, qadın təhsili və bölgə məktəblərinin inkişafındakı rolu ayrıca araşdırılır. Eyni zamanda, Vəlibəyovun milli-mənəvi dəyərlərə əsaslanan pedaqoji baxışlarının müasir təhsil nəzəriyyələri ilə müqayisəli təhlili və praktik tətbiq imkanlarının göstərilməsi problemin əsas elmi yeniliyini təşkil edir.

Problemin praktik əhəmiyyəti. Səfərəli bəy Vəlibəyovun müəllimlik irsinin araşdırılması yalnız pedaqoji tarix üçün deyil, həm də müasir təhsil sistemi üçün mühüm praktik əhəmiyyət kəsb edir. Onun tədris və tərbiyə prinsipləri – şagirdlərin şəxsiyyətinə hörmət, milli-mənəvi dəyərlərin qorunması, dünyəvi elmlərə marağın artırılması və qadınların təhsil almasının təşviqi – bu gün də aktualdır. Bu baxımdan, əldə olunan nəticələr müəllim hazırlığı proqramlarında, pedaqoji kadrların peşəkar inkişafında, xüsusilə də kənd və region məktəblərində tədrisin keyfiyyətinin yüksəldilməsində tətbiq oluna bilər. Həmçinin, Vəlibəyovun pedaqoji irsindən istifadənin müasir dərslik və metodik vəsaitlərin hazırlanmasında, milli təhsil strategiyasının təkmilləşdirilməsində və şagirdlərdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində real praktik töhfə verməsi mümkündür.

Ədəbiyyat:

1. Babayev, N. Səfərəlibəy Vəlibəyovun əsərləri və tərbiyə fəaliyyəti / N. Babayev. – Bakı: İdman, 2006. – 311 s.
2. Bağırov, Ə. Görkəmli maarif xadimi Səfərəli Vəlibəyov / Ə. Bağırov // Azərbaycan Məktəbi. – 1962. – № 7. – s. 38.
3. Əhmədov, H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi / H. Əhmədov. – Bakı: Elm və Təhsil, 2014. – s. 211–214.
4. Əhmədov, H.M. Azərbaycan məktəbi / H.M. Əhmədov. – Bakı: Maarif, 2006. – 366 s.
5. Əhmədov, Q. Azərbaycan dili müəllimləri tarixindən: Səfərəlibəy Vəlibəyov / Q. Əhmədov. – Bakı: Maarif, 2007. – 387 s.
6. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / Ə.Ə. Əlizadə. – Bakı: Pedaqogika, 2004. – 411 s.
7. Hacıyev, M. Azərbaycan məktəb sistemində tərbiyə metodları / M. Hacıyev. – Bakı: Elm və Təhsil, 2014. – 224 s.
8. Hacıyev, V. Səfərəlibəy Vəlibəyovun pedaqoji fəaliyyətinin tarixi əsasları / V. Hacıyev // Təhsil və Tədris Elmləri. – 2009. – № 2. – s. 44–52.
9. İbrahimov, V. Azərbaycan məktəblərində təhsil və tərbiyə: Səfərəlibəy Vəlibəyov / V. İbrahimov. – Bakı: İdarəetmə, 2010. – 201 s.
10. İbrahimov, V. Səfərəlibəy Vəlibəyovun tərbiyə sistemi / V. İbrahimov // Təhsil və Tədris Elmləri. – 2015. – № 3. – s. 27–34.

Redaksiyaya daxil olub: 22.09.2025

UOT 74.03

Əfsanə Elşad qızı Əlizadə Hüseynli
Naxçıvan Müəllimlər İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0006-7410-5974
E-mail: AlizadeEfsane@nmi.edu.az
https://doi.org/10.69682/arti.2025.92(5).216-219

İRƏVANDA TƏHSİLİN İNKİŞAFINDA LƏK-LƏK JURNALININ ROLU

Afsana Elshad Alizadeh Huseynli
doctorial student in the program of doctor of philosophy
at Nakhchivan Teachers' Institute

THE ROLE OF LAK-LAK JOURNAL IN THE DEVELOPMENT OF EDUCATION IN IRAVAN

Афсана Эльшад гызы Ализаде Гусейнли
докторант по программе доктора философии
Нахчыванского Института Учителей

РОЛЬ ЖУРНАЛА «ЛЕК-ЛЕК» В РАЗВИТИИ ОБРАЗОВАНИЯ В ИРЕВАНЕ

Xülasə. Qədim Azərbaycan torpaqlarından olan İrəvanda maarif və mədəniyyətin inkişafında Azərbaycan ziyalıları önəmli rol oynamışdır. Bu şəhər dövrünün aparıcı elm mərkəzlərindən biri olmaqla yanaşı, həm də maariflənmə hərəkatının mühüm ocaqlarından hesab edilirdi. İrəvanda pedaqoji mühitin formalaşmasında savadlı Azərbaycan ziyalılarının və elm adamlarının rolu danılmazdır. Bu məqalə "Lək-lək" satirik jurnalının Azərbaycan maarifçiliyi və mətbuat tarixi baxımından önəmini araşdırır. "Lək-lək" jurnalı "Molla Nəsrəddin" ənənələrinə sadiq qalaraq, Azərbaycanda milli təhsilin və ana dili məktəblərinin inkişafını təbliğ etmişdir. Jurnal satirik dillə geriliyi, savadsızlığı tənqid etməklə yanaşı, eyni zamanda cəmiyyətdə gedən siyasi və sosial proseslərə işıq tuturdu. Tədqiqatın aparılmasında əsas məqsəd jurnalın nəşr olunduğu dövrün ictimai və siyasi mühitini, jurnalın məzmununun cəmiyyətə təsirini və maarifçilik ideyalarının yayılmasında oynadığı rolu dəyərləndirmək olmuşdur.

Bu araşdırmada "Lək-lək" jurnalının maarifçilik və təhsil sahəsindəki rolunu təhlil etmək üçün keyfiyyət tədqiqat metodlarından istifadə edilmişdir. Araşdırma əsasən tarixi-sosioloji yanaşma üzərində qurulmuş, mənbə analizi metodu ilə jurnal nömrələri, dövrün ictimai və siyasi vəziyyəti, habelə Azərbaycan mətbuat tarixindəki rolu öyrənilmişdir. Tədqiqat çərçivəsində jurnalın satirik məzmunu və onun ictimai dəyişikliyə təsiri diskurs analiz vasitəsilə araşdırılmış, eyni zamanda maarifçilik ənənələri baxımından qiymətləndirilmişdir. Habelə, jurnalın dövründəki sosial-mədəni şəraiti, onun özünəxas səciyyəvi cəhətləri və milli kimliyin formalaşmasına təsiri üçün mətbuat tarixində aparılan araşdırmaların nəticələrinə istinad edilmişdir.
Açar sözlər: *Elm, Azərbaycan dili, Lək-Lək, Qərbi Azərbaycan, maarifçilik.*

Abstract. The socio-political and cultural changes that took place in Yerevan at the end of the 19th century, the publishing of textbooks and books by prominent educators in the Azerbaijani language were among the interesting events of that period. Those publications had a positive impact on the lives of Azerbaijanis living in Yerevan and surrounding areas.

The article talks about the struggle of "Lek-Lek", our first Turkish-language press magazine published in Western Azerbaijan, and its supporters for the development of education, the influence of the magazine on the ideas of progress, freedom and democracy of that period, and the delivery of literary thought to readers in the form of satire and humor. The activity of the founder of the magazine, Jabbar Askarzadeh, in the environment of Yerevan, is relevant both as a historical experience and as a factor in the enrichment of the landscape of our pedagogical thought, and deserves to be the subject of new researches.
Key words: *Science, Azerbaijani language, Lak-Lak, West Azerbaijan, enlightenment.*

Аннотация. Азербайджанская интеллигенция сыграла важную роль в развитии образования и культуры в Иреване, одном из древнейших азербайджанских краев. Этот город считался одним из ведущих научных центров своего времени, а также одним из важных очагов просветительского движения. Роль образованных азербайджанских интеллигентов и ученых в формировании педагогической среды Еревана неоспорима.

В данной статье рассматривается значение сатирического журнала «Лек-Лек» в истории азербайджанского просвещения и печати. Журнал «Лек-Лек», оставаясь верным традициям «Моллы Насреддина», способствовал развитию национального образования и школ на родном языке в Азербайджане. Журнал, наряду с критикой отсталости и неграмотности в сатирической форме, также освещал политические и социальные процессы, происходившие в обществе.

Основной целью проведения исследования была оценка общественно-политической обстановки периода издания журнала, влияния содержания журнала на общество и роли, которую он играл в распространении идей просвещения. В данном исследовании были использованы качественные методы исследования для анализа роли журнала «Лек-Лек» в сфере просвещения и образования. Исследование основывалось преимущественно на историко-социологическом подходе, а тематика журнала, общественно-политическая ситуация того периода, а также его роль в истории азербайджанской прессы изучались с помощью метода источниковедческого анализа. В рамках исследования сатирическое содержание журнала и его влияние на социальные изменения были изучены посредством дискурс-анализа, а также с точки зрения традиций просвещения. Кроме того, были привлечены результаты исследований, проведенных в области истории прессы, для оценки социально-культурных условий периода существования журнала, его уникальных особенностей и влияния на формирование национальной идентичности.

Ключевые слова: *наука, азербайджанский язык, Лек-Лек, Западный Азербайджан, просвещение*

Qədim Azərbaycan torpağı olan İrəvanda maarifin, mədəniyyətin inkişafı uğrunda xalqımızın peşəkar müəllimləri, elm adamları, ictimai xadimləri vətəninə və xalqına layiqincə xidmət etmişlər. Həmin ziyalılarımızın sayəsində Azərbaycanın aparıcı elm mərkəzi İrəvan şəhəri olmuşdur. Məhz buna görə də, mədəniyyətimizin, milli təhsilimizin inkişafında və öyrənilməsində İrəvanın maarifçiliyinin, İrəvanda nəşr olunan mətbuat orqanlarının xüsusi əhəmiyyəti vardır.

İrəvanda pedaqoji mühitin formalaşmasında Azərbaycanın görkəmli elm xadimlərinin, savadlı, elmli ziyalılarımızın rolu danılmazdır. Görkəmli maarifçilərimizin tükənməz səyi nəticəsində bir çox yerli qəzet və jurnallar işıq üzü görmüşdür. İrəvanda bədii fikrin, ictimai-siyasi mühitin canlanmasında və inkişafında bir sıra mətbuat orqanlarının mühüm rolu danılmazdır. Onlardan biri də "Molla Nəsrəddin" jurnalının ənənələrinə daim sadiq qalan, özünü onun davamçısı adlandıran, ilk türk dilli mətbuat abidəsi kimi İrəvanda nəşr olunan "Lək-lək" (Leylək) satirik jurnalıdır. Jurnal nəşr olunduğu müddət ərzində Azərbaycanda milli təhsilin, ana dilli məktəbin və maarifin inkişafına xidmət etmiş, jurnalın əsas ideyası azadlıq, tərəqqi və demokratiya olmuşdur. "Lək-lək" çi maarifçilər də sosial mənşəcə sadə, kasıb və yoxsul kütləyə müraciət edən, daim onların yanında olduqlarını hiss etdirən mütərəqqi ziyalılar idilər. "Molla Nəsrəddin"də olduğu kimi, "Lək-lək"də də ən çox əhəmiyyət və diqqət verilən məsələlər, ilk növbədə çatışmazlıqlar, dini-xurafat, siyasət, maarif, ədəbiyyat, xüsusən də gənc nəslin təhsili və qadınlara münasibət müəyyən qədər öz həllini tapmışdır. Jurnalın redaktoru Cabbar Əsgərzadənin əsas məqsədi satirik dillə İrəvanın mədəni mühitini, məktəbsiz qalan kənd və şəhərlərini acı gerçəkliyi ilə əks etdirmək idi.

Xələfi "Molla Nəsrəddin" kimi "Lək-lək" də satirik yumor dili ilə geriliyi, savadsızlığı daim tənqid hədəfinə çevirmişdir. Jurnalın bütün nömrələrinin üz qabığında abunə qiyməti və mündəricatı və s. ilə yanaşı, yazıların qəbulu üçün bir neçə şərt də qoyulurdu. Onlardan biri də gələn yazıların açıq türk dilində olması idi. Bu yolla onlar ana dilinin inkişafına öz töhfələrini verirdilər. Ana dilinin inkişafı eyni zamanda ana dilli təhsilin, maarifin, elmin inkişafı demək idi. Tək təhsil uğrunda yox eyni zamanda siyasi-demokratik mövzuları da ürək ağrısı ilə dilə gətirən jurnal ermənilərin xalqımıza, soydaşlarımıza etdiyi qəsdləri, haqsızlıqları da açıqca tənqid atəşinə tutmuşdur.

Köhnə üsullu məktəblərin artıq gənclərə fayda vermədiyini, yeni üsullu məktəblərə ehtiyac olduğunu və bu məktəblərdəki qüsurları,

çatışmazlıqları satirik dillə xalqa çatdıran jurnalın maarifçiləri təhsil və inkişaf məsələlərini daim diqqət mərkəzində saxlamış, xalqımızın cəhalətini ürək yanğısı ilə dilə gətirmişlər.

Təhsillə bağlı satirik yazılar daha çox atanın oğlu ilə, ananın qızı ilə söhbəti, şəklində verilmiş və övladlarını təhsil, elm, məktəb bəlasından xilas etməyə çalışan valideynlərin onları doğru yola çəkmək üçün dəridən-qabıqdan çıxmasını dilə gətirmişlər. Ataların oğlunu mərd, yolkəsən, qumarbaz, arvaddöyən kimi görmək arzusunu, anaların qızlarını pullu, yaşca ondan böyük, şivə saqqalı, imanlı, mömin Hacı Səfərlərə vermək arzusunu dilə gətirmişdir. Həmin yazılar vasitəsilə təhsilin cəmiyyət üçün əhəmiyyətini göz önünə qoymuş və elmin xalq üçün nə qədər əhəmiyyətli olduğunu sətiraltı fikirlərlə çatdırmışdır. Bizə elmli cəmiyyət ona görə, lazımdır ki, atalar oğlunun qumarbaz yox, təhsilli bir vətənpərvər igid olmağını arzulasın, analar qızlarını ərə verməyi yox, cəmiyyətinə faydalı, gələcəyin təhsilli anası olmağı arzulasın.

Jurnalın ikinci nömrəsinin "Ədəbiyyat" adlı satirasında Həzif bir atanın oğluna nəsihətində, məktəbdən heç kimə xeyir gəlmədiyini, yolkəsən olmağın faydalarını satirik dillə aşağıdakı kimi yazmışdır:

Amandır, eil məktəbdən demə bir söz mənə, oğlum,
Zərərdən başğa şey yox ta gələ ondan sənə, oğlum.

Mənim sən bircə oğlumsan, qolumsan,
pəhləvanımsan,
Səni məktəb sıxar, oğlum, mənim şiri-jiyanımsan.
Əzizim, nuri-didəm! Qəmküsarım. Ruhi-canımsan,
Məktəbdən gəlib insana yüz dərd-bala, oğlum.
Amandır, eil məktəbdən demə bir söz mənə, oğlum.

Qoçaq ol, rəhrəvan ol, qorxma div, əjdəhalardan,
Düşünmə saqma canin, göylərə qalxan nölərdən,
Gedib yolkəsənnən talan gətir xandan, gədalardan,
Başından harda görsən, bas fəqir, binəva, oğlum.
Amandır, eil məktəbdən demə bir söz mənə, oğlum [1].

Jurnalın onuncu nömrəsində isə yenə "Ədəbiyyat" "Ana və qız" satirasında yazılır:

Sözümü mənim yaxşı dinlə, qızım,
Sənə bir gözəl, nazlı ər tapmışam.
-Ana, getmirəm, getmirəm, getmirəm!
Özüm ki mənim elimli bir qızam,
Özümə də bir alim nər tapmışam.
-Qızım vermirəm, vermirəm, vermirəm!
-Bu çox pulludur, mallıdır, ballıdır,
Yağun salıbdır, şivə saqqallıdır.
-Ana, uymaram, uymaram, uymaram! [1]

Jurnalın ikinci nömrəsinin "İrəvan xəbərləri"nin I hissəsində isə milli məktəbin açılması məsələsinə toxunur, ana dilli təhsilin əhəmiyyəti acı bir dillə ifadə edilir.

"Hələ cəmiyyəti-xeyriyyə açacağı milli məktəbin xüsusunda heç bir yerdə əlaqə dutmayır. Hələ də məsələ ikiüzlü və rəylər müxtəlifdir; ayə o məktəbdə rus dilinə əhəmiyyət verməli ki, oradan çıxan şagird gimnaziyaya gedə bilsin. Yainki qonşumuz ermənilərin (Duxovni seminariyası) kimi olsun ki, bütün oranı qurtaran şagirdləri heçbircə yerə qəbul etməsinlər, aclarından ölsünlər.

Sual-istezaya nə səbəb olur?

Cavab-Arif bir söz olmasa 2 söylə qanar" [1].

Həmin dövrdə ana dilli məktəbin və ana dilli dərsliyin azlığına görə azərbaycanlı maarifçilərin işi nə qədər ağır və məsuliyyətli idi. Jurnalın ətrafında toplanan maarifpərvər ziyalılarımız çox yaxşı bilirdilər ki, cəmiyyətin hər bir üzvünün şəxsiyyət kimi formalaşması və inkişafı məhz təhsildən başlayır, təhsil və tərbiyə isə məktəbdən başlayır. Məhz bu səbəbdən yeni ana dilli məktəblərin açılması üçün əllərindən gələni edir, gənc nəsli elmə yönəldirdilər. "Lək-lək"in qələm sahibləri öz qüvvələrini xalqın mədəni geriliyinin aradan qaldırılması, maarifli cəmiyyət yaranması yolunda mübarizəyə sərf edirdilər. Qərbi Azərbaycanda öz xalqının gözünün açılmasına, onun milli şüurunun formalaşmasına xidmət etməyə çalışan jurnalın ömrü az olsa da o müəyyən mənada məqsədinə nail oldu. Jurnal son günədək xalqına, vətəninə layiqincə xidmət etmişdir.

İrəvanda ilk Azərbaycan dilindəki mətbuat abidəsi "Lək-lək" "Molla Nəsrəddin" ənənələrinə sadiq qalaraq xalqa səsləniş öhdəliyini öz üzərinə götürmüş sayılırdı. "Lək-lək" in xalq qarşısındakı xidmətləri tarixi əhəmiyyət daşıyır. Çünki jurnal nəşr olunduğu müddətdə azadlıq, tərəqqi, demokratiya ideyalarını layiqincə təmsil edirdi. O bu əhatəli məzmunu sayəsində azərbaycanlılar içərisində tanınan nəşrlərdən biri oldu.

Tədqiqatın araşdırılmasında ilk növbədə tarixi-mənbəşünaslıq metodu tətbiq olunmuşdur.

Bu çərçivədə "Lək-lək" jurnalının mövcud nömrələri, o dövrdə dərc olunan digər Azərbaycan və xarici mətbuat nümunələri, arxiv materialları, eləcə də dövrün maarifçilik hərəkatı ilə bağlı tədqiqatlar araşdırılmışdır. Bu metod sayəsində jurnalın nəşr olunduğu dövrün tarixi konteksti daha ətraflı öyrənilmiş, jurnalın dövrün ictimai və siyasi həyatına təsiri müəyyən edilmişdir.

Bundan əlavə, diskurs analizi metodu istifadə olunaraq jurnalın məqalələri, satirik yazıları və maarifçilik ideyaları araşdırılmışdır. Jurnalın dil və üslub xüsusiyyətləri, onun hansı ictimai qruplara xitab etməsi, tənqid etdiyi mövzular və təqdimetmə forması təhlil edilmişdir. Xüsusilə, "Lək-lək" jurnalında milli kimlik, təhsil və ictimai tənqid mövzularının necə əks olunduğu araşdırılmışdır.

Tədqiqatda həmçinin sosioloji yanaşma tətbiq edilmişdir. Jurnalın dövründəki ictimai və siyasi vəziyyəti daha dərindən dərk etmək üçün maarifçilik hərəkatının o zamankı sosial quruluşdakı rolu, milli məktəblərin inkişafı və jurnalın bu prosesə təsiri nəzərdən keçirilmişdir. Bunun üçün dövrün təhsil sistemi, o cümlədən köhnə üsullu və yeni üsullu məktəblər arasındakı fərqlər araşdırılmış, ana dilli təhsilin yayılmasında jurnalın rolu qiymətləndirilmişdir.

Eyni zamanda mətbuat tarixi metodu tətbiq edilərək jurnalın Azərbaycan mətbuat tarixindəki mövqeyi araşdırılmışdır. Jurnalın "Molla Nəsrəddin" ənənələrini davam etdirməsi, onun digər dövri nəşrlərlə müqayisədə fərqli və ya oxşar cəhətləri müəyyən edilmişdir. Bunun üçün həmin dövrdə nəşr olunan digər mətbuat orqanları ilə "Lək-lək" jurnalının ideya və üslub baxımından müqayisəli təhlili aparılmışdır [4].

Bu metodlar əsasında aparılan araşdırma nəticəsində "Lək-lək" jurnalının Azərbaycan maarifçiliyi və milli təhsilin inkişafında oynadığı mühüm rol daha sistemli və obyektiv şəkildə qiymətləndirilmişdir.

Aparılan tədqiqat nəticəsində məlum olmuşdur ki, "Lək-lək" jurnalı XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan maarifçiliyinin və milli mətbuat tarixinin mühüm bir hissəsini təşkil etmişdir. Jurnalın fəaliyyəti dövründə əsas məqsədi cəmiyyətdə maarifçilik ideyalarını yaymaq, savadsızlığı və geriliyi tənqid etmək, milli kimliyin formalaşmasına töhfə vermək olmuşdur.

Tədqiqat nəticəsində diskurs analizi, tarixi-sosioloji yanaşma və mənbəşünaslıq metodları vasitəsilə jurnalın məqalələrində istifadə olunan satirik ifadələrin, dil xüsusiyyətlərinin və ideoloji mövqeyinin dövrün sosial və siyasi konteksti ilə sıx bağlı olduğu müəyyən edilmişdir. Jurnalın milli dilin inkişafına verdiyi töhfə, yeni üsullu məktəblərin yaradılmasına yönəlmiş çağırışları və xalq arasında maarifçiliyin təşviqi baxımından mühüm əhəmiyyət daşıdığı aşkar olunmuşdur.

Problemin aktuallığı. Təhlil metodu tətbiq olunaraq jurnalın çap edildiyi tarixi dövrün sosial, siyasi və mədəni şəraiti nəzərə alınmışdır. "Lək-lək" jurnalının dövrün əsas ictimai problemlərinə yanaşma tərzi, maarifçi ziyalıların bu nəşr vasitəsilə hansı ideyaları təbliğ etməyə çalışması və jurnalın maarifçilik baxımından təsiri kontekstual olaraq dəyərləndirilmişdir.

Problemin elmi yeniliyi. Araşdırma göstərir ki, jurnalın satirik üslubu vasitəsilə cəmiyyətin sosial və təhsil sahəsindəki çatışmazlıqlarını tənqid etməsi onu maarifçilik hərəkatının önəmli bir vasitəsinə çevirmişdir. "Lək-lək" təkcə təhsil problemlərini gündəmə gətirməklə kifayətlənməmiş, həm də qadın hüquqları, dini xurafat, sosial ədalətsizlik və milli şüurun inkişafı kimi məsələlərə toxunmuşdur. Bu da onun maarifçi ziyalılar tərəfindən böyük əhəmiyyət daşıyan bir nəşr olduğunu təsdiqləyir.

Problemin praktik əhəmiyyəti. "Lək-lək" jurnalı qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq dövrünün mühüm mətbu orqanlarından biri kimi xalqın maariflənməsi və milli şüurun formalaşması işində əhəmiyyətli rol oynamışdır. Onun maarifçilik və milli təhsil məsələlərinə dair irəli sürdüyü fikirlər XX əsr Azərbaycan mətbuatında davam etdirilmişdir ki, bu da jurnalın təsirinin uzunmüddətli və dərin olduğunu göstərmişdir.

Ədəbiyyat:

1. Mustafa, N. Y (Nazim Mustafa) İrəvan Şəhəri. -Bakı: Red N Line. MMC-, -2020. -292 s.
2. Məhərrəmov, Z. İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit). - Bakı: Nurlan, -2010, -320 s.
3. Cəfərov, C.Ə. Allahverdiyev C. V. İrəvanda milli maarifçilik mühiti. -Bakı: Şərq-Qərb, -2017, -440 s.
4. Rüstəmov, F. A. İrəvan Müəllimlər Seminariyası və onun məzunları. - Bakı: Elm və təhsil, -2022. -240 s

Redaksiyaya daxil olub: 15.09.2025.

UOT 37.01

Tofiq Vahid oğlu Mehdiyev
Azərbaycan Pedaqoji Universitetinin Şəki filialının dosenti,
tibb üzrə elmlər doktoru,
Əməkdar həkim
E-mail: tofiqhekim@mail.ru
https://orcid.org/0009-0003-3755-8040
https://doi.org/10.69682/arti.2025.92(5).220-224

XXI ƏSRİN XƏSTƏLİYİ: DİABET EPİDEMİYASI VƏ ONUN PROFİLAKTİKASI

Tofiq Vahid Mehdiyev
assistant professor of the Sheki branch of Azerbaijan State Pedagogical University,
doctor of medical sciences, Honored doctor

DISEASE OF THE 21 ST CENTURY: DIABETES EPIDEMIC AND ITS PREVENTION

Тофиг Вахид оглы Мехтиев
доцент Шекинского филиала Азербайджанского Государственного Педагогического Университета,
доктор медицинских наук, Заслуженный врач

БОЛЕЗНЬ XXI ВЕКА: ЭПИДЕМИЯ ДИАБЕТА И ЕЕ ПРОФИЛАКТИКА

Xülasə. Məqalədə Dünya Səhiyyə Təşkilatı (DST), Beynəlxalq Diabet Federasiyası (BDF) və Amerika Diabet Cəmiyyətinin (ADC) son məlumatlarında şəkərli diabetin (ŞD) dayanmadan artmaqda davam etməsi və onun epidemiya xarakter alması rəsmi statistik rəqəmlərlə göstərilmişdir. BDF-nın 2025-ci ilə verdiyi məlumata əsasən dünyada 589 milyon insan (20-79 yaşlarda) diabetlə yaşayır və bu dünya əhalisinin (11.1 %-ni) təşkil edir. Eyni zamanda 252 milyon (42.8 %) insan onlarda diabetin olduğunu bilmədən yaşayır. Azərbaycanda 2024-cü ildə (20-79 yaşlarda) 715,3 min insanda diabet aşkar olunmuş, bu ümumi əhalinin 9,9 %-ni, diabet diaqnozu bilinməyənlərin sayı 33,9 % olmuşdur.

Şəkərli diabetin qlobal miqyasda geniş yayıldığını və artmaqda davam etməsi, özündə ŞD olduğunu bilməyən insanların sayının kifayət qədər çox olması ümumi əhali arasında preventiv müayinələrin aparılmasına ehtiyac olduğunu göstərir. Diabetin ağır fəsadlar törətdiyini nəzərə alaraq ŞD riski və prediabet olan insanlara vaxtında həyat tərzini dəyişmək, fiziki fəallıqla yanaşı sağlam və düzgün qidalanma tövsiyə olunur.

Açar sözlər: *şəkərli diabet, Dünya Səhiyyə Təşkilatı, Beynəlxalq Diabet Federasiyası, Amerika Diabet Cəmiyyəti,*

Abstract. The article presents official statistics from the World Health Organization (WHO), the International Diabetes Federation (IDF), and the American Diabetes Association (ADA) that diabetes mellitus (DM) continues to grow steadily and has become an epidemic. According to the information provided by the IDF for 2025, 589 million people (aged 20-79) in the world live with diabetes, which constitutes (11.1%) of the world's population. At the same time, 252 million (42.8%) people live without knowing that they have diabetes. In Azerbaijan, in 2024 (aged 20-79), 715.3 thousand people were diagnosed with diabetes, which is 9.9% of the total population, and the number of those whose diabetes diagnosis was unknown was 33.9%.

Despite progress in addressing gender

equality, the representation of women in high-level government positions in Azerbaijan remains limited, and the nation is actively working to achieve its SDG targets [1, p. 7]. One such target is addressing the underrepresentation of women in academic leadership, a challenge that persists globally. While significant strides have been made in gender parity regarding higher education enrolment and degree attainment, women remain disproportionately excluded from senior management and decision-making roles in universities and research institutions. This paradox highlights the complexity of gender disparities in academia, where systemic, cultural, and institutional factors intersect, hindering women's career progression.

This research explores the persistent underrepresentation of women in academic positions within higher education institutions in Azerbaijan.

Scientific Propositions:

1. Gender inequality in academia is not solely a result of individual choices but is deeply embedded in institutional structures and societal norms;
2. Systemic barriers, including gender bias in recruitment and promotion, lack of mentorship, and traditional gender roles, hinder women's career advancement in higher education;
3. Institutional practices and policies often fail to adequately support gender equity, particularly at senior academic and leadership levels.

Key Research Findings:

1. Women are well-represented in entry-level academic positions but are significantly underrepresented in senior academic and leadership roles;
2. Contributing factors include unequal access to mentorship and professional networks, implicit bias in promotion processes, and insufficient work-life balance support;
3. Cultural expectations regarding women's roles in family life further limit their professional mobility and leadership opportunities;
4. There is a lack of consistent and enforced gender equity policies within university systems.

Theoretical and Practical Significance. Theoretically, the study expands the discourse on gender and higher education by contextualizing the Azerbaijani experience within broader global patterns of academic gender inequality. It contributes to feminist institutionalism and organizational change theories by showing how gender norms and structures persist in university governance.

Practically, the findings provide clear, evidence-based recommendations for policymakers and university leaders. These include the implementation of gender-sensitive policies, structured mentorship programs, equity-driven promotion criteria.

2. Literature Review

A substantial body of literature has explored the underrepresentation of women in academic leadership, emphasizing systemic, cultural, and institutional barriers. Structural obstacles, such as discriminatory hiring practices and male-dominated informal networks, have been identified as significant factors marginalizing women's participation in leadership roles [2, 67] .

The "leaky pipeline" phenomenon has also been widely studied, illustrating how women progressively leave academic career tracks due to gender-specific challenges, including family responsibilities and limited access to mentorship opportunities [3, 89]. Additionally, gender bias in performance evaluations exacerbates disparities, as women's achievements are often undervalued compared to those of their male counterparts [4, p. 39] .

The societal injustices rooted in gender inequality further deprive women of social status, relegating them primarily to reproductive roles [5, p. 23]. In Azerbaijan, the deeply entrenched patriarchal character of family education, characterized by male authoritarianism in decision-making and social relations, significantly impacts women's social and public activities [6, 26] .

Theoretical Framework

Research aimed at explaining the challenges women face in leadership roles has highlighted three key categories of factors: social barriers, cultural expectations, and structural inequities [3, p. 92] These elements significantly influence women's aspirations and

opportunities for leadership roles.

Women are often expected to embody relational, nurturing, and communal traits, as defined by traditional gender roles [6, p. 50] . According to social role theory, the gendered division of labor shapes both descriptive and prescriptive gender role expectations for individuals' development [3, p. 92]. In contrast, feminist analysis assumes that women's oppression is embedded in their social, structural, and cultural status. Feminist and sociocultural theories are integrated into the study's theoretical framework to understand women's epistemic perspectives and the challenges they face in leadership positions, particularly in educational settings .

Cultural Aspects Hindering Women in Leadership

Cultural factors also play a significant role in hindering women's ability to assume leadership roles. Research by Mollayeva indicates that stereotypes, a lack of role models, and limited training opportunities are among the challenges faced by women leaders globally [5, p. 20]. Additionally, Stead and Eliot's study in the Arab Gulf nations revealed that workplace discrimination, cultural taboos, negative perceptions of working women, and a lack of trust and confidence in female leaders are common obstacles. Similarly, Martin (2011) found that organizational barriers, such as traditional career paths, male-dominated personnel systems, and attitudes from both male employees and women themselves, can impede women's career progression [8, p. 24].

Mollayeva further emphasizes that culture – comprising values, beliefs, customs, and practices tied to the workplace and the wider community – can negatively impact how women leaders perform and their ability to take on constructive leadership roles [9, p. 11-13].

Structural Aspects Hindering Women in Leadership

Women in leadership roles in universities often face structural challenges, such as a lack of empowerment, which hampers their ability to influence decision-making and achieve organizational goals. Empowerment is a crucial factor that enhances an individual's sense of affiliation and belonging to an organization, positively impacting attitudes and fostering a sense of value and respect [5, p. 23] However, structural barriers–rooted in the personal attributes of women leaders as well as their socioeconomic circumstances–may significantly impede their ability to effectively fulfill their leadership roles in higher education institutions.The oppression of women has been a central focus of structural, social, and cultural theories, which aim to understand the systemic nature of gender inequality. Social and cultural norms place women within an interlocking system of gendered expectations, which often leads to disempowerment among leaders in organizations [10, p. 27] .

Gendered Societal and Cultural Norms

Deeply rooted societal and cultural norms significantly shape perceptions and expectations of gender roles, often disadvantaging women's career progression in academia [11, p. 231]. These traditional stereotypes, coupled with the gendered division of domestic and caregiving responsibilities, place greater demands on women, thereby restricting their capacity to meet the intensive requirements of academic leadership. Jaschik observed that "the lack of women in senior positions in universities in many countries that long ago reached gender equity in enrollments" highlights the persistence of systemic barriers beyond mere enrolment parity [12, p. 94]. Work-life balance remains one of the most significant challenges faced by women in academic leadership that women in senior management positions within higher education institutions often grapple with the burden of multiple responsibilities, including societal expectations, family influences, and cultural norms.

3. Methodology

3.1 Research Design

This study uses a qualitative research approach coupled with descriptive quantitative data to investigate the many variables that contribute to the under-representation of women academics in leadership positions in Azerbaijan. The data were collected through an online semi-structured survey conducted between September 2024 and February 2025. A total of 25 female academics from leading Azerbaijani universities participated in the survey.

3.2 Participants

The questionnaire addressed female academics at Azerbaijani institutions Participants came from several universities, including Karabakh University, Azerbaijan State University of Economics, Baku State University, and Azerbaijan University of Languages.

3.3 Data Collection

Data was gathered using a semi-structured online survey delivered through Google Forms. The survey was intended to match the study goals and included both closed-ended and open-ended questions.

4.Results

The survey results highlight that institutional, workplace, and cultural barriers collectively contribute to the under representation of women in academic leadership. A majority of respondents identified gender bias in promotion (88%) and limited leadership networks (76%) as key institutional challenges, alongside weak policy implementation. Within the workplace, family responsibilities (64%) and the lack of female role models (52%) were seen as significant hindrances, although peer support and professional development were valued. Culturally, traditional gender roles (80%) and societal expectations around family were major limiting factors.

Table 1. Summary of Survey Results

Factor	Survey Item	Percentage (%)
Institutional Barriers	Gender bias in promotion	88
Institutional Barriers	Limited access to networks	76
Institutional Barriers	Policy implementation issues	68
Institutional Barriers	Mentorship programs	32
Institutional Barriers	Flexible work arrangements	28
Workplace Dynamics	Family responsibilities	64
Workplace Dynamics	Lack of role models	52
Workplace Dynamics	Professional development	72
Workplace Dynamics	Peer support networks	56
Workplace Dynamics	Decision-making committees	40
Cultural Factors	Traditional gender roles	80
Cultural Factors	Societal expectations	48

5. Discussion

The study's findings underscore the continuous and diverse impediments to women academics' promotion into leadership positions in Azerbaijani institutions. The intersectionality of the barriers identified in this study points to the necessity of nuanced strategies. Generic, one-size-fits-all policies are insufficient to address the unique challenges faced by women from marginalized backgrounds. Instead, tailored interventions that consider specific cultural and institutional contexts are essential [13, p. 10]. These systemic barriers are deeply rooted and require comprehensive solutions that address structural inequities.

5.1 Institutional Barriers

The lack of transparent recruitment and promotion processes emerged as a significant impediment for women aspiring to leadership roles. Many participants highlighted that decision-making in academia is often influenced by informal networks dominated by men, perpetuating exclusivity and bias. These observations align with Morley , who noted that “old boys’ networks” remain a substantial barrier for women in leadership positions. Moreover, the absence of structured mentorship programs exacerbates this challenge, as women are left without critical guidance and advocacy to navigate institutional hierarchies [13, p. 12].

5.2 Cultural and Societal Norms

Cultural and societal norms emerged as

particularly restrictive for women in regions with strong patriarchal traditions. Participants from such areas described how societal expectations around caregiving and domestic responsibilities frequently conflicted with the demands of academic leadership. This finding corroborates Elza Mollayeva's observation that cultural expectations disproportionately burden women, limiting their participation in leadership roles [9, p. 9].

Many respondents reported encountering resistance or skepticism from colleagues and subordinates, driven by entrenched stereotypes about women's leadership capabilities.

5.3 Workplace Dynamics

Workplace dynamics in Azerbaijani universities play an important role in shaping women's professional growth chances. According to the poll results, the most major problems that women academics confront are family obligations (64%) and a dearth of female role models in leadership positions (52%). These findings demonstrate how conventional gender roles continue to affect workplace expectations, with women being seen as primary carers, restricting their availability for leadership roles and other professional obligations.

The lack of female leaders in higher academic administration perpetuates a cycle of under-representation. Without prominent role models, ambitious female academics lack mentoring and direction, thus limiting their leadership potential. This is consistent with the results of Morley and O'Connor, who highlight the significance of role models and networks in overcoming gendered hurdles in academia [10, p. 28].

Furthermore, just 40% of respondents reported serving on decision-making committees, showing that women participate in governance processes to a limited extent. This under-representation limits women's influence on policy and strategic orientations, maintaining gender disparities at the institution level.

Conclusion

This research investigated the under-representation of women in academic leadership roles in Azerbaijan, focusing on institutional impediments, workplace dynamics, and cultural variables.

Recommendations

1. To solve these difficulties, Azerbaijan's higher education institutions must develop comprehensive gender equity programs. The key recommendations include:

2. Creating systematic mentoring and leadership development programs for women.

3. Increasing gender awareness at all levels of university .

Relevance, scientific novelty and applied significance of the topic. The underrepresentation of women in academic and leadership positions in higher education institutions is a problem of urgent and strategic importance in Azerbaijan, as well as on a global scale. Existing gender-based structural barriers, unequal opportunities and socio-cultural expectations have a serious impact on women's academic advancement. In this regard, the topic remains relevant for both the scientific community and institutions that shape higher education policy.

The scientific novelty of the study is that for the first time, a complex and multi-method approach to the issue of women's participation in the higher education system in Azerbaijan is used, from a gender perspective, i.e. the study assesses the current situation not only with statistical indicators, but also based on the experiences of female academics and the analysis of institutional policies. This approach fills the gaps in the existing scientific literature and allows for the application of new theoretical frameworks.

The theoretical significance of the study is that it contributes to international research conducted in the field of gender and higher education from the Azerbaijani context. The results obtained are interpreted in terms of feminist institutionalism and organizational change theories, expanding the possibilities of applying these theoretical approaches at the regional level.

References:

1. Women's Employment in Line with Sustainable Development Goals: The Case of Azerbaijan/ Aliyev, K [and others .] // *Research and Scientific Publishing Journal - Baku:* - 2023. № 1, - pp. 7, 9.
2. Morley, L. Lost leaders: Women in the global academy// -London: Higher Education Research & Development, - 2014. № 33,- p. 67
3. Blackmore, J. Gender matters in educational administration and policy// -London: A feminist perspective, - 2017. № 1.- pp. 89, 92

4. Heyat, F. Globalization and changing gender norms in Azerbaijan // -London : International Feminist Journal of Politics, - 2006. № 8, - s 39
5. Mollayeva, E. A. Gender aspects of pedagogical personnel training// -Baku: Science and Education, - 2021. №2, -pp. 20, 23
6. Aghayeva, K. Women, men and education in Azerbaijan // -Baku: Khazar Journal of Humanities & Social Science, - 2021. №15, - pp. 26, 50
7. Martin, J. L. Succeeding despite inequality, discrimination, and other challenges//Women as leaders in education / -California: ABC-CLIO, LLC Publishers, - 2011. №2, - p. 24
8. Mollayeva, E. A. The essence of gender socialization and the approach of modern concepts to gender-role socialization// -Baku : Journal of Preschool and Primary Education, - 2021. № 2, - s. 9, 11-13
9. O'Connor, P. Gender imbalance in senior positions in higher education: What is the problem? What can be done? / -Dublin: Policy Reviews in Higher Education, -2020. № 4, - pp. 27, 28
10. Madsen, S. R. A perspective on gender in management: The need for strategic cross-cultural scholarship on women in management and leadership// Scribner, R. T. - London : Cross Cultural & Strategic Management, - 2017. № 24, - p. 231
11. Grosz, E. . The practice of feminist theory// -London: Journal of Feminist Cultural Studies, - 2010. №21, -p. 94
12. Morley, L. Women and higher education leadership: Absences and aspirations// -London : Leadership Foundation for Higher Education, - 2013. № 8, - pp. 10, 12

Redaksiyaya daxil olub: 08.09.2025.

UOT 355.233

Amil Seydəmir oğlu Dadaşov
Azərbaycan Respublikası Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunun dosenti
https://orcid.org/0000-0002-9379-0798
E-mail: amilodas@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(5).240-249

HƏRBİ MÜHƏNDİS HAZIRLIĞININ DİDAKTİK LAYİHƏLƏNDİRİLMƏSİ: HƏRBİ TƏHSİLDƏ XÜSUSİ TƏLİM METODLARININ TƏTBİQİ

Amil Seydamir Dadashov

doctorial student in the program of doctor of philosophy
of the Institute of Education of the Republic of Azerbaijan,
associate professor
at Heydar Aliyev Military Institute at the National Defense University,

DIDACTIC DESIGN OF MILITARY ENGINEERING TRAINING: APPLICATION OF SPECIAL TRAINING METHODS IN MILITARY EDUCATION

Амиль Сейдамир оглы Дадашов
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики
доцент Национального Университета Обороны, Военного института имени Гейдара Алиева

ДИДАКТИЧЕСКОЕ ПРОЕКТИРОВАНИЕ ВОЕННО-ИНЖЕНЕРНОЙ ПОДГОТОВКИ: ПРИМЕНЕНИЕ СПЕЦИАЛЬНЫХ МЕТОДОВ ПОДГОТОВКИ В ВОЕННОМ ОБРАЗОВАНИИ

Xülasə. Məqalə hərbi mühəndis hazırlığında xüsusi təlim metodlarından istifadənin didaktik əsasları probleminə həsr edilmişir. Məqalədə hərbi təhsil sistemi üçün mühəndis hazırlığı üzrə xüsusi təlim metodlarından istifadənin nəzəri və praktiki əsasları təhlil edilir. Həmçinin hərbi təhsildə kompleks yanaşma, sistemli analiz və digər metodlarından istifadə etməklə tədqiqat probleminin mövcud nəzəri və praktiki imkanları ilə bağlı elmi ümumiləşdirmələr aparılır. Məqalənin məqsədi hərbi mühəndis hazırlığının didaktik layihələndirilməsi prosesində hərbi təhsil müəssisələrinin milli kadr hazırlığı proqramının təkmilləşdirilməsi, inteqrasiyası və hərbi mühəndislərin müasir dövrün tələblərinə uyğunlaşdırılması üçün xüsusi təlim metodlarının tətbiqinin hərtərəfli öyrənilməsidir.

Açar sözlər: *hərbi təhsil, hərbi institutlar, hərbi mühəndislik, didaktik layihələndirmə, kursantların təlimi, xüsusi metodlar*

Abstract. The article is devoted to the problem of didactic foundations of using special training methods in military engineering training. The article analyzes the theoretical and practical foundations of using special training methods in engineering training for the military education system. Also, scientific generalizations are made regarding the existing theoretical and practical possibilities of the research problem using a complex approach, systematic analysis and other methods in military education. The purpose of the article is a comprehensive study of the application of special training methods for improving and integrating the national personnel training program of military educational institutions in the process of didactic design of military engineering training and adapting military engineers to the requirements of the modern era.

Keywords: *military education, military institutions, military engineering, didactic design, training of cadets, special methods*

Аннотация. Статья посвящена проблеме дидактических основ применения специальных методов обучения в военно-инженерной подготовке. В статье анализируются теоретические и практические основы применения специальных методов обучения в инженерной подготовке для системы военного образования. Также сделаны научные обобщения относительно существующих теоретических и практических возможностей исследования проблемы с использованием комплексного подхода, системного анализа и других методов в военном образовании. Целью статьи является комплексное исследование применения специальных методов обучения для совершенствования и интеграции национальной программы подготовки кадров военных учебных заведений в процесс дидактического проектирования военно-инженерной подготовки и адаптации военных инженеров к требованиям современной эпохи.

Ключевые слова: *военное образование, военные учреждения, военная инженерия, дидактическое проектирование, подготовка курсантов, специальные методы*

Ölkəmizdə həyata keçirilən təhsil islahatlarına dair dövlət direktivlərində hərbi təhsilin ən müasir metodlarla həyata keçirilməsi və beynəlxalq tələblərə uyğun tədrisin təşkil edilməsi mühüm aktuallıq kəsb edir [1]. Bu aktual problemin müvəffəqiyyətli həlli işində hərbi mühəndis hazırlığının didaktik layihələndirilməsi, hərbi mühəndislik sahəsində yaranan yeni ehtiyaclar və tələblər geniş tədqiqatların aparılması fonunda bu aktuallığı daha da artırmış olur.

Bu işdə xüsusi təyinatlı təhsil müəssisəsi kimi Milli müdafiə universiteti və onun nəzdində fəaliyyət göstərən hərbi institutların rolu böyükdür. Belə ki, hərbi institutların qarşısında duran əsas tələblərdən biri müasir bilik, bacarıq və vərdişlərə yiyələndirmə şəraitinə uyğun güclü mütəxəssis hazırlığını reallaşdırmaqdır. Həmçinin konkret peşələr üzrə praktik təcrübəni artırmaq və nəzəri aspektdən çoxşaxəli hərbi elm sahələrinin imkanlarını ehtiva edən güclü proqramların tərtibatına sahib olmaqdan ibarətdir.

Müasir əməliyyatlarda tətbiq olunan texnologiyanın sürətli inkişafı və hərbi mühəndislərin qarşısında duran vəzifələrin daha da mürəkkəbləşdiyi hazırki şəraitdə gənc zabitlərin nəinki mühəndislik prinsiplərinə əsaslanaraq fəaliyyət göstərmələri, həmçinin onların ekstremal və sürətlə dəyişən mühitlərdə öz istedadlarını müvəffəqiyyətlə tətbiq etməni bacarmaları təxirəsalınmaz vəzifələrdəndir. Bu baxımdan məqalənin məqsədi hərbi təhsil müəssisələrində mühəndis hazırlığınının didaktik layihələndirilməsi prosesi üçün, xüsusi metod və yanaşmalardan istifadənin zəruriliyini araşdırmaq, səmərəliliyini müəyyən etmək və tətbiqini əsaslandırmaqdır. Yeri gəlmişkən onu da qeyd etmək vacibdir ki, hərbi ali təhsil müəssisələrinin kursantları üçün təlim prosesinin mahiyyəti hərbi ali təhsilin didaktik əsaslar üzrə öyrənilməsi faydalı sayılır. Mövcud elmi tədqiqatda göstərilir ki, hərbi mühəndis hazırlığında təlimin effektivliyi, didaktik layihələndirmənin məqsədyönlü və strukturlaşdırılmış şəkildə təşkilindən çox şey asılıdır [2]. Zənnimcə hərbi təhsildə xüsusi təlim metodlarından istifadənin didaktik əsaslarını daha ətraflı şəkildə öyrənmək, bu problemin tətbiqi prinsiplərinin düzgün müəyyənləşdirilməsindən ötrü elmi pedaqogikadakı mövcud ümumpedaqoji prinsiplərə istinad etmək daha faydalı sayılmalıdır. Belə ki, hərbi təhsildə istinad olunan prinsiplərin ümumpedaqoji prinsiplərə uyğunlaşdırılması qarşımıza qoyulan məqsədə çatmaq üçün müvafiq hesab edilə bilər. Bir çox tədqiqatçılar hərbi təhsildə xüsusi təlim metodlarından istifadə etmişdirlər. Onlardan Knowles, M. S., Holton, E. F., Swanson, R. A. tədqiqatlarını nümunə göstərmək olar [3]. Sadalananlar modul təliminin kursantların öyrənmə ehtiyaclarına uyğun və səmərəli olduğunu araşdıraraq, bu yanaşmanın hərbi təhsildə xüsusi tətbiq imkanlarını əsaslandırırlar. Bu sahədə digər tədqiqatda simulyasiya əsaslı təlimin mühəndislik təhsili kursantlarının qərarvermə və tətbiqi bacarıqlarına müsbət təsir göstərdiyi qeyd edilir [4]. NATO DEEP (Defence education enhancement programme) tərəfindən təklif olunan təhsil proqramı modeli isə hərbi təhsildə mərhələli təlimin və interaktiv metodların əhəmiyyətini ön plana çəkir [5]. Qeyd edilənlərdən deyə bilərik ki, ədəbiyyat təhlili xüsusi təlim metodlarının hərbi mühəndis hazırlığında tətbiqini pedaqoji cəhətdən tam şəkildə əsaslandırır. Hərbi pedaqoji baxımdan ümumdidaktik prin-

siplər, xüsusi tədris prosesinin qanunauyğunluqlarını araşdırmaqla, tədrisin səmərəli metodlarını, formalarını, vasitələrini və texnologiyalarını, onların inkişafı və təkmilləşdirilməsi yollarını müəyyənləşdirir [6]. Bu problemlərin həlli ilə hərbi ali məktəblərin didaktikası, tədrisin nəzəri və tətbiqi modellərini yaradır ki, bu modellər ali məktəblərin tədris prosesində hərbi müəllimlərin istifadə etdikləri metodik sistemlərdə öz əksini tapır [7]. Tədris metod və texnologiyalarının nəzəri əsası kimi didaktika onlara aid ümumi tələbləri müəyyən edir və yalnız müəyyən konkret tədris fənləri üçün xarakterik olan konkret cəhətləri və şərtləri müəyyən edib həyata keçirmək üçün müəllimləri istiqamətləndirir. Hərbi ali məktəbin didaktikası həm də tədris metodları və texnologiyalarla bağlı məlumatları ümumiləşdirir, bu isə onun nəzəri və praktiki imkanlarını ifadə etmiş olur.

Hərbi təhsil sistemində təlim prosesinin əsas mahiyyəti, kursantların bilik, bacarıq və vərdişlərlə təmin edilməsinin məqsədyönlü, sistemli, mütəşəkkil olaraq həyata keçirilməsini təmin etməkdən ibarətdir [8].

Təlim materialı, hazır biliyin kursantlara "ötürülməsi" prosesi ilə məhdudlaşmır. Təlim prosesi həm də təhsilalanın şəxsiyyətinin formalaşdırılması prosesi kimi başa düşülməlidir [9]. Təlimin məzmununun bütün komponentlərinin hərtərəfli həyata keçirilməsinə ona görə ehtiyac duyulur ki, bu prosesin kursant şəxsiyyətinin hərtərəfli yaradıcı özünü inkişafa yönəldilməsini təmin edir. Bunun üçün təlimin aşağıdakı funksiyalarını yerinə yetirmək lazım gəlir. Bu funksiyalardan birinci kursantların xüsusi biliklər sistemi ilə təchiz edilməsi, ikincisi gələcək hərbi mütəxəssisin bir şəxsiyyət olaraq keyfiyyətlərinin formalaşması və üçüncüsü gələcəyin zabitlərinin intellektual və fiziki gücünün inkişaf etdirilməsidir. Bütün bu funksiyalar bir-birilə üzvi şəkildə bağlıdır və bir-biri ilə əlaqəlidir.

Tədris prosesinin mövcud səviyyələri, onun açıq-aşkar sosial-pedaqoji xarakteri və qanunauyğunluqların hərəkəti ilə, sosial, faktiki pedaqoji və fərdi qaydada tənzimlənir.

- Sosial səviyyə hərbi təhsil müəssisəsində təlimin əsas məqsədi, məzmununu, təşkilini və texnologiyasını müəyyən edən sosial inkişafın ən ümumi qanunları və qanunauyğunluqlarıdır.

- Pedaqoji qanunauyğunluqlar səviyyəsi təlimin strukturunu müvafiq bilik və bacarıqlara yiyələnməklə, onlarda peşəkar əhəmiyyətli keyfiyyətləri inkişaf etdirməklə tənzimləyir [10].

- Fərdi səviyyədə kursantların inkişaf etdirilməsi üçün hərbi təhsildə məqsədyönlü işlərin aparılması zəruridir. Buna zərurət olaraq zabitlərlə kursantlar arasında yaranan bir sıra ziddiyyətlərin aradan qaldırılması kimi fərdi yanaşmalara ehtiyac duyulur. Burada tədris təminatının çatışmazlığı ilə bağlı yaranan bəzi (subyektiv) çətinlikləri və təlim prosesinin hərəkətverici qüvvəsi kimi çıxış edən obyektiv zəruri ziddiyyətləri ayırd etmək lazımdır [11]. Professor Nurəddin Kazımov pedaqoji proseslərin ziddiyyətlərini daxili ziddiyyətlər, xarici və ümumi ziddiyyətlər kimi üç növə ayırır [12]. Fikirmizcə, hərbi təhsildə də belə ziddiyətlər özünü göstərir. Hansı ki, belə ziddiyyətlərin aradan qaldırılmasından ötrü müəllim-kursant və kursant-müəllim əlaqələrinin möhkəmləndirilməsi ilə tənzimlənə bilər. Əlbəttə ki, hərbi təhsil müəssisəsində tədris prosesinin özünəməxsus məntiqi tərəfləri var. Bu da müəllim və kursantların birgə fəaliyyətində özünü ehtiva edir. Hansı ki, bu məntiqin əsasında, özünəinam, özünütəhsil və özünüinkişaf elementləri dayanır. Təlimin əsasını kursantların tədris və idrak fəaliyyəti - öyrənilən materialın onların şüurunda əks olunması, onların məlumatları yaradıcı şəkildə dərk etməsi və həm təhsil, həm də peşə problemlərini həll etmək üçün əldə olunmuş biliklərdən praktikada düzgün istifadə edilməsini təşkil edir.

Unutmaq olmaz ki, təlim hərbi təhsil müəssisəsindəki pedaqoji prosesin əsas komponentlərindən biridir. Məhz bu baxımdan təlim prosesi onun müstəqil alt sistemi hesab edilməlidir. Məhz bu səbəbdən didaktik prosesin strukturu müstəqil bir sistem kimi təqdim edilə bilər. O cümlədən, təlimin məqsədləri, məzmunu, subyektləri, texnologiyası, hərbi müəllimin pedaqoji fəaliyyətinin nəticələri və təhsil-idrak fəaliyyəti bu sistemin bir hissəsi kimi əks olunur. Təhsil texnologiyaları təhsil prosesinin planlaşdırılmasının və diaqnostikasının xüsusiyyətlərinin, tədrisin formalarının, üsullarının və vasitələrinin məcmusunu təşkil edir. Hərbi təhsillə bağlı tədqiqat aparan görkəmli mütəxəssislərdən biri olan S.S. Kulkarniyə görə, təhsil texnologiyası qanunların, elm və texnikanın ən son yeniliklərinin təhsil prosesinə tətbiqidir. "Təh-

sil” termini tədrisi, təlimi və elmi biliyin öyrətmənin təlimini ehtiva etdiyi üçün təhsil texnologiyasının əhatə dairəsini daha geniş əks etdirir. Tədris-təlim prinsipləri, nəzəriyyələr, insan resursları, maddi resurslar, təlim-tərbiyə strategiyaları və kütləvi informasiya vasitələri və sair biliklərin məcmusu təhsil texnologiyasının əhatə dairəsinə daxil olur [13].

Kursantların təlim prosesindəki fəaliyyəti təhsil və idrak xarakteri daşıyır və buna görə də təlimin effektivliyi əsasən hərbi müəllimin bu prosesi öz subyektlərinin fəaliyyətinin əsas nümunələrinə uyğun təşkil etmək bacarığı ilə müəyyən edilir. Belə məqsədlər üçün ali hərbi məktəblərin pedaqogikasında təhsil müəssisəsində tədris prosesinin müxtəlif situasiyalarında müəllim və kursantların qarşılıqlı əlaqəsinin təşkilinin xüsusiyyətləri nəzərə alınmaqla təlimin müxtəlif konsepsiyaları hazırlanır. Hərbi təhsildə tədris konsepsiyası dedikdə, tədris prosesinin mahiyyəti, məzmunu, metodologiyası və təşkili, habelə onun həyata keçirilməsi zamanı müəllim və kursantların fəaliyyətinin xüsusiyyətlərinə dair ümumiləşdirilmiş müddəalar və ya baxışlar sistemi başa düşülür [14].

Hərbi təhsildə xüsusi təlim metodlarından istifadənin bir sıra xüsusi metodları mövcuddur.



Təcrübədə bu metodlar nəticə yönümlü yanaşmalar olaraq istifadə edilir. Nəzəri olaraq səmərəli didaktik layihələndirmə prosesi isə hərbi mühəndislik proqramlarının praqmatik biliklərə və müasir texnologiyalara inteqrasiyasını bu sahədə müvafiq metodiki istiqamətlərin verilməsini təmin edir.

Xüsusi təlim metodlarının tətbiqi imkanları

Didaktik layihələndirmə prosesi mühəndislik biliklərinin səmərəli mənimsənilməsinə və peşəkar bacarıqların formalaşmasına kömək edən xüsusi təhsil sisteminin yaradılmasına yönəldilmişdir. Hərbi təhsil müəssisələrində gələcək zabitlərin peşə hazırlığının formalaşmasında, təcrübədə praktiki olaraq müxtəlif metodlar və xüsusi təlim üsulları fəal şəkildə istifadə olunur [15]. Tədris proqramlarının təkmilləşdirilməsi prosesində tövsiyə olunan xüsusi təlim metodlarından biri assosiativ-refleksiv təlim konsepsiyasıdır. Bu konsepsiyanın bəzi nəzəri müddəalarına baxaq.

- Zehni hərəkətlərin tədricən formalaşması nəzəriyyəsi: *problem əsaslı öyrənmə, proqramlaşdırılmış və modul təlim metodlarını özündə cəmləşdirir.* Bunlar ən geniş yayılmış assosiativ-refleksiv öyrənmə konsepsiyasıdır. Bu nəzəriyyəyə uyğun olaraq, təlim prosesi stimullar (qəsdən pedaqoji təsirlər) və reaksiyalar (kursantların idrak hərəkətləri) məcmusu kimi təqdim olunur, buna görə də biliklərin mənimsənilməsi, bacarıqların və şəxsi keyfiyyətlərin insan şüurunda çətinlik dərəcəsinə görə müxtəlif birləşmələr sistemlərinin formalaşması prosesidir [16].

Bu təlim konsepsiyası idrak prosesinin müəyyən məntiqini (strukturunu, mərhələlərini) nəzərdə tutur:

a) tədris materialının qavranılması və idrak vəzifələrinin dərk edilməsi;

b) öyrənilən materialın qavranılması, onun daxili əlaqələri və münasibətlərinin dərk edilməsi;

c) tədris materialını yadda saxlamaq;

d) müəyyən edilmiş biliklərin praktikada tətbiqi.

Tədris materialının qavranılması mərhələsində metodun kursantların öyrənilən mövzunun mahiyyətini və məzmununu dərk etməsinə əsaslanması, yəni mənalı və aktiv olmasını təmin etmək müəllim üçün vacibdir. Kursantların gələcək peşə fəaliyyətləri üçün nəzəri biliklərin praktik əhəmiyyətinə əmin olmaq və onlara maraq oyatmaqda kömək etmək lazımdır. Buna çox vaxt tədris materialının problemli formada təqdim edilməsi-problem əsaslı öyrənmə metodu tətbiq etməklə, əyani vəsaitlərdən istifadə ilə nail olmaq olar.

Tədris materialının başa düşülməsi mərhələsində kursantları orada vacib olanı vurğulamağa, ən başlıcası, səbəb-nəticə əlaqələri qurmağa, öyrənilən faktları və hadisələri müqayisə etməyə təşviq etmək lazımdır. Hərbi müəllim yaxud təlimatçılar bütün bu zehni hərəkətləri kursantlarla birlikdə yerinə yetirdikdə və bununla da yaradıcı intellektual fəaliyyətin müxtəlif üsullarını nümayiş etdirdikdə bu daha faydalı olur [17].

Öyrənilən materialın yadda saxlanması mərhələsində kursantlara heç olmasa, təkcə əzbərləmək deyil, həm də başa düşmək üçün sadə istiqamət vermək vacibdir. Bu metod, biliklərin mənimsənilməsinin məhsuldarlığını əhəmiyyətli dərəcədə artırır və məntiqi yaddaşı inkişaf etdirir.

Biliklərin praktikada tətbiqi mərhələsində əsas məqsəd kimi kursantlarda praktiki bacarıqlar, tələb olunan liderlik və psixoloji keyfiyyətlər formalaşır. Hərbi müəllimin vəzifəsi kursantlara öyrəndiklərinin təlimi mövzularının nəzəri və praktiki əhəmiyyətini, mənasını və məzmununu başa düşməyə kömək etmək, kursantları əqli və fiziki gücün fokuslanması şəraitində tam gücü ilə yerinə yetirməyə təşviq etməkdir. Bəzən belə hallarda kursantlar mövcud biliklərini praktiki tədris və peşə problemlərinin həlli üçün istifadə etməkdə çətinlik çəkirlər. Ona görə də auditoriyada müəllim onlarda nəzəri biliklərini praktikada tətbiq etmək bacarığını inkişaf etdirmələrinə yönəlik, bilik və bacarıqların nümayiş etdirilməsi vacibdir. Bu kursantları nəzəri biliklərdən səmərəli praktiki fəaliyyət üçün istifadə etmək zərurətinə inandırır, nəzəriyyəyə marağı və biliklərini müstəqil şəkildə genişləndirmək istəyini inkişaf etdirir. Bunlar assosiativ-refleksiv öyrənmə konsepsiyasının əsas müddəalarıdır. Onun əsas üstünlüyü kursantların praktik problemlərin həlli zamanı əsas meyara çevrilməli olan böyük həcmdə nəzəri biliklərə yiyələnmək bacarığı kimi çıxış etməsidir. Bu üsulun bir zəif cəhəti də qeyd etmək vacibdir. Bəzən olur ki, bu konsepsiya çərçivəsində hazırlanmış mütəxəssis geniş məlumata malik olsa da, praktikada daha az bacarıqlar sərgiləyə bilir.

Son illərin tədqiqatlarına və vəsaitlərə baxdıqda görürük ki, bu sahədə ali hərbi məktəbdə təlimin bir sıra fəal forma və üsulları hazırlanmışdır. Bu da öz növbəsində analoji konsepsiya çərçivəsində hərbi mütəxəssislərin hazırlanmasının səmərəliliyini xeyli artırmışdır [18-19].

Problemli təlim konsepsiyası–problem əsaslı öyrənmə metodu

Problemli öyrənmənin mərkəzi kateqoriyası problemli situasiyanın yaradılmasıdır. Problemli situasiya koqnitiv çətinlikləri özündə ehtiva edir. Onu aradan qaldırmaq üçün kursantlar yeni biliklər əldə etməli və ya intellektual səylər göstərməlidirlər. Kursantlar tərəfindən öyrənilən, tanınan və onun həlli üçün qəbul edilən problemli vəziyyət problemə çevrilir. Bu cür məqsədyönlü tərtib edilmiş tapşırıqlar toplusu problemli təlimin əsas funksiyalarını təmin etmək üçün nəzərdə tutulmuşdur. Problemli təlim – problem əsaslı öyrənmə metodunda kursantların idrak imkanlarına uyğun olan problemli vəziyyətlərin, problem və tapşırıqların ciddi şəkildə düşünülmüş sistemini əhatə edir.

Bu məqsədlə müxtəlif səviyyələrdə problem əsaslı təlim üçün problemlər təmin edilir:

- birinci səviyyə müəllimin özünün problemli vəziyyəti təhlil etməsi, problemi müəyyənləşdirməsi, problemi formalaşdırması və kursantları müstəqil həll yollarını axtarmağa yönəltməsi ilə xarakterizə olunur;

- ikinci səviyyədə hərbi müəllim kursantlarla birlikdə vəziyyəti təhlil edir və onları problemə aparır, onlar isə müstəqil olaraq problemli məsələni formalaşdırır və həll edirlər;

- üçüncü səviyyə (ən yüksək), problemli vəziyyətin kursantların diqqətinə çatdırılması və

onun təhlili, problemin müəyyənləşdirilməsi, problemin formalaşdırılması və optimal həll yolunun seçilməsi kursantlar tərəfindən müstəqil şəkildə həyata keçirildiyi fəaliyyətdir.

Təlim prosesində tez-tez yaranan problemli vəziyyətlərin aşağıdakı növləri geniş yayılmışdır:

- kursantın mövcud bilik sistemi ilə yeni tələblər (köhnə biliklərlə yeni faktlar, aşağı və yüksək səviyyəli biliklər, gündəlik və elmi biliklər arasında) arasında uyğunsuzluq aşkar edildikdə problemli vəziyyət yaranır;

- mövcud bilik sistemlərindən yeganə zəruri sistemin müxtəlif seçimini etmək lazım olduqda problemli vəziyyətlər yaranır;

- kursantlar üçün problemli vəziyyətlər mövcud biliklərdən istifadə üçün yeni praktiki şərtlərlə qarşılaşdıqda, biliklərin praktikada tətbiqi yollarının axtarışı zamanı yaranır;

- təhsil probleminin nəzəri cəhətdən mümkün həlli yolu ilə seçilmiş metodun praktiki olaraq mümkünsüzlüyü və ya məqsədəuyğun olmaması, habelə tapşırığın yerinə yetirilməsinin praktiki olaraq əldə edilmiş nəticəsi ilə nəzəri əsaslandırmanın olmaması arasında ziddiyyət olduqda problemli vəziyyət yaranır;

- texniki problemlərin həlli zamanı problemli vəziyyətlər sxematik təsvirlərin görünüşü ilə texniki cihazın dizaynı arasında birbaşa uyğunluq olmadıqda yaranır.

Hərbi təhsil müəssisələrində problem əsaslı öyrənmənin-problemli təlimin müvəffəqiyyəti üçün pedaqoji şərtlər kursantların intellektual qabiliyyətlərinə uyğun olan idrak çətinliklərinin yaradılması, onlara problemli situasiyanın mövzu məzmunu üzrə biliklər toplusunun verilməsi, problemli tapşırıqların həllində kursantların əməliyyat bacarıqlarının formalaşdırılması kimi xarakterizə olunur. Bütün bunlar problem əsaslı öyrənmənin yəni problemli təlimin əsas müddəalarını təşkil edir ki, onun əsas üstünlüyü kursantların məntiqi, elmi, dialektik düşünmə qabiliyyətində özünü göstərən, biliklərin həll yoluna keçidinə töhfə verən yaradıcılıq potensialının inkişafıdır.

Proqramlaşdırılmış öyrənmə konsepsiyası.

Hərbi təhsil müəssisələrində proqramlaşdırılmış öyrənmə konsepsiyasının fəal tətbiqinə, təlim texnologiyasının təkmilləşdirilməsinə və inkişafına xüsusi diqqət yetirilir. Bu, kursantların tədris maddi bazasında simulyasiya mərkəzli-simulyator texnologiya cihazından (tədris maşını, kompüter və ya proqramlaşdırılmış dərslik - simulyator) istifadə edərək proqramlaşdırılmış tədris materialını fərdi şəkildə mənimsədikləri təlimdir [20]. Proqramlaşdırılmış təlimin mahiyyəti tədris materialının müəyyən birbiri ilə əlaqəli hissələrə bölünməsi və onların kursantlara ardıcıl olaraq təqdim edilməsindən ibarətdir. Materialın sonrakı hissələrinin öyrənilməsinə keçid yalnız əvvəlkilər mənimsənildikdən sonra həyata keçirilir. Eyni zamanda, hər bir kursanta öz fərdi qabiliyyətlərinə (öyrənmə tempi, hazırlıq səviyyəsi və s.) uyğun olaraq təhsil almaq imkanı verilir [21]. Hərbi təhsildə proqramlaşdırılmış təlimin həyata keçirilməsinin əsas vasitəsi, xüsusi hazırlanmış müasir virtual və artırılmış reallıqların tətbiqini nəzərdə tutan təlim proqramıdır [22]. O, hər bir kursantın müəyyən bilik və ya hərəkət vahidini mənimsəməsinin mikro-mərhələsini təmin edən ardıcıl addımlardan ibarətdir. Proqramın hər bir addımı adətən çərçivələrə ayrılır: öyrənilən bilik və ya fəaliyyət haqqında lazımi məlumatları təmin edən informasiya; müstəqil işi yerinə yetirmək üçün tapşırıq şəklində nəzarət; sonuncuda kursant tapşırığın həllini yoxlayır və yoxlamanın nəticələrinə əsasən növbəti mərhələyə keçmək üçün göstərişlər alır. Bu yolla kursantlar üçün məntiqi və psixoloji cəhətdən əsaslandırılmış hərəkətlər ardıcıllığı təmin edilir. Bu təlimin üstünlüyü təhsil prosesinin fərdiləşdirilməsidir və kursantların təlim nəticələrinin yüksəlməsidir. Aparılan tədqiqatlar göstərir ki, bu nəzəriyyəyə uyğun olaraq kompüter və informasiya texnologiyalarından istifadə həm tədrisin prosesinin inkişafına, həm də kursantların aktivliyini artırmaqla yanaşı, biliklərin daha uzunmüddətli saxlanılmasına və əməli bacarıqların daha dayanıqlı inkişafına müsbət təsir göstərir [23].

Modul təlim konsepsiyası

Modul təlim konsepsiyası müasir pedaqoji yanaşmalardan biri olub, təlim prosesinin strukturlaşdırılmış, məqsədyönlü və dinamik şəkildə təşkilini nəzərdə tutur. Bu konsepsiyanın əsas mahiyyəti, tədris materialının məntiqi, funksional və didaktik cəhətdən tamlığı olan modullara bölünməsi və bu modullar əsasında müstəqil, fərdi və diferensial təlimin təşkilidir. Həmçinin modul təlim konsepsiyasında tələbə özü öyrənməli və müəllim isə onun tədrisini

(həvəsləndirmək, təşkil etmək, əlaqələndirmək, məsləhət vermək və nəzarət etmək) idarə etməyə borcludur. Modul təlim digər pedaqoji konsepsiya və nəzəriyyələrdən tələb olunan bir çox mütərəqqi ideyaları özündə birləşdirir. Təcrübədə məqsəd prinsipinə uyğun olaraq məlumatlandırıcı (elmin əsaslarını öyrənmək üçün), fəaliyyət göstərici (bacarıq və fəaliyyət metodlarının formalaşdırılması üçün) və qarışıq növ modullar istifadə edilir [24]. Xüsusən, proqramlaşdırılmış təlim anlayışından modul təlim müəyyən məntiqdə tətbiq edilən və aydın hərəkətlər prosesində həyata keçirilən tələbə fəaliyyətinin ideyalarını götürür. Kursant modul proqramının mənimsənilməsi prosesində müstəqil olaraq (yaxud hansısa yardımla) didaktik məqsədlərə nail olur. Bu halda, təlim modulu kursantın mənimsəməsi üçün təhsil məzmununu və texnologiyasını birləşdirən məqsədyönlü funksional vahid olan yüksək səviyyəli hədəf proqram sistemi kimi başa düşülür [25]. Proqrama hədəf fəaliyyət planı, məlumat toplusu və didaktik məqsədlərə nail olmaqdan ötrü kursantlar üçün metodiki təlimat daxildir. Bu təlim modulu kursantlar tərəfindən məzmunu, tədris metodları, müstəqillik səviyyəsi və onun inkişaf tempi baxımından bir növ fərdiləşdirilmiş təlim proqramıdır. Modul təlim şəraitində akademik fənnin məzmunu tamamlanmış müstəqil informasiya bloklarında təqdim olunur. Onların hər birinin assimilyasiyası didaktik məqsədə uyğun olaraq həyata keçirilir ki, bu da təkcə öyrənilən məlumatın tələb olunan həcmini deyil, həm də onun mənimsənilmə səviyyəsinin göstəricisini ehtiva edir. Hər bir kursant hərbi müəllimdən tədris materialını ən uyğun şəkildə necə öyrənmək və onu ehtiva edən lazımi mənbələri haradan əldə etmək barədə yazılı metodik tövsiyələr alır.

Modul təliminin əsas xüsusiyyətləri:

1. Müstəqil və çevik struktur: Hər bir modul tədris prosesinin müəyyən bir mərhələsini əhatə edir və digərlərindən nisbətən müstəqildir. Tələbə bu modulu başa vurduqdan sonra növbəti mərhələyə keçə bilər.

2. Fokuslanmış öyrənmə: Hər modul aydın məqsədlərlə və ölçülə bilən nəticələrlə hazırlanır. Məsələn, "Partlayıcı qurğuların zərərsizləşdirilməsi" adlı modul konkret bilik və bacarıqlar üzrə planlanır.

3. Diaqnostik və formativ qiymətləndirmə: Hər modul sonunda qiymətləndirmə vasitəsilə tələbənin həmin mövzu üzrə nə dərəcədə bilik və bacarıq əldə etdiyi yoxlanılır.

4. İntensiv və fərdi öyrənmə imkanı: Modul təlimi fərdi sürətə uyğunlaşır. Kursant öz öyrənmə tempinə görə modulları başa vura bilər (əsasən rəqəmsal informasiya texnologiyaları tətbiq olunan sistemlərdə istifadə olunur).

Hərbi mühəndis hazırlığında modul təlimi aşağıdakı hallarda effektivdir:

- ixtisaslaşdırılmış sahələr üzrə təlimlərdə (məsələn: mühəndis texnikasının idarə olunması, xüsusi mühəndis qurğularının quraşdırılması);
- tətbiqi bacarıqların inkişafı üçün (simulyasiya və sahə təlimləri şəklində);
- təhlükəli və yüksək riskli sahələrdə təlim zamanı kursantın mərhələli hazırlığını təmin etmək üçün.

Modul hazırlığının həyata keçirilməsi kontekstində hərbi müəllimlə və kursantlar arasında qarşılıqlı əlaqə və ünsiyyət formaları dəyişir. Kursant müstəqil olaraq məqsədlər qoymağı, təhsil və idrak fəaliyyətini planlaşdırmağı, onları təşkil etməyi öyrənir, həmçinin əldə olunan nəticələrin özünə nəzarəti və özünü qiymətləndirməsini həyata keçirir. Bu, ona tədris prosesində özünü reallaşdırmaq, bilik və fəaliyyətə yiyələnmə səviyyəsini müəyyən etmək, mövcud boşluqları görmək imkanı verir. Müəllim öz növbəsində kursantın idrak fəaliyyətini həm modullar vasitəsilə, həm də bilavasitə idarə edir, onun nəzarətini və korreksiyasını təşkil edir. Modulların, bir qayda olaraq, çap şəklində təqdim edildiyini nəzərə alsaq, təlimin fərdiləşdirilməsi problemləri hərbi müəllim üçün asanlıqla həll olunur.

Bununla yanaşı, ali hərbi məktəbdə modul hazırlığın tətbiqi müəllimin və kursantların idrak fəaliyyətinin idarə edilməsini təmin edən bir sıra qaydaları bilməsini nəzərdə tutur:

- hər moduldan əvvəl kursantların növbəti modulu öyrənməyə hazırlıq səviyyəsi haqqında məlumat əldə etmək üçün onların bilik və bacarıqlarının daxil olan imtahanının yaxud yoxlamanın keçirilməsi məqsədəuyğundur;
- zəruri hallarda kursantların bilik və bacarıqlarının müvafiq korreksiyasını təşkil etmək;
- hər bir tədris elementinin öyrənilməsinin sonunda özünə nəzarət, müəllim tərəfindən nəzarət, nümunə ilə müqayisə və s. şəklində cari və aralıq nəzarətin təmin edilməsi zəruridir;

- modulla iş başa çatdıqdan sonra yekun (çıxış) nəzarəti həyata keçirmək lazımdır.

Təsvir edilənlərlə yanaşı, hərbi təhsil müəssisəsində modul hazırlığı təşkil etmək üçün başqa bir yanaşma var, məsələn, tədris prosesində hərbi müəllimin həll etdiyi ümumi məqsəd və vəzifələrə uyğun olaraq akademik fənn məzmununu modullara bölmək kimi. Bunun üçün bir sıra mövzular və ya hətta bölmələr ayrıca modulda birləşdirilir. Bu da müəllimə, ilk növbədə, fənnin seçilmiş məzmununu konkret formalardan və metodlardan istifadəni nəzərdə tutan müstəqil didaktik sistem şəklində təqdim etməyə imkan verir.

Nəticə

Aparılan tədqiqat və təhlillər əsasında gəlinən qənaət göstərir ki, hərbi ali təhsildə mühəndis hazırlığının didaktik layihələndirilməsi işi, müasir tələblərə cavab verən peşəkar hərbi kadrların formalaşmasında xüsusi əhəmiyyət daşıyır. Tədris proqramlarına xüsusi metodların tətbiqi gənc zabitlərin mühəndislik layihələrinin həyata keçirilməsi fəaliyyətlərinə adaptasiyası, döyüş vəziyyətlərinin modelləşdirilməsi və simulyatorların istifadəsi kimi interaktiv bazalar, nəzəriyyə və təcrübə arasında əlaqəni yaxşılaşdırır, tədris prosesini stimullaşdırır. Bu prosesdə xüsusi təlim metodlarının – o cümlədən simulyasiya əsaslı təlimlərin, modul tədris yanaşmalarının, problem əsaslı öyrənmə texnologiyalarının və interaktiv təlim mühitlərinin tətbiqi, təhsil prosesinin həm nəzəri, həm də praktik baxımdan səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Didaktik layihələndirmə konsepsiyası hərbi mühəndis hazırlığının məqsədyönlü, mərhələli və funksional şəkildə təşkil olunması, kursantların kompleks əməliyyat şəraitlərinə uyğun müasir mühəndislik bilik və bacarıqları ilə təchiz olunmasını təmin edir. Eyni zamanda tədris prosesinin texnologiyalaşdırılması, xüsusi təlim metodlarının tətbiqi, həm də hərbi mütəxəssislərdə adaptiv düşüncə, strateji qərarvermə və liderlik qabiliyyətlərinin inkişafına təkan verir. Hərbi mühəndis təhsili üzrə xüsusi təlim metodlarının didaktik tərtibata uyğun şəkildə inteqrasiyası, yalnız təhsil müəssisələrinin pedaqoji səmərəliliyini artırmaqla deyil, eyni zamanda milli ordunun, müdafiə və təhlükəsizlik sisteminin dayanıqlığını təmin edən bilikli, bacarıqlı və texnologiyaya uyğunlaşa bilən mütəxəssislərin hazırlanmasına xidmət edir. Bu istiqamətdə aparılacaq davamlı elmi-pedaqoji tədqiqata əsaslanan təkmilləşdirmələr və innovativ təlim yanaşmaları, hərbi təhsil sisteminin gələcək inkişafını dəstəkləyən əsas amillərdəndir.

Problemin aktuallığı. Azərbaycanda hərbi mühəndislik təhsilinin müntəzəm olaraq daha yeni, praktik və interaktiv yanaşmaya doğru dinamik pedaqoji inkişaf nümayiş etdirir. Buda məqalənin mövzusunu daha da aktuallaşdırır.

Problemin elmi yeniliyi. Azərbaycan Respublikasında hərbi təhsilin təkmilləşdirilməsi, hərbi mühəndis hazırlığının didaktik layihələndirilməsi işi üzrə xüsusi təlim metodlarının tətbiqi -mühəndislik təhsili sistemini inkişaf etdirir. Tədqiqatda hərbi mühəndis hazırlığında didaktik layihələndirmənin strukturu üçün xüsusi təlim metodlarının məqsədyönlü inteqrasiyası ilk dəfə sistemli şəkildə təqdim olunur. Müasir təlim texnologiyalarına əsaslanan bu yanaşma kursantların tətbiqi bacarıqlarının formalaşdırılmasında yeni pedaqoji metodlar yaradır. Bu sistem hərbi mühəndisləri Azərbaycan Silahlı Qüvvələrinin üzləşdiyi mühəndislik problemlərini həll etmək üçün lazımi bacarıq və biliklərlə təchiz etməsi, mühəndislik üzrə kadrların hazırlanmasında mühüm rol oynayır.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın məzmunu, orada yer alan fikirlər, əsas elmi ideyalar və tədqiqat nəticələri hərbi ali təhsil müəssisələrində təhsil alan kursantlar, dinləyicilər, adyunktlar və hərbi institutların professor-müəllim heyəti üçün xüsusi əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Piriyev, H. Yeni tədris ili və hərbi tədris sistemində yeniliklər – General-leytenant Heydər Piriyevin məqaləsi [Elektron resurs] / URL: https://ordu.az/ru/news/280956/yeni-tedris-ili-ve-herbi-tedris-sisteminde-yenilikler-%E2%80%93-general-leytenant-heyder-piriyevin-meqalesi
2. Dadaşov A. (2023). Designing military engineering training based on the model of didactic justification. Journal of Defense Resources Management. 2023 № 14:2 (281), pp. 87-96.
2. http://www.jodrm.eu/issues/Volume14_issue2/00%20-%20JoDRM_vol14_issue2.pdf
3. Knowles, M. S., Holton, E. F., & Swanson, R. A. (2015). The adult learner: The definitive classic in adult education and human resource development (8th ed.). Routledge. https://www.routledge.com/The-Adult-Learner/Knowles-Holton-Swanson/p/book/9780415739023

4. Dadashov A. S. Integration of new technologies into the teaching methods of engineering education in military institutions // Modern directions of development of information and communication technologies and management tools. 14th International scientific and technical conference, Vol. 2: section 3-6. – Kharkiv, 2024. pp. 92-93.https://nure.ua/wp-content/uploads/2024/tom_2_ict_2024.pdf
5. NATO Defence Education Enhancement Programme (DEEP). (2022). Faculty development curriculum guide. Brussels: NATO. https://www.nato.int/cps/en/natohq/topics_139182.htm
6. Stănciulescu, R. & Beldiman, E. (2017). Didactics of the Military Specialty – Pedagogic process with major implications in the curricular architecture of military leaders' training. international conference knowledge-based organization, 23(1), 2017. 292-297. https://doi.org/10.1515/kbo-2017-0048
7. Sadıqov, F.B. Ümumi pedaqogika. / F.B. Sadıqov. – Bakı: Maarif, – 2023. – 852 s.
8. Piriyev H. K., Həmidov M. P., Həşimov E. Q. (2017). Hərbi təhsildə təlim metodları // Metodiki vəsait. -Bakı: Hərbi Nəşriyyatı, -2017. -52 s.
9. Vedenpää, I., & Lonka, K. (2014). Teachers' and teacher students' conceptions of learning and creativity. Creative education, 5, 1821-1833. http://dx.doi.org/10.4236/ce.2014.520203
10. Mascolo, M. F. (2009). Beyond student-centered and teacher-centered pedagogy: Teaching and learning as guided participation. Pedagogy and the human sciences, 1 (1), 3-27. Retrieved from https://scholarworks.merrimack.edu/phs/vol1/iss1/6
11. Dadaşov, A.S., Hərbi ali təhsildə mütəxəssis hazırlığı: təlim prosesinə müasir texnologiyaların tətbiqi imkanları //- Bakı: Müasir radiotexniki silahlar. Milli müdafiyə universitetinin hərbi elmi tədqiqat institutu-respublika elmi praktik konfransının materialları, -2024. 12–13 mart, - s. 98-101. https://mod.gov.az//images/pdf/7e6c1322c24fc253a2fc08953d193caa.pdf
12. Kazımov, N. Məktəb pedaqogikası: Dərslik / N. Kazımov. - Bakı: Çıraq, -2011. - 440 s.
13. Kulkarni, S.S. Introduction to educational technology: A system approach to micro level education. 1986. Oxford & IBH, New Delhi https://books.google.az/books?id=4wo1ngAACAAJ
14. Stiehm, Judith (2004) "Military education: Past, present, and future,," Naval war college review: Vol. 57 : No. 1 , Article 27. Available at: https://digital-commons.usnwc.edu/nwc-review/vol57/iss1/27
15. Machost, H., & Stains, M. (2023). Reflective practices in education: A primer for practitioners. CBE life sciences education, 22(2), es2. https://doi.org/10.1187/cbe.22-07-0148
16. Pelley, M.E., (2004). The role of associative history in models of associative learning: A selective review and a hybrid model. The quarterly journal of experimental psychology. B, comparative and physiological psychology, 57, 193-243.https://www.researchgate.net/publication/8503942_The_Role_of_Associative_History_in_Models_of_Associative_Learning_A_Selective_Review_and_a_Hybrid_Model
17. Piriyev, H.K., Valehov, S.N. Təhsildə interaktiv təlim metodları. Konkret vəziyyətlərin təhlili (casestudy) metodu. Metodiki vəsait // - Bakı: Hərbi nəşriyyat, -2017. -32 s.
18. Piriyev, H.K., Həmidov, M.P., Həşimov, E.Q. Hərbi təhsildə təlim metodları. Metodiki vəsait // - Bakı: Hərbi nəşriyyat, -2017. -52 s.
19. Ağayev, Ş.O., Talıbov, Ə.M., Həşimov, E.Q. Hərbi təhsildə müasir pedaqoji texnologiyalar. Fənn proqram // -Bakı: Hərbi nəşriyyat, -2016. -28 s.
20. Keontra C. Campbell., & Shuyan Wang., (2023). Military instructors' perspectives on interactive multimedia application in military classrooms. Journal of military learning.46-61.
21. Barreiros dos Santos, L. A., Loureiro, N. A. R. S., do Vale Lima, J. M. M., de Sousa Silveira, J. A., da Silva Grilo, R. J. (2019). Military higher education teaching and learning methodologies: An approach to the introduction of technologies in the classroom. Security and Defence Quarterly, 24(2), 123-154. https://doi.org/10.35467/sdq/108668
22. Dadashov, A.S. The role of information technologies in the didactic process of engineering training in military institutions // Problems of informatization-proceedings of 11-th International scientific and technical conference. Volume 1: sections 1. Kharkiv, 2023. pp. 8-9.
23. Dadaşov, A.S., Hərbi ali təhsildə mütəxəssis hazırlığı: təlim prosesinə müasir texnologiyaların tətbiqi imkanları //- Bakı: Müasir radiotexniki silahlar. Milli müdafiə universitetinin hərbi elmi tədqiqat institutu-respublika elmi praktik konfransının materialları, -2024. 12–13 mart, -s 98-101. https://mod.gov.az//images/pdf/7e6c1322c24fc253a2fc08953d193caa.pdf
24. Vahabova L. Peşə və kvalifikasiya standartların hazırlanması, onların iş analizinin aparılması və modul tipli təlim proqramlarının metodologiyası. https://www.arti.edu.az/noduplоad/editor/files/m%C9%99qal%C9%99.pdf

25. Ağayev, Ş.O., Talıbov, Ə.M., Həşimov, E.Q. Hərbi təhsildə müasir pedaqoji texnologiyalar. Dərslik. I hissə. // - Bakı: Hərbi nəşriyyat, -2016. -152 s.

Redaksiyaya daxil olub: 10.09.2025.

UOT 616.89-008.441.1

Kamilə Qinyaz qızı Kazımova,
Bakı Dövlət Universitetinin
dosenti, psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-6360-2322
E-mail:kamilakazimova@bsu.edu.az
https://doi.org/10.69682/arti.2025.92(5).250-255

Yamən Əziz qızı Vəliyeva
Bakı Dövlət Universitetinin
dosenti, psixologiya üzrə fəlsəfə doktoru
*https://orcid.org/*0000-0002-9133-4166
yamanvaliyeva@bsu.edu.az

XÜSUSİ FOBİYALARIN PSİXOLOJİ TƏRƏFLƏRİ

Kamila Qinyaz Kazimova
associate professor at
Baku State University,
doctor of philosophy in psychology.

Yamen Aziz Valiyeva
associate professor at
Baku State University,
doctor of philosophy in psychology.

PSYCHOLOGICAL ASPECTS OF SPECIFIC PHOBIAS

Камилла Гиньяз гызы Казимова,
доцент Бакинского Государственного Университета,
доктор философии по психологии

Ямен Азиз гызы Велиева
доцент Бакинского Государственного Университета
доктор философии по психологии

ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ СПЕЦИФИЧЕСКИХ ФОБИЙ

Xülasə. Müasir dövrdə insanların gündəlik həyatında fobiyalar getdikcə daha çox müşahidə olunur. Fobiyalar insanlarda özünü fərqli formalarda göstərir. Təqdim etdiyimiz məqalədə xüsusi fobiyalar və onların insanlara təsir formaları geniş müzakirə mövzusu olub. Xüsusi fobiyalar insanların həyatına uzunmüddətli təsir göstərə bilər və bu təsir onların cəmiyyətdəki davranış formalarını intensiv şəkildə pozur. Xüsusi fobiyaların baş verdiyi şəraitdə insanların sosial həyatına çox güclü və mənfi təsir göstərən daimi qorxu hissi yaranır. İnsan qorxduğu obyekt və ya vəziyyətlə qarşılaşanda hər zaman qorxunun yaranması anında narahatlıq keçirir və bu narahatlıq sonralar onlarda psixi pozuntular formasında təzahür edir.

İnsanlar onlarda yaranmış fobiyaları idarə edə bilmirlər. Çünki fobiyalar heç bir məntiqə əsaslanmır və tabe deyillər. Bu tip fobiya yaşayan insanlar narahatlıq və travmatik hisslərə səbəb olan vəziyyətdən qaçmağa çalışırlar. Çünki bu tip fobiyalar insanların gündəlik iş rejimini pozur və eyni zamanda onlara həm psixoloji, həm də fizioloji baxımdan güclü təsir göstərir. Fobik pozuntu keçirən insanlar yaranmış vəziyyəti aradan qaldırmaq üçün düzgün olmayan müxtəlif müalicə üsullarında istifadə edirlər ki, bu da yolverilməzdir. Bu

məqaləni yazmaqda məqsədimiz insanlarda müxtəlif yaş qruplarında fərqli formalarda təzahür edən fobiyaların yaranma səbəblərini araşdırmaq və onların müalicəsinə kömək edəcək təsirli üsullardan praktikada istifadə etməkdir.

Açar sözlər: *fobiya, farmakoterapiya, aqorafobiya, zoofobiya, panik atak, astrafobiya, hemofobiya, travmatologiya, ekspozisiya, koqnitiv davranış, virtual terapiya*

Abstract. In modern times, phobias are increasingly observed in peoples daily lives Phobias manifest themselves in different forms in people. In the article we present, specific phobias and their forms of impact on people were the subject of extensive discussion. Specific phobias can have a long-term impact on peopleᶜ s lives, and this impact intensively disrupts their forms of behavior in society. In conditions in which specific phobias occur, a constant feeling of fear arises, which has a very strong and negative impact on peopleᶜ s social life.When a person encounters an object or situation that he fears, he always feels anxiety at the moment of fear, and this anxiety later manifests itself in the form of mental disorders.

Phobias connot control the phobias that have arisen in them. Because phobias are not based on any logic and are not subject to any rules. People who experience this type of phobia try to escape from situations that cause anxiety and traumatic feelings. Because these types of phobias disrupt peoples daily routines and at the same time have a strong impact on them both psychologically and physiologically. People who experience phobic disorders use various incorrect treatment methods to eliminate the situation, which is unaccertable. Our purpose in writing this article is to investigate the causes of phobias that manifest themselves in different forms in people of different age groups and to use effective methods that will help in their treatment in practice.

Keywords: *phobia, pharmacotherapy, agoraphobia, zoophobia, panic attack, astraphobia, homophobia, traumatology, exposure, cognitive behavior, virtual therapy*

Аннотация. В наше время фобии все чаще встречаются в повседневной жизни людей. Фобии проявляются у людей в разных формах. В представленной нами статье подробно обсуждались специфические фобии и формы их воздействия на людей. Специфические фобии могут оказывать долгосрочное воздействие на жизнь людей, и это влияние существенно нарушает их поведение в обществе. В условиях, когда появляются специфические фобии, возникает постоянное чувство страха, оказывающее очень сильное и негативное влияние на социальную жизнь людей. Когда человек сталкивается с объектом или ситуацией, вызывающей у него страх, он всегда испытывает тревогу в момент страха, и эта тревога впоследствии проявляется в виде психических расстройств.

Люди не могут контролировать возникшие у них фобии. Фобии не основаны на какой –либо логике и не подчиняются никаким правилам. Люди, испытывающие этот тип фобии, стараются уйти от ситуаций, вызывающих тревогу и травмирующие переживания. Поскольку эти виды фобий нарушают повседневную жизнь человека и одновременно оказывают на него сильное психологическое и физиологическое воздействие, люди, испытывающие фобические расстройства, используют различные неверные методы лечения, чтобы устранить ситуацию, а это недопустимо. Целью данной статьи является исследование причин возникновения фобий, проявляющихся в различных формах у людей разных возрастных групп, и применение эффективных методов, которые помогут в их лечении на практике.

Ключевые слова: *фобия, фармакотерапия, агорафобия, зоофобия, паническая атака, астрафобия, травматология, экспозиционное когнитивное поведение, виртуальная терапия*

Xüsusi fobiyalar bir çox diaqnostik xüsusiyyəti sosial fobiyalarla paylaşır. Hər iki pozuntuda da fobik vəziyyət, demək olar ki, həmişə narahatlıq reaksiyasına səbəb olur; bu reaksiya xüsusi fobiyalarda dərhal baş verir və panik atak formasını ala bilər.

Fobiya yaradan simptomlar o qədər güclüdür ki, insanın bütün fəaliyyət sahəsinə təsir göstərir. Bu xüsusilə insanların sosial və peşə fəaliyyətinə mane olur və sonralar onların həyatında problemlər yaradır. Xüsusi fobiyalar insan həyatında müəyyən obyektlərlə əlaqəli şəkildə yaranır və gözlənilmədən insanın özünün də istəmədiyi qorxuları formalaşdırır. Məsələn, təyyarədə uçmaq qorxusu, ilan və həşəratlardan qorxu, lift qorxusu və yüksək bir yerə qalxmaq qorxusu. Hər hansı bir fobiyası olan insanın bəzi hallarda başqa bir xüsusi fobiyaya malik olması ehtimalı yüksəkdir. Buna görə də xüsusi fobiyası olan insanda çox zaman eyni vaxtda bir neçə fobik hallar müşahidə edilir. Xüsusi fobiyalar bir çox diaqnostik əlamətləri (narahatlıqları) sosial fobiyalarla paylaşır. Hər iki fobiya fobik vəziyyət yaradaraq insanlarda ciddi narahatlıqlara səbəb olur. Əsas olaraq bu narahatlıqlar xüsusi fobiyalarda dərhal yaranır və panik atak for-

masında özünü göstərir.

Xüsusi fobiyalar uzunmüddətli və intensiv olur və bu da insanlarda fiziki və psixoloji reaksiyalar yaradır. Yaranmış bu vəziyyət insanların normal həyatına, tədris və ya sosial fəaliyyətinə güclü təsir göstərir.

Xüsusi fobiya müəyyən şəraitə və obyektə qarşı ağla sığmayan, uzun müddət davam edən, yaranmış təhlükə ilə uyğun olmayan qorxu hissini əhatə edir (1.s.56).

Xüsusi fobiyalar qorxunun yarandığı obyektlərə görə formalaşır. Əsas olaraq heyvan tipli fobiyalarda məsələn, yarasalardan, ilanlardan, itlərdən, arılardan, hörümçəklərdən və quşlardan qorxu yaranır.

Təbiət və ətraf mühit faktorlarının təsiri ilə yaranan fobiyalar isə, məsələn hündürlükdən qorxma (akrofobiya), qaranlıqdan, ildırımlı fırtınadan (astrafobiya), sudan qorxu aid edilir.

Qan-iynə-yaralanma tipli fobiyalarda insanlarda qan görməkdən qorxma (hemofobiya), televiziyada qan itirilməsi ilə müşayiət olunan yaralanma səhnələrini izləməkdən qorxma (travmatologiya), bıçaqlardan, diş müalicəsi və tibbi prosedurlardan qorxma kimi hallar yaranır.

Şəraitlə bağlı yaranan fobiyalarda isə bu vəziyyəti keçirən insanda təyyarəyə minməkdən, avtomobil idarə etməkdən, lift və digər qapalı məkanlardan və ruhların olmasından qorxu yaranır.

Bəzi hallarda fobiyası olan insanlarda boğulma, qusma və xəstəliyə səbəb olacaq vəziyyətlərdən qaçmaq şəklində özünü göstərən fobik davranışlar da müşahidə edilir.

Qan-iynə-yaralanma tipli fobiyaya malik şəxslər, həddən artıq güclü olan qan təzyiqi və nəbzin düşməsi nəticəsində huşlarını itirirlər. Eyni zamanda buna səbəb ürəyin döyüntülərinin azalması və sinir sisteminin pozulması halları da ola bilər.

Fobiyalar insanlardan asılı olaraq idarə edilmir. Onlar heç bir məntiqə əsaslanmır və onlara tabe olmur. Bu cür fobiya yaşayan insanlar narahatlıq və travmatik hisslər doğuran situasiyalardan qaçmağa çalışırlar. Əgər onlar bu cür situasiyalardan uzaqlaşmasalar onlarda narahatlığın davam etməsinə səbəb olan və emosional vəziyyət yaradan psixoloji problemlərin yaranmasına gətirib çıxara bilər (2.s.145).

Başlanğıcda hər hansı bir xüsusi qıcıqlandırıcı səbəbindən yaranan fobiyalar zaman keçdikcə daha da güclənə bilər. Məsələn, liftdən istifadə qorxusu zaman keçdikcə qapalı otaqlardan qorxmağa çevrilə bilər. Bəzi fobiyalar isə lap əvvəldən daha geniş situasiyalarla bağlıdır və belə xəstələr narahatlıq doğuran obyektlərdən və vəziyyətlərdən qaçmağa çalışırlar. Bu isə onların həyat tərzində ciddi pozuntulara səbəb ola bilər, məsələn, evdən çölə çıxa bilməmək və s. Bir şəxs birdən çox obyekt və ya vəziyyətə qarşı fobiya keçirə bilər.

Xüsusi fobiyanın növləri bir çox xüsusiyyətlərinə görə fərqlənir. Bu xüsusiyyətlər arasında fobiya yaşayan insanların yaşı, cinsiyyəti, fobiyaların birlikdə müşahidə edilmə modelləri, narahatlığın istiqaməti, fobik reaksiyanın başlanması və davam etməsi proqnozlaşdırıla bilməsi, həmçinin fobik vəziyyətlə qarşılaşarkən yaranan fizioloji reaksiya növü vardır.

Xüsusi fobiyalar ən geniş yayılmış psixoloji problemlər arasındadır. Bu qadınlarda ən çox rast gəlinən, kişilərdə isə ikinci ən çox rast gəlinən problemdir. Xüsusi fobiyalar insanların çoxunda müşahidə edilir, ailələrdə nəsildən-nəslə keçməyə meyilli olduğu görünür və qadınlarda daha çox rast gəlinir.

Aparılmış tədqiqatlara əsasən xüsusi fobiyaların həyat boyu yayılma səviyyəsi çox yüksəkdir. Qadınlarda həyat boyu yayılma səviyyəsi kişilərə nisbətən iki dəfə yüksəkdir. 60 yaşdan yuxarı şəxslər arasında hörümçək və həşərat qorxusu xüsusi fobiyanın ən çox yayılmış formasıdır, bundan sonra pişik və ya it qorxusu, qan və ya yaralanma qorxusu və yüksəklik qorxusu gəlir (3. s.659). Bir araşdırmada şərait və mühit tipli spesifik fobiyaların ən çox yayılmış növ olduğu aşkar edilmişdir, bunu isə heyvan tipli fobiyalar və qan-iynə-yaralanma tipli fobiyalar izləyir. Xüsusi fobiyalar nadir hallarda müalicəyə müraciət etmək üçün əsas səbəb olur.

Qorxu müəyyən obyekt və ya vəziyyətin mövcudluğu və ya gözlənilməsi ilə əlaqəli yaranmalıdır. Ona görə də davamlı və əsassız olmalıdır. İnsan qorxduğu obyekt və ya vəziyyətlə qarşılaşanda hər zaman qorxunun yaranması anında narahatlıq keçirir və bu narahatlıq da panik atak formasında təzahür edir. Bu zaman insan öz qorxusunun həddindən artıq və əsassız olduğunu başa düşür. Amma bəzən uşaqlarda bu baş verməyə bilər. Yaranmış fobik vəziyyətdən insan ya uzaqlaşır, ya da bu vəziyyəti ciddi nara-

hatlıq və sıxıntı ilə keçirir. Yaranmış qorxu zamanı baş verən narahatlıq, sıxıntı və ya uzaqlaşma şəxsin davranışına, normal gündəlik həyatına, işinə, sosial fəaliyyətlərinə və münasibətlərinə çox mühüm dərəcədə mane olur. Nəticədə fobiyanın mövcudluğu şəxs üçün ciddi sıxıntı yaradır (4.s.482).

Xüsusi fobiyaların yaranma səbəbləri mürəkkəbdir. O bir neçə faktoru əhatə edir və bu pozuntu bioloji, psixoloji və öyrənmə mexanizmlərinin qarşılıqlı təsiri nəticəsində formalaşır. Xüsusi fobiyaların ailəvi və ya genetik yolla keçməsi ilə bağlı çox mühüm sübutlar vardır. Xüsusi fobiyası olan şəxslərin birinci dərəcəli qohumları arasında fobiya yayılma səviyyəsi daha yüksəkdir. Xüsusən də əkizlər arasında aparılan tədqiqatlar da müəyyən edilmişdir ki, bir psixi pozuntu əyər bir əkizdə varsa, digərində də olma ehtimalı yüksəkdir. Ən yüksək göstərici isə tək yumurta əkizlərdə müşahidə edilmişdir.

Xüsusi fobiyalar birbaşa öyrənmə təcrübəsi, travmatik təcrübələr nəticəsində yarana bilər; məsələn, avtomobil və ya motosiklet qəzasından sonra idarəetməyə qarşı qorxu, yaxud it dişləməsindən sonra itlərdən qorxunun formalaşması. Qorxu, həmçinin müşahidə yolu ilə öyrənilə bilər; məsələn, hündürlükdən qorxan atasını müşahidə edən uşaqda da hündürlük qorxusu yarana bilər. Eyni zamanda anasının hər hansı bir heyvandan qorxduğunu görməsi uşaqda zoofobiyanın yaranmasına səbəb ola bilər. İnformativ öyrənmə nəticəsində də fobiyalar yarana bilər; məsələn, təyyarə qəzası xəbərlərini izləyən şəxs təyyarədə uçmaqdan qorxu inkişaf etdirə bilər.

Bəzi bioloji amillər də xüsusi fobiyaların yaranmasına və ya davam etməsinə səbəb ola bilər. Şəxs qorxulu vəziyyətlə üzləşdikdə orqanizmdə bir sıra bioloji dəyişikliklər baş verir; məsələn, beyin fəaliyyətində dəyişikliklər, kortizol, insulin və böyümə hormonunun ifraz olunması, ürək döyüntüsünün və qan təzyiqinin artması (4.s.473).

Xüsusi fobiyalar, adətən, panik pozuntu və aqorafobiya kimi digər narahatlıq pozuntuları ilə birlikdə müşahidə olunur. Xüsusi fobiyası olan şəxslərin əksəriyyəti həyatları boyu ən azı bir dəfə olsa psixiatrik pozuntu keçirirlər. Xüsusi fobiyaların müalicəsi vacibdir. Buna görə də xüsusi fobiyası olan şəxslər müxtəlif effektiv müalicə metodları ilə müalicə edilə bilərlər. Müalicənin əsas məqsədi qorxunu, fobik qaçınma davranışlarını və nəzərəçarpan sıxıntını və ya funksional pozuntunu azaltmaqdır.

Ekspozisiya (qorxulan vəziyyətlə üzləşmə) əsaslı terapiya xüsusi fobiyaların müalicəsində açıq şəkildə seçilən əsas metoddur. X-üsusi fobiyası olan xəstələr qorxduqları vəziyyətlərlə təkrar-təkrar qarşılaşdırılırlar. Xəstələr bu vəziyyətlərə qorxu reaksiyasına səbəb olmayana qədər mərhələli şəkildə məruz qalırlar. Qorxu yaradan stimula uzunmüddətli və təkrar edilən canlı ekspozisiya xüsusi fobiyalar üçün ən çox tədqiq edilmiş, effektivliyi sübut olunmuş və birinci seçim müalicə üsuludur. Bir çox araşdırmalar göstərib ki, ekspozisiya əsaslı terapiya xəstələrə qan, qan-iynə-yaralanma, diş prosedurları, hörümçək, ilan, ildırımlı fırtına, uçuş, yüksəklik, su və boğulma kimi müxtəlif xüsusi fobiyaları aradan qaldırmağa kömək edir.

Əksər xəstələr 2-3 saat davam edən ekspozisiya seansları ilə klinik olaraq əhəmiyyətli və uzunmüddətli yaxşılaşma əldə edə bilirlər. Ekspozisiya xəyali və ya real həyat şəraitində ola bilər və real həyat ekspozisiyası xəyali ekspozisiyadan daha təsirlidir. Terapevt tərəfindən idarə olunan ekspozisiya terapiyası, öz-özünə aparılan ekspozisiyadan daha effektiv hesab edilir. Ekspozisiya terapiyası terapevtik mühitdən kənarda da nəticə əldə etmək üçün müxtəlif şəraitlərdə aparılmalıdır.

Virtual Reallıq Ekspozisiya Terapiyasında (VRE) qorxululan vəziyyətlər üçölçülü simulyasiya ilə təqdim olunur və bu üsul ekspozisiya terapiyasının təsirini artıra bilər. (5. s.191)

Virtual Reallıq Terapiyası (VRT) texnoloji cihazlardan istifadə etməklə xəstənin qorxduğu stimula süni, lakin real hiss etdirən virtual mühitdə məruz qoyulmasıdır. Virtual reallıq texnologiyası xəstənin real təhlükə ilə qarşılaşmadan qorxduğu vəziyyətə təhlükəsiz, nəzarət olunan şəkildə məruz qalmasına imkan verir. Virtual Reallıq Terapiyası aqrofobiya (açıq və ya izdihamlı məkan qorxusu), akrofobiya (hündürlük qorxusu), aviafobiya (uçmaqdan qorxu), araknofobiya (hörümçək qorxusu), klaustrofobiya (qapalı məkan qorxusu), qan və iynə fobiyası və s. fobiyalarda xüsusilə daha təsirli olur.

Son dövrlərdə xəstələrə qorxulan obyektləri nümayiş etdirmək üçün video görüntülərdən geniş istifadə olunur. Kompüterlə dəstəklənən

davranış terapiyası (məsələn, kompüter tərəfindən idarə olunan öz-özünə ekspozisiya) də geniş yayılmışdır (3.s.659).

Virtual reallıqdan istifadə edərək xəstələri real həyatda təkrar etmək çətin olan uçuş və yüksəklik kimi vəziyyətlərə məruz qoymaq daha yeni yanaşmadır. Virtual reallığın effektivliyinə dair ortaya çıxan məlumatlar ümidverici olsa da, bəzi tədqiqatlar real həyat ekspozisiyasının hələ də üstün olduğunu göstərir.

Koqnitiv strategiyalar da spesifik fobiyaların müalicəsində ya tək başına, ya da ekspozisiya terapiyası ilə birləşdirilərək tətbiq olunur və müalicəyə əlavə fayda gətirə bilir. Koqnitiv terapiya vasitəsilə xəstə narahatlıq yaradan düşüncələrini müəyyənləşdirməyi və onları daha real düşüncələrlə əvəz etməyi öyrənir (5.s.194).

Bununla belə, təkcə koqnitiv terapiya adətən xüsusi fobiyası olan şəxslər üçün uyğun seçim hesab edilmir. Koqnitiv terapiya heç bir müalicə tətbiq edilməyən vəziyyətlərə nisbətən öz-özünə bildirilən qorxu və qaçınma davranışlarını azaltmaqda daha təsirlidir, lakin canlı ekspozisiyadan daha az effektivdir. Koqnitiv terapiya ekspozisiya əsaslı terapiyaya əlavə olaraq çox az üstünlük təmin edir.

Müxtəlif rahatlama texnikaları-məsələn, nəfəs məşqləri və digər rahatlama məşqləri-xüsusi fobiyası olan şəxslərə stress və fiziki reaksiyalarla daha effektiv mübarizə aparmaqda kömək edə bilər.

Hipnoterapiya vasitəsi ilə də xəstənin şüuraltına yönəlinərək yeni bir inanc sistemi yerləşdirilir. Pasiyent qeyri-şüuri vəziyyətdə qorxusunun aradan qalxdığına inandırılır və ayıldıqdan sonra da eyni inanc sistemi ilə hərəkət edə bilir.

Bitki mənşəli müalicələr də fobiyayanın aradan qaldırılmasında da mühüm rol oynayır. Bir çox insan narahatlıq və qorxularını azaltmaq üçün bitki mənşəli əlavələrdən istifadə edir. Narahatlıq və fobiyalar üçün ən çox istifadə olunan təbii vasitələrə valerian kökü, çobanyastığı və jenşen aiddir.

Kimyəvi dərmanların (farmakoterapiyanın) xüsusi fobiyaların müalicəsində ümumiyyətlə effektiv olmadığı düşünülür. Bununla belə, xüsusi fobiyaların müalicəsində kimyəvi dərmanların rolunu qiymətləndirən araşdırmalar çox məhduddur (5.s.192)

Bu qısa ümumiləşdirmədə xüsusi fobiya ilə bağlı mövcud ziddiyyətli məsələlər; onun yayılması, hazırkı anlayışı, yaranma səbəbləri və inkişaf mexanizmi, diaqnozu və kimyəvi dərmanlarla müalicəsi təsvir edilir.

Xüsusi fobiyaların müalicəsində dərman müalicəsinin davranış terapiyalarından daha az təsirli olduğu göstərilmişdir. Xüsusi fobiyalar zamanı dərmanla müalicə bir o qədər də əhəmiyyətli töhfə vermir.

Həmçinin situasiya tipli xüsusi fobiyalar digər xüsusi fobiya növlərinə nisbətən panik pozuntu ilə daha çox oxşarlıq göstərir. Buna görə də, panik pozuntu müalicəsində təsirli olan dərmanlar situasiya tipli fobiyalarda da təsir göstərə bilər. Amma, qeyd etmək lazımdır ki, dərmanlardan istifadə fobiyası olan insanlar üçün qısamüddətli dövrdə faydalı ola bilər, lakin sonralar riskli halların yaranmasına gətirib çıxarır.

Bununla belə, maddə asılılığı və ya affektiv pozuntusu olan şəxslərdə bir çox dərmanlar əks təsir göstərir. Amma bu dərmanlar gündəlik fəaliyyətlərdə, məsələn, işə qatarla getmək və ya auditoriya qarşısında çıxış etmək kimi hallarda, spesifik fobiya səbəbindən çətinlik çəkən insanlara kömək edə bilər.

Xüsusi fobiyaların müalicəsində ilkin qiymətləndirmə ən vacib komponent hesab olunur. İlkin qiymətləndirmə zamanı müalicə məqsədləri prioritet sıralama ilə seçilməlidir. Bir neçə problemi olan şəxslərdə, ən çox sıxıntı və ya məhdudiyyət yaradan problem əvvəlcə həll olunmalıdır. Bu yanaşma pasiyentin müalicəyə uyğunlaşmasını və müalicə nəticələrini yaxşılaşdıra bilər. (2. s.139)

Ümumiyyətlə qəbul edildiyi kimi, farmakoterapiya xüsusi fobiyaların müalicəsi üçün zəruri və ya uyğun hesab edilmir. Əksər xüsusi fobiyalar üçün qorxulan obyekt və ya vəziyyətə ekspozisiyanı özündə birləşdirən psixoloji müalicə üsulları əsas müalicə seçimidir. Əlavə müalicə elementləri, məsələn qan-iynə-yaralanma fobiyaları üçün tətbiqi gərginlik və tətbiqi relaksasiya və ya daxili bədən hisslərinə qarşı qorxuları olan fobiyalar üçün simptom induksiya məşqləri lazım olduqda əlavə oluna bilər. Müalicəyə başlayarkən pasiyenti müalicə prosesi ilə tanış etmək vacibdir və vurğulanmalıdır ki, müalicənin məqsədi narahatlığı tamamilə aradan qaldırmaq deyil, qorxulan stimullarla sistemli qarşılaşma yolu ilə əlaqəli sıxıntını və qaçınma davranışını minimuma endirməkdir.

Problemin aktuallığı. Müasir dövrdə fobiyanın yaranma səbəbləri və onların insanlara təsiri geniş müzakirə obyekti olmuşdur. Bu baxımdan aparılmış tədqiqatlar fobiyanı müəyyən bir obyektə və ya vəziyyətə qarşı, yaratdığı təhlükə ilə mütənasib olmayan, pozucu qorxu kimi təsvir edir. Fərdin öz psixi pozuntusu barədə özünü tanıması baxımından fobiyaların izahında bəzi hallarda yanlış fikirlərə rast gəlmək olar. Xüsusi fobiyada qorxunun fərqində olmaqdan çox, müəyyən stimula qarşı həddindən artıq təhlükə yüklənməsi baş verir. Təhlükənin fərqində olmamaq isə səhv mühakimədir və xarici bir fenomenin subyektiv qiymətləndirilməsinə əsaslanır. Xüsusi fobiya standart olaraq təhlükə ilə nisbətdə əsassız qorxu hesab olunur və xəstə bu (qorxu/təhlükə) uyğunsuzluğunun fərqində ola və ya olmaya bilər. Buna görə də, qavranılan təhlükə ilə real təhlükə arasındakı fərqin dərk olunması öyrənilməlidir.

Problemin elmi yeniliyi. Xüsusi fobiyalarda, fobik stimula qarşı fiziki qorxu reaksiyası iştirakçının sonrakı koqnitiv mənalandırmasından müəyyən qədər asılı deyil, yəni meyllilik qorxudan müstəqil şəkildə mövcud ola bilər.

Əgər obyekt və ya vəziyyətlə bağlı təhlükə haqqında olan meyllilik çox güclüdürsə, bu, fobik şəxsin stimullarla bağlı inanclarının irrasionallığını qəbul etməsinə mane ola bilər və o, tamamilə öz inancında qəti qalır.

Problemin praktik əhəmiyyəti. Xüsusi fobiyası olan şəxslər həyatlarında ciddi çətinliklərlə üzləşə bilər; məsələn, zəruri tibbi yardımı ala bilməmək, sosial fəaliyyətlərdə məhdudiyyət və işdə məhsuldarlığın azalması kimi hallar baş verir. Belə şəxslər qorxduqları obyekt və vəziyyətlərlə təmasdan qaçmaq üçün həyat tərzlərini dəyişdirirlər. Təhsil və sosial fəaliyyətlərinə təsir göstərən qorxu, narahatlıq və sıxıntılı situasiyalardan uzaqlaşmağa çalışırlar. Bu ağır dərəcəli xüsusi fobiyası olan şəxslər müalicə olunmaq üçün ən əhəmiyyətli yolları axtarırlar.

Xüsusi fobiyalar həm kişilər, həm də qadınlar arasında çox geniş yayılmışdır və cəmiyyətdə və ya iş yerində onların həyat keyfiyyətini pozur. Xüsusi fobiyaların müalicəsində ən təsirli üsul ekspozisiya əsaslı terapiyadır, bunu koqnitiv-davranış terapiyası izləyir. Bununla belə, ənənəvi dərmanlar da xüsusi fobiyalar səbəbindən yaranan qorxu və narahatlığın fizioloji simptomlarını azaltmaqda faydalı ola bilər. Xüsusi fobiyaların müalicəsində tamamlayıcı və alternativ yanaşmalara hipnoz, bitki mənşəli vasitələr və homeopatiya daxildir. Xüsusi fobiyalar şəxsin qorxduğu obyekt və ya vəziyyətin real təhlükəsini qiymətləndirmə bacarığının əhəmiyyətini vurğulayar. Bu, müalicə seçimində də əsasdır, çünki praktikada müxtəlif müalicə üsullarından istifadə edilir.

Xüsusi fobiyalar ciddi sıxıntı və ya müdaxilələrə səbəb ola, hətta peşə və şəxsi funksionallığı poza bilər, amma təsirlənənlərin yalnız az bir hissəsi peşəkar yardım axtarır. Nəticə olaraq demək olar ki, müasir dövrdə xüsusi fobiyaların öyrənilməsi ilə bağlı daha çox tədqiqat işinə ehtiyac vardır.

Ədəbiyyat:

1. Карвасарский, Б.Д. Клиническая психология / Б.Д. Карвасарский. – Москва: – 2004. – 208с.
2. Moors, A., Ellsworth, P. C., Scherer, K. R., & Frijda, N. H. Appraisal theories of emotion // – State of the art and future development. Emotion Review, – London – 2013. 5(2). *12*, – p. 133-155.
3. Reese, H. E., McNally, R. J., Najmi, S., & Amir, N. Attention training for reducing spider fear in spider-fearful individuals// – Journal of Anxiety Disorders, – Rio de Janeiro, Brasil – 2010. 24(7), – p.657-662
4. Ohman, A., & Mineka, S. Fears, phobias, and preparedness: toward an evolved module of fear and fear learning// – Psychological review, – Bahia, Brasil – 2001. 108(3), – p. 483.
5. MacLeod, C., & Mathews, A. Cognitive bias modification approaches to anxiet //Annual Review of Clinical Psychology, – London – 2012. 8, – p.189-217

Redaksiyaya daxil olub: 22.09.2025

UOT 159.9

Gültəkin İbrət qızı İsmayılova
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun
Sosial psixologiya şöbəsinin böyük elmi işçisi,
psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-7740-321X
E-mail: gulya.alibekovaa@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(5).256-259

DEZİNFORMASİYA VƏ KÜTLƏVİ KOMMUNİKASİYANIN PSİXOLOJİ MEXANİZMLƏRİ

Gultakin Ibrat Ismayilova
senior researcher of the department of Social Psychology of
Institute of Philosophy and Sociology of ANAS,
doctor of philosophy in psychology

PSYCHOLOGICAL MECHANISMS OF DISINFORMATION AND MASS COMMUNICATION

Гюльтекин Ибрат гызы Исмаилова
старший научный сотрудник отдела социальной психологии
Института Философии и Социологии НАНА,
доктор философии по психологии

ПСИХОЛОГИЧЕСКИЕ МЕХАНИЗМЫ ДЕЗИНФОРМАЦИИ И МАССОВОЙ КОММУНИКАЦИИ

Xülasə. Məqalədə müasir informasiya mühitində dezinformasiya problemi və onun informasiya-psixoloji təsir vasitəsi kimi rolu təhlil olunur. Xüsusilə, məlumatların yayılmasında istifadə olunan "maşın təbliğatı" və onun dezinformasiya üsulları geniş şəkildə araşdırılır. Həmçinin rəqəmsal dövrdə kütləvi kommunikasiyanın dezinformasiyaya təsirini və onun dinamikası da nəzərdən keçirir. Eyni zamanda, dezinformasiyanın cəmiyyətə, ictimai rəyə və qərar qəbuletmə proseslərinə təsiri və ona qarşı mübarizə yolları müzakirə olunur.
Açar sözlər: *dezinformasiya, kütləvi kommunikasiya, qlobal media, "maşın təbliğatı", rəqəmsal platformalar, informasiya müharibəsi*

Abstract. The article analyzes the problem of disinformation in the modern information environment and its role as a means of information-psychological influence. In particular, it extensively examines the methods of disinformation used in the dissemination of information through "machine propaganda." The study also explores the impact and dynamics of disinformation within mass communication in the digital age. At the same time, the article discusses the effects of disinformation on society, public opinion, and decision-making processes, as well as possible ways to combat it.
Keywords: *disinformation, mass communications, global media, "machine propaganda", digital platforms, information warfare*

Аннотация. В статье анализируется проблема дезинформации в современном информационном пространстве и её роль как средства информационно-психологического воздействия. Особое внимание уделяется "машинной пропаганде" и методам дезинформации, применяемым при распространении информации. Также рассматривается влияние и динамика дезинформации в условиях цифровой эпохи и массовой коммуникации. Наряду с этим обсуждается воздействие дезинформации на общество, общественное мнение и процессы принятия решений, а также возможные пути противодействия ей.
Ключевые слова: *дезинформация, массовые коммуникации, глобальные СМИ, "машинная пропаганда", цифровые платформы, информационная война*

Müasir informasiya cəmiyyətində kommunikasiya prosesləri, o cümlədən kütləvi kommunikasiya, siyasi prosesin müstəqil amilinə çevrilib və cəmiyyətin həyatının bütün sahələrinə ciddi təsir göstərir. Kütləvi kommunikasiyaların rolu və yerinə yetirdiyi ən mühüm funksiyalardan biri bütün cəmiyyətin ətraf siyasi gerçəklik, subyektlərin yeri haqqında təsəvvürlərinin formalaşdırılmasıdır. İnformasiya kanallarının sayının artması, informasiya sıxlığı XXI əsrin istehlakçılarının davranış modellərini də dəyişir. Bu gün daxil olan informasiyanın həcmi artıq onun emalı imkanlarından çoxdur. Psixologiya dilində bu fenomen psixoloji özgəninkiləşmə, birgə fəaliyyət ehtiyacının azalması, fərdin gerçəklikdən uzaqlaşaraq internetin virtual, qapalı dünyasına daxil olması ilə izah edilir. İnformasiya həcminin artması insanların ictimai davranış normalarına riayət etmək istəməməsinə səbəb olur. Xüsusilə, tədqiqatçılar müasir insanın aşağıdakı psixoloji-davranış xüsusiyyətlərini fərqləndirirlər: təhsilin yüksək səviyyəsi, informasiyaya yüksək ehtiyac və yüksək məlumatlılıq, qeyri-sabitlik, yüksək mobillik, qərarların spontanlığı, işdə və istirahətdə fiziki və əqli fəallıq, KİV və reklama inamsızlıq. Hadisələri idarə etmək üçün insanların davranışını idarə etmək kifayət deyil: insanların necə düşündüyünü və hiss etdiyini də idarə etmək lazımdır. İnformasiya məkanında dezinformasiyanın üç növü mövcuddur: 1.Zərərsiz dezinformasiya. Məsələn, jurnalistlərin səhvləri, şayiələr və ya dediqodular. Adətən insanlar bu cür məlumatlara inanır və onu yayırlar, 2. Zərərli dezinformasiya. Bu tip yalan məlumatlar konkret şəxsə, sosial qrupa, təşkilata və ya ölkəyə zərər vurmaq üçün yaradılır, 3.Bir şəxsin və ya təşkilatın reputasiyasına xələl gətirmək üçün yayılan həqiqi şəxsi məlumatlar. Bunlar şəxsi fotolar, yazışmalar ola bilər [5, s. 215].

Reallığın və onun haqqında təsəvvürlərin qurulması-vahid prosesin tərkib hissəsidir. Sosial qruplar və ayrı-ayrı siyasi subyektlər reallığı onlar üçün əhəmiyyətli olan dəyərlər və dünya haqqında təsəvvürlərə uyğun olaraq qavrayırlar. Kütləvi kommunikasiya vasitələri müxtəlif subyektlərə öz fikirlərini ifadə etməyə, əsaslandırmağa, müdafiə etməyə və yaymağa imkan verir. Dezinformasiya kampaniyalarının əsas vasitərindən biri sosial şəbəkələrdir. Bu, onların dünyada nüfuzu, xüsusi şəbəkələr vasitəsilə məlumatların yayılmasının rahatlığı ilə izah olunur. Bu gün dezinformasiya üçün yalnız yuxarıda qeyd olunan platformalardan deyil, həm də mobil rabitə proqramlarından da istifadə olunur. Bu proqramlar sosial şəbəkələrdən bir qədər fərqlənir, çünki onlar əvvəlcə özəl ünsiyyət vasitəsi kimi işlənib hazırlanır [6, s. 214].

İnformasiya təminatının ümumi mənzərəsində ənənəvi KİV və sosial şəbəkələrin qarşılıqlı əlaqəsi mürəkkəb dinamika ilə fərqlənir. Dezinformasiya, yəni yalan və ya təhrif olunmuş məlumatların yayılması informasiya-psixoloji müharibədə çox təsirli vasitə ola bilər. Sosial şəbəkələr ənənəvi KİV-lər vasitəsilə yayılan süjetlərin təhrif edilməsi və şişirdilməsi üçün xidmət edə bilər, media tez-tez sosial şəbəkələrdə müşahidə edilən tendensiyaları əks etdirir. Nəticədə yanlış informasiya dairəsi yaranır və qeyri-dəqiq informasiyaların sayı artır. Hətta informasiyanın sadə təkrarlanması və ya şəbəkədə məlumatların yoxlanılmasının nəticələrinin təsviri belə yalan informasiyanın gələcəkdə yayılmasında səbəb olur. Dezinformasiya təchizatçıları onu yaymaq üçün bir sıra taktiki üsullardan istifadə edirlər. Xüsusilə bu rəqəmsal mühitə aiddir. Bu strategiyaların bir çoxu “maşın təbliğat”ı hesab olunur. Oksford Internet İnstitutu bu terminə aşağıdakı tərifi verir: “sosial şəbəkələr vasitəsilə yanlış məlumatların qəsdən yayılması üçün alqoritmlərin, avtomatlaşdırma vasitələrinin və insan nəzarətinin istifadəsi”. Maşın təbliğatı dezinformasiya materiallarının yayılmasının bir üsuludur. Dezinformasiya yaymaq istəyən şəxslər sosial şəbəkələrdə saxta adlarla saxta hesablar yarada bilərlər. Alqoritmlərin manipulyasiyası – dezinformativ informasiyanı artırmaq üçün sosial media meyllərini manipulyasiya etmək üçün bir strategiyadır [3,s. 137-153].

Alqoritmlərlə manipulyasiya yalan informasiyanın yayılması üçün, ya da vacib informasıyanın yayılmasına qarşı istifadə edilə bilər. "Sosial media botları dezinformasiyanı və ya insanlarla qarşılıqlı əlaqəni sürətlə yayan avtomatlaşdırılmış hesablardır. Bot (ingilis dilində "robot" sözünün qısaldılmış forması; "robot" termini isə çex yazıçısı Karel Čapekin 1920-ci ildə yazdığı "R.U.R." (Rossumun Universal Robotları) pyesindən götürülüb) – insanlar üçün nəzərdə tutulmuş interfeyslər vasitəsilə təkrarla-

nan tapşırıqları yerinə yetirən avtomatlaşdırılmış proqram agentidir. Bir çox botlar məlumatların sürətli yayılması üçün fəaliyyət göstərsə də, bəziləri sosial şəbəkə alqoritmlərini manipulyasiya etmək və istehlakçıların gördüyü məlumatları dəyişdirmək üçün istifadə olunur. Yanlış fikir yaradan materiallara diqqəti cəlb etmək, ictimai müzakirə və dəstək illüziyasını yaratmaq üçün botların şəbəkəsi istifadə edilə bilər. Vizual görünüşlər, şəkillər və ya videoları manipulyasiya etməklə auditoriyanı aldatmaq olar. Son zamanlar yeni şəkillərin dəyişdirilməsi texnologiyası geniş yayılmışdır. Bu, müxtəlif audio və video mənbələrdən toplanan real insanların şəkillərindən istifadə edərək saxta videolar yaratmaqdan ibarətdir. Vətəndaş cəmiyyəti, texnologiya şirkətləri, siyasi partiyalar, hökumətlər və vətəndaşlar artıq dezinformasiyaya qarşı mübarizə üçün bir çox tədbirlər görməyə başlayıblar. Zərər verə biləcək məlumatlarla manipulyasiyadan qorunmaq üçün rəqəmsal təhlükəsizlik tədbirləri tətbiq edilir. Bu, daha çətin parol, iki amilli autentifikasiyanın istifadəsini ehtiva edir [5, s. 216].

Azərbaycan da dezinformasiyadan əziyyət çəkən ölkələr sırasındadır. Əgər 2016-cı ildə hər 40 saniyədən bir kiberhücumların şahidi olurduqsa, 2021-ci ildə bu rəqəm dörd dəfə artmışdır: il ərzində müxtəlif səviyyəli kiberhücumlar hər 11 saniyədən bir baş vermişdir. Təsadüfi deyil ki, ölkəmizə informasiya hücumları məhz 2021-ci ildə fəallaşıb. Bunu Azərbaycanın 44 günlük Vətən müharibəsində nümayiş etdirdiyi hərbi və diplomatik qüdrətin, habelə dövlətimizin fəal fəaliyyətinin məntiqi nəticəsi kimi təhlil etmək daha doğru olardı. Bütün səylərə baxmayaraq, xüsusilə Avropadan gələn dezinformasiya dalğalarının və xarici ideoloji hücumların cəmiyyətin şüuruna və ruhuna mənfi təsiri qısa müddətdə və səmərəli şəkildə minimuma endirilmişdir. Bir çox hallarda ictimaiyyəti lazımi və rəsmi məlumatlarla təmin etməklə operativ cavab tədbirləri görülmüş, bununla da ideoloji cəbhədə sosial həmrəylik, xalq - lider - ordu birliyi təmin edilmişdir [1, s. 215].

Dezinformasiyanın əsas məqsədi, qeyd etdiyimiz kimi, daxili auditoriyadır. Buna görə də 44 günlük Vətən müharibəsi dövründə informasiya cəmiyyətinin operativ şəkildə zəruri informasiya ilə təmin edilməsi və sosial mühitdə daha doğru xəbər lentinin olması, eyni zamanda, cəmiyyətdə informasiya fəzası yaratmamaq əsas məqsəd idi. Dövlət bu məqsədə nail olmaq üçün operativ və rəsmi məlumatları televiziya və sosial şəbəkələrdə paylaşaraq, bu platformalar vasitəsilə faktiki informasiya sistemi və etibarlı xəbər mühitini yaratmışdır. Nəticədə, yalan və əsassız informasiyanın yayılmasına yol verilmirdi, ictimaiyyət üçün isə dövlət başçısından daha dəqiq və doğru informasiya gözləmək daha məqbul sayılırdı [4, s. 216]. Nəhəng qlobal media məkanını okeanla müqayisə etsək, yalan informasiya bizim informasiya ekosistemimizi çirkləndirən, bir-biri ilə ünsiyyət imkanlarını, cəmiyyəti sabitliyi pozan və qütbləşdirən amildir. Peşəkar Jurnalistlər Birliyinin Etika Kodeksinə əsasən, jurnalistikanın əsas prinsiplərindən biri informasiyanın bir neçə mənbədən istifadə etməklə yoxlanılmasıdır. Lakin materialı tez dərc etmək ehtiyacı və təcrübənin olmaması səbəbindən müəlliflər hərtərəfli yoxlamaya lazımi diqqəti yetirmirlər. Bəzən qəsdən, bəzən də kifayət qədər peşəkar səriştəsizlik və ya Etik Kodeksin tələblərinə riayət etmədikləri üçün media nümayəndələri yanlış məlumatları dərc edirlər. Bəzən yanlış məzmunun yerləşdirilməsinin məqsədi vebsaytda trafiki artırmaq, müzakirəyə başlamaq və ya şərhlərdə münaqişə yaratmaqdır. Belə şərhlər sosial şəbəkələrdə ictimai rəyin formalaşdırılması, yəni insanların müəyyən hadisəyə, şəxsə və ya prosesə münasibətinin formalaşdırılması üçün istifadə olunur [7, s. 214].

Qlobal miqyasda media orqanlarının sayının artması, xüsusilə internet resurslarının, sosial platformaların ənənəvi media üzərində üstünlük təşkil etməsi fonunda yeni media auditoriyası uğrunda ciddi rəqabət yaranır. Belə bir mühitdə "ən dəqiq informasiya ən operativ məlumatdır" prinsipinə üstünlük verilir və alınan məlumatlar təhlil edilmir, dərhal ictimaiyyətə çatdırılır. Dezinformasiyanın növbəti səbəbi qeyri-peşəkarlıqdır. Müasir dövrdə informasiyanın geniş auditoriyaya ötürülməsinin forma və metodlarının zənginliyi(məsələn, telefonlarda kamera) hər kəsi asanlıqla media subyektinə çevrilməsinə səbəb ola bilər. Belə olan halda ani şöhrət, daha çox oxucu və tamaşaçı uğrunda mübarizədə yaranan qeyri-peşəkarlıq problemi meydana çıxır. Nəhayət, daha bir səbəb informasiya aclığı sindromudur. Təcrübə göstərir ki, cəmiyyətin aktual və narahatedici məlumatlara vaxtında çıxış imkanının məhdud olması, eləcə

də informasiya boşluqlarının yaranması xarici təsir qruplarının fəallaşmasına və bu boşluqlardan manipulyasiya məqsədilə istifadə etmələrinə əlverişli şərait yaradır [5, s. 215].

Beləliklə, informasiya cəmiyyətinin inkişafı demokratik təsisatların güclənməsinə gətirməklə bərabər, ictimai rəyi manipulyasiya etmək imkanlarını artırır. İnformasiya-psixoloji müharibə dövründə dezinformativ mətnlərinin oxucunun rəyinin qavranılmasına və formalaşmasına təsiri təhlükəsi mövcuddur. Müşahidələr göstərir ki, cəmiyyət vaxtında zəruri informasiya əldə etmədikdə yaranan informasiya vakuumu xarici qüvvələr tərəfindən sui-istifadə üçün əlverişli şəraitə çevrilir. Nəticədə cəmiyyət saxta məlumatların istehlakçısına çevrilir. Müasir şəraitdə dezinformasiyanı ayırd etməklə bərabər, ona qarşı fəal mübarizə aparmaq, etibarlı informasiyanı yaymaq və əhalinin media savadlılığının səviyyəsini artırmaq vacibdir. Onu da qeyd etmək lazımdır ki, dezinformasiya hər zaman səmərəli olmur, çünki informasiya təzyiqi dövründə insanlar problemə müxtəlif rakurslardan baxaraq, məlumatları tənqidi qiymətləndirə bilərlər.

Problemin aktuallığı. Müasir informasiya cəmiyyətində texnoloji inkişaf dezinformasiyanı ciddi sosial-psixoloji problemə çevirib. İnformasiyanın sürətli yayılması onun ictimai rəyə təsirini artırır və dezinformasiyanı siyasi, sosial, iqtisadi müdaxilə alətinə çevirir. Bu aktuallıq qlobal böhranlar, müharibələr və seçkilər zamanı daha da artır.

Problemin yeniliyi. Tədqiqat dezinformasiyanı klassik yalan məlumatdan əlavə, süni intellekt və alqoritmik manipulyasiyalarla həyata keçirilən "maşın təbliğatı" kontekstində təhlil edir. Məqalə bu fenomenin rəqəmsal kommunikasiyalara inteqrasiyasını və psixoloji təsirini araşdırır.

Problemin praktik əhəmiyyəti. Dezinformasiyanın qarşısının alınması informasiya təhlükəsizliyi üçün vacibdir. Məqalənin təhlilləri informasiya müharibəsi strategiyaları, media savadlılığı və ictimai rəyin manipulyasiyaya qarşı dayanıqlığını gücləndirmək baxımından faydalıdır. Tədqiqatın nəticələri həm elmi, həm də praktik əhəmiyyətə malikdir.

Ədəbiyyat:

1. EUvsDisinfo. (n.d.). Azərbaycanda dezinformasiya və informasiya manipulyasiyası. https://euvsdisinfo.eu/az/az%C9%99rbaycanda-dezinformasiya-v%C9%99-informasiya-manipulyasiyasi/
2. Grachev, G. V. (n.d.). Информационно-психологическая безопасность личности: состояние и возможности психологической защиты. http://licman.narod.ru/books/psychology/01/gratchov.htm
3. Tandoc, E. C., Lim, Z. W., & Ling, R. (2018). Defining “Fake News”. Digital Journalism, 6(2), 137–153. https://doi.org/10.1080/21670811.2017.1360143
4. Азертадж. (2022, mart 12). Дезинформация: метод продуманного общественного воздействия или просто непрофессионализм? https://azertag.az/ru/xeber/Dezinformaciya_metod_produmannogo_obshchestvennogo_vozdeistviya_ili_prosto_neprofessionalizm-2121347
5. Pennycook, G., & Rand, D. G. (2019). Fighting misinformation on social media using crowdsourced judgments of news source quality. Proceedings of the National Academy of Sciences, 116(7), 2521–2526. https://doi.org/10.1073/pnas.1806781116
6. Marwick, A., & Lewis, R. (2017). Media manipulation and disinformation online. Data & Society Research Institute. https://datasociety.net/library/media-manipulation-and-disinfo-online/
7. UNESCO. (2018). Journalism, 'Fake News' & Disinformation: Handbook for Journalism Education and Training. https://en.unesco.org/fightfakenews

Redaksiyaya daxil olub: 15.09.2025

UOT 159.9:37.015.3

Pərvin Zakir qızı Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,
fəlsəfə doktoru proqramı üzrə doktorant,

https://orcid.org/0000-0002-3196-9020
https://doi.org/10.69682/arti.2025.92(5).260-263

YENİYETMƏLƏRİN PSİXOLOJİ DİNAMİKASI KONTEKSTİNDƏ MİLLİ XARAKTER VƏ ASSOSİAL DAVRANIŞLARIN QARŞILIQLI TƏSİRİ

Parvin Zakir Alieva
lecturer at Azerbaijan State Pedaqogical University,
doctorial student in the program of doctor of philosophy

THE INTERRELATION BETWEEN NATIONAL CHARACTER AND ANTISOCIAL BEHAVIOR IN THE CONTEXT OF ADOLESCENTS' PSYCHOLOGICAL DYNAMICS

Парвин Закир гызы Алиева
преподаватель Азербайджанского Государственного Педагогического Университета,
докторант по программе доктора философии

ВЗАИМНОЕ ВЛИЯНИЕ НАЦИОНАЛЬНОГО ХАРАКТЕРА И АСОЦИАЛЬНОГО ПОВЕДЕНИЯ В КОНТЕКСТЕ ПСИХОЛОГИЧЕСКОЙ ДИНАМИКИ ПОДРОСТКОВ

Xülasə. Bu məqalədə yeniyetməlik dövrünün psixoloji dinamikası fonunda milli xarakterin formalaşması və assosial davranışların qarşılıqlı təsiri təhlil olunur. Tədqiqat göstərir ki, milli dəyərlərin mənimsənilməsi yeniyetmələrdə psixoloji stabilliyin qorunmasına, özünüidentifikasiya prosesinin möhkəmlənməsinə və sosial adaptasiyanın güclənməsinə şərait yaradır. Əksinə, milli kimlikdən uzaqlaşan yeniyetmələr sosial təcridə, emosional narahatlığa və assosial davranışlara daha çox meylli olurlar. Məqalədə təqdim olunan nəzəri çərçivə və elmi yanaşmalar, yeniyetmələrin milli kimliklərini gücləndirməyə yönəlmiş psixoloji və pedaqoji müdaxilələrin əhəmiyyətini vurğulayır. Araşdırma nəticələri müasir cəmiyyətdə yeniyetmələrin sosial inteqrasiyasının və sağlam psixososial inkişafının təmin olunmasında milli dəyərlərin əhəmiyyətini göstərir.
Açar sözlər: *yeniyetmələr, milli xarakter, milli kimlik, assosial davranış, psixoloji dinamika, sosial adaptasiya.*

Abstract. This article analyzes the mutual influence of the formation of national character and antisocial behavior in the context of adolescent psychological dynamics. The research findings reveal that the internalization of national values contributes to the preservation of psychological stability, the strengthening of self-identification processes, and improved social adaptation in adolescents. Conversely, adolescents who distance themselves from national identity are more prone to social isolation, emotional instability, and antisocial behaviors. The theoretical perspectives presented emphasize the importance of psychological and pedagogical interventions aimed at reinforcing adolescents' sense of national identity. The study highlights the significance of national values in fostering adolescents' social integration and healthy psychosocial development in modern society.
Keywords: *adolescents, national character, national identity, antisocial behavior, psychological dynamics, social adaptation.*

